

YALÇIN NƏBİYEV

# BİR ZAMANLAR DTK

BİR ZAMANLAR DTK
YALÇIN NƏBİYEV

**Yalçın Nəbiyev**

# BİR ZAMANLAR DTK

**"Elm və təhsil"**
**Bakı- 2025**

**Yalçın Nəbiyev. Bir zamanlar  DTK.**
**Bakı, "Elm və təhsil", 2025, 548 səh.**

**İSBN 978-9952-587-43-2**

**© "Elm və təhsil", 2025**

# MÜƏLLİFDƏN

Əziz oxucu,

Əvvəlcə onu bilməlisən ki, oxuyacağın bu kitab bir müəllifin bədii təxəyyülünün məhsulu deyil. Burada lirik ricətlər, romantik macəralar, mübaliğəli ifadələr axtarmaq məsləhət görülmür.

Adından da göründüyü kimi, "Bir zamanlar DTK" əsərində sən tarixin qaranlıq səhifələrində gizlənmiş bir sıra həqiqətləri öyrənəcəksən. Keçən əsrin sonlarına doğru SSRİ-nin içində olduğu durum, ard-arda baş verən gözlənilməz hadisələr bu kitabın əsas mövzusudur. Müəllifin də şahidi olduğu bu hadisələr sənə, yuxarıda qeyd etdiyim kimi, heç bir təhrifə yol verilmədən, olduğu kimi təqdim olunur.

"Bir zamanlar" deyə bəhs etdiyimiz o dövr elə bir zaman idi ki, hələ SSRİ deyilən bir məkan biz azərbaycanlıların da vətəni sayılırdı. Və biz bu imperiyaya xidmət etməklə öz vətənimizi qoruduğumuza ürəkdən inanırdıq. Bu, o zamanlar idi ki, hələ 20 Yanvar faciəsi bizi böyük heyrət və xəyal qırıqlığına uğratmamışdı. Hələ Qarabağ savaşından əsər-əlamət yox idi. Hələ müstəqilliyi dadmamış, vətənimizin sərhədlərini dəqiqləşdirməmişdik.

İndi – bütün olanlardan sonra – o dövrə qayıtmaq, hətta mənim üçün belə, köhnə bir fotoşəkilə baxmaq kimi mənasız göründüyündən, sənin də hansı hisslər keçirəcə-

yini az-çox təsəvvür edə bilirəm. Amma nəzərə alaq ki, o zaman içində olduğumuz hadisələrin bizi hansı səmtə aparacağından heç cür xəbərdar ola bilməzdik.

"Bir zamanlar DTK" əsəri keçən əsrin sonlarına doğru, Moskva şəhərində yerləşən SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin F.E.Dzerjinski adına Ali Məktəbində müəlliflə birgə təhsil alan bir qrup azərbaycanlının yaşantısının təsviri ilə başlayır. Tutqun və günəşsiz Moskva səması, havadan daha soyuq sərt hərbi qaydalar, günəşli bir ölkənin istiqanlı vətəndaşlarının qürbət sıxıntıları və bunlara rəğmən, ürəyi vətən eşqi ilə döyünən o gənclərin mücadiləsi... Hadisələr bununla başlayıb bir-birinə düyünlənərək daha böyük, taleyüklü məsələlərə qədər gedib çıxır.

Bir müəllif, həm də bir obraz olaraq, yaddaşıma güvənərək o qaranlıq dövrə bir az işıq sala bildiyimə inanıram.

# I FƏSİL

## MOSKVA – sentyabr, 1987-ci İL

“Смирр-но! Рав-нение на-право!

Товарищ полковник, за время моего дежурства, на факультете никаких происшествий не случилось! Докладывает дежурный по факультету – сержант Эльчин Караханов”.

Moskva şəhərində yerləşən SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin F.E.Dzerjinski adına Ali Məktəbində yeni dərs ili bu sözlərlə başladı. O zamanlar Akademiya tipli bu məktəb ökənin ən nüfuzlu ali təhsil ocaqlarından sayılırdı. Buraya Sovet İttifaqının bütün respublikalarından yüksək intellektə, geniş dünyagörüşünə malik, fiziki cəhətdən sağlam, bədən və üz quruluşuna görə tələb olunan parametrlərə cavab verən, ən əsası isə, rus dilini mükəmməl bilən gənclər seçilirdi. Bu qədər cidiyyətlə seçiməsinə baxmayaraq, ancaq axırıncı - beşinci kursda müəyyən olunurdu ki, sadalanan müsbət keyfiyyətlərə təxminən yetmiş faiz dinləyici (tələbə-müdavimlər bu cür adlanırdı) malikdir.

Onlardan biri də Elçin Qaraxanov idi. Ortaboylu, qartal baxışlı, qaraşın, üzündən qətiyyət və cəsarət yağan bu gənc elə bil məhz bu məktəbin tələbəsi olmaq üçün yaranmışdı. Burda “qartal baxışlı” sizə şairanə gəlməsin, onun gerçəkdən sanki insanın içinə işləyən, fikirlərini oxuyan,

hədəfinə doğru qətiyyətlə irəliləyəcəyinə inandıran özünəməxsus baxışları vardı. Bir sözlə, bu oğlanda qarşısındakını özünə tabe etdirən bir görünüş vardı.

Elçin Moskvaya, bu məktəbə təsadüfən gəlməmişdi. Bunun üçün o, Bakı Dövlət Universitetində təhsil aldığı hüquq fakültəsinin qiyabi şöbəsini belə tərk etmişdi. Bakıda onu itirmək istəməyən, gələcəyini parlaq görən insanlar az deyildi. Hətta universitetin rektoru Qaraxanovu öz kabinetinə dəvət edərək necə deyərlər, tərbiyəvi söhbət də aparmışdı:

- Oğlum, dekanın mənə bildirdi ki, təhsilini Moskvada davam etdirmək qərarındasan.

- Bəli, Faiq müəllim. Belə bir fikir məndə çoxdan yaranıb, hələ orta məktəbdə oxuyarkən. Çekist olmaq istəyirəm.

- Hə... Bunu başa düşdüm, oğlum. Yəqin onu da bilirsən ki, bizim universitetə, xüsusən də hüquq fakültəsinə qəbul olunmaq Sirat körpüsündən keçmək kimi ağır bir işdir. Sənsə asanlıqla buradakı nümunəvi təhsilini buraxıb Moskvaya gedirsən.

Elçin tövrünü pozmadan cavab vermişdi:

- Faiq müəllim, mən Moskvaya gəzməyə getmirəm ki. Orada təhsil almağım buradakından da çətin olacaq.

- Ay bala, olmaz ki, burada təhsilini başa vurub sonra Moskvaya gedəsən? Bir tərəfdən hüquq fakültəsindən imtina edirsən, o tərəfdən də dediyin məktəbə hələ qəbul edilməmisən. Mən sənə deyirəm ha qalacaqsan küçələrdə!

- Yox e, Faiq müəllim! Sonra yaşıma görə problemlər yaranacaq. Əli aşından da olaram, Vəli aşından da...

Rektor adətincə əllərini arxada birəşdirib qaşlarını yuxarı qaldırmışdı.

- Malades, vallah, hələ heç bir tələbə mənimlə bu qədər sərbəst danışmayıb. Amma bax ha mən səni tələbələr sırasından tam şəkildə xaric etmirəm. Sadəcə birillik akademik məzuniyyət verirəm ki, istədiyin o məktəbə qəbul olunmasan, bizim universitetdə təhsilini davam edə biləsən.

- Təşəkkür edirəm, Faiq müəllim. Bu mənim üçün çox böyük bir hədiyyə oldu. Heç vaxt yaxşılığınızı unutmaram.

Lakin hər şey Elçin istədiyi kimi olmuşdu və budur, artıq o neçə il idi ki, xəyallarında yaşatdığı məktəbdə oxuyur və bütün çətiniklərə baxmayaraq, özünü suda balıq kimi hiss edirdi.

Elçin Məktəbin doqquzuncu fakültəsindəki vəziyyəti rəisinə məruzə etdikdən sonra öz postuna qayıtdı və onunla növbə çəkən digər müdavimi təlimatlandırıb vəzifə başına göndərdi. Elə bu məqamda Elçinin yanına həmyerlisi - ikinci kurs dinləyicisi Hüseyn Nizamov yaxınlaşdı. Əslən Sumqayıtdan olan Hüseyn ümumiyyətlə, pis oxumurdu. Lakin onun fars dili müəlliməsi Qalina Viktorovna ilə kəllə-kəlləyə gəlməsi bütün işlərini və planlarını korlayırdı.

Qəriblikdə olanlar yaxşı bilir, qürbətdə, üstəlik də tələbəlikdə yerlilərin bir-biri ilə mehribanlığı, bir-birinin təəs-

sübünü çəkməsi qaçılmazdır. Vətəndən iki min kilometr uzaqlıqda yerləşən Moskva şəhərində həmin fakültədə on beş-iyirmi nəfər azərbaycanlı təhsil alırdı. Onlar bir-birindən çox möhkəm yapışmışdı, aralarından su da keçmirdi. Çətinliyə düşəndə isə əksəriyyəti ağsaqqal saydıqları Elçinin üstünə qaçırdılar. Birincisi, o, sonuncu, yəni beşinci kursda təhsil alırdı. İkincisi də ki, qızıl medala namizəd olduğuna görə məktəbin rəhbərliyi və müəllimləri arasında böyük hörmətə sahib idi. Və nəhayət, qrup partiya təşkilatının katibi olduğundan yuxarılarda Qaraxanovun sözü keçirdi.

İndi də Elçinə yaxınlaşan Hüseynin vəziyyətinin yaxşı olmadığı o saat hiss ounurdu, onun rəngi qaralmış və əsəbdən üzü səyriyirdi. Masanın üstündəki qrafindən suyu başına çəkdikdən sonra Nizamov aşıq kimi yanıqlı bir dillə dərdini söyləməyə başladı. Hüseyn ilanı yuvasından çıxarmağı bacaran adam idi. Yataqxanada azərbaycanlı müdaviminin ad günündə, milli bayramların qeyd edilməsində ümumiyyətlə, xoş günlərə həsr edilmiş toplantılarda tamadalığı o, yaxud dördüncü kurs tələbəsi Məhərrəm Buğdəliyev edərdi. Beş ay bundan əvvəl doqquzuncu fakültənin təhsil korpusunda Azərbaycan SSR-nin yaranmasının ildönümünə dair belə tədbirlərdən biri təşkil edilmişdi. Elçin kurs yoldaşı Sahil Şükürovla birgə zabit və müəllimlərə milli libas geyindirib təmtəraqlı şənlik keçirmişdi. Hətta onlar Azərbaycanın müxtəlif rayonundan şəkərbura, paxlava, şirniyyat və Respublikanın Moskvadakı Daimi Nümayəndəliyindən samovar, xalçalar, rəsm əsər-

ləri gətizdirərək Vətənin ab-havasını yaratmışdılar. Həmin ərəfədə Hüseynlə Məhərrəm də tədbirin təşkilinə əmək sərf etmişdilər.

Bu gün isə Hüseynin rəngi kimi qanı da qara idi. O, söhbətə əsəbi halda başladı:

- Görürsən də, Elçin, bu Qalina məni lap boğaza yığıb! Zəli kimi damarımdan yapışıb qopmaq bilmir. Axırda ona dişimin dibindən çıxanı deyəcəyəm.

- Ə, bir dayan görək axı, ay Hüseyn. Nə bülbül kimi ötürsən?

Hüseyn həmişə əsəbiləşəndə olduğu kimi dəhlizdə hirslə dövrə vurmağa başladı:

- Sən də, Elçin? Əsəbimdən bilmirəm neyliyim, sənsə zarafata keçirsən...

Elçin gülməyini güclə saxlasa da, tövrünü pozmadı:

- Yumurtası tərs gəlmiş toyuq kimi fırlanma, de görüm, nə baş verib.

- Noolacaq?! Qalina yenə də ilişib ki, məndə fars dili getmir. İmtahandan kəsəcəyinə söz verdi. Kəsilsəm, bilirsən də, Elçin, atacaqlar bayıra.

Bir anda Elçin də əsəbi tövr aldı:

- Qələt edəcəklər. Konkret olaraq, Viktorovna sənə nəyi irad tutur?

- Heç nə! Deyir ki, "ə" hərfini tələffüz edə bilmirəm.

- Sən ha! Azərbaycanlı ola-ola "ə" hərfini tələffüz edə bilmirsən?!

- Elə məni də yandıran budur!

- Əsəbiləşmə, özüvü ələ al, Nizamov. Mən Qalina ilə danışıb problemi həll edərəm. Sənsə başqa şeyə hazırlaş.

Axşam evimdə Zeynalın ad gününü qeyd edəcəyik. Kefivi pozma ki, yaxşı tostlar deyə biləsən.

Hüseyn dirçəldi:

- Yaxşı, Elçin, gələcəyəm. Amma qadan alım, bu Qalinayla məsələmizi həll et ki, kefim kök olsun.

- Nə məsələ? Evlənirsən ki, onunla?

- Yenə başladın, Elçin? Heç hənanın yeridi?

Qaraxanov uğunub getdi:

- Yaxşı, yaxşı, get dərsə. Xoruzlanma! Dedim həll edəcəyəm, значит, həll edəcəyəm.

Hüseyn gedər-getməz Elçin bir müddət gözünü liftə zilləyib xəyala daldı.

***

Hər səhər olduğu kimi ertəsi gün Elçin digər kurs yoldaşı Əhməd Əsədovla birgə metro ilə  məktəbə yola düşdü. Dünənki ad günündə yeyib-içməkdən sonra kefləri demək olar ki, yüz biri vururdu. Onlar ən azı, Moskvanın sayılıb-seçilən rayonlarının birində, yəni Kaşirski prospektində kirayə götürdükləri evin pulunu ödəmişdilər. Dərsə çox ehtiyatla gedirdilər. Əgər kurs rəisi təsadüfən dostları yolda tutsaydı, başları möhkəm ağrıyacaqdı. Oxuduqları Məktəbin nizamnaməsi müdavimin yataqxanada deyil, mənzildə yaşamasına icazə vermirdi. Kirayə götürülmüş evlərdə qalmaq hüququ yalnız evlilərə və əlaçılara aid idi. Qaraxanov  birinci kursdan bəri həmin hüquqa malik idi. Amma Əhməd Elçinə qoşularaq şəhərdəki mənzildə icazəsiz yaşayırdı. Əgər səhər-səhər rəhbərlik metroda onlarla rastlaşsa idi, məktəbdən qovulmaq təhlükəsi yaranacaqdı.

Fakültənin rəisi polkovnik Boris Yevgenyeviç Ledomski demək olar ki, məktəbdəki ən qəddar zabitlərdən biriydi. Boris adı gələndə nəinki doqquzuncu, hətta bütün fakültələrin müdavimləri sanki onu qarşılarında görürmüş kimi həyəcanlanırdılar. Allah göstərməmiş, kiminsə hərbi mundirinin yaxası açıq olardı. Həmən töhmətə məruz qalacaqdı: Ledomski dinləyicinin adını və familiyasını qeyd edib tədbir görülməsi üçün digər fakültənin rəhbərliyinə göndərirdi, yəni onu satırdı.

Ədalət naminə onu da söyləmək lazımdır ki, Ledomski azərbaycanlılarla isti münasibət saxlayırdı. Çünki cavan vaxtlarında o, sərhəd zabiti qismində Azərbaycanın bir neçə bölgəsində xidmət etmişdi. Görünür, Borisə böyük qonaqpərvərlik nümayiş etdirilmişdi ki, belə bir qəddar insanın azərbaycanlılarla işi olmazdı.

Əslində, vaxtılə şəhərdə kirayə qalmağa dördüncü və beşinci kurs tələbələrinə də icazə verilirdi. Lakin 1985-ci ildə erməni Stepanyan başda olmaqla azərbaycanlı Rəsul Adilovun və iki gürcünün nizam-intizamı kobud sürətdə pozduqlarına görə hamını mənzillərdən geriyə, yəni yataqxanaya qaytarmışdılar. Stepanyanı məktəbdən qovmuşdular. Rəsul isə birtəhər ki, diplom alaraq paqonsuz Bakıya yola salınmışdı. Bu, ən ağır cəzalardan biri idi. Rəsul gizir qismində Bakıda tikilməkdə olan DTK-nın yeni binasının komendant köməkçisi vəzifəsinə təyin edilmişdi. Bu hadisə xüsusi xidmət orqanlarının əməkdaşları arasında böyük biabırçılıq sayılırdı.

Bir sözlə, Elçin ilə Əhməd metrodan deyə-gülə çıxırdılar ki, kursun rəisi Seleznyovun girinə keçdilər. Rəisin suallarına yetərincə cavab vermək üçün Allahtərəfi, onlara cəmi bir dəqiqə ayrılmışdı. Seleznyova yaxınlaşdıqca Qaraxanov məzlum müdavim hiyləsi qurmağa başladı. O, dodaq altından Əhmədə fikirlərini çatdırırdı:

- Qardaş, deyərsən Elçinlə sözləşmişdik ki, dərsə getməzdən əvvəl metro stansiyasının yaxınlığındakı "Praqa" univermağından kostyum götürməliyik.

- Mümkün deyil, Elçin.

- Niyə?

- Çünki srağagün yeni aldığım kostyumu Seleznyovun arvadı, yəni ərəb dili müəlliməmiz artıq əynimdə görüb. Təbii ki, ərinə də xəbər verib.

- Onda, Əhməd, mənim də bu gecə yataqxanada qaldığımı söyləyərik. Guya ümumi dəftər, qələm, flomaster almaq üçün səhər tezdən buraya gəlmişik. Seleznyov yaxşı bilir ki, məktəbimizin yanında bir dənə də olsun kargüzarlığa aid dükan yoxdur.

- Bu bəhanəmiz də işə yaramayacaq, Elçin. Kurs rəisimiz mütləq növbətçidən yataqxanada gecələmədiyimizi öyrənəcək.

Dostlar qurtulmaları üçün planlar cızırdılar ki, Seleznyov Elçinin qoluna girib məzəli şəkildə ilk sualını izhar etdi:

-Ну что, беглецы, попались?

Düşünüb tutarlı cavabı vermək üçün Elçinin ehtiyatında cəmi iki saniyə vaxt və xoşbəxtlikdən çox sürətli düşünən beyni var idi. O, şəstlə rəisinin üzünə baxaraq cavab verdi:

- Виталий Сергеевич, у вас есть мама?

- Что за глупый вопрос? Есть, конечно. Еще какая мама!

- Ну, вот. У меня она тоже есть. И, к великому моему счастью, вчера последним рейсом из Баку она прилетела ко мне в Москву.

- Очень приятно. Естественно, ты встретил ее вместе с Ахмедом и проводил к себе в квартиру?

- Так точно!

- А почему об этом мне не доложил? Ведь, Ахмеду запрещено ночевать в городе.

- Во-первых, товарищ полковник, было слишком поздно, не хотели вас беспокоить. Во-вторых, моя мать для Ахмеда тоже как родная. Мы с ним росли, почти, в одном и том же городе, часто вместе ели, пили, ночевали друг у друга. Поэтому мама захотела, чтобы Ахмед тоже был в аэропорту. Она же не в курсе о нашем военном режиме. Не захотели ее обидеть.

- Мать – это святое, Караханов. Поэтому на первый раз прощаю вас. Чтобы такое больше не повторялось. Учти, тебя ждет золотая медаль. Можешь и не получить ее с таким залетом. Я сегодня решу вопрос о твоем возвращении в общежитие, а Асадова с таким проколом, вообще, можем отчислить из числа слушателей!

- Все ясно, Виталий Сергеевич. Разрешите идти на занятия?

- Разрешаю.

Bu “faciəvi” və taleyüklü söhbətdən sonra Elçinlə Əhməd trolleybusa minərək məktəbə üz tutdular. Qaraxanovun beynini yalnız bir fikir dəlib-deşirdi: “Əgər Seleznyov sabah ya birisigün anamla görüşmək istəsə, deməli, Akademiyadan qovuldum”.

Belə həyəcanlı düşüncələrlə Elçin birinci mühazirəyə girdi. Əsədov da onunla eyni fikirdə idi. O da yaranmış vəziyyətdən çıxış yolu axtarırdı. Lakin ağlından tutarlı fikirlər keçmirdi. Əhməd yalnız bir şeyi əla bacarırdı: auditoriyada və ya yataqxanada kitabları qarşısına qoyub orada yazılanları əzbərləmək. Hətta bir dəfə imtahan ərəfəsində Elçin ilə Zeynal Həşimov onu lağa qoyaraq bu adətkərdəlikdən yayındırmağa çalışmışdılar. Amma daş düşəydi o günə! Əhməd az qala imtahandan kəsiləcəkdi. Birtəhər, bəzi müəllimlər demiş,”tramvay altında qalan bir üç” yazdılar. Bundan sonra Əhməd iki ay dostları ilə küsülü qaldı.

Nahar zamanı Elçini rahat buraxmayan dərin düşüncələr onu məktəbin qarşısında yerləşən “Olimpiya kompleksinə” gətirib çıxardı. Orada danışıq məntəqəsi yerləşirdi. Qaraxanov ilk növbədə Naxçıvanla əlaqə saxlamalı və anası Naibə xanımı təcili Moskva şəhərinə dəvət etməli idi. Çünki gözəl bilirdi ki, Seleznyov artıq hadisə barədə fakültənin rəisi Ledomskini xəbərdar edib. Elçinlə Əhmədi “dar ağacından” yalnız Naibə xala qurtara bilərdi. Uzun növbədən sonra Qaraxanov ailəsi ilə telefon əlaqəsi yarada bildi və anasına Moskvaya gəlməsinin zərurətini anlatdı. Anaya da balasının yanına gəlməyə bəhanə olsun.

Necə deyərlər, "kor nə istər, iki göz, biri əyri, biri düz". Elçin vəziyyəti başa sala bilməsəydi də, Naibə xala bir işarə ilə oğlunun yanına uçaraq gələcəkdi.

Dərsdən sonra Qaraxanov bir daha Naxçıvanla əlaqə saxladı. Məlum oldu ki, ertəsi günün axşamı anası mütləq Moskvada olacaq. Problem bir qədər öz həllini tapdı. Geriyə bircə bədbin ehtimal qalırdı, təyyarə biletinin tarixini yoxlaya bilərdilər. Bu, o qədər də real ehtimal deyildi, lakin Elçinin hər şeyi nəzarətdə saxlamağa alışmış beyni bunu hesablamaya bilməzdi. Qaraxanov müsbət fikirlərə köklənmək üçün bu qara fikri dərhal unutmaq üçün alternativ düşüncələrə sığındı: rəhbərliyin ağlına gəlməzdi onun valideynin təyyarə biletinin tarixini yoxlasın.

***

Növbəti gün Moskvada hava son dərəcə pisləşdi. İlin çox hissəsini onsuz da tutqun olan Moskva səması bir az da tündləşdi. İstiqanlı cənub insanlarının ürəyini qübar edən, Günəşə həsrət qoyan Moskva havası sanki bozarmışdı. Bu yağışlı, soyuq payız günündə dünənki hadisə dərs olmamış kimi, Elçin yenə Əhmədlə birgə öz mənzilindən çıxıb dərsə gedirdi. Əgər onlar bu dəfə də Seleznyova tuş gəlsəydilər, heç bir güzəşt olmayacaqdı. Tərslikdən də bir həftə əvvəl Seleznyov maşınını həyətindəki dirəyə vurmuşdu. Ona görə də məktəbə gəlmək üçün metrodan istifadə edirdi. Kurs rəisinin "Jiquli"sinin təmiri ilə Bakı ermənisi Alik Sarumyan məşğul idi, daha doğrusu, onun Moskvada yaşayan dostu Qarnik. Sarumyan Bakıda doğulub boya-başa çatmışdı. Nadir ermənilərdən idi ki,

yediyi Azərbaycan çörəyinin qədrini bilirdi. Məhz buna görə Alik onunla eyni kursda təhsil alan Elcan Aslanovun hörmətini qazanmışdı. Hazırda isə Sarumyan Azərbaycan DTK-sının kəşfiyyat, Elcan da əks-kəşfiyyat şöbəsində xidmət edirdi.

Dünəndən bəri fəaliyyətdə olan Əhməd Əsədov hər ehtimala qarşı Seleznyov tərəfindən yaxalandığını telefonda Elcana danışdı. Elcan da öz növbəsində Alikə məsələni çatdırdı. Ona görə də Əhməd əmin idi ki, bəd ayaqda Sarumyan Moskvada KQB-də çalışan polkovnik dayısının köməyi ilə dostları Seleznyovun əlindən ala biləcək. Lakin buna ehtiyac qalmadı. Dinləyicilər heç bir təhlükəli vəziyyətə düşmədən məktəbə daxil oldular.

Elçin Hüseynin problemlərini həll etmək üçün birbaşa fars dili müəlliməsi Qalina Viktorovnanın otağına qalxdı. Qalinanın kefi kök idi. Çünki Elçinlə bir qrupda oxuyan Saşa Yefimenko ilə barışmışdı. Aralarında məhəbbət macərası yaşanırdı. Akademiyada belə hadisələr tez-tez baş verirdi. Xarici dil müəllimələrinin əksəriyyətinin həyat yoldaşı məktəbin məzunları idi. Belə vəziyyət hər iki tərəf üçün ideal variant idi. Adətən qadın müəllimələrin valideynləri SSRİ DTK-sının hörmətli, yüksək rütbəli zabitləri idi. Ona görə də qohumluq əlaqələri məktəbin tələbələrinə yaxşı vəzifə, xoşbəxt həyat tərzi vəd edirdi. Onlardan biri də Qalina idi. Onun atası DTK-nın generalı, gələcək əri Saşa isə beşinci kurs dinləyicisi idi. Bundan bir gün öncə Elçin qrupun partiya təşkilatının katibi kimi Yefimenko ilə Hüseyn barədə söhbət etmişdi. Kifayət qədər şovinist

olmağına baxmayaraq Saşa Elçindən çəkinirdi. Qaraxanov da söz vermişdi ki, gələcək həyat yoldaşı ilə əlaqənin sabitləşməsi üçün ona köməyini əsirgəməyəcək.

Beləcə Qalina ilə dəhlizdə rastlaşan Elçin fars dili müəllimənsiylə Hüseyn barədə müzakirələrə başladı:

- Галина Викторовна, у меня очень мало времени – спешу на занятия. Но, буквально, в течение пяти минут, хочу внести ясность в проблему между вами и Гусейном по поводу персидского языка.

- Эльчин, а причем тут вы? Я, вроде бы, вчера объяснила свою позицию Гусейну. У него язык не идет. И я вынуждена доложить эту проблему руководству своей кафедры.

- Вот-вот. Именно по этой причине я завтра созываю партийное собрание. Будем обсуждать успеваемость азербайджанцев и грузин, особенно, по отношению к персидскому языку.

- Не поняла! А к чему партийное собрание. Ты же прекрасно владеешь этим языком. Сколько раз в целях практики, мы с тобой ходили на иранские выставки, кино…

- Ну, и я об этом. На партийном собрании я подниму вопрос о том, почему азербайджанец Низамов Гусейн не может выговаривать букву "ə"?

- Эльчин, вы что, с ума сошли? Что за вопрос в повестке партийного собрания? Это же ерунда!

- И я знаю, что это - ерунда. Но почему-то из-за этой ерунды страдает мой земляк Гусейн. Учтите, на собрание я приглашу и полковника Ледомского.

- Эльчин! Зачем так глобализировать эту тему? Возьми Гусейна на поруки и… проблема решена.

- Да?

-Конечно. Ты же знаешь, как я и другие "персиянки" тебя уважаем. Тем более, ты решил и мою проблему с Сашкой Ефименко. Я постараюсь дополнительно заниматься с Низамовым. Думаю, с нашей помощью он преодолеет все трудности.

- Отлично. Ну и договорились. Я начинаю с ним заниматься по поводу произношения буквы "ә"!

- Вот и правильно…

Elçin də, Qalina da bilirdi ki, bu sözlərin hamısı boş cəfəngiyyatdır. Lakin Viktorovna ondan da əmin idi ki, Azərbaycanda xidmət edən Ledomski "ə" hərfinin nə olduğunu gözəl bilir. Eləcə də Elçinin rəhbərlik qarşısında nüfuzunun, qızıl medala namizədliyinin, partiya təşkilat katibliyinin nə olduğunu da bilirdi. Problemin bu cür həlli Qalinaya heç bir xeyir vəd etmirdi.

Həmin gün Sahil Şükürovun da kefinə soğan doğramışdılar. Onun da kafedra müdiri professor Tretyakov ilə sözü çəp gəlmişdi. Şükürov rus dilini zəif bildiyindən bəzi fənləri mənimsəməkdə çətinlik çəkirdi. Lakin o, böyük səbrə malik idi. Saatlarla məktəbin auditoriyalarında, kitabxanasında oturub hər hansı bir mövzunu dərk etmək üçün səy göstərirdi. Əksər hallarda onun əziyyəti bəhrəsini verirdi. Amma elə imtahanlar da var idi ki, Sahil onları müvəffəqiyyətlə vermək üçün məcbur idi ki, auditoriyaya mütləq Elçin və Zeynal Həşimovla bərabər daxil olsun.

Onların gizli yardımı olmadan Sahil uğursuzluğa düçar ola bilərdi. Əslinə qalsa, Akademiyanın dilçi qadın müəllimləri istisna olmaq şərtilə, digərlərini aldatmaq mümkünsüz idi. Buna baxmayaraq, azərbaycanlı tələbələr öz yerlisini çətin vəziyyətdə buraxmırdılar. Yardım göstərmək üçün hər vasitədən istifadə edirdilər. Təbii ki, əksər hallarda ustad müəllimlərin hiylədən xəbəri olurdu. Amma məktəbin rəhbərliyi müdavimlərin "oyun" qurmağına göz yumurdu. Onlar bilirdi ki, gələcək DTK işçisi nə qədər tədbirli olsa, o qədər də dövlət xeyir qazanacaq. Elə də olurdu ki, imtahanlardan sonra bəzi professorlar ifşa edilmiş "kələkləri" müdavimlə birgə təhlil edirdi.

Polkovnik Tretyakova kələk gəlmək mümkünsüz idi. Vaxtilə Cənubi Amerika ölkələrinin birində kəşfiyyatla məşğul olan polkovnikin görmədiyi qurğular, həll etmədiyi problem yox idi. Sahilin belə bir insanın girinə keçməsi, özü də sonuncu kursda ona heç bir yaxşı vəziyyət vəd etmirdi. Tretyakov da, "başkəsən" deyildi. Bir müddət əzab-əziyyət verdikdən sonra tələbələri "sağ-salamat" işlərinin dalınca yönəldirdi. Bütün bunları nəzərə alaraq, Elçinin Sahilə yalnız ürək-dirək verməsi və onunla birlikdə polkovnikin fənnindən dövlət imtahanına hazırlaşdırması qalmışdı.

Şükürovla söhbət edib bu məsələyə də aydınlıq gətirdikdən sonra Qaraxanov təhsil korpusundan çıxıb təcili aeroporta istiqamət götürmək istədi. Lakin liftin qarşısında Seleznyov və Ledomski ilə üzləşdi. Günorta vaxtı təhsil korpusunu yalnız kitabxanaya baş çəkmək üçün tərk et-

mək mümkün idi. SSRİ-nin hər yerində olduğu kimi hərbi təhsil ocaqlarında qanunlar çox sərt idi. Dinləyicilər dərsdən sonra axşam saat səkkizədək "əlavə hazırlıq" qrafiki üzrə çalışmalı idilər. Həmin vaxt kəsiyində onların lift vasitəsilə aşağı və yuxarı mərtəbələrə hərəkət etmələri qadağan idi. Birinci problem Elçinə aid deyildi. Çünki o, əlaçı idi və saat üçdən sonra məktəbin binasını tərk etmək hüququnu qazanmışdı. Amma liftin qarşısında Ledomski ilə üzləşmək Elçinin planlarına qəti uyğun gəlmirdi. Anasını qarşılamaq üçün aeroporta getməyə və yenidən Moskva şəhərinin əks tərəfində yerləşən təhsil korpusuna qayıtmağa Elçinin çox az vaxtı qalmışdı. Ledomskinin "xeyir ola, Qaraxanov, deyəsən liftdən istifadə etmək fikrinə düşmüsən?" sualı Elçinin aeroporta getmək planını məhv edə bilərdi. Lakin o, özünü itirmədən "nə danışırsınız, yoldaş polkovnik, liftin həndəvərində kurs rəisimi gözləyirdim, onunla partiya toplantısına dair müzakirələr aparmaq istəyirəm" – deyə cavab verdi.

Ledomski cavabdan razı qalaraq kabinetinə üz tutsa da Seleznyov Elçinin qoluna girib otağına tərəf yönəldi. "Mənə bu lazım idi?" sualını dəfələrlə təkrarlayaraq Qaraxanov başını aşağı salıb itaətkarcasına kurs rəisi ilə birgə kabinetə daxil oldu. Elçin çıxış yolunu artıq beynində hesablamışdı. Seleznyovun otağına daxil olduqda o, söhbətə başladı:

- Товарищ полковник, меня беспокоит дальнейшая судьба комсомольца Сергея Студенкова. Он уже на пятом курсе, скоро ему стукнет 26 лет, а мы его до сих

пор в партию не приняли. Его же отчислят из числа слушателей!

- Понимаю тебя, Эльчин. А что можно сделать? После последнего нарушения Сергеем военной дисциплины, объявления ему строгого выговора даже год не прошел. Придется его отчислить. Ты же знаешь, у нас в Школе непартийных выпускников не бывает.

- Но, ведь, выход есть, товарищ Селезнев. Со дня объявления Студенкову дисциплинарного взыскания прошло уже десять месяцев. Поэтому вы, с разрешения руководства факультета, имеете полное право сегодня же снять с него взыскание, а я завтра на партийном собрании приму его кандидатом в члены КПСС. Как никак, он хорошо учится, снискал уважение как сокурсников, так и преподавателей.

- Согласен, Караханов. Сегодня после занятий, я сниму с него строгий выговор. Только смотри, всё под твою ответственность. Если он совершит очередное ЧП, отвечать будешь и ты.

- Понял, товарищ полковник. Разрешите идти и подготовиться к партийному собранию.

- Подожди немного. Еще один вопрос нужно решить с тобой.

- Слушаю вас, Виталий Сергеевич!

- Так вот, ты у нас отличник учебы, да?

- Так точно!

- Почти что, золотист?

- Почти что.

- Ну тогда слушай меня. Поскольку твоя мама находится в Москве, и я об этом доложил руководству факультета, то неплохо было бы сорганизовать встречу между Ледомским и ею. Прямо, завтра. Руководство хочет выразить ей благодарность за воспитание такого сына, как ты. Я уже разговаривал на этот счет с начальником факультета и секретарем парткома Мишиным. Завтра в 15:00 мы будем ждать ее в кабинете Ледомского.

- Ясно, товарищ полковник. Завтра в три часа я вместе с мамой буду перед его кабинетом.

- А теперь можешь идти и заняться своими делами. И не надо строить из себя слишком умного. Только я могу хвалить тебя, Эльчин. Надеюсь, ты понял меня.

- Так точно.

Seleznyovun kabinetini tərk edən Elçin məktəbin binasından güllə kimi çıxdı. O, taksi tutub Moskvanın "Domodedovo" aeroportuna yola düşdü. "Yox, e, hər ekstremal vəziyyətdən çıxmaq üçün kifayət qədər ağlım var! Beynim hər şeyi dərk etməyə qadirdir! Barı hava aydın olardı ki, anam vaxtında özünü Moskvaya çatdıra bilsin. Dünənki qabaqlayıcı tədbirlərim məni uçurumdan qurtardı! Bilirdim, belə olacaq, məni yoxlayacaqlar. Ay, siz öləsiz ki, məni anama tərifləmək istəyirsiniz! Yeganə fikriniz anamın həqiqətən Moskvada olub-olmamasını öyrənməkdir!" Bu düşüncələrlə Elçin bir göz qırpımında aeroporta çatdı, hava limanının binasını gördükdə təəccüblə taksi sürücüsünə sual verdi:

- Мы что, уже в аэропорту?

- Ну да, а где же еще?

- Так быстро?

- Почему же быстро? Вовремя…

- Сколько с меня?

- 10 рублей!

- Вот тебе 11 рублей и спасибо большое. До свидания.

- И тебе спасибо.

Qaraxanov Aeroportun gözləmə zalına daxil olduqda radioda səslənən elandan anladı ki, Bakı-Moskva reysi artıq "Domodedovo" aeroportuna qəbul edilib. Təxminən yarım saatdan sonra Elçin növbəti taksidə anası ilə birgə "Kaşirka"dakı evinə gedirdi. Onun sevincinin həddi-hüdudu yox idi. Bir tərəfdən anası ilə görüşmüşdü, digər tərəfdən isə bəlalardan qurtulmuşdu. Naibə xala oğlunun üzünə baxıb söhbətə başladı:

- Elçin, Naxçıvandan beş-altı çeşiddə yemək, meyvə, Nehrəm pendiri, Zeynəddin lavaşı, Ordubad qəxləri gətirmişəm. Sabah axşam dostlarınla bir yerdə evə gələrsən. "Kak raz", şənbədir. Qoy Vətən yeməklərini dadsınlar.

- Mama, hələ tələsmə. Sabah rəisimlə görüşün olacaq. Sən buna hazırlaş. Evdə hər şeyi bircə-bircə anladacam.

- Ay Elçin, mən hara, "keqebe" məktəbi hara? Mütləq ora getməliyəm?

- Hə, mama. Ən əsası da deməlisən ki, iki gündür Moskvadasan! Birdə ki, rus dilini qəti başa düşmürsən, ha. Qalanı mənlikdir.

Anası matdım-matdım oğunun üzünə baxdı:

- Noolub axı? Elə bil, məni kinoya çəkəcəklər...

- Hə, mama. Böyük sınaqdan keçməliyik. Əlində ağ ləkələr var e, deyərsən ki, Moskvanın havası, mühiti sənə düşür və əsəbdən yaranan xalların itməsinə kömək edir. Buna görə buralara tez-tez gəlirsən.

- Ay bala, mən dediklərini rus dilində onlara necə başa salacağam?

- Mama, işin yoxdur. Sən söhbəti öz dilimizdə apar. Mən lazım olan tərcüməni özüm edəcəm. Ta ki, Ledomski izafi suallar verməsin.

- Ledomski kimdir?

- Fakültə rəisimiz.

- Bildim. Mənə onun haqqında danışmışdın. Demişdin qəddarın birisidir. Ciyəriyanmış!

- Bəli, mama! Ona görə də hər sözüvə fikir verərsən. Bir də təkrar edirəm:

- Sən srağagündən Moskvadasan! Başa düşdün?

- Anladım, oğlum.

- Hər şey yaxşı qurtararsa, Əhmədgili evə qonaq çağıracam. Yaxşıca vurarıq...

- Bəsdir ha! Ancaq limonad içə bilərsiniz!

- Oldu, rəis!

Taksidəki şirin söhbətdən sonra Elçin anasını mənzilində yerləşdirib təcili məktəbə tərəf yola düşdü. Akademiyanın yataqxanasında Əhmədlə Sahil onu səbirsizliklə gözləyirdi. Hələ aşağı kurslarda oxuyarkən Naibə xala heç olmasa ildə bir dəfə oğlunu görmək üçün Moskvaya gələr-

di. Elə olurdu ki, onu aeroportda Sahil və Əhməd də qarşılayırdı. Əsl kef onda başlayırdı. Vətəndən gətirilən müxtəlif yeməklərin dadı dostların damağında uzun müddət qalırdı.

Elçin anasının fakültə rəhbərliyi ilə görüşəcəyini Sahilə çatdırdı. Sonra o, partiya yığıncağının gündəmini tərtib etmək üçün Seleznyovun qəbuluna getdi. Məktəbin yataqxanası, təhsil korpusu, yeməkxanası, idman zalı eyni yerdə olduğundan müdavim-müəllim heyəti o qədər də uzun yol qət etmirdi. Akademiyanın binası böyük və möhtəşəm idi. Yerli əhali onu "korobka", "kərpic" və ya "olimpiyka" adlandırırdı. Məktəbin əsl adını çəkməyə nədənsə heç kimin cürəti çatmırdı.

Qaraxanov bütün işlərini yekunlaşdırdıqdan sonra yorğun vəziyyətdə mənzilinə - anasının yanına qayıtdı. Gec olduğundan o, bir tikə çörək yeyib yatağına girdi və həmən yuxuladı.

Sabahısı Elçin anasına rəhbərliklə görüş zamanı edəcək söhbətin incəliklərini, detallarını bir daha xatırladaraq ona kağız parçasına yazılmış məktəbin ünvanını verdi:

- Ana, binamızın önündə taksilər dayanır. İstənilən maşına mindikdə kağızdakı ünvanı sürücüyə göstərərsən və o da səni düz Akademiyamıza gətirəcək.

- Bunu bildim. Bəs saat neçədə evdən çıxım?

- Əgər saat iki tamamda evdən çıxsan üçə yaxın Məktəbimizin önündə olacaqsan. Orada səni Əhməd qarşılayıb Ledomskinin kabinetinədək yola salacaq. Qəti narahat olma! Özünü itirmə, şux saxla, həm də rus dilini başa düşmədiyini onlara tez-tez xatırlat.

- Bildim, oğlum, qəti narahat olma.

Saat üç tamamda Naibə xanım oğlu ilə bərabər fakültə rəisinin otağına daxil oldu. O, ətrafa göz gəzdirdikdə Seleznyovu və Mişini gördü. Elçinə "qəti narahat olma" deməyinə rəğmən Naibə xalanın rəngi saraldı, dizləri əsməyə başladı. İnsafən, Seleznyov ananın təşvişə düşməsini o dəqiqə hiss etdi və tez yerindən qalxıb ona masa arxasında oturmaq üçün yer təklif etdi. Naibə xanım bir az özünə gəldikdən sonra qarşısında əyləşən zabitlərlə Azərbaycan dilində salamlaşdı. Ledomski Naibə xanımın salamını Azərbaycan dilində aldı. Elçin tam unutmuşdu ki, fakültə rəisinin Azərbaycan dilində başa düşməsi barədə anasına xəbər versin. Amma bunun təhlükəsi cüzi idi. Doğma dildə danışanda Naibə xala ilanı da yuvasından çıxarmağa qadir idi. Elçinin tərcüməçi qismində iştirak etdiyi bir saatlıq söhbət mehribançılıq şəraitində keçdi. Nəticədə Qaraxanov Moskvanın istənilən bölgəsində sərbəst yaşama hüququnu yenidən əldə etdi. Görüşü Ledomskinin "уверен, что твоя мама привезла из Баку всякую вкуснятину, не забудь и нас угостить" kəlməsi yekunlaşdırdı. Elçin anası ilə birgə şad-xürrəm Akademiyanın binasını tərk etdi. Bayırda onu Əhmədlə Zeynal gözləyirdi. Qaraxanov "axşam saat yeddidə anam sizə böyük qonaqlıq verəcək" sözlərini dostlarına çatdıraraq Naibə xanımı taksiylə "Kaşirkaya" yola saldı.

Həmin günün axşamı evə qayıtdıqda Elçin təəccübündən yerindəcə donub qaldı. Qonaqlar üçün süfrə tam şəkildə hazır edilmişdi. Masanın sol tərəfində qonaqları

"Naxçıvan qavırması" gözləyirdi. Onu ən çox Zaur Yasinzadə sevirdi. O, Moskvada doğulub boya-başa çatmışdı və Elçinlə birgə eyni kursda təhsil alırdı. Zaurun atası – polkovnik Tərlan Yasinzadə təhlükəsizlik orqanlarında uzun müddət çalışdıqdan sonra Akademiyanın baş müəllimi vəzifəsində xidmətini davam etdirirdi. Tərlan müəllim azərbaycanlı olsa da, nədənsə öz yerlilərinə qarşı həddindən artıq sərt və tələbkar idi. Ona görə də Elçin və dostları ən çox ondan çəkinirdilər. Yasinzadədən hər şey gözləmək olardı. Zaur məzəkeşin biri idi. Elə məqamlar da olurdu ki, xasiyyətcə heç də atasından geri qalmırdı.

Süfrədə Naibə xalanın yola çıxmazdan əvvəl hazırladığı Ərzuman küftəsi də var idi. Bu dadlı yemək şəxsən Zeynalı gözləyirdi. Hələ iki il bundan öncə Zeynal yay tətilinin bir neçə gününü Naxçıvanda keçirmişdi. Həşimov Ərzuman küftəsini ilk dəfə orada dadmış və ona məftun olmuşdu. Naibə xala bu hadisəni yadında saxlamışdı.

Masanı hazır vəziyyətdə gördükdə Elçin çox sevindi:

- Mama, sən süfrəni nə vaxt hazırladın? Necə çatdırıb belə bəzədin?

- Bu mənim əlimdə su içmək kimi bir şeydir. Səhər sən evdən çıxan kimi fəaliyyətə başladım. Dostların üçün plov da süzmüşəm...

- Mənim sənə sözüm qalmadı, mama. Təşəkkürlər. Halal olsun!

Elçin növbəti sualını vermək istəyirdi ki, ilk qonaqlar – Əhməd və Məhərrəm Buğdəliyev içəri girdilər. Məhərrəm öz aləmində idi, yəni zarafatından qalmırdı. Salam əvəzi-

nə sanki atalar sözünə çevirdiyi sevimli deyimini iki dəfə təkrar etdi: "Şəki xalq mahnısı "Dartma, yaxam cırıldı!" Məzəli və şirin sözlər bir növ onun parolu idi. Naibə xala Azərbaycan dili və ədəbiyyatı müəllimməsi idi. Məhərrəmin pafosla izhar etdiyi kəlamı dinlədikdə o, ani olaraq düşüncələrə qərq oldu. Bir neçə saniyədən sonra Naibə xala dərindən gülüb öz oğlu kimi onun alnından öpdü. Əslən Azərbaycanın tarixi bölgələrinin birindən – Qax zonasından olan Buğdəliyev həddindən artıq şirindil idi. Onun hər sözü dostlarını güldürür və şənləndirirdi. Elçinin qonaq süfrəsinə gecikən isə Bakı rusu Andrey Semerov oldu. Onun yubanmasını müşahidə edən Zaur eyni zamanda iki quşu gözündən vurdu. O, rusların "семеро одного не ждут" atalar sözünü xatırladaraq təntənəli tədbirə start verdi. Həmin deyimdəki "semero" sözünə Andreyin soyadının uyğun gəlməsini dostlar göydə tutdu.

Tələbələr masa arxasında təamlardan dadaraq mehribancasına söhbət edirdilər. On-on bir nəfər qonağa hesablanmış birotaqlı mənzilə iyirmi nəfərədək müdavim toplanmışdı. Elə də olmalı idi. Qaraxanovun evinə yola düşməzdən əvvəl hamı onun anasının Moskvaya gəlməsi barədə məlumatı bir-birinə çoxdan ötürmüşdü. Belə bir fürsəti əldən vermək olmazdı. Tələbələrin beynində yeganə sual gəzib-dolaşırdı: "Allah bilir, bir də nə vaxt kiminsə anası Moskvaya gəlib bizi Vətən yeməyinə qonaq edəcək?"

Qonaqlıq əla keçirdi. Hər kəsdə şənlənmək, deyib-gülmək, lətifə söyləmək qabiliyyəti vulkan kimi püskürürdü. Elə bu zaman evin sahibi Nina Stepanovna mənzilə daxil

oldu. Salam əvəzinə qadının ilk ifadəsi "что за шум такой?!" oldu. Uzun müddət Moskva şəhərindəki "ZİL" zavodunda çalışan Nina mülayimlikdən, etikadan çox uzaq idi. Bir il bundan qabaq mənzildəki soyuducu xarab olmuşdu. Elçinlə Əhməd məişət avadanlığını öz hesablarına təmir etmişdilər. Vəziyyətdən narazı qalan ev sahibəsi "bu barədə mənə xəbər versəydiniz, "ZİL" zavodundan soyuducunun orijinal mühərrikini gətizdirərdim" sözlərini kirayəçilərə çatdırmışdı. Tutduğu iradlar az imiş kimi, Stepanovna DTK-dakı dostları vasitəsilə dinləyiciləri polkovnik Ledomskiyə də satmışdı. Hətta Volqoqradda ezamiyyətdə olan Elçini buna görə geriyə çağırıb töhmət də vermək istəyirdilər. Lakin Əhməd savab iş gördüklərini birtəhər sübuta yetirə bilmişdi. Bu gün də Nina Ərəbzəngi kimi qapının önünü kəsmişdi. Stepanovna dostların kefinə soğan doğramaq istəyirdi ki, qarşısında Elçinin ağbirçək anasını gördü və sakitləşdi. O, güclə sifətinə təbəssüm elementlərini daxil edərək boğazdan yuxarı "zdrasti" sözünü izhar etdi. Naibə xala qadını masaya dəvət etdi. Həyatı boyu bu qədər zəngin süfrə görməyən mənzil yiyəsinin gözləri bərəldi. Bir saatdan sonra isə gözüyaşlı Nina tut arağı ilə dolu yüz qramlıq badəni əlində tutaraq "məzlum" tələbələrin ünvanına təriflər yağdırırdı.

Qonaqlıq gecə saat on ikiyədək davam etdi. Dostlar yavaş-yavaş dağılışmağa başladı: kimisi yataqxanaya, kimisi də öz evinə. Təbii ki, yemək payları ilə. Vətəndən uzaqda təşkil edilən bu cür şənliklər azərbaycanlı müdavimləri daha da mehriban edirdi.

Üç gündən sonra Elçin anasını Bakıya yola saldı. Artıq bütün problemlər həll edilmişdi. Qaraxanov mənzildə qalmaq hüququnu bərpa edərək Əhmədlə birgə fakültə rəhbərinin caynağından qurtulmuşdu. Ən əsası da Zaurla Hüseynin "Naxçıvan qavırmasını", Ledomskilə Seleznyovun isə beş dəfə süzülmüş Ordubadın tut arağını, Nehrəmin pendirini əldə etmələri idi. Yaxşı ki, tədbir şənbə günündə təşkil olunmuşdu. Yoxsa ki, spirtli içkiləri qəbul etmiş müdavimlər tədris binasındakı növbətçiyə tuş gəlsəydilər, ali təhsil ocağı ilə vidalaşmalı olacaqdılar.

***

1987-ci ilin noyabr ayı Moskvada çox soyuq keçirdi. Adətən, ruslar həmin ayda "babye leto"nu, yəni "arvad yayı"nı qeyd edirdilər. Havalar birdən birə istiləşir və sanki həyat təravətlənirdi. Buna səbəb Rusiyanın saysız meşələrində ağacların yarpaq tökməsi, kimyəvi reaksiyanın baş verməsi və nəticədə havaların kəskin surətdə mülayimləşməsi idi. Lakin bu dəfə belə deyildi. Sərt soyuqlar Moskva şəhərini öz ağuşuna almışdı. Kim bilir? Bəlkə də öncəki ilin aprel ayında Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş partlayış öz mənfur işini görməkdə idi.

Məktəbə çatar-çatmaz Elçin dördüncü kurs tələbəsi Nurməmmədlə rastlaşdı. Maştağadan olan Məlikovu hamı çox sevirdi. O, həddindən artıq zəif, cılız və eyni zamanda gülərüz idi. Uşaqlar ona nahaq yerə "Şvarsneqer" ləqəbi verməmişdi. Nurməmmədin turşumuş sifəti yaxşı xəbər vəd etmirdi. Əgər Qalina Viktorovna Nizamovla icəşirdisə, Məlikov da ingilis dili müəllimәsi Tatyana Mi-

xaylovna ilə çəkişməkdə idi. Bəli, Nurməmməd ingilis dilini mənimsəməkdə çətinlik çəkirdi. Dəfələrlə ona "ingiliscə danışmaq üçün rusun deyil, Azərbaycan dilinin qrammatikasından istifadə et" məsləhətinin verilməsinə baxmayaraq Məlikov bildiyini edirdi. Başqa da nə edə bilərdi? Rusdilli idi. Anlamırdı ki, Azərbaycan dili ilə ingilis dilinin bir çox xüsusiyyətləri üst-üstə düşür. Nizamovdan fərqli olaraq Nurməmmədin taleyi Tatyananın əlində idi. O, Qaraxanova dərdini söyləməyə başladı:

- Elçin, hay-hayım gedib vay-vayım qalıb. Sabah Tatyana kəsir imtahanımı qəbul edəcək. Bu qız mənə göz verir, işıq vermir. Bir əlac tap.

- Əlac!? Hardan tapım, ay Nurməmməd. Hamı Tanyaya "atsifət" ləqəbi qoyub. İnadkarın birisidir. Bir nəfəri belə dinləmir.

- Elçin! Sabah kəsir imtahanını verə bilməsəm, məni məktəbdən iti qovan kimi qovacaqlar. Bir şey fikirləş. Fakültənin partiya komitəsinin katibi Mişindən istifadə et. Axı onunla yaxınsan.

- Dayan görüm, Nurməmməd. Tatyananın qabağında Mişin kimdir ki. O, heç Ledomskini saymır, qalsın ki, Mişini. Bilmirsən atası kimdir? DTK-nın o boyda Baş İdarəsinin rəis müavini! General-polkovnikin qızıdır, e!

- Bəs nə edək, Elçin?

- Nə edəcəyimizi bilirəm.

- Sənin qadanı alım, Elçin! Nə?

- Valera ilə Saparmurad yaxın dostdurlar...

- Saparmuradın mətləbə nə dəxli var? O, türkmən, Tatyana – rus.

- Bir dayan da, Məlikov! Məhəbbət məsələsi var.

- Valera kimdir ki, Elçin?

- Kursun partiya komitəsinin katibidir. Sözü sözdür. Saparmurad bu yaxınlarda Tanya ilə nişanlanacaq. Valeranı da tədbirə dəvət edib.

- Bilmirəm kim-kimi haralara dəvət edib, amma mənim problemim həll olunmalıdır...

- Dayan da bir, Nurməmməd. Elə vıdı-vıdı ötürsən. Kak raz, birinci dərsimiz mühazirə ilə başlayacaq. Mən də Valeranın düz yanında otururam. Məsələni anladıb onu razı salacağam ki, Saparmuraddan xahişimizi etsin. Darıxma, dostum.

- Mən darıxmıram ki, Elçin. Sadəcə qorxuram!

- Heç zarafatından qalmırsan da. İki qəpiklik oxumağın yoxdur. Hər dəfə özünü hazırlama zamanı yataqxanada otağına qapanıb yuxulara qərq olursan.

- Elçin, özünü hazırlama əvəzinə samopodqotovka de ki, bizə də çatsın. Hər sözü Azərbaycan dilinə tərcümə etmək istəyirsən...

- Yaxşı, yaxşı. Özünü alim kimi qələmə vermə, Nurməmməd. Bir ayağın burda, bir ayağın gorda ikən hələ demoqoqluq da edirsən.

- Maştağalıdan demoqoq çıxar, ay Elçin? Sən özündən danış.

Nurməmmədin bu eyhamından Elçini gülmək tutdu:

- Bilirəm haradan vurursan, Məlikov. Mən tələsirəm, bir azdan leksiya başlayacaq. Görək başımıza nə gəlir. Valeradan sonra Saparmuradla da danışacağam. Əhmədə də

deyəcəyəm türkmənlə söhbət eləsin. Dostluq əlaqələri var. Dünyanı bir-birinə qatacağam.

- Sağ olun. Bilirəm ki, məni çətin vəziyyətdə qoymayacaqsız.

Mühazirə zamanı Elçin və Əhməd Saparmuradı məsələ barədə Tatyana ilə söhbət etməyə razı saldılar. İnsafən türkmən balası heç nəyə mız qoymadı:

- Конечно, поможем! Сегодня я поговорю с ней. Вечером у матери Татьяны день рождения. Естественно, и меня пригласили. У всех будет хорошее настроение. Вот, тогда и попрошу Таню. Не переживайте. Она меня слушается.

- Благодарим, Сапармурад. Думаем, разрулишь данную проблему. Для Нурмамеда - это последний шанс.

- Слово коммуниста! Обещаю.

-Приятного времяпрепровождения на дне рождении и хороших вестей, Сапармурад.

- Спасибо, друзья.

Mühazirədən sonra Elçin Saparmuradla söhbətini Məlikova çatdırdı və kəsir imtahanını uğurla verəcəyindən əminliyini bildirdi. "Həyəcanlanmağa ehtiyac qalmadı, bütün günü ingilis dilinin suallarını təkrar et ki, imtahandan üzüağ çıxasan" sözlərini Nurməmmədə yönəldərək Qaraxanov ikinci dərsə yollandı.

Praktiki məşğələ şəhərin mərkəzində yerləşən əfsanəvi kəşfiyyatçı Abelin ev-muzeyində olmalı idi. Bəzi fənləri dərindən dərk etmək üçün müdavimlər təcrübəni tanın-

mış kəşfiyyatçıların yaşayış yerlərində keçirirdilər. Məktəbin rəhbərliyi tərəfindən təşkil edilən bu cür dərslər tələbələrdə iftixar və qürur hissi yaradırdı.

Mənzildə Elçini Kiril Dmitriyeviç Filippov qarşıladı. O, vaxtı ilə İngiltərədə kəşfiyyatçı qismində fəaliyyət göstərirdi. Hətta bir neçə dəfə Abellə ünsiyyətdə də olmuşdu. Hazırda Filippov təqaüddə olan çekist-polkovnik idi. Onun müdrik sifəti, zövqlü geyimi, ziyalı görünüşü, "ispanyol" tərzdə buraxdığı ağ saqqalı və bığı böyük təcrübəsindən xəbər verirdi. Abel barədə Qaraxanovun geniş və dolğun məlumatı var idi. O, Donovanın "Körpü üzərində görüş" kitabını hələ məhkəmədə işləyərkən oxumuşdu. 1980-cı illərin əvvəlində Elçinin ağlına belə gəlməzdi ki, nə vaxtsa Abelin evində kəşfiyyatçı ilə praktiki məşğələlər keçəcək.

Salamlaşdıqdan sonra Elçin "gorun çatlasın, Hitler!" kəlamını bir neçə dəfə ürəyində təkrarlayıb Filippovun nəsihətlərini, yəni mühazirəsini dinləməyə hazırlaşdı. Kiril Dmitriyeviç nə vaxtsa Abelin əyləşdiyi kresloya keçərək söhbətə başladı. Mövzu "SSRİ dövlətinə qarşı düşmənçilik mövqeyindən çıxış edən ölkələrin kəşfiyyat orqanlarının əməkdaşlarını gizli əməkdaşlığa cəlb etmək" idi. Mühazirə iki saatadək davam etdi. Filippov dərsi bitirərək Elçinin təəssürat və sualları ilə maraqlandı:

- Ну как вам моя лекция, товарищ Караханов? Вы все усвоили?

- Честно говоря, я очень доволен темой и ее анализом. У меня к вам единственный вопрос про документацию вербовки.

- Да? Что вас, конкретно интересует, Эльчин?

- Вы заявили, что в результате привлечения иностранного разведчика к сотрудничеству, обязательно нужно взять с него подписку.

- Ну да, правильно. Это укрепляет доверие между оперативником и им.

- А по моему мнению, подписка отдаляет вербуемого от сотрудника контрразведки, внедряет в него принцип отчужденности.

- В чем же это выражается? Мне очень интересны ваши рассуждения.

- Если до вербовки иностранца как-то убедили, хотя бы, в лояльности к режиму в Советском Союзе, то требование письменной подписки окончательно разбивает его хрупкое доверие к нам. Он начинает думать только об одном: этот кусок бумаги в дальнейшем будут использовать против него в качестве компрометирующего материала.

- Так-так!.. Резонное умозаключение. Мне это понравилось. Попробую обсудить эту тему с руководством и преподавателями второй кафедры Высшей Школы. Есть еще какие-то замечания?

- Пока нет, Кирилл Дмитриевич.

- Ну, тогда свободны. Можете заняться своим планом.

- Есть, товарищ полковник!

Dərsdən sonra dostlar günorta saat üçdə Leninin mavzoleyi qarşısında görüşməli idilər. Artıq Böyük Oktyabr

Sosialist İnqilabının yetmiş illiyinə həsr edilmiş nümayişə sayılı günlər qalmışdı. Dördüncü dəfə idi ki, akademiyanın sonuncu kurs tələbələri "Qızıl meydanda" borclarını yerinə yetirməli idilər. Bəzi müdavimlər mavzoleyin önündən keçən kolonların arasında, digərlərisə yaxınlıqda yerləşən Dövlət Universal Mağazasının, Dövlət Tarix Muzeyinin və nəhayət, Kremlin daxilində keşik çəkməli idilər. Müdavimlər "7 Noyabra" on gün qalmış Moskvanın mərkəzi meydanında məşqlərə başlayırdı. Əgər tədbir zamanı tələbənin məsul olduğu ərazidə gözlənilməz hadisə baş verərdisə, onun boynuna ən azı şiddətli töhməti asacaq idilər.

Elçinin növbə çəkəcəyi yer mavzoleyin sağ tərəfi idi. "Əla oldu! Qorbaçovun və digər Siyasi Büro üzvlərinin sifətini görəcəyəm. Heyf ki, Heydər Əliyev tribunada olmayacaq! Bir də görüm axı, doğrudanmı başındakı xala görə Qorbaçov omenin, yəni şeytanın özüdür? Bir az yavaş ol, ay bala, birdən fikirlərivi eşidərlər!" düşüncələrilə Elçin mavzoleyin önündə dostlarını gördü. Hamı yorğun idi. Bir yandan dərslər, digər tərəfdən də şəhərin yarısını qət edib "Qızıl meydana" gəlmək müdavimləri üzmüşdü. Hamı DTK doqquzuncu Baş İdarəsinin polkovniki Babiçevi gözləyirdi. Yorğunluq və sükunət gölünə birinci kəssəyi Elçin atdı:

- Odur e, gəlir. Elə bil ki, ayı yeriyir.

Zeynal:

- Nə bilirsən odur? Ledomskinin də yerişinə oxşayır.

- Yox e, Zeynal, şəxsən Babiçevin özüdür. Saçına bir bax. Demişdilər axı xına rəngindədir.

- Hə, düzdür, Elçin. Özüdür ki, var. Görəsən bu da beyinqazandır?

- Əlbəttə! Dövlət xadimlərini qoruyan idarənin əməkdaşı.

- Bir az yavaş, qardaş. Ətrafda hamı qulağını bizə tərəf şəkləyib.

- Mən yazıq nə dedim ki, Zeynal? Sadəcə anlatdım ki, başı xınalıdır. "Rıjiy" demədim ki, başa düşsünlər.

- Nəysə, ehtiyatlı olaq, Elçin.

Mənfi təsvirlərə rəğmən Babiçev səmimi və mehriban birisi çıxdı. Müdavimləri salamladıqdan sonra polkovnik qoltuq cibindən vərəqə çıxartdı. Onun üzərində səliqə ilə cədvəl cızılmışdı. Elçin gülümsəyərək Zeynalın qulağına "Gör e, elə mühüm sənədləri harasında daşıyır. Bir azdan o vərəqələrə adlarımızı həkk edəcək. İtirsə nə olacaq?" ifadəsini pıçıldadı və sifətindəki ciddiliyi geri qaytardı. Zeynal dodaqaltı "irad tutmasan, mız qoymasan olmaz ki" cavabını verərək üzünü polkovnikə tərəf çevirdi. Babiçev hey gülümsəyirdi. Görünürdü ki, gün onun üçün xoş xəbərlərlə dolu olub. O, "кто среди вас старший?" sualını verdikdə, Elçin bir balaca irəli çıxıb "Я" cavabını söylədi. Polkovnik tələbələrə təlim keçməyə başladı:

- Значится так, друзья! У меня в руках схема размещения постов, где во время парада 7 ноября будут нести службу слушатели Высшей школы.

Elçin növbə çəkəcəkləri yerləri dəqiqləşdirməyi xahiş etdi:

- Нас всего 30 человек. Было бы неплохо каждому индивидуально показать их место наряда.

- Второпях, я даже не спросил ваше имя, товарищ слушатель.

- Меня зовут Эльчин Караханов, товарищ Бабичев.

- Отлично! А я – Олег Петрович. Буду разъяснять ваши задачи и обязанности.

- Мы внимательно слушаем вас, Олег Петрович.

- 15 человек совместно с военнослужащими кремлевского полка будут стоять между колоннами, проходящими перед мавзолеем. Их будут замыкать слушатели остальных факультетов Академии.

- Мне вписывать фамилии слушателей в эти квадратики в таблице?

- Обязательно, Эльчин! Тем более, вторая копия документа останется у вас. Кроме того, десять человек будут нести службу внутри ГУМа, возле окон, которые смотрят, прямо, в сторону мавзолея.

- Понятно, товарищ полковник. Только, если не трудно, не спешите, чтобы я вписал и эти фамилии в пустые ячейки.

- Я никуда не спешу, Караханов. Вписывайте.

Elçin cədvəli tərtib etməklə məşğul idi. Bu zaman polkovnik üzünü Zeynal Həşimova tutaraq "вы тоже с Эльчином вместе учитесь?" sualını verdi. Zeynal xasiyyətcə həddindən artıq sakit və astagəl idi. Hər hansı bir suala cavab vermək üçün dərin xəyallara dalırdı. Görünür, Babiçevin səbri uzun müddətə hesablanmamışdı.

Zeynal özünü toparlayıb polkovnikin sualını cavablandırınca Oleq Petroviç Elçinlə birgə son beş nəfər müdavimin də vəzifəsini müəyyən etdi:

- Оставшиеся пять слушателей вместе с представителями внутренних войск будут прикрывать тыл парада, то есть отсиживаться и наблюдать за ходом шествия из здания Исторического музея.

- Все записано, зафиксировано, скопировано, товарищ полковник. Можете продолжить инструктаж. Мы полностью во внимании.

Babiçevin təlimat üzrə çıxışı təxminən bir saat çəkdi. Bu hal tələbələrin xeyrinə idi. Vaxt daraldıqca Moskvanın Qızıl meydanında dəfələrlə o baş - bu başa yeriməyə ehtiyac qalmırdı. On beş il dövlət xadimlərinin və mühüm obyektlərin mühafizəsini təşkil edən polkovnik Babiçevin ayaqüstü mühazirəsi insafən maraqlı alınırdı. Ta ki, tələbələrə sonuncu epizodu anladanadək. Gözlənilmədən Oleq Petroviçin izhar etdiyi "bütün mühafizə məsələləri boş şeylərdir, lazım gəlsə terroristlər istənilən dövlət xadiminə xətər yetirə bilər" ifadələr hamının təəccübünə səbəb oldu. Polkovnikin gözləri Əhmədin üzündə sual işarəsini aldıqda isə o, Qərbi Avropa ölkələrinin birində baş vermiş terror aktından söhbət açdı:

- Еще в 60-е годы от могущественных специальных служб великих держав поступила информация о готовящемся покушении на известного Президента. И оно должно было случиться на одном из встреч с гражданами этой страны. Даже назывались

конкретная дата и время проведения теракта. Были предприняты все возможные и невозможные меры, привлечен к охране весь арсенал силовых структур. И вот, после того, как Президент завершил свое выступление перед горожанами, к нему подошла маленькая девочка с букетом роз в руках. В то время, когда первое лицо государства нагнулось взять цветы, раздался хлопок от выстрела. Пуля попала в маленькую статую, которая находилась, прямо, за головой Президента и разбила ее вдребезги. Если бы не эта маленькая крошка с букетом в руках, то пуля пробила бы череп руководителя страны…

Babiçevin söylədikləri sanki bütün Qızıl Meydanı sükunətə qərq etdi. Müdavimlər gözlərini döyərək diqqətlə onun üzünə baxırdılar. Elçin  ağzını Sahilin qulağına yaxınlaşdırıb pıçıltıyla ürəyindən keçən sözləri çatdırdı: "Bu da dövlət rəhbərlərini mühafizə edən polkovnik! Bizlərə diqqətli olmağı, nizam-intizama riayət etməyi aşılamaq əvəzinə, deyir şələ-şüləni yerə qoyub çıxın gedin kefinizə. Deyəsən, köpoyoğlu uşaqları yoxlayır, ya da  bizdən söz çəkir!" Ürəyini boşaltdıqdan sonra Elçin üzünü Babiçevə tərəf çevirdi və cəmi bir cümlə işlətdi:

- Очень поучительная история.

***

Ertəsi gün Elçin Məktəbin təhsil korpusuna daxil olduqda Nurməmmədi gördü. O, məzlum sifəti ilə pəncərədən bayırı seyr edirdi. Qaraxanov arxa tərəfdən xəlvəti ona yaxınlaşaraq qulağına çırtma vurdu. Dərin fikirlərə

dalmış Məlikov qorxudan dik atıldı. Elçin dostuna ürəkdirək verməyə başladı:

- Əla, diksinib ayıldın. Bunun sənə xeyri var. Tatyana Mixaylovanın qarşısına mərd və mübariz çıxacaqsan.

- Qoydun ki, məndə mübarizlik qalsın, Elçin? Hələ ürəyim bu qədər sürətlə döyünməmişdi. Evin tikilsin, onsuz da imtahana görə baş-beynim gedib! Bir tərəfdən də sən.

Elçin arxasını pəncərəyə çevirib Məlikovla üzbəüz dayandı:

- Bəsdir sızladın, Şvarsneqer! Dedim axı, ürəyini buz kimi saxla. Valera da, Saparmurad da sözlərini tutan insanlardı. Şux ol ki, kəsirivi düzəldə biləsən.

Məlikov qəfidən sinəsində çarpazladıqları əllərini açıb yanına saldı:

- Odur e, Tatyana gəlir. Gedim görüm, başıma nə oyun açacaq.

- Get, get! Uğurlar sənə, Məlikov. Hər şey yaxşı olacaq. Mən birinci dərsə girməyəcəm. Dekanlıqda işim var. İmtahandan çıxan kimi nəticəsi barədə xəbər ver. Bəd ayağı problemi Ledomskinin müavini Çernovla həll edəcəm,- deyə Elçin əmin addımlarla oradan uzaqlaşdı.

Nurməmmədin əzab-əziyyəti, həyəcanı və iztirabları çox uzun çəkmədi. Təxminən iyirmi dəqiqədən sonra Məlikov kiçicik başını qapıdan içəri uzadıb Elçinə söz demək üçün Çernovdan icazə istədi. Nurməmmədin sifətindəki təbəssümdən məlum idi ki, Tatyana nişanlısı Saparmuradın sözlərini yerə salmayıb.

Həyatda elə insan yoxdur ki, hər hansı bir çətinliklə üzləşməsin. Bəziləri onları özü atladır, digərləri də dostlarının yardımı ilə. Fərdlər də var ki, pislikləri daim üzərinə səsləyir. Sonuncu tip insanlardan biri Nurməmməd, digəri isə Akademiyanı iki il öncə bitirmiş, lakin hələ də leytenant rütbəsini ala və ali təhsil ocağını tərk edə bilməyən Səfi Ömərov idi. Məlikov laqeydliyinə görə ingilis dili müəlliməsinin, Ömərov isə mühazirə zamanı mürgülədiyi üçün Məktəbin rəis müavininin qəzəbinə tuş gəlmişdi. Birdən oxucu elə başa düşər ki, hər iki tələbə düşdüyü vəziyyətdən tutarlı nəticə çıxara bilmişdi. Qətiyyən yox! Yalnış fikirlərin qurbanı olmayasınız. Ağılı da, axmaqlığı da insana bəxş edən Yaradandır. Ona görə də nadir hallar istisna olmaqla, insan öz xasiyyətində cüzi də olsa dəyişiklik etməyə qadir deyil. Bu xoşbəxtlikdirmi, yoxsa bədbəxtlikdirmi onu da... yalnız uca Tanrımız bilir.

Nurməmməd gülərək Tatyananın qələmindən qopardığı qiymət haqqında danışmağa başladı:

- Elçin, bir-iki sualdan sonra axır ki "kafi" qiymətini qazanmağa müvəffəq oldum. Sağ olun, sən də, Əhməd də.

- Əla da bə. Yoxsa "beş" gözləyirdin?

- Yox e, nə danışırsan? Məni "üç" də qane edir. Özü də, Elçin, birinci dəfə nə dedin mənə?

- Nə vaxt?

- Elə indi...

- Mən nə bilim e, ay Nurməmməd. Tələsirəm, Çernov içəridə məni gözləyir...

- Hə, yadıma düşdü! "Da bə" dedin.

- Mən də deyirəm bəlkə nə soruşursan. Ağıl yoxdur axı. Nə demək istəyirsən, Məlikov?

- Şirin səsləndi, Elçin, ona görə soruşdum.

- Yenə başladın? "Da bə" də şirin səslənər? Bəlkə deyəsən "pencər", "qodem" də şirin səslənir?

- İncimə e, Elçin. Ha istəyirəm səndən "pencər" barədə soruşam amma...

- Əmması yoxdur ki. Siz tərəflərdə "pencərə" göyərti, "qodemə" də vəzəri deyirlər.

- Biz düz deyirik də, dostum. Bu tip bitkilərə göyərti deyərlər.

- Ə, botanik, sən planetimizin qoynundakı təbiətdə göy rəngdə ağac, ot görmüsən?

- Göy rəngdə də ağac-ot olar, Elçin?

- Bəs mən nə deyirəm? Heç olmasa yediyiniz vəzəri, keşniş, şüyüdü "yaşıltı" adlandırın da. Ən yaxşısı isə elə siz də onlara "pencər" deyin.

- Öz aramızdı ha, Elçin, söz altında qalmarsan.

- Yaxşı, demoqoqluq eləmə. Bu gün-sabah sessiya imtahanları başlayacaq. Get hazırlaş. Sonra yenə qaçacaqsan üstümüzə ki, məni doğrayırlar!

- Bir daha təşəkkürlər, Elçin. Gedim Əhmədi də tapım, minnətdarlığımı bildirim.

Nurməmmədlə söhbətdən sonra Elçin Çernovun kabinetinə qayıtdı. Orada 7 Noyabrla əlaqədar tədbirdə növbə tutacaq və naryadlarda iştirak edəcək tələbələrin siyahısı müzakirə edilirdi. Sonda Qaraxanov polkovnik Babiçevdən götürdüyü cədvəlin kopyasını təsdiqləmək üçün Çer-

nova təhvil verdi. Bir neçə dəqiqədən sonra Elçin ikinci dərsə girdi. Mühazirə çox maraqlı keçməli idi, çünki professor Avropa ölkələrinin birində uzun müddət rezident olmuşdu.

***

Bayram tədbirləri həmişəki kimi hüzur və sakitlik şəraitində keçdi. Heç bir fövqəladə hadisə baş vermədi. Yalnız Dövlət Universal Mağazasında üç şübhəli şəxs saxlanılmışdı. Növbə çəkdiyi zaman Şükürovun diqqətini birinci və ikinci mərtəbələri birləşdirən pilləkanın üzərindəki sahibsiz çanta cəlb etmişdi. Çantada hər şey ola bilərdi: pal-paltardan tutmuş partlayıcı maddəyədək. Təlimata əsasən, tapıntı barədə məlumatı Sahil Elçinə, Elçin isə bilavasitə Babiçevə ötürdü. Mina axtaranlar o an hadisə yerinə dəvət olundu və yoxlanış zamanı bayram tədbirlərini pozacaq heç bir şübhəli maddə aşkar edilmədi. Sən demə, əşyanı ora yerləşdirən sanitar-epidemiologiya stansiyasının işçisi imiş. O, bayram tədbirlərinə görə univermaqda satıcıların və müştərilərin məhdud sayda olmalarından istifadə edərək dezinfeksiya tədbirlərini həyata keçirirmiş. Çantada sadəcə dezinfeksiya maddələri aşkarlandı. Şükürov tərəfindən aşkarlanmış çantaya fikir verilməsəydi və oradan partlayıcı maddə çıxsaydı dünya, siyasətçilər, dövlətlər bir-birinə qarışacaqdı. Təbii ki, bütün günahlar "vəhşi" Qərbin üzərinə atılacaqdı. Ona görə də Sahilin əməlləri təqdirəlayiq idi. Əgər çantanı digər güc strukturlarının nümayəndələri tapsaydı onda ancaq Babiçevin, Elçinin və univermaqda keşiş çəkən müdavimlərin halına

ağlamaq lazım olacaqdı. Çünki dövlət əhəmiyyətli tədbirlərdə bütün məsuliyyət DTK-nın üzərində olurdu. Aylarla rəhbərliyin ağzından çıxacaq yeganə sual SSRİ-nin bütün təhlükəsizlik orqanları əməkdaşlarının beynini çürüdəcəkdi: "Nə üçün bu hadisə DTK əməkdaşlarının nəzərindən yayınıb?" Lakin bu dəfə xəta sovuşdu. Tədbirdən sonra bütün müdavimləri mükafatlar gözləyirdi.

Bir gün sonra Akademiyanın kollegiya iclasında 7 Noyabr bayramı ilə əlaqədar tədbir iştirakçılarının fəaliyyəti müzakirə və təhlil edildi. Rəhbərlik tələbələrin davranışından razılığını bildirərək Elçinin başçılıq etdiyi qrupun işinə yüksək qiymət verdi. Hətta onları mükafatlandırmaq üçün Ledomskiyə raport təqdim edildi. Lakin Boris Yevgenyeviçi maraqlandıran qarşıdakı imtahanlar və müdavimlərin praktik fəaliyyəti idi. Ona görə də, heç kimə mükafat verilmədi.

## II FƏSİL

## NAXÇIVANDA TƏTİL

- Товарищ полковник, можно зайти?
- Выйдите вон!

Min doqquz yüz səksən səkkizinci il yanvar ayının on doqquzunda Elçinin kefi xeyli kök idi. O, artıq axırıncı kursun üç imtahanını vermiş, hamısından da "əla" almışdı. Geriyə bir sessiya və beş dövlət imtahanı qalırdı. Qaraxanovun bu sınaqdan da müvəffəqiyyətlə çıxması ona qızıl medal qazanacağını vəd edirdi. Həm də onun adı Akademiyanın foyesindəki mərmər lövhəyə əbədi həkk ediləcəkdi.

Lakin fəlsəfə müəllimi Romanenkonun imtahanqabağı Elçinə söylədiyi "выйдите вон" sözləri onu məyus etdi. Üçüncü kursdan bəri Qaraxanovun professorla isti münasibətləri var idi. Hələ Elçin fəlsəfənin birinci hissəsi – "tarixi materializmdən" imtahan verərkən Romanenko auditoriyaya məktəbin qəzet redaktorunu çağırmış və onun barəsində məqalə yazmağı xahiş etmişdi. Yəni, Elçinə bu qədər böyük rəğbət bəsləyirdi. "Bəs nə üçün bu dəfə məni imtahan zalından qovdu? Bilirəm ki, Romanenkonun hərəkətləri qeyri-adekvatdır. Bu günə kimi onun tələbələrin sifətinə baxdığını görməmişəm. Mühazirə vaxtı daha çox tavana baxır. Görəsən, mənim barəmdə ona nələr danışıblar?" fikirləri belə bir məsuliyyətli məqamda El-

çini narahat edirdi. Qaraxanovun ağlına o da gəldi ki, professor Romanenko heç kimə güzəşt etmir. “Görünür, içəri girəndə nizamnaməyə uyğun hərəkət etməmişəm” düşünərək Elçin bir daha qapını döyüb imtahan otağına daxil oldu:

- Товарищ полковник, слушатель Караханов для сдачи экзамена по диалектическому материализму прибыл!

- Вот это другое дело, Эльчин. А то совсем обнаглел. Заходишь ко мне на экзамен без доклада.

- Извините, товарищ полковник. Это от волнения…

- Кто-кто, но ты, как парторг группы и как уважаемый мною слушатель, никогда не должен теряться.

- Понял, больше не повторится!

- Когда не повторится? Скоро у тебя начнется практика в родном городе Баку, потом государственные экзамены и… прощай. Ладно. Все нормально. Бери билет и готовься.

Bu kiçik dialoqdan sonra Elçinin ovqatı düzəldi. “Nə hazırlaşmaq, e? Biletdəki sualları əzbər bilirəm. Birinci dəfə deyil ki! Tarixi materializmdən də imtahanı bu cür vermişəm” düşünərək Qaraxanov professora müraciət etdi:

- Товарищ полковник, я готов к сдаче экзамена!

- Эльчин, сядь и готовься! Это один из последних экзаменов. Завалишь и погубишь все свои достижения за пять лет.

Romanenkonun bu cür qayğısını görən Elçin ürəkləndi: onun özünə inamı daha da artdı. Hətta o, Romanenkoya adı ilə müraciət etdi:

- Поликарп Владимирович, вы меня давно знаете. Я просто так слова на ветер не бросаю. Готов, значит, готов!

- Ну ладно, Караханов. Разрешаю. Только начнем с третьего вопроса.

Elçin sualların cavabını o qədər dolğun bilirdi ki, fərqi yox idi, birincidən yaxud üçüncüdən başlasın. Akademiyanın möhtəşəm kitabxanasına baş çəkənlərin siyahısında Qaraxanov bəlkə də axırıncılar sırasındaydı. Çünki mühazirələrdə bir dəfə müəllimlərə qulaq asdıqda, mövzunu tam mənimsəyirdi. Onun qulaq yaddaşı, necə deyərlər, iti idi. Bugünkü imtahan da istisna deyildi. O, Romanenkonun bütün mühazirələrini yaddaşına yerləşdirmişdi. Qaraxanov on beş dəqiqədən sonra "əla" qiymətini alıb auditoriyada bilet üzrə cavaba hazırlaşan Şükürovun yanına getdi. Elçinin bu hərəkətini izləyən professor ona səsləndi:

- Эльчин, по-моему, ты уже сдал экзамен? Можешь покинуть аудиторию.

- Поликарп Владимирович, вы же наказали мне, как секретарю парторганизации, шефствовать над Шукюровым.

- Ну да, посоветовал. Но не во время экзаменационного процесса.

- Он же мой заместитель. Я должен интересоваться им. Не дай, Бог, завалит такой ответственный экзамен. Что скажут простые коммунисты группы?

- Как хороший друг, одобряю твое поведение. Но это является нарушением как партийной, так и воинской дисциплины. Учитывая твое усердие, в виде

исключения, даю тебе всего три минуты. Поинтересуйся и, пока я добрый, выйди отсюда!

- А плечо товарища? Поддержка друга в трудную минуту? Вы же нас учили этому…

- Товарищ сержант, по-моему, вы наглеете прямо на глазах? Или вы надеетесь на то, что я не смогу заменить вашу оценку "отлично" на "хорошо"?

- Понял вас, товарищ полковник, всего три минуты, и я уйду.

- Вот так!

Xoşbəxtlikdən Sahilə asan suallar düşmüşdü. Elçin onun biletinə bir daha göz gəzdirərək anladı ki, dostunun yardıma ehtiyacı yoxdur. Yalnız bundan sonra Romanenkoya yaxınlaşaraq hərbi nizamnamənin tələbinə uyğun icazə alıb imtahan zalını tərk etdi. Yarım saatdan sonra Sahil də qazandığı "kafi" qiymətlə bayıra çıxdı.

Dostlar yolüstü Zeynal və Əhmədlə görüşüb şad-xürrəm yataqxanaya üz tutdular. Orada onları Zaur, Hüseyn və Sahib gözləyirdi. Uşaqlar da imtahandan üzüağ çıxmışdı. Lakin Sahib Tağıyevə bıçaq vursaydın, qanı çıxmazdı. Elçindən sonra o da qızıl medala namizəd idi. Üçüncü kursu əla qiymətlərlə bitirmək üzrə idi. Amma həmin gün onun taleyi gətirmədi. Çünki "kriminalistika" fənnindən Tağıyevə "dörd" yazdılar. Həmin kafedranın müəllimləri müdavimlərin cəlladı idilər: onların əksəriyyətini "qızıl medal", yaxud "qırmızı diplomdan" salırdılar. Sanki oranın müəllim və professorları digər kafedralara "biz də varıq" iddiasını irəli sürürdü. Yalnız Elçin kafedranın cəllad

qılıncından qurtula bilmişdi. Buna səbəb isə onun vaxtılə Bakıda təhsil aldığı Dövlət Universitetinin hüquq fakültəsində “kriminalistika” fənninə dərindən yiyələnməsi idi.

Həmin günün axşamı dostlar Məhərrəmin evinə qonaq getməli idi. Buğdəliyevin ad günü idi. Hələ ikinci kursda evləndiyinə görə, o da ailəsilə birgə şəhərdə yaşamaq hüququna malik idi. Yataqxanada Sahibə ürək-dirək verdikdən sonra uşaqlar Məhərrəmin evinə tərəf istiqamət götürdülər. Vətəndən uzaq düşən tələbələri ad günü, yaxud digər əlamətdar təqvimlər çox az maraqlandırırdı. Onların istədiyi bir şey varıydısa, o da Moskvaya gəlmiş qadın qohumların bişirdiyi dadlı milli yeməklər idi. Müdavimlər paytaxtın müxtəlif institutlarında təhsil alan el qızlarını da yaxşı tanıyırdı. Demək olar ki, hər şənbə və ya bazar günləri dostlar bacıların yaşadığı yataqxanalara qonaq gedərək əvvəlcədən sifariş etdikləri milli yeməklərdən dadırdılar. Qonaqlıqlar bir çox hallarda həmin qızlarla ailə həyatı qurmaqla nəticələnirdi.

Dostlar Məhərrəmin ad gününü, daha doğrusu onun həyat yoldaşı Sevdanın bişirdiyi Şəki mətbəxinə aid yeməkləri çoxdan gözləyirdi. Bunu Məhərrəm də bilirdi. Çünki onun özü də bu cür tədbirlərdə dəfələrlə iştirak etmişdi. İçəri daxil olandan sonra uşaqların hamısı “salam” əvəzinə bir ağızdan Buğdəliyevin ən çox sevdiyi “Şəki xalq mahnısı dartma yaxam cırıldı” cümləsini işlədərək süfrəyə tərəf yönəldilər. Məhərrəmə məxsus bu deyimin içində bir çox arzu gizlənirdi: “Axşamın xeyir!”, “Ad gününü səmimi qəlbdən təbrik edirik!”, “Ailənə can sağlığı

diləyirik!" və daha nələr. İlk dəfə bu ifadəni eşidən Sevda qəhqəhə çəkib güldü və dadlı təamları süfrəyə düzməyə başladı. Dostların hamısı ona kömək edirdi. Nəhayət, qonaqlar üçün açılan süfrə hazır oldu. Müdavimlərin gözü plovda idi. Onlar sadəcə start komandasını gözləyirdi.

Bayırda şaxtalı hava tüğyan edirdi. Həmin ilin yanvarında Moskva şəhərində termometrlər mənfi qırx dərəcəni göstərirdi. Məhərrəmin anası soyuqları nəzərə alaraq yaşadığı Qıpçaq kəndindən tələbələrə öz həyətində çəkdikləri zoğal arağını da gətirmişdi. Gündəmdə yalnız tamadanın seçilməsi dururdu. Hamı bir ağızdan bu vəzifəyə Elçinin namizədliyini təklif etdi. Qaraxanov həm də məclis adamı idi. Onun söylədiyi tostlar məclis əhlində səmimiyyət ab-havası yaradırdı. Eyni zamanda, Məhərrəm və Hüseynin Azərbaycan şeirlərini söyləmələri tədbiri daha da canlandırırdı. Gecə saat ikiyədək davam edən qonaqlıq yüksək səviyyədə təşkil edilmişdi. Nöqtəni Zaur Yasinzadə qoydu. O, atalar sözünü özünəməxsus tərzdə əvəz edib Andrey Semerova üzünü tutub sual verdi:

-Ha, indi bildin, "семеро одного не ждут", Şəki pitisi nə deməkdir?

-Bildim, Zaurçik, bildim. Bundan sonra sizdən də çox... azərbaycanlı mənəm!

Yenə də şənbə günü olduğundan müdavimləri heç bir narahatçılıq gözləmirdi. Şəhər mənzillərində gecələmək üçün rəhbərlikdən icazə alınmışdı. Bazar günü isə dostlar Məhərrəmin ad günündəki məzəli əhvalatları yada salıb növbəti imtahana hazırlaşmağa başladılar. Sonuncu kursu

bitirməkdə olan Elçin, Zeynal, Sahil və Əhməd imtahan ərəfəsində həyəcan keçirirdilər. Digər tərəfdən də qarşıda təcrübə məşğələlərinin Vətəndə keçiriləcəyi onları ruhlandırırdı. Növbəti imtahan ildırım sürətilə yaxınlaşırdı. Təzəcə imtahandan qurtulursan ki, yeni sınaq burnunun düz ucuna dirənir.

Nəhayət, imtahan günü gəlib çıxdı. Elçingil auditoriyanın qarşısında növbə gözləyirdi. Onlar birtəhər həyəcan hissindən azad ola bilmişdilər. Növbəti fəndən imtahan götürəcək müəllimin onların yerlisi Tərlan Yasinzadə olduğundan müdavimlər bir qədər rahat idilər. Düzdür, semestr zamanı dostlar azərbaycanlı polkovnikdən dəstək görməsələr də, imtahan zamanı ondan qəddarlıq da gözləmirdilər. Bir də ki, Tərlan müəllimin oğlu Zaur da soydaşları ilə birgə təhsil alırdı və Əhmədin ən yaxın dostu idi. Zaur Məhərrəmin ad günündə yerlilərini əmin etmişdi ki, atası ilə onlar barədə uzun-uzadı söhbət aparıb və narahatlığa heç bir səbəb qalmayıb. İmtahan auditoriyasına birinci Zeynalla Sahil daxil oldu. Bir saatdan sonra onların oradan suyu süzülmüş vəziyyətdə çıxmaları Elçin ilə Əhmədi də təşvişə saldı. Zeynal əllərini göyə açıb "min şükür" deyərək dərdini Elçinə söylədi:

- Bu nə demək idi, Elçin? Bu nə yerlilik?

- Noolub, ay Zeynal? Problem var?

- Yaxşı qurtardıq! Tərlan az qala bizi imtahandan kəsəcəkdi.

- Nə danışırsan? Tərlan ha!

- Hə ye, o. Başqa millətin nümayəndələrinə cəmi bir dənə əlavə sual verirdi, bizlərə isə beş-altı. Birtəhər mən "yaxşı", Sahil isə "kafi" qiymətini ondan qopardıq. Ehti-

yatlı ol, Elçin. Bilirik ki, səninlə bacara bilməyəcək, amma tədbiri əldən vermə.

- Maşallah, Zeynal, Yasinzadəni elə qələmə verdin ki, guya biz azərbaycanlılara düşmən kəsilib.

- İnan, elədir ki, var!

- Allaha təvəkkül, Zeynal, girirəm imtahana. Görək mənim başıma nələr gələcək.

Zeynalla qısa söhbətdən sonra Qaraxanov özünü toparladı və hərbi intizamın tələblərinə uyğun auditoriyaya daxil oldu. Orada masa arxasında dörd nəfər müəllim oturmuşdu. Tərlan Yasinzadə gözləriylə suallar biletinə işarə etdi və gülümsəyərək Elçinə "seçin və hazırlaşmaq üçün ikinci partaya keçin!" göstərişini verdi. Qaraxanovun ağlına hər cür fikir gəldi: "Tərlan müəllim azərbaycanlılarla qəddarcasına davranır ki, digərləri onu yerlipərəstlikdə ittiham etməsin... Tələbkarlığı ona görədir ki, fənninə ciddi yiyələnək... Yerlilərini imtahandan kəsmək istəməz... Zeynal yəqin həyəcandan hadisəni şişirdir!". Məntiqi təhlillərdən sonra Elçin biletin suallarına nəzər salıb həmişəki kimi müəllimlərə müraciət etdi:

- Я буду отвечать без подготовки!

Yasinzadənin yanında oturan digər professor və dosentlər Qaraxanovun istəyinə etiraz etmədilər:

- Товарищ Караханов, если вы уверены, что ответы на вопросы готовы, мы не возражаем.

Elçinin hazırlaşmadan suallara cavab verməsi həmişə ona uğur gətirirdi. Birincisi, müəllimlər bu cür tələbələrə güzəşt edirdi, digər tərəfdən isə belə hallar müdavimlərdə

inam yaradırdı. Yasinzadə müəllimlərə tərəf baxaraq Elçinin bu təklifinə öz etirazını bildirdi. Bir-iki dəqiqəlik mübahisədən sonra qeyri-azərbaycanlı professorlar Tərlan müəllimi razılığa gətirə bildilər. Elçinə də elə bu lazım idi. Artıq üç imtahan müəllimi onun tərəfində idi. Qaraxanov "buna bax e, hamı olub yalan, öz yerlim doğru" fikirləşib biletdəki üç suala layiqincə cavab verdi. LakinYasinzadənin yağdırdığı əlavə sualların qarşısında digər müəllimlər yalnız "kifayətdir!" sözünü deməyə macal tapırdılar. Elçin sualları cavablandırandan sonra professorlar bir-birlərinə baxıb "əlavə sualımız yoxdur" deyib onu yola salmaq istədilər. Lakin Tərlan müəllim həmkarlarına etirazını bildirdi. O, "mənim bir neçə dənə də əlavə sualım var" deyib öz tərsliyinə davam etdi. "Bir neçə sual" on iki suala çevrildi. Yasinzadə boş sualları ilə hamını bezdirmişdi. Nəhayət, xüsusi fənn kafedrasının baş müəllimi Nikolay Kiselyov dilə gələrək Tərlanı dayandırmağa çalışdı:

- Тарлан, я тебя никак не пойму! У тебя с Карахановым особые счёты, что ли? Он же твой земляк и наша гордость.

- Да нет, Николай. Я, просто, его гоняю по всем направлениям. Хочу, чтобы мой земляк исчерпывающе овладел этим предметом.

- Да, перестань ты! Он же "золотист", а ты пытаешься его завалить своими бесчисленными вопросами. Я очень удивлён.

Bu sözlərdən sonra Kiselyov Elçinin imtahan kitabçasına sessiyanın sonuncu "əla" qiymətini yazdı və onu audi-

toriyadan yola saldı. Qapının ağzında Qaraxanovu yerliləri gözləyirdi. Onlar həddindən artıq narahat idilər. Zarafat deyildi, Elçinin imtahanı bir saat on beş dəqiqə çəkdi. Yeganə qeyri-rus millətindən olan qızıl medala namizəd Qaraxanovun taleyi azərbaycanlı müdavimlərini narahat edirdi. Nurməmməd Elçinin üzündəki sevinci görüncə cəmi bir kəlmə söylədi: "qonaqlıq məndən!" Məhərrəm üzünü Məlikova tərəf çevirdi və ona "ə, sən qonaqlıq verənsən?" deyib Zeynalla birlikdə Elçini qırağa çəkdi:

- Tərlanın səninlə bu cür davranacağını mən çoxdan gözləyirdim.

- Nə mənada, Məhərrəm?

- Elə gerçək mənada. Bilmirsən ki, Yasinzadə bizim uğurlarımızı heç vaxt istəməyib!?

- Nə üçün axı, Məhərrəm...

- Çünki, ermənidir!

Bu kəlmədən sonra beş il ərzində bütün söhbətləri kənardan seyr edən Zeynal dözməyərək Buğdəliyevə suallarını döşədi:

- Sən nə danışırsan? Nə erməni? Tərlandır e, Yasinzadə! Hanı burada ermənilik?

- Anası! Anası sırf ermənidir, Zeynal. Zaurun nənəsi.

- Beş il Zaurla bir kursda oxuduq, bir-birimizin evinə get-gəl etdik, amma onun erməniliyini səndən eşitdim, Məhərrəm,- deyə Zeynal təəccübünü gizlətmədi.

- Əmin ol. Elə adamdan eşitmişəm ki, o yan- bu yanı yoxdur. Kimin söylədiyini deməyəcəm. Lakin məlumat dəqiqdir.

- Heç olmasa de görüm, müdavimlərdən eşitmisən, yoxsa...

- Tərlanın çalışdığı kafedranın müəllimlərindən biri deyib. Ermənilərin də milliyyəti bilirsən də, ana südü ilə gəlir.

- Heç sözüm qalmadı sənə, Məhərrəm. Deməli, Elçinin bu qədər sorğu-suala tutulmasının yeganə səbəbi... onu qızıl medaldan salmaq idi?

- Bəli, Zeynal, bəli.

Müzakirələrdən sonra dostlar kor-peşiman evilərinə dağılışdı. O dövr heç kimin ağlına belə gəlməzdi ki, ermənilərin yeganə məqsədi  Sovet dövlətinin hər guşəsində yaşayan azərbaycanlılara zərbə vurmaqdı.

***

Təyyarə biletləri hələ bir ay əvvəldən alınmışdı. SSRİ-nin ali təhsil ocaqlarında qış tətilləri başlayırdı. Bakıya uçmaq üçün Akademiyanın Azərbaycandan olan müdavimləri çamadanlarını yığır, vətəndəki dost-qohumları üçün sovqat alırdılar. Beşinci kurs tələbələri üçün tətildən sonra Azərbaycan DTK-sında altı aylıq təcrübə məşğələləri başlayacaqdı. Elçin hələ imtahanlardan öncə Zeynalı tətilinin iki gününü onun qonağı qismində Naxçıvanda keçirməyi razı sala bilmişdi. Buna görə də dostlar uçuş biletini Bakıya deyil, Yerevana almışdılar. Oradan isə Naxçıvana cəmi iki saatlıq yol idi.

Min doqquz yüz səksən səkkizinci ilin yanvar ayı Muxtar respublika ərazisinə də sərt şaxtalarla gəlmişdi. Ora sanki taleyin ümidinə buraxılmışdı. Vəziyyət çox gər-

gin idi. Bir tərəfdən Ermənistan mütəmadi olaraq elektrik cərəyanının ötürülməsində problemlər yaradır, digər tərəfdən isə evlərin cüzi də olsa isidilməsi üçün kömür və dizelin qıtlığı hiss olunurdu.

Dostları qapının ağzında Elçinin qonaqpərvər valideynləri Nəsib əmi və Naibə xala qarşıladı. Onların məzlum baxışları evlərində məişət şəraitinin ürəkaçan olmadığından xəbər verirdi. Zeynal vəziyyəti duyduqda "Nəsib əmi, Moskvada sərt soyuqlara öyrəşmişik, qəti narahat olmayın. Əsas odur ki, Naxçıvan qavırması yeyəcəyik" sözlərini deyib valideynlərin üzünə təbəssümü qaytardı. Qeyd olunan yemək soyuq aylarda Qaraxanovlar ailəsinin əsas azuqəsindən sayılırdı. Naxçıvanda yaşadığı müddət bir qış da olsun belə Elçin "qavırmasız" qalmamışdı. Moskvada təhsil aldığı zamanlar Nəsib kişi hər ilin dekabr ayında oğlunun yerliləri üçün həmin azuqədən bir küpə mütləq göndərməli idi. Elçinə "pay" gətirən qatarı vağzalda onunla birgə Zeynal və Əhməd də qarşılayardı. Ona görə də Həşimov bu klassik yeməyin dadını əla bilirdi.

Nəhayət, dostlar evə keçdilər. Yaxşı ki, Nəsib kişi vaxtılə qonaq otağında kamin quraşdırmışdı. Bütün ümidlər qazla alışan bu kaminə bağlanmışdı. Lakin evə daxil olduqda uşaqlar paltonu çıxarmaq fikrindən daşındılar. Kamin çox zəif yanırdı. Demək olar ki, otaqları isitməyə gücü yetmirdi. Ana Vətəndən uzaq düşən Naxçıvanın durumu son dərəcə acınacaqlı idi. Zeynalın burnundan buxarın çıxmasına baxmayaraq o, "hər şey əladır, şam yeməyini dadmağa dəyər" sözlərini söylədi və süfrə arxasında yeri-

ni tutdu. Elçin dostunun onun ailəsinə dair etik yanaşmasını anladı və anasından vəziyyətlə əlaqədar məlumat qoparmağa çalışdı:

- Mama, heç nə anlaya bilmirəm. Elektrik var, qaz var. Bəs nə əcəb evimiz bu qədər soyuqdur?

- Nə danışırsan, oğul? Zeynalın da yanında biabır olduq! Oturmusan Moskvada, elə bilirsən ki, hər şey qaydasındadır…- Naibə xalanın səsi qəhərdən titrəyib qırıldı.

- Nəsə hadisə baş verib?

- Hadisə nədir? Fəlakət baş verir. Ermənilər hər dəqiqə işığımızı, qazımızı, yolumuzu kəsirlər. O tərəfdə soydaşlarımızı torpaqlarından qovmağa başlayıblar. Onlar da bir-iki gün Naxçıvanda baş girləyib Bakıya, yaxud başqa rayonlara üz tuturlar.

- Sən nə danışırsan, ana? Biz sovet hökumətində yaşayırıq, e! Elə şey olar?

- Olar nədir? Olur. Hər şey dediyim kimidir. Ermənilər bacardıqları qədər bizə pislik edirlər. Əvvəllər gedib oralardan şey-mey alardıq. İndisə ayağımızı Sədərəkdən o tərəfə basa bilmirik. İnan ki, uf demədən bizi güllələyərlər!

- Yaxşı, mama, həyəcanlanma. Zeynal bizdə iki gün qalacaq. Sonra qatarla Əlibayramlıya gedəcək...

- Qatarla?- Naibə xala yenə həyəcanlandı.

- Hə. Necə bəyəm?

- Qoy ehtiyatlı olsun. Ermənilər yolda vaqonlarımızı daşa basırlar, sərnişinlərə olmazın sözünü deyirlər. Sağ-salamat getsin. Məndən soruşsaydın, deyərdim Zeynal Naxçıvana gəlməsin, çünki hamımız narahat olacağıq.

Naibə xalanın dediklərini diqqətlə dinlədikdən sonra dostlar onun bişirdiyi yeməkləri dadmağa başladılar. "Qavırma" o qədər dadlı idi ki, bəd söhbətlərin hamısı yaddan çıxdı. Yalnız yorğan-döşəyə girdikdə Elçinlə Zeynal şəraitin acınacaqlı olduğunu anladılar. Yatdıqları otaq o qədər soyuq idi ki, müdavimlər üstlərinə yorğandan əlavə döşək atmağı da lazım bildilər.

Səhər tezdən Elçinin qardaşı Kamal hazır vəziyyətdə qonaqları qapının ağzında gözləyirdi. Növbəti səfər yaxınlıqda yerləşən Əliabad kəndinə idi. Elçinin qardaşının qayınatası onları xaş qonaqlığına dəvət etmişdi. Rəşid dadaş həddindən ziyadə qonaqpərvər insan idi. Azərbaycanın hər hansı bölgəsindən qonaq gəlirdisə o, mütləq quzu kəsməli idi. Sanki bundan böyük zövq alırdı. Ona görə də Zeynal Elçinin evindən hamı ilə xudahafizləşib çıxdı. Çünkü Rəşid qayınatanın məkanından Zeynal birbaşa vağzala, oradan da Əlibayramlıya yola düşəcəkdi.

Rəşid dadaşın məclisi həddindən artıq maraqlı keçdi. Qazsız qaldığından onun da evi çox soyuq idi. Lakin bu hal qonaqların deyib-gülmələrinə, lətifə söyləmələrinə, zarafatlaşmalarına mane olmadı. Siyasət də kənarda qalmadı. Son zamanlar ermənilərin bir vaxtlar qardaş saydıqları azərbaycanlılara qarşı əməlləri hamıda təəccüb doğururdu. Rəşid dadaş əminliklə bildirdi ki, bir-iki ilə soydaşlarımızın hamısı Ermənistandan qovulacaq. Onun dediklərini qudası Fikrət də təsdiqlədi. O, qonşu ölkənin Masis şəhərindən yenicə qovulmuşdu. Fikrətin dediyinə görə son bir ildə millətçi ermənilər azərbaycanlılara hədə-qorxu gəlir,

onların yaşadığı evlərin qapılarına nifrətlə dolu vərəqələr yapışdırır, Ermənistanı tərk etməyə məcbur edirlər. Hətta bir neçə nəfəri döyərək onlara ağır xəsarətlər də yetiriblər. Qonaqlıqda edilən söhbətlər SSRİ-nin paytaxtı Moskvanın ən nüfuzlu akademiyasında təhsil alan Elçinlə Zeynalda təəssüf və təəccüb hissi yaratdı. Gecə-gündüz onların beyninə yeridilən Sovet İttifaqı məkanındakı millətlərarası dostluq və qardaşlıq məfhumu aktuallığını itirməyə başladı. Elçin ermənilərin vəhşiliyi barədə iddialara dözməyərək Həşimova sual verdi:

- Bu nə deməkdir, Zeynal? Təcrübə keçdikdən sonra biz Moskvaya qayıdacağıq. Bu haqq-hesablardan sonra Bədəlyan, Apresov, Qukasyan hansı sifətlə üzümüzə baxacaq?

- Mən də onu düşündüm. Bizim Əlibayramlıda da ermənilər yaşayır. Hələ xatırlaya bilmirəm ki, nə vaxtsa azərbaycanlılar onlara güldən ağır söz desin.

- Ermənilər Vətənimizin hər guşəsində, özü də cənnət məkanlarında yaşayırlar. Əksər idarəetmə vəzifələri, yağlı iş yerləri, gəlir mənbələri onların əlindədir. Yəni bunlar o qədər qudurublar ki, artıq sahiblərinə də şıllaq atmağa başlayıblar?

Elçinlə Zeynalın söhbətinə Rəşid dadaşın qudası da müdaxilə etdi:

- Mən demirəm ermənilərin hamısı pis adamdır, Elçin. Əsla. Hətta biz Masisdən qovulanda, qonşuluğumuzda yaşayan bəzi ermənilər daşnaklarla mübahisə edib dava saldılar, müdafiəmizə qalxdılar.

- Sonu nə oldu? Orada ki, qala bilmədiniz, Fikrət əmi?

- Necə qalardıq? Vəziyyət günü-gündən gərginləşirdi...

- Dövlət strukturlarına, partiya təşkilatlarına, milisə müraciət etdinizmi?

- Nə danışırsan, Elçin? Millətçiləri idarə edən elə onların özləridir də.

- Deməli, bütün hadisələr əvvəlcədən quraşdırılıb. Belə getsə, Ermənistanda bir nəfər də olsun azərbaycanlı qalmayacaq.

- Dörd yüz min nəfərik e, Elçin!

- Noolsun? Heç olmasa yüz nəfərinizin ov tüfəngi var? Arxanızda heç kim durmayıb! Bilirsən ki, Fikrət əmi, arxalı köpək qurd basar!

- Nə bilim vallah, Elçin. Dünən Ararat rayonunda yaşayan xalam oğlu İzzət mənə zəng elədi ki, Ermənistan hökumətinin qərarı ilə onlardan ov silahından tutmuş dədə-babalarından yadigar qalan xəncərlərinə kimi yığmağa başlayıblar. Orada da əhalinin yetmiş-səksən faizi bizimkilərdir.

- Həə... Fikrət əmi, belə getsə aləm bir-birinə qarışacaq. Söylədiklərinin hamısını KQB-yə çatdıracağam. Görək nəticəsi nə olacaq.

Saf ürəkli tələbələr başa düşə bilmirdi ki, Sovet dövlətində bu cür hadisələr baş verir. Anlaya da bilməzdilər. Çünki onların sosializm ideolojiyası ilə pərçimlənmiş beyinləri Fikrət müəllimin dilindən çıxan millətlərarası "antidostluq" cümlələrini hələlik həzm etməyə qadir deyildi. Amma qonaqlıqdakı müzakirələr tələbələrin beyninə həqiqət toxumlarını səpməyə başladı.

Axşam saat altıda Zeynalı yola salarkən Elçin də anası kimi təşviş keçirməyə başladı. Artıq o da ermənilərdən hər cür təxribat gözləyirdi. "Allah eləməmiş, birdən yolda Zeynalın başına iş gələr" düşüncələrilə Elçin mənasız olsa da, dostuna məsləhət verdi. "Qəti başını vaqonun pəncərəsindən bayıra çıxartma ha, Zeynal. Meğri stansiyasında vaqondan enmə, daşnaklarla ünsiyyətə girmə" deyərək Qaraxanov dostuyla vidalaşdı. Elçinin həyəcanı və nigaranlığı yalnız səhər bitdi. O, sübh-tezdən Əlibayramlını sifariş edərək Zeynalın bacısı ilə telefon əlaqəsi yarada bildi. İradənin sözlərinə görə Zeynal artıq öz otağında çoxdan şirin yuxuya getmişdi.

"Vacib məsələlərdən biri də Ağayar müəllimlə görüşməkdir" fikrilə Elçin səhər saat onda Naxçıvanda yerləşən diviziyanın xüsusi şöbə rəisi polkovnik Mamedovun xidmət yerinə üz tutdu. Ağayar müəllim Elçinin mənəvi ağsaqqalı idi. Məhz onun təkidi ilə Qaraxanov Bakıda dövlət universitetinin hüquq fakültəsini buraxaraq ali Məktəbə getmişdi. Bunun üçün onların hər ikisi kifayət qədər vaxt və əmək sərf etmişdi. Hələ 1982-ci ildə Akademiyaya qəbul üçün Ağayar müəllim Elçinin namizədliyini irəli sürmüşdü. Qaraxanov Zaqafqaziya Hərbi Dairəsinin Xüsusi İdarəsində səkkiz imtahan verib hamısından əla qiymət almışdı. Lakin Mamedovun sələfi Vladimir Qeyqer Elçinin atası barədə "narkoman və spirtli içki düşkünü" imici yaradaraq onun Akademiyaya göndərilməsinə mane olmuşdu. Nə var, nə yox, Nəsib həkim başçılıq etdiyi xəstəxanada Qeyqerin yaxın dostu Qriqoryevi səriştəsizliyinə görə

tutduğu vəzifəsindən azad etmişdi. Bu uğursuzluq nə Mamedovu, nə də Qaraxanovu ruhdan salmamışdı. Cəmi bir ildən sonra onların hər ikisi arzularına çatmışdı.

Elçin Ağayar müəllimin bu yaxşılığını heç vaxt unutmurdu. Hər dəfə tətilə gələndə o, Mamedovla görüşürdü. Bu dəfə də elə oldu. Polkovnik Mamedov Elçini qapının ağzında şəxsən qarşıladı. Kabinetində kapitan Çerni də var idi. O Çerni ki heç vaxt Qaraxanovun təmiz azərbaycanlı olmasına inanmırdı. Çünki Elçin rus dilində o qədər səlis danışırdı ki, Çerni onun anasının, yəni Naibə xalanın rus millətinə aid olduğunu düşünürdü. Hətta bir dəfə o, Qaraxanovun rus dilinin qrammatikasına nə dərəcədə yiyələndiyini yoxlamaq məqsədilə böyük cümlələrdən ibarət mətni Elçinə təqdim etmiş və oraya işarələri yerləşdirməyi tapşırmışdı. Qaraxanov bu məsələnin də öhdəsindən tez bir zamanda gəlmişdi. Məhz bundan sonra onun Tiflis şəhərinə ezam olunmasına, yəni səkkiz imtahandan keçməsinə Çerni, necə deyərlər yaşıl işıq yandırmışdı.

Ağayar müəllimin kabinetində Elçin onun üçün Moskvadan gətirdiyi kiçik hədiyyəni təqdim etdi və həmən söhbəti Ermənistanda yaşayan azərbaycanlıların problemlərinə yönəltdi. Mamedov da, milliyyətcə ukraynalı olan Çerni də qonşu respublikadan amansızcasına qovulan azərbaycanlılar barədə məlumatı Moskvaya çoxdan ötürdüklərini bildirdilər. Lakin bu günədək problemin həlli barədə mərkəzdən cavab, yaxud rəy ala bilməmişdilər. Elçin Ağayar müəllimə təəssüflə fikrini çatdırdı:

- Очень жаль, товарищ полковник! Ведь, на эту информацию нужно безотлагательно реагировать. Смотрите, что творят армяне!

- Эльчин! И Черний, и я несколько раз призывали руководство КГБ действовать. Но никакой реакции не поступило!

- Агаяр Новрузович! Что-то творится неладное. Мы же в Советском Союзе живем! Вся его территория наша. Как можно издеваться над нами? Где же дружба народов? Я об этом завтра намерен доложить руководству КГБ Нахичеванской АССР.

- Ты думаешь мы их не информировали? Да они в курсе всех событий. Лучше отдохни и не забивай голову. Скоро тебе надо уезжать в Баку на практику.

- Понимаю вас, Агаяр муаллим. Но, все равно, о нездоровых выпадках соседней республики по отношению к моему народу я проинформирую наш территориальный орган. Пусть выйдут в центр и поделятся сведениями об опасной ситуации в приграничных районах Нахчывана с Арменией.

- Как знаешь, Караханов. Я буду не против, даже поддержу тебя. Но толку не будет. Отклоняясь от темы, у меня к тебе будет просьба: как только завершишь практику и поедешь в Москву, звони и ставь меня в известность. Мне нужно кое-что тебе передать для старого моего знакомого…

- Понял. Как и в прошлый раз для Гореловского?

- Да.

- Опять виноград с сыром?

-Обязательно. Зейнаддинский виноград и неграмский сыр.

- Это не проблема, товарищ полковник. Но смею заявить, что Гореловский - нехороший человек. И к нам, азербайджанцам, он относится как-то иначе.

- А как?

- Смотрит на нас сверху вниз.

- Ну, не знаю. Мы с ним учились в одной группе в Новосибирской школе “особого управления”. Он приезжал сюда, ко мне в гости. Понравился ему сыр и виноград. Тебе же не трудно рекламировать нахичеванские продукты?

- Нет, конечно. По возвращении в Академию, обязательно угощу его. Не беспокойтесь.

Mamedovla görüşdən sonra Elçin işlərini sabaha saxlamadı. O, Muxtar respublikanın xüsusi xidmət orqanına da baş çəkdi. Əvvəla Elçin DTK-da qeydiyyatdan keçməli idi ki, fövqəladə hadisə baş verən halda onu asanlıqla tapa bilsinlər. İkincisi də, Qaraxanov erməni faşistlərinin antiazərbaycan əməlləri barədə çekistlərə də mütləq məlumat verməli idi. Naxçıvan şəhərinin mərkəzi parkında daşnakların qətlə yetirdiyi azərbaycanlıların xatirəsinə ucaldılmış bir abidə var idi. Erməni faşistləri iyirminci əsrin əvvəllərində qaynar samovarları naxçıvanlıların belinə bağlayaraq onları əzab və işgəncə içində qətlə yetirmişdilər. Faciəyə aid oradakı heykəllər  əbədi olaraq Elçinin qəlbində iz buraxmışdı. Tarix yenidən təkrarlanırdı.

DTK-nın binasına daxil olan Qaraxanov kadrlar şöbəsinə üz tutdu. Rəis Rezniçenko onu səmimiyyətlə qarşıladı. Hətta o, Elçinə Akademiyada onun başını uca etdiyi üçün

kollektivi adından təşəkkürünü də bildirdi. Bir neçə dəqiqədən sonra Rezniçenkonn otağına Naxçıvan MSSR DTK-nın bütün məsulları toplaşdı. "Hamı buradadır! Əsl məqamdır. Ermənistandan qovulmuş azərbaycanlılar haqqında məlumatı məruzə etmək lazımdır" fikrilə Elçin söhbətə başlamaq istədi. Lakin onun nəzəri qarşı tərəfdə qərar almış Aramyanla Petrova sataşdı. Qaraxanov onları gördükdə, qaçqınlar barədə söhbət açmağın mənasız olduğunu dərk etdi və susmağa üstünlük verdi. "Mənası nədir? Nə desəm, Aramyan beş-altı yanlış məlumatı da üstünə qoyub Moskvaya ötürəcək. Yaxşısı budur ki, tətil vərəqəmə möhürü vurdurub evimə qayıdım". Qısa görüş və müzakirələrdən sonra Elçin evə tələsdiyini səbəb gətirərək KQB binasını tərk etdi.

Artıq tətilin son günü idi. Elçin Bakıya getməyə hazırlaşırdı. O, şad və şux görünürdü. Məşhur Batabatın Zor bulağının sərin suyu, Ordubadın Göy gölünün möhtəşəm mənzərəsi, müqəddəs Əshabi-kəhf onu ruhlandırmışdı. Sanki Akademiyanın beşillik təhsilinin əziyyəti və yükü çiyinlərindən götürülmüşdü. Qaraxanovu narahat edən məsələ yalnız Ermənistanda yaşayan soydaşlarının haqsızlığa düçar olması və həddindən ziyadə incidilməsi idi.

Elçin yol çantasını yığdığı zaman yadına iki il öncənin məzəli əhvalatı düşdü. 1986-cı ilin yay aylarında o, Rusiyanın Volqoqrad şəhərinə ezam edilmişdi. Fars dilini mükəmməl bildiyi üçün şəhərin pioner düşərgələrinin birinə baş tərbiyəçi təyin edilmişdi. Orada Əfqanıstanın xüsusi xidmət orqanları əməkdaşlarının "başı bəlalı" uşaqları

dincəlirdi. Tapşırıqları layiqincə yerinə yetirdiyinə görə rəhbərlik Elçini ongünlük məzuniyyətlə mükafatlandırmışdı. Doğma diyarında istirahət etdikdən sonra Qaraxanov yenidən Volqoqrada qayıtmalı idi. Yola hazırlaşarkən Elçin təyyarə biletinin vaxtına nəzər saldı. SSRİ dövründə Naxçıvandan Bakıya qatarla bir gün sərf etməkdənsə, naxçıvanlılar avtobus vasitəsilə iki-üç saata Yerevana gedərdi. Oradan təyyarə ilə SSRİ-nin istənilən şəhərinə uçmaq mümkün idi. Bir sözlə, Qaraxanov biletin vaxtını yoxlayıb, təyyarənin yola düşməsinə üç saatdan da az vaxt qaldığını anladı. Elçin onu yola salmağa gələn qohum-əqrəba ilə vidalaşmadan çamadanını da qoltuğuna vurub tələsik avtovağzala tərəf yüyürdü. Orada məlum oldu ki, iki saatdan bir Yerevan istiqamətində hərəkət edən avtobus on dəqiqə öncə avtovağzalı tərk edib. Elçin çarəsiz qalıb taksi saxladı və sürücüyə on manat əvəzinə on beş manat verib Yerevana yola düşdü. Yolun yarısında sürətlə hərəkət edən QAZ-24 markalı avtomobilin mühərriki sıradan çıxdı. Bir müddət yalvar-yaxardan sonra Elçin Ermənistanın Masis şəhərinə hərəkət edən erməni maşınının sürücüsünü istiqaməti Yerevana dəyişməyə razı saldı. Təbii ki, pul müqabilində. Erməninin qırıq-salxaq avtomobili birtəhər ki, Yerevanın “Zvartnots” aeroportuna çatdı. Qaraxanov bileti qıza uzatdıqda, ondan “sizin reysinizə minik bitib, təyyarəniz bir neçə dəqiqədən sonra havaya qalxacaq” cavabını aldı. Məzlum tələbənin aeroportun milis işçisindən tutmuş KQB əməkdaşına kimi müraciət etməsinə baxmayaraq bir nəfər də olsun belə ona yardım etmədi. Təyyarə isə Elçinin

gözünün önündə Volqoqrada istiqamət götürdü. "Yəqin ki, belə məsləhət imiş. Bəlkə də mən bu təyyarəyə minsəydim partlaya da bilərdi" düşüncələri ilə Qaraxanov korpeşman Yerevanın dəmiryolu vağzalına gəlib cəhənnəm istisi altında qızmış qatarla iki günə Volqoqrada çatdı.

İndi həmin hadisəni yada salan Elçin bir daha təyyarə biletinin vaxtını nəzərdən keçirdi. Bu dəfə hər şey qaydasındaydı. Bir saatdan sonra o, tələsmədən Naxçıvan hava limanına yollandı. Belə bir şaxtalı havada Qaraxanov qohumlarının onu yola salmasına icazə verməmişdi. Yalnız anası Naibə xanım həmişəki kimi Elçinin dalınca bir stəkan şirin su atdı.

# III FƏSİL

## HADİSƏLƏRİ İZLƏMƏKDƏ DAVAM EDİN

Qısa müddətli tətildən sonra Elçin, Zeynal, Sahil və Əhməd Azərbaycan SSR DTK-sında təcrübə keçmək üçün səhər tezdən kadrlar şöbəsində polkovnik Aleksey Ananyevi gözləyirdilər. Hələ 1983-cü ildə Elçin istisna olmaqla, Ananyev bu üç nəfəri seçərək ali Məktəbə göndərmişdi. Bir neçə dəqiqədən sonra şöbənin əməkdaşı Lyuba onlara yaxınlaşıb polkovnikin kabinetinə dəvət etdi. Ananyev müdavimlərə çox sadə və bir qədər səliqəsiz insan kimi göründü. Qaraxanov Zeynalın qulağına "heç olmasa saçını darayardı, kostyumuna uyğun qalstuk taxardı" sözlərini pıçıldadı. Aleksey diqqətlə tələbələrin zahiri görünüşünü gözucu süzərək onları salamladı və oturmağı təklif etdi:

- Я вас приветствую, друзья, в городе Баку. Добро пожаловать в КГБ Азербайджана. Прошу садиться.

Dostların hamısı bir ağızdan Ananyevlə salamlaşıb masa arxasına keçdilər. Polkovnik söhbətinə davam etdi:

- За лучшие показатели в учебе в Высшей школе от имени руководства КГБ Азербайджана выражаю всем вам благодарность. Своими знаниями, достижениями и дисциплиной вы еще раз доказали, что наш Комитет по результативности достойно занимает второе место в системе спецслужб Советского Союза.

Bu sözlərdən sonra Elçin yenə də dodaqaltı Zeynala xitabən "Qardaş mətləbə keçib şöbələrimizi təyin etsəydi, yaxşı olardı. Tərifləri saxlasın sonraya" sözlərini çatdırdı. Zeynal isə cavabında "Eşidəcək ha, yenə başlama! Lağ obyekti olmasını çoxdan müəyyən etmişəm, amma yaxşısı budur, susaq" sözlərini Elçinə söyləyib diqqətlə gözlərini Ananyevə zillədi.

Nəhayət, polkovnik müdavimlərin təcrübə yerlərini elan etməyə başladı. Onlar on bir gün kadrlar şöbəsində çalışmalı, bir neçə namizədin şəxsi işlərinə rəy bildirməli və sonra da əməliyyat strukturlarına ezam edilməli idilər. Görüşün sonunda Aleksey tələbələrdən harada qalacaqları ilə maraqlandı. Zeynalla Əhməd Bakıda mənzillərinin olduğunu bildirdilər. Lakin Sabirabaddan olan Sahil və Naxçıvanlı Elçin paytaxtda evlərinin olmadığını, qohumlarıgildə qalacaqlarını bildirdilər. İnsafən bu cavab polkovniki qayğılandırdı:

- Никаких родственников! Начальство за счет Комитета закажет вам номер в гостинице "Азербайджан". В течение одного месяца, будете жить там, а дальше – переселитесь в "Апшерон".

Bu təklifdən sevinən Qaraxanov Ananyevə minnətdarlığını bildirdi:

- Это прекрасный жест со стороны КГБ Азербайджана. Выражаем огромную благодарность руководству.

Kabinetdən çıxan kimi Əhməd üzünü Elçinə tutub narazılığını bildirdi:

- Elə bu? Biz əməliyyatçıyıq! Kadrların bizə nə dəxli?

- "Sakit ol, gizir, xəmir çox su aparar". Stalinin təbirincə desək, – hər şeyi kadrlar həll edir. Biz də ilk təcrübəmizi kadrlardan başlamalıyıq.

- Görək də, Elçin, şəxsi işlər bizlərə nə vəd edəcək...

- Vaxt itkisindən başqa heç nə.

Müdavimlər Ananyevin kabinetindən çıxar-çıxmaz Elcan Aslanovla rastlaşdılar. Düz iki il idi ki, onlar bir-birlərindən ayrı düşmüşdülər. Elcan artıq əks-kəşfiyyat şöbəsində xidmət edirdi. Polkovnik Ananyevin dediyinə görə çalışqanlığı və təşəbbüskarlığı ilə o, həmkarlarının rəğbətini qazanmışdı. Aslanov gələcəyin kadrlarını gördükdə çox sevindi və onlara ürək sözlərini çatdırdı:

- Şadam ki, yenə də bir yerdəyik. Necə deyərlər, macəralar davam edir. Elçin, şöbə rəisimlə danışmışam. "Kadrlardan" sonra mənin yanımda, yəni əks-kəşfiyyat şöbəsində təcrübə keçəcəksən. Farsdilli olduğuna görə mənə su kimi lazımsan.

- Ayıb deyil, Elcan? O elə mənəm da! Mütləq birlikdə xariqələr yaradacağıq...

- Yaxşı ki, Qaraxanov, bu zarafatlarını tərgitməmisən. Kak raz, şöbəmizdə elə hamımız zarafatcılıq. Amma işimiz işdir. Шаг налево, шаг направо – расстрел на месте.

- Aydındır, yoldaş baş leytenant! Səninlə mühüm söhbətlərim olacaq, daşnaklar barədə.

Bu zaman dostlar koridorda ağır addımlarla irəliləyən bir nəfəri gördülər. O, Elcanla salamlaşıb öz kabineti-

nə daxil oldu. Elçin onun ardınca baxaraq, Aslanova sual verdi:

- Bu kimdi, Elcan?

- Oo, xalq arasında bu insana Rodion Əkbəroviç deyərlər.

- Birtəhər dedin e, bu sözləri, qardaş. Böyük adamdır?

- Ananyevin müavinidir, kapitandır. O, burada doğulub.

- Bakıda?

- Xeyr, kadrlar şöbəsində!

- Necə yəni, anlamadım.

- Bəli, Elçin. İlk gündən Rodion Əkbəroviç Səfiyevi bu şöbəyə necə təyin ediblərsə, demək olar ki, burada da yaşayır. Yalnız fövqəladə hallarda əməliyyat şöbələri yerləşən qarşıdakı əsas binamıza pəncərədən nəzər yetirir. Vəssalam.

- Lap məni çaşdırdın ki, Aslanov. Bu adam əsas binamızda olmayub ki?

- Dedim axı, Rodion Əkbəroviç kadrlar şöbəsinin sakinidir. Həddindən artıq kommunistdir. Amma təmiz adamdır. Rəhbərlik desə "öl" – öləcək, "qal" – qalacaq.

- Bəs özü?

- Qalan suallara fəaliyyət əsnasında özün cavab taparsan.

Elcanın Səfiyev barədə söylədikləri Elçini düşüncələrə qərq etdi. Bu tip insanlar dünyanın hər yerində var, xüsusən də Almaniyada. Lakin belələri azərbaycanlıların mentalitetinə qəti uyğun gəlmir. Elçin bu cür insanları Mosk-

vada "robot" adlandırırdı, yəni şəxsi rəyləri olmayanlar. Təbii ki, əmr əmrdir, göstəriş də ki, göstərişdir. Lakin əmri də, göstərişi də verən insandır, adi insan – birağızlı, ikigözlü və ikiqulaqlı. Onun verdiyi ağlasığmaz göstərişləri ən azı elə özü ilə də müzakirə etmək olar. Bəlkə gecədən hansısa problemlə, bəd xəbərlə üzləşib, yaxud yuxuda kabus görüb? Hər şey ola bilər. Lakin Rodion kimilərin qəlbində belə hisslər olmur. Həmin insanlar rəhbərlik üçün yaxın, bəşəriyyət üçün yad və təhlükəlidir. Onlar istər su kimi pak olsun, istərsə də neft kimi bulanıq - belə keyfiyyətlərə malik insanlar mütləq zalımlaşacaq.

Ananyevin köməkçisi Lyuba müdavimləri kadrlar şöbəsinin işçilərinə təqdim edib onların təcrübə toplamalarına start verdi. Elçinin təhkimçisi kapitan Ramis Diniyev oldu. O, seyfdən bir neçə namizədin şəxsi işini götürərək Elçinə təqdim etdi və axşama qədər ondan yazılı surətdə rəy alacağını bildirdi. Kadrlar şöbəsində fəaliyyətə başlamazdan əvvəl Elçin bayıra çıxıb qarşı tərəfdəki binaya daxil oldu. Oradan da birbaşa Elcanın kabinetinə üz tutdu. O, Ermənistanda soydaşlarımıza qarşı törədilən zülm və təxribatlardan, onların doğma yurdlarından qovulmasından, Naxçıvanın blokadaya salınmasından, Bakı-Noraşen qatarına olan basqınlardan Elcana məlumat vermək fikrində idi. Qaraxanov ürək yanğısı ilə dostuna çox şeyləri anlatdı. Müzakirələrin sonunda Elçin Aslanova xahişini bildirdi:

- Sən sadəcə söylədiklərimi rəhbərliyə çatdır. Məqsədim budur ki, həmin məlumatlar təcili Moskvaya ötürülsün...

- Nə qoyub, nə axtarırsan, ay Elçin? Sadaladığın təxribatları ermənilər Azərbaycanımızın bütün sərhədyanı ərazilərində törədir. Qarabağda isə "saqqallılar" adlanan erməni terrorçuları, hələ mən deyərdim faşistləri peyda olublar.

- Bəs bu məlumatları Moskvaya məruzə etməmisiniz ki?

- Bütün məlumatlar əsasında ətraflı arayış tərtib edib SSRİ KQB-sinin rəhbərliyinə, şəxsən Çebrikova göndərmişik.

- Cavab?..

- Tutarlı cavab yoxdur. Sadəcə "əməliyyat şəraitini izləməyə davam edin" deyirlər.

Elçin stola çöküb başını əlləri arasına aldı:

- Bunlar lap başlarını itiriblər, deyəsən. Elcan, millət qırılır, e!

- Təəssüf ki, Elçin bundan savayı əlimizdən heç nə gəlmir. Aramızda qalsın, bizdə olan məlumata görə erməniləri kimlərsə mütəmadi olaraq silahlandırır.

- Kimlər?- Elçin oturduğu yerdən dik atıldı:

- Özün bilmirsən?- Aslanov sağ çiyni üstündən Elçinə qəribə bir nəzər saldı, - Bizimkilərin isə silahları, yəni, ov tüfəngləri yığılır. Ermənistanla sərhəd zonalarda və Qarabağda yaşayan insanlarımızdan söhbət gedir.

- Qulaqlarıma inana bilmirəm ki, Elcan, Sovet ittifaqında bu kimi hadisələr baş verir.

- Allah bizləri axırından qorursun, Qaraxanov!- Elcan qələmin arxasıyla masanı taqqıldatdı. Sanki dediklərinə özü də inanmırdı.

Elçin də öz növbəsində ümidsiz şəkildə yerindən qalxdı:

- Nəysə, Aslanov, gedim "kadrlara"... təcrübəmin dalınca. Axşam gələrsən mehmanxanaya. Söhbətləşərik bir...

- "Kadrlarda" səni kimin yanına veriblər?

- Nə bilim, vallah, bir cürə adı da var – Diniyev... Ramis.

- Həə, bildim.

- Nəsə şübhəli danışdın. Bizimkilərdən deyil, Elcan?

- Ehtiyatlı ol. O, buraya Belarusiyadan beşillik ezam edilib.

- Necə deyərlər, "kadrlar mübadiləsi". Bir sözlə, sağ ol, Aslanov.

- Salamat qal, dostum.

Elcanla görüşdən sonra Elçin bir neçə namizədin şəxsi işlərini qarşısına düzüb, onların içindəki sənədləri diqqətlə təhlil etməyə başladı. Amma "saqqallılar" barədə məlumat onun beynini dəlirdi. "Bu nə deməkdir?", "Daşnaklar bu günədək fəaliyyətdəymişlər ki", "Bizimkiləri nə üçün tərksilah edirlər?", "Yəqin, nəsə hazırlayırlar!" kimi suallar Elçini rahat buraxmırdı. Elə bu məqamda Qaraxanovun gözü namizəd Sanasar Qriqoryanın sənədlərinə sataşdı. Elçin ən çox sevdiyi "keçi can hayında, qəssab piy axtarır" atalar sözünü təkrarlayaraq erməninin qovluğunu götürüb düz Diniyevin kabinetinə üz tutdu. Otağa daxil olduqda Qaraxanov sərt şəkildə iradlarını bildirməyə başladı:

- Ramis müəllim, baxıram şəxsi işlərə... orada Qriqoryanın da namizədliyi var!

- Ну да, вроде, я тоже в курсе. Ты прочел его досье? Чем-то не доволен?

- Sözün düzü, onun sənədlərinə nə baxmışam, nə də ki, oxumuşam...

- Так, почему же вы такой взволнованный и беспокойный?

- Qəti narahat deyiləm... sadəcə qulaqlarımdan tüstü çıxa bilər...

- Вы как разговариваете со старшим оперуполномоченным?

Bu sözlərdən sonra Elçin də dözməyərək rus dilinə keçdi:

-Товарищ старший оперуполномоченный! У меня претензии не конкретно к этому кандидату, я его даже не знаю, а к его фамилии.

- Какие могут быть претензии к фамилии человека, товарищ практикант?

- Дело в том, что в последнее время резко обострились отношения между армянами и нами. Наших людей избивают, изгоняют из территории соседней республики. Уже появились вынужденные переселенцы. Над азербайджанцами измываются и в НКАО.

- Вот, видишь? Только приехал из Москвы и хочешь взять быка за рога. Тебе дали задание изучить личные дела... так изучай, Караханов!

- Вы, товарищ Диниев, – мой наставник в период практики. Не хочу с вами спорить, портить отношения. Но поймите меня, я только что приехал из города Нахчыван. Знаете, сколько там азербайджанцев из Армении, которых вынудили покинуть свои дома? Многих из них оскорбили и избили. Мы же советские люди! Как такое возможно?

- Так, причем тут Григорян?

- Да при том, что нельзя при такой напряженной обстановке лелеять лиц армянской национальности в стенах КГБ Азербайджана. Надо учесть реакцию народа, товарищ капитан!

- По-моему, у вас, товарищ Караханов, сильно развито чувство национализма.

- Да бросьте вы свои глупые умозаключения, товарищ Диниев.

- Все, мне надоел наш диалог! Я доложу о нашем, мягко говоря, диспуте руководству. И буду настаивать, чтобы те в отношении вас составили "жирное" письмо в адрес высшей Школы.

- "Əlin elə yağlıdırsa, öz başına sürt", Ramis müəllim. Bir o qalıb ki, işimi-gücümü atıb səninlə uzun-uzadı çənə-döyməyə qoşulum...

- Не понял, Караханов.

- Говорю вам, что личное дело Григоряна подлежит отсеву. И я добьюсь этого.

Bu sözlərdən sonra Elçin əsəbi vəziyyətdə Diniyevin kabinetini tərk etdi. "Nə vecinədir! Allah bilir, bəlkə özü də ermənidir, ona görə də Qriqoryanı müdafiə edir"- fikirlərlə o, nahar etmək üçün birinci mərtəbəyə endi. Yeməkxanada Elçin "O nə atalar sözüydü, mən istifadə etdim – "əlin elə yağlıdırsa, öz başına sürt"? Dəhşət! Özümdən Azərbaycan dili icad edirəm" sözlərini təkrarlayaraq isti borş sifariş etdi.

Yemək əsl Ukrayna borşunun dadını verirdi. Elçin beş il ərzində Moskvada "borş" adı altında "şi" yeməkdən

bezmişdi. Kimin ağlına gələrdi ki, Azərbaycan aşpazları ruslardan dəfələrlə dadlı borş hazırlayarmış. Nahardan sonra Qaraxanov iş yerinə qayıdırdı ki, pilləkanlarda onu Lyuba yaxaladı. Qadın təşviş içində idi. O, Qaraxanova Rodionun onu axtardığını bildirdi:

- Эльчин, вас в кабинете ждет Родион Акперович.

- А что случилось?

- Просто так. Хочет побеседовать с вами, как говорится, поближе познакомиться.

- Спасибо, понял. Иду к нему.

Əkbəroviçin kabinetinə daxil olduqda, Elçin anladı ki, Diniyevlə etdiyi söhbət artıq Rodionun ovcundadır. Kapitanın elə ilk sualı da bu mövzuda oldu:

- Elçin, soxbeti uzatmiyagam... ama...

Qaraxanov Rodionun azərbaycan dilində çətinliklə danışdığını həmən hiss etdi. O, həm də kapitan üçün hansı dilin doğma olduğunu müəyyən etməyə çalışdı. Lakin tutarlı cavab tapa bilmədi. Ona görə də Elçin söhbəti rus dilində davam etdirmək qərarına gəldi:

- Родион Акперович, можете говорить на русском. Мы же в стране Советов живем, обязаны говорить на русском.

- Как это понять, Эльчин? Как иронию?

- Нет, конечно, просто вам трудно говорить на азербайджанском, поэтому решил упростить вам задачу.

- Так вот, Караханов, пока твоё ехидство отложим в сторону. Ко мне обратился товарищ Диниев и выразил

свое недовольство по поводу какого-то кандидата на работу в КГБ.

- Товарищ капитан, не какого-то, а армянина по национальности. Да, я выразил свой протест. Чёрт-те что творится с нашими сородичами в Армении.

- А что творится?

Bu sualdan sonra Elçin Rodionun dünyadan tamamilə təcrid olunduğunu başa düşdü. Elə də olmalıydı. Elcan demişkən, Əkbəroviç bütün enerjisini KQB-yə saf kadrların cəlb edilməsinə yönəltmişdi. Buna baxmayaraq, Qaraxanov Rodiona hazırki vəziyyətdə ermənilərin Azərbaycan təhlükəsizlik orqanlarına qəbulunu məqsədəuyğun hesab etmədiyini bildirdi. Yaranmış vəziyyəti ətraflı təhlil edərək Rodion Diniyevə zəng etdi və müvəqqəti olaraq Qriqoryanın şəxsi işini bir kənara qoymasını məsləhət gördü. Səfiyev Qaraxanova onu da bildirdi ki, Bakı çoxmillətli şəhər, Azərbaycan isə tolerant bir ölkədir. Ona görə də milli məsələləri qabartmaq olmaz. Elçin Ali Məktəbdə bu tip söhbətlərlə addımbaşı rastlaşırdı. O, dərhal kapitanın cavabını verdi:

- Mən özüm tolerant bir insanam, ancaq bu qədər də yox. Bakıda yaşayan və Vətənimi sevən insanlara canım qurbandı. Lakin ermənilərin bizlərə qarşı vəhşiliklərini bağışlasaq, sabahısı gün ayaqları yer alacaq, Rodion müəllim!

Deyəsən, Əkbəroviç Elçinin etdiyi söhbətin mənasını tam başa düşdü və hətta razı qaldı. O, yalnız bir deyimi anlamadı və Qaraxanova sual verdi:

- Эльчин, ты сможешь объяснить мне значение выражения “джаным гурбан”?

- Конечно, товарищ капитан. Это выражение означает, что я смогу отдать жизнь за истинного патриота нашей Родины. А на нашем чекистском оно означает, что “с ним в разведку пойду”.

Sözün düzü, Rodionla görüşdən Elçin məmnun qaldı, ancaq yeganə bir şey ona çatmırdı: Əkbəroviç hansı millətin nümayəndəsidir? Bu sual Qaraxanovu illərboyu rahat buraxmadı.

Otağına qayıdan Elçin Ramisin pərt sifətiylə üzləşməli oldu. Lakin bir kəlmə belə söyləmədən öz masasına keçdi. Bundan sonra Diniyev Qaraxanovun qarşısında nə ağ dindi, nə qara. Münasibətlər yalnız iki kəlmənin üzərində qurulurdu: “bəli”, “xeyr”.

İşdən sonra Elçin çamadanının dalınca dayısıgilə üz tutdu. Fərəməz dayı dörd uşağı ilə birgə Bakının Xutor qəsəbəsində ikiotaqlı balaca daxmada yaşayırdı. Buna baxmayaraq o, dəhlizdə Elçin üçün kiçik güşə ayırmışdı. Lakin Qaraxanov dayısına əziyyət vermək fikrində deyildi. O, şam yeməyindən sonra çamadanını da götürüb “İnturist” mehmanxanasında onunla Sahilə ayrılan otağa gəldi.

## IV FƏSİL

## BAKI VƏ YEREVAN

İyirmi səkkiz fevral 1988-ci il. Bu tarix ömürlük Elçinin yaddaşına həkk olundu. O, kadrlar şöbəsinə gəldikdə, Zeynal təhkimçisi Şərifovla Sumqayıt hadisələrini müzakirə edirdi. Oradakı vəziyyət dünəndən başlayaraq gərginləşmişdi. Necə deyərlər, yeni erməni-azərbaycanlı davası başlayırdı. İğtişaşların nə üçün Sumqayıtda baş verdiyini heç kim dəqiq bilmirdi, amma aralarında söhbət edəndə əməliyyatçılar eyni sual və cümlələrdən istifadə edirdi: "Bəs nə bilirdilər? Belə də olmalı idi! Moskvaya göndərilən arayışların sayını itirmişik. Nə üçün şəhər KQB-si vaxtında vəziyyəti təhlil etməyib?" Hamı iynə üstündə oturmuşdu. SSRİ məkanında bu cür hadisələr baş verə bilməzdi.

Sadə insanlar elə düşünürdü ki, SSRİ Kommunist Partiyası düzgün siyasət yeridərək millətləri işıqlı gələcəyə aparır. Camaat hələlik dövlətdən ümidini qırmamışdı. Azərbaycanlılar əmin idi ki, ermənilərin sovet ideologiyasına qarşı əməlləri ifşa ediləcək, neqativ halların qarşısı tam şəkidə alınacaq. Heç kim anlaya bilmirdi ki, ermənilər tərəfindən törədilən qanunazidd hərəkətlər artıq neqativ hal deyil, Sovet İttifaqında vətəndaş müharibəsinin başlanğıcıdır.

Sumqayıtda hər iki millətdən olan ölü və yaralıların sayı artırdı. Bəd xəbərlər Moskvadakı azərbaycanlı müda-

vimlərinə də çatmışdı. Hüseynlə Sahib gündə iki-üç dəfə Bakıya zəng edib əməliyyatçılardan vəziyyəti öyrənməyə çalışırdılar. Onların yaxın qohumları Sumqayıtda yaşayırdı. Lakin Elçingil tələbələrin suallarına cavab tapa bilmirdi. Hadisələrin qəflətən başlanması hamını çaş-baş salmışdı. Əməliyyatçılar fikirlərini yalnız fərziyyələr üzərindən söyləyirdi.

Nəhayət, SSRİ-nin Mərkəzi Televiziyası da Sumqayıt şəhərindəki iğtişaşlar barədə məlumat verməyə başladı: bir qrup Azərbaycan milliyyətçiləri Sumqayıt şəhərində erməniləri qətlə yetirib. Azərbaycan DTK-sında nadir hallarda rəisin kabinetində televizor olardı. Xoşbəxtlikdən Elcanın rəisi Yaqub Davudoviçin otağında "Rubin" markalı televizor var idi. Son günlər şöbənin əməkdaşları "Xəbərləri" dinləmək üçün məhz bu kabinetə yığışırdılar. Lakin ağ-qara ekrandan azərbaycanlıların xeyrinə bir söz belə deyilmirdi. Televizor KQB-nin şəxsi heyətinin olan-qalan kefinə də soğan doğrayırdı. Mərkəzə göndərilən dəqiq məlumatlar sovet xalqının diqqətinə təhrif edilərək çatdırılırdı. Həmin ərəfədə sayı qırx mini ötmüş azərbaycanlı qaçqın və məcburi köçkünlərin dərdi barədə danışmaq SSRİ televiziyasının yadına da düşmürdü.

"Bu nə deməkdir e?" - əməliyyatçı İman Abdullayev əsəbindən əlini dizinə vurub Yaqub müəllimin otağını tərk etdi. Elcan isə müzakirələr aparmaq üçün Elçinlə birgə öz kabinetinə üz tutdu. Onların dalınca otağa Zeynal və Əhməd də gəldi. Elçin dərhal söhbətə başladı:

- Elcan, bilirsən ki, Azərbaycanda erməni millətinə mənsub olan insanlar ən çox Bakıda yaşayır.

- Düzdür, Elçin, bunu o günü də demişdin.

- Ermənistandan zorla qovulan əksər soydaşlarımız da paytaxtda məskunlaşır.

- Nə düşünürsən, Qaraxanov? Sən həmişə ağıllı nəticələr çıxarırsan.

- Nəysə, tərifi qoyaq bir kənara. Məntiqə görə iğtişaşlar Sumqayıtda deyil, Bakı şəhərində baş verməliydi. Sumqayıt hadisələrinin başlanması və davam etməsində erməni şovinistləri ilə yanaşı, bizimkilərin də əli ola bilər...

"Bizimkilər" sözünü eşitdikdə Əhməd söhbətə müdaxilə etdi:

- "Bizimkilər"? Yəni Azərbaycan KQB-sinin rəhbərliyini nəzərdə tutursan?

- Yox, əşi! Moskvadakılar olan yerdə bizimkilər kimdir, e. Görmürsən, əlləri-qolları bağlıdır?!

- İndi mənə çatdı "bizimkilər" sözünün altında kimlər gizlənir.

Kiçik şərhdən sonra Elçin sualını bir daha Elcana yönəltdi:

- Sənə elə gəlmir ki, bu hadisələr böyük oyunun tumurcuqlarıdır? Gülləri sonra açacaq.

- Sübutların var?

- Nə qədər desən! Birincisi, soydaşlarımızın vəhşicəsinə döyülüb Ermənistandan qovulması. İkincisi, onların Qarabağda deyil, məcburən ölkəmizin digər regionlarında yerləşdirilməsi. Üçüncüsü, Ermənistanla sərhədi olan rayonların əhalisindən ov tüfənglərin və hətta xəncərlərin yığılması.

Söhbətə Zeynal da qoşuldu:

- Dördüncüsü, SSRİ mətbu orqanlarında Azərbaycana, onun xalqına qarşı mütəmadi olaraq yanlış məlumatların tərtib edilməsi. Beşincisi də, Qorbaçovun ətrafındakı erməni daşnaklarının...

Zeynalın sözü bitməmiş otağa İman da daxil oldu. Əsəbdən tir-tir əsən Abdullayev suallarla dolu fikirlərini söyləməyə başladı:

- Çox maraqlıdır, nə üçün SSRİ KQB-sinin əməkdaşları bir ucdan Bakıya gəlirlər? Görəsən, bunları paytaxtımıza dəvət edən kimlərdir? Məncə Sumqayıt hadisələrində Moskvanın barmağı var.

Elcan İmana üzünü tutub "ta o qədər də yox, elə olsaydı, qonaqlar burda deyil, Sumqayıtda oturardılar" sözlərini çatdırıb bir balaca onu sakitləşdirdi.

İğtişaşların ikinci günü də Sumqayıtdan həm ermənilərin, həm də azərbaycanlıların ölüm xəbərləri gəlməkdə davam edirdi. Bir-iki nəfər istisna olmaqla, əksər DTK işçiləri dolğun və dürüst məlumatlardan tam təcrid olunmuş vəziyyətdə idilər. Hətta bəzi əməkdaşlar hadisələri yerində təhlil etmək üçün özbaşına Sumqayıta yola düşürdülər. Lakin hərbi və polis postlarından keçmək mümkün olmurdu. Nəhayət, faciənin dördüncü günü Bakıya da bəzi məlumatlar gəlib çatdı: Sumqayıtda erməniləri qətlə yetirən elə həmin millətin bir neçə nümayəndəsi imiş. Hətta onların içində erməni əsilli qadının da olması barədə söhbətlər gəzirdi.

Sumqayıtdakı hadisələrə dair məlumatları dəqiqləşdirmək üçün Əhmədlə Elçin Elcanın yanına getdilər. Aslanov

sanki dostların gəlişini çoxdan gözləyirmiş kimi həyəcanla onlara məlumat verməyə başladı:

- Qatilin ən yekəsi Qriqoryan familiyalı erməni olub, qardaşlar! Təsəvvür edirsiniz? Erməni ermənilərin qanına qəltan edirmiş. Bu azmış kimi, o, bir neçə erməni qızını zorlayıb da...

Əhməd Elcanın sözlərini yarımçıq qoydu:

- Bunlar nə imiş, ə? Lap vəhşi imişlər ki! Elçin deyirdi axı, bu hadisələr hansısa oyunun başlanğıcıdır.

- Ən dəhşətlisi də budur ki, Əhməd, Qriqoryanın bandit dəstəsində həm ermənilər, həm də azərbaycanlılar olub. O köpək oğlunun ermənisi mütləq yuxarılardan göstəriş alıb. Baxarsız! Dediklərimi yadınızda saxlayın.

Elçin də öz fikirlərini bölüşdü:

- Bir ona əminəm ki, Elcan, Qriqoryanı yüz faiz Mərkəz ortaya atıb. Hadisələr yekunlaşan kimi onu ya aradan çıxaracaq, ya da yox edəcəklər.

- Mən də o fikirdəyəm, Elçin. Artıq o, həbs olunub, Bakıya gətirilir. Yanında iki nəfər də erməni əsilli qatil var.

- Mən gedirəm Diniyevin yanına. Kaş ki, bu faşist erməni Ramisin KQB-yə işə götürmək istədiyi o Qriqoryan ola! Onda nə edəcəyimi bilirəm!

Elçin kadrlar şöbəsinə qayıdıb Diniyevin kabinetinə tərəf üz tutdu. Lakin Ramis onu koridordan səsləyib ayaq saxlamasını xahiş etdi. Sanki müzakirə ediləcək söhbətin məğzini anlamışdı:

- Elkin, bilirem ne uçun meni axtarırsın...

- Товарищ капитан, не мучайте себя, говорите на русском.

- Я знаю почему ты меня ищешь и о чем, точнее, о ком пойдет речь.

- Значит, вас, все-таки, мучает совесть.

- Эльчин, знаю, что у вас нервы на пределе, но прошу соблюдать субординацию.

- Какая там субординация, если везде господствует горе...

- Я хотел высказать свою позицию по отношению ко своему кандидату Григорян. Действительно, мысль о нем не давала мне покоя. Очень неудачный кадр! Но Санасар не имеет никакого отношения к убийце армян Григорян в Сумгаите. Просто, его однофамилец. К тому же, он родился и вырос в Баку.

- Вот, видите, товарищ Диниев, вместо того, чтобы мирно обсудить его кандидатуру в свете нынешней обстановки, вы доложили о моем якобы недостойном поведении руководству.

- Ну ведь, ничего страшного не произошло. Они, наоборот, вас поддержали.

- Надеюсь, об этом инциденте, товарищ старший оперуполномоченный, Москву не проинформировали...

- Обижаете, товарищ практикант, я не такой, уж, гадкий человек.

- Поверю вам на слова. Через пять месяцев поеду сдавать государственные экзамены. Тогда все и станет на свои места. Вам еще долго у нас служить.

- Вот, увидите Эльчин, может, мы и друзьями станем.

- А чем черт не шутит. Но только у меня к вам один вопрос: у вас есть армянские корни?

- Нет, конечно. Я - северокавказец. Хоть, и не мусульманин, но кровь - горская.

- Понятно. Надеюсь, подружимся.

"Satmaz məni, o durumda deyil. Rəhbərlik də onun sözlərinə əhəmiyyət verən deyil, onsuz da hamısı başını itirib!" fikirlərilə Elçin təcrübə keçdiyi otağa daxil oldu. Orada Zeynalla Sahil onu gözləyirdi. Rodion müdavimlərin hamısını yanına çağırmışdı. Dostlar Əhmədi də götürərək Əkbəroviçin kabinetinə daxil oldular. Kapitan həmişəki kimi tələbələri gülərüzlə qarşıladı:

-Yəqin ki, uşaxlar, вы в курсе последних событий в республике?

Elçin Rodion müəllimə rus dilində danışmağı tövsiyyə etmək istədi, lakin fikrindən daşındı. "Onsuz da Azərbaycan dilində danışmağı bacarmayacaq, ona ağıl verməyimə ehtiyac yoxdur" fikri ilə Qaraxanov söhbətə davam etdi:

- Конечно, Родион Акперович. Как можно не переживать за столь страшные события?

- Да! Кошмар какой-то! Погибают мирные люди! Представляете?

Rodionun Sumqayıt hadisələrinə bu cür başdansovdu yanaşması onun başqa bir aləmdə yaşamasından xəbər verirdi. Əslinə qalsa, onda günah yox idi. Kapitan özünü nümunəvi sovet vətəndaşı və əsl kommunist kimi aparırdı. SSRİ-ni təşkil edən milli respublikalarda partiya və dövlət orqanlarının yeganə rəsmi ünsiyyət vasitəsi rus dili idi. Ona görə də ana dilində danışanları geridə qalmış insan kimi qiymətləndirir, onlara yuxarıdan aşağı baxır, yeri

gələndə də "çuşka" damğasını vururdular. Əkbəroviç rus dilini səlis bilirdi. Bu da o demək idi ki, artıq o, həyatında bütün nailiyyətləri əldə edib və rahatlıqla firavan həyat sürə bilər. Lakin Azərbaycanda cərəyan edən proseslər Rodionun bütün planlarına təhlükə yaradırdı. Bu tip insanlar aradabir Azərbaycan dilindən istifadə etməli olurdular. Çünki KQB-də işləyən əsl Vətən övladları, o cümlədən Bakı rusları Sov.İKP MK-nın Azərbaycana qarşı ədalətsiz mövqeyini dərk etməyə və bir çox hallarda doğma dili istifadə etməyə çalışırdılar. Rodiondan rus dilində daha yaxşı danışan müdavimlər də Azərbaycan dilindən istifadə edərək sanki Əkbəroviç kimiləri ilə mübarizə etməyə çalışırdılar. Azərbaycan dilində danışmaqdan əziyyət çəkən Səfiyev fikirlərini rus dilində izah etmək məcburiyyətində qalırdı.

Rodion özünün və rəhbərliyin adından kadrlarda göstərdiyi fəaliyyətə görə təcrübəçi müdavimlərə təşəkkürünü bildirdi və onları yeni sahələrə göndərmək barədə qərarı açıqladı:

- Tecrubə meşqelelərini davam etdirmek uçun Ehmedə keşfiyat, Elçin, Sahil, Zeynala ise eks-keşfiyat şöbelerinə teyinat verilib. Əvvəlcədən danışıldığı kimi Elçin Elcanın распоряженияcында olagak.

Fars dilini bildiyi üçün Qaraxanov fəaliyyətini islam inqilabı zamanı qonşu İrandan Azərbaycan Respublikasına pənah gətirmiş məcburi köçkünlərlə qurmalı idi. Yəni, onlarla söhbət aparıb SSRİ ərazisinə keçmələrinin əsl səbəb və məqsədini araşdırmalı idi.

***

**Yerevan şəhəri, mart 1988-ci il**

Ermənistanın KQB-sində ruh yüksəkliyi müşahidə olunurdu. Bunu da onunla izah etmək olardı ki, onlar "Sumqayıt" əməliyyatını uğurla həyata keçirmişdilər. Kəşfiyyat və xüsusən də beşinci şöbənin zabitləri Ermənistanda və digər ölkələrdə yaşayan dostları, tanışları, qohum-əqrəbaları ilə uğurları bölüşür, Azərbaycan türklərinə qurduqları tələ, onlara qarşı edilən vəhşilikləri və başqa nailiyyətləri barədə onlara məlumatlar ötürürdülər. Ən çox canfəşanlıq edən beşinci şöbənin rəisi polkovnik İqor Yesayan idi. O İqor ki, gözlərini dünyaya Qarabağın Yesxaok kəndində açmış, türkün çörəyini yeyib Azərbaycan SSR-in təhlükəsizlik orqanlarının tövsiyəsilə ali məktəbə qəbul edilmişdi. Akademiyanı bitirdikdən sonra bir müddət Azərbaycan DTK Dağlıq Qarabağ şöbəsində fəaliyyət göstərmiş, əldə etdiyi "nailiyyətlərə" görə Ermənistanın xüsusi xidmət orqanlarında yüksək vəzifəyə təyin edilmişdi. Bir sözlə, "Sumqayıt" əməliyyatına görə hamı Yesayanı təbrik edirdi. Bu məqamda DTK sədrinin birinci müavini Stepanyan hökumət telefonu ilə İqoru kabinetinə dəvət etdi. "Dostlar, üzr istəyirəm, təcili rəhbərliklə görüşməliyəm" deyib Yesayan kabineti tərk etdi.

General-mayor Serjik Stepanyan da Dzerjinski adına Ali Məktəbi Yesayandan dörd il öncə bitirmişdi. Aralarındakı isti münasibət və hər ikisinin türklərə olan nifrəti onları daha da yaxınlaşdırırdı. Serjik SSRİ KQB-sinin yar-

dımı ilə Yesayanı Yerevana dəvət etmiş və şöbə rəisi vəzifəsi ilə mükafatlandırmışdı.

Kabinetə daxil olanda Serjik şəxsən özü qapıya yaxınlaşıb İqoru qarşıladı:

- Əla, dostum! Barəndə əfsanələr gəzməkdədir. Uğurlu əməliyyat! Türkləri az da olsa, çökdürdük. Bütün dünya onların vəhşiliyindən danışır. Böyük qardaşlarımız da keçirdiyimiz əməliyyata görə razılığını bildirdi.

- Minnətdaram, Serjik. Sənin tövsiyələrini nəzərə almasaydım, "Sumqayıt" əməliyyatı baş tutmayacaqdı. Amma heç kefim yoxdur.

- Necə yəni, kefin yoxdur? Sənin yerinə kim olsa sevincindən rəqs edər.

- Bilirəm e, yoldaş general... Amma məni narahat edən Eduardın taleyidir.

- Qriqoryana nəsə olub?

- Azərbaycanın hüquq-mühafizə orqanlarının əlinə keçib. Qısnasalar, hər şeyi açıb-tökəcək...

- İqor! Sən nə danışırsan? Mən Eduardı onlara təhvil verərəmmi?

- Əlbəttə, yox.

- Onda ürəyini buz kimi saxla. Tezliklə Moskva onu Bakının əlindən alacaq. Sən mənə Ermənistanda yaşayan türklərdən danış.

- Yoldaş Stepanyan, proseslər plan üzrə davam edir. Artıq qırx minə yaxın azərbaycanlı vətənimizi tərk edib. Bir azdan onların sayı yüz minlərlə ölçüləcək.

- Tələsmə, İqor. Mənim xəbərim olmadan heç bir yanlışlığa yol vermə! Sədrlə danışmışam. Hələlik azərbaycan-

lılarla işin olmasın. Əkin, suvarma vaxtıdır. Hamısını birdən yox etsək, acından ölərik. Qovulanların əksəriyyəti Qafandandır. Həmin rayonda kənd təsərrüfatı ilə əlaqədar vəziyyət gərgindir. Döz! Vaxtı çatanda lazımi göstəriş verəcəyəm.

- Yoldaş general, Ararat rayonunda qətlə yetirilmiş türklərlə nə edək? Qohumları məlumat tələb edir. Hər gün rayon şöbəmizin qarşısına toplaşırlar.

- Bir səbəb gətir də. Bütün səlahiyyətləri sənə vermişəm. De ki, balıq tutduqları zaman Arazda boğulublar...

- Camaat onları diri-diri yandırıb e, Serjik. Meyitləri görsələr, ara qarışar, dəftər itər.

- Nəysə, səbrli ol. Qoy hələ Sumqayıtdan köçənlər Ermənistana gəlib çıxsınlar. Bax, o vaxt əksəriyyətini Ararat və Arazdəyən rayonlarında yerləşdirərik. Sonra deyərik ki, həmin ermənilər dörd nəfər türkü qisas almaq məqsədilə yandırıb.

- Sən bilən məsləhətdir, Serjik.

Generalla söhbətdən sonra Yesayan öz şöbəsinə qayıtdı və dostlarının əhatəsində "Sumqayıt hadisələri"nin sevincini bölüşməyə davam etdi. Beş dəqiqə keçməmişdi ki, Stepanyan Yesayana bir daha zəng etdi. Bu dəfə İqor əl işarəsi ilə qonaqlarını bayıra çıxardı və diqqətini Serjikə yönəltdi:

- Dinləyirəm sizi, yoldaş general.

- İqor, az qala yadımdan çıxacaqdı. Bəs sən "Miasum" hərəkatı barədə bir söz demədin, axı.

- Yoldaş Stepanyan, "Miasuma" dair məlumatları yekunlaşdırıb kəşfiyyat şöbəsinə təqdim etmişəm...

- Nə üçün bundan mənim xəbərim yoxdur?

- Şöbə rəisi polkovnik Simonyanla qərara gəldik ki, sizin dəyərli vaxtınızı almayaq. Ümümiləşdirilmiş arayışı axşam sizə məruzə etməliydik.

- Bu öz yerində. Gələcəkdə mühüm məsələlərlə əlaqədar sənədləri, məlumatları əvvəl mənə məruzə edin. Cəngdəyik, İqor. Davranışınız da onun qanunlarına uyğun olmalıdır!

- Oldu, yoldaş general. Bir daha yanlışlığa yol vermərik.

- Buna görə Karo Simonyanı da tənbeh edəcəyəm.

Müharibə! Artıq ermənilər özlərini azərbaycanlılarla müharibədə hiss edirdi. Onlar Azərbaycan ərazisində əməliyyatlar keçirir, insanları öldürür, üstəlik də Rusiya, ABŞ və Avropadakı nüfuzlu diasporları vasitəsilə azərbaycanlıların vəhşiliyi, cahilliyi barədə planet əhli arasında məlumatlar yayırdı. Azərbaycan isə susurdu. Daha doğrusu öz sərhədləri çərçivəsində sızıldayırdı. Hərdən bəzi jurnalistlər sovet dövlətinin "Pravda", "İzvestiya" qəzetlərində kiçik məqalələr dərc etməyə nail olurdu. Ancaq onların təsiri elə də böyük deyildi. Əsas Mərkəzi televiziya idi ki, oraya da Azərbaycan jurnalistləri nadir hallarda yaxın düşə bilirdilər. Respublika rəhbərliyi tərəfindən qəti addımların atılması vaxtı çoxdan gəlmişdi. O isə dərin yuxuda idi. Bir nöqtəyə vurmaq arzusu ilə yaşayan Azərbaycan xalqına istiqamət verə bilmirdi. Sanki Respublika rəhbərliyini kimsə ovsunlamışdı.

***

**Bakı şəhəri, aprel 1988-ci il**

Bahar Elçinin ən sevimli fəsli idi: hələ də sərin havalar, hər yeri bürüməkdə olan yaşıllıq və laləzar, təbiətin canlanması və bayramlar ərəfəsi. Yer kürəsində yaşayan insanlar pislikləri yadından çıxarır, təbiəti sığallayır, onunla elə bil sülh müqaviləsi bağlayır. Yazda sanki müharibələr, iğtişaşlar səngiyir. 1988-ci ilin baharı da davalı prosesləri zəiflətmək fikrində idi. Respublikada qismən sakitlik idi. Ermənistandan azərbaycanlıların qovulması davam etsə də, kütləvi hal almırdı. Ermənilər hər şeyi hesablamışdı. Torpaq sahələrinin əkin vaxtı çatmışdı. Ermənistanın kənd təsərrüfatının uğuru yalnız orada yaşayan azərbaycanlılara bağlı idi. Bunu ermənilər də, ruslar da gözəl anlayırdı.

Bakıdakı xarici nümayəndəliklər vasitəsilə Ermənistandan qovulmuş, işgəncələrə məruz qalmış soydaşlar üçün dünyaya car çəkmək məqamı çoxdan çatmışdı. Moskva qarşısında qəti addımlar atmağa imkan yaranmışdı. Əfsuslar olsun ki, amorf Azərbaycan rəhbərliyinin başı keçmiş illərin "pripiska" məsələlərinə, yəni mənimsəmə faktlarını araşdırmağa, bu barədə "ifşaedici" məlumatları Moskvada yaradılmış komissiyanın erməni mənşəli müstəntiqi Qdılyana ötürməyə qarışmışdı.

İslam inqilabından sonra kütləvi şəkildə İran dövlətini tərk edən azərbaycanlıların böyük qismi Avropa ölkələrinə üz tutmuşdu. Onların bəzi qohumları isə Azərbaycan SSR-ə gəlmişdi. Moskvanın və Azərbaycan DTK rəhbərliyinin tapşırıqlarını kənara buraxaraq əməliyyatçıların bir

qismi mühacirlərin yardımı ilə dünyada sayılıb-seçilən kütləvi informasiya vasitələrinə məzlum azərbaycanlı köçkün və qaçqınlar barədə məlumatları ötürməyə cəhd göstərirdi. Bəzi hallarda bu səylər baş tutur və hətta öz nəticəsini verirdi. Almaniyanın Münhen şəhərində yerləşən "Azadlıq" Radiostansiyasının əslən Göyçaydan olan müxbiri Mirzə Xəzər öz verilişlərində artıq Ermənistandan qovulan azərbaycanlı vətəndaşlar barədə reportajları ilə efirə çıxırdı.

Belə bir yaz günündə Elçin Elcanın kabinetinə gələrək rişxəndlə ona sual verdi:

- Azərbaycanda birinci katib var? Varsa, kimdir, nə ilə məşğuldur?

Aslanov dostunu çox gözəl anladığından sualı həmən cavablandırdı və onların arasında belə bir ironik dialoq baş verdi:

- Anlayıram səni, Qaraxanov. Bir azdan başımıza hava gələcək.

- Demədin axı, kimdir?

- Bilmirsən ki?

- Bilirəm e, sənin ağzından eşitmək istəyirəm, Elcan.

- O da... Bağırov.

- Mircəfər?

- Sən də yaxşı e, Elçin. Lap dolamısan məni.

- Bilirsən nə üçün soruşdum?

- Belə da...

- Nə qədər ki, belə mövzuları pıçıltı ilə müzakirə edəcəyik, o qədər də erməni daşnaklarının qarşısında aciz qalacağıq.

- Düzdür, Elçin. Gərək sualına həmən cavab verərdim: Kamran Bağırov!

- Bəs bizimkinin adı nədir?

- Ta ağ eləmə.

Qısa söhbətdən sonra dostlar nahar üçün yeməkxanaya getdilər. Qayıdanda isə yeni bir mənəvi zərbə aldılar. Bölmə rəisi Yaqub Davudoviç onları kabinetinə dəvət edib bəd xəbəri açıqladı:

- SSRİ KQB-sindən əmr gəlib, qatil Qriqoryanı istəyirlər. Söz verirlər ki, məhkəməsini Moskvada quracaqlar.

Elcanı məlumat çox sarsıtdı:

- Yaqub Davudoviç, üç-dörd aydır ki, bizim nə gecəmiz, nə gündüzümüz var. Erməni faşistləri barədə dolğun məlumat toplamaq üçün məxfi yardımçılarımızı dəfələrlə oda atmışıq, yəni Stepanakertə, Yerevanadək göndərmişik! Bu da nəticəsi...

- Bilirəm, Elcan. Amma nə edə bilərik? Artıq kəlmə işlətsək, həmən orqandan qovacaqlar. Heç olmasa burda respublikamıza xeyrimiz dəyir.

- Biz heç. Bəs rəhbərlik? Birinci katib Bağırovun ki sözü keçərlidir. O boyda vəzifəsi var! Demirəm ki, Azərbaycanı SSRİ-dən ayırıb Amerikaya birləşdirsin. Sadəcə qatili öz respublikamızda mühakimə edək.

- Demir də, mən nə edə bilərəm? Sədrimiz bu barədə birinci katiblə danışıb. Dediklərinə görə, Moskva dirəşib, Qriqoryanı və hansısa Əhmədovu tələb edir. Hər ikisinin hökmünü orada verəcəklər.

- Aydındır. Qriqoryanı buraxacaqlar, çünki bu provokatorun arxasında Balayanlar, Aqanbekyanlar durub. Əh-

mədovu isə tikə-parça edəcəklər. Görərsiz, hər şeyi onun boynuna yıxacaqlar.

- Bir sözlə, Elcan. Hamı iş başına. Ermənilər tərəfindən işgəncəyə məruz qalmış azərbaycanlılara dair məlumatları Elçinlə birgə toplamağa davam edin. Həmin faktları təcili Avropadakı soydaşlara göndərməliyik.

Aslanov müsahibinin söhbətin bitdiyinə işarə etdiyini anlasa da, özünü o yerə qoymadı:

- Deyirəm, dünyanın işinə bax, e. Vaxtılə "Azadlıq" tipli radiostansiyaların yayımı ilə mübarizə aparan KQB-nin bu gün onların xidmətinə ehtiyacı var.

- Yaxşı, yaxşı, demoqoqluq eləmə. Hər kəs iş başına.

Bu məqamda Elçin də öz fikrini bildirdi:

- Yaqub müəllim, məlumatları toplayaq e, bir söz demirəm. Amma KQB-mizin kəşfiyyat şöbəsi nə ilə məşğuldur? Biz etdiklərimiz sırf onların fəaliyyətidir. Heç olmasa bu işdə bizə kömək olsunlar.

- Ay Elçin, nə qoyub, nə axtarırsan. Bir dənə Ağayan nəyə desən dəyər.

- O kimdir?

- Necə yəni kimdir? Elcan sənə rəhbərlərimiz barədə məlumat verməyib?

- Xeyr, Yaqub müəllim. Həm də ki, onlarla tanış olmağa vaxtımız var?

- Tak vot, Ağayan kəşfiyyatımızın müavinidir. Pryamoy oranın adamıdır.

"Oranın adamı" dedikdə Davudoviç barmağını tavana tərəf uzatdı. Onun bu hərəkəti, demək olar ki, Elçini hövsələdən çıxartdı:

- Cənab podpolkovnik, nədən çəkinirik, niyə kiminsə, yaxud nəyinsə adını söyləməkdən qorxuruq? Yəni, bu vəziyyətdə o qədər çətindir ki, "Ağayan Moskvanın adamıdır" deyək?

- Baxma da, Elçin, sən hələ cavansan, ehtiyat igidin yaraşığıdır - deyiblər.

- Bir sözlə, Yaqub Davudoviç, konkret, prinsipial sözlərimizi bağıraraq rəsmi qaydada yuxarılara çatdırmasaq, bizləri bundan da acınacaqlı günlər gözləyir!

- Tak! Rəsmi qaydada yoxsa bağıraraq?

- Fərqi nədir, Yaqub müəllim? Anqırmayana məmə yoxdur - deyiblər.

Təbii ki, müzakirələrin nəticəsiz bitəcəyini zabitlərin hər üçü də bilirdi. Söhbətdən sonra onların nifrətlə dolu ürəkləri nisbətən sakitləşdi. Rəisin otağından çıxandan sonra "mələməyənə süd yoxdur" əvəzinə "anqırmayana məmə yoxdur" kəlamı Elçinin dilinə necə yapışmışdısa düşmək bilmirdi. "Bir iki dəfə də atalar sözlərini bu cür təhrif etsək, adət-ənənələrimiz də itib-batacaq" sözlərini ürəyində təkrarlayaraq Qaraxanov Elcanla birgə kabinetə daxil oldu. Əməliyyatçılar iranlı mühacirlərə dair işləri nəzərdən keçirirdilər ki, İman Abdullayev otağa girib mürəkkəbi qurumamış xəbəri verdi:

- Getdi, Elcan! Birinci katibimiz o söz, işdən çıxarıldı.

- Daha niyə həyəcanlısan, İman? Bağırov var idi, yox idi... guya bunun xalqa, Respublikaya nə xeyri dəyirdi ki?

- Yenə baxma, təzə gələn yəqin ki, Ermənistandan qovulmuş soydaşlarımızın taleyinə biganə qalmaz. Bəlkə bundan sonra səsimiz Mərkəzdə eşidilə...

İmanın sözünü yarımçıq qoyan Elçin cəmi bir kəlmə işlətdi:

- Qurban olum o pisə ki, yerinə yaxşısı gələcək.

Son günlər Azərbaycanda cərəyan edən siyasi proseslərdə yumşalma müşahidə edilsə də, Ermənistanın bölgələrindən azərbaycanlıların qovulması davam etməkdə idi. Onları Bakıda deyil, Qarabağ ərazisində yerləşdirilməsinə dair təkliflərə Azərbaycanın yeni rəhbərliyinin əhəmiyyət vermək fikri yox idi. Moskva tərəfindən birinci katib vəzifəsinə təyin edilən Əbdürrəhman Vəzirovun AzTV-də ilk rəsmi çıxışı vətəndaşların son ümidini puça çıxardı. Rəhbərin nitqini diqqətlə izləyən Elçin Əhmədə xitabən narazılığını bildirdi:

- Bu nə deməkdir, e? Ermənilər millətimizin qanına qəltan edir, Vəzirov isə rüşvət və korrupsiyadan dəm vurur.

- Burada nə var ki, Elçin. Düz deyir də.

- Nəyi düz deyir? Heç hənanın yeridir, Əhməd?

- Əlbəttə yeridir. Rüşvətxorluq, yerlibazlıq, pripiska məsələləri respublikamızı çənginə alıb. Əliəyrilərlə kimsə mübarizə aparmalıdır, ya yox?

- Mən bir söz demirəm ki, Əhməd. Amma Azərbaycanın indiki vəziyyətində belə məsələləri qabartmaq – düşmənin dəyirmanına su tökmək kimidir.

- Bilirsən, Elçin, Vəzirov hakimiyyətə cəmi bir-iki həftədir gəlib, sənsə artıq narazısan. Yerlibazlığa son qoyulmalıdır.

- Nə danışırsan, Əhməd? Beş il Moskvada səninlə bir kursda oxuduq, ancaq belə məsələləri açıb-ağartmadıq.

Sənsə... Ə, bir dayan, e! Yoxsa, Əbdürrəhman sənin yerlindi? Bu səbəbdən bülbül kimi ötürsən? Hə da bə! O da Füzulidəndir. Deyirəm, axı!

Əhmədin dili topuq çaldı:

- Malı mala qatma, Elçin. Yerlimdi, söz yox. Amma rüşvətxorların kökünü kəsmək lazımdır. Artıq hakimiyyətdəyik. Görərsən, Azərbaycan bəlalardan necə qurtulacaq!

Elçin təəssüflə başını buladı:

- Bax, e. Beş il mən kimi müdafiə etmişəm? KQB-nin belə bir çətin günlərində azərbaycanlıları regionlara bölməsən, yaxşıdır.

- Ta o qədər də yox da, Elçin. Bunu gələcək göstərəcək.

- Yaxşı ki, təhsilimizi başa vurmağa cəmi iki ay qalıb. Yoxsa belə ideyalarla sən Məhərrəmgili də zəhərləyəcəydin. Nəysə, özüvü ələ al.

- Mən deyil, sən özünü ələ al, Qaraxanov!- Əhməd qabardı.

- Dərinə getməyək. Mübahisəni bitirək. Biz hamımız azərbaycanlıyıq.

Həmin günün axşamısı Sahil "Abşeron" mehmanxanasında kiçik qonaq süfrəsi açmışdı. Bundan bir gün öncə anası Sabirabaddan ona kələm və yarpaq dolması, şoraba, öz təndirlərində yapılmış lavaş göndərmişdi. Ümumiyyətlə, Sahil dostları üçün bu qonaqlığı çoxdan nəzərdə tutmuşdu. Bir aydan sonra Azərbaycan DTK-sında təcrübə keçən müdavimlər Moskvaya dönməli idilər. Ona görə də Şükürov həmin süfrəni təhkimçilərin adına təşkil etmişdi.

Tədbirə Ali Məktəbi öncədən bitirən bir neçə əməkdaş da dəvət edilmişdi. Elçin Ordubadın tut arağını badələrə süzərək sözü ağsaqqal saydığı kəşfiyyatçı Rauf Əzimova verdi. O, Akademiyanı beş il bundan qabaq bitirmiş və təcrübə keçmə zamanı Əhmədin təlimçisi olmuşdu. Əzimov müdavimlərə yaxşı yol və Məktəbi layiqincə bitirməyi arzu etdi. Məclis çox faydalı keçirdi. Amma çekistlərin üzündə sevinc hissi yox idi. Hamı yana-yana Azərbaycanın acısından danışırdı. Elçin də ürək sözlərini dedi:

- Bir aydan sonra Moskvaya qayıdıram. Məni narahat edən yeganə məsələ var ki, o da Karo Badalyan qarşıma utanmadan necə çıxacaq?

Zeynal da həmin fikirdə idi. Akademiyada təhsil alan müxtəlif xalqların arasında ən geriyə qalan ermənilər, onların bir nümayəndəsi də Badalyan idi. Beş il ərzində bu insan nə xarici dilə, nə xüsusi fənlərə, nə də idman və hərbi hazırlığa yiyələnə bilmişdi. Yeganə bacardığı şey – plakat və divar vərəqəsi yazmaq idi. Nəyi də olmasa, gözəl xətti var idi. Kütbeyinliyinə baxmayaraq, rus müəllimlərinin köməyi ilə Karo bütün çətinlikləri atlatmışdı.

Elçin sözlərinə davam etdi:

- Əslində, dostlar, Badalyan kimilərinin Ermənistan KQB-sində çalışmaları bizə xeyirdir. Onlar nə qədər tupoy olsalar, işlərimiz də o qədər asan gedəcək.

## V FƏSİL

## ƏLVİDA, MOSKVA

Kifayət qədər Vətəndə təcrübə toplayan tələbələr Moskvaya qayıtdıqda, aeroportdan birbaşa Akademiyanın yataqxanasına getdilər. Azərbaycanlı müdavimlərin əksəriyyəti onları gözləyirdi. Aşağı kurs dinləyicilərini informasiya qıtlığı zara gətirmişdi, Vətənlərində nələr baş verdiyini tezliklə öyrənmək istəyirdilər. Odur ki, bir-birinə imkan vermədən onlar sualı sualın dalınca yağdırırdılar. Müdavimlərin xaotik davranışlarına Elçin son qoydu:

- Əvvəla, hamınıza Vətəndən salam gətirmişik. İkincisi də, bir az sakit olun ki, sizlərə nəyisə çatdırmağa macal tapaq.

Söhbətə Zeynal da qoşuldu:

- Bəlkə müzakirələrimiz sabaha qalsın? Yol gəlmişik, artıq gecdir, gedib dincələk, sonra ayıq başla hər şeyi sizlərə anladaq.

Zeynalın bu təklifi aşağı kurs dinləyicilərini təşvişə saldı. Bir neçə saniyə sonra tələbələr sanki yuxudan ayılmış kimi Həşimovun üzərinə yeridilər. Dördüncü kurs dinləyicisi Elşən Tanrıverdiyev birtəhər uşaqları sakitləşdirib Zeynala iradını bildirdi:

- Sən nə danışırsan, Həşimov? Bu anı biz beş aydır səbirsizliklə gözləyirik. Nə gecəmiz var, nə gündüzümüz...

Onun sözünü kəsən Məhərrəm də müzakirəyə qoşuldu:

- Ermənistandan qovulmuş azərbaycanlılar barədə məlumatı məktəbin nə müəllimləri, nə də zabitləri vermir.

Elçin Buğdəliyevin sözlərinə düzəliş verdi:

- Məlumat vermirlər, yoxsa dünyadan xəbərləri yoxdur?

Məhərrəm bir anda çarəsiz və məzlum bir görkəm aldı:

- Söz sahiblərinin hər şeydən xəbəri var. Ancaq bizlərlə bölüşmürlər.

Tələbələri həyəcanlı gördükdə Elçingil uzun yol qət etmələrinə və yorulmalarına baxmayaraq gecə saat dördə kimi həmyerlilərinə Azərbaycandakı durumu açıqladılar. Yalnız bundan sonra müdavimlər təəssüf və kədərlə otaqlarına çəkildilər.

Günəş çıxmaq üzrə idi. Vətəndən qayıdan dostlar nəhayət imkan tapıb yataqlarına girdilər, səhər saat doqquzda beşinci kurs tələbələrini polkovnik Ledomski qəbul etməli, qazanılan təcrübə barədə müzakirələr aparmalı idi. Lakin onların gözlərinə səhərə kimi yuxu getmədi, çünki aşağı kurs müdavimlərinin görüş zamanı səsləndirdikləri suallar Elçingili rahat buraxmadı.

Saat doqquz tamamda Elçin, Zeynal, Sahil və Əhməd heç nə baş verməmiş kimi Ledomskinin kabinetinə daxil oldular. Əvvəlcədən danışıldığı kimi dostlar Azərbaycanda cərəyan edən proseslər barədə fakültə rəisinə məruzə etməyəcəkdilər. Birincisi, Ledomskinin elə bir səlahiyyəti yox idi ki, Ermənistandan qovulan azərbaycanlıların dər-

dini yuxarı instansiyalara çatdırsın. İkincisi də, problem bütün çılpaqlığı ilə SSRİ KQB-sinin rəhbərliyinə çoxdan məlum idi. Ona görə də millətçilikdə ifşa olunmasınlar deyə, dostlar susmağa üstünlük verdilər. Qərara alınmışdı ki, məruzə yalnız Azərbaycan KQB-sində əldə edilən əməliyyat təcrübəsinin üzərindən qurulacaq. Lakin "sən saydığını say, gör fələk nə sayır" məsəli özünü çox gözlətmədi. Boris Yevgenyeviç bir qədər Bakı sərgüzəştlərini yadına salandan sonra suallarını partiya təşkilatının katibi Elçinə ünvanladı:

- Вряд ли меня интересует ваша практика и деятельность в КГБ Азербайджана. Тем более, мы получили о вас положительные отзывы. Давайте обсудим мою вторую Родину – Азербайджан.

"Deməli, Ramis Diniyev mənim haqqımda buralara hələm-qələm məlumatlar ötürməyib. Sözünün üstündə durdu. Bəxti gətirdi" düşüncələri ilə Elçin söhbətə qayıtdı:

- Наша практика прошла без всяких эксцессов. Даже по некоторым статьям нам объявили благодарность.

- Как раз, про статьи я хотел бы с вами побеседовать.

Elçin bir daha şübhələrə daldı: "Əgər polkovnik bilsə ki, Bakıda olduğumuz zaman Azərbaycanın mövqeyini Avropada yaşayan soydaşlarımız vasitəsilə təbliğ etmişik... dərimizə saman təpəcək". Bu fikirlərdən sonra onun diqqəti yenidən Ledomskiyə yönəldi:

- Я, весь, во внимании, товарищ полковник.

- Что творится с азербайджанцами в Армении и Нагорном Карабахе? Только коротко!

- Это  очень долгая история. Но если коротко, то мой народ истребляется армянами.

- Караханов, я понимаю твое душевное состояние. Но учти, что мы живем в Советском Союзе, и у нас никто никого не сможет истреблять.

- Я просто ответил коротко, и никогда голыми фактами не говорю. Все материалы о событиях в Армении и Азербайджане в виде справок доложены Москве. Можете проверить мои слова.

- Я тебе верю, товарищ партком, и полностью на вашей стороне. Азербайджан – моя вторая Родина. Я прекрасно знаю обычаи и традиции твоего народа.

Azərbaycan milləti haqqında müsbət müzakirələr belə Ledomski üçün təhlükə yarada bilərdi. Fakültə rəisinin yanında əyləşən müavinləri və kurs rəisi söhbəti Akademiyanın rəhbərliyinə məruzə edə bilərdilər. Lakin görünürdü ki, onlar da doqquzuncu fakültədə təhsil alan kütbeyin erməni müdavimlərin əlindən zara gəlmişdi. Həm də o dövran deyildi ki,  Sov.İKP-nin qərarlarını kor-koranə icra etsinlər.  Azərbaycanlıların cəlladı olsa da, Qorbaçovun başladığı "aşkarlıq" və "plüralizm" siyasəti artıq öz bəhrəsini verməkdə idi. Sovet xalqı yetmişillik yuxudan ayılmağa başlamışdı.

Boris Yevqenyeviç azərbaycanlıları xeyli tərifləyərək söhbəti yekunlaşdırdı və dövlət imtahanlarında dinləyicilərə uğurlar dilədi. Ledomskinin kabinetini tərk edən tələ-

bələr qapının ağzında polkovnikin qəbulunu gözləyən erməni müdavimlərlə rastlaşdılar. Zeynalla Sahil onların rişxənd dolu təbəssümlərini görcək nifrətli baxışlarla yataqxanaya doğru irəlilədilər. Elçin isə üzünü Əhmədə tutub "polkovnik bizə söylədiklərini eynən ermənilərə də çatdıracaq" deyib "Olimpiya" şəhərciyinə – şəhərlərarası telefon qovşağına tərəf getdi. Onun məqsədi Elcan Aslanov, yaxud Allahverdi Süleymanovla əlaqə yaradıb Bakıdakı vəziyyəti öyrənmək idi. Çünki hər axşam azərbaycanlı müdavimlər yataqxanada Sahilin otağına yığışaraq Vətəndə cərəyan edən hadisələrin müzakirəsini aparırdılar. Allahverdinin danışığından bəlli oldu ki, Respublikada elə bir ciddi dəyişiklər baş vermir. Sadəcə birinci katib vəzifəsinə yeni təyin edilən Vəzirov "köhnə" kadrları təmizləməklə məşğuldur. Süleymanovun zarafatla söylədiyi sözlərdən Elçin onu da anladı ki, Əbdürrəhman Xəliloviçin yeganə məqsədi özünə düşmən qazanmaqdır.

"Olimpiya" şəhərciyindən Elçin təcili evinə yola düşdü. Həmin gün o, son dəfə kirayəçi olduğu evdə gecələyəcəkdi. Ona görə də əvvəlcədən danışıldığı kimi mənzilin yiyəsi Nina Stepanovnaya kirayə haqqını ödəyib onunla vidalaşmalı idi. Həm də Tofiq Mamedovun xahişini yerinə yetirmək üçün Qaraxanov Naxçıvandan gətirdiyi sovqatları polkovnik Qorelovskinin evinə çatdırmalı idi.

İvan İvanoviç Qorelovski çox prinsipial bir kommunist imiş. Tofiq müəllimin kağız parçasının üzərinə yazdığı ünvanın zəngini basdıqda qapını polkovnikin oğlu açdı. Təxminən iki metr boyunda olan "uşaq" anasını səsləyə-

rək “мама к нам гости” deyib aradan çıxdı. Qapıya Qorelovski və arvadı yaxınlaşdı. Elçini əli çamadanlı və hərbi formada görən İvan İvanoviç hər şeyi anladı. O, arvadının üzünə baxıb iradını bildirdi:

- Видишь, Лиза? Ведь я настаивал, чтобы Тофик ничего мне не присылал! Тем более, через слушателя высшей школы!

- Ну чего ты курсантика держишь возле двери? Пригласи его домой на чай, хотя бы!

Elçin Qorelovskinin ciddi sifətini görüncə çaydan imtina etdi. Qaraxanov çamadanın içindəki pay-püşkü qapının ağzına boşaldıb mənzili tərk etmək istəyirdi ki, polkovnikin arvadı onun əlindən tutub qonaq otağına tərəf çəkdi. İçəri daxil olduqda, Elçin gözlərinə inanmadı. Süfrə arxasında SSRİ-nin tanınmış jurnalisti, siyasi icmalçı Aleksandr Bovin əyləşmişdi. İvan İvanoviç kobudluq etdiyini anlayıb yaranan gərginliyi yumşaltmaq istədi:

- Я против курсанта ничего не имею. Просто, не нужно было ему в такую жару таскать огромный чемодан.

Belə bir vəziyyətdə Qaraxanov uzun müddət Qorelovskinin qonağı ola bilməzdi. Ona görə də o, tələsdiyini bəhanə gətirərək polkovnikin evini tərk etdi. Kaşirkadakı evinə çatdıqda, Elçin gec də olsa, o lənətə gəlmiş çamadanın yaddan çıxıb taksidə qaldığını anladı. “İndiki vaxtda bu heç də yaxşı əlamət deyildi” söyləyərək Qaraxanov mənzilinə qalxdı.

***

Min doqquz yüz səksən səkkizinci ilin iyununda Ermənistan xüsusi xidmət orqanının əməkdaşları gərgin iş rejimində çalışırdılar. Səbəb - dünyanın hər yerindən respublikaya mütəmadi olaraq diaspor nümayəndələrinin gəlib-getməsi idi. Onların içində seçilib-sayılan şəxslərdən Zori Balayan da var idi. Onun türklərə qarşı nifrət dolu "Ocaq" kitabı demək olar ki, Azərbaycan ərazisində iki millət arasında iğtişaş toxumlarını artıq səpmişdi. Dünya ermənilərinin Yerevana səfərlərinin əsas məqsədi - Azərbaycana qarşı törədiləcək yeni təxribat planlarının hazırlanması, onların icrası üçün maliyyə şərtlərinin müzakirəsi idi. Təbii ki, ən çox canfəşanlıq edən Rusiyada yaşayan və Qorbaçovun ətrafında toplaşan yüksək vəzifəli ermənilər idi. Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəldilmiş təxribatların sonu görünmürdü. Səhər saat ondan başlayan müzakirələr yeddi saatadək davam etdi. DTK-ya qayıdan Stepanyan təcili Yesayanı kabinetinə dəvət etdi:

- İqor, diaspor üzvlərinin iştirakı ilə müşavirə yekunlaşdı. Çox güman ki, bu gün-sabah dünya ermənilərinin qurultayı çağırılacaq. Gündəmdə yeganə bir məsələ olacaq ki, o da qədim erməni torpaqlarının sahibinə qaytarılma yollarının araşdırılmasıdır. Bir sözlə, zaman bizə işləyir.

- Artıq erməni xalqının dirçəliş günlərinin şahidiyik. Bu zaman kəsiyində, yoldaş general, biz də adımızı tarixə yaza bilərik. Həmin istiqamətdə görüləcək işlərə aid əmrinizi gözləyirəm.

- Yoldaş Yesayan, dünyanın erməni diaspor nümayəndələri sənin azərbaycanlılara qarşı yönəldilmiş fəaliyyətin-

dən xəbərdardır. Xüsusən də, "Sumqayıt" əməliyyatı barədə! Təxribat əməlləri ardıcıl olaraq Azərbaycanın bütün regionlarına sirayət etməlidir. Ən əsası isə, Bakıdır. Ora bizim üçün barıt çəlləyidir. Təsəvvür edirsən, türklərin paytaxtında üç yüz minədək erməni yaşayır!?

- Düzü, anlamıram, Serjik. Bununla nə demək istəyirsən? Əgər orada da iğtişaşlar təşkil etsək... külli miqdarda soydaşımız qırıla bilər.

- Sən nə danışırsan, İqor? Sərhədimizi Qara dənizdən Xəzərədək genişləndirmək imkanı yaranıbsa, iki-üç yüz ermənininin nə mahiyyəti var ki?

Yesayan nə qədər erməni şovinisti olsa da, generalın qəddar iddiaları ona çox təsir etdi. "Nə etmək olar? Böyük və alçaq oyunlar başlayır. Həmin oyunların episentrində mən də ola bilərəm" düşüncələrlə Yesayan dərin fikrə getdi. İqorun xəyallarda olduğunu hiss edən general onu yerə qaytarmağa çalışdı:

- İqor, mənə qulaq asırsan? Deyəsən, fikrin başqa yerdədir?

- Xeyr, Serjik, ani olaraq huşlandım elə bil.

- Belə bir mühüm məqamda diqqətin daim məndə olsun. Səninlə erməni xalqının taleyini həll edirik.

İqor özünü yığışdırdı:

- Qulaq asıram, yoldaş Stepanyan. Başçılıq etdiyim şöbə xalqımın qulluğunda durmağa hazırdır!

- Deməli, belə. Sabahdan başlayaraq türklərin Ermənistandan kütləvi şəkildə mühacirətinin təşkilinə başlamaq lazımdır. Eyni zamanda Dağlıq Qarabağ Muxtar Vilayə-

tindəki agentlərimizə çatdırarsan ki, "Miasum" hərəkatının fəaliyyətini gücləndirsinlər, mitinqlərin sayını artırsınlar. Həm də orada yaşayan türklərin köçünə təkan versinlər. Yəni, incitsinlər, işdən xaric etsinlər, ara-sıra evlərinin qapı-pəncərələrinə "rədd olun" yazısını yapışdırsınlar.

- Baş üstə, cənab general. Elə hesab edin ki, dediklərinizə əməl olunub. Oradakı təxribat bazamız hazır şəkildə əmrləri gözləyir.

- Əla! Azərbaycanlıların qovulmasına dair hazırlıq işlərini yekunlaşdırıb  mənim göstərişlərimi gözləyin.

- Yoldaş general, yaxşı olardı ki, mitinqlərin çəkilişini Mərkəzi Televiziyanın müxbirləri həyata keçirsin.

- Bəs nə bilmişdin? Deyirsən bəlkə Serjik bu incəliyi nəzərə almayıb? Sabah tezdən əməkdaşlarından birini götürüb gedirsən "Rossiya" mehmanxanasına. Beş yüz iyirmi beşinci otaqda Solovyov qalır – Mərkəzi Televiziyanın müxbiri. Dünən gəlib. İşçini də ona qoş və hər ikisini Stepanakertə yola sal. Elə sabahdan orada mitinqlər başlasın! Heç olmasa,  həftədə bir dəfə. Sonrasını müzakirə edəcəyik.

- Oldu, Serjik. Əməliyyat və sərgüzəştlərimiz davam edir. Qələbə bizimlədir.

Yesayan generalın otağını tərk edirdi ki, Stepanyan onu geri çağıraraq daha bir önəmli xəbər verdi:

- Bilmirəm, eşitmisən ya yox, Azərbaycan Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə Vəzirovu təyin etdilər.

- Bəli, ucundan-qulağından eşitmişəm. Necə bəyəm?

- İstədim biləsən ki, bu təyinat bizim üçün şad xəbərdir. Vəzirovda az da olsa, azərbaycançılıq yoxdur, ona gö-

rə işlərimiz xeyli asanlaşacaq. Onun bir dərdi var, o da Moskvanın "gözünə" girmək.

- Onun barəsində bizə nəsə vədedici məlumatlar daxil olub?

- Daxil olub, İqor. Vəzirov artıq Azərbaycanı regionlara bölməyə, keçmiş rəhbərliyin adamlarını vurmağa başlayıb. Əsas da vəzifədə olan Ermənistan azərbaycanlıları ilə naxçıvanlılara zərbələr endirir. Bilirsən də, onların hakimiyyətdən uzaqlaşması işimizə çox yarayacaq. Həddindən artıq mübariz və sözü üzə deyəndirlər.

- Əla oldu ki! Məni Ermənistan azərbaycanlıları çoxdan maraqlandırır. Bəlkə onlar üçün yeni bir ad düşünək, Azərbaycandakı soydaşlarından bir az da uzaq düşsünlər?

- Gözəl təklifdir... Mənim ağlımda bir ad var – "Yerevan azərbaycanlıları". Təsəvvür elə ki, Bakıda onları bu cür adlandıracaqlar. Yerevan sözü onlara qarşı cəmiyyətdə nifrət hissi yaradacaq. Beləliklə əhali onlarla məsafə saxlayacaq.

- Sizinlə tam razıyam, yoldaş general. Qarşılıqlı bir təklif də mən verim. Adlarını bir az da qısaldaq və "yeraz" kimi bütün Azərbaycana yayaq.

- Yeraz? Gözəl! Fəaliyyətə başla. Bakıdakı adamlarımızın vasitəsilə "yeraz" adının sürətlə yayılmasına geniş şərait yarat.

- Baş üstə, yoldaş Stepanyan! Bir ay ərzində məsələni həll edəcəyəm. Azərbaycanda yeni məfhum peyda olacaq – yerazlar! Azərbaycanlıları bir-birinə vuracağıq.

- Parçalayın, bacardığınız qədər parçalayın türkləri. Əminəm ki, yaxın illərdə dədə-babalarımızın qisasını onlardan alacağıq.

Qisas! Ya ədalətə xidmət edir, ya da məzlumların haqqına girir. Əgər Azərbaycanlılar Vətəni düşməndən qoruyurlarsa, qisas şərəf, qürur gətirir, xalqa hörmət qazandırır. Biri də var, ermənilərin Azərbaycana hücum edərək qoca, qadın və uşaqlardan qisas alması. Belə əməllər bəşəriyyətin üz qarasıdır. Azərbaycanın ərazisi hesabına təşkil edilmiş Ermənistan dövlətinin sərhədləri əsrlər boyu elə azərbaycanlılardan da torpaq qoparmaq hesabına genişlənirdi. Buna baxmayaraq, nədənsə, ermənilər məhz azərbaycanlılardan qisas almaq fikrindədirlər. Deməli, xeyirxahlıq daima cəzalandırılır. İyirminci əsrin sonlarında da türklərdən qisas almaq üçün bədnam erməni daşnakları üçün əlverişli şərait yaranmışdı. Ermənistan SSR-in arxasında Sovet dövləti dayanır, diaspor təşkilatları da maliyyə yardımı göstərirdi. Azərbaycan hakimiyyətinin başı isə daxili mübarizəyə qarışmışdı. Artıq erməni başbilənləri ədalətsiz qisasın zamanını müəyyən etmişdi.

***

- Рав-няйсь… смирр-но! Рав-нение на середину! Товарищ генерал-лейтенант, личный состав высшей Школы КГБ СССР имени Ф.Э. Дзержинского по случаю окончания учебного заведения построен. Докладывает заместитель начальника школы – капитан первого ранга Александров!

- Вольно. Приступить к вручению погонов и дипломов!

Min doqquz yüz səksən səkkizinci ilin iyul ayında növbəti müdavim buraxılışına həsr olunmuş tədbirə start

verilmişdi. Məktəb meydanına mindən artıq müdavim, onların valideynləri, yaxın qohumları, dostları və tanışları dəvət olunmuşdu. Yalnız Elçin Qaraxanov qohumlarının orada iştirak etməməsindən pərişan görünürdü. Təəssüf ki, onun yaxınları, ələlxüsus valideynləri Akademiyaya gəlməyə imkan tapa bilməmişdilər. Naxçıvan şəhərindən Moskvaya gəlmək əziyyətli və riskli idi. Belə qarışıq vaxtda Ermənistan ərazisindən qatarla Naxçıvandan Bakıya getmək problem idi. Naxçıvanı Azərbaycanın paytaxtına birbaşa bağlayan hava xətti mövcud olsa da, Ermənistan üzərindən keçirdi, hər an yerdən vurula bilərdi. Muxtar respublika tədricən blokadaya alınmağa başlamışdı.

Məktəbdəki tədbirin formal hissəsi yekunlaşdıqdan sonra diplom və leytenant poqonlarının təqdiminə başlanıldı. Bu vəzifəni SSRİ KQB-si partiya komitəsinin katibi general Vasilyev öz üzərinə götürmüşdü:

- Погоны лейтенанта, золотая медаль и красный диплом вручаются Эльчину Караханову!

Min doqquz yüz iyirmi dördüncü ildə hələ Dzerjinskinin sağlığında təsis edilmiş SSRİ xüsusi xidmət orqanlarının Akademiyasını qızıl medalla əksəriyyəti rus olan cəmi on altı nəfər bitirmişdi. Bu şərəfə layiq görülən on yeddinci müdavim isə Elçin Qaraxanov idi. Onun adının birinci çəkilməsi Akademiyanın meydanına toplanmış müdavimlərin, onların qohum-əqrəbalarının "gölünə" sanki daş atdı. Uca səslə danışan, zarafatlaşan, tələbə övladları ilə öyünən ruslar mat qalmışdılar: "Azərbaycanlı? Qızıl medal? Ola bilməz! Bizimkilərə nə gəlmişdi?"

Partkom çıxışına davam etdi:

- По решению руководства КГБ СССР имя слушателя высшей школы Караханова золотыми буквами будет высечено на мраморной плите в фойе академии, напротив знамени…

Bu sözlərdən sonra heç vaxt ağlamayan Elçinin gözləri yaşardı. Həyatındakı bütün əlamətdar hadisələr, sərgüzəştlər kino lenti kimi onun gözünün önündən keçdi. Xüsusən də, o, məktəbin rəhbərliyi ilə söhbət etdiyi dünənki günü gözünün önünə gətirdi. Rəis general-leytenant Roqozin təkidlə Qaraxanovun  Akademiyada qalmasını istəmişdi:

- Караханов! Руководство школы предлагает вам остаться здесь в качестве преподавателя по специальной дисциплине номер 1.

Lakin Elçin rəhbərliyin bu təklifindən qəti şəkildə imtina etdi:

- Спасибо, товарищ генерал, за почетное предложение, но я не смогу остаться в Москве.

- Не понял, вы отказываетесь от должности преподавателя? Тем более, по первой дисциплине!

- При всем уважении к вам…

- В то время, когда выпускники школы, их "знаменитые" родственники умоляют меня оставить отпрысков на кафедре… ты отказываешься!?

- Так точно, Федор Алексеевич! Моя Родина в опасности. Я должен использовать свои знания в КГБ Азербайджана.

- Даже в том случае, если мы предложим тебе двухкомнатную квартиру в одном из самых престижных районов Москвы – “Теплом стане?”

- Даже, если так! Все равно, не останусь.

- Мне очень жаль. Я не смогу тебе приказывать или настаивать, как генерал, ибо ты окончил школу с золотой медалью. Это против устава Академии о свободном выборе “золотистами” региона службы.

- И мне жаль, Федор Алексеевич, но Родина зовет!

Buraxılış tədbiri artıq yekunlaşmaq üzrə idi. Hamı Elçinin başına toplaşaraq onu təbrik edirdi. Məhərrəm həmişəki kimi öz zarafatından qalmırdı: “Axşamüstü bizdə olarsınız, arvada demişəm “Şəki pitisi” hazırlasın. Özüm ölüm, arvadağa sizə elə piti bişirsin ki, bir də bu yeməyi dilinizə vurmayasız, -deyəndə azərbaycanlı tələbələrinin gülüşünə ruslar da qoşuldu. Halbuki onların heç biri Azərbaycan dilini anlamırdı. Məhərrəmin təkcə ləhcəsi və sözləri gülməli deyildi, o zarafat edəndə üz-gözünü elə şəklə salır, əl-qol hərəkətlərini söhbətə elə qatırdı ki, dili bilməyən də onun komikliyinə biganə qalmırdı.

Həmin gün dostlar sonuncu dəfə ali məktəbin meydanını seyr edib yataqxanaya qayıtdılar. Elçindən başqa hamı təyyarə biletlərini Bakıya almışdı. Amma Qaraxanov bileti Volqoqrad şəhərinə götürmüşdü. Elçini oraya “Orlyonok” pioner düşərgəsində dincələn əfqan balaları təkidlə dəvət etmişdi. Zeynal Elçini bu fikirdən daşındırmaq istəyirdi:

- Gəl bu daşı ətəyindən tök. Qaçaqaç deyil ki? Volqoqrada başqa vaxt da gedə bilərsən.

- Sonra vaxt olacaq, olmayacaq... bilmək olmaz. "Nağdını qoyub nisyə dalınca qaçmayaq". Vəziyyət getdikcə gərginləşir. Bir ay məzuniyyətdəyik. Əsl məqamdır.

- Başına iş açırsan ha, Elçin. Volqoqrad, Bakı, Naxçıvan...

- Niyə ki, Zeynal? Volqoqrad, Yerevan... oradan da Naxçıvana piyada getmək olar.

- Sən nə danışırsan? Bu məqamda da Ermənistana gedərlər? Səni orada öldürməsələr də... iraq olsun!

- Zeynal, əsl xatalı və davalı yerə sən gedirsən. Allah səni də, Sahili də bəlalardan hifz eləsin.

Akademiyanı bitirdikdən sonra fars dilini öyrənən tələbələr ikiillik  təcrübəni Tacikistanda keçirdi. Onlar Sovet İttifaqı ilə müharibə şəraitində olan Əfqanıstanda ələ keçirilən partizanların sorğu-sualı üçün tərcüməçi rolunda çıxış edirdilər. Həmin ezamiyyət Zeynalla Sahili də gözləyirdi. Elçin dostlardan ayrı düşməsin deyə, Tacikistana getmək üçün dəfələrlə Akademiyanın rəhbərliyinə müraciət etmişdi. Lakin Vətəni Azərbaycanda başlayan siyasi proseslər onu bu fikirdən çəkindirdi.

***

Min doqquz yüz səksən səkkizinci ilin avqustunda təyyarə ilə Volqoqrada enən Qaraxanov şəhərin mərkəzinə istiqamət götürdü. Orada Tanya əri Sergey ilə onu gözləyirdi. Onların hər ikisi hələ 1985-ci ildə Elçin "Orlyonok" düşərgəsində müdir müavini olarkən  pioner dəstə rəhbərləri olmuşdular. Həmin lagerdə Qaraxanov böyük hörmətə malik idi. Gənclərin evlənməsində də onun önəmli rolu ol-

muşdu. İt-pişik kimi davranan Tanya və Sergeyi nüfuzundan istifadə edərək dəfələrlə barışdırmış, məsləhətlər vermiş, nəticədə evləndirmişdi də. Hətta toylarının düşərgənin "qırmızı güşəsində" keçirilməsinin səbəbkarı elə Qaraxanov olmuşdu.

Tanya da, Sergey də xoşbəxt görünürdülər. Onlar Elçinlə görüşdükdən sonra gəzinti planlarını açıqladılar: evlərində ziyafət, ertəsi gün "Mamay kurqanına" səyahət, üçüncü gün isə "Stalinqrad döyüşlərinə" həsr olunmuş panoramaya baş çəkmə. Lakin Qaraxanov ziyafəti qəbul edib yalnız Mamayev kurqanına səyahəti üstün tutdu. Üç il öncə kurqanı gəzsə də, Elçin bu möhtəşəm heykəlin içində olmamışdı. Vaxtılə təmirə dayanan ana heykəlinin qollarında gəzişən usta və fəhlələr onda maraq yaratmışdı. Məhz bu səbəbdən Elçin heykəlin daxilindəki muzeyə baş çəkmək arzusunda idi.

Üç gün ərzində dostları ilə Volqoqrad şəhərini seyr etdikdən sonra Qaraxanov ona doğma olan "Orlyonok" pioner düşərgəsinə də baş çəkdi. Orada onu məmnuniyyətlə qarşıladılar. Düşərgənin mərkəzində pioner və müəllim heyətini toplayıb tədbir də keçirdilər. Bir anda Qaraxanov özünü hansısa əsərin qəhrəmanı kimi hiss etdi. Kövrəldi, gözləri yaşardı. Çıxış üçün ona söz verdilər və Elçin öz bəlağətli nitqi ilə hamıda heyranlıq yaratdı.

İki gün ərzində əfqan uşaqları, düşərgənin müdir və müəllimləriylə görüşdükdən, yaxınlıqda yerləşən və oranın təsərrüfat müdiri işləyən Albina Nikolayevnanın

evində qaldıqdan sonra Qaraxanov Volqoqrad şəhəriylə vidalaşıb Yerevana yollandı.

Paytaxtın "Zvartnots" aeroportundan çıxanda o, dəfələrlə gəldiyi, heç vaxt qəriblik çəkmədiyi bu şəhərdə ilk dəfə qəribə hisslər keçirdi. Yerevan şəhəri həddindən artıq qəmli görünürdü. Şəhər sanki boz rəngə bürünmüşdü. İnsanların sifətində bədbinlik və ümidsizlik müşahidə edilirdi. Geyim-keçimlərindən bəlli idi ki, artıq ermənilər yetmişinci illərin əhalisinə oxşamır. Uşaq vaxtlarında Qaraxanov heç olmasa ildə bir dəfə atası ilə birgə Yerevana gələrdi. Sovetin digər şəhərlərinin mağazalarının boş piştaxtaları ilə müqayisədə Ermənistan əhli kefdə idi. Ruslar onlara xüsusi diqqət yetirirdilər. Ona görə də bəzi naxçıvanlılar məsafə yaxın olduğundan qida məhsullarını, yaxud geyim əşyalarını Yerevandan əldə edərdi. Hər dəfə Ermənistana gələndə Elçin "Hayes... Türkes?", yəni "ermənisən", yoxsa "türk?" sualı ilə üzləşirdi. Deyəndə ki, "naxçıvanlıyam" ermənilər Qaraxanov qarşısında həmən susurdular. Nədənsə bu regiondan onlar həmişə çəkinirdilər. Yəqin ki, ağıllarından "türk, səlcuq, osman" məfhumu keçirdi. Naxçıvan isə Azərbaycanın Türkiyə ilə sərhəd olan yeganə ərazisidir. Amma indi şəhərdə o ab-hava yox idi.

Qaraxanov uşaqlıq illərini bir daha yada salıb Yerevanın mərkəzi küçələrində gəzişirdi. Buradan Naxçıvana yola düşən avtobusun vaxtına saatlar var idi. Addımbaşı tuf daşından inşa edilən ermənisayağı binalar da dərdli-dərdli Elçini seyr edirdilər. Bəlkə də binalar canlı olsaydı, dil açıb danışardı. Görünürdü ki, indi ermənilərin istəyi təkcə

bir tikə çörək deyildi, qəlblərində bir arzu da dərin iz qoymaqdaydı ki, o da qonşuları Azərbaycandan Qarabağı dartıb qoparsınlar.

Bu fikirlərlə Elçin Yerevanın mərkəzində yerləşən Ali sovetin binası qarşısına gəldi. Həmin bina Qaraxanovda "şeytan yuvası" təəssüratı bağışladı. Azərbaycana qarşı bütün qərarlar məhz buradan çıxırdı. Elə "Sumqayıt hadisələrinin" müəllifləri də bunlar olmalı"- deyə, Elçin düşünürdü. Buralarda bu cür dolaşmaq təhlükəli idi. Yerli əhali ona nəsə qəribə, şübhəli nəzərlərlə baxır, sanki onun azərbaycanlı olduğunu bilirdilər. Odur ki, Qaraxanov xəyallardan ayrılıb Naxçıvana yola düşən avtobusa minmək üçün təcili "Rossiya" kinoteatrı tərəfə üz tutdu.

Müasir stildə inşa edilmiş kinoteatr qəmli adam kimi tək-tənha dayanmışdı. Qapıları bağlı idi. İkinci mərtəbənin bir neçə pəncərəsinin şüşələri qırılmışdı. Bilinirdi ki, bütün pullar Azərbaycan ərazisində təxribatlara yönəldiyindən belə gözəl binanın təmirinə maliyyə vəsaiti tapmaq çətinləşib. Qaraxanov kinoteatrın yan tərəfinə keçdikdə, onu bir neçə erməni gənci saxladı və nəsə soruşmaq istədi. Cavan oğlanların sifətindən sanki zəhrimar yağırdı. Baxışlarından bəlli idi ki, onlar ətrafdakılara və ümumiyyətlə, bütün bəşəriyyətə nifrət edirlər. Onlardan biri gözünü Elçinin qolundakı saata tikmişdi. Xoşbəxtlikdən Qaraxanov anladı ki, erməni gənclərini vaxt maraqlandırır. Bir kəlmə işlətmədən Qaraxanov saat bağlanan qolunu erməninin burnuna kimi uzatdı. Cavan oğlan istəyinə nail olduqda sakitcə sağ əlini bir balaca yuxarı qaldırıb təşəkkü-

rünü bildirdi və uşaqlar "hadisə" yerindən uzaqlaşdılar. Yalnız o an Elçin böyük bir təhlükədən qurtulduğunu anladı.

"Bunu bildik! Ölümün caynağından qurtuldum. Bəs avtobusu necə tapacağam? Reysi ləğv etmiş olsalar, nə edəcəyəm?" sualları ilə Elçin kinoteatrın önündə dayandı. Ətrafa göz gəzdirəndə şübhələrində haqlı çıxdığını anladı. Naxçıvana gedən avtobus həmişəki yerində yox idi. "Hər şey aydın oldu. İndi mən Naxçıvana necə gedəcəyəm?" düşüncələriylə Qaraxanov fikrə getdi. O, nə qədər düşünsə də, Qarik Mxitoryana zəng etməkdən başqa çıxış yolu görmürdü. Qarik Akademiyanı Elçindən bir il öncə bitirmişdi. Onunla bir yerdə Volqoqradda düşərgədə olduqda Mxitoryan Qaraxanova ev telefonunun nomrəsini vermiş, hələ dünyanın düz vaxtında Yerevanı gəzməyə dəvət etmişdi. Lakin bu təklif hələ də keçərlimiydi, belə bir zamanda keçmiş tələbə yoldaşı nə qədər güvənliydi? Həm də söhbət bir ermənidən gedirsə? "İndi əsl Yerevanı gəzmək vaxtıdır! Zəng edim Qarikə, o da azərbaycanlı "çekistin" tək-tənha Ermənistanın paytaxtında nə qələt etdiyini bütün daşnaklara anlatsın" sözlərini Elçin rişxəndlə beynində çək-çevir edirdi ki, arxadan azərbaycanca - özü də doğma Naxçıvan ləhcəsiylə kimsə onu səslədi:

- Qardaaş, avtobusu axtarırsan?

- Hə, sən nə bildin?

Elçin tanımadığı adamdan hələ də ehtiyatlanırdı. Yerevan ermənilərinin bir qismi Azərbaycan dilini bilirdi. Hətta bəziləri Naxçıvan ləhcəsinə yaxşı bələd idilər.

- Görürəm, qardaş, məndən çəkinirsən. Narahat olma!
- Sən nə bildin ki, mən azərbaycanlıyam?
- Suyumundan, qardaş. “Qan kəkir”.
- Həə, dostum. İndi bildim ki, əsl azərbaycanlısan! Özü də nehrəmli.

Naxçıvanda yaşayıb Nehrəm şivəsindəki sözləri bilməmək Elçin üçün qəbahət sayılardı. “Qan kəkir” yəni, “qan çəkir” - nehrəmlilərin məşhur deyimlərindən biri idi. Qaraxanovun həmyerlisi söhbətə davam etdi:

- Naxçıvana gedən avtobusu bir tin irəlidə saxlamışıq ki, ermənilərdə şübhə yaranmasın.
- Əla etmisiniz. Mən indi anladım ki, səhvə yol vermişəm. Gərək, Naxçıvana Bakıdan uçardım.
- Əlbəttə, qardaş! Ola bilsin, bu gün Yerevan-Naxçıvan marşrutunun son reysidir. Adımız tarixə yazılacaq.
- Siz də ki, zarafat etməyə qoçaqsınız. Kəndirdən asılı qalmışıq, sənsə...
- Qardaş, nə olmalıdı ki? Bir dəfə öləcəyik daa. Qulaq as, avtobusa iki dənə ov tüfəngi qoymuşam: biri sənin, biri mənim. Unutma ki, Andronikin qulağını nehrəmlilər kəsib.
- Bax, tüfəngi gözəl fikirləşmisən. Getdik avtobusa.
- Mən hazır. Bizdən savayı dörd nəfər də var. Kıxırıq Naxkıvana!
- Allah özü kömək olsun.

Təxminən üç saatdan sonra Elçin evində gətirdiyi hədiyyələri yaxınları arasında bölüşdürürdü. Nəsib kişi və Naibə xanımın ən çox xoşuna gələn hədiyyə isə Elçinin qızıl medalı idi.

Qışda Naxçıvanda hava şaxtalı olduğu kimi, yayda da qızmar isti olur. Yaxşı ki, Elçinin yaşadığı ev məşhur "Kalba Musa" çeşməsinin yanında yerləşirdi. Çeşmənin suyu Qaraxanovun evinin altından axıb keçdiyindən həyətə xüsusi sərinlik verirdi. Bu, çox vacib idi. Ermənistandan Naxçıvana gələn elektrik enerjisinin mütəmadi kəsilməsi yay mövsümündə kondisionerlərin çalışmasına mane olurdu. İsti yay günlərində çeşmənin suyu məhəllə sakinlərinə Allahın bir hədiyyəsi idi. Azərbaycanın tərkib hissəsi olan, lakin taleyin hökmü ilə ondan uzaq düşən Naxçıvana Tanrının bəxş etdiyi təbiətindən başqa heç kim yardım edə bilmirdi.

# VI FƏSİL

## AZADLIQ MEYDANI

Məzuniyyət müddətini Elçin çox səmərəli keçirirdi. Çoxdan gəzə bilmədiyi Naxçıvanın cənnət guşələrinə bir-bir səyahət edirdi. Hətta uşaqlıq dövründə əmioğlusu ilə birgə arı qutularını daşıdığı və ayının hücumuna məruz qaldığı Batabat yaylağına da baş çəkməyi unutmadı. Məzuniyyətinin sonuncu günü atası əlində qəzet Elçinə yaxınlaşaraq verdiyi sualla onu mat qoydu:

- Elçin, burada yazıblar ki, Yusifzadənin yerinə Qorelovskini qoyublar. Bu lavaşnan üzüm apardığın Qorelovskidi?

Bu "sürprizdən" sonra Elçin oturduğu divanda quruyub qaldı:

- Sən nə danışırsan, papa? Qəzeti ver mənə...

Bəli, Nəsib kişi Qorelovskini düz tanımışdı – İvan İvanoviç Azərbaycan DTK-sının sədri təyin edilmişdi. O, söhbətə davam etdi:

- Respublikada bir azərbaycanlı çekist tapılmadı ki, belə mühüm təşkilatın başına bu urusu qoydular?

- Papa, bu uzun məsələdir. Bir onu bilirəm ki, Azərbaycanın başını qara buludlar alıb.

- Alacaq da! Vəzirov soydaşlarımızın Ermənistandan qovulmasının qarşısını almaqdan ötrü əlini ağdan-qaraya da vurmadı. Əksinə, onların sayı günü-gündən artır.

- Bilirəm, papa. Vəziyyət çox gərgindir. Bu Qorelovski-ni elə-belə təyin etməyiblər. Görünür, qarşısına Vətənimiz əleyhinə həyata keçiriləcək məkrli planlar qoyublar.

Atası anidən təlaşla soruşdu:

- Sənə bir pisliyi keçməz ki?

Qaraxanov gülümsəyərək atasına cavab verdi:

- Nəyə görə, papa? Əgər mənə pislik eləsə, Zeynəddin üzümü ilə lavaşı burnundan gələr.

- Zarafatın yeri deyil, bala. Sabah Bakıya uçursan. Allah işlərini uğurlu eləsin!

- İnşallah.

Dövlətin rəhbəri kimdirsə, nə ağıldadırsa, xalqın taleyi, güzəranı, yaşam tərzi də onun idarəetməsindən asılıdır. Xüsusən də, sovet dövründə. Sovet İttifaqı böyük bir imperiya idi. Onu demokratik üsullarla idarə etmək qeyri-mümkün idi. Bəşəriyyəti irəliyə çəkən, insanların güzəranını yüksəldən, azadlığın təməlini qoyan demokratiya tərslikdən SSRİ-nin əzraili ola bilərdi. Ona görə də Sovet imperiyasının ayaqda durmasının yeganə səbəbi diktatura üsul idarəçiliyi idi.

On beş respublikadan, onlarla muxtariyyətdən, yüzlərlə millətdən ibarət olan ölkənin sükanı qəddar lider və güc strukturlarının əlində olmalı idi. Onlar daim dövlətə nəfəs verir, xalqın deyil, bir ovuc məmur vampirlərin maraqlarına qulluq edirdi.

Xalq nə qədər güclü faktor olsa da, onun da mübarizə əzminin sərhədləri var . Onun iradəsini, əzmini dəqiqələr ərzində qırmaq da olar, hər nümayəndəsindən qəhrəman

yaratmaq da olar. Tarix bu cür misallarla zəngindir. Sovet idarəçilik üslubu səksəninci illərin sonu, doxsanıncı illərin əvvəlində Azərbaycandan da yan keçmədi. Mənfi keyfiyyətləri özündə təcəssüm edən, gülünc hərəkətləriylə xalq arasında qeyri-ciddi imic qazanan Vəzirov qısa müddətdə Azərbaycanı acınacaqlı vəziyyətə saldı.

Lider var ki, ölkənin tarixində fəxri pillələrdə yer alır, rəhbər da var ki, tarixin yaddaşında iyrənc əməlləriylə iz qoyur. Lakin hər ikisi də tarixə düşür. Tanınmış alimlər, yazıçılar, filosoflardan çox naşı, bacarıqsız, prinsipsiz və qətiyyətsiz rəhbərin gülməli deyimləri dillər əzbəri olur. Belələrindən biri də Əbdürrəhman Vəzirov idi. Azərbaycan xalqının adət-ənənələrindən, dilindən, dinindən xəbəri olmayan bu səriştəsizi azərbaycanlılara rəhbər təyin etmişdilər. Onun Azərbaycanı kortəbii və başdansovdu idarə etməsi ermənilərin planlarına və Sovet İmperiyasının məqsəd və məramına tam uyğun gəlirdi.

Buna görə də Əbdürrəhman Vəzirov heç nəyin dərinliyinə varmadan antimilli qərarlarının biri ilə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin rəhbərliyinə milliyyətcə rus, qatı şovinist Qorelovskini gətirir. İvan İvanoviç da bekar durmur. Həmən Fyodor Dubrovinlə Afanasi Danilenkonu RSFSR-dən özünə müavin gətirir. Azərbaycan DTK-sına təyin edilmiş qeyri-milli rəhbərlər, təbii ki, xalqın xeyrinə fəaliyyət göstərə bilməzdi. Çünki onların ideyaları milli düşüncəli təhlükəsizlik əməkdaşlarının maraqlarına zidd idi. Ona görə də Nəsib kişinin "nə oldu, milli kadr tapılmadı?" sualı Azərbaycan DTK-sının əksər sıravi əməkdaşları tərəfindən vaxtaşırı təkrarlanırdı.

Belə bir vəziyyətdə, 1988-ci il sentyabr ayının on birində Elçin Qaraxanov Əhməd Əsədovla birgə Azərbaycan SSR DTK-sının kadrlar şöbəsinə gəlir. Orada sükunət hökm sürürdü. Hərdən kimsə əlində sənəd otağından çıxıb ya Ananyevin, ya da Əkbəroviçin kabinetinə daxil olurdu. Bir neçə dəqiqədən sonra Lyuba Elçinə yaxınlaşaraq onu Rodionun kabinetinə dəvət edir. Üç aydan sonra da eyni kostyumu geyinmiş kristal kimi təmiz Rodion Əkbəroviç Qaraxanovla salamlaşıb səmimi olmağa çalışır:

- Qaraxanov, senin elde etdiqin müvəf... mivəffəq... uğurlara qöre tebrik...

- Родион Акперович! Я окончил московский вуз. Давайте, лучше на русском поговорим. Тем более, у нас новый руководитель – русский.

Elçinin rişxəndlə söylədiyi sözlərə Rodion reaksiya verməyib söhbəti öz doğma dilinə fırladır:

- Товарищ Караханов, мы наслышаны о ваших достижениях во время учебы и рады увидеть вас в своих рядах. Где бы вы пожелали продолжить свою службу?

- Я готов служить в любом регионе Азербайджана, особенно, в Степанакерте.

- Вообще-то, выпускников высшей школы оставляют в Баку, в центральном аппарате. Тем более, вы – “золотист”.

- Но у меня здесь нет квартиры…

- Будто, у вас есть квартира в Степанакерте или, скажем, в Шамахы. Насчет этого не беспокойся. Мы

поставим вас на учет и через год будет квартира, правда, однокомнатная.

- А где мне жить целый год, Родион Акперович?

- Ну, ты же чекист! Придумай что-нибудь.

- Из всех ситуаций есть выход. На примете у меня есть одна квартира.

Mənzil problemini həll etmək Elçin üçün su içmək kimi asan idi. "Xutor" adlanan qəsəbədə iki otaqlı həyət evində Qaraxanovun xalası oğlu Vaqif tək-tənha yaşayırdı və gərək olarsa, həmin mənzildə Elçinin də yerləşməsini o, çoxdan təklif etmişdi.

- Ну вот, и решили твой квартирный вопрос. А теперь ждите меня в коридоре. Через несколько минут вместе с другими выпускниками чекистских вузов зайдем к председателю КГБ.

"Qorelovskilə yenə üz-üzə gələcəyəm. Heç istəməzdim! Allah eləməmiş, birdən siyasi durumun bu vaxtında mənə vəzifə təklif edər, e? Ya da ki, nə vəzifə? İki kilo pendirə görə mənə vəzifə verəcək?! Tökülüb!" fikirlərilə Qaraxanov dəhlizə çıxıb Əhməd və bir neçə məzunla birgə DTK sədrinin qəbul otağına tərəf addımladı. Bir azdan Rodion da onlara qoşuldu və hamı sədrin otağına daxil oldu. Qorelovskinin kabinetində görüş çox qısa çəkdi. İvan İvanoviç vəsiqələri təqdim edib məzunlara müvəffəqiyyətlər dilədi və hamıya işlərində uğurlar arzuladı. Əsədov əks-kəşfiyyat, Qaraxanov isə beşinci şöbəyə əməliyyatçı vəzifəsinə təyin edildilər. Gənc çekistlərə aydın oldu ki, onlar az da olsa, Qorelovskinin maraq dairəsində deyillər.

Azərbaycan SSR-də general-mayor rütbəsinə yüksələn Qorelovskinin və yanındakı kadrlar üzrə müavini polkovnik Danilenkonun fikri yalnız əqidələrinə uyğun kadrların öz ətraflarına yığmaq idi.

***

Min doqquz yüz səksən səkkizinci ilin sentiyabr ayında Ermənistan Təhlükəsizlik Komitəsinin beşinci şöbəsinin rəisi Yesayan general-mayor Stepanyanın kabinetində Azərbaycana qarşı tərtib etdiyi yeni plan ətrafında müzakirələr aparırdı. On beş dəqiqədən sonra onlar kəşfiyyat şöbəsinin rəisi Simonyanı da götürüb DTK sədri general-leytenant Dilanyanın qəbuluna getməli idilər. Yesayan Azərbaycanın xəritəsinə baxdıqda doğulduğu və boya-başa çatdığı Yesxaok kəndi yadına düşdü. Hətta Stepanyana ara səngiyəndən sonra İsveçrənin dağlarında deyil, Şuşa və Kəlbəcərdə dincəlməyi təklif etdi:

- Biləsən ki, yoldaş general, adlarını çəkdiyim yerlər əsl cənnətə bənzəyir!

- Çox qabağa gedirsən, İqor. Bu şəhərləri əvvəlcə türklərin əlindən almaq lazımdır.

- Əminəm ki, gec-tez bütün Qarabağ Ermənistanla birləşəcək. O torpaqlar uğrunda mübarizə aparmağına dəyər.

- Yoldaş Yesayan, hey səndən soruşmaq istəyirəm. Sən tariximizə maraq göstərənsən. De görüm, həqiqətənmi Qarabağ ermənilərə məxsus olub? Demək istəyirəm ki, əlində tutarlı dəlillər varsa, göndərək xaricdəki diaspor təşkilatlarımıza. Dünya bunu bilməlidir!

- Əslinə qalsa, Serjik, Qarabağın Ermənistana məxsusluğu barədə elə bir sənəd əldə edə bilməmişəm. Nə varsa,

Sovet tarixinə aiddir. Alimlərimiz bir neçə ölkənin arxivində eşələnsələr də, bu barədə məlumat əldə edə bilməyiblər.

- Fərqi nədir? Öz əlimizdə deyil? Yerevanın ermənilərə mənsubluğunu necə tərtib etdiksə, Qarabağın da məsələsini həmin qaydada həll edəcəyik.

Söhbətin şirin yerində generalın otağına Simonyan daxil oldu. Zabitlər onu da götürüb təcili sədrin yanına qalxdılar. Moskvadan, Parisdən və Beyrutdan gələn beş nəfər erməni mənşəli qonaq Dilanyanın kabinetindəki divanda əyləşmişdi. Onlardan biri də Qorbaçovun müşaviri Sitaryan idi. Vaxt itirmədən sədr müzakirələrə başladı:

- Əvvəla gec də olsa, "Sumqayıt" əməliyyatı və Qarabağda "Miasum" hərəkatı vasitəsilə xalqı ayağa qaldırdığınız üçün hamınıza təşəkkürümü bildirirəm.

Bu sözləri eşitdikdə Stepanyan ayağa qalxıb ermənilərə xas yaltaqlıqla ucadan "xalqımıza xidmət edirik" dedi. Dilanyan danışığına davam etdi:

- İkincisi də ki, türklərlə ədalət uğrunda mübarizəmizi nəinki davam etdirməli, hətta onun coğrafiyasını daha da genişləndirməliyik. Məsləhət və göstərişlər almaq üçün ağsaqqallarımızı bura dəvət etmişəm.

Serjik yenə də yerindən qalxıb Dilanyana yaltaqlandı:

- Yoldaş general, biləsiniz ki, bu günləri biz çoxdan gözləyirdik. Əmrləriniz bizim üçün müqəddəsdir!

Stepanyanın bu sözlərindən sonra kabinetdə oturan erməni qonaqları iftixar və qürur hissi duydular. Onların gözündən yalnız bunu oxumaq olardı: "Ermənistanın yeni

tarixini məhz biz qəhrəmanlar yazacağıq!" Sitaryanın böyük Ermənistana dair xəyallarını yenə də Dilanyanın çıxışı pozdu:

- Bildiyiniz kimi, Azərbaycan Respublikasının rəhbərliyində bizə xeyir gətirən mühüm dəyişikliklər baş verib. Mərkəzi Komitənin yeni katibi Vəzirovu rəhbərliyimiz də, mən də əla tanıyırıq. Nə elmi, nə helmi, nə də ki, milli qüruru var. Onun bu keyfiyyətlərindən maksimum yararlanmalıyıq. Bir də ki, Qorelovski...

Stepanyan bu dəfə oturaq vəziyyətdə sədrə sual verdi:

- Qorelovski kimdir, yoldaş Dilanyan?

- Azərbaycan KQB-sinin yeni şefi. Siz İvan İvanıçı tanımırsız. Amma mən onunla bir yerdə Moskvada hərbi əkskəşfiyyat idarəsində çalışmışam. Ən azı hesab edin ki, Azərbaycan təhlükəsizlik xidmətinin əməkdaşları bizə və Qarabağdakı adamlarımıza qarşı mübarizədə iflic halına düşəcəklər. Bu da şad xəbərdir, yoldaş Stepanyan.

- Səbrsizliklə əmrinizi gözləyirik, yoldaş general.

- İlk növbədə türklərin qüruruna zərbə endirməliyik.

- Hansı yolla?

- Səbrli ol, Serjik. Qarabağda Azərbaycan hakimiyyətinə qarşı mitinqləri davam etdirəcəksiniz. "Miasumla" yanaşı "Arsax" və "Krunk" təşkilatlarının məqsədlərini qonaqlarımız vasitəsilə bütün dünyaya çatdıracaqsınız. Unutmayın ki, zaman bizim xeyrimizə işləyir.

Dilanyan "Krunk" təşkilatının rus və ingilis dillərində yazılmış müraciətinin nüsxələrini qonaqlara verib nitq söyləməsinə davam etdi:

- Bayaq dediyim kimi, azərbaycanlılara mənəvi zərbə vurmalıyıq. Öyrənmişik ki, Qarabağdakı "Topxana" meşəsi onların qürur mənbəyidir. Onu da bilirsiniz ki, günlər üzü qışa gedir. Şaxtalı havada insanlara nə lazımdır, Serjik?

- Təbii ki, isinmək.

- Bəs isinmək üçün nə lazımdır?

- Başa düşdüm sizi, yoldaş sədr. İsinmək üçün oduna ehtiyac var...

- Çox gözəl, yoldaş Stepanyan. Nə demək istədiyimi göydə tutursan. Onda tapşırığımı diqqətlə dinlə. Livanlı soydaşımız bir neçə "mütəxəssis" ilə birgə Respublikamıza təşrif buyurub. Onlardan yeddi nəfəri sənin sərəncamına verirəm. "Mütəxəssisləri" Şuşa ətrafı erməni kəndlərində yerləşdirmək lazımdır. Onlar işlərini bilir, camaatı "Topxana" qoruğundakı nadir ağacları baltalamağa vadar edəcəklər. Mənimlə razılaş ki, Serjik, millətimiz soyuqdan ölməməlidir.

- Sizinlə tam razıyam, yoldaş general. Həmişəki kimi ən müdrik qərarı qəbul etdiniz. Livan ermənilərini haradan götürüm?

- Onların bazası Sisiyan rayonundadır. Amma sənin sərəncamına verdiyim yeddi nəfər Stepanakertdə Robert Koçaryan adlı komsomolçunun evində məskunlaşıb. Hamısının qalın saqqalı var. Bu bir növ düşmənə mənəvi zərbə vuracaq.

- Oldu, yoldaş Dilanyan. Bu gün axşam bölmə rəisini Robertin evinə göndərəcəyəm. Yəqin ki, o da işin mahiyyətini bilir?

- Əlbəttə, Serjik. Koçaryanla görüşləri tam məxfi şəraitdə keçirin ki, türklərin diqqətini cəlb etməyəsiniz. O, çox mühüm adamdır. Gələcəkdə bir nəfəri də sənin əlaqənə verəcəyəm. Onu da Yerevanın vacib planlarını həyata keçirmək üçün əməliyyatlara cəlb edəsən.

- Hər şey aydındır, yoldaş Dilanyan.

- Maliyyə cəhətdən qəti narahat olmayın. Əməliyyatlar üçün nə qədər pul lazım olarsa, onların maliyyələşməsini Avropada yaşayan soydaşlarımız təşkil edəcək. Mare Arutünyanla tanış ol. Onu hədər yerə Parisdən buraya dəvət etməmişəm.

Stepanyan minnətdarlığını bildirmək üçün əlini Mareyə uzatdı. Lakin Arutünyan elə oturaq vəziyyətdə başını bir balaca aşağı əyməklə təşəkkürünü bildirdi. Serjikin əli bir neçə saniyə havada qaldı və o, vəziyyətdən çıxmaq üçün əllərini göyə qaldırıb yaradandan uğurlar dilədi. Ermənistan SSR KQB-sinin sədri Dilanyan zabitinin gülünc vəziyyətə düşdüyünü gördükdə ona göstərişlərini verdi:

- İndisə gedə bilərsən, Serjik. Məsələnin incəliklərini Simonyan və Yesayanla da müzakirə edib təcili əməliyyata başlayın. Ümidvaram ki, tapşırığımı layiqincə yerinə yetirəcəksən. "Topxana" meşəsindəki ağaclara vurulan hər balta zərbəsinin səsi Bakının meydanlarında eşidiləcək, Azərbaycanlıların şərəf və qürurunu yaracaq.

***

Min doqquz yüz səksən səkkizinci ilin sentyabrında Elçin bir neçə müdavim yoldaşı ilə birlikdə Bakıya böyük ümidlərlə gəlmişdi. Nəhayət ki, o, təhsilini bitirdikdən

sonra vətəninə həvəslə xidmət edəcək, Moskvada olduğu müddətdə uzun-uzadı düşündüyü planlarını həyata keçirəcəkdi. Elə bu ümidlərlə Qaraxanov və xüsusi xidmət kurslarını Tiflisdə yenicə bitirən Fuad İbrahimovla Teymur Ağayev şöbə rəisi polkovnik Rafiq Əliyeviç Sadıxovun kabinetinə daxil oldular. Onlar müxtəlif bölmələrə təyin edilməli idilər. Masa arxasında üç bölmə rəisi əyləşmişdi. Onların baxışında Elçin sanki yeni doğulmuş pişik balalarını sahiblərinə təhvil vermə mənzərəsini sezdi. Şöbə rəisi Sadıxovun enli alnı, eynək altından mənalı baxışları və ziyalı görkəmi Qaraxanova xoş təəssürat bağışladı. "Ulduz" filmində səslənən "axır ki, alim ərə rast gəldim" cümləsini xatırlayaraq Elçin oturacaqların birində əyləşdi. Söhbət zamanı Rafiq müəllim Qaraxanovun ali məktəbi qızıl medalla, İbrahimovun isə kursları qırmızı diplomla bitirməklərini xüsusi vurğuladı. Respublikanın çətin günlərində Sadıxov peşəkar kadrlara böyük ümid bəsləyirdi. Qısa müzakirələrdən sonra o, Qaraxanovla İbrahimovu Təhməz Fətəliyevin, Ağayevi isə Oleq Cəbiyevin bölməsinə təyin etdi.

Bölmə rəisi Təhməz Fətəliyev təhlükəsizlik sistemində savadlı zabitlərdən biri idi. Bir çox əməliyyatçılar onun rəhbərliyi altında çalışmağa can atırdı. Bu baxımdan Elçinin və Fuadın bəxti gətirdi. Təhsil ocaqlarında qazanılan bilik, təhlükəsizlik orqanlarının əməkdaşına xas olan keyfiyyətlər və üstəgəl podpolkovnik Fətəliyevin həssas rəhbərliyi altında Vətənə qulluq etmək gənc kadrların yüksək nailiyyətlər əldə edəcəyinə zəmin yaradırdı.

Təhməz müəllim ölkədəki əməliyyat şəraiti, tələbə-gənclər arasında cərəyan edən proseslər, Qarabağdakı gərgin vəziyyət barədə məlumat verdikdən sonra Elçinlə Fuadı iş otaqlarına yola saldı. Qaraxanov kabinetdə həmkarları Rasim və Rzaqulu ilə tanış oldu və ilk dəqiqədən seyfdən qovluqları götürüb masanın üzərinə düzdü. Baş əməliyyatçı Rasim Rzayev Elçinin hərəkətlərini izləyib ona öz aləmində "müdrik" məsləhətlər verməyə başladı:

- Караханов, как старший опер, я обязан посвятить вас в оперативную работу и поделиться кое-какими соображениями.

Rzayevin rəsmiyyətlə davranışı, vəziyyətin bu durumunda rus dilindən istifadə etməsi Elçində xoşagəlməz təəssürat yaratdı. O, özünü sakitləşdirib, ürəyində "qopuzun yeri deyil, Dədə!" deyib Rasimin müraciətinə cavab verdi:

- Товарищ капитан, а нельзя ли эти ваши наставления выслушать вне рабочего времени? А то, начальник отделения поставил передо мной задачи, я должен их выполнить.

- Вообще-то, нужно встать, когда с вами разговаривает старший опер!

Bu sözlər Qaraxanovu tutdu. Rasimin zabitə yaraşmayan zəbtini almaq lazım idi ki, gələcəkdə Elçinin işinə maneələr törətməsin:

- Dostum, sən deyəsən özünü Rusiyanın ucqar kəndlərinin birində əsgərlikdə hiss edirsən? Əminəm ki, respublikamızın bu ağır günündə sənin də işlərin başından aşır!

- "Достум"? Я не понял. Как вы ко мне обращаетесь? Я с вами на "вы", а вы - на "ты"?

- Sən Azərbaycan dilini normal anlasaydın bilərdin ki, "dostum" sözünü yaxın adamlara ünvanlayırlar!

Elçin gözəl bilirdi ki, rusdilli Rasimin cavabını bir neçə dəfə Azərbaycan dilində versə o, bezərək səsini kəsəcək. Elə də oldu. Rzayev sanki özü özündən utanmağa başladı. Bakı şəhərində boya-başa çatmasına baxmayaraq ana dilində iki kəlməni bir-birinə qoşa bilməyən Rzayev tədricən səs tonunu endirdi. Bir tərəfdən də Qaraxanovun müdafiəsinə otaqda olan digər əməliyyatçı Rzaqulu Talıbov qalxdı:

-Nə ilişmisən e, gənc əməkdaşımıza? Cəmi beş dəqiqədir bölməmizə təyin olunub. Görürsən ki, işi başından aşır. Özünü ağsaqqal kimi apar, Rasim.

Talıbovun iradından sonra Rzayev kabineti tərk edib qarşıdakı otaqda oturan baş əməliyyatçi İlham Quliyevin yanına keçdi. Rzaqulu isə Qaraxanova "sən ona fikir vermə, xasiyyəti tünddür, çoxlarını zara gətirib. Nə problemin olsa mənimlə bölüşə bilərsən" deyib masasının arxasına keçdi. Elçin Talıbovun dostyana rəftarından özünü rahat hiss etdi:

- Oldu, qardaş! Minnətdaram.

Nəhayət, Qaraxanov qovluqdakı materialları dərindən öyrənməyə başladı. O, əməliyyat fəaliyyətini Lenin və Axundov adına Pedaqoji institutların tələbə-gəncləri arasında təşkil etməli idi. Qaraxanovdan öncə bu sahədə fəaliyyət göstərən yarıerməni Arsen Raziyev çox güman ki,

işləri azərbaycanlıların mənafeyinə uyğun qurmamışdı və qura da bilməzdi.

Axşama yaxın Elçin "APİ Lenində" (N.Tusi adına Azərbaycan Dövlət Pedoqoji Universiteti) cərəyan edən siyasi prosesləri nəzərdən keçirdikdən sonra rəisi Təhməz müəllimin qəbuluna getdi. Fətəliyev təşəbbüskar əməkdaşlarına dərin hörmətlə yanaşır və onların rəylərini nəzərə alırdı. Elçin söhbəti uzatmadan problemlərdən başladı:

- Yoldaş podpolkovnik...

- Elçin, təklikdə mənə Təhməz müəllim deyə müraciət edə bilərsən. Eşidirəm səni.

- Aydındır, Təhməz müəllim. Arsenin hansı millətə mənsub olduğunu bilirəm, amma...

- Arsenin anası ermənidir, özü də Stepanakertdəndir. O, Balayanla Ağanbekyanın araqarışdırıcı fəaliyyətinə rəğbətlə yanaşırdı. Onların utopist ideyalarını şəxsi heyət arasında yaydığına görə mənim təqdimatım əsasında beşillik müddətinə Belarus Respublikasının DTK-sına ezam edilib. Raziyevin əvəzinə Azərbaycana milliyətcə belarus olan baş leytenant Aleksey Maşkeviçi göndəriblər. Bunları sənə dəqiqliyi ilə ona görə başa salıram ki, belə bir gərgin vəziyyətdə şöbəmizin əməkdaşlarını yaxından tanıyasan. İndi isə dərdini söyləyə bilərsən.

- Təşəkkür edirəm, Təhməz müəllim. Deməli, Arsen Raziyev işini-gücünü bir qırağa qoyub "APİ Lenində" milli ideyaları yaymaqla məşğul olan dosent-doktorlara qarşı fəaliyyət göstərib.

- Bilirəm. Amma Raziyev tərtib etdiyi bütün arayışlar şöbəmizdən kənara çıxmayıb. Qəti narahat olma.

- Əgər icazə versəniz, Arsenin ziyalılara qarşı tərtib etdiyi bütün arayışları xətm edərəm.

- Tələsmə, Elçin. Biz hələ də SSRİ-də yaşayırıq. Özü də bilirsən də təzə sədrimiz kimdir?

- Əlbəttə, bilirəm! Qorelovskidir.

- Ay sağ ol. İşi elə görmək lazımdır ki, nə şiş yansın, nə də kabab. Qeyd etdiyin ziyalılara dair əməliyyat fəaliyyətini dayandırmaq üçün DTK rəhbərliyinin icazəsi tələb olunur. Sənə lazımdır ki, Qorelovski, yaxud Dubrovin bu işlərdən agah olsun?

- Qətiyyən yox.

- Əla, Qaraxanov. Sakitcə, səs salmadan bu işləri qoy bir qırağa. Müəllim-professorlarla da söhbət elə ki, ehtiyatlı olsunlar, hər adamın yanında fikirlərini söyləməsinlər.

- Oldu, yoldaş Fətəliyev... Təhməz müəllim! Günü sabahdan alimlərlə fərdi  görüşlər keçirəcəyəm.

- Birdə ki, səndən tələbim olacaq, Qaraxanov.

- Buyurun, Təhməz müəllim.

- Əməliyyat təminatına götürdüyün institutlarda gizli yardımçıları erməni mənşəli tələbələrdən seçərsən. Bu çox vacibdir. Çünki əksəriyyətinin qohumları Ermənistanda, yaxud Dağlıq Qarabağ muxtar Vilayətində yaşayırlar. Sabahdan bütün fəaliyyətini bu sahəyə yönəlt. Ermənilərin planları barədə bizə dəqiq məlumatlar lazımdır.

***

Zaman sürətlə öz çarxını fırlayır, günlər bir-birini qovub yeni ayları gətirirdi. Həmin ilin dekabr ayı Bakıya elə-

cə səssiz-səmirsiz öz qədəmlərini basmışdı. Sanki təbiət də, zaman da olacaqları öncədən hiss etmiş, qəribə, tutqun bir sükuta qərq olmuşdu.

Səhərin gözü açılmamış Elçin və Rzaqulu bölmənin yerləşdiyi mərtəbədəki sanitar qovşağına üz tutdular. Son günlər Təhməz müəllim başda olmaqla bölmənin əməkdaşları növbə ilə DTK-da gecələyirdi. Lenin (indiki Azadlıq) Meydanında vəziyyət getdikcə gərginləşirdi. Bir tərəfdən erməni faşistləri odlu silahlardan azərbaycanlıları atəşə tuturdu, digər tərəfdən də Respublika rəhbərliyi Bakının mərkəzi meydanında bu durumu pisləyən nümayişçiləri sakitləşdirmək əvəzinə ordu yeridib dağıtmaq niyyətində idi. Əməliyyatçılar iki daşın arasında qalmışdı. Onların fikrincə Azərbaycanın rəhbərləri də xalqa qoşulub daşnakların iyrənc əməllərini ən azı pisləməli idi. Sadə əməkdaşlar bu təklifi yüzlərlə arayış vasitəsilə DTK rəhbərliyinə məruzə etsələr də, vəzifəliləri kabinetlərindən bayıra çıxarmaq mümkün olmadı ki, olmadı. Nəticədə Lenin meydanı adi fəhlə Nemət Pənahovun idarəsi, iradəsi və təsiri altına düşdü. Aradabir tanınmış ziyalılardan Bəxtiyar Vahabzadə, Sabir Rüstəmxanlı, Zərdüşt Əlizadə, Etibar Məmmədov, İsa Qəmbərov, Leyla Yunusova da mitinqin idarəçiliyini ələ almaq istəyirdi, lakin Pənahov meydandakı izdihamı idarə edən tribunanı kiməsə vermək fikrində deyildi. Onun nəzərində yalnız yazıçı Sabir Rüstəmxanlı mitinqin gedişatına müdaxilə edə, rəy bildirə, respublika rəhbərliyi ilə əlaqə qura bilərdi.

Dağlıq Qarabağ Muxtar Vilayətində Azərbaycan Respublikası konstitusiyasının bərpası, qoruq tipli "Topxana" meşəsinin ermənilər tərəfindən istismarının qarşısı-

nın alınması - xalqın bu tələblərinə Respublikanın başbilənləri tərəfindən reaksiya verən yox idi. Nemət Pənahov başda olmaqla mitinq iştirakçıları da sabah nə edəcəklərini bilmirdi. Tələblər yol ayrımında ilişib qalmışdı. Leninin "fəhlə sinfi inqilabların aparıcı qüvvəsidir" tezisi artıq gündəmdən düşmüşdü. Vətən uğrunda canını fəda etməyə hazır olan nümayişçilərdən başqa heç kim Nemətin arxasınca getmək istəmirdi və gedə də bilməzdi. Çünki media orqanları məhz Azərbaycan Kommunist Partiyası MK-sının əlində idi. Mühüm qərarları Vəzirov, Qorelovski və komsomolun sabiq lideri Vaqif Hüseynov qəbul edirdi. Bu insanlar isə millilikdən və azərbaycançılıqdan çox uzaq idilər.

Belə bir şəraitdə Elçinlə Rzaqulu Ermənistan və Qarabağdan qayıdan erməni mənşəli gizli yardımçılardan aldıqları məlumatları bölmə rəisinə məruzə edib meydana tərəf getdilər. Mitinqçilərin yanına çatanda onlar hamını çömbəlmiş vəziyyətdə gördülər. Qaraxanov kənarda oturmuş nümayişçiyə yaxınlaşaraq sual verdi:

- Nə üçün hamınız çömbəlmisiniz? Ayaq üstə durmaqdan bezdiniz?

- Müəllim, məsləhət görürəm, siz də oturasınız.

- Nə üçün, dostum?

- Nemət deyib ki, kim çömbəlməsə... ermənidir.

Söhbətə Rzaqulu da qoşuldu:

- Elçin, gəl sakitcə buranı tərk edək...

- Niyə?

- Qəti bizim yerimiz deyil. Artıq bu mitinq əhəmiyyətini itirir.

- Biz nə isə etməliyik, Rzaqulu. Moskva da, bizim rəhbərlik də camaatı buradan qovmaq üçün hər cür təxribatlara əl atacaq. Ara qarışacaq, mətləb itəcək.

- Vəziyyəti təcili Təhməz müəllimə çatdırmalıyıq.

- Məncə, yeganə çıxış yolu Rüstəmxanlının əli ilə mitinqçiləri sakitləşdirməliyik. Başqa cür alınmayacaq.

- Getdik, Elçin, vaxtımız azdır.

- Hər hansı bir ideologiyası, yaxud məqsədi olmayan mitinqin axırı yoxdur, Rzaqulu.

Əməliyyatçılar izdihamı tərk etmək istəyirdi ki, Nemət Pənahov hamıya "Qalxın!" əmrini verdi. Elçindən başqa bütün nümayişçilər ayağa qalxdı. Pənahovun göstərişinə tabe olmayan Qaraxanova mitinq iştirakçısı yenə irad tutdu:

- Müəllim, nəyə görə Nemətin sözünü qulaqardına vurursunuz?

- Mən nə etməliyəm ki, qardaş?

- Ayağa durmalısınız...

- Bəs özünüz dediniz axı, oturmayan ermənidir. Mən erməni olmaq istəmirəm. Mitinqin sonunadək oturacağam.

- Müəllim, belə olmaz e...

- Olar, niyə də olmasın. Bax gör, mən robota oxşayıram?

- Anlamadım sizi.

- Dediyim odur ki, qardaş, mənim öz əqidəm var. Hər adamın sözü ilə oturub qalxan deyiləm. Ona görə də mitinqi tərk edirəm. Sənsə nümayişçilərə çatdır ki, ehtiyatlı olsunlar, camaatı buradan zorla qovacaqlar.

- Bu məlumat sizdə haradandır?
- Bir sözdür da dedim. Hələlik.
- Sağ olun, müəllim.

Rzaqulu və Elçin geriyə DTK-ya döndülər. Nəyin bahasına olursa olsun, qoşunların meydana yeridilməsinin qarşısı alınmalı idi. Lakin buna nə Rzaqulunun, nə Elçinin, nə də mitinqçilərin gücü yetirdi. Artıq pas atmış müstəqillik mexanizmi hərəkətə düşmüşdü. Azadlıq uğrunda hərəkat isə çox sayda qurban tələb edir.

Xalqın hayqırtısına, erməni daşnaklarının sadə Azərbaycan vətəndaşlarına qarşı törətdikləri vəhşiliklərə dair respublika rəhbərliyinə çatdırılan yazılı məlumatlara rəğmən, dekabr ayının dördündə Lenin meydanına qoşun yeridildi və mitinq dağıdıldı. Nemət Pənahov həbs edildi. Yeganə şad xəbər isə ölən və ağır yaralananların olmaması idi. Mitinqin dağıdılmasının səhəri günü meydanın ətrafında tək-tük halda insanlar görünməyə başladılar. Qadınların bəzisi əllərində çörək Lenin meydanını mühasirəyə alan sovet əsgərlərinə yaxınlaşaraq onlara yemək təklif edirdilər.

Qonaqpərvərlik azərbaycanlıların qanındadır. Qonaqpərvər olmaq üçün geniş ürək lazımdır. İstər paytaxtdan rayona gedək, istərsə də kənddən Bakıya gələk... mütləq "qonaq" statusunu qazanacağıq. Evimizə, məhəlləmizə daxil olan hər kəs bizim üçün qonaqdır. Valideynlərimiz, qardaş-bacılarımız belə mənzilimizin qapısını döydükdə qonağa çevrilirlər. Amerikadan, Fransadan, Rusiyadan gələnlər mühüm qonaq hesab edilir. Hətta dostlarımıza baş

çəkmək üçün xarici ölkələrə getdikdə, əcnəbiləri öz vətənlərində qonağa çevirib yeyib-içməklərini təşkil edirik. Qonaqpərvər olmayan millət tolerant da ola bilməz. Tolerantlığı da bizim əlimizdən heç kim ala bilməz. Vaxtılə evi-eşiyi olmayan erməniləri də qonaq bilərək onlara öz torpaqlarımızda süfrə açdıq, yaşayışları üçün şərait yaratdıq. Dədə-babalarımızdan qalan miras! Bu xüsusiyyətimizin yaxşı, yaxud pis hal olduğunu oxucularımın mühakiməsinə buraxıram.

Bir sözlə, izdihamı rezin dəyənəklər gücünə dağıdan, mitinqçilərin təpəsinə yumruq vuran sovet əsgərləri "qonaq" statusu aldıqlarından elə meydanda da yedizdirilirdilər. Əsgərlərə çörək verən qadınlar üçün fərqi yox idi: meydanda olanlar bizimkilərdi, yaxud qonaq qismində görünən iblislər…

Mitinqin dağıdılmasının ertəsi günü Elçinlə Rzaqulu məyus vəziyyətdə DTK-nın binasına daxil oldular. Əməliyyatçıların əksəriyyəti kabinetlərində deyil, koridorlarda Azərbaycanda cərəyan edən siyasi durumu müzakirə edirdilər. Hamının əsəbi tarıma çəkilmişdi: cinayətləri törədən ermənilər, cəzanı alan azərbaycanlılar idi. Arabir otaqlardan rus və erməni mənşəli əməliyyatçılar çıxaraq dəhlizi seyr edib kabinetlərinə qayıdırdılar. Hamı bilirdi ki, məhz onlar DTK-dakı proseslər barədə məlumat toplayıb yuxarıya ötürürlər. Heç kəs onlara təhqiramiz sözlər demək iqtidarında deyildi. Buna görə işdən tərxis edilib kənardan Azərbaycandakı vəziyyəti izləməkdənsə, daxildə qalıb cüzi də olsa, hadisələrə təsir göstərmək daha məqsədəuyğun idi.

Elçinlə Rzaqulu hamı ilə salamlaşıb Təhməz müəllimin kabinetinə daxil oldular. Orada Rasimlə Fuad ali təhsil ocaqlarında mitinqsonrası durumu müzakirə edirdilər. Fətəliyev Qaraxanovu gördükdə ilk sualını verdi:

- Gizli yardımçımızdan nə xəbər var? "Seda"nı soruşuram.

- Yoldaş podpolkovnik, dünən axşam onunla görüşmüşəm. Bu da onun təqdim etdiyi yazılı məlumatdır. Burda qeyd olunan bəzi faktları icazənizlə əməkdaşlarımıza da açıqlamaq istəyirəm.

- Əlbəttə, Elçin. Vacib məlumatları bölüşək ki, gələcəkdəki tədbirlərimizə hazırlaşaq.

- "Seda"nın dediyinə görə Yerevan şəhərində mitinqlərin ardı-arası kəsilmir. Bu mitinqləri nə dağıdan, nə də kiməsə güldən ağır söz deyən var. Məlumatda qeyd edilir ki, Qarabağ problemi artıq ermənilərin xeyrinə həll edilib. Orada yaşayan azərbaycanlıların hamısı qovulacaq. Hələ öldürülməsələr... yaxşıdır. Bir də ki, Ermənistandan Qarabağ ermənilərinə hər növ silah göndərilir. Silahlar isə həmin respublikanın ərazisində yerləşən sovet ordusunun hissələrindən əldə edilir.

Müzakirələrə Fuad da müdaxilə etdi:

- Təhməz müəllim, Elçinin dediklərini mənim də erməni mənşəli gizli yardımçılarım təsdiqləyir. Üstəlik də qeyd edirlər ki, Moskva "müvəqqəti" adı altında muxtar vilayətin idərəçiliyini öz üzərinə götürmək fikrindədir.

- Bu da o deməkdir ki, Fuad, məkrli planlar artıq çoxdan cızılıb. Bizim kəşfiyyat fil qulağında yatıb.

Elçin məruzəsinə davam etdi:

- Rəis, bədbəxt kəşfiyyatımız nə etsin ki, başında Ağayanlar oturub. Bizim kimi onların da yuxarılara ötürdüyü məlumatlar cavabsız qalır. Bu barədə Əhmədlə dəfələrlə söhbət etmişəm...

- Əhməd kimdir, Elçin?

- Kəşfiyyatçıdır. Mənimlə bir yerdə Moskvada oxuyub. Deyir ki, Ermənistanın təxribat xarakterli əməlləri barədə rəhbərliyə hər cür məlumatlar verilir. Amma farslar demişkən "çe faydə?" Yəni, nə mənası var?

- Bir rəis kimi deyirəm, uşaqlar: o halda ki, tutarlı məlumatlarımıza reaksiya verən yoxdur, deməli, əsas məqsədimiz paytaxtda sakitliyi təmin etməkdir ki, insan tələfatının qarşısını ala bilək.

- Təhməz müəllim, mən əməliyyat təminatımda olan institutların tələbə-müəllim heyətilə birgə mütəmadi görüşlər keçirirəm, birtəhər onları sakitləşdirirəm. Amma nə xeyri? Onların da ürəkləri bizlər kimi parçalanır.

Rzaqulu isə öz növbəsində:

- Yoldaş Fətəliyev, bir onu bilirəm ki, bu proseslərin sonu faciə ilə nəticələnəcək. Bəlkə, hamımız bir yerdə Qorelovskinin qəbuluna girək? Yaxud, Dubrovinin?

- Olmur, Rzaqulu. Şöbəmizin müavini Tofiq Heydərov da bu məsələlərlə bağlı Qorelovskinin qəbuluna düşmək istədi. Axırı nə oldu?

- Axırı nə olacaq? Belarusun Moqilyov şəhər şöbəsinə göndərdilər.

- Görürsən? Quru-quru bəyanatların mənası yoxdur.

Müzakirələrə yenə Fuad qoşuldu:

- Təhməz müəllim, Mirzoyev necə? O ki, Qorelovski ilə xoş münasibətdədir!

Qaraxanov bu təklifə sərt reaksiya verdi:

- Vladimir Adiloviçi nəzərdə tutursan, Fuad?

- Hə də, Mirzoyevi deyirəm...

- Vəziyyətin bu vaxtında adam da Volodya olar, ya da ki, Adiloviç? Vladimir Adiloviç! Bundan nə gözləyəsən? Pislik eləməsin, yaxşılığını istəmirik.

- Nə bilim, vallah. Gecə-gündüz İvan İvanıçın yanındadır.

- Olsun da! Meyli çəksəydi bir "ton" əməliyyat məlumatlarımızı çoxdan Qorelovskiyə çatdırardı.

Nəhayət, baş əməliyyatçı Fəxrəddin Tağızadə də dilləndi:

-Əziz həmkarlar! Şöbə rəisimiz Rafiq Əliyeviç hər gün Azərbaycan Respublikasında cərəyan edən siyasi vəziyyətə dair məruzələrini edir. Bir şeyi anlamaq lazımdır ki, informasiyalarımıza reaksiya verilmir və verilməyəcək! Təhməz müəllim düz buyurur: bizə qalan tələbələri təxribat və təhrik xarakterli əməllərdən çəkindirməkdir.

Elçin və Rzaqulu da Fəxrəddinın təklifinə razılıqlarını bildirdikdən sonra Fətəliyev toplantını yekunlaşdırdı və əməliyyatçılar kədərli vəziyyətdə öz otaqlarına qayıtdılar. Dəhlizdə Fuad Elçinə "bir azdan teleradio ilə Vəzirovun çıxışı olacaq" xəbərini verib aşağı, kəşfiyyatçıların yanına endi. Elə bu vaxtı Qaraxanovun yanına Elcan gəldi:

- Noolub, Elçin? Elə bil gəmilərin batıb.

- Gəmilərim deyil, Elcan, Vətən batır!

- Bilirəm, vəziyyət çox gərgindir!

- Bu qədər iş aparırıq, erməni daşnaklarının planlarını öyrənmək üçün riskə girib gizli yardımçılarımızı Yerevana, Leninakana göndəririk... nəticəsi də sıfır, Elcan. Yuxarılarda bizim məlumatları görməzdən gəlirlər.

- Bəs, nə bilmişdin, Elçin? Rəhbərliyə qeyri-millətləri elə-belə gətirməyiblər ki. Danilenko hara, KQB-yə yeni kadrlar qəbul etmək hara. Hamısının kökəni erməni-urusdur.

- Ruslara qarşı o qədər də etirazım yoxdur, Elcan. İnsafən, Bakı ruslarının hərəsi Qarabağın bir diyarındadır, "saqqallılar" haqqında tutarlı məlumatlar əldə etməkdədirlər. Amma ermənilərə zərrə qədər də olsa inamım yoxdur, xoşlanmıram onlardan...

- "Xoş-xoş dedin, işşaqıma yadıma düşdü!" - Qıdı kirvənin sözlərini xatırlayırsan, Qaraxanov?

- Əlbəttə. Erməni kopoyoğlu! Eşşəyə "işşaq" deyirdi.

- Söymə, Elçin. Onu bizim aktyor o cür yaradıb da. Nəysə. Səhər-səhər Sarumyanla görüşmüşəm.

- Aliklə? O nə deyir?

- Hə də. Deyir ki, Azərbaycanın ali təhsil ocaqlarında, o cümlədən "APİ Axundov"da erməni mənşəli müəllim və tələbələrdən kütləvi şəkildə pul yığılır. Xəbərin var?

- Yox, Elcan. Nə pul? Nə üçün? İnstitutun tələbatları üçün?

- Tələbatları üçün yığılsa idi, nə dərdimiz. "Krunk" təşkilatı üçün, "Miasum" hərəkatı üçün, Qarabağda yerləşdirilən terrorçu ermənilər üçün!

- Bax, bu mənim üçün yenilik oldu. Yəni, Sarumyana inanırsan?

- İnanmasydım, yanına gəlməzdim. Baxma, Bakıda doğulub, çörəyimizi yeyib. Ona nə qalıb ki, belə bir mühüm məlumatı bizə versin. Deməli, hələ də özünü Azərbaycan Respublikasının vətəndaşı sayır. İnanmaqdan başqa əlacımız yoxdur.

- Minnətdaram, Elcan. Gizli yardımçılar vasitəsilə məlumatı dəqiqləşdirərəm. Gedim institutun rektoru Fəridə xanımla da görüşüm. Birdə ki, onun köməkçisi erməni qızıdır.

- Əla oldu ki! O qızın pul yığılması barədə mütləq məlumatı olacaq. Sadəcə, onu "mərəndə" gətirmək lazımdır ki, o da sənin sayəndə, quzik.

- Yenə "quzik"?

- Nəyi pisdi? Aramızda olan paroldu da.

Elcan "quzik" sözünü gülümsəyərək söylədi. Hələ Elçin onun yanında təcrübə keçdiyi zaman Elcanla birgə kabinetdə oturan Allahverdi Suleymanov telefonda nişanlısı ilə söhbətləşəndə pıçıltı ilə ona "quzu" deyərək müraciət edirdi. İncə duyğulardan uzaq olan Elcanla Elçin "quzu" sözünü bir az da yumşaldaraq "quzik" ilə əvəzləmişdilər. Bu söz DTK divarları arxasında o qədər məşhurlaşmışdı ki, hətta bəzi yaxın dostlar da öz aralarında "quzik"dən istifadə edirdilər. Təbii ki, sözün mənbəyi heç kimə məlum deyildi.

Aslanov söhbətə davam etdi:

- Quzik dedim ki, kefin açılsın. Yoxsa ki, narahatlıqdan o qara rəngin bir az da qaralıb.

- Aydındır. Verdiyin məlumatı təcili Təhməz müəllimə məruzə edim, Vəzirovun çıxışına qulaq asım, sonra "APİ Axundov"a gedim.

- Dəqiqləşdirdikdən sonra məlumatı mənimlə də bölüşərsən, ha!

- Oldu, Elcan. Sabah nahardan sonra görüşərik.

Elcanla söhbətdən sonra Elçin Rzaqulu və Rasimlə bir yerdə bölmə rəisinin kabinetinə gəldi. Televizor yalnız onun otağında var idi. Nəhayət, Azərbaycan KP MK-nın birinci katibi rus dilində "alovlu" çıxışına başladı. Mitinqçiləri bir qrup "xuliqan", tribunadakıları isə "savadsızlar" adlandıran Vəzirov bütün qüvvəsini Azərbaycanı işıqlı gələcəyə aparılmasına xərcləyəcəyinə söz verdi. Lakin Əbdürrəhman bir şeyi anlamırdı, ya da anlamaq istəmirdi: Qarabağsız Azərbaycanın gələcəyi yoxdur!

Birinci katibin çıxışından sonra, Fətəliyev Qarabağda xüsusi idarəçilik rejiminin tətbiq edilməsi barədə məlumat aldığını söylədi:

- Onu da bilməlisiniz ki, artıq Qarabağ nə ermənilərin, nə də ki, azərbaycanlılarındır! Qarabağ Moskvanındır.

Rasim Rzayev əllərini göyə tərəf tutaraq "слава Богу, наконец-то, qulaqlarımız sakit olacaq" deyib özünə təskinlik verdi.

Onun bu yarıəcnəbi sözləri təbii ki, Elçini hövsələdən çıxartdı:

- Mən səni anlaya bilmirəm, Rasim, Vətən əldən gedir, sənsə Allaha şükür edirsən?

- Я же тебе еще в прошлый раз объяснял, как нужно обращаться к старшему оперуполномоченному! "Rasim" demek nedir?

- Üzr istəyirəm ki, "Rasim" dedim. Sənə "vətən xaini" demək düşər.

Vəziyyətin gərginləşdiyini görən Təhməz müəllim oda su səpmək istədi. Lakin çox gec idi. Əməliyyatçı Teymur Ağayevin də əsəbləri tarıma çəkilmişdi, imkanı olsaydı Rzayevin saçından tutub yerlə sürüyərdi. Beş dəqiqə ərzində Rasimə ünvanlanmış təhqiramiz sözlər onu bölmə rəisinin otağından çıxmağa vadar etdi. Fətəliyev məyus halda hamıya öz iradlarını bildirməyə başladı:

- Əvvəla, unutmayın ki, sizlər rəisin kabinetindəsiniz. Əgər tərbiyə, qeyrət, şərəfdən danışırsınızsa, öz hisslərinizə hakim olmalısınız. Ayıb olsun sizə! Xüsusən də sənə, Elçin!

Qaraxanov bölmə rəisinə böyük hörmətlə yanaşırdı. Ona görə də Təhməz müəllimin sözlərindən çox utandı:

- Rəis, üzr istəyirəm. Amma Qarabağın itirilməsi münasibətilə Allaha şükür etmək əminəm ki, hamının səbrini daşırdı. Şəxsən mən buna dözə bilməzdim...

- Kim dözə bilər ki? Əlbəttə, heç kim. Uşaqlar, təmkinli olun. Ən çətin günlərimizi yaşayırıq. Özünüzü ələ alın, əsəblərinizi cilovlayın. Elə edək ki, burada bir-birimizi qırmayaq. Hər kəs öz otağına qayıtsın. Axşama qeyd etdiyim xəbərlə əlaqədar yeni məlumatlar gözləyirəm.

Hamı rəisin otağından kor-peşman çıxdı. Koridorda isə Qaraxanovun yanına texniki şöbənin giziri Qulamov yaxınlaşdı:

- Elçin müəllim mənəm e, İsrail. Dünən telefonunuzun dəyişdirilməsilə əlaqədar sizə zəng etmişdim...

- Ay İsrail, bəs mən sənə dedim axı, telefon aparatım sazdır, dəyişdirilməsinə ehtiyac yoxdur!

- Elçin müəllim, təklif etdiyim aparat bu dəqiqə Moskvadan gəlib. Analoqu yoxdur.

- Nə bilim, dostum, bilsəydin ki, respublikamızda nə baş verir... bəlkə də telefonu zibil qutusuna atardın.

- Yoldaş Qaraxanov, daha telefonu gətirmişəm, icazə verin onu otağınızda quraşdırım.

- İsrail, sən bilirsən mənim ən sevdiyim  atalar sözü hansıdır?

- Haradan bilim rəis? Mənim işimin adı telefondur. Deyərsiz... bilərəm.

- Keçi can hayında, qəssab piy axtarır.

- Deməli, Elçin müəllim, telefonunuzu dəyişə bilərəm?

Qaraxanov vaxtı ilə məhkəmədə çalışarkən bu tip insanlarla mütəmadi rastlaşırdı və bilirdi ki, "nıx" dediklərini deyəcəklər. Ona görə də Qulamova "dəyiş, amma işlərini tez yekunlaşdır ki, mən də özümü tədbirə vaxtında çatdırım" deyib otağa daxil oldu. Orada onu pərişan halda Rasim gözləyirdi:

-Эльчин, ты, конечно извини меня за грубость у начальника, но я не хотел таким образом высказаться о Карабахе. У меня, просто, вырвалось. Эти бессонные ночи уже действуют на мои нервы.

- Rasim müəllim, mən kiminləsə kin saxlayan deyiləm. Amma onu da bilin ki, mən də gecələri bu otaqda qalıram və sizdən fərqli olaraq əsəblərimə sahib çıxa bilirəm.

- Вот видите, сейчас я вас зауважал. Вы правильно обратились ко мне- "Расим муэллим"!

- Daha mən nə deyə bilərəm? Raz ki, belə müraciətlərdən həzz alırsınız, bundan sonra sizə "ağayi Rasim" də deyə bilərəm.

- "Ağayi" nə demakdır, Qaraxanov?

- Yəni, "müəllim" sözünü bir az da gücləndirmək...

- Yoox, lazım deyil. "Муэллим" достаточно.

- Baş üstə. Danışdıq.

Rzayevlə söhbət yeni bitmişdi ki, İsrail gülümsəyərək Elçinə yaxınlaşdı:

-Yoldaş Qaraxanov, yeni telefon aparatı münasibətilə sizi təbrik edirəm. Özü də görürsünüz, qara rəngdədir! Əsl rəis telefonudur.

- Təşəkkür edirəm, Qulamov. Əgər başqa sualın yoxdursa, mən getdim...

- Elçin müəllim, sualım var, e.

- Eşidirəm, dostum.

- Mənin qardaşoğlum "APİ Lenində" təhsil alır.

- Lap yaxşı. Mənlik nə lazımdır, İsrail?

- Sağlığınız. Sadəcə, bir az dəcəldir. Hərdən də dərsləri buraxır. Deyirəm, birdən çətinliklərlə üzləşsə, sizə müraciət edə bilərəm?

- Edərsən. Niyə də etməyəsən? O boyda telefonumu dəyişdin, özü də qara rəngdə.

- Minnətdaram, Elçin müəllim. Kak raz bu gün-sabah qardaşoğlunun sessiya imtahanları başlayır.

- Aydındır, İsrail. İndi gedə bilərəm?

- O nə sözdü, rəis? Mən kiməm ki, məndən icazə alasınız? Əlbəttə, gedə bilərsiniz.

- Sağ ol.

Elçin "APİ Axundov"a baş çəkib gizli yardımçısı "Seda" ilə görüşməli, Bakıda yaşayan ermənilərin Qarabağda fəaliyyət göstərən "Krunk" təşkilatı üçün pul topladıqları barədə Elcanın verdiyi məlumatı mütləq yoxlamalı idi. O, DTK-nın binasından çıxıb dostunun sınıq-salxaq "Jiquli"sinin sükanı arxasına əyləşmək istəyirdi ki, avtomobilin şüşəsini barmaqları ilə döyən bir nəfər onu səslədi:

- Офицер, минутку подожди, сейчас принесут мой дипломат и я тоже с тобой поеду!

Sifətini görmədən bu şəxsin səsini eşidən Elçin təəccüblə nəzərini ona tərəf yönəltdi və gözlərinə inanmadı. Avtomobilin böyründə şəxsən Qorelovskinin özü dayanmışdı. "Bu hardan çıxdı, ə? Bunun xidməti avtomobili hardadır? Qismətə bax, e. Bir tərəfdən əla oldu. Deyərəm, mən kiməm. Həmin o, üzüm gətirən. Ya da ki, qoy rədd olsun. Respublikanın bu günündə birdən mənə vəzifə təklif edər. Kolleqalarım elə fikirləşər ki, mən də İvanın adamıyam. Qarabağ barədə söhbət edərəm!" fikirlərilə Qaraxanov maşının sağ qapısını Qorelovskiyə açdı. O isə sual verməyə davam edirdi:

- Ты не опаздываешь?

- Нет, товарищ генерал!

"А вот, и принесли мой дипломат" - Qorelovski Elçinin maşınına əyləşmək istədi. O, təxminən ikimetrlik bədənini çox çətinliklə maşına soxduqda başı zərbə ilə qapı-

nın çərçivəsinə dəydi. Ağrıdan əsəbləşən İvan İvanoviç sərt şəkildə Qaraxanova göstəriş verdi:

- *Давай*, срочно отвези меня в ЦК!

Qaraxanov mühərriki işə salıb təzəcə yola düzəlmişdi ki, Qorelovski "останови, останови, вот моя машина едет" deyərək "Jiquli"ni tərk etməyə çalışdı. Sağ ayağını asfalta qoyub maşından çıxmaq istəyirdi ki, bir daha var gücü ilə başını avtomobilin qapısının yuxarı çərçivəsinə çırpdı. O, bir an ağrıdan qıvrılaraq söyüş söyüb maşını tərk etdi. Elçin "Amma nə oldu! Hamısı bizim qarğışımızdır" düşünərək instituta yollandı.

Ali təhsil oçağına girdiyi zaman Qaraxanov professor Qədimovla rastlaşdı. Zahid müəllim vətənpərvər, milliyyətçi ziyalılardan idi. Əbdürrəhman Vəzirov tərəfindən instituta ədalətsiz təyin edilmiş yeni rektora qarşı müxalif mövqe tutan kafedra müdiri professor Qədimov respublikadakı gərgin vəziyyətdən tələbələrin həddindən artıq məyus olduqlarını Elçinə bildirdi. Qaraxanov professoru kənara çəkib onu diqqətlə dinləməyə başladı:

- Zahid müəllim, eşidirəm sizi. Yəqin ki, institut tələbələri arasında gərginlik var?

- Elçin müəllim, gərginlik, narazılıq tüğyan edir desəz, daha doğru səslənər. Çünki sizə açıq söyləyirəm, respublika rəhbərliyinin xalqımıza, Qarabağ və Ermənistan qaçqınlarına laqeyd münasibəti bizləri çox narahat edir.

- Həyəcanınızı çox gözəl anlayıram, professor. Lakin təəssüflər olsun ki, rəhbərliyə dolğun məlumat və arayışlar təqdim etməkdən başqa səlahiyyətim yoxdur.

- Bəs biz nə etməliyik? Meydanda istədik səsimizi qaldıraq... hamımızı güllələbaran elədilər. İnstitutun yığıncaqlarında müzakirələr aparırıq, çıxış yolları axtarırıq, Əbdürrəhmanın rektor dostu vasitəsilə yuxarılara məlumatlar çatdırmaq istəyirik, amma qarşımızı kəsirlər, işdən azad etməklə hədələyirlər.

- Kimlər kəsir, Zahid müəllim?

- Nə bilim, vallah. Elə rektorun özü.

- Sizi başa düşürəm. Rektorunuz da deyəsən, o söz...

- Nə barədə?

- Eşitmişəm, tələbələrə "6", "7" qiyməti də yazır.

- Bəli, Elçin müəllim. Açığı, onun başı xarabdır. SSRİnin heç bir orta məktəbində, ali təhsil ocağında "5" rəqəmindən yuxarı qiymət yoxdur. Amma bu... yüz faiz xəstədir!

- Əslinə qalsa, professor, elə sizinlə söhbət etmək istəyirdim.

- Nə barədə? Sizə kömək etməyə daim hazıram!

- Sizdə erməni tələbə və müəllimlər arasında pul toplamaq barədə məlumat yoxdur?

- Elə var ki ha! Özü də pulları rus dili və ədəbiyyatı kafedrasının baş müəlliməsi Bella Osipyan yığır. Həm də çoxdan.

- Bəs bu məlumatı indiyə kimi mənə niyə deməmisiniz?

- Mən bilmirəm axı, pulları nə üçün yığır? Elə düşünürdüm ki, kasıb erməni ailələri və tələbələrinə paylayırlar. Problem var?

- Var, Zahid müəllim, var. Özü də nə cür problem!

- Bəli, gərək sizə məlumat verərdim.

- Eybi yox, narahat olmayın. Xahişim budur ki, söhbətimiz barədə heç kimə bir kəlmə söz söyləməyəsiniz. İcazənizlə mən qayıdıram Komitəyə.

- Sizə çay təklif etmək istəyirdim...

- Minnətdaram, professor. Gələn dəfə.

Elçin işə qayıdıb Təhməz Fətəliyevin kabinetinə daxil oldu. Otaqda Rzaqulu ilə Fəxrəddin də əyləşmişdi. Bölmə rəisi gülümsəyərək Qaraxanova söz atdı:

- Eşitmişik, sədrimizi "Jiquli"də ora-bura daşıyırsan, Elçin.

- Bəli, rəis, olacaqdı elə bir hadisə. Amma təəssüf ki, baş tutmadı. Az qala sədrin başı yarılacaqdı...

- Onu da bilirik. Sadəcə bəxtin gətirdi. Kabinetimə girməyindən anladım ki, vacib məlumatın var.

- Bəli, Təhməz müəllim. Sən demə, Azərbaycan ermənilərі Qarabağdakı separatçı təşkilatlar üçün illərlə pul toplayırmışlar.

- Necə deyərlər, bizlərsə, yatmışıq fil qulağında, Elçin. Eyni məlumatı Fəxrəddinlə Rzaqulu da gətirib. Bütün institutlarda oxşar vəziyyətdir.

- Bilmirəm, nə deyim, yoldaş podpolkovnik. Məlumatı kimə məruzə edəcəyik?

- Mirzoyevə demişik. O da, Rafik Əliyeviçə. Qorelovskini gözləyirlər. Məlumatı ona məruzə edəcəklər.

- Mənası var, yəni?

- Nə deyə bilərəm? Səhərdən onu müzakirə edirik. Fuad da tibb institutundan zəng vurmuşdu. Orada da "Krunk" təşkilatı üçün pul yığırmışlar. Amma fərqi yox-

dur. Artıq ali və orta ixtisas təhsili nazirinə və respublika prokuroruna məktub hazırlanır. Separatçılıq ideyalarını yaydıqları və bu cür əməllərə maliyyə dəstəyi göstərdiklərinə görə günahkar şəxslərin hamısı cəzalandırılacaq.

- Bir sözlə, tələbələr qaynayır. Hamısı bir daha meydana çıxıb Nemətə azadlıq tələb etmək fikrindədirlər.

- Bilirəm, Elçin. Onları sakitləşdirmək lazımdır. Hamısını ya həbs edəcəklər, ya da ki, institutlardan məcburən xaric edəcəklər. Mərkəzin nümayəndələri bütün güc strukturlarında oturublar. Unutma ki, biz hələ də Sovet İttifaqı vətəndaşlarıyıq.

Sonuncu cümləni Fətəliyev çox inamsız söylədi. Sanki Moskvada da durum ciddi şəkildə dəyişmək üzrə idi. SSRİ ərazisində dilənçilik, quldurluq, milli zəmində münaqişələr baş alıb gedirdi. Vaxtılə Leninin söylədiyi kimi "inqilabi vəziyyətin" bütün ünsürləri göz qabağında idi.

***

Ermənistanda şaxtalar heç vaxt min doqquz yüz səksən doqquzuncu ilin qışı kimi sərt keçməmişdi. Artıq qışın oğlan çağı idi, yanvar gəlmişdi.  Kənd camaatı meşədəki ağaçları qırıb  az da olsa, evlərini qızdıra bilirdi. Lakin şəhərdə yaşayanlar yarıac həyat tərzi keçirərək birtəhər özlərini çətin vəziyyətdən çıxara bilirdilər. Səksən səkkizinci ilin Spitak zəlzələsi ermənilərin acınacaqlı həyat şəraitini cəhənnəmə döndərmişdi. Lakin bütün bunlara baxmayaraq, erməni başbilənlərin hər biri gecə vaxtı soyuq yatağına girəndə yalnız iki məsələni düşünürdü: Qarabağı Ermənistana birləşdirmək, sonra isə dənizdən dənizə böyük

Ermənistan dövlətini yaratmaq. Bəlkə də sadə ermənilərin özlərinə qalsaydı, bu xülyalarından vaz keçərdilər. Çünki aclıq olan yerdə nə vətən, nə şərəf, nə də qürurları yada düşürdü. Onların yeganə niyyəti o idi ki, bir tikə çörək tapıb balalarının qarnını doyursunlar.

Erməni xalqının problemləri Stepanyan və Yesayan kimiləri üçün maraqlı deyildi. Onların yeganə arzuları türkləri tez bir zamanda məhv etmək idi. Yesayan Moskvada Qaraxanovla bir fakültədə təhsil almışdı. O, Məktəbi Elçindən üç il öncə bitirmişdi, Arsen Raziyevlə eyni zamanda. Hətta Qaraxanov ali məktəbə daxil olmaq üçün Moskvanın Çariçino məntəqəsindəki təhsil bazasına gələndə Yesayan onun təlimatçısı olmuşdu. Mütəmadi olaraq azərbaycanlılara olan sevgisindən, doğulduğu Qarabağ torpağı ilə fəxr etdiyindən, Azərbaycan sayəsində məqsədinə çatdığından ağız dolusu danışardı. Lakin günlərin birində Yesayanın antitürk əməlləri üzə çıxmağa başladı. O, "sülhsevər" ermənidən tədricən terrorçu təfəkkürlü insana döndü. Yəqin ki, bu hal onun özündən asılı deyildi. Sadəcə onun genləri azərbaycanlılara qarşı nifrət və kin daşıyırdı.

İqor Yesayan Stepanyanın kabinetinə daxil olanda Serjikin qarşısında əyləşmiş kəşfiyyatın rəisi, polkovnik Karo Simonyanı və əks-kəşfiyyatın rəis müavini Jorik Minosyanı gördü. Minosyanın rəisi polkovnik Aşot Tarverdiyev isə qısamüddətli Qarabağ ezamiyyətində günlərini keçirirdi. Erməni əhalisilə müqayisədə Stepanyan başda olmaqla kabinetində yığışan zabitlərin hamısının qarnı tox idi. Kə-

nardan baxan heç vaxt  düşünməzdi ki, bu cür alçaq ünsürlərin murdar niyyətləri var. Serjik həmən söhbətə başladı:

-Yoldaş zabitlər, Azərbaycandakı vəziyyəti siz də mənim kimi yaxından müşahidə edirsiniz. Hələlik qurduğumuz planlar öz axarıyla gedir. Məqsədimizə heç vaxt bu qədər yaxın olmamışdıq. Bəlkə, kiminsə sualı var?

Simonyan əlini qaldıraraq müzakirələrə qoşuldu:

-Yoldaş general, kəşfiyyatımızın problemi yoxdur. Lakin bizi yeganə məsələ narahat edir, o da Stepanakertdə türk "çekistlərinin" peyda olması məsələsidir. Bunu İqor da təsdiqləyə bilər.

Stepanyan Yesayana xitabən:

- İqor, nə məsələdir bu?

- Yoldaş Stepanyan! İki gün bundan öncə Bakıdan Stepanakertə iki nəfər Azərbaycan zabiti ezam olunub. Moskva ilə danışıqlarda belə bir məsələ gündəmdə yox idi...

- Kimdir o zabitlər? Heç nə anlamadım. Nə üçün bu məlumatı vaxtında mənə məruzə etməmisiniz?

- Yoldaş general, xəbəri yoxlamaq üçün vaxt tələb olunurdu. Ona görə də sizə dolğun məlumat verə bilmədik.

- Bəs indi necə? Azərbaycan "çekistlərinin" şəxsiyyətini müəyyən etmisinizmi?

- Bəli. Dəqiq olmasa da onlar haqqında səthi məlumatımız var.

- Kimlərdir? Söhbəti uzatma, İqor.

- Birinin adı Rüfət Mənsurov, digərininki  Şahin Sailovdur. Xüsusi idarəçilik rejimi yarandığı gündən onlar Qarabağda fəaliyyətdədirlər.

- Bu barədə Robert Köcəryanın fikri nədir?

- Robert həddindən artıq narahatdır. Dediyinə görə, Mənsurovla Sailov onun adamlarını qeyri-qanuni həbs edərək istintaqa cəlb ediblər. Türklərin fəaliyyəti nəticəsində "Miasum" hərəkatının intensivliyi də zəifləyib.

- Köçəryan çıxış yolunu nədə görür?

- Çıxış yolu deyəndə ki, yoldaş general, Şahini də, Rüfəti də oralardan rədd eləmək lazımdır!

- İqor, sən də elə deyirsən ki, guya, hər şey mənim əlimdədir. Volskinin Qarabağa gəlişilə bizim də işimiz müşkülə düşüb. Stepanakerti tam şəkildə Moskvaya tabe edib.

- Bəs Qorbaçov söz vermişdi ki, Qarabağı azərbaycanlılardan təmizləyib bizə verəcək. Bunu Balayan, Sitaryan və Ağanbekyan da təsdiq etmişdilər axı!

- İqor, həyatda elə şeylər var ki, onun həllini yalnız Yaradan bilir. Ona görə də qəti ruhdan düşmə. Simonyan da, sən də müqəddəs missiyamızı davam etdirin. Bir də ki, demədin axı bu türk zabitləri nə qədər oralarda ayağımıza dolaşacaqlar?

Söhbətə Minosyan da müdaxilə etdi:

- Yoldaş Stepanyan, bizdə olan məlumata görə Mənsurovla Sailov Qarabağa altı ay müddətinə ezam ediliblər. Tak şto narahatlığa heç bir səbəb yoxdur.

Jorikin sözünə Simonyan irad tutdu:

- Necə yəni narahatlığa səbəb yoxdur? Hər dəqiqəmiz qızıldır. Bunlar isə altı ay ərzində əlimizi-qolumuzu bağlayacaqlar. Hələ məndə olan məlumata görə Mənsurov Köçəryanla Sərkisyanı separatçı adı ilə həbs edib Bakıya təhvil vermək istəyir!

Stepanyan kinayə ilə Karoya cavab verdi:

- Ta ağ eləmə. Biz ölmüşük ki, agentlərimizi həbs etsinlər? Bir də ki demədiniz axı, Şahin, Rüfət kimdilər?

Simonyan dodağını büzərək Azərbaycan çekistləri barədə məlumat verdi:

- Rüfət Mənsurov dəqiqləşdirilməmiş məlumatlara görə Azərbaycan Respublikası DTK-sı istintaq şöbəsinin rəis müavinidir, Sailov isə beşinci şöbənin baş əməliyyatçısıdır. Hər ikisi həddindən artıq millətçidirlər.

Stepanyan ciddi sifətlə göstərişlərini verdi:

- Bir sözlə, Mənsurovun da, Sailovun da hərəkətlərini, əməllərini, oturub-durmalarını izləməyə davam edin. İlin bu vaxtında bizə problemlər lazım deyil. Heyif deyildi, Leptanın zamanı?

Minosyan Lepta barədə birinci dəfə eşidirdi. O, Stepanyana dəqiqləşdirici sual verdi:

- Lepta kimdir, yoldaş general?

- Qarabağ KQB-sinin rəisi idi. Onun vaxtında heç bir problemimiz olmazdı.

- Yəni bizim adam idi?

- Elə də demək olmaz, amma mənşəyi bəlli deyildi.

- Həə, bildim kimin barəsində söhbət gedir. Sonradan Lepta Sumqayıtın da rəisi oldu...

- Düz tapdın, Jorik. Deməli, əks-kəşfiyyatımız da tam fəaliyyətdədir. Bir sözlə, əməliyyatımızın üçüncü fazasına start veririk: Artıq Qarabağda yaşayan türklər kütləvi şəkildə torpaqlarını tərk etməlidirlər. Yeri gəlsə, hamısını işgəncə, ölümlə hədələyin. Lap öldürün də! Qarabağda bir türk belə qalmamalıdır.

Yesayan təəccübünü gizlədə bilmədi:

- Yoldaş general, bəs buradakı azərbaycanlılarla nə edək?

- Hələ bir soruşursan da? Hamısı Ermənistan ərazisindən qovulmalıdır. Özü də Bakıya. Azərbaycanın paytaxtında da iğtişaşlar salmağın vaxtı çatıb. Eyni zamanda rayon partiya komitələrinin rəhbərliyilə danışın ki, Azərbaycanın Sumqayıt şəhərindən Ermənistana gələn soydaşlarımızın hamısını geriyə, öz evlərinə yola salsınlar. Bizə qorxaqlar lazım deyil.

Erməni zabitləri  xalqının işıqlı gələcəyindən o qədər əmin idilər ki, tərtib etdikləri planların həyata keçirilməsinə zərrə qədər də şübhə ilə yanaşmırdılar. Əksinə, onların yeganə məqsədi tez bir zamanda Azərbaycanın böyük ərazilərini zəbt etmək idi. Onlar xəyallara necə dalmışdılarsa, gələcəkdə didərgin düşəcək milyonlarla azərbaycanlının aqibətini düşünmək iqtidarında belə deyildilər. Yerevan çekistlərinə çatmırdı ki, ermənilər dəfələrlə öz dövlətini yaratmaq imkanı əldə etsə də, nəfsləri buna mane olurdu. Yalnız düşmən bildikləri xeyirxah azərbaycanlılar öz əraziləri hesabına nankorlara tamhəcmli dövlət yaratmaq fürsətini bağışlamışdı. Cavabında da Stepanyanın kabinetində erməni xalqını Yer kürəsində pərakəndə şəkildə yaşamaqdan xilas edən azərbaycanlılara qarşı mühüm planlar tərtib edilirdi.

## VII FƏSİL

# Vəziyyət gərginləşməkdədir...

Min doqquz yüz səksən doqquzuncu ilin qışı yavaş-yavaş ölkəmizə vida edirdi. Lakin torpağımıza qədəm qoyan mart ayı əvvəllər olduğu kimi Bakıya sevinc gətirmirdi. Əvvəllər mart ayında paytaxtda yaşayan onlarla xalqın nümayəndələri azərbaycanlılara qoşularaq "Novruz bayramı"nı qeyd edərdilər. Erməni Karapet azərbaycanlı Həsəndən səməni, Yəhudi Moisey gürcü Qoqidən fişəng, ləzgi Nazim talış Müseyibdən ləvəngi alıb evinə gətirərdi. Hamı deyib-gülərdi, şənlənərdi, "Novruz"u öz bayramı kimi keçirərdi.

Çoxmillətli Bakı insanlara bərabərlik, mehribanlıq abhavasını yaşadırdı. Şəhərdə qalan müxtəlif millətlərin nümayəndələri fikirlərini ən azı üç dildə anlada bilirdilər. Hətta həyata göz açan və "dənizdən dənizə", "türk bizim düşmənimizdir" ideyaları ilə Bakıda böyüyən ermənilər belə öz şovinist düşüncələrini biruzə vermirdilər.

Lakin bu dəfə belə deyildi. Mart ayı olmasına baxmayaraq Bakı sakinlərinin könlü sevinmir, üzü gülmürdü. Bayrama üç gün qalırdı. Amma şəhərin nə mərkəzində, nə dünya şöhrətli bulvarında insanların gəzişməsi gözə dəymirdi. Hamı evinə qapanmışdı, insanlar Ermənistandan didərgin düşən yurddaşlarımızın yeni köç dalğasının gələcəyindən narahat idi. Ölkə əhalisinin üçdə birinin evində

doğma yurd-yuvasından qovulmuş, döyülmüş, təhqir edilmiş qaçqın qohumu sığınacaq tapmışdı.

Belə bir ağır şəraitdə Elçin yeni iş otağına daxil oldu. Artıq Azərbaycan Respublikası DTK-sının Nərimanov prospektindəki yeni binası istifadəyə verilmişdi. Qaraxanov gödəkcəsini təzəcə soyunub asılqana asmışdı ki, kabinetin açıq qapısını İsrail Qulamov döyməyə başladı:

- Elçin müəllim, icazə olar?

- Gəl, İsrail, gəl.

- Salam, Elçin müəllim. Səhərdən sizi koridorda gözləyirəm.

- Nə əcəb? Yenə problemin var?

- Xeyr, xeyr. Sizin üçün indi də ağ rəngdə gerbli telefon aparatı gətirmişəm...

- Ay İsrail, mən nə hayda, sən nə hayda! Millət dərdindən dərbədərdi, sənsə telefon hayındasan. Bu yaxınlarda dəyişdin axı aparatı!

- Cəmi beş dəqiqə çəkəcək. Aparatı yerinə taxıb gedirəm. Bir də qohum üçün təşəkkürlərimi bildirməyə gəlmişəm. Qiymətini problemsiz yazdılar.

- İsrail, bir az qısa elə, rəis məni gözləyir.

- Narahat olmayın, cəmi beş dəqiqə.

Elçin İsrailin telefon aparatının şəbəkəyə qoşmasını izləyərək düşüncələrə daldı: Məntiqlə düşünəndə İsrail xeyirxahlıq etmək istəyir. Lakin bu cür insanın təmənnasını, zaman və məkanın düzgün seçməməsini nəzərə alsaq, onun hərəkətləri, davranışı məni yalnız qıcıqlandırır. Qulamov "xeyirxah" işini bitirdikdən sonra Elçin Təhməz

müəllimin kabinetinə getdi. Fətəliyev tələsik Qaraxanova yeni göstərişlərini verdi:

- Elçin, iki saatdan sonra Əbdürrəhman Vəzirov Sumqayıt şəhərinə gedir, təhlükəsizliyini bizim bölməyə həvalə ediblər. Bu dəfə onu sən müşaiyət edəcəksən.

- Təhməz müəllim, bilirsiz ki...

- Elçin, şərhə heç bir ehtiyac yoxdur. Gedirsən Mərkəzi Komitəyə, Vaqif müəllimin yanına. O, hər şeyi sənə başa salacaq. Bir də ki, əla oldu. Elə Vəzirovla yaxından tanış olarsan.

- Hərbçi olmasaydım, bəlkə də, sözünüzdən çıxardım. Amma sizi də başa düşürəm, ona görə, əmrinizi can-başla yerinə yetirəcəyəm.

- Vaxtımız çox azdı, dediyim kimi, get ora, səni gözləyirlər.

- Oldu, yoldaş podpolkovnik.

Yarım saatdan sonra Qaraxanov Mərkəzi Komitənin binasına daxil oldu. Orada onu Vəzirovu səfərdə müşayiət etməyə hazırlaşan Daxili İşlər Nazirliyinin nümayəndəsi, podpolkovnik Vaqif Axundov qarşıladı. Təlimat və marşrutun müzakirəsindən sonra Qaraxanov digər əməliyyatçılarla bərabər Sumqayıt şəhərinə istiqamət götürdü.

Hələ yoldaykən Elçin də, podpolkovnik Axundov da birinci katibin Qarabağda separatçı ermənilərin təxribatlarına qarşı sərt mövqe tutacağı barədə fikirlərini bölüşürdülər. Vaqif "Əbdürrəhman Xəliloviç Sumqayıtın zavodlarının birində çıxış edəcək, nəhayət ermənilərin təxriba-

tından geniş söhbət açacaq!" sözlərilə Qaraxanovu söhbətə dəvət etmək istədi. Elçin isə "Allah ağzından eşitsin, gedib görəcəyik" ümidsiz cavabı ilə müzakirələrə yerindəcə nöqtə qoydu.

Sumqayıta çatanda katibi şəhərin mərkəzi küçələrinin birində ümidsiz, çarəsiz, məyus olan zəhmətkeşlər qarşıladı. Onların sırasında olan Ermənistandan zorla qovulan azərbaycanlılar dodaqaltı Vəzirovun ünvanına tənqidi fikirlər söyləyir, ondan qətiyyətli addımlar atmasını gözləyirdilər. Cavab isə özünü çox gözlətmədi. Sumqayıt zavodlarının birində yarırus-yarıazərbaycan dilində "alovlu" çıxış edən birinci katib Qarabağ hadisələrinə səthi, qeyri-müəyyən münasibət bildirib azərbaycanlıları bir daha tolerantlığa dəvət etdi və müəssisə işçilərinin məişət şəraitilə maraqlanmağa başladı. Hətta yanında duran fəhlə qadını sorğu-suala da tutdu:

-Siz bu zavodda давно трудитесь?

Ömrünü fəhləliyə sərf etmiş sadə Azərbaycan qadını Vəzirovun sualını o qədər də dərindən anlaya bilmədi. O, üzünü yanındakı sex rəisinə tərəf çevirdi. Rəis qadının səssiz sualını göydə tutub ona "soruşur ki, sən bu zavodda çoxdanmı işləyirsən?" tərcüməsini çatdırdı. Nur üzlü fəhlə qadın Vəzirova baxıb Azərbaycan dilində "hə" cavabını verdi. Əbdürrəhman Xəliloviç yarı Azərbaycan dilində qadına ikinci sualı verdi:

-Sen ailelisen? Uşaqın var?

- Bəli, iki uşağım var.

Qadının bu cavabından sonra Vəzirovun dilindən səslənən üçüncü sual xalq arasında qısa anekdot şəklində ömürlük yaddaşlara yazıldı:

- Uşaqlar kimdendir?

Namuslu, şərəfli Azərbaycan qadını və onun ətrafında toplanan zavodun digər fəhlələri donub yerlərində qaldı. Bu dəfə rus dilindən Azərbaycan dilinə deyil, Azərbaycan dilindən Azərbaycan dilinə tərcüməçi tələb olunurdu. O isə özünü çox gözlətmədi. Birinci katibin xüsusi dialektindən agah olan müşavir Verdiyev üzünü fəhlə qadına çevirib toplantı iştirakçılarının gülüş və təəccüblərinə son qoymaq istədi: katib bilmək istəyir ki, işdə olduğunuz müddətdə uşaqlarınız kiminlə qalır?

Bir neçə saatdan sonra Vəzirovun Sumqayıt səfəri başa çatdı. Rəhbərin "proqram" çıxışından heç bir nəticə çıxarmaq mümkün deyildi. Nə güc strukturları, nə siyasətçilər, nə katibə müxalif olan insanlar, nə də ki  xalq gələcəkdə "nə etməli?" sualına cavab tapa bilmirdi. Ölkə uçuruma tərəf yuvarlanmağa davam edirdi.

"Böyük səfər"dən sonra "yorulmuş" Vəzirovu Bilgəhdəki bağına yola salan Axundov və Qaraxanov öz idarələrinə qayıtdılar. DTK-nın binasına daxil olan Elçin Sumqayıt ezamiyyətinin nəticələrini Təhməz Fətəliyevə məruzə etmək üçün onun kabinetinə tərəf yollanırdı ki, dəhlizdə əməliyyatçı Rəsul Adilovla üzləşdi. Qaraxanov məktəbi bitirəndən bəri Rəsulu çox nadir hallarda görürdü və onun durumu ilə maraqlanmadığına görə vicdan əzabı çəkirdi:

- Rəsul, səninlə rastlaşdığıma görə çox şadam...

- Beləsiz də! Akademiyadan qovulduğuma görə heç kim məni saymır.

- O nə sözdü, Rəsul? Hamımız ağsaqqal kimi sənə rəğbətlə yanaşırıq. Sadəcə respublikamızdakı vəziyyəti özün bilirsən. Başımız mühüm işlərə elə qarışıb ki, heç öz ailəmizə də həftədə bir dəfə baş çəkməyə macal tapmırıq. Sən özündən danış. Nətərdi vəziyyətin?

- Bilirəm. Eşitdiyimə görə kabinetinizə yorğan-döşəklə gəlirsiniz. Sözlərimə ciddi əhəmiyyət vermə. Hərdən itirdiyim illərin əzabını çəkirəm. İndi isə min şükür, vəziyyətim yaxşılığa doğru gedir. Dünən Qorelovski, nəhayət ki, leytenant rütbəmin verilməsi haqda əmrə imza atdı. Artıq mən də zabitəm. Stepanyanın mənə Moskvada yaxdığı ləkələr üzərimdən götürülür.

- Çox şadam, Rəsul. Hansı şöbəyə səni təyin ediblər?

- Əks-kəşfiyyat.

- Gözəl! Elcan oradadır. Əl-ələ verib düşmənlərimizi məhv edəcəyik.

- Onu zaman göstərər, Elçin...

- Hələlik.

Rəsulun son cümləsi Qaraxanovun xoşuna gəlməsə də, Adilovun yenidən KQB sıralarına qayıtmasına sevindi. "Yoxsa ki, inzibati binamızın komendant müavini! Elə şey olar? O boyda akademiyanı bitirəsən, sonra da adi qaravulçu işləyəsən? Respublikamızın bu günündə... Son altı ayda İvan İvanıçın gördüyü ən savab iş!" düşüncələrilə Elçin bölmə rəisinin kabinetinə daxil oldu:

- İcazə olar, Təhməz müəllim?

- Gəl, gəl, Elçin.

- Məruzə edirəm ki, Vəzirovu Sumqayıtda mühafizə etdiyim zaman heç bir qeyri-adi hadisə qeydiyyata alınmamışdır.

- Əla! Mənim də qulağım hey səsdə idi. Qorxurdum ki, nəsə bir hadisə elə sənin özün törədərsən.

- Yoldaş poldpolkovnik, Vətənimizin maraqları mənimçün hər şeydən üstündür. Hisslərimi cilovlamağı da yaxşı bacarıram.

- Buna heç şübhəm yoxdur, Qaraxanov. Madam ki, ezamiyyət zamanı fövqəladə hadisə baş verməyib, keçək əsas məsələyə.

- Dinləyirəm sizi, Təhməz müəllim.

- Deməli, sən Sumqayıtda olan zaman mənimlə gizli yardımçımız "Seda" əlaqə saxladı və bildirdi ki, Masisdə yaşayan xalası onu görmək üçün Gürcüstan Respublikasının ərazisindən keçib bir günlük Bakıya gəlib.

- Çox yerinə düşdü, rəis. Barı xalasından mühüm məlumat almaq mümkün olubmu?

- Məlumatlar əsasən ümumidir. Lakin "Seda"nın gətirdiyi bir xəbər məni maraqlandırdı ki, o da soydaşlarımızın Ermənistan və Qarabağ ərazisindən kütləvi şəkildə qovulmasına ciddi göstərişin verilməsidir. Hətta qonşu respublikanın ərazisini tərk etmək istəməyən azərbaycanlıları ölümlə hədələyirlər. Qarabağda isə Şuşa, Əsgəran və azərbaycanlıların yaşadıqları digər kəndlərə silahlı basqınlar gözlənilir.

- Vəssalam, beş-altı yüz min azərbaycanlı respublikamıza qovulsa, xüsusən də, böyük şəhərlərimizə, durum

bir az da gərginləşəcək. Bu dəfə xalq mitinqlərə deyil, üsyana qalxacaq. Yaralı pələngin caynaqlarından qurtulmaq heç kimə qismət olmayacaq.

- Artıq bizim camaat da Qarabağda və ona yaxın regionlarda özlərini müdafiə etmək üçün rus zabitlərilə danışıqlara girir. Pul ilə də olsa, tapança-avtomat axtarışındadır.

- Bəs, nə etsinlər, Təhməz müəllim? Başbilənlərimizin göstərişilə camaatın ov tüfəngləri, bıçaq-xəncərlərini də əllərindən alıblar. Mənə elə gəlir ki, bu xain işdə bilavasitə bizim İvanın da əli var.

- Hər nə isə, Elçin. Bizim əsas vəzifəmiz böyük şəhərlərimizdə kütləvi iğtişaşlara yol verməməkdir. Hər tərəfimiz düşmənlərlə doludur. Bir o qalıb ki, bir-birimizi qıraq!

- Ta o qədər də yox, yoldaş podpolkovnik.

- Sualın yoxdursa, keçək başqa məsələlərə.

- Sualım yox, təklifim var, Təhməz müəllim.

- Buyur.

- Rafiq Əliyeviçin qarşısında məsələ qaldıraq ki, işdirşayət, əgər soydaşlarımız Ermənistandan kütləvi şəkildə qovulsalar, onların hamısını Qarabağ ərazisində yerləşdirək: həm orada yaşayan ermənilərin dili qısalsın, həm də muxtar vilayətdə azərbaycanlıların sayı artsın...

- Ağıllı fikirdir. Bu barədə bir arayış tərtib et ki, polkovnik Sadıxovun vasitəsilə Qorelovskiyə çatdıraq. O da öz növbəsində bu məlumatı yoldaş Vəzirova göndərsin.

- Oldu, rəis.

Fətəliyev də, Qaraxanov da gözəl bilirdilər ki, arayışları Qorelovskinin seyfində bir kağız parçası kimi ilişib qala-

caq. Lakin az da olsa, daxilən rahatlıq tapırdılar ki, vicdanları təmizdir. Qısa sükutdan sonra, Fətəliyev Elçinin qarşısında yeni məsələləri açıqladı:

- SSRİ hökumətinin iki mühüm qərarı çıxıb: birincisi, min doqquz yüz otuz yeddi-otuz səkkizinci illərdə qanunsuz repressiyalara məruz qalan vətəndaşlarımızı aşkarlayıb reabilitasiya etməliyik; ikincisi isə, ticarət anbarlarında yığılıb qalmış malları məcburi qaydada mağazalar şəbəkəsinə göndərməliyik.

Axırıncı tapşırığı Təhməz müəllim gülümsəyərək Elçinə çatdırdı. Qaraxanov zarafatdan geri qalan deyildi. O, həmən rəisinə cavab verdi:

- Yoldaş podpolkovnik, bilsəydim ki, anbarlarla biz məşğul olacağıq, akademiyanı qızıl medalla bitirməzdim.

- Səni anlayıram. Deməli, Stalin dövrünün cinayət işlərilə məşğul ol, axşama yaxın da Binəqədi Rayon Şöbəsinə gedərsən. Orada səni əməliyyatçı Nağı Əliyev qarşılayacaq. Onunla bir yerdə Xırdalan anbarlarındakı vəziyyətlə tanış olub əhalidən gizlədilən ərzaq və sənaye mallarının hamısının satışa buraxılmasını təmin edəcəksiniz. Aydındırmı?

- Təbii ki, rəis. OBXS-in səlahiyyətlərini də dişimizə vuraq. Görək nə üçün milisə düzələn namizəd ilk növbədə bu şöbəni seçir. Yəqin yağlı yerdir. İcazənizlə, mən bu yönümdə fəaliyyətə başlayım. İlk növbədə Mikayıl Müşfiqin cinayət işini araşdıracağam.

- Məncə Müşfiqin qondarma işi ilə arxiv şöbəmiz və Elmlər Akademiyası məşğuldur.

- Axır ki!
- Nəticələr barədə mənə üç gün ərzində məruzə edərsən.

***

Min doqquz yüz səksən doqquzuncu ildə Ermənistanın bir çox şəhərlərində kiçik həcmli mitinqlər yenə də davam etməkdə idi. Yerindən qalxan hər kəs şəhərlərin mərkəzində, küçələrində, kafelərində yığışaraq yeganə suala cavab gözləyirdilər: Dağlıq Qarabağ Muxtar Vilayəti nə vaxt respublikalarının tərkibinə daxil olacaq?

Erməniləri nə iqtisadiyyatlarında mövcud olan ağır şərait, nə camaat arasında kasıbların sayının artması, nə də insanların aclıqdan qurtulmaq üçün Rusiyaya köç etmələri maraqlandırırdı. Azərbaycanda olduğu kimi Ermənistanda da hakimiyyət dəyişmişdi. Oranın yeni rəhbərliyi Qarabağ məsələsilə əlaqədar qonşuları ilə münasibətləri daha da gərginləşdirməkdə idi. Buna baxmayaraq, Azərbaycanın liderləri Ermənistanla dostluq əlaqələri yaratmaq istiqamətində fəaliyyətlərini davam etdirirdi. Necə deyərlər, Azərbaycanın milli maraqlarından uzaq "başbilənlər" "səni sevəcəyəm, sən sevməsən də..." iddiasında idilər.

Ermənistan Respublikası DTK sədrinin müavini Stepanyan Yerevanın meydan və küçələrindəki vəziyyətə əhəmiyyət vermədən Azərbaycan əhalisinə qarşı məkrli planlarını həyata keçirməyə davam edirdi. Onun müasir stildən uzaq, kənd evlərindəki kimi çılçıraq və pərdələrlə bəzədilmiş kabinetinə yenə də özünəoxşar "silahdaşları" yığışmışdılar. Toplantıya qonaq qismində Qarabağ vilayə-

tində yaradılmış millətçi "Arsax" təşkilatının lideri Robert Köçəryan da "təşrif buyurmuşdu". Artıq Qarabağda yaşayan azərbaycanlı əhalinin oradan qovulması kütləvi hal almışdı. Yerevandan idarə olunan "saqqallılar" ətraflarında millətçi erməniləri toplayaraq kəndlərə silahlı hücumlar təşkil edir, qoca, qadın, uşaq demədən Azərbaycan əhalisinə qarşı soyqırımlar həyata keçirirdilər. Ona görə də, Dağlıq Qarabağ Muxtar Vilayətinə faktiki rəhbərlik edən Köçəryanın toplantıda iştirak etməsi zəruri idi.

Kabinetindəki dəvətliləri salamlayaraq Stepanyan müzakirələrə başladı:

- Yəqin ki, bizim sevimli Roberti hamınız tanıyırsınız?

Yesayan Köçəryanı hələ Qarabağda yaşarkən tanıyırdı, isti münasibətləri var idi. Hətta məktəb illəri zamanı bir-iki dəfə millətçilərlə bərabər Yesxaok kəndində yığışıb türklərə qarşı mübarizələrini də müzakirəyə qoymuşdular. İqor generalın sözünə qüvvət verdi:

- Koçaryanı tanımamaq olarmı? O, Qarabağ ermənilərinin xilaskarıdır!

Yesayanın ağzından çıxan bu inamsız ifadə onun özünü də daxilən təəccübləndirdi. Çünki Dağlıq Qarabağ Muxtar Vilayətində böyüyüb başa çatan İqor gözəl bilirdi ki, oranın iqtisadi və sosial durumu nəinki Azərbaycanın regionlarından, hətta Ermənistanın rayonlarından bir baş üstün idi. Amma İqorun paslanmış vicdanı, ermənisayağı düşüncəsi onun alovlu çıxışına rəvac verdi:

- Tərəfimizdən Robertin qarşısında qoyulan bütün məsələlər problemsiz öz həllini tapmaqdadır. Bir neçə kənd

istisna olmaqla, Qarabağın bütün yaşayış məntəqələri azərbaycanlılardan demək olar ki, təmizlənib. Artıq muxtar vilayətin əhalisinin sırf ermənilərdən ibarət olduğunu bütün dünyaya bəyan edə bilərik!

Stepanyan Yesayanın sözlərindən məmnun qaldı:

- Elə buna görə də, dostlar, sizləri kabinetimə dəvət etmişəm. Ermənistan Respublikasının rəhbərliyi qarşısında Dağlıq Qarabağı müstəqil respublika kimi tanımaq məsələsini qaldırmalıyıq.

Simonyan da müzakirəyə qoşulub fikrini söylədi:

-Yoldaş general, bildiyiniz kimi Qarabağ ərazisində Moskva tərəfindən xüsusi idarəçilik rejimi tətbiq edilib, oranın yeni rəhbəri isə Qorbaçovun komandasından olan Volskidir. Müstəqillik elan etməklə Rusiyanın maraqlarına zidd çıxmarıq ki?

- Səni başa düşürəm, Karo. Qarabağın müstəqilliyinin tanınması zaman tələb edir. Biz planlarımızı tədricən həyata keçirəcəyik. Hələlik ən böyük nailiyyətimiz – Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycanın əlindən almağımızdır.

Nəhayət, Köçəryan da düşüncələrini bölüşdü:

- Yoldaş Stepanyan, "kağız" üzərindən regionu qopara bilmişik. Amma unutmayın ki, Volskinin ətrafı Azərbaycan KQB-sinin, Daxili İşlər Nazirliyinin və digər güc strukturlarının nümayəndələrilə doludur. Bu barədə sizə mən keçən dəfə məruzə etmişdim. Qarabağa ezam edilmiş Rüfət və Şahin adlı çekistlər hələ də qarşımızda at oynadırlar. Təşkilatımızın fəallarını separatçı adı ilə həbs edib Bakıya daşıyırlar. Volski nə ağ dinir, nə də ki qara...

Stepanyan gülümsəyib Roberti sakitləşdirdi:

- Artıq onlar barədə məlumatı rəhbərliyimizə ötürmüşəm. Ezam olunanlar bugünlük-sabahlıqdılar. Biraz da döz... Onları geri çağıracaqlar.

- Bəlkə qulaqlarını özümüz kəsək...

- Əsla, Robert. Bunu eşitdikdə bütün SSRİ məsələyə müdaxilə edəcək ki, bəs KQB işçilərini öldürdülər. Təmkinli ol.

Yesayan da Köçəryanı razı saldı:

- İki-üç nəfər güc strukturunun nümayəndəsi oradakı ab-havaya heç bir təsir göstərə bilməz. Problem onda yaranar ki, əgər işlərimizə Azərbaycan Respublikasının rəhbərliyi müdaxilə edib Sovet İttifaqının türkdilli dövlətlərini üstümüzə qaldıra. Bax, onda batarıq.

Simonyan toplantı iştirakçılarını bir daha əmin etdi:

- Keçən dəfə dedim axı, Vəzirovun başı daxili çəkişmələrə qarışıb, ikinci katib Polyaniçko ilə Qorelovski isə ən azı azərbaycanlıların problemləri ilə maraqlanan deyillər. Ona görə də, narahatlığa heç bir əsas yoxdur.

Stepanyan yersiz diskussiyalara son qoydu:

- Dostlar, mən sizi bura dəvət etməmişəm ki, keçmişləri müzakirə edək. Qarşımıza yeni məsələlər qoyulub. Onları həll etmək lazımdır.

Yesayan Simonyanla pıçıltını dayandırıb generala cavab verdi:

- Bütün diqqətimiz sizdədir, yoldaş Stepanyan.

- Bilmirəm nədən başlayım, İqor. Amma agah olun ki, bu məsələ çox təhlükəli və konspirativdir!

- Nə barədə? Bilirsiniz ki, biz söz saxlamağı bacarırıq.

- Əlbəttə, buna əminəm. Ancaq həyata keçirəcəyimiz əməliyyatlar dünya ictimaiyyətinə sızarsa, bir xalq kimi batıb gedərik.

- Bu məsələ bizdə yaman maraq doğurdu, yoldaş general.

- Deməli, diqqətlə qulaq asın. Bizə partlayış üzrə mütəxəssislər lazımdır.

- Nə üçün?

-Tələsmə, İqor, anladacağam. Azərbaycanın ərazisində partlayışlar, diversiyalar törətmənin vaxtı çatıb.

- Yəni...

- Yəni, əsasən sərnişin nəqliyyat vasitələrində terror aktları törətməliyik ki, türklər təşvişə düşsünlər. Bunun üçün, hələlik üçüncü dövlətlərin ərazisindən istifadə edəcəyik.

- Bunu hansı yol ilə edəcəyik, yoldaş general?

- Məsələn, Gürcüstan və Rusiyadan Azərbaycana gəlmək üçün əhali avtobus marşrutlarından istifadə edir. Onların bir neçəsində insan tələfatı ilə nəticələnən partlayışlar törətmək lazımdır.

Köçəryan tələsik cavab verdi:

- Hələlik Stepanakertdən də Bakıya avtobuslar gedir-gəlir. Bəlkə...

Stepanyan Köçəryanın sözünü kəsərək etirazını bildirdi:

- Qəti! Qəti qadağan edirəm. Hamıya məlum olar ki, bunu bizlər törətmişik.

Simonyan təsdiqlədi:

- Mənim üçün hər şey aydındır. İcazə verərsinizsə, Livan ermənilərilə bu məsələni həll edərəm. Onların bu işlərdə böyük təcrübəsi var.

- Mən də bu barədə fikirləşmişəm. Sabahdan bu əməliyyatı planlaşdırıb mənə məruzə edərsən.

- Oldu, yoldaş general.

- Sənsə, Robert, elə bu dəqiqə Stepanakertə yola düş. Bir neçə gündən sonra sizə aid planları sənə göndərəcəyəm. Orada ayıq-sayıq olun. Adaşıma salamlarımı yetirərsən,- deyə Stepanyan əmr verdi.

- Sarkisyanamı?

- "Arsağın" başqa "serji" də var?

- Başa düşdüm, yoldaş Stepanyan.

- İndisə hamı öz vəzifələrinin icrasına!

"İfrat dərəcədə Azərbaycana qarşı təxribat işlərinə girişmişəm, amma bilmirəm axırı nə ilə nəticələnəcək. Gör zəmanə və mühit insanları necə dəyişir. Vaxt var idi azərbaycanlı dostum Telmanla Moskvanı qarış-qarış gəzirdik, gözəl qızlarla günümüzü keçirirdik, dərdlərimizi birgə bölüşürdik. İndisə, mən Telmanı, Telman da məni diri-diri yandırar. Günah əcdadlarımızda və bizi qızışdıran, türklərlə aramızı vuran başqa millətlərdədir" fikirlərilə Serjik Stepanyan toplantı və müzakirələr barədə sədri məlumatlandırmaq üçün general Dilanyanın qəbuluna getdi.

***

Min doqquz yüz səksən doqquzuncu ilin yayı Bakıya xas olan istilərlə başladı. İnsanların köməyinə yalnız kondisionerlər gəlirdi. Bir də bu istilərdən xilas olmaq üçün

paytaxtın əhalisi Xəzərin sahillərinə üz tuturdu. Amma gərgin siyasi durum paytaxtın həyatını iflic vəziyyətinə salmışdı. Bir tərəfdən də erməni şovinistlərinin "dəyirmanına su tökən" Mərkəzi Televiziyanın və Sovet İttifaqı Teleqraf Agentliyinin antiazərbaycan təbliğatı millətin əsəblərini daha da tarıma çəkmişdi.

Yeni səhərə iş otağında gözlərini açan Elçinin əhvalına Mərkəzi Radio ilə çıxış edən SSRİ Dəmir Yolları naziri soğan doğradı. Onun verdiyi məlumata görə, bir gün əvvəl Bakı-Naxçıvan marşrutu ilə hərəkət edən qatara Ermənistanın Meğrı şəhərində yaraqlılar tərəfindən silahlı basqın edilmişdi. Sərnişinlərin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Dəmir Yolları İdarəsi marşrutun ləğvinə qərar vermişdi. Televiziya və radio vasitəsilə çıxış edən rus naziri isə Meğrı dəmiryolu sahəsinin Azərbaycan Respublikasına aid olduğunu nəzərə çatdırıb müsahibəsini elə qurdu ki, guya qatardakı naxçıvanlı sərnişinlərə elə azərbaycanlıların özləri hücum çəkiblər. Hələ bu harasıdı, həmin hadisədən bir ay öncə Vəzirov Naxçıvana getmək həvəsinə düşmüşdü. Birinci katibin yarıtmaz, ermənipərəst və naxçıvanlılara qarşı yürütdüyü siyasətdən "bəhrələnən" muxtar respublikanın əhalisi məşhur Nehrəm kəndində qatarın önünü kəsib Əbdürrəhman Vəzirovu geriyə - Bakıya yola salmışdı. Mərkəzi Televiziya bu məlumatı yenə də təhrif olunmuş qaydada SSRİ məkanına yaymışdı: "narkotik və psixotrop maddələrdən faydalanaraq huşunu itirmiş bir qrup pozğun respublika rəhbərlərini təhqir etmişdir!" Azərbaycanda hamı gözəl bilirdi ki, dostluğa sa-

diq, mərd, mübariz və nəhayət, dindar nehrəmlilər heç vaxt narkotik maddələrə maraq göstərməyiblər. Lakin Sovet İttifaqında yaşayan yüzlərlə millət bu məlumatı olduğu kimi qəbul edib azərbaycanlılara hər bir neqativ imici yaraşdıra bilərdilər.

Bir sözlə, Elçin DTK-nın sanitar qovşağında əl-üzünü yuyub qurtarmışdı ki, Fuad içəri girib yeni bəd xəbəri bölüşməyə başladı:

-Yeni xəbərlər var, Elçin. Bu dəqiqə əməliyyat növbətçisi ilə danışdım...

- Ürəyimi çəkmə, Fuad. Söylə görək, nə məlumatdır!?

- Ermənistanda yaraqlılar bir neçə Azərbaycan kəndinə hücum ediblər...

- Bəyəm birinci dəfədir? Bu günədək onların əlindən neçə soydaşımız həlak olub!

- Amma bu gecə törədilən hadisə əsl cinayətdir!

- Nə hadisə?

- Yadında, üç-dörd ay bundan qabaq erməni "saqqallıları" azərbaycanlıların yaşadıqları kənddən beş uşaq oğurlamışdılar?

- Hə, əlbəttə, yadımdadır!

- Bu gecə həmin kəndi tamamilə yandırıb yer üzündən siliblər...

Yerindəcə donub qalan Elçin handan-hana dilləndi:

- Nə danışırsan? Bəs əhalisinin aqibəti nə olub!?

- Nə olacaq? Qaçan qaçıb, ölən ölüb. Amma məsələ bu deyil. Erməni faşistləri qaçırılan uşaqları iri bir çəlləyə

doldurараq ağzını qaynaqlayıb təpədən aşağıya yuvarlayıblar. Balaların hamısı əzab çəkərək ölüb.

- Bədbəxtlik! Bu nə faciədir? Gedək Təhməz müəllimin kabinetinə. Bir azdan müşavirə başlayacaq.

Bölmə rəisinin otağına daxil olduqda əməliyyatçıların qəmli görkəmindən aydın oldu ki, hamı Ermənistan kəndindəki faciədən agahdır. Təhməz müəllim tutqun səslə müzakirələrə başladı:

-Yəqin  çəlləyə doldurulub öldürülən uşaqlar barədə eşitmisiniz?

Rzaqulunun səsi sanki quyunun dibindən gəldi:

- Mən bu dəhşətdən sonra hələ də özümə gələ bilmirəm.

Fuad da söhbətə müdaxilə etdi:

-Təhməz müəllim, arayış yazıb Qorelovskini məlumatlandırmaq heç bir nəticə vermir. Təklifim budur ki, biz də əlimizə silah alıb Qarabağa gedək. Bəlkə bu yolla əhalimizi ölümdən qurtara bilərik.

Elçin ürəyindən xəbər verilmiş kimi qabağa yeridi:

- Fuadla tam razıyam. Rəis, mən Bakıda nəticəsiz fəaliyyət göstərmək istəmirəm. Qarabağın istənilən bölgəsində "saqqallılarla" döyüşməyə hazıram.

Təhməz Fətəliyev əməliyyatçıların fəryadını anlayırdı. Lakin rəhbərliyin icazəsi olmadan müstəqil qərar qəbul etmək səlahiyyətində deyildi. O, işçiləri ilə müzakirələri davam etdirdi:

- Mən təsəvvür edirəm, öldürülən uşaqların valideynləri Bakıya gəldikdə necə qisaslarını alacaqlar. Əgər onları da ermənilər diri-diri yandırmayıblarsa...

- Təhməz müəllim, Ermənistanın rəhbərliyinə də elə bu lazımdır, qaçqınlar Bakıda aranı qatıb ermənilərə zor tətbiq etsinlər. Bax, onda bütün dünyaya azərbaycanlıların vəhşiliyi barədə car çəkəcəklər.

- Düzdür, Elçin, vəziyyət getdikcə gərginləşir. Bizim rəhbərlik qabaqlayıçı tədbirlər görməsə, Azərbaycanı nələr gözləyir, onu bir Allah bilir.

- Respublikamıza dəmir yumruqlu rəhbər lazımdır, rəis.

- Bilirəm, kimi nəzərdə tutursan, Elçin. Amma hələlik onun haqqında söhbət açmaq belə mümkünsüz görünür.

Bölmə rəisinin kabinetində söhbət davam etməkdə idi. Bu zaman gizli yardımçı Təhməz müəllimə zəng edərək "Azərbaycan Xalq Cəbhəsi" hərəkatının rəsmən yaranması barədə məlumatı çatdırdı. Fətəliyev öz növbəsində xəbəri əməliyyatçılara bildirdi:

- Millətin yuxarılara daha inamı qalmayıb. Onlar təşkilatlanaraq öz "hərəkatını" yaratdılar.

Artıq bu xəbərdən məlumatlı olan Fəxrəddin Tağızadə:

- Mən sizə dünən bu barədə məlumat vermişdim. Hətta liderlərinin - Əbülfəz Əliyevin seçiləcəyini də söyləmişdim,- deyə bildirdi.

Rzaqulu da bu barədə bildiklərini ortaya tökdü:

- Təhməz müəllim, demək olar ki, universitet və institutların hamısında "Xalq Cəbhəsinin" özəkləri yaradılıb.

- Mənim əməliyyat təminatımdakı institutlarda özəklərin sədrləri də bəllidir,- deyə Elçin söhbəti davam etdirdi.

Təhməz müəllim:

- Lap yaxşı. Sizin üzərinizə düşən isə özəklərin rəhbərlərilə daim təmasda olmaqdır. Hələlik onların əksəriyyəti cavan, dəliqanlı tələbələrdi. Elə əməllər törədərlər ki, həm respublikamız, həm də özləri zərər çəkər, -deyə xəbərdarlıq etdi.

Elçin yeni bir məlumat da verdi:

- Rəis, digər sovet respublikalarında da "Xalq Cəbhələri" yaradılıb. Bizə qalan hərəkatın Azərbaycanımıza yönəlmiş xoş niyyətindən səmərəli istifadə etməkdir...

- Deyirsən, bəlkə bizim üçün asan olacaq?

- Necə bəyəm?

- Əvvəla, KQB əməkdaşları olaraq "xalqçıların" inamını qazanmalıyıq.

- Niyə də qazanmayaq? Yəni, bizdən artıq millətçidirlər?

- "KQB"-nin xofu millətin beyninin dərinliklərində oturub.

- Anladım sizi, rəis, xüsusən də otuz yeddi- otuz səkkizinci illər...

Elçinin son cümləsi Fətəliyevin yadına reabilitasiya işlərini saldı:

- Uşaqlar, repressiya qurbanları barədə son məlumatı bir həftə bundan öncə vermişdiniz. Yeniliklər varmı, Qaraxanov?

- Təhməz müəllim, hər yeni "qurban" haqqında arayış tərtib edəndə indiyədək hansı dövlətdə yaşadığımı tez-tez düşünürəm.

- Əminəm ki, bu "tezislərini" mənim otağımdan başqa heç yerdə müzakirə etməmisən?!

- Hələlik, yox.

- Yaxşı olar ki, bu cür düşüncələrindən uzaq durasan.

- Oldu, Təhməz müəllim!

- İndi de görüm, hansı cinayət işi səni bu cür təsirləndirib?

- Hamının yanında?

- Əlbəttə. Əminəm ki, danışdıqlarımız elə burada da qalacaq.

- Deməli, rəis, otuz yeddidə İmişli rayonunda yerləşən kolxozun aqronomu çətənə əvəzinə buğda əkinini məqsədəuyğun hesab edib. Hətta çətənənin ünvanına söyüş da söyüb.

- Aydındır. Nəticəsi?

- Aqronomu güllələyiblər.

- Necə yəni, güllələyiblər?

- Bəli! Hökmdə elə də qeyd ediblər: çətənənin ünvanına nalayiq söyüşlər söydüyünə görə güllələnsin.

- Elçin, məndə də bu tip işlər var. Amma "çətənə" məsələsi məni şoka saldı,- deyə Fuad təəccübləndi.

- Hələ bu harasıdır, Fuad, Qasım İsmayılov sakini gecə yuxusunda Allahı görüb və yerli mollaya söyləyib. Molla da eləmə tənbəllik, yuxunun məğzini NKVD əməkdaşına çatdır... Cinayət işi üzrə iki hökm çıxardıblar: sakini, yuxuda Allahı gördüyünə görə, mollanı da sakinin yuxusunun təsiri altına düşdüyünə görə güllələyiblər.

Elçinin "maraqlı" çıxışı nəticəsində bölmənin əməliyyatçıları quruyub yerlərində qaldılar. Bir dəqiqəlik sükutdan sonra Fətəliyev "siz də deyirsiniz ki, camaat bizim

əməkdaşları görəndə nəyə görə inamsızlıq nümayiş etdirir" sözləri ilə toplantını yekunlaşdırdı və Elçin xaric hamını iş başına yola saldı. Qaraxanov rəisinin turşumuş sifətini gördükdə, suala keçdi:

- Bir sözlə, səhvə yol verdim, Təhməz müəllim? Özünüz dediniz axı, cinayət işləri barədə məlumat verim.

- Bunları qoy bir kənara, ay Elçin. Sabah səhər çıxırsan Füzuli rayonuna.

- Xeyirdir, rəis?

- Hə. Bu dəfə Vəzirovu Füzuli səfərində müşayiət edəcəksən...

- Təhməz müəllim, axı keçən dəfə...

- Elçin, söz güləşdirmə. Əmr budur. Sabah saat səkkizdə Rzaqulu ilə birgə olursan Mərkəzi Komitədə. Vaqif Axundov sizi qarşılayacaq və rayona yola düşəcəksiniz. Aydındır?

- Oldu, yoldaş podpolkovnik.

- Bu başqa məsələ.

Qaraxanov bölmə rəisinin kabinetini tərk edəndə, koridorda baş əməliyyatçı İlham Quliyevin diqqətinin Fuadın sürətli yerişinə yönəltdiyini görüb gülümsədi və ona sual verdi:

- İlham, nəsə baş verib?

- Yox, Elçin. Sadəcə, bilirsən, Fuad mənə kimi xatırladır?

- Təbii ki, yox!

- Elə bil ki, şöbəmiz ansambldır, konsertmeyster isə birinci tarzən Rafiq Sadıxovdur. O, tarı çənəsinin altına qoyub başı ilə yenicə işarə vermək istəyir ki, başlayın... Fuad

artıq nağarada ritm tutaraq musiqini yekunlaşdırmaq istəyir.

- Bu haradan ağlıva gəldi, İlham?
- Fuadın yerişindən.
- Nə bilim, vallah.
- Bir söz idi də dedim, Elçin. Hələlik.

Ertəsi gün Əbdürrəhman Vəzirov Elçin və Rzaqulunun müşayiətilə Füzuli şəhərinə çatıb birbaşa mərkəzdə yerləşən mədəniyyət klubuna daxil oldu. Bütün rayon fəalları neçə saat idi ki, birinci katibi "səbirsizliklə" klubda gözləyirdi. Lakin rəhbərlərini bayırda gözləyən sadə füzulililərin arzu, niyyət və şikayətləri elə ürəklərində də qaldı. Onların yeganə istəkləri "son zamanlar erməni yaraqlıların Qarabağ ərazisindən Füzuli rayonunun kəndlərinə hücumlarının qarşısı necə alınmalıdır?" sualına cavab idi.

Vəzirov kluba girdikdə hamı onu ayaqüstü alqışlarla qarşıladı. Birinci katib zalda yığışanlara onu təmtəraqla qarşıladıqlarına görə minnətdarlığını bildirib "tarixi" çıxışına başladı. Millətlərarası dostluqdan, Zaqatalada qoz ağaclarının əkilməsindən, respublikada aşkarlıqla yanaşı iqtisadiyyatın da inkişafından dəm vuran Vəzirov Azərbaycan xalqının ömürlük yaddaşına həkk olunan daha bir ifadəsini iftixarla toplantı iştirakçılarının diqqətinə çatdırdı: "qururla size xaber vermek isteyirəm ki, армяне стали возвращаться в Азербайджан!" Respublika liderinin bu sözlərindən həmən sonra Füzuli Rayon Partiya Komitəsinin birinci katibi gülərüzlə yerindən qalxıb Vəzirovun çıxışını alqışlamağa başladı. O, yaltaqcasına əllərini qarşı-

sında cütləyərək Hindistan krişnaidlərinə xas tərzdə çəpik çalırdı.

Yaltaq! Onun da terrorçu kimi nə milliyyəti, nə də vətəni bəlli olur. Yaltaqlığın ali təhsil ocağı, akademiyası da yoxdur. Yaltaq qismində insan yalnız doğula bilər. Bu keyfiyyət adamlara qanla, genlə keçir. Klassik yaltaq olmaq üçün adam ilk növbədə insani keyfiyyətlərlə vidalaşmalıdır. Əqidəsi olmayan insana yaltaqlıq gözəl yaraşır. Müsəlman canını vəzifə üçün fəda edər, yaltaq isə şərəfini, namusunu satqınlığa qurban verər. Yaltaqları bol olan ölkəyə nə "beşinci kolon", nə xarici dövlətlərin casusları, nə də təxribatçılar lazımdır. Onların funksiyalarını yaltaqlar "şərəflə" icra edəcəklər. Ordusu olmayan ölkə basılmaya bilər, lakin yaltaqlarla dolu məmləkət məğlub olmağa məhkumdur.

Rayonun birinci katibinin yaltaqlığı Əbdürrəhmanı daha da ruhlandırdı və onu azərbaycanlıların marağına uyğun olmayan fəaliyyətini davam etdirməyə sövq etdi. Vəzirovun əlində imkan olsaydı Azərbaycanı tərk edən daşnakların hamısını yenidən respublikaya qaytarardı. Xalqın sadə nümayəndələri Mərkəzi Komitənin birinci katibindən bunu gözləmirdi. Əksinə, onlar Vəzirovdan Ermənistandan qovulan soydaşlarını Qarabağ ərazisində yerləşdirilməsini istəyirdilər ki, gələcəkdə milli zəmində süni yaradılan iğtişaşlara, qarşıdurmalara birdəfəlik son qoyulsun.

Əbdürrəhman Xəliloviçin çıxışı Elçinlə Rzaqulunu da məyus etdi. Rzaqulu dərdli-dərdli Elçinə baxıb ürəyini boşaltmağa başladı:

- Məni yandıran Vəzirovun "tarixi" sözləri deyil. Gələcəkdə xalq bizdən də soruşacaq ki, "bəs nə üçün bu cür xainin mühafizəsini təşkil edirdiniz?"

- Düzdür, Rzaqulu. Heç kim fikirləşməyəcək ki, biz əmri yerinə yetirirdik. Bu gün Vəzirovun bir dövlət rəhbəri kimi təhlükəsizliyini təmin etməsək, sabah digər dövlət xadimlərini də qorumaqdan imtina edə bilərik.

- Təbii ki, bölməmizin əməkdaşları da katibin çıxışını izlədilər, Elçin ...

- Bir sözlə, dostum, suyu süzülmüş halda Bakıya qayıdırıq. Ermənilərin respublikamıza yenidən gəlmələrinin məqsədi bəlli olur: şəhərlərimizdə qırğınlar törətmək. Əminəm ki, əksəriyyəti Sumqayıtdakı Qriqoryan kimi təlimatlandırılıblar.

- Bundan sonra əsas vəzifəmiz Bakıda ermənilər tərəfindən törədilə biləcək təxribatlara qarşı əməliyyat işinin gücləndirilməsidir, Qaraxanov.

- Əgər, xarici ölkələrdən gəlmiş erməni daşnak və "saqqallılar"ı Qarabağa toplaşırlarsa, çox güman ki, Vəzirovun "qayıdanlar" dediyi ermənilərin sıralarında terrorçular da var və onların bir qismi Bakıya sızacaq.

- Bu barədə təcili Təhməz müəllimi məlumatlandırmalıyıq, Elçin!

- Allah qoysa, üç-dörd saata Bakıya çatarıq. Qorelovski imkan versə, fəaliyyətimizi dediyim istiqamətə yönəldərik.

- Deyirəm, dərdimizə bax e, Qaraxanov.

- Demə, qardaş, demə.

Bakıda əməliyyatçıları yeni bəd xəbər gözləyirdi. Elçin DTK-nın binasına girəndə Elcanla üz-üzə gəldi. Aslanov çox yorğun görünürdü. Salamlaşdıqdan sonra Qaraxanov Füzuli "sərgüzəştləri", ermənilərin Azərbaycanın şəhərlərinə qayıtmaları barədə məlumatları çatdırdı:

- Gözümə birtəhər dəyirsən, Elcan. Nəsə baş verib?

- Əgər məndən şad xəbərlər gözləyirsənsə, birdəfəlik unut. İnanmıram ki, yaxın beş-altı il ərzində millətimizə xoş günlər nəsib ola.

- Ümidsizlikdən qurtulmaq lazımdır, Elcan. Hamı ruhdan düşsə, Azərbaycanı bəlalardan qurtarmaq mümkün olmayacaq.

- Soruşursan ki, Elçin, niyə yorğunam. Çünki bu dəqiqə Stepanakertdən qayıdıram. Bütün gecəni yatmamağım bir yana, üstəlik də bəd xəbər gətirmişəm!

- Rüfət müəllimlə Şahinin başına bir iş gəlməyə...

- Min şükür! Onlar sağ-salamatdır.

- Bəs nədir bəd xəbər?

- Yerevan ermənilərinin təşkilatçılığı ilə dünən Dağlıq Qarabağ əhalisinin qurultayı keçirildi. Milli Şura və Rəyasət Heyəti yaradıldı. Qurultay Dağlıq Qarabağ muxtar Vilayətini "müstəqil ittifaq ərazisi" elan etdi.

- Bəs, o köpoyoğlu Volski hara baxırdı? Xüsusi İdarəetmə Komitəsi nə ilə məşğuldur?

- Sən də, Elçin, elə suallar verirsən ki, guya dünyadan xəbərin yoxdur. Volskini ona görə gətirmişdilər ki, Qarabağı birdəfəlik əlimizdən alsınlar.

- Başbilənlərimizin xəbəri var məsələdən?

- Elə ona görə də dincəlmədən DTK-ya gəldim. Məsələ barədə arayışımı tərtib edib təcili rəhbərliyə verəcəyəm...

- Guya yuxarının xəbəri olsa, nə edəcək, Elcan?

- Hər nə. Biz öz borcumuzu yerinə yetirməliyik. Onu da deyim ki, Qarabağda ağıllı-başlı müharibə gedir. Ermənilər bizimkiləri oradan kütləvi şəkildə qovurlar, işgəncə verirlər və öldürürlər. Artıq ətraf rayonlarımızın, xüsusən də Ağdam və Laçının əhalisi Dağlıq Qarabağdakı Azərbaycan kəndlərinin müdafiəsinə qalxıblar!

- Əliyalın?

- Kimisi ov tüfəngi, kimisi balta-bıçaqla...

- Biz nə günə düşdük, Elcan? Balta-bıçaqla çıxmışıq topun qarşısına.

- Son illər əhalidən ov tüfənglərinin yığımı indi bəlli oldu, Elçin?

- Elə bu dəqiqə qalxaq Qorelovskinin qəbuluna.

- Nə üçün, Qaraxanov?

- Bizim DTK-da silah da var, hər cür vəsait də. Elə bu dəqiqə silahlanıb "saqqallıları" Qarabağ ərazisindən itirməliyik. Əsas onlardı!

- Bu barədə rəislərimizlə məsləhətləşməliyik, Elçin. Onların başının üstündən hərəkət etsək, inciyərlər.

- Nə isə, mən gedirəm Fətəliyevin qəbuluna. Vəziyyəti və təklifimizi ona anladacağam. Görək, nə çıxır. Hələlik.

Elçin bölmə rəisinin qəbulunda son bir il ərzində ikinci, ya üçüncü şad xəbəri aldı. Təhməz müəllim gülümsəyərək mühüm məlumatı işçisinə çatdırdı:

- Qorelovski getdi.

Qaraxanov ehtiyatla sual verdi:

- Hara, rəis?

- Moskvaya.

- Birdəfəlik?

- Hə, ömürlük, Elçin.

- Onun sifətini görmək, dərindən qəlbini oxumaq bizlərə qismət olmadı.

- Tələsmə. Elə olar ki, İvanın dədəsinə rəhmət oxuyarsan.

Təhməz Fətəliyevin "rəhmət oxuyarsan" ifadəsi Elçini təşvişə saldı. "Yəni, Qorelovskidən də pisi gələ bilər? Azərbaycanlılara qarşı ondan betər nifrət bəsləyən ikinci sədr yalnız erməni əsilli ola bilər!" Bu düşüncələrlə Qaraxanov bölmə rəisinə son sualını verdi:

- Yerinə kim gəlir?

- Hələlik məndə bu barədə məlumat yoxdur. Bir həftə ərzində məlum olar.

Söhbətə davam edərək  Elçin Elcanla müzakirə etdiyi mövzunu da Fətəliyevin diqqətinə çatdırdı. Rəis əməliyyatçıların təklifləri ilə razı olsa da, DTK-ya yeni rəhbər təyin edildikdən sonra məsələnin müzakirəsinə qayıdacağına söz verdi.

Fətəliyevin qəbulundan sonra Elçin öz otağına girdi. Rasimlə Rzaqulu iş masasındakı "Kommunist" qəzetinin üzərinə yığılmış kolbasa, soyutma yumurta, duz və çörəklə nahar etməyə hazırlaşırdılar. Qaraxanovu görüncə Rasim onu masa arxasına dəvət etdi:

- Ele, biz de как раз тебя ждали!

- Təşəkkürlər, Rasim müəllim...

- Deyesen, yene mene lağ etmek isteyirsen...

- Qətiyyən. Yeməyə dəvət üçün minnətdaram.

- Я же вижу в твоих глазах недовольство. Rus dilinde danışanda ne olar, axı?

- Bəyəm mən bu barədə bir söz dedim, yoldaş Rzayev? Xarici dillərdə danışmağın nəyi pisdir? Yetər ki, əcnəbilərin dillərində deyil, öz ana dilinizdə düşünəsiniz. Ya rus, çin dillərində düşünüb onların təhlükəsizliyini qoruyacağıq, yaxud azərbaycan türkcəsində danışıb öz KQB-mizi quracağıq. Yeri gələndə mən də rusca, farsca səlis, bir az-da ərəb dilində danışıram. Lakin Kürdəmirin Bağman kəndindən Bakıya gəlmiş azərbaycanlı balası ilə əcnəbi dildə heç vaxt ünsiyyətə girmərəm.

- Elə, mən də danışmaram.

- Bəs sən onunla nə dildə danışacaqsan?

- Azerbayjan... Doqma... Ana dilimde...

- Görürsən, Rasim müəllim? Bu başdan deyim ki, bizim mərd kənd balası sənin yarıqırıq dilini anlamayacaq.

- Ne ise, bir az naxar edek, Elçin.

- Edək!

Elçin birinci tikəsini udmağa hazırlaşırdı ki, qapının arxasından gur səs eşidildi: dartma, yaxam cırıldı! Qaraxanov "Məhərrəm" deyə, ucadan səslənib dəhlizə çıxdı. Buğdəliyev əlindəki səbəti yerə qoydu və doluxsunaraq Elçini qucaqladı. Qaraxanov onu otağına dəvət etdi:

- Elçin, dayan, səbət qaldı...

- Nə səbət? Gəl otağa, səni əməliyyatçılarla tanış edəcəyəm.

- Səbətsiz mən kimə lazımam ki?

- Yenə zarafatından qalmırsan, Məhərrəm?

Qaraxanov Buğdəliyevi səbətlə birgə otağa dartdı. Rzaqulu ilə Rasim çaşmış halda dostların hərəkətlərini izləyirdilər. Elçin əməliyyatçıların təəccübünü görüb Məhərrəmi onlara təqdim etdi:

- Dostlar, tanış olun, Qax balası - Məhərrəm! Moskvada məndən bir kurs aşağı oxuyub. Artıq o da bizim sıralara qoşuldu.

Məhərrəm qolundakı saata baxıb Elçinin söylədiklərinə düzəliş verdi:

- İndi deyil. Bir həftədən sonra. Məzuniyyətdəyəm.

Rzaqulu Məhərrəmin zarafatcıl olduğunu o dəqiqə tutdu:

- Şad oldum. Süfrəmizə qoşulsan, feyzyab olarıq.

Məhərrəm Rzaquluya əlini uzadıb salam verdi və "Elçin bilir. Mən qonaq gedəndə də özümlə yemək dolu səbətimi daşıyıram" söylədi.

Rasim Buqdəliyevin əlində səbəti görcək öz təklifini verdi:

- Очень приятно. Как раз мы собирались отобедать. Можешь присоединиться к нам.

Məhərrəm Elçinin qulağına pıçıltılı zarafatla təəccübünü bildirdi:

- Rusdillidir bu?

- Yavaş, eşidər. Onsuz da hər dəqiqə könlünü yaralayıram...

- Bildim. Görünür, onun Azərbaycan dili ilə mən məşğul olacağam!

Rzaqulu həmən vəziyyəti anladı və müzakirələr qızışmasın deyə, dostları süfrəyə dəvət etdi:

- Elçin, acından öldük axı. Gəlin süfrə başına.

İki dəqiqəlik tanışlıqdan sonra Məhərrəm səbətdəki yeməkləri masanın üzərinə düzməyə başladı:

- Zarafatı qoyaq bir kənara, amma eşitdim ki, neçə aydır, növbə ilə otağınızda gecələyirsiniz. Ona görə də rayondan sizə Şəki nemətləri gətirmişəm. Sizinlə nahar edə bilməyəcəyəm. Saat dörddə Rodion müəllimin yanında olmalıyam. Gedim özümü səliqə-səhmana salım.

Əməliyyatçılar bir ağızdan Məhərrəmə minnətdarlıqlarını bildirib təmtəraqla onu yola saldılar. Elçin Buğdəliyevlə birlikdə dəhlizə çıxıb, Rodionun qəbulundan sonra mütləq onunla yenidən görüşməsini xahiş etdi.

Nahardan sonra Qaraxanov rəisinin kabinetinə tərəf üz tutdu. O, təcili "APİ Axundov"da "Xalq Cəbhəsi" hərəkatının nümayəndəsi Qulu Nəbiyevlə görüşməli idi. Ermənilərin çox olduğu bu institutda vəziyyət gündən-günə gərginləşməkdə idi. Bir tərəfdən də Ermənistandan işgəncə ilə qovulan, qohum-əqrəbaları, qonşuları öldürülən azərbaycanlı qaçqınların Bakıda ermənilərin yaşadıqları ünvanlar qarşısında mütəmadi olaraq toplaşmaları müşahidə edilirdi. Bu səbəbdən yaranacaq hər bir iğtişaşın, təxribatın qarşısını almaq məqsədilə Elçin institutun rəhbərli-

yi, fəalları, o cümlədən müxalif qurumların nümayəndələrilə əlaqə saxlamalı idi. Təhməz müəllimin kabineti önündə Qaraxanov əməliyyatçı Nağı Əliyevlə üzləşdi:

- Xoş gördük, Nağı! Necəsən?

- Salam, Elçin. Minnətdaram. Nə var, nə yox?

- Çox şadam, Nağı. Sonuncu dəfə səninlə üç ay bundan öncə görüşmüşdük.

- Mən də sevindim, Elçin. Mərkəzi aparatda bir-iki işim var idi. Qayıdırdım Binəqədiyə. Sənin işlərin nə təhər gedir?

- Bizdə gərginlik davam edir. Qaçhaqaçdayıq. Bilirsən də, tələbələrlə işləmək çox çətindir. Qızlı-oğlanlı hamısı dəliqanlıdır.

- Bir xəbər eşitdim, düzdür, Elçin?

- Bilmirəm axı, hansı xəbəri deyirsən.

- Ola bilməz ki, sənin məlumatın olmasın. Elçinin bilmədiyi şeyə bit düşər!

- Söhbətin nədən getdiyini həqiqətən anlamadım, Nağı.

- Bir sözlə, bizə yeni sədr gəlir.

- Görürsən, Əliyev? Mənim məlumatım yoxdur. Hə... Kimdir o?

- Vaqif Hüseynov!

- Sən nə danışırsan? Komsomolçu?

- Bəli, odur, Qaraxanov.

- Vəzirovun sağ əli. Deməli, Respublikanın bu günündə içimizdən mütəxəssis tapa bilmədilər, ay Nağı?

- Görünür, onlara bu cür insanlar gərəkdir.

- Belə çıxır ki, Qorelovski estafeti Hüseynova verdi. Heç bir yaxşı şey gözləmirəm. İsmayıl Qazıbəyov deyirdi axı, "qurban olum o pisə ki, yerinə yaxşısı gələcək."

- Darıxma, Elçin, bəlkə düşündüyündən yaxşı insan olacaq, millətimizə xeyiri dəyəcək?

- Nə bilim, vallah... Məlumatın dəqiqdir, Nağı?

- Yüz faiz.

- İndi mənə söylə, kimin bilmədiyi şeyə bit düşər: sənin ya mənim?

- Aydındır! Mən getdim. İnşallah, bu yaxınlarda səninlə görüşüb problemləri müzakirə edərik. Hələlik.

- Sağ ol, Nağı.

Əliyevlə xüdahafizləşdikdən sonra Elçin bölmə rəisindən icazə alıb "APİ Axundov"un rektoru Rafiq Hüseynovla görüşə getdi. Görüş zamanı Qaraxanov rektora mümkün olacaq təxribatların qarşısının alınması yönümündə öz təklif və planlarını təqdim etdi. Lakin Elçin Rafiq müəllimin mənasız baxışlarını, laqeyd reaksiyasını görüb yarım saatlıq söhbətinin hədər getdiyini anladı və rektorun kabinetini tərk etdi. Qaraxanov Qulu Nəbiyevlə görüşünün daha sərfəli olacağını düşünərək institutun akt zalına daxil oldu. Zalda onu institutun prorektoru başda olmaqla fəal tələbələrdən Natiq, Malik və Fuad gözləyirdilər. Qaraxanov müzakirələri "Xalq Cəbhəsi" hərəkatının fəaliyyəti və tələbələrin mitinqlərdə iştirakı mövzusuna yönəltdi:

- Əziz dostlar, bilirəm ki, hamınız yenidən mitinqlərə qoşulmaq, meydanlarda gecələmək və bu yolla qaçqın soydaş-

larımızla həmrəy olduğunuzu hökumətə çatdırmaq niyyətindəsiniz. Buyurun! Düşüncələrinizi dinləməyə hazıram.

İlk növbədə, tələbələrə ağsaqqallıq edən Natiq müzakirələrə qoşuldu :

- Düz buyurursunuz, Elçin müəllim. Artıq bıçaq sümüyə dayanıb. Mənim dayımın evində üç, Malikin xalasının mənzilində isə dörd nəfər Ermənistandan qovulmuş qaçqın yaşayır...

Bu məqamda o birilər də səs-səsə verib dil boğaza qoymadan danışmağa başladılar.

Malik:

- Özü də, 2 və 3 otaqlı mənzillərdə. Biz tələbəyik. Əvvəl xalamgilə gedəndə cibimə heç olmasa beş-on manat pul qoyurdu. İndi isə özlərini zorla ötüşdürürlər.

Qaraxanov Maliki bir qədər sakitləşdirmək istədi:

- Sizləri çox gözəl anlayıram. Mən də xalam oğlunun ikiotaqlı evində rahat qalırdım. Qovulanlardan biri də bizdə sığınacaq tapıb. Nə etməliyik? Dözməliyik, dərdlərinə şərik çıxmalıyıq.

Natiq:

- Biz dözürük, daha doğrusu dözümlü xalqıq. Yeganə bizi maraqlandıran məsələ isə budur: nə vaxta kimi bu acınacaqlı vəziyyət davam edəcək?

Fuad:

- Elçin müəllim, Sizin vətənpərvər çekist olmağınızdan xəbərdarıq. Ona görə də, diqqətlə sözlərinizə qulaq asırıq. Lakin səbrimiz artıq tükənmək üzrədir. Əgər hakimiyyət

xalqın, məzlum qaçqınların səsini eşitmək istəmirsə, problemi həll etmək bizlərə qalar...

Qaraxanov:

- Bax, elə mən də bundan narahatam. Qorxuram ki, emosiyalara qapılıb qaşı düzəltdiyiniz yerdə vurub gözü çıxarasınız.

Natiq:

- Yoldaş Qaraxanov, çox şad olarıq ki, siz də meydan və küçələrdə bizimlə olasınız, bizi düzgün istiqamətləndirəsiniz.

Qaraxanov:

- Bu barədə çoxdan fikirləşmişəm. Madam yürüşlərinizin qarşısını almaq mümkünsüz olacaq – institutun rəhbərliyindən xahiş edərəm ki, mənimlə birgə onlar da sizlərin yanında olsunlar. Amma bilin: hər nə olsa belə, dövlətlə baş-başa gəlməyi buraxın. Bu halda məğlub olan da, itirən də sizlər olacaqsınız.

Malik:

- Müəllim, elə mitinqə çıxmağın özü hakimiyyətlə baş-başa gəlmək deməkdir də. Siz nəyi nəzərdə tutursunuz?

- Malik, məndə olan məlumata görə, bəzi tələbələr mitinqlər üçün daş-armatur əldə edirlər. Bax ən çox bundan ehtiyatlanıram!

Fuad:

- Yoldaş Qaraxanov, qəti narahat olmayın. İnstitumuzdan yürüşə çıxanların daxili nizam-intizamını biz idmançılar təmin edəcəyik. Sizi əmin edirəm ki, yürüşümüz sülh şəraitində keçəcək.

Qaraxanov tələbələri təxribatçı və təhrikçi hərəkətlərdən çəkindirmək yönündə məsləhətlərini verib institutun binasından çıxdı. Yeganə narahatlığı isə "cəbhə" hərəkatının ali təhsil ocağındakı nümayəndəsi Qulu Nəbiyevdən idi. Ona görə də onunla söhbəti institut binasında deyil, tələbələrdən ayrı, S.Vurğun adına parkda aparmağı planlaşdırmışdı.

# VIII FƏSİL

## BƏLANIN EŞİYİNDƏ

Min doqquz yüz səksən doqquzuncu ilin sentiyabrında Ermənistanın paytaxtında mitinqlər davam edirdi. Bakıda keçirilən yürüş-mitinqlərin məqsədi, mövzusu aydın idi: Qarabağın əhalisini və məcburi köçkünləri erməni yaraqlıların əlindən qurtarmaq. Lakin Yerevandakı mitinqlərin məğzi Azərbaycan ictimaiyyətini dərin düşüncələrə qərq edirdi: "Görəsən, bunların istəyi nədir? Dağlıq Qarabağ ərazisini Vətəndən qoparıblar, Ermənistandan azərbaycanlıları döyərək qovurlar, təbliğatlarını yalan, böhtan üzərində qurublar, Sovet İttifaqının rəhbərliyi arxalarında dağ kimi durub, digər respublikalar bizə qarşı ermənilər tərəfindən törədilən cinayətlərə göz yumur. Daha nə lazımdır?"

Belə bir şəraitdə Ermənistan KQB-sinin sədri Dilanyanın göstərişi ilə general Stepanyanın kabinetində müşavirə iki saat idi ki, davam edirdi. İclasın əsas iştirakçıları Yesayan və Simonyan çıxış edənlərin ön sırasında idilər. Stepanyan Bakıdakı siyasi gərginliyi polkovniklərin nəzərinə çatdıraraq bir daha zamanın "böyük erməni xalqı"nın xeyrinə işlədiyini xatırlatdı:

- Türklərin sonu yaxınlaşır. Əməliyyatlarımıza nöqtəni Bakıda təşkil edəcəyimiz iğtişaşlarla qoymalıyıq. Kəşfiy-

yatımızın rəisi Karo Simonyan Azərbaycanın ərazisində həyata keçirəcəyi bəzi əməliyyatlar barədə sizi məlumatlandıracaq. Çıxış üçün sözü ona verirəm.

Simonyan ağıryana yerindən qalxaraq müşavirə iştirakçılarını qurduğu planlarla tanış etdi:

- Yoldaş general, hörmətli müşavirə iştirakçıları! Əminliklə deyə bilərəm ki, artıq Bakıda milli zəmin əsasında törədiləcək iğtişaşlar, toqquşmaların "səbəbkarları" tərəfimizdən müxtəlif bəhanələr altında paytaxta və Azərbaycanın ikinci böyük şəhəri Gəncəyə yerləşdiriliblər.

Yesayan da tərtib edilmiş plana şöbəsinin əlavələrini etdi:

- Bizim də üç nəfər mühüm agentimiz Bakı şəhərində fəaliyyət göstərir. Lazım olarsa, yoldaş Simonyan, onların köməyindən istifadə edə bilərsiniz.

- Təşəkkürlər. Lakin hələlik onlara ehtiyac yoxdur. Məruzə edirəm ki, Bakıda sürücü, fəhlə, "JEK" işçisi vəzifələrinə yerləşdirilən təxribatçıların üç nəfəri şöbəmizin əməkdaşları, on dörd nəfəri isə guya Ermənistandan qovulan on səkkiz-iyirmi beş yaşlarında olan cavan azərbaycanlılardır. Təbii ki, onlardan səkkizi sırf erməni mənşəli insanlar, digərləri də qarışıq ailələrin nümayəndəsidir.

Stepanyan ciddi görkəmlə:

- Karo, yaxşı olar ki, onların vəzifələrini də müşavirə iştirakçılarına anladasan,- amiranə tərzdə söylədi.

- Oldu, yoldaş general. Deməli, hörmətli zabitlər, adamlarımızın qarşısına aşağıdakı vəzifələr qoyulub:

1. Ətraflarına həmyaşıdlarını toplayaraq onlara "erməni vəhşiliklərini" anlatmaq;

2. Tərəfimizdən qətl edilən yüzlərlə azərbaycanlı qoca, qadın və uşaqların şəkillərini camaat arasında paylamaq;

3. Bizim "siqnaldan" sonra ətraflarında topladıqları əsl qaçqınlarla birgə Bakıda və Gəncədə yaşayan erməni ailələrə hücumları təşkil etmək.

Yesayan çox sakit tərzdə sual ünvanladı:

- Əminəm ki, bir neçə erməninin öldürülməsinin təşkilini də onlara anlatmısınız?

- Əlbəttə, İqor! Əməliyyata geniş təbliğat xarakteri vermək boynumuzun borcudur. On-on beş soydaşımızın ölümü Ermənistana yeni uğurlar qazandıracaq, Azərbaycanı isə quyunun dibinə salmaq üçün şərait yaradacaq.

Stepanyan davam etdi:

- Onu da qeyd edim ki, Bakıda keçiriləcək əməliyyat planımız respublikamızın rəhbərliyinə məruzə edilib. Onlar əməliyyat tədbirlərimizdən tam razıdırlar. O ki qaldı Qarabağ məsələsinə, durum və siyasi vəziyyət nəzarətimiz altındadır. Əməllərindən narazı olduğunuz Mənsurov və Sailov geriyə çağırılıblar. Köçəryan, Sərkisyan və Stepanakertdəki digər dostlarımız "Böyük Ermənistan"ın qurulması yolunda məsələləri şərəflə həll etməkdədirlər!

Yesayan bu söhbətdən sanki bir az da cuşa gəldi:

- Yoldaş general, icazənizlə hələ də Stepanakertdə yaşayan beş-on azərbaycanlı ailəsini də oradan qovaq. Keçən iclasların birində demişdiniz ki, onlardan dünya ictimaiyyəti qarşısında təbliğat vasitəsi kimi istifadə edək. Lakin

Azərbaycan hakimiyyəti Dağlıq Qarabağda xüsusi idarəçilik rejimini ləğv etdikdən sonra buna lüzum qalmamışdır.

- Razıyam səninlə, İqor. Sabahdan dostlarımıza çatdırarsan ki, o türkləri də oradan rədd eləsinlər.

- Bir də ki, yoldaş Stepanyan, ictimai nəqliyyat vasitələri...

- Nə olub onlara?

- Livandan erməni "mütəxəssislərini" gətirmişik. Partlayış törətmək üzrə mütəxəssislərdir.

- Hə, hə. Əla. Hardadırlar onlar?

- Qonşu ölkədə, Tbilisidə. Tbilisi-Bakı avtobus marşrutu üzərində "çalışırlar".

- Nəticəsini gözləyirəm, İqor.

- Bugün-sabah hər şey hazır olacaq.

Simonyan:

- Bizdə olan məlumata görə, Qorelovski də Bakını tərk edib, yoldaş general.

- Necə yəni tərk edib?

- Yəni KQB-nin sədri vəzifəsindən çıxıb.

- Aydındır. Əminəm ki, yerinə gələn də bizim dostumuz olacaq.

- Nə barədə, yoldaş Stepanyan?

- Səriştəsiz olacaq. Vəzifəsinin öhdəsindən gələ bilməyən isə mexaniki olaraq dostumuza çevrilir.

- Dərin mənalı sözlərdir, rəis!

Yesayan və Simonyanın göstərişi ilə Gürcüstanın paytaxtı Tbilisiyə göndərilən erməni mənşəli terroristlər Azərbaycan avtobuslarının birinə bombanın quraşdırılması üz-

rə işləri yekunlaşdırmaqda idilər. Artıq terror ermənilər tərəfindən dövlət səviyyəsində həyata keçirilirdi. İş o yerə çatmışdı ki, vaxtı ilə kökü kəsilməkdə olan erməni millətçilərinin "Asala" terror təşkilatı da öz məkrli fəaliyyətinə başlamışdı. Terrorçular Tbilisini seçməklə iki məqsəd güdürdülər: mehriban münasibətdə olan azərbaycanlılarla gürcülərin arasını vurmaq və beynəlxalq ictimaiyyəti reallıqdan uzaqlaşdırıb qanlı hadisələrdə erməni hakimiyyətinin əlinin olmadığını sübut etmək.

***

Həmin ərəfədə Azərbaycan SSR DTK-sının yeni rəhbəri Vaqif Hüseynov Əbdürrəhman Vəzirovun göstərişi ilə komitədə şöbə rəislərinin dəyişdirilməsiylə məşğul idi. Komsomolçuların, necə deyərlər, "çiçəyi çırtlamağa" başlamışdı. Təbii ki, hər rəhbər vəzifəyə öz komandasını gətirir. Bütün dünyada belədir. Lakin inkişaf etmiş ölkələrdə vəzifə başına mütəxəssis və professional gətirilirdisə, Azərbaycanın belə bir çətin, keşməkeşli dövründə vəzifə ilə təmin olunanlar əsasən dostlardan, tələbə yoldaşlarından və məhəllə qonşularından ibarət olurdu ki, bunlar da ölkəni bir az da uçuruma sürükləyirdi.

Belə bir iyrənc ənənə bu mühüm vəziyyətdə DTK-nı da öz cənginə aldı. Elçinin bölmə rəisi Fətəliyev əsaslı səbəb olmadan Gəncə şöbəsinə rəis müavini, yerinə isə konservatoriyanın sabiq komsomol katibi Xəzər İsmətov gətirildi. Dövlətin sütunu olan DTK-nın önəmli bölmələrinin birinə heç bir xüsusi təhsili olmayan diletant təyin edildi.

Onsuz da Qorelovski Azərbaycan DTK-sının mühüm vəzifələrinə qeyri-azərbaycanlıları təyin etməklə qurumun fəaliyyətini iflic vəziyyətinə salmışdı. Bu cür səriştəsiz kadrların yüksək vəzifələrə təyin edilməsini əməliyyatçılar qəti gözləmirdi. Yeganə ürəkaçan təyinat - şöbə rəisi polkovnik Rafiq Sadıxovun DTK sədrinin müavini vəzifəsinə gətirilməsi idi. Belə bir mütəxəssisin yüksək vəzifəyə qoyulması haradasa təcrübəsiz kadrların əməllərini kompensasiya etməli idi.

Elçin Qaraxanov özünü yeni rəisə təqdim etdikdən sonra üzərində çalışdığı əməliyyat qovluqları ilə İsmətovu həvəssiz tanış etməyə başladı:

- Yoldaş İsmətov, bu TBM işidir, bu isə RKB-dir...

- Elçin, sənin barəndə çox tərifli sözlər eşitmişəm. Amma olar ki, gətirdiyin əməliyyat işlərinin mahiyyətini mənə sadə dildə başa salasan.

- Xəzər müəllim, işlərin adı bu cürdür. Üç hərfin yozumunu anlatmaq üçün mən xəyalən Moskvaya, akademiyamıza qayıtmalıyam.

- Yaxşı, qayıtma. İndi vaxtımız məhduddur. Boş olan kimi kodları mənim üçün də açarsan.

- Əlbəttə. İcazənizlə birinci qovluqdan başlayaq.

- Buyur, Elçin.

Təxminən iki saat ərzində Qaraxanov əlinin altında olan əməliyyat işləri barədə yeni rəhbərini qısaca da olsa məlumatlandırdı. Söhbət zamanı Elçin qeyri- ixtiyari özünü müəllim rolunda hiss etdi. Sanki məktəbə yenicə qəbul olunmuş müdavimə əməliyyat işinin incəliklərini anladır-

dı. Ağır bir durumda vaxt itkisi heç bağışlanası deyildi. Çünki həmin məqamda hansısa Akopyanla Davidyan Tbilisidən Bakıya istiqamət götürməyə hazırlaşan avtobusun baqaj hissəsinə bomba yerləşdirməkdə idilər. Səriştəsizlik xalqın başında çatlayırdı.

İsmətov Elçinin əməliyyat təsərrüfatı ilə tanış olduqdan sonra çəkməcəni açıb oradan "Komsomolskaya pravda" qəzetini çıxardı və masanın üzərinə sərdi:

- Görürsən də, Qaraxanov, nələr yazırlar?

- Düzünü desəm, Xəzər müəllim, son altı ayda mətbuatı oxumuram. Hərdən televizordakı xəbərləri izləyirəm.

- Qəzet oxumaq mütləq lazımdır. Yoxsa respublikamızda və ondan kənarda baş verən siyasi və digər hadisələr haqqında məlumatı haradan əldə edərsən?

Rəisin bu "tarixi" sözləri Elçini çaş-baş saldı. "İlahi, mən kimin tabeliyində işləyəcəyəm?" düşüncələrilə o, üzünü İsmətova tutdu:

- Rəis! Qəzetlərə və ümumiyyətlə bütün mətbu orqanlarına respublikamızdakı gərgin siyasi durum barədə məlumatı elə biz ötürürük də. Bədbəxt jurnalistimiz haradan bilsin ki, Dağlıq Qarabağda erməni daşnakları nələr törədir. Qaldı ki, "Komsomolskaya pravda" qəzetinə, bu günədək onun Azərbaycan haqqında səhih məlumat verməsini görmədim.

- Sən nə danışırsan? Mərkəzin qəzetidir e, bu!

- Hə da! Mən də elə onu deyirəm. Bir dənə mərkəzi qəzet bizim haqqımızda düzgün məlumat verməyib. Hamısı ermənilərin təsiri altındadır, onların maraqlarına qulluq edirlər.

- Elçin, sən kommunistsən?

- Əlbəttə, on səkkiz yaşımdan.

- Amma kommunistlər kimi düşünmürsən.

- Mən ilk növbədə azərbaycanlı kimi düşünürəm. Bir də ki, Sovet İttifaqında kommunist qalıb? Hamısı millətçi olub. Tək bizdən başqa...

- Başa düşdüm səni, Qaraxanov. İndisə iş başına. Səndən nəticələr gözləyirəm.

- Nə barədə?

- Elə həmişəki kimi. İndiyədək nə ilə məşğul olmusansa, davam et.

Elçin bölmə rəisinin kabinetini tərk edəndə yeganə düşündüyü "Allah, bizi qoru, ümidimiz sənədir!" oldu. Otağına çathaçatda qapının ağzında baş əməliyyatçı İman Abdullayevlə rastlaşdı. Yeni rəis təyinatlarından sonra əməliyyatçılar yalnız öz aralarında mühüm məlumatları bölüşməyə başlamışdılar. İmanın həyəcanlı və narahat olduğunu görən Elçin anladı ki, vəziyyət o qədər də yaxşı deyil. Salamlaşdıqdan sonra Qaraxanov Abdullayevi otağına dəvət etdi. Kabinetdə Teymur Ağayev Talıbovla nə barədəsə qızğın müzakirə aparırdı. Elçin söhbətə müdaxilə etdi:

-Dostlar, danışıq tərzinizdən anladım ki, durum heç də ürəkaçan deyil.

Teymur kədərlə suala cavab verdi:

-Hə, Elçin. Düzgün başa düşmüsən. Stepanakertə göndərdiyimiz gizli yardımçımız dünən Bakıya qayıdıb. Artıq ermənilər oradan sonuncu azərbaycan ailələrini də qovmaq məqamındadırlar.

Rzaqulu da gizli yardımçılarının məlumatına istinadən rəyini söylədi:

- Gündəmdə Şuşa məsələsi də var. Ətraf kəndlərdə yaşayan azərbaycanlıların evlərinin qapılarına erməni milliyyətçiləri vərəqələr yapışdırır: "kəndi tərk etməsəniz, öləcəksiniz!"

- Amerika açmamışıq ki?- deyə, Elçin kədərləndi - Qeyd olunan hadisələri çoxdan gözləyirdik. Bizim bölmə bu barədə rəhbərliyə dəfələrlə məlumat göndərib. Amma nəticəsi olmayıb. Görək, Vaqif Hüseynov buna qarşı nə kimi tədbir görəcək?

- Mənim "Səttarxan" ləqəbli gizli yardımçım Tbilisidən qayıdıb, – İmanın üzündəki ciddilik daha da sərtləşdi - özü də Gürcüstan azərbaycanlısıdır. Erməni dost-tanışları çoxdur. "Səttarxan" Bakıya qayıdarkən avtovağzalda erməni əsilli uşaqlıq dostu ilə görüşüb. Levon adlı həmin adam qeyd edib ki, son zamanlar Azərbaycan avtobuslarının ətrafında vaxtaşırı müəmmalı Yerevan erməniləri gəzib-dolaşmağa başlayıblar.

Ermənilərin kirli əməllərindən hali olan Elçin öz əlavəsini etdi:

- Bax bu, çox mühüm məlumat oldu, İman. Ya daşnaklar avtovağzalda bizimkilərə xəsarət yetirmək, ya probleme gürcüləri qatmaq, ya da ictimai nəqliyyatda diversiya törətmək istəyirlər.

- Mən öz rəisim Oleq Qəniyeviçə bu məlumatı məruzə etmişəm, Elçin. Göstəriş verdi ki, bu barədə sizinlə də bölüşüm.

- Minnətdarıq, İman. Mütləq şöbəmizin rəhbərliyinə məlumatı çatdıracağıq.

- Eşitdim, yeni şöbə rəisiniz Mirzoyev oldu, Qaraxanov...

- Hə, Adil Vladimiroviç. Sabiq komsomolçu.

- Ümumiyyətlə, yeni rəhbərlikdən Vətənimizin mövqelərinin qorunmasını həsrətlə gözləyirəm, dostlar.

- Hamımız sənin kimi düşünürük, İman. İnşallah!

Bir saatlıq müzakirələrdən sonra əməliyyatçılar yaxın vaxtlarda Azərbaycan Respublikası ərazisində ermənilər tərəfindən törədilə biləcək təxribatlar haqqında şöbə rəisi Mirzoyevin ünvanına geniş arayış hazırladılar. Hər ehtimala qarşı, ictimai nəqliyyatda diversiyaların qarşısını almaq məqsədilə tədbirlərin artırılması üçün terrora qarşı mübarizə bölməsinin rəisi Hüseyn Qubadova da hərtərəfli məlumat verildi. Qərara alındı ki, Elçin arayışı Vladimir Adiloviçə Xəzər müəllimin vasitəsilə təqdim etsin. Bu məqsədlə Qaraxanov yenidən təzə rəisi İsmətovun kabinetinə üz tutdu. Yolun ortasında üzləşdiyi İlham Quliyevin hərəkətləri onu ayaq saxlamağa məcbur etdi. İlham özünü dəhlizin divarlarına vuraraq Elçinə nəyisə anlatmağa çalışırdı:

- Deyəsən, fikir vermədin axı, Elçin?

- Nəyə, İlham?

- Nəyə yox, kimə! Məmmədəlini deyirəm də... Fərəcovu.

- Vallah, başım problemlərə elə qarışıb ki, heç kimə nə fikir verirəm, nə də onları görürəm. Məmmədəli neylədi ki?

- Elə onu yamsılayırdım da. O, koridordan keçəndə, kefli İskəndər kimi özünü divarlara çırpır.

- Üzün gülsün, İlham. Vəziyyətin bu vaxtında da zarafatından qalmırsan. Ağıllı-başlı kefim açıldı.

- Hara tələsirdin? Deyəsən, səni yolundan elədim.

- Yox, xoş oldu. Rəisimin yanına gedirdim.

- Təzə rəisinin? "Xisya"nın?

- "Xisya" kimdir, İlham? Xəzər müəllimin yanına gedirəm.

- Bəs bilmirsən? Dədə Qorqud demişkən, onun da adını "xisya" qoydum!

- Bu ləqəbi haradan qazıb ortaya çıxartdın, ay İlham?

- Səhər-səhər Rodionun kabinetindəydim, məndən dərman xahiş eləmişdi. Xəzər də oradaydı. Sənədə qol çəkəndə adının baş hərfi "X"-yı və familyasının iki hərfi "is"-i vərəqəyə həkk edəndə "xisya" sözü alındı...

- Səndən, İlham, güclü kriminalist çıxar.

- Məndən müəllim, aktyor, həkim, xeyriyyəçi də çıxar. Bir, "çekistdən" başqa.

- Elə, əsl "çekist" sənsən də, Quliyev. İstənilən cildə girə bilirsən. Bir daha səni görməyimə şad oldum. Dünəndən bəri görüşə bilməmişdik.

- Sən də ilanı yuvasından çıxaransan ha, Qaraxanov. Hələlik. Sabah görüşmək ümidiylə...

İlhamla ayaqüstü söhbətdən sonra Elçin, nəhayət, bölmə rəisinin otağına girdi. Xəzər İsmətov gözlərini masa üzərindəki "Komsomolskaya pravda" qəzetinə zilləyib hansısa məqalənin təhliliylə məşğul idi. Əməliyyatçısını görüncə suala keçdi:

- Yəqin mühüm məlumat gətirmisən, Qaraxanov?

- Bəli, Xəzər müəllim. Respublikamızdakı durumla əlaqədar arayış tərtib etmişik. Mirzoyevin ünvanına.

- Ona niyə?

- Çünki arayışdakı məlumatlar bir neçə bölmənin məhsuludur.

- Lap yaxşı. İndi mən nə etməliyəm?

- Tanış olduqdan sonra təcili Volodya müəllimə məruzə etməlisiniz...

- Elçin, Volodya nə deməkdir? Heç olmasa, Vladimir de!

- Üzr istəyirəm! Tələsdim, ona görə.

- Yaxşı, məruzə edərəm. "Как раз", gedəcəydim onun qəbuluna.

- İcazənizlə mən də institutlara baş çəkim. Oralarda vəziyyət daha da gərginləşib. Tələbələr mitinqlərə çıxmaq istəyirlər.

- Hə, nümayişçilərin qarşısını almaq lazımdır. Onların hərəkətləri iğtişaşlarla nəticələnə bilər.

- Xəzər müəllim, mitinqə çıxanların qarşısını yalnız iqtidarın düzgün siyasəti, daim xalqın yanında olması ala bilər. Biz kimik ki?

- Biz də təbliğat və təşviqat işlərini düzgün qursaq, mitinqlərə ehtiyac qalmayacaq.

- Yoldaş İsmətov, bizim işimiz xarici kəşfiyyat orqanlarının törədə biləcəyi təxribatların, diversiyaların qarşısını almaqdan ibarətdir. Təbliğat və təşviqat kommunistlərin, komsomolçuların vəzifəsidir.

- Bu barədə sonra söhbət edərik. İndi isə gedirəm Mirzoyevin qəbuluna.

- Oldu. Nəticə barədə sizdən xoş xəbərlər gözləyirəm. Ən azı Gürcüstanın KQB-si ilə əlaqə saxlayıb Tbilisidəki avtovağzalda ermənilərin müəmmalı hərəkətləri barədə məlumatı onlara ötürmək lazımdır.

- Çalışarıq.

Xəzər İsmətov arayışı götürüb kabinetindən çıxdı. Əslinə qalsa, yeni rəis pis adam deyildi. Əməliyyat işçiləriylə söhbətdə çox gülərüz, mehriban idi. Xəzər müəllim gözəl insan, istedadlı musiqiçi ola bilərdi. Lakin erməni terroristləri, təxribatçıları və kəşfiyyatçılarına qarşı mübarizəni təşkil edə bilməzdi. Azərbaycanın belə bir acınacaqlı vəziyyətində rəhbərin şəxsi keyfiyyətləri nadir hallarda kimisə maraqlandırırdı. Əməliyyatçılar rəislərindən yeganə keyfiyyət gözləyirdilər ki, o da onların peşəkarlığı idi.

Axşama yaxın İsmətov Qaraxanovu kabinetinə dəvət etdi. O, arayışı Mirzoyevə məruzə etmisdi. Vladimir Adiloviç isə məlumatları birbaşa Rafiq Əliyeviçə ötürmüşdü. Xəzər müəllim bildirdi ki, Vaqif Hüseynov Gürcüstan Respublikasının xüsusi xidmət orqanının rəhbəriylə danışdı və onun diqqətini aeroportda, dəmiryol stansiyalarında və avtobus vağzallarında Azərbaycanın şəhərlərinə hərəkət edən nəqliyyat vasitələrindəki təhlükəsizliyin gücləndirilməsinə yönəltdi:

- Bizdən nə tələb olunurdusa, yerinə yetirdik. Məsuliyyət Gürcüstan Respublika KQB-sinin üzərindədir.

- Xəzər müəllim, mən gürcüləri yaxşı tanıyıram. Öz ölkələri üçün hər şey edərlər. Lakin bizim xahişi yerinə yetirmək üçün hər gün onlar ilə əlaqə saxlanılmalıdır. Əgər

sizin vaxtınız yoxdursa, gürcü əməliyyatçıları ilə mən mütəmadi əlaqə saxlaya bilərəm.

- Elçin, bunun üçün biz bir daha onların rəhbərliyinə çıxmalıyıq ki, səninlə əlaqə saxlamaq üçün əməliyyatçı təyin etsinlər...

- Gərək Vaqif müəllim məsələni həmən həll edərdi. İndi isə çox gecdir. Daha doğrusu proses uzun çəkəcək.

- Mən bu istiqamətdə çalışaram. Az qala unutmuşdum deyəm ki, sənin üçün xoş xəbərim var.

- Ola bilməz! Şad xəbərin nə olduğunu artıq yadımdan çıxarmışam.

- Olar, olar. Sən mənə de görüm, akademiyanı qızıl medalla bitirmisən?

- Bu məsələ nədən yadıvıza düşdü?

- Sən demə, oranı qızıl medalla bitirənlər üçün güzəşt varmış. Növbəti rütbə iki il deyil, bir ildən sonra verilməlidir. Sənin vaxtından isə bir il üç ay keçib. Rafiq Əliyeviç dedi ki, üzürlü sayasan və baş leytenant rütbəsi almağın münasibətilə onun təbriklərini sənə çatdırım.

- Minnətdaram, Xəzər müəllim. O qədər qarışıq zamanda yaşayırıq ki, nə rütbə, nə də vəzifə yada düşür.

Azərbaycanda payız fəsli hökmranlıq edirdi. Vəziyyətin gərgin olduğunu sanki payız da anlayırdı. Bakıda yağış nadir hallarda yağardı. “Tut ucundan, çıx göyə” deyimi Elçin üçün Naxçıvanda keçərli idi. Gecə yarısı kabinetində masanın üzərinə uzanan Qaraxanovun gözünün önünə Batabat yaylağı gəldi. Bəli, orada leysan olardı. Uşaq vaxtı Elçin əmisioğlu Rəşadətlə birgə bal arılarını

dağlarda bəsləyəndə bir neçə dəfə yağışa düşmüşdü. Bir saniyə belə çadırdan baş çıxarmaq mümkün deyildi, çünki saçlarının kökünə kimi islanırdılar. O zaman göyün gurultusu da, ildırımlar da başqa idi, sanki xoşbəxt həyata, şənliyə, uğurlara səsləyirdi. Bu minvalla yuxuya gedən Elçini şaqqıltılı göy gurultusu oyatdı. Yarıyuxulu Qaraxanov bayırda partlayış baş verdiyini sanıb kabinetinin pəncərəsinə yaxınlaşdı. Lakin anlayanda ki, bu, sadəcə vahiməli göy gurultusu imiş, yenidən "yatağına", yəni masanın üzərinə uzandı.

Səhər yeməyindən sonra Qaraxanov birbaşa "APİ Lenin"ə üz tutdu. Hava olduqca sərin, yer isə gecə yağışından sonra palçıq idi. Oktyabr ayında çürüməli olan yarpaqlar yalnız indi saralmağa başlamışdı. "Təbiət də ermənilər kimi Azərbaycanımızın əleyhinə çıxış edir" fikrilə Elçin institutun "profsoyuzu" Nizami Xudiyevin kabinetinə daxil oldu. Nizami müəllimin heç kefi yox idi. Qaraxanovu salamladıqdan sonra köhnə çaydanını elektrikə qoşub qaynamağını gözlədi. Proses çox çəkmədi. Nizamı müəllim Elçinə də çay süzüb dərdini söyləməyə başladı:

- İnstitutda nə hadisə baş verirsə, məni günahlandırırlar: tələbələr mitinqə çıxır... Nizami, müəllimlər kurorta getmir... Nizami, tələbələrin davamiyyəti aşağı səviyyədə... Xudiyev. Lap boğaza yığılmışam.

- Məgər bilmirsiniz bunların hamısı nəyə görədir?

- Vallah, xəbərim yoxdur, Elçin müəllim.

- Mənimsə xəbərim var və sizi də dəstəkləyirəm. Açıq danışaq: Heydər Əliyev Bakıya qayıdıb Azərbaycana rəhbərlik etməlidir.

- Deməli, siz də...

- Bəli, mən də onun tərəfdarıyam. O gəlməsə, dərəyə yuvarlanmağımız qaçılmazdır. Məhz buna görə də, Əbdürrəhmanın adamları sizi incidirlər.

- Düzü, mənə deyirdilər, sizin hər şeydən xəbəriniz var, amma bu dərəcədə məlumatlı olduğunuz barədə düşünməzdim...

- Unutmayın ki, mən KQB işçisiyəm.

- Heç vaxt unutmamışam, unutmaram da.

Söhbəti bitirməmiş Nizami müəllimin otağına institutun rektoru Sərvər Aslanovun katibəsi daxil olub "Elçin müəllimi təcili komitəyə çağırırlar" xəbərini verdi. Qaraxanov Xudiyevlə sağollaşıb "tələbələrdən müğayat olun, qoymayın onları qeyri-qanuni hərəkətlərə təhrik etsinlər" sözlərini Nizami müəllimə çatdırdı və təhsil ocağının ərazisini tərk etdi.

DTK-nın binasında Qaraxanovu növbəti bəd xəbər gözləyirdi. Bölmə rəisinin kabinetinə daxil olduqda Xəzər İsmətov "Elçin, təcili "veş-vüşünü" topla, Yevlağa gedirsən," - əmrini verdi. Qaraxanov təəccüblə rəisinə sual verdi:

- Xəzər müəllim, fövqəladə hadisə baş verib?

- Hə, Elçin, Yevlax ərazisində avtobusumuzu partladıblar. Aeroportda bizimkilər səni gözləyir, bilet hazırdır, "pryamoy" uçursan Yevlağa.

Qaraxanov rəisinə artıq sual vermədən təcili yola düşdü. Taksidə onun beynini yeganə sual dəlib deşirdi: necə yəni Yevlax ərazisində partladıblar? Kim partladıb? Ola bilməz!

Üç saatdan sonra Elçin DTK-nın Yevlax şöbəsində partlayışa dair müşavirədə iştirak edirdi. İlkin məlumata görə partladıcı cihaz avtobusa Tbilisidə – avtovağzalda quraşdırılmışdı. Bu məlumat Qaraxanovu çox pərişan etdi. "Axı, dəfələrlə rəhbərliyə məruzə edirdik ki, erməni faşistləri mülki əhalimizə qarşı terror aktları hazırlayır! Nə faydası? Gürcüləri hər dəqiqə dümsükləmək lazım idi. Toxun acdan nə xəbəri olacaq!?" fikirləriylə Elçin Yevlax rayon şöbəsinin əməliyyatçısı Vasif Bayramovla birgə hadisə yerinə yollandı. Orada gördüyü ilkin dəlillərdən Qaraxanov yerində quruyub qaldı: partlayış nəticəsində avtobus ortadan əyilmişdi. Yuxarıdan keçən elektrik naqillərində bağırsaqlar, ciyərlər və insanın digər orqanları asılı vəziyyətdə ilişib qalmışdı. Avtobusun arxa təkərinin yanında qoca qadının, sürücünün arxasındakı oturacaqda isə yaşlı kişinin meyiti tükürpədici mənzərə yaradırdı. Vəziyyət o qədər vahiməli idi ki, hadisə yerinə toplaşan əhali dözməyərək oradan qaçırdı. Elçin partladılmış avtobusun müayinəsinə başladı. Çox keçmədi ki, Qaraxanov onunla paralel digər mülki bir şəxsin əlində fotoaparatla avtobusa baxış keçirdiyini gördü:

- Bağışlayın, müəllim, bura hadisə yeridi, yüzlərlə dəlillər ola bilər ki, siz ehtiyatsızlıqdan onları məhv edərsiniz...

- Narahat olmayın, avtobusun fotosunu çəkib gedəcəyəm.

- İsa müəllim, mən sizi tanıdım. Sizin axı kriminalistika ilə heç bir əlaqəniz yoxdur.

- Deyirəm də, avtobusun, meyitlərin şəklini çəkib buradan uzaqlaşıram. Bir də ki, məni haradan tanıyırsınız?

- İsa Qəmbərov, tarix institutu. Mən sizi Bakıdakı mitinqlərdən tanıyıram. Bilirəm gedəcəksiniz. Amma ayağınızın altındakı dəlilləri də apara bilərsiniz.

- Vəssalam! Başa düşdüm sizi, gedirəm.

- Təşəkkür edirəm.

Hadisə yerinə baxış günorta saat üçdən başlayaraq axşam saat yeddiyədək davam etdi. Qaraxanovla yanaşı avtobusu, meyitləri, partladıcı qurğunun qalıqlarını Respublika Prokurorluğunun, Daxili İşlər və Ədliyyə nazirliklərinin əməkdaşları da müayinə edirdilər. Axşam saat səkkizdə Qaraxanov partlayışla əlaqədar əldə edilən məlumatları Yevlaxa ezam edilmiş DTK-nın digər nümayəndəsinə – nəqliyyat şöbəsinin məsul əməkdaşı İsfəndiyar müəllimə məruzə etdi.

Mirzəyev əslən Gürcüstan azərbaycanlısı idi. Təmkinli, savadlı mütəxəssis idi. O da partlayışdan iki həftə öncə DTK rəhbərliyinə ermənilərin Tbilisi avtovağzalında müəmmalı davranışları barədə məlumat vermişdi. Lakin nəticə bəlli idi. İsfəndiyar müəllimlə söhbətdən sonra Elçin Yevlax Şəhər Xəstəxanasına üz tutdu. Partlayış nəticəsində yaralananlar həmin xəstəxanaya yerləşdirilmişdilər.

Qaraxanovu maraqlandıran gözəl-göycək cavan azərbaycanlı qızı idi. Partlayış nəticəsində onun hər iki budu sınmışdı. Təcili əməliyyata ehtiyacı olduğundan Bakıdakı Travmatologiya Xəstəxanasına yerləşdirilməli idi. Elçin baş həkimdən xahiş etdi ki, cavan qızı və onun sinə nahi-

yəsindən yara alan anasını özü şəxsən, KQB-nin avtomobilində paytaxta çatdırsın. Lakin baş həkim gözlərinin yaşını silərək təcili yardım maşınının artıq yaralıları aşağıda gözlədiyini bildirdi. Elçin “mən mütləq travmatoloji xəstəxanada ana-balaya baş çəkəcəm, nəyə ehtiyacları olsa, təmin edəcəyəm” sözlərini baş həkimə çatdırıb Yevlax Şəhər Xəstəxanasını tərk etdi.

İki gündən sonra Qaraxanov avtobusdakı sərnişinlərin partlayışdan qabaq əyləşdikləri yerlərinin hamısını dəqiqliyi ilə müəyyən edib oturacaqların sxemini İsfəndiyar Mirzəyevə təqdim etdi. Partlayışın mənbəyi tam şəkildə bəlli olmuşdu. Qurğu budundan yaralanan qızın oturacağının altında yerləşən baqaj bölümünə qoyulmuşdu. Həlak olanların və yaralananların qanını yerdə qoymamaq üçün Gürcüstan Respublikasının KQB-si ilə sıx əlaqədə işləmək zərurəti yaranmışdı. SSRİ Qorbaçovun və onun ətrafındakı şovinist ermənilərin səyi nəticəsində dağılmaq üzrə, hər respublika da öz hayında idi. Ona görə də cinayətin açılması, iştirakçıların müəyyən edilməsi böyük sual altındaydı. Yeganə gerçəklik ondan ibarət idi ki, terroru Ermənistan KQB-si törədib. Lakin əldə yetərli sübutlar yox idi.

Partlayışla əlaqədar bütün əməliyyat və istintaq tədbirləri həyata keçirildikdən sonra Qaraxanov Bakıya qayıtdı. Paytaxtda isə “partlayıcı maddə və qaz” küçələri, meydanları doldurmaqda idi. Kiçicik bir kibrit çöpü lazım idi ki, Bakını və bütün Azərbaycan Respublikasını alovlandırsın. Əbdürrəhman Vəzirov və onun komandası öz amplуasında idi. Xalqdan əsl mənada ayrı düşən iqtidar “qata-

rı" bir tərəfə, millət isə digər istiqamətə yönəldirdi. Hər iki istiqamətin son ünvanı dərin uçurum idi.

Azərbaycanda KQB rəhbərliyinin başı vəzifə bölgüsünə, yeni təyinatlara qarışmışdı. Səhər-səhər işə təşrif buyuran Vaqif Hüseynov özü ilə böyük "diplomat" çamadan götürürdü. Kənardan baxan elə zənn edərdi ki, "diplomat"da Azərbaycanın taleyi həll olunur. Sovet İttifaqı məkanında heç bir ağıllı xüsusi orqan rəhbəri "yük" daşımazdı. Birincisi, bu hal onu işçiləri qarşısında nüfuzdan salardı, ikincisi də, məxfi sənədləri komitənin binasından çıxarmaq qəti qadağan idi. Lakin sabiq komsomolçu bu yazılmamış qanundan bixəbər idi, çünki mütəxəssis deyildi. Azərbaycan KQB-sinin kadrlar sistemi daxildən və kənardan komsomolçularla dolmaqda idi. Ən acınacaqlı vəziyyət isə ondan ibarət idi ki, Moskvada akademiyanı bitirmiş Məhərrəm Buğdəliyev kimi mütəxəssislər Azərbaycan Respublikası DTK-sının rayon, yaxud texniki şöbələrinə paylaşdırılırdı.

Ezamiyyətdən qayıtdıqdan sonra Elçin rəisi Xəzər İsmətovun qəbuluna getdi. Xəzər müəllimin kefi kök idi. Ona yeni podpolkovnik rütbəsi verilmişdi. Mayor rütbəsinin verilməsi tarixi isə heç kimə bəlli deyildi. Alın təriylə qazanılmamış podpolkovnik rütbəsini alanlara polkovnik deyəndə... özlərini səmanın yeddinci qatında hiss edərdilər. Bu hal ruslardan azərbaycanlılara keçən miras və adət-ənənələrdən biri idi.

Qaraxanov boğazdan yuxarı rəisini təbrik edərək məruzəyə başladı:

- Yoldaş polkovnik, ezamiyyət dövründə qarşımda qoyulan bütün məsələləri həll etdim.

- Bilirdim ki, başımızı aşağı etməzsən. Avtobusun kimlər tərəfindən partladıldığını aşkar edə bildinizmi?

- Xəzər müəllim, bunun üçün günlər lazımdır. Sağ qalan sərnişinlər dindirilməli, Gürcüstan Respublikasının güc strukturları ilə birgə əməliyyat-istintaq tədbirləri keçirilməli, partlayıcı maddənin tərkibi aydınlaşdırılmalı və daha nələr edilməlidir. Bircə onu inamla deyə bilərəm ki, bu terrorda erməni dövlətinin əli var.

- Öncədən qərar verməyək. Bunu istintaqın nəticəsi göstərəcək.

- Mən əməliyyat məlumatlarını, Ermənistanla müharibə şəraitində olduğumuzu nəzərə alaraq belə bir nəticəyə gəlmişəm. Onu da deyim ki, Yevlaxdakı partlayış Bakı əhalisini də lərzəyə gətirəcək. Millət ölənlərin qanını yerdə qoymayacaq.

- Nə təklif edirsən, Elçin?

- Respublika rəhbərliyi televiziya və radio efirinə çıxmalı, xalqı sakitləşdirməlidir, cinayətkarların tapılmasına söz verməlidir.

- Cinayətkarları bizdən və milisdən başqa kim tapacaq? Gərək bu istiqamətdə fəaliyyətimizi aktivləşdirək...

- Mən də onu deyirəm, yoldaş podpolkovnik. Sədrimiz gürcülərdən əl çəkməməlidir, təcrübəli əməliyyatçılarımızı Tiflisə göndərməlidir. Gürcülər bizim əvəzimizə özlərini yormayacaqlar. Onların da problemləri başlarından aşır. Allah bizləri qorusun, ümidim bir onadır.

- Axır vaxtlar yaman dindar olmusan, hey Allahı yadına salırsan.

- Bəs nə edim?. Yerdəkilər əlini ağdan qaraya vurmayınca, həmən Yaradanımız yada düşür. İcazənizlə, mən travmatologiya xəstəxanasına baş çəkim!

- Ora nə əcəb gedirsən, Qaraxanov?

- Avtobusda yaralananların siyahısında cavan qızla anasını gördüm. Qızın gözəlliyi və məzlumluğu mənə ağır mənəvi təsir etdi. Ona görə də onların aqibətilə maraqlanmalıyam. Bəlkə, köməyim də dəydi.

- Get, get. Mütləq baş çək. Amma nə yardımın dəyə bilər ki?

- Heç olmasa, baş həkimi işə qataram. Nə bilim, vallah. Nə edəcəyim xəstəxanada məlum olar.

Xəzər müəllimin kabinetindən çıxanda Əhməd Elçini koridorda gözləyirdi. Gözlərindən bəlli idi ki, avtobusun partladılması ona dərindən təsir edib:

- Qayıtdın, Elçin. Nə baş verdiyini mənə danışa bilərsən?

- Əhməd, bütün bu fəlakətlərin başında sənin təriflədiyin Vəzirov durub.

- Yenə başlama da, Elçin. Öz dərdim özümə bəsdir.

- Nə bilim, vallah. Maşının həyətdədir?

- Hə.

- Gedək xəstəxanaya, yaralıların yanına. Yolda sənə hər şeyi danışaram.

Travmatologiya Xəstəxanasının həyətinə daxil olanda Elçinin ürəyinə bəd xəbər eşidəcəyi dammağa başladı. Giriş qapısının ağzına insanlar toplaşmışdı, bəziləri fəryad

edib ağlaşırdılar. Dostlar içəriyə - ana ilə qızının palatasına tərəf üz tutdular. Ora çatanda tibb bacısının "yaralıları xəstəxananın morquna apardılar" sözləri Elçinin sanki dizlərini qırdı. Əhməd Elçinin qolundan tutub morqa tərəf dartdı. Orada qarasaçlı, nur sifətli cavan qızın meyiti masanın üzərinə uzadılmışdı. Gözəl qız sanki hələ də gülümsəyirdi. Baş verən faciənin dəhşətinə rəğmən qızın üzünə xoşbəxt bir ifadə həkk olunmuşdu. Həmin hal onun gəncliyindənmi, ölümə can vermək istəməyən, həyata min ümidlə sarılmaq istəyən həyat eşqindənmi irəli gəlirdi? Elçin bircə onu bilirdi ki, bu qız ölümə asanlıqla can verməmişdi, taleh onu öldürsə də, xürrəm yaşamaq inamını qıra bilməmişdi. Elə üzündəki ifadə də bu səbəbdən idi.

Qaraxanov həm dərin məyusluq, həm vicdan əzabı, suçluluq, peşmanlıq kimi qarışıq hisslər içindəydi. O qədər çabalamasına baxmayaraq, niyə bu gənc qızı və başqa qurbanları qurtara bilməmişdi? Niyə ona mane olmuşdular? Niyə başqalarının məsuliyyətsizliyi ucbatından bu gənc qız ömürünün baharında dünyaya əlvida deməliydi? Nə üçün onun anası bu dərdi çəkmək zorunda qalmalıydı-? Niyə o avtobusda həlak olan başqa insanlar da hansısa bir fitnəyə qurban getməliydi?! Onların günahı nəydi axı?.. Elçinin canından üşütmə keçdi, qəribə bir qorxu bütün bədənini bürüdü. Əgər bu hələ bir başlanğıc idisə, qarşıda neçə məsum insan bu fitnəyə qurban gedəcək, əməliyyatçıların da əlindən heç bir şey gəlməyəcəkdisə?.. Başından keçən fikirlər sanki Qaraxanovun dizlərini bükdü,

gənc adam bir anın içində əyildi, sifəti qaraldı. Bunu görən Əhməd Elçinin qolundan tutub cəsəddən uzaqlaşdırdı.

Dostlar bir müddət heç nə danışmadan yanaşı addımladılar. İkisi də gözəl anlayırdı ki, indi gördükləri bu dəhşətli mənzərə, ölüxana masasındakı bu incə və parlaq sifət yaddaşlarında ömürlük qalacaq. KQB-yə qayıdarkən yolda Elçin Əhmədin onun bölməsinə gəlməsinin səbəbini öyrənmək istədi:

- Nə yaxşı, biz tərəflərə keçmişdin, Əhməd? Yəqin tutarlı məlumatların var?

- Məlumat bizə hər gün, hər dəqiqə daxil olur. Hamısı da bir-birindən pis.

- De gəlsin. Yaxşı xəbər olsaydı, çaşardım!

- Bakıda faciə törədilməlidir...

- Əhməd! "Törədilməlidir" nə deməkdir? Məgər fəlakətin içərisində yaşamırıq?

- Bizdəki məlumat Bakı ermənilərinə aiddir. Onların üzərindən eksperiment aparmaq istəyirlər.

- Niyə onlar siçandır ki, üzərlərində təcrübə aparılsın?

- Kəşfiyyatda olan məlumatlara görə Ermənistan KQB-si ərazimizə təxribatçılar göndərib...

- Yenilikdir ki, bu?

- Dayan da, Elçin. Təxribatçılar professional qatillərdir. Dünyanın müxtəlif ölkələrində yerləşən erməni terror təşkilatlarının üzvləridirlər.

- Məsələ ciddiləşir...

- Onlar qəsdlə Bakıda yaşayan ermənilərin "qanına qəltan" etməlidirlər ki, ara qarışsın, məzhəb itsin.

- Sumqayıtdakı kimi? Sonra da bütün dünyaya car çəkəcəklər ki, azərbaycanlılar necə də vəhşidirlər!?

- Elədir ki, var, Elçin. Rəislərimiz bu məlumatı artıq sizinkilərlə bölüşüblər. Sadəcə ürəyimi boşaltmaq istədim.

- Müavininiz Ağayan bölüşüb bizimkilərlə?

- Bəyəm bilmirsən, Elçin?

- Nəyi?

- Ağayan bir həftə olar ki, aradan çıxıb. Rusiyanın Krasnodar vilayətinə köçüb.

- Min şükür. Axır ki, anladınız! Barəmizdə olan bütün məlumatları Yerevana sızdırdıqdan sonra aradan çıxdı.

- Bir sözlə, Elçin, şöbəmizdə ermənilərdən yalnız Sarumyan qaldı ki, onun da xeyrindən başqa bizə heç nəyi dəymir. Nəfimizə olan bir sıra məlumatları Rusiyadakı erməni diasporundan elə o əldə edir.

- Sağ olsun da, Əhməd, mən nə deyirəm? Məlumatların üçün sənə minnətdaram. Gərək tələbələr arasında fəaliyyətimi gücləndirim. Qanunsuz hərəkətlərdən onları çəkindirmək lazımdır.

Bir neçə dəqiqədən sonra Əhməd Elçini DTK binasının qarşısında maşından düşürərək Kəşfiyyat şöbəsinə tərəf istiqamət götürdü. Qaraxanov komitəyə daxil olduqda koridorda onu gözləyən İsrail Qulamovu gördü. Elçin onunla salamlaşandan sonra vaxt itirmədən suala keçdi:

-Yəqin, bibin oğlu ikinci dəfədən də imtahanı verə bilməyib?

- Elçin müəllim, "ikinci dəfəni" düz tapdınız. Amma bibim oğlu deyil.

- Bəs kimdir?

- Mənimlə bərabər sizin yanınıza Tanrıverən gəlirdi e, yadınızdadır?

- Vallah, xatırlaya bilmirəm.

- Hələ sizin kabinetə "fil sümüyü"ndən telefon aparatını da quraşdırdı...

- Ay İsrail, fil sümüyü nə deməkdir? Heç o boyda SSRİ-də fil sümüyündən telefon aparatı yoxdur!

- Yox e, müəllim, rənginin adı "fil sümüyüdür".

- Həə, belə de... Bir sözlə, yəqin onun da dayısı oğlu imtahandan kəsilib?

- Xeyr, Elçin müəllim. Doğmaca qardaşı.

- "APİ Lenin"?

- Xeyr, "Axundov".

- Yaxşı. Adını, familyasını gətirərsən, kömək edərəm. Bir də ki, İsrail, sən Qasım İsmayılov rayonundansan?

- Bəli, Elçin müəllim. Nəyə görə soruşursunuz?

- Oralarda bədbəxt hadisə baş verib, qonşu rayonun ərazisində avtobus partladılıb, insanlar həlak olub! Xəbərin var?

- Xeyr e, yoldaş Qaraxanov, biz kiçik adamlarıq, haradan bilək?

İsrailin bu cavabından sonra Elçin "Allahım, bu dırnaqarası vətənpərvərlərə özün kömək ol" düşüncəsi ilə korpeşman otağına daxil oldu.

Bakıda vəziyyət gün-gündən gərginləşirdi. "Xalq Cəbhəsi" hərəkatı və iqtidarın nümayəndələri arasında söz atışmaları küçə yürüşləri, meydan mitinqlərinə dönüşmüşdü. Çıxış üçün tribunalar fəhlələrin təmsilçisi Nemət Pənahovun əlindən alınaraq ziyalıların nümayəndələrinə təhvil verilməkdə idi. Etibar Məmmədov, İsa Qəmbərov, Tofiq Qasımov, Zərdüşt Əlizadə çıxışları ilə xalqı məftun

etməyi bacarmışdılar. Hərdən ziyalıların "ağır artilleriyasını" təşkil edən Bəxtiyar Vahabzadə, İsmayıl Şıxlı, Yusif Səmədoğlu da nümayişçilərə öz tövsiyələrini verirdilər. Mitinqlərdə hökm sürən nizam-intizama, aparıcıların taktikasına, iştirakçıların şərtsiz tabeçilik mövqelərinə söz ola bilməzdi. Yeganə gözə çarpacaq hal Nemət Pənahovun inciyərək nümayiş və mitinqləri tərk etməsi idi.

Xalqın iqtidardan tələbi dəyişilməz qalırdı. Onlardan ən əsası, Dağlıq Qarabağ muxtar Vilayətində Azərbaycan Respublikası səlahiyyətlərinin bərpası idi. Xalqın belə bir mühüm istəyi SSRİ Konstitusiyasına da tam uyğun idi. Mitinqlərin sülh şəraitində keçməsi yalnız ermənilərlə Qorbaçovun ermənipərəst komandasının maraqlarına uyğun deyildi. Nəyin bahasına olursa olsun, Bakıda iğtişaşlar törətməyin vaxtı çatmışdı. Bununla da Mərkəz araya salıb Dağlıq Qarabağı Azərbaycandan qoparmalı və digər türkdilli müttəfiq respublikalara ibrət dərsi verməli idi. Nədənsə, Qorbaçovun başçılıq etdiyi SSRİ rəhbərliyi Azərbaycandan öz nəfinə divident qoparanda əhalisini "azərbaycanlılar", düşməncəsinə yanaşaraq təxribatlar, diversiyalar törədəndə "türklər" adlandırırdı. Azərbaycanın belə bir ağır şəraitində Mərkəzin külli miqdarda nümayəndəsinin Bakıya gəlişi adi hal almışdı.

Sov.İKP Mərkəzi Komitəsinin nümayəndələri olan Primakovun, Qirenkonun, Qorelovskinin gəlişi sərt qışı gözlənilən min doqquz yüz səksən doqquzuncu ilin noyabr ayına bir az da soyuqluq qatdı. "Qonaqların" əsas məqsədi "Xalq cəbhəsi" hərəkatının fəalları ilə görüşüb onları

mövqelərindən çəkindirmək, əks-təqdirdə sərt tədbirlər görüləcəyi barədə xəbərdarlıq etmək idi. Lakin Ermənistan Respublikasının rəhbərliyini Azərbaycana qarşı aqressiv mövqeyindən çəkindirmədən qeyd olunan məqsədlərə nail olmaq mümkünsüz idi. Bunu Mərkəzi Komitənin nümayəndələri gözəl anlayırdı. Amma Ermənistanla hər bir profilaktik söhbətlərin aparılması Qorbaçovun komandasının marağında deyildi. Qarabağda erməni separatçılarının barışmazlığı, Ermənistanda isə "başbilənlərin" Azərbaycana qarşı apardığı işğalçı siyasət soydaşlarımızın ölümünə səbəb olurdu. Artıq nə Dağlıq Qarabağda, nə də ki, qonşu ölkədə azərbaycanlı deyilən millət qalmamaqda idi.

Həmin ərəfədə bölmə rəisi Xəzər İsmətov, Elçini və Fuadı kabinetinə dəvət etdi. Podpolkovnikin danışığından hiss olunurdu ki, Vəzirovun, Hüseynovun komandasının üzvü olmasına baxmayaraq, artıq o da Azərbaycanın uçuruma tərəf yönəldildiyindən narazıdır. İsmətov könülsüz şəkildə əməkdaşlarına göstərişlərini verməyə başladı:

- Bilirsiniz də, respublikamıza Moskvadan qonaqlar təşrif buyurub. Bir saatdan sonra siz Mərkəzi Komitənin binasında olmalısınız. Orada Mirzoyev vəzifələrinizi izah edəcək.

Elçin:

- Kimlər təşrif buyurub ölkəmizə, Xəzər müəllim?

- Primakov, Qirenko, Qorelovski...

Fuad:

- Qorelovski, rəis?

- Bəli, Fuad, Qorelovski.

Elçin:

- Aydındır, Xəzər müəllim, tamamlanmamış işlərini bitirməyə gəlib. Heç ondan gözüm su içmir...

- Deyirsən, yəni aranı qızışdırmağa gəlib?

- Həm aranı qatacaq, həm yaltaq və satqınları ilə görüşəcək, bir də ki, vəziyyət barədə yuxarılara məlumat ötürəcək.

- Mən də elə düşünürəm, Elçin. Əslinə qalsa, başqa cür düşünməyin özü də günahdır.

- Yoldaş İsmətov, bizim vəzifəmiz nədən ibarət olacaq?

- Vladimir Adiloviç hər şeyi anladacaq. Çox güman ki, qonaqların mühafizəsi ilə məşğul olacaqsınız.

Fuad:

- Təsəvvür edirsiniz, rəis, bütün xalq toplaşıb Mərkəzi Komitə binasının önünə, biz isə millətin nifrət etdiyi insanları qorumaqla məşğul olacağıq.

- Nədən çəkinirsən, Fuad?

- Kütlədən, çox qızğındırlar. Bir dəfə "fit" çalsalar... ara qarışacaq, məzhəb itəcək.

- Narahat olma! Biz qonaqpərvər millətik. Düşmənimiz də olsa belə, qonağa güldən ağır söz deməzik.

Elçin:

- Narahat deyilik e, Xəzər müəllim. Sadəcə özümüzə nifrət edirəm ki, gör, kimlərin mühafizəsiylə məşğuluq.

- Elçin, demaqoqluğuvuzu qoyun qırağa. Dövlət işiylə şəxsiyyətləri dəyişik salmayın. "Davay", işinizin dalınca. Artıq vaxtdır.

Rəisiylə söhbətdən sonra Qaraxanov qəmgin halda otağına getdi. Onun dalınca kəşfiyyat şöbəsinin əməkdaşı Riyad Əhmədov da kabinetə daxil oldu:

- Salam, elli, necəsən?
- Əleykümə salam, Riyad. Lap diksindirdin məni.
- "Çekist" deyilik, qardaş? Qəflətən peyda olmaq bizim peşəmizdi.
- Çox şad oldum, Riyad. Nə yaxşı biz tərəflərə keçmisən? Kəşfiyyatçı ilə əks-kəşfiyyatçının tarixi görüşü?
- Demə, Elçin, demə. Elə-belə gəldim. İstədim, respublikamızdakı durumu müzakirə edək, məlumatları bölüşək.
- Hə, Riyad. Üzürlü say, qardaş. Bizi Mərkəzi Komitəyə "ezam" edirlər. Qorelovskini və onunla torpaqlarımıza "xoş qədəmlərini" basmış qonaqları qoruyacağıq.
- Deməli, o da gəlib?!
- Bəli, dostum. Heç, yaxşı əlamət deyil.
- Bilirəm, qardaş. Amma vaxtıvı almayım. Axşam yenə gələcəyəm, söhbətimizə davam edərik. Hələlik, elli.
- Xudahafiz. Mütləq görüşərik, Riyad.

Bölmə rəisinin qəbulundan çıxandan bir saat sonra Elçin Fuad ilə birgə Mərkəzi Komitənin binasına daxil oldu. Binanın önü mitinqçilərlə dolu idi. "Lenin" meydanından Vəzirovun iqamətgahı tərəfə yürüş edən mitinqçilərin yeganə məqsədləri respublika rəhbərliyinin ağzından Qarabağın nəfinə bir kəlmə söz eşitmək idi. Əməliyyatçılar birinci katibin kabineti yerləşdiyi mərtəbəyə qalxdılar. Vəzirov dəhlizdə - pəncərənin önündə dərdli-dərdli durub minlərlə mitinqçini izləyirdi. İzdiham iştirakçılarının əksəriyyəti Ermənistandan qovulmuş azərbaycanlılar, tələbələr, "Xalq Cəbhəsi" hərəkatının fəalları idilər. İnsanlar "azadlıq", "müstəqillik", siyasi məhbusların dərhal buraxıl-

masını tələb edirdilər. Əbdürrəhman Xəliloviç qorxaraq gah aşağıya, gah da  Xəzər dənizinə nəzər salırdı. Birdən mitinq iştirakçıları sanki Vəzirovu görərək bir ağızdan "istefa"  deyə səslənməyə başladılar. Birinci katib Elçinə tərəf dönüb ona "что такое истефа?" sualını verdi. Qaraxanov quruyub yerində qaldı. Hamı bilirdi ki, bu katib öz dilində zorla danışır. Amma Vəzirovun "istefa" sözünün mənasını bilməməsini nə Fuad, nə də ki, Elçin gözləyirdi. Qaraxanov sualın cavabını verdi:

- Товарищ первый секретарь, “истефа" на нашем языке означает "отставку".

"На нашем языке" ifadəsini Vəzirov tutdu:

- А я кто? Не ваш?

Sualına cavab almayan Əbdürrəhman Xəliloviç pəncərəyə yaxınlaşıb tarixdə qalan daha bir hərəkətini nümayiş etdirdi. O, baş barmağını şəhadət və orta barmaqları arasına yerləşdirərək əlini pəncərənin arxasından millətə tərəf yönəltdi:

- Вот вам истефа, вот вам истефа, вот вам ис-те-фа!

Həmin kəlməni üç dəfə bağıraraq Vəzirov "где Поляничко, позовите мне Поляничко" deyib kabinetinə tərəf yönəldi. Respublika rəhbərliyilə görüşdən ümidini qıran millətin bir qismi “Lenin” meydanına tərəf yönəldi, digərləri isə Vəzirovla görüşməyənə qədər Mərkəzi Komitənin önündə qalmaq qərarını aldı. Azərbaycanın  çətin günlərində əməliyyat işilə məşğul olub ölkənin maraqlarına qulluq etmək əvəzinə Fuadla Elçin uzun müddət ərzində Mərkəzi Komitənin binası daxilində ilişib qalaraq Vəzi-

rovun xidmətində idilər. Fuad məzlum vəziyyətdə Elçinə sual verdi:

- Sabah Stepanakertdən Bakıya gizli yardımçım gələcək. Bilmirəm, onunla görüşə biləcəyəm, ya yox?

- Sən darıxma, Fuad. Bədayağı Xəzər müəllimdən xahiş edərik ki, səni Rzaqulu ilə əvəz etsin.

- Əvəzləsə, nə olacaq, Elçin, əvəzləməsə, nə olacaq? "Robert"in gətirdiyi məlumatla onsuz da heç kim maraqlanmayacaq. Mənim dərdim bu deyil.

- Bəs nədir?

- Sadəcə bu "kopoyoğlunun" ermənisi illər boyu bizlərə canla-başla xidmət edib. Qorxuram ki, qaçqınlar belə bir acınacaqlı vəziyyətdə "Robert"in erməni olduğunu aşkarlayıb ona xəsarət yetirsinlər.

- Görüşsən, ona nə deyəcəksən?

- Ən azı, başa salardım ki, vəziyyət gərgindir, müvəqqəti də olsa, getsin Rusiyadakı qohumlarının yanına.

- Ağıllı fikirdir, Fuad. Orada yaşayan erməni şovinistləri barədə də bizə ətraflı məlumatlar göndərə bilərdi...

- Əlbəttə. Buna görə də "Robert"lə mütləq görüşməliyəm.

- Narahat olma, dostum. Axşam Xəzər müəllimlə əlaqə saxlayarıq. Mən də Riyadla görüşməliyəm. Bilirəm ki, gizlicə Stepanakertə gedib bir-ik erməni "saqqallısını" Bakıya gətirmək istəyir. Əli cicikir. İmkan versələr, Köçəryanı da əliyalın hapazlayar.

- Hapazlamaq nədir ə, Elçin?

- Təcavüzdən betərdir...

Mərkəzi Komitənin yanındakı oteldə Moskvadan gələn "qonaqlar" müxalifət nümayəndələrilə görüşlər keçirirdilər. Onların içində "Lenin" meydanında mitinqin təşkilatçıları da var idi. Moskvalı qonaqlar onları guya ki sakitliyə, nümayişlərə son qoymağa vadar etmək istəyində olsalar da, əsas məqsədləri Bakıda milli zəmində iğtişaşlar törədib paytaxta qoşun yeritmək idi. SSRİ məkanında doğulub boya-başa çatmış "Xalq Cəbhəsi" hərəkatının liderlərinin ağlına belə gəlməzdi ki, erməni xislətli mərkəz bu cür əməllərə əl ata bilsin. Ona görə də oteldəki danışıqlar heç bir fayda vermirdi. Hərəkətləri müəmma doğuran bəzi azərbaycanlılarla keçirilən görüşlərin məğzi isə sirr olaraq qalırdı. Sovet İttifaqının KQB-sində tüğyan edən konspirasiya qaydaları, qapalılıq heç bir ölkənin xüsusi xidmət orqanlarında mövcud deyildi. Elçinlə Fuad kənardan görüşləri izləyərək dərin düşüncə və təhlillərə dalırdılar: Satqın insanlara hər ölkədə rast gəlmək olar. Əksər hallarda onların fəaliyyəti dövləti uçuruma sürükləsə də, "xeyirləri" də dəyirdi. Satqınların "sayəsində" ölkənin güc strukturları daim fəaliyyətdə, axtarışda və sayıqlıqda olurlar. Lakin əsrlərlə əsarət altında yaşayan Azərbaycan xalqında artıq milli şüur oyanmışdı. O hüquqlarını müdafiə etməyə, bu yolda elə özü satqınları dəf etməyə hazır idi.

Elçin indiyə qədər xalq anlayışını mücərrəd bir məfhum sanırdı, indiki qədər konkret təsəvvür edə bilməmişdi. Hazırda isə o, xalqını nəinki təsəvvür edir, necə deyərlər, gözüylə görürdü. Meydanlarda dəniz kimi dalğalanan bu izdiham məhz xalq idi. Bu mənzərə insanın qəlbini

fərəhlə doldururdu. Öz azadlığı uğrunda ayağa qalxmış, müqəddəratını həll etməyə çalışan xalq! Bir yumruq kimi birləşmiş, soyuq gecələrdə meydanı tərk etməyən insanlar, bir tikə çörəyini, bir qurtum suyunu bölüşən qardaşlaşmış yurddaşlar. Qaraxanov uzun müddət kitablardan oxuduğu qəhrəmanlıq salnamələrini canlı izləyirdi, onun gözü qarşısında yeni tarix yazılır, ulu əcdadlarının mübarizlik, qəhrəmanlıq səltənəti yenidən qurulurdu.

Elçin bu mənzərəni izlədikcə beynindəki fikirlər dua kimi təkrarlanırdı:

"Biz bu mübarizədə məğlub ola bilmərik. Çünki əcdadlarımız, şərəfli tariximiz bəllidir. Nizamilərin, nəsimilərin, füzulilərin törəmələriyik. Şanlı tariximizlə, sərkərdələrimizlə hər zaman qürurlanmışıq. Biz iradəli, güclü xalqıq. Ulu babamız Dədə Qorqud demişkən, "...hələ varıq, olacağıq, qalacağıq, artacağıq..."

# IX FƏSİL

## İYİRMİ YANVARA DOĞRU

Azərbaycanda aparılan siyasətin gedişatı Ermənistanda yaranmış vəziyyətə müsbət təsir göstərməkdə idi. Artıq Yerevandakı mitinqlərin, yürüşlərin, nümayişlərin intensivliyi azalmışdı. Qonşu respublikanın istəyi Dağlıq Qarabağı Azərbaycandan qoparıb özünə birləşdirmək idisə, o da Vəzirov klanının səssiz razılığı əsasında həyata keçmişdi. Gürcüstanın ermənilər yaşayan Axalkalaki regionu da daşnakların məkrli planlarına tuş gəlməkdə idi. Lakin bu fəaliyyəti açıb-ağartmaq Yerevanın məqsədinə uyğun gəlmirdi. Çünki dünyanı, xüsusən də erməniləri dəstəkləyən Avropanı əsəbiləşdirməyə dəyməzdi. Ona görə də, Gürcüstanın ermənilər yaşadığı regionlarında təbliğat işləri həddindən artıq konspirativ qaydalara uyğun aparılırdı.

Yesayan və Simonyan Gürcüstanın Azərbaycana yaxın sərhəd kəndlərində öz adamları ilə mütəmadi görüşlər keçirirdilər. İğtişaşlar törətmək məqsədilə Bakıya göndərilən qrupların rəhbərləri gürcülərin ərazisinə rahat keçirdilər. Onlara təlimat vermək təhlükəsizlik nöqteyi-nəzərindən polkovniklər üçün də asan idi. Təxribatçı qruplara müxtəlif adlar altında xüsusi təyinatlı Adamyan və onun müavini Qəribyan başçılıq edirdi. Azərbaycanın paytaxtında özünü "Məmmədov" kimi qələmə verən əməliyyatçı Nə-

zəryan və Ermənistan Xüsusi Xidmət Orqanının təhlilçisi – anası erməni, atası isə azərbaycanlı olan "məcburi köçkün" Qasımov da Yesayan və Simonyanla görüşə gəlmişdi. Ətrafı diqqətlə nəzərdən keçirdikdən sonra Simonyan əməkdaşlarını salamlayıb söhbətə başladı:

- Belə çətin şəraitdə Ermənistan dövlətinin mənafelərini gücləndirən missiyanızı və əməyinizi yüksək qiymətləndirirəm. Onu da bilirəm ki, həyatınız təhlükədədir, Azərbaycan çekistləri sizin fəaliyyətinizi hər an ifşa edə bilərlər.

Adamyanın sifəti yaltaq və süni təvazökarlıq ifadəsi aldı:

- Bizlər də başa düşürük ki, Ermənistan torpaqlarına yeni ərazilərin qatılması üçün münbit şərait yaranıb. Ona görə də ehtiyac olarsa, canımızı da fəda etməyə hazırıq. Heç nədən qorxmuruq, yoldaş Simonyan.

- Bunu bilirəm. Amma ehtiyatı əldən vermək olmaz. Siz bizə sağlam lazımsınız. Bakıda yaşamaq üçün şəraitiniz qənaətbəxşdirmi? Probleminiz varsa, utanmadan söyləyin.

- Yoldaş polkovnik, mənzillərimizi Bakıda ermənilərin kompakt yaşadığı Kirov, Nəsimi rayonları, "Zavokzalnı", "Ermənikənd", "Montin" deyilən ərazilərdə kirayə götürmüşük...

- Bəs, qruplar necə? Yarada bilmisinizmi?

- Əlbəttə! On beşə yaxın qrupumuz var. Hər birinin də on-on iki nəfər üzvü. Ermənilərin yaşadığı yüzə yaxın mənzili müəyyən etmişik. Sizdən işarə gözləyirik. İstədiyiniz zaman hücum çəkib hamısına ağır xəsarətlər yetirə bilərik.

Yesayan təsdiq əlaməti olaraq başını yellədi:

- Xəsarət! Bunu yaxşı qeyd elədin. Kim olsa da, millətimizin nümayəndəsidir. Amma belə bir müşkül məqamda bəzi ermənilərin tələf olması da bizlərə xeyir gətirəcək, yoldaş Adamyan.

- Buna söz verə bilərəm. Ermənistandan döyülərək qovulan azərbaycanlılar bizlərə qarşı o qədər hirslidirlər ki, əllərindən hər bir xəta çıxa bilər. Ona görə də, bütün ağır nəticələrə hazır olmaq lazımdır.

Qəribyan:

- Yoldaş Simonyan, Bakıda vəziyyət həddindən artıq gərgindir. Mərkəzdən də oraya dostlarımız gəlib. Əməliyyata başlamağın əsl vaxtıdır. Mitinqlər pik həddə çatıb. Nümayişçilərin qəzəbindən istifadə etməyi də nəzərdə tutmuşuq.

- Hazır olun. Çox güman ki, bir-iki həftəyə hərəkətə keçəcəksiniz. Yanvar ayının ortalarında adamlarımız fəaliyyətə başlamaq üçün sizi xəbərdar edəcək.

- Bir də ki, yoldaş Simonyan, utanıram da deyəm, amma bizə maşın almaq üçün pul lazımdır. Bakının bir başından o biri başına getmək xeyli vaxt aparır.

- Deyirsən, bunu nəzərə almamışıq? Tələbatlarınızı qarşılamaq üçün yüz min rubl gətirmişəm. Bütün ehtiyaclarınızı ödəyərsiniz.

- Təşəkkür edirəm, yoldaş Simonyan.

Yesayan əlavə suala keçdi:

- Yaratdığınız qruplar kimlərdən ibarətdir?

- Əsasən, bizim respublikadan qaçan azərbaycanlılardır...

- Yaxşı olar ki, Adamyan, qrupunuz çoxmillətli olsun.

- Elədir ki var, yoldaş Yesayan. Qruplarımızda ləzgi, türk, kürd – hamısından var. Onların əksəriyyətinin qohumu, tanışları, dostları bizimkilər tərəfindən incidilib, döyülüb, hətta öldürülüb. Ona görə də dostlarımız – bu ironik ifadəni işlədərkən Adamyan hırıldadı- vəhşiləşib.

- Əla! Çalışın onların "əməyindən" səmərəli istifadə edəsiniz.

Qəribyan başqa məsələyə toxundu:

- Yoldaş Yesayan, əməliyyatdan sonra Bakıdan çıxmağımız üçün koridor da yaradılmalıdır...

- Əlbəttə. Bu barədə də fikirləşmişik. Deməli, Bakıda və Gəncədə erməni ailələrinə qarşı hücumları pik həddinə çatdırdıqdan sonra yeddi "iğtişaş qrupu"nun başçıları Qəribyanın rəhbərliyi altında qatar, avtobus, taksi vasitəsilə Gəncənin Getaşen kəndinə getməli, qalanları isə gəmilər vasitəsilə qaçqın ermənilərlə birgə Mahaçqalaya istiqamət götürməlidirlər. Hər iki halda sizə əlavə məlumat veriləcəkdir.

Adamyan yenə yaltaqcasına baş əydi:

- Əgər başqa tapşırıqlarınız yoxdursa, biz Bakıya qayıdaq.

Simonyan:

- Gedə bilərsiniz. Unutmayın ki, müqəddəs mübarizəmizə qədəmlərimizi basırıq. Əvvəl haqq-hesabımızı Azərbaycanla, sonra isə Türkiyə ilə çürüdəcəyik. Boşluğa və səhvə yol vermək qəti qadağandır. Gəncədəki "iğtişaş qrupu"nun rəhbərinə də salamlarımızı yetirin. Biz də Yesa-

yanla Yerevana qayıdırıq. İşimiz başımızdan aşır, növbədə Naxçıvan var!

Adamyan və onun müavinilə görüşdən sonra Ermənistan KQB-sinin məsul şəxsləri Gürcüstanın Cavaxetti bölgəsində yerləşən Axalkalaki rayonuna istiqamət götürdülər. Ermənilərin sıx yaşadıqları bu bölgədə də vəziyyət günü-gündən gərginləşməkdə idi. Təbii ki, Axalkalakidə belə bir şəraitin yaranmasında general Stepanyanın komandasının böyük rolu var idi. Yesayanla Simonyan bir daha əlaltıları ilə görüşərək onlara yeni tapşırıqlar verməli idilər.

SSRİ-ni yaradan Rusiyada hərc-mərcilik necə tuğyan edirdisə, digər respublikaların kəşfiyyat və əks-kəşfiyyat orqanlarının nümayəndələri üzərində nəzarətin təşkili qeyri-mümkün hala düşmüşdü. Bu bulanıq sularda balıq tutmaq yalnız ermənilərin xüsusi xidmət orqanına xas idi. Müttəfiq respublikalara səpələnmiş erməni mənşəli vətəndaşların xidmətindən istifadə adi hal almışdı. Böyüyüb boya-başa çatdığı, çörəyini yediyi respublikalara dönük çıxmaq məharəti isə hər xalqa “nəsib” olmur.

Axşama yaxın Yesayanla Simonyan saxta pasportlar vasitəsilə oteldə otaq kirayələyib Axalkalaki rayonunda nüfuz sahibinə malik, erməni mənşəli kimyaçı Qaragenin mənzilinə  üz tutdular. Orada onları Gürcüstanın erməni əsilli vətəndaşları gözləyirdilər. Çünki ertəsi gün ermənilər üçün “əlamətdar”, gürcülər üçünsə, faciəvi gün gözlənilirdi: Axalkalaki rayonunun mərkəzində ermənilər mitinqlər, yürüşlər təşkil edərək bu ərazini Gürcüstan Res-

publikasının "əlindən" almalı idi. Yesayan külli miqdarda pulları seperatçıların başçısı Qaragen Vartanyana verib "vətənpərvər" ermənilərə uğurlar dilədi:

- Bildiyiniz kimi biz qədim xalq olaraq artıq Azərbaycan Respublikasından halal torpaqlarımızı geri qaytarmağa müvəffəq olmuşuq. Demək olar ki, türklərdən qisasımızı alırıq və almaqda da davam edirik. Bütün dünya liderləri bizləri dəstəkləyir və haqlı mübarizəmizdə uğurlar diləyirlər.

İqorun  bu alovlu çıxışı sanki Vartanyanın müavini Mişa Petrosoşvilidən ümid tumurcuqlarını söküb hansısa kolun dibinə atdı:

- Yoldaş Yesayan, azərbaycanlılarla məsələ aydındır: onlar müsəlmandır, dəstəkləyənləri yoxdur. Hətta müsəlmanların "Vatikanı" olan Məkkə belə qardaşlarının nəfinə bir kəlmə də olsun söyləmədilər...

- Bununla nə demək istəyirsən, Mişa?

- Sözüm ondadır ki, gürcülər azərbaycanlı deyillər! Onların arxasında dünyanın böyük ölkələri durub. Bu müqəddəs yolumuzda Moskvadan da dəstək ala bilməyəcəyik. Çünki Rusiyada yaşayan gürcü ziyalıların sayı biz ermənilərdən az olsa da, onlar geniş nüfuza malikdirlər.

Qaragen:

- Mən də Petrosoşvililə razıyam, yoldaş Simonyan. Dəfələrlə demişəm ki, hərəkatımızın məqsədinə yalnız dinc, siyasi yolla nail ola bilərik. Gürcülərlə bacarmaq çətin məsələdir. Azərbaycanlıların gözəl bir məsəli var: arxalı köpək qurd basar. Ona görə də, təklif edirəm ki, sabahkı mi-

tinqdə "Axalkalaki erməni torpağıdır!" şüarını gündəmdən çıxaraq.

- Sən nə danışırsan, özbaşına nə hərəkət edirsən, yoldaş Vartanyan? İllərdir, Ermənistan ərazilərinin böyüməsi, yeni torpaqların birləşdirilməsi uğrunda mübarizəmizə nöqtə qoymaq fikrindəsiniz?

- O nə sözdür, yoldaş Simonyan? Əksinə! Sadaladığınız məqsədlərə biz sülh yolu, beynəlxalq qanunlar çərçivəsində nail olmaq istəyirik. Gürcülər bizə bir qarış da torpaq verməyəcəklər.

- Demək istəyirsən ki, azərbaycanlılar Qarabağı bizə öz istəklərilə veriblər?

- Xeyr, bunun üçün illər boyu mübarizə aparmışıq...

- Əlbəttə, Qaragen! Baş işlətmişik, silah toplamışıq, bir sıra dövlətlərin dəstəyini qazanmışıq. Yalnız bundan sonra Qarabağı onların əlindən zor gücünə almışıq.

- İndi siz nə demək istəyirsiniz, yoldaş Simonyan?

- Onu demək istəyirəm ki, özxoşuna heç bir xalq torpağını kiməsə bəxş etməz. Onu qoparıb almaq lazımdır. Sabahkı mitinq əvvəlcədən planlaşdırılmış qaydada təşkil edilməlidir. Əgər planlarımız xoşunuza gəlmirsə, yoldaş Vartanyan, böyük məmnuniyyətlə vəzifənizi əlinizdən ala bilərik. Gürcüstanda ha çox erməni "vətənpərvər", erməni "idealist" yaşayır.

- Narahat olmayın, yoldaş Simonyan. Əmrləriniz bizim üçün qanundur. Nə gərəkirsə, onu da edəcəyik.

Separatçılarla görüşdən sonra Yesayanla Simonyan Yerevana yola düşdülər. Yolboyu söhbətləri bu mövzuda oldu:

- Bu əclafları hər zaman dümsükləmək lazımdır ki, qəlblərində erməni millətçiliyi və şovinizmi yaransın! Azərbaycanlıların yaxşı atalar sözü var: ölünü özbaşına qoyarsan... o söz, kəfənini batırar.

***

Ermənistan SSR Ali Sovetinin Dağlıq Qarabağ Muxtar Vilayətini öz tərkibinə qatmasına dair min doqqquz yüz səksən doqquzuncu ilin dekabrındakı qərarı Azərbaycanın siyasi durumuna son nöqtəni qoydu. Qonşu ölkənin rəhbərliyi birləşmə tarixini xüsusi xidmət orqanının təqdimatı ilə vaxtında seçmişdi. Azərbaycan SSR rəhbərliyinin səriştəsizliyi, güc orqanlarının iflic vəziyyətə düşməsi, xalqın meydan və küçələrə axışması, Bakıda və Gəncədə təxribat qruplarının aktiv fəaliyyətə keçməsi iğtişaşların törədilməsinə tam şəkildə münbit şəraiti yaratmışdı. Belə bir vəziyyətdə vətənini və xalqını sevən lider ortaya çıxıb ölkəsinin qarşılaşdığı fəlakətə özünü sipər etməli idi. Lakin belə bir qəhrəman nə rəhbərlikdə, nə də ki xalq hərəkatının liderləri arasında mövcud idi. Bəzi müxalifətçilər xalqı qarşıdurmadan yayındırmağa cəhd göstərirdi. Amma onların sözünə qulaq asan kim idi? Ox yayından çıxmışdı. Kütlədə gərginlik o həddə çatmışdı ki, qarşısında duranı silib-süpürərdi.

Vətəni hamı sevir, amma hər kəs özünəxas məhəbbətlə sevir. Kimisi onu sakit, öz ürəyində sevir, kimisi səs-küylə sevir, nitqlər söyləyir, bəziləri yazısı, şeirləri, rəsm əsərləriylə Vətənini tərənnüm edir. Lakin bu ayazlı yanvar

ayında Azərbaycanı ağılla sevənlərin sayı çox az idi. Hisslər kütləvi şəkildə dəniz kimi coşmuşdu və onun qəzəbli dalğaları ölkəni təhlükəyə sürükləyirdi. Belə bir durumda Vətəni düşdüyü ağır vəziyyətdən ağıl, dərrakə, düşüncə çıxara bilərdi. Hələ də gec deyildi. İqtidar da, müxalifət də ambisiyalarını geridə qoyub Vətənini bütün varlığı ilə sevən ağıllı insanı – Heydər Əliyevi respublikaya dəvət etməli idi. Millətin sadə nümayəndələri, ən əsası da, məlumatlar sayəsində Azərbaycanın düşdüyü durumu qiymətləndirə bilən bir çox nüfuzlu ziyalıları respublikanın sabiq müdrik rəhbərinin Moskvadan Bakiya qayıtmasını arzulayırdı. Amma ölkənin düşdüyü vəziyyət başqa şeyi diktə edirdi: sən saydığını say, gör fələk nə sayır! Artıq Qorbaçovun ermənipərəst komandası Bakı iğtişaşlarına dair düyməni basmışdı.

Belə bir şəraitdə Elçin gizli yardımçısı "Seda" ilə görüşdən sonra DTK-ya qayıdırdı. Əldə edilən məlumat çox ciddi idi. "Seda" nın bildirdiyinə görə, Bakıya Ermənistandan məxfi qruplar göndərilmişdi və onların bugün-sabah təxribat xarakterli fəaliyyəti gözlənilirdi.

Qaraxanov "Bakı Soveti" metrostansiyasına təzəcə çatmışdı ki, önündə mitinqçilər peyda oldular. Hər şey ani baş verdi. Yolu kəsənlərin sırasından bir nəfər çıxaraq qalın səslə "sən nə üçün bizimlə deyilsən?" sualını verdi. Elçinin ağlından yeganə məntiqli fikir keçdi: "Budur o, təxribatçı! Sənə nə gəlib ki, camaatın maşınını saxlayıb zorla yürüşlərə dəvət edirsən?" "Seda"nın yazdıqları tədricən öz təsdiqini tapmaqda idi. Çox keçmədən mitinqçilər qalın

səsli insanın göstərişiylə Qaraxanovun avtomobilini silkələməyə başladılar. "İrəli sürsəm, günahsız insanları vuracağam, yaxşısı budur, geriyə qayıdaraq KQB-yə başqa yolla gedim" təhliliylə Qaraxanov hadisə yerini tərk etməyə nail oldu. İyirmi dəqiqədən sonra o, arxa qapıdan DTK-nın binasına daxil oldu. Girişdə Qaraxanov Riyad Əhmədovla üz-üzə gəldi:

- Sən də mitinqçilərə görə arxa qapıdan binaya girirsən?

- Nə mitinq, ay Riyad? Düzü, binanın ön tərəfində insanların yığışmasını müşahidə etdim, amma nə məsələ olduğunu anlamadım...

- Bir qrup mitinqçidir. Başlarında gördün kim durub?

- Fikir vermədim. Elə bildim bizimkilərdi, hansısa tədbirə getməyə hazırlaşırlar. Kim idi?

- Xəlil Rza, hörmətli şairimiz!

- Hər şeyi başa düşürəm, Riyad. Amma Xəlil Rzanın bizdən nə istədiyini anlamıram.

- Nə istəyəcək, elli? Qarabağı. Onu başa düşmək olar. Ziyalımızdır. Elə bilir, boş-boşuna oturmuşuq burada, vətənimizin dərdlərilə maraqlanmırıq.

- Yazıq nə etsin? Kənardan baxana fəaliyyətimiz o cür görünür da.

- Nə cür?

- Yəni bizim təşkilatın maraq dairəsində Vətən deyil, ancaq sovet Respublikasıdır. Daha bilmirlər ki, yarım saat bundan qabaq ölə də bilərdim.

- Nəsə baş verib, elli?

- Heç! Bir qrup insan "Baksovet"də önümü kəsib maşından endirmək istəyirdi. Birtəhər aradan çıxdım.

- Bu, başlanğıcdır. Allah bizləri axırından qorusun. Yenə səninlə söhbətimiz baş tutmadı. Qalsın gələn dəfəyə. Mən tələsirəm. Rəis gözləyir.

- Hələlik, Riyad. İnşallah, görüşərik.

Riyadla ayaqüstü söhbətdən sonra Elçin rəisi İsmətovun kabinetinə tərəf yönəldi. İçəri daxil olduqda Xəzər müəllim təəccüblə ona sual verdi:

- Qaraxanov? Buralarda nə işin var?

- Yoldaş İsmətov, mən sizə məlumat vermişdim axı, iki saat ərzində "Seda" ilə görüşüm olacaq.

- Bilirəm. Sualım odur ki, buralarda nə gəzirsən? Mərkəzi Komitənin önündəki mitinqçilər arasında hərc-mərclik yaranıb. Qonaqlarımız təhlükə ilə üzləşiblər.

- Bəs dediniz ki, mənim yerimə Rasimi göndərəcəksiniz...

- Rasimi Ali Sovetin binasına göndərmişəm. Orada da vəziyyət gərgindir. Vəzirovun orada olduğunu öyrənən mitinqçilərin bir qismi o tərəfə gediblər.

- Xəzər müəllim, gizli yardımçımız "Seda" ilə görüşmüşəm. Artıq Ermənistan kəşfiyyatı Bakıda təxribatlar, iğtişaşlar törətmək üçün fəaliyyətə keçib.

- Elçin, birinci katib və qonaqların həyatı təhlükədə ola bilər. Bilirsən, bu nə ilə nəticələnər?

- Vallah, onlara heç nə olası deyil. Bizim xalqın adət-ənənəsində qonağı incitmək yoxdur.

- Bəs Vəzirov?

- Əbdürrəhmanı özündən başqa incidən yoxdur. Bir sözlə, istədim sizinlə "Seda"nın yazdığı məlumatı müzakirə edəm. Amma, görünür, rəisimi daha çox Vəzirovun taleyi maraqlandırır.

- Vəzirov, qeyrisi... məni maraqlandıran üzərimizə qoyulmuş vəzifədir.

- Xəzər müəllim, məlumatı verirəm sizə. Özünüz oxuyub qərara gəlin. Məncə Vəzirovun da, qonaqların da taleyi "Seda"nın yazdıqlarından asılıdır.

- Oxuyaram. Sənsə... xidmətinə qayıt. Bir saatdan bir Mərkəzi Komitə ətrafında yaranmış vəziyyətlə bağlı məni məlumatlandır.

- Oldu, rəis. İcazənizlə, mən getdim.

Mərkəzi Komitənin binasına çatanda Qaraxanov giriş qapısının ağzında "Xalq cəbhəsi" hərəkatının fəallarından olan Etibar Məmmədovun qışqıraraq mitinqçiləri sakitləşdirməsini gördü. Kütlə çarəsizlikdən Primakovun üzərinə gedərək Dağlıq Qarabağ haqqında, ermənilərin vəhşiliyi barədə suallarına cavab istəyirdi. Lakin Yevgeni Maksimoviçin millətin suallarına cavab verməyə nə arqumenti, nə də ki, istəyi var idi. Durumun gərginləşəcəyini duyan Qaraxanov birtəhər kütlənin arasından Primakovun yanına yetişərək Etibar Məmmədovun yardımı ilə onu qapıdan içəriyə salmağa nail oldu. Birinci katibin köməkçiləri vasitəsiylə Primakov digər yüksək vəzifəli qonaq Qirenko ilə bərabər Əbdürrəhman Xəliloviçin kabinetinə yola salındı. Bayıra çıxanda Elçin Mərkəzi Komitə binasının böyründə tənha qalmış Qorelovskiylə üzləşdi. Tütün iyindən uzaq gəzən İvan İvanoviç damağında siqaret naəlac vəziyyətdə donub yerində qalmışdı. Nə edəcəyini bilmirdi. Qaraxanov ona yaxınlaşıb KQB-nin binasına çatdırılmasını təklif etdi. Qorelovski istədi ki, Qaraxanovun kimliyi barədə soruşsun, lakin ani olaraq özünə gəldi:

- *Я вас узнал. Вы из 75-й дивизии?*

Qorelovski sözlərini düzgün ifadə edirdi. Həqiqətən, Elçini ali məktəbə oxumağa göndərən Mamedov Naxçıvan şəhərində yerləşən 75-ci diviziyada xüsusi şöbənin rəisi idi. Nədənsə, bu fakt qəflətən Qorelovskinin yadına düşdü:

- Это вы в Москве привозили ко мне домой нахчыванский лаваш и виноград?

- Да, Иван Иваныч, я тот самый нахчыванец, которых не любит ваш Везиров.

- За что не любит?

- Так, вы у него спросите. И вообще, видите, что здесь творится? Ведь, в бытность вашего председательствования в КГБ Азербайджана, мы писали вам сотни справок. А вы так и ничего не предприняли.

Bu sözlərdən sonra Qaraxanov mitinqçilərin onlara tərəf yaxınlaşdığını müşahidə edərək Qorelovskini Mərkəzi Komitənin binasının yanında yerləşən mehmanxanaya yola saldı.

Elçin İvan İvanıçla söhbətin "tüstüsünün" DTK-dan çıxacağına əmin idi. Elə də oldu. İki saatdan sonra Fuad Qaraxanova yaxınlaşaraq şöbə rəisi Mirzoyevin qəbuluna dəvət edildiyini bildirdi. Yarım saat keçməmiş Qaraxanov Vladimir Adiloviçin kabinetində Qorelovskilə apardığı "millətçiyönümlü" dialoqun məğzini anladırdı. Mirzoyev heç bir səbəb gətirmədən Elçini Mərkəzi Komitənin binasındakı xidmətdən kənarlaşdırdı. "Əla oldu, mənə mühafizəçilik lazımdı?" sözlərini beynində çək-çevir edib Qaraxanov yarımçıq qalmış əməliyyat işlərinin icrasına qayıtdı.

Axşama yaxın bölmə rəisi Elçini kabinetinə dəvət etdi. Qaraxanovun Qorelovskilə söhbətindən Xəzər müəllimin

də xəbəri var idi. Lakin o, çox dərinə getməyərək Elçinə yoldaş Sadıxovun əmrini çatdırdı:

- Yəqin ki, Elçin, Naxçıvanın İranla sərhədində nə baş verdiyindən xəbərin var?

- Bəli, Xəzər müəllim. Nemət Pənahovun təşəbbüsü ilə sərhəddəki qurğular sökülməkdədir.

- Bu səbəbdən də səni kabinetimə dəvət etmişəm. Bilirsən, ya yox, Rafiq Əliyeviç Naxçıvandadır. Onun göstərişiylə sən də muxtar respublikaya ezam edilirsən.

- Mən? Nə üçün, Xəzər müəllim? Sərhəddəki qurğuları bərpa edəcəyəm?

- Elçin, zarafatın yeri deyil. Orada da vəziyyət gərgindir. Sərhəd SSRİ-nin hüdudlarıdır. İşə Moskva qarışıb...

- Maşallah! Nə tez qarışdı? "Axırıncı aşırım" filmində Kərbalayı demişkən, Ermənistanda soydaşlarımızı qırdılar... Moskva dinmədi, Dağlıq Qarabağ əlimizdən çıxdı... Mərkəz ağzına su alıb durdu, ermənilər bizimlə müharibəyə başlayıb, özü də Sovet İttifaqı hüdudlarında... yenə də "başbilənlər" səslərini çıxarmırlar...

- Qaraxanov, bunların nəyini mənə anladırsan?

- Sadəcə ürəyimi boşaldıram.

- Əgər boşaltdınsa, sabah səhər Naxçıvana uçursan, iki gün Sadıxovun sərəncamındasan.

- Aydındır, rəis! Sabah oradayam.

Bir tərəfdən Qaraxanov Naxçıvan səfərinə görə Rafiq Əliyeviçə minnətdar idi. Çoxdan idi ki, Elçin valideynlərini görmürdü. Digər tərəfdən isə Bakıda siyasi durumun gərginliyi özünün ən yüksək zirvəsinə çatmışdı. Belə bir

şəraitdə Qaraxanovun əməliyyat fəaliyyəti cüzi də olsa paytaxt sakinlərinə fayda verə bilərdi. Lakin əmrə itaət hər bir zabitin borcudur.

Ertəsi gün Naxçıvana çatan Qaraxanov aeroportdan birbaşa muxtar Respublika DTK-sına tərəf istiqamət götürdü. Sədr İsfəndiyar Mirzəyevin kabinetində Sadıxov və Moskvadan təşrif buyurmuş KQB generalı Şironin nəyisə ciddi müzakirə edirdilər. Elçini gördükdə Rafiq Əliyeviç vaxt itirmədən onun İliç rayonuna gedəcəyini bildirdi:

- Elçin, dövlət sərhəddinin İliç rayonundan keçən hissəsindəki qurğular sökülüb-dağıdılıb. İran vətəndaşları kütləvi şəkildə bizim tərəfə, bizimkilər isə nəzarətsiz o tərəfə keçirlər. Sənin vəzifən yalnız oradakı şərait barədə məlumat toplayıb bizə məruzə etməkdən ibarətdir.

- Vəssalam?

- Heç nəyə qarışmaq lazım deyil.

Söhbətə general Şironin də müdaxilə etdi:

- Вы, наверное, в курсе, что все пограничное оборудование было снесено представителями "Народного фронта" во главе с неким Панаховым?

- Да, в курсе, товарищ генерал.

- Так вот, по мере возможности, нужно установить его местонахождение.

Şironinin bu məntiqsiz tələbinə Qaraxanov tutarlı cavab vermək üçün bir neçə variantı təhlil etdi. Lakin Qorelovskilə mübahisəsini və "əskisinin yanıq" olduğunu xatırlayaraq cəmi bir söz izhar etdi:

- Есть!

Sadıxov Qaraxanovla birlikdə aşağı enərək bir daha göstərişlərini ona izah etdi:

- Qəti heç bir məsələyə qarışma. Gün ərzində iki dəfə mənimlə əlaqə saxlayıb vəziyyəti izah edərsən.

- Bəs Şironin Nemət barədə nə deyirdi? Məgər xəbəri yoxdur ki, Pənahov İrandadır?

- Var! Niyə də olmasın? Sadəcə səni yoxlayırdı. Yaxşı ki, artıq-əskik danışmadın. Naxçıvana kimi gəlib çıxıblar. Addımbaşı fəaliyyətimizə nəzarət edirlər.

- Vallah, Rafiq Əliyeviç, Naxçıvana ezam edilməyim hələ də mənə çatmır.

- Belə məsləhətdir. Qorelovski bir-iki günə qayıdacaq Moskvaya. Yəqin ki, məni anladın. Ayaqüstü evinizə baş çək, sonra da rayona çıx. Sənə bir saat vaxt verirəm.

- Başa düşdüm, Rafiq Əliyeviç. Narahat olmayın. İki saatdan sonra sərhəddəyəm.

Mərkəzi Televiziya jurnalistlərinin boğazlarını yırtmağına baxmayaraq, sərhəddə heç bir fövqəladə hadisə baş vermirdi. Nə İrandan Naxçıvana, nə də ki, əks istiqamətdə kütləvi şəkildə dövlət hüdudlarının pozulması faktları qeydə alınmadı və alına da bilməzdi. Əsrlər boyu Vətənindən ayrı düşən soydaşlar Araz çayının hər iki sahilinə toplaşaraq salamlar göndərir, qohum-əqrəbaları barədə suallar verir, bir-birini kəndlərinə qonaq dəvət edirdilər. Başqa xalqlarla müqayisədə azərbaycanlılar nizam-intizama, qanun-qaydaya aludə insanlardır. Hakimiyyətə, iqtidara hörmətlə yanaşan azərbaycan xalqı ipə-sapa yatmağa da qadirdir. Ona görə də doxsanıncı ilin sərt yanvar ayında

Azərbaycan Respublikasına qarşı atılan hər cür böhtanlar sabun köpüyü kimi əriyib yox olurdu.

İliç ezamiyyətinin nəticələri barədə məruzə etmək üçün Qaraxanov Naxçıvan şəhərinə qayıdıb DTK-nın binasına daxil oldu. Orada onu Şironin və Sadıxov gözləyirdi. Elçin gözəl anlayırdı ki, Naxçıvana Qorelovskinin səyi nəticəsində ezam olunub, daha doğrusu, Bakıdan uzaqlaşdırılıb. Buna görə də, Qaraxanovun sərhəd haqqındakı məruzəsi rəhbərlik üçün əhəmiyyət kəsb etməyəcək. Axşam qonaqlığından sonra dili hələ də topuq vuran və kəskin araq iyi verən rus generalı Elçini sorğu-suala tutdu:

- Ну что, старший лейтенант? Как прошла командировка?

- Все прошло удачно, товарищ генерал. По вашему приказу отследил обстановку на границе.

- Как там? Перебежчиков много было?

- На моем участке пограничниками были замечены 5-6 нарушителей границы. И то, по взаимной договоренности они были переданы соответствующим структурам. Никаких претензий со стороны сопредельного государства к нам не поступало.

- С твоих слов, можно прийти к единственному выводу: все предельно чисто и гладко.

Moskvada beş il ərzində təhsil alan Qaraxanov bu tip generalların xasiyyətinə yaxşı bələd idi. Elçin Şironinin ayaqları altında böyük araq qutusunu çoxdan müşahidə etmişdi. Onun ağzından gələn araq iyindən içkisinin dozasını müəyyən etdikdən sonra Elçin generalın sualına tutarlı cavab tapdı:

- Товарищ генерал, там настолько все чисто и гладко, что прекрасная природа и холодная погода кличут о единственном действии. Надеюсь, вы меня поняли.

- Молодец, Караханов. Не зря в Москве учился. Короче, ты собирай вещи и вернись в Баку. Можешь вечерним рейсом, дабы с родителями немного посидеть. А мы с вашим председателем Исфандияром едем в Ильичевский район.

Məruzədən sonra Elçin Rafiq Əliyeviçlə xudahafizləşərək DTK binasını tərk etdi. Arxasınca isə İsfəndiyar Mirzəyevin məzlum səsini eşitdi: ay Elçin, saldın məni bu "pyaniskanın" tələsinə!

Həmin günün gecəsi Qaraxanov Bakıda xalasıoğlu Vaqifin "Xutor"dakı evində anası Naibə xalanın onun yoluna qoyduğu dadlı yeməkləri dostları ilə bölüşürdü.

Növbəti gün - yanvarın beşində Qaraxanovu yuxudan qonşuların səsi oyatdı. Dizə qədər qar yağmışdı. Qonşular qapının ağzını qardan təmizləyirdilər ki, bayıra çıxa bilsinlər. Nə avtobus marşrutları, nə də ki, taksilərin izi-tozu var idi. Komitəyə isə vaxtında çatmaq gərəkdi. Elçin yolu piyada qət edərək tez-tez ətrafına nəzər salırdı ki, bəlkə, qarşısına hər hansı bir ağır maşın çıxar. Elə də oldu. Prospekti qardan təmizləyən traktorun sürücüsü tənhalıqdanmı, dərddənmi avtomobilini saxlayıb Qaraxanovun canını çətin yürüşdən qurtardı.

Yarım saatdan sonra Elçin Xəzər müəllimin kabinetində ezamiyyətinin nəticələrini anladırdı. Bayıra çıxdıqda, dəhlizdə onu Elcanın gözlədiyini gördü:

- Eşitdim, diyarında ezamiyyətdə idin?

- Elədir ki var, qardaş. Gecə qayıtmışam.

- Yadında, Elçin, Danilenko zorla səni Naxçıvana göndərmək istəyirdi e, birdəfəlik?

- Yadımda, Elcan.

- Bəs sən ona nə cavab verdin?

- Yadımdan çıxıb...

- Sənin ha? Yadından çıxıb? Heç inanmıram!

- Dedim ki, Naxçıvanın havası mənə düşmür.

- Yadında? Öldük gülməkdən. Sən demə, Naxçıvanda doğulan, boya-başa çatan Elçinə oranın havası düşmürmüş! Bir sözlə, xoş qayıtmısan. Səninlə problemi həll etməliyik...

- Nə məsələdir, Elcan?

- Sarumyan!

- Nə olub ona?

- Hələlik heç nə olmayıb. Amma çox qorxuram. Bakıya diversion qruplar atılıb. Ermənilərə qarşı təxribatlar törətməlidirlər. Mənə söylədiyin məlumatları bizimkilər də təsdiq etdi. Qrupların rəhbərləri xaricdən idarə olunur. Aranı qarışdırmaq, iğtişaşlar törətməklə məşğuldurlar. Hətta ikisini ələ keçirmişik. Erməni aksentilə danışırdılar...

- Bir sözlə, Sumqayıtdakı hadisələri paytaxtda törətmək fikrindədirlər?

- Elədi ki, var, Elçin. Sarumyanın bilirsən də, bizə çox yaxşılıqları keçib. Erməni diasporlarının təxribatları barədə çoxlu qabaqlayıcı məlumatlar əldə edib və daha nələr.

- Bilirəm, Elcan. Məndən nə tələb olunur?

- Mən bölmə rəisimiz Yaqub Davudoviçə məruzə etmişəm. Etirazı yoxdur. Bu gecə Sarumyanı ailəsilə birlikdə evindən çıxarıb gəmiyə mindirməliyik. Oradan da Mahaçqalaya...

- Aydındır, qardaş. Madam ki rəhbərliyin göstərişidir, yola salaq. Özü də gecə şöbədə növbətçi mənəm. Bu barədə Xəzər müəllimə məruzə edərəm.

- Gecəyarı maşınımla gələcəyəm dalınca. Hər ehtimala qarşı Aleksandr Rojnıyı da özümüzlə götürək. Şəhərdə çoxlu hərbçilər peyda olub. Nə olar, nə olmaz, Saşa onların zəbtini alacaq.

- Başa düşdüm. Saşa mənimlə növbədə olacaq. Vəziyyəti ona anladaram.

- Yaxşı, hələlik.

Elcan Elçinin kabinetini yenicə tərk etmişdi ki, otağa Buğdəliyevlə Məlikov daxil oldular. Qaraxanov dostlarını səmimi qarşıladı. Ancaq heç birinin hövsələsi yox idi. Hər zaman zarafatlarından geri qalmayan Məhərrəm və Nurməmməd salamsız-sabahsız, qəmli-qəmli Elçinə suallar verməyə başladılar:

- Qardaş, bizim axırımız nə olacaq?

- Nə olmağını bilmirəm, Məhərrəm, amma vəziyyət həddindən artıq gərgindir. Birdə ki sənin Bakıda nə işin var? Yəni, Şamaxıda bütün problemləri həll etmisən ki, paytaxta gəlmisən?

- Şamaxıda sakitlikdir. Rəisdən icazə almışam. Dedi ki, rayonda vəziyyət sabitdir. Ola bilsin ki, Bakıda əməliyyatçılara köməyin dəysin. Bu səbəblə məni şöbənizin sərəncamına göndərdi.

Nurməmməd:

- Məni də Rauf göndərdi. Rəisinizə vacib arayış gətirmişdim. Bir azdan qayıdıram. Dedim, sənə də baş çəkim. Bir sözün-tapşırığın varmı?

Elçin:

- Təşəkkürlər, Nurməmməd. Raufa salamlarımı yetirərsən. O, qardaşdır. İndiyədək nə xahiş etmişəm, yardımını əsirgəməyib.

Məhərrəm sağollaşmaq istəyirdi ki, nəsə yadına düşdü, ayaq saxladı:

- Onu da sənə deyim, Elçin, bir həftə bundan qabaq Qəbələdəydim. Radiolokasiya stansiyasında xidmət edən əsgərlərin sayı artırılıb. Qəbələnin bazarları, çayçıları, nəqliyyat dayanacaqlarında onların əlindən yer yoxdur. Hətta aralarında erməni dilində danışan gizirləri də müşahidə etmişəm.

- Bilirəm, Məhərrəm. Doluşublar Azərbaycana. Bizim KQB də geri qalmır. Moskvadan "Alfa" qrupunun əməkdaşları da buradadır, yuxarı mərtəbələrdə. Aralarında bilirsən, kim var?

- Yox, haradan bilim?

- İsmixan.

- Hansı İsmixan, Elçin?

- İsrafilov İsmixan. Məndən bir kurs yuxarı. "Kontujenni" ilə bir kursda oxuyan.

- "Kontujennı"... yəni, Fazillə?

- Hə da, Məhərrəm.

- Onu kim bura göndərib?

- Deyilənlərə görə, bir-iki dəfə paraşütdən tullanıb...
- Buna görə "Alfa" qrupuna qəbul edirlər?
- Ruslara nə var, e! Əsas odur ki, İsmixan metisdir. Yəni, anası rusdur. Vəssalam.
- Başa düşdüm, Elçin. Mən Volodya müəllimin yanına dəyim və qeydiyyatdan keçim. Yoxsa elə qələmə verərlər ki, guya aradan çıxmışam.
- Gedə bilərsən, Məhərrəm. Axşam növbədəyəm. Vaxtın olsa, baş çəkərsən.
- Oldu, dostum.

Əvvəlcədən danışıldığı kimi gecə saat on ikidən sonra Elcan Elçinlə Saşanı götürərək Sarumyanın "Ermənikənddə" yaşadığı mənzilinə yollandılar. Gecəyarısı olduğuna baxmayaraq, şəhərin küçələrində gənclər dolaşmaqda idilər. Elcan maşınını saxlayıb bir-iki nəfərdən bayırda gəzmələrinin səbəbini də soruşdu. Gənclər isə "Məhəllələrimizdə şübhəli insanlar dolaşmaqdadır. Hətta onlardan bəziləri ermənilərin yaşadığı mənzillərlə də maraqlanırdılar" cavabını verib keşiş çəkməyə davam etdilər. Elcan "görürsən, Elçin, gizli yardımçılarımızın verdiyi məlumatlar öz təsdiqini tapır" sözlərilə Sarumyanın yaşadığı ünvana üz tutdu.

Təxminən gecə saat birdə Elcan Alikin mənzilinə daxil oldu. Saşa ilə Elçin isə kənarda durub həm Elcanı sığorta etmiş, həm də məhəllədəki vəziyyəti nəzarətə götürmüşdülər. Elcanın Sarumyanın ailəsilə birgə bayıra çıxmaları ərəfəsində Elçin ətrafdakı on-on beş nəfərlik qrupla rastlaşdı. Özünü qrupun "lideri" kimi aparan iyirmi səkkiz-

otuz yaşındakı cavan həmən Elçin və Saşa ilə ünsiyyətə girdi:

- Gecəniz xeyir, yoldaşlar!

Saşa Elçini qabaqlayaraq “liderin” salamına rus dilində cavab verdi:

- Здравствуйте, товарищи. А что вы здесь делаете в такой поздний час?

Cavan oğlan çaşıb yerində qaldı. Bir neçə saniyədən sonra özünə gəlib təmiz rus dilində Saşaya cavab verdi:

- А вы русский?

- Ну, да. Настоящий Мингечаурский русский. Какие-то проблемы?

Elçin “liderin” vücudunda təşviş hissini müşahidə etdi. “Yüz faiz onlardan biridir. Yaxşı düşdün əlimizə, alçaq” sözlərini ürəyində təkrarlayaraq ona sual verdi:

- Demədin axı, sən kimsən və gecə vaxtı buralarda nə işin var?

- Mən Ermənistan qaçqınıyam. Orada bütün ailə üzvlərimə işgəncə verdikdən sonra qovdular. Bakının küçələrində “daşnak” axtarıram ki, qisasımı alım.

- Bir dəqiqə dayan, e. Sən bilirsən, biz kimik?

- Haradan bilim. Yəqin siz də ermənilərin axtarışındasınız?

Bu məqamda Saşa Elçini kənara çəkərək cavan oğlanın Azərbaycan dilində aksentlə danışdığını söylədi:

- Mən də eşitdim, Saşa, təxribatçıdır. Bunu maşına basıb DTK-ya aparmaq lazımdır.

- Mümkün deyil, Elçin.

- Niyə?

- Sol tərəfə bax hələ, yavaş-yavaş adamları yığışır. Allahına dua et ki, Elcan Sarumyanın ailəsiylə bayıra çıxmasın. Yoxsa qan töküləcək.

- Düz deyirsən, Saşa. Onda sən bunların başını qat, mən də Aslanovun yanına qalxım və oradan şəhər telefonu ilə bizimkiləri yardıma çağırım.

- Ağıllı fikirdir. Elcana de ki, biz işarə vermədən Sarumyanın ailəsini bayıra çıxarmasın.

Yarım saat ərzində "lideri" söhbətə tutan Saşa öz məqsədinə çatdı. Elçin Fuadla əlaqə saxlayıb müstəntiq Ədalət Cəfərovun da tərkibində olduğu əməliyyatçıların özlərini vaxtında hadisə yerinə çatdırmalarına nail oldu. Qrupun "lideri" DTK-ya aparıldı. İlkin təhqiqat zamanı məlum oldu ki, saxlanılan şəxs guya erməni zülmündən qaçıb canını qurtaran Karmen Əli oğlu Allahverdiyevdir. Bir neçə saatdan sonra Allahverdiyev Ermənistan xüsusi xidmət orqanları ilə əməkdaşlıq etdiyini boynuna alaraq onlardan Bakıda erməni əsilli vətəndaşlara xəsarət yetirmək, yeri gəldikdə isə bu insanları öldürmək tapşırığı aldığını söylədi.

Ermənistanın Leninakan rayonunda doğulmuş Karmenin anası Anjela Qdlyan uzun müddət DQMV-nin Hadrut qəsəbəsindəki şərab zavodunda işləmiş və orada Əli Allahverdiyevlə ailə həyatı qurmuşdu. On iki illik evlilikdən sonra boşanmış və Karmeni də götürüb doğma şəhəri Leninakana qayıtmışdı. Erməni şovinizmi və türklərə qarşı nifrət ruhunda tərbiyə alan Karmenin Bakıda nələr törədə-

cəyi artıq hamıya bəlli idi. Eyni zamanda, KQB-nin digər əməkdaşları tərəfindən paytaxtın Kirov rayonunda iğtişaşlara səbəb olacaq təxribat qrupunun "lideri" Kazımov Suren Qənimətoviç də həbs edilərək istintaq şöbəsinə təhvil verildi.

Alik Sarumyanı gəmiyə mindirdikdən sonra Elcan gülümsəyərək üzünü Elçinə tutdu:

- Məndən sənə ancaq xeyir gələr. Diversantları məhv etdik.

- Zərərsizlədirməyinə zərərsizləşdirdik. Amma yenə narahatam, qardaş. Belə qruplar çox güman ki, Azərbaycanın bir neçə şəhərində fəaliyyət göstərir.

- Təklifim budur, daşnaklarla mübarizə aparmaq üçün geniş tərkibdə əməliyyat-istintaq qrupunun yaradılması üçün DTK sədrinin ünvanına məktub yazaq.

- Səninlə tam razıyam, Elcan.

- Sən necə, Saşa, bizi dəstəkləyirsən?

- Əlbəttə! Həmişə ağıllı ideyaların tərəfdarı olmuşam.

Təqribən səhərə yaxın, saat dörd radələrində Elcan Saşa ilə Elçini DTK binasının önündə düşürüb evinə qayıtdı. Kabinetindəki masanın üstündə gecələyən Elçin səhər saat ona yaxın yuxudan ayılmışdı ki, qarşısında İsraili gördü:

- İsrail, sən lap erməni diversantına oxşadın. Evin tikilsin, səhər-səhər mənim otağımda nə gəzirsən?

- Elçin müəllim, saat on birə işləyib e. Dedim, savab iş görüm, sizi yuxudan ayıldım. Yoxsa rəis sizi bu vəziyyətdə görsə, danlayar...

- Xəzər müəllim bilmir ki, bütün gecəni əməliyyatda olmuşam? Get işinlə məşğul ol.

- Elçin müəllim, gəlmişdim, sizə şad xəbər verəm.

- Dağlıq Qarabağı qaytarmışıq?

- Xeyr, mənə leytenant rütbəsi veriblər.

İsrail Elçini nə qədər əsəbləşdirsə də, Qaraxanov onun həyatında əlamətdar hadisə baş verdiyini nəzərə alıb özünü sakitləşdirə bildi:

- Təbrik edirəm. O gün olsun ki, general-leytenant rütbəvi yuyaq. Əminəm ki, təkcə bu xəbərə görə yanıma gəlməmisən?

- Elədir ki, var, Elçin müəllim. Bu dəfə də əmimin nəvəsi çətin vəziyyətə düşüb.

- Nə deyim, vallah, ölkə əldən gedir sənsə imtahan-zaçot hayındasan. Hansı institutda oxuyur?

- "APİ Axundovda!"

- Nə oldu, İsrail? Mən belə anladım ki, sənin bütün tayfa-tuluğun əməliyyat təminatımda olan institutlarda oxuyur.

- Belə çıxır da, yoldaş Qaraxanov.

-Yaxşı, qohumun barədə məlumatları mənə ver. Axşam dekandan onun xahişini edərəm. Ümidvaram ki, o da Nyutona bərabər tələbədir. Sadəcə qədrini bilmirlər.

- And içmirəm, amma dediyiniz kimidir.

- Narahat olma, problemi həll edəcəyəm. Gedə bilərsən.

- Əvvəlcədən təşəkkür edirəm, Elçin müəllim.

Qaraxanovla Rojnı aşağıya enib səhər yeməyinə başlayarkən pəncərədən DTK binasının önündə insanların top-

laşdığını gördülər. Yoldaşlarının hadisələrə marağını hiss edən əməliyyat növbətçisi Dəmirov sakitcə "yenə Xəlil Rza tərəfdarları ilə binamızın qabağında piket keçirir" – söyləyib yenicə üstünə kərə yağı çəkdiyi çörək dilimini ağzına apardı.

- Bakıda hadisələr axarından çıxıb. İqtidar öz hayında, əhali öz vayında.

- Hamı inersiya ilə hərəkət edir, Qaraxanov. Nə bizim sədrdən, nə də ki, Vəzirovdan bir xəbər var.

- Görəsən, bunlar nə ilə məşğuldurlar, Saşa? Bədbəxt əməliyyatçılarımız sanki özbaşına fəaliyyət göstərirlər, hərəsi bir diyarda. Kimiləri vətəndaşları sakitləşdirir, kimiləri xaricdən və daxildən təşkil edilən təxribatların qarşısını alır, kimiləri də gözləmə mövqeyi tutub...

- Deyirsən, tək bizdə belədir? Dövlətin bütün strukturlarında vəziyyət eynidir. Yaxşı ki, vətəndaşlarımızın əksəriyyəti mərd və vətənpərvərdir. Gözləri daim açıqdır. Onlar tərəfindən mütəmadi bizə məlumat daxil olmasa, Azərbaycanımız birdəfəlik məhv olar.

- Düzdür, qardaş. Sağ olsunlar! Əzəldən bəri bütün ağırlıq, məsuliyyət, dirənmə xalqın üzərində olub. Sən də, mən də onlardan biriyik. Fəxr etməliyik bununla.

Səhər yeməyindən bir neçə dəqiqə sonra bölmənin əməkdaşları Xəzər müəllimin kabinetində iclasa yığışdılar. Gündəm çox həyəcanlı idi. Xəzər İsmətov əməliyyatçıları salamlayaraq əsas məsələyə keçdi:

- Artıq Bakıda ermənilərin sıx yaşadığı ərazilərdən bəd xəbərlər gəlməyə başlayıb. Əsasən qaçqınlardan ibarət qruplar ermənilərin mənzillərini zəbt eləməyə başlayıblar.

Fuad:

- Zəbt edəcəklər də, Xəzər müəllim. Qışın bu günündə Ermənistandakı isti ocaqlarından döyülərək qovulublar və neçə aydır vaqonlarda, zirzəmilərdə, vağzallarda çətin həyat sürürlər. Nə etməlidirlər?

İsmətov:

- Başa düşürəm, Fuad. Bu məsələləri yuxarıdakılar vaxtında, düzgün həll etsəydilər, bu qədər acı nəticələrin şahidi olmazdıq. Bunu bilirik. Lakin bizə qalan iğtişaşların, törədilə biləcək ölüm hadisələrinin qarşısını vaxtında almaqdır.

Elçin:

- Necə alacağıq? Buna qüvvəmiz yetməyəcək. Bu gecə küçələrdə Ermənistanda ana-bacılarını, qardaşlarını, yaxınlarını itirmiş və gözlərini qan örtmüş cavan qaçqınları gördüm. Kimin nə hünəri var onlara söz desin? Hələ, erməni diversant və təxribatçılarını demirəm...

Fəxrəddin:

- Növbə zamanı divesantlarla üzləşmisiniz?

İsmətov:

- Həm də bu məsələyə görə sizi toplamışam, Fəxrəddin. Gecə növbəsində olarkən Elçin, Saşa və ikinci şöbənin əməkdaşı Elcan Aslanov Ermənistan KQB-sinin Bakıya göndərdiyi bir nəfər təxribatçını zərərsizləşdiriblər. Gəlin onlara minnətdarlığımızı bildirək.

- Nə olsun, Xəzər müəllim? Bu dəqiqə paytaxtımız və digər böyük şəhərlərimiz erməni diversantları ilə doludur. Vaxt ikən onları ərazimizə atıblar. Artıq məkrli fəaliyyətlərinə başlayıblar, – deyə Elçin məmnunsuzluq ifadə etdi.

Saşa da:

- Neçə dəfə rəhbərliyə təkliflər verdik ki, qaçqınları Dağlıq Qarabağın ərazisinə göndərsinlər. Sözlərimizə məhəl qoysaydılar, belə bir çıxılmaz vəziyyətə düşməzdik. Rəhbərlik nə etdi? Bütün qaçqınları Bakıda, Sumqayıtda, Gəncədə yerləşdirdi. İndi də əkdiyimizi biçirik,- deyə fikirlərini bildirdi.

İsmətov onları sakitləşdirdi:

- Dedim axı, uşaqlar, olan oldu. İndi bütün qüvvəmizi, vasitələrimizi baş verə biləcək iğtişaşların qarşısının alınmasına yönəltməliyik. Bu işdə bizlərə bütün güc strukturları yaxındanköməklik göstərəcək. Ona görə də əmr edirəm: DTK-nın binasına yalnız gecə vaxtı qayıdacaqsınız. Kazarma vəziyyəti elan edilib. Bütün günü camaatın sıx toplaşdığı yerlərdə keşik çəkəcəksiniz. Hər bir kiçicik hadisə barədə yaxındakı rayon bölmələrimizin vasitəsilə mənə, Vladimir Adiloviçə məruzə edəcəksiniz. Bu qədər. Əgər sualınız yoxdursa, hamı iş başına.

Azərbaycanda siyasi, iqtisadi, sosial durum tamamilə nəzarətdən çıxmışdı. Rəsmi Moskva respublikada milli zəmində iğtişaşların baş verdiyini səbəb gətirərək min doqquz yüz doxsanıncı il yanvarın on beşində Bakıda fövqəladə vəziyyət elan etdi. Respublikanın "başbilənlərini" nə ərazilərin itirilməsi, nə millətin haqlı tələbi, nə də ki ermənilərin azərbaycanlılara qarşı təcavüzü maraqlandırırdı. Onların məqsədi - bacardıqları qədər hakimiyyətdə qalmaq, vəzifədən sui-istifadə etməklə külli miqdarda pul qazanmaq idi.

Hökm etmək Adəm övladının qanındadır. Hökm etmək istəyənlərə isə vəzifə gərəkdir. Vəzifə məfhumu ən çox müsəlman ölkələrində qabardılıb. Hələ uşaq ikən insanlarımız ya prokuror, ya hakim, yaxud da nazir olmaq xəyalında olur. Onlar üçün özünü təsdiq etmək mütləq hansısa kürsüyə, hansısa mənsəbə yiyələnməkdən keçir. Çox nadir hallarda kimsə kosmonavt, yaxud zibil, yaşıllaşdırma və evlər idarəsinin müdiri olmaq istəyir. Çünki kollektivinin üzvlərindən başqa heç kimin üzərində hökm edə bilməyəcək.

Nə qədər ki dünyada hər hansı bir ölkənin iqtisadi durumu aşağı səviyyədədir, orada vəzifə xəyalı ilə yaşayanların sayı o qədər də yüksəkdir. Adamlar pula, ləl-cəvahirətə düşkündür. Vəzifə olmayanda tamah təmin olunmur. Vəzifəni əldə etmiş bəndənin məqsədləri həmin an peyda olur: rüşvət vasitəsilə pul qazanmaq, vaxtilə onun yolunu kəsənlərdən qisas almaq və yalnız sonda dövlətə xidmət etmək. Axırıncı məqsədə qulluq edənlər inkişaf etmiş ölkələrdə mövcuddur, baxmayaraq ki, elə də uzaq olmayan keçmişdə onlar da rüşvət, yaxud qisas almaqdan yan keçməyiblər. Bir sözlə, vəzifə kimi adamı insanlıqdan çıxaran ikinci məfhum hələ də tapılmış deyil. Ən böyük bədbəxtliksə, - Adəm övladlarının əksəriyyətini tarixə salan da elə vəzifədir.

Beləliklə, vəzifə hərisləri Bakıya və Azərbaycanın digər şəhərlərinə qoşun yeridilməsi üçün lazım olan zəmini yaratdılar. Nəticə özünü çox gözlətmədi. Erməni DTK-sının Azərbaycana göndərdiyi təxribat qruplarının səyi ilə pay-

taxtda milli zəmində münaqişə vüsət almağa başladı. Bakının bir neçə nöqtəsindən qeyri-müəyyən qrupların erməni sakinlərə qarşı törətdiyi təxribatlar barədə məlumatların ardı-arası kəsilmirdi.

Respublikanın DTK və DİN əməkdaşları iğtişaşların qarşısını almaq üçün gecə-gündüz fəaliyyətdə idilər. Güc strukturlarına paytaxtın çoxmillətli sakinləri yaxından köməklik göstərirdi. Kimisi erməniləri öz evlərində gizlədir, kimisi də onları dəniz limanından Rusiyanın Mahaçqala şəhərinə yola salırdı.

Dərd gələndə batmanla gəlir. Bütün bunlar azmış kimi, Bakıya müxtəlif istiqamətlərdən yeridiləcək ordu hissələri barədə məlumatlar alınmağa başlandı. Xəbər sürətlə camaat arasında yayıldıqca təkcə vahimə hissini deyil, qəzəbi, inadkarlığı da bəsləyir, eyni zamanda özünü qorumaq instinktini də tətikləyirdi. Paytaxt əhalisi gülləbarandan müdafiə olunmaq üçün əsas yollara ictimai nəqliyyat vasitələrini yığırdı. Vətənpərvər, mərd, mübariz Bakı əhalisi elə düşünürdü ki, avtobus, trolleybus, ağır çəkili tikinti maşınlarının hesabına tankların və zirehli texnikanın həmləsinin qarşısını ala biləcək. Çoxları elə düşünürdü ki, on beş yanvar qərarı kağız üzərində qalacaq. Sovet insanlarının ağlına belə gəlməzdi ki, bəslədiyi qoşun hissələri onların qəniminə çevrilə bilər. Hamı öz işindəydi. Hərbiçilər də vəzifələrini təmkinlə icra etməkdə idi. Sovet ordusunun Bakıda yerləşən hərbi hissələri tam döyüş hazırlığına keçmişdilər.

Bu məlumatlar nəinki xalqa, heç DTK əməkdaşlarına da çatdırılmırdı. Hərbi hissələrdəki qaynaşmaları, gərginliyi, hərəkətliliyi Azərbaycanın Vəzirovçu rəhbərliyi gözəl

bilirdi. Lakin vəzifə hərisliyi vətənpərvərliyi üstələmişdi. Ordu kəşfiyyatçıları şəhərdəki vəziyyətin hər zərrəciyini təhlil edib insanların toplandığı məkanlara, zərif yerlərə zərbə endirməyi planlaşdırırdılar.

Vaqif Hüseynov başda olmaqla DTK rəhbərliyinin mütəmadi toplanmaları əməkdaşlarda şübhələri artırırdı. Lakin onalara hansısa məlumatın verilməsi sanki yasaqlanmışdı. Duruma nəzarət etmək, təxribatların qarşısını almaq, xalqı hərbiçilərin caynağından qurtarmaq əməliyyat işçilərinin öz ümidinə qalmışdı. Onlar yerlərində sakit dura bilmirdilər. Əhali arasında əldə etdikləri məlumatları bir-birləriylə bölüşürdülər. Amma məcrasından çıxan ciddi durumun qarşısını almaq artıq əməliyyatçıların da iqtidarında deyildi. Sovet ordusu rəhbərliyi İttifaqın müxtəlif yerlərindən səfərbər etdiyi əlavə qoşunları gizli şəkildə Bakının vacib ərazilərinə yeridirdi.

Beləliklə, dörd-beş gün içində tərkibində ermənilərin də olduğu ordu hissələri Sumqayıt şəhərinin yaxınlığında yerləşən "Nasosnı" adlanan hərbi aerodroma gətirildi. Hədəf Bakı şəhəriydi. Təbii ki, istər paytaxt əhalisi, istərsə də DTK əməkdaşları nələr baş verəcəyindən bixəbər idi.

***

Qışın oğlan çağında, yanvarın on doqquzunda Elçin həmişəki kimi növbəqabağı dincəlmədən sonra yenə də xidməti yerinə yola düşdü. Paytaxtın mərkəzində yerləşən "Salyan kazarmalarının" önündən keçərkən Qaraxanov oranın giriş darvazasının ağzına yığışan əhalini gördü. O,

çox gözəl anlayırdı ki, bu cür əməllərlə kazarmalardan çıxan ağır texnikanın qarşısını almaq mümkünsüzdür. Sovet ordusu rəhbərlərinin davranışına, xüsusiyyətlərinə, psixologiyasına dərindən bələd olan Elçin insanları oradan uzaqlaşdırmaq məqsədilə taksidən enib kazarmalara tərəf irəlilədi. Yolda onu piketçilər saxlayaraq gəlişinin məqsədini öyrənmək istədilər. Qaraxanov niyyətini başa saldı. Lakin önünü kəsən insanların üzündə dönməzliyi, qüruru, qətiyyəti gördükdə, deyəcəyi sözlərin birmənalı qarşılanmayacağını başa düşdü.

Artıq ox yaydan çıxmışdı. Yeganə çıxış yolu KQB rəhbərliyinin vasitəsilə Vəzirovu və onun əlaltılarını qoşunların Bakıya yeridilməməsi üçün Sov. İKP Mərkəzi Komitəsinə tutarlı məktub göndərməyə vadar etməkdən ibarət idi. Lakin Qaraxanov bilmirdi ki, Əbdürrəhman Xəliloviç artıq ikinci katib Polyaniçko ilə birlikdə Bakını tərk edib. Nəyin bahasına olursa olsun, qoşunlar paytaxta yeridilməli idi – həm azərbaycanlıların dərsini, həm də digər müttəfiq respublikalara göz dağı vermək üçün.

Axşam saat səkkiz radələrində respublika DTK-sının əməliyyat növbətçisinə Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin ərazisində partlayış törədilməsi barədə məlumat daxil oldu. On dəqiqədən sonra istintaq şöbəsinin rəisi Rüfət müəllim, Elçin və Məmmədəli təxribatın səbəbini və nəticələrini araşdırmaq üçün Teleradio Komitəsinin ərazisinə daxil oldular. Televiziyanın əməkdaşları ilə aparılmış sorğu nəticəsində müəyyən edildi ki, təxminən iki saat əvvəl əraziyə slavyan simalı hərbçilər daxil olmuş

və enerji blokunun yerləşdiyi yerlə maraqlanmışdılar. Məmmədəli Rüfət müəllimin üzünə baxaraq qüssəli şəkildə:

- Hər şey aydın oldu, Rüfət müəllim,-dedi.

- Bəla gözlənilir, Fərəcov. Hər yerdən əlaqə kəsildi. Nə televiziya var, nə də ki, radio işləyir.

Elçin təlaşla əlavə etdi:

- Millət küçələrdədir. Onları mənzillərinə qaytarmaq üçün xəbərdarlıq etməyə vaxtımız və imkanımız da qalmayıb.

Rüfət müəllim həycanlandı:

- Çox güman ki, qoşunlar bu gecə yeridiləcək. Meqafon əldə edib camaatın toplaşdığı yerlərə getməyə də vaxtımız yetərli deyil.

- Bizə yalnız Allaha dua etmək qalır,- deyə Məmmədəli dua edirmiş kimi söhbətə son qoydu

İki saatdan sonra əməliyyatçılar DTK binasına qayıtdılar. Orada hamı təşvişdə idi. Şəxsi heyətin aşağı vəzifəliləri Moskvadan gələn “Alfa” qrupunun zabitləri arasında hərəkətlənməni müşahidə edərək bəd xəbərlərin intizarında idilər. Elçin televiziyanın enerji blokunda partlayış törədilməsi barədə bölmə rəisinə məlumatları verdikdən sonra Riyad və Fuadla birgə kabinetinə daxil oldu. Qaraxanov Riyad Əhmədovun bu qədər narahatlıq keçirdiyini görməmişdi. Riyad televiziya binasında baş verən təxribatla əlaqədar Elçini sorğu-suala tutdu:

- Heç kimi yaxalaya bilmədiniz, Elçin?

- Kim qalmışdı ki orada, hələ yaxalayaq da! Bir-iki növbətçi jurnalisti və mühafizəçini dindirdik. Təəssüf ki, onlar da bizimtək çox cüzi məlumatlara malik idilər.

Fuad kəsik-kəsik nəfəs alaraq pıçıltıya bənzər səslə ürəyindəkiləri söylədi:

- Dostlar, məndə olan son məlumata görə, televiziyadakı partlayışdan sonra "Şamaxinka", "Ukrayna dairəsi" və "Bayıl" tərəfdə cəmləşən qoşun hissələri mövqelərə çıxarılıblar!

Riyad başını bulayaraq:

- Deyirəm da, elli, hücum qaçınılmazdır. Özü də, əliyalın xalqımıza qarşı,-dedi.

Elçin də narahat olduğu qismi açıqladı:

- Səhər-səhər işə gələndə "Salyan kazarmaları"nın qarşısında millətin yığışdığını gördüm. Bəziləri dedi ki, sovet ordusu mülki vətəndaşlara hücum etməyəcək, narahat olmağa əsas yoxdur.

- Bəs sən onları evlərinə niyə göndərmədin?

- Deyirsən da, Riyad! Məni sayan kim idi? Artıq-əskik danışsaydım... adımı təxribatçı qoyacaqdılar.

- Bir sözlə, burada nəyisə müzakirə etməyin yeri yoxdur. Deyirəm, rəhbərlik qarşısında məsələ qaldıraq və muxtəlif yerlərdə toplaşan camaatı evlərinə dağıtmaq üçün reydlər keçirək. Yoxsa axırı faciə ilə nəticələnəcək, - deyə, Fuad fikrini bildirdi.

- Fuad düz deyir, Riyad. Tbilisi hadisələrini yadıva sal. Gürcüləri əsgər "lopatkaları" ilə qovurdular. Nə qədər insan öldü orada! Bizimkilərisə, güllləbaran edəcəklər,- deyə Elçin kədərləndi.

Bu məqamda Elçinin otağına Elcan ilə Saşa daxil oldu. Aslanovun ağarmış sifətindən hansısa bədbəxt hadisənin baş verdiyi oxunurdu:

- Elçin, bu dəqiqə bacım zəng eləmişdi. Onlar "Şamaxinka" tərəfdə qalırlar. Dedi ki, güllə səsləri gəlir.

Elcanın bu məlumatından sonra Qaraxanov Xəzər müəllimin kabinetinə yönəldi. İsmətov yerində yox idi. "Yəqin, Mirzoyevin kabinetindədir" fikriylə Elçin şöbə rəisinin otağına istiqamət götürdü. O, dəhlizdə Vladimir Adiloviçlə üzləşdi. Şöbə rəisi gülümsəyərək Qaraxanova cəmi bir cümlə söylədi:

- Qəti narahat olma! Hər tərəfdən Bakıya sovet qoşunları yeridildi.

Şok vəziyyətinə düşən Elçin ağır addımlarla otağına irəlilədi. Qıraqdan baxan onun sərxoş olduğunu, yaxud da dəlixanadan qaçdığını zənn edə bilərdi. Qaraxanov o vaxt ayıldı ki, İman Abdullayev gözünü ona dikərək uca səslə yeganə sualı təkrarlayırdı: - Ölənlər də var?

Hər yerdən qoşunların şəhərə daxil olması barədə həyəcanlı xəbərlər gəlməkdə idi. Eyni zamanda, yuxarı mərtəbələrdə "Alfa" qrupunun zabitləri dolaşırdılar. Qaraxanov Abdullayevin sualına özünəməxsus tərzdə cavab verdi:

- Məni yandıran qoşunların hərəkəti deyil, Vladimir Adiloviçin sözləridir. Dedi ki, qoşunlar hər tərəfdən Bakıya girdi, narahat olmayın. Narahat ha? Az qaldım yerimdəcə gəbərəm. Bu da mənə deyir ki, narahat olmayım. Vladimir Adiloviç! Başqa nə deməliydi ki? Adı hər şeyi mənə anlatdı.

Saşa ağappaq ağarmış Qaraxanovun çiyinlərindən tutub silkələdi:

- Elçin, özüvə gəl. İtkilərimiz barədə bir söz demədi ki? Mənim gizli yardımçılarım tanklardan, "BTR", "BMP"-lərdən mülki əhaliyə atəş açıldığını söyləyir.

- Yox, Saşa, ancaq gülümsədi.

Əməliyyatçılar qərara gəldilər ki, şəhərin küçələrinə çıxıb vəziyyəti yerindəcə öyrənsinlər. Lakin qapının ağzında Riyadın məlumatı onları fikirlərindən daşındırdı:

- Ay çıxdıq ha! Qəti əmr var ki, binanı tərk etməyək. İndicə əməliyyat növbətçisilə danışdım.

Artıq Bakının hər nöqtəsindən atəş səsləri, küçədə qalan tək-tük insanların qışqırığı, zirehli maşınların tırtıl səsləri DTK-nın da binasına sirayət etməyə başladı.

Hər şey aydınlaşırdı: sovet qoşunları sadə, əliyalın mülki insanların müqavimətini qıra-qıra Azərbaycanın qədim paytaxtını zəbt etməyə nail olurdu. Bakının hər yeri inildəyirdi: sakinləri, binaları, divarları, ağacları, hətta, sakit dalğa və ləpələrilə tanınan Xəzəri də. Azərbaycanın xarici aləmlə bütün əlaqələri kəsilmişdi. Yeganə şəxs "Azadlıq" Radiostansiyasının muxbiri Mirzə Xəzər idi ki, bar-bar bağıraraq respublikada tuğyan edən fəlakət, faciə, qətllər barədə planetimizin əhalisinə bir-iki kəlmə çatdıra bilirdi. Mərkəzin göstərişilə Bakı Radiosunun yayımı bərpa edilmişdi. Lakin o şərtlə ki, Respublika Ali Soveti Rəyasət Heyətinin sədri Elmira Qafarova əvvəlcədən tərtib edilmiş "qınayıcı" bəyanatla sovet ordusunun əməllərinə qarşı çıxış edə bilsin.

Qaraxanov yerində rahat dura bilmirdi. Bir saat əvvəl qardaşı ona zəng etmiş və bildirmişdi ki, Bakının "Şamaxinka" adlanan ərazisində əhali ilə birlikdə sovet əsgərlərinə müqavimət göstərəcək. Xalqın dərdi azmış kimi doğmaca qardaşını itirmək qorxusu da Elçini bir yandan narahat edirdi.

Qaraxanovu fikir götürmüşdü, baxmayaraq ki, o, dəfələrlə meydanlara yığışan xalqı bu qeyri-bərabər döyüşdən yayındırmağa çalışmış, onları təhlükədən uzaqlaşdırmaq istəmişdi, amma heç nəyə nail ola bilməmişdi. İnsanlar illərdir, ürəklərində yığılıb qalmış hissləri çılğınlıqla ifadə etməyə başlamış, kütləvi şəkildə bir-birinin təsirinə məruz qalmış, cəlbedici azadlıq istəyinin cazibəsinə əsir düşmüşdülər. Coşmuş emosiyaların qarşısını heç bir məntiqi proqnozla almaq mümkün deyildi. Şəxsən Elçinin bu barədə baş tutmayan səyləri buna misal ola bilərdi.

Onun soyuqqanlı təkliflərini qorxaqlıq, satqınlıq kimi anlayan cosmus izdihama əsl məramı anlatmaq çətin idi. Qaraxanov bunu təəssüflə qəbul etmişdi. Bəs doğmaca qardaşı? O belə Elçinin rus ordusuna qarşı əliyalın müqavimət göstərməyin mənasız olduğu fikriylə razılaşmamış, coşan hislərinin əsiri olaraq sinəsini rus ordusuna sipər etmişdi.

"Belə olmaz, bu insanları xilas etmək lazımdı, hər şey ola bilər, başqaları olmasa da, bəlkə, öz qardaşım məni eşidər" fikirləri ilə Qaraxanov hərbi "buşlatını" çiyninə alıb DTK binasını gizlicə tərk etdi. Küçələrdə hərəkət edən təktük maşınlardan birini saxlatdırıb "On birinci qızıl ordu" metro stansiyası tərəfə istiqamət aldı.

Artıq hər tərəfdən atəş səsləri gəlirdi. Güllələr binaların divarlarına, pəncərələrinə dəyib dağıdır və sındırırdı. Qaraxanov özünü sanki cəhənnəmin giriş qapısında hiss edirdi. Qardaşının olduğu yerə çatmağına yüz metr qalmış yüngül silahlardan atılan güllələri tank və zirehli ma-

şınlardan açılan atəşlər əvəzlədi. Mərmilərdən biri Elçinin mövqe tutduğu məkanın yanında partladı. O, başını tutaraq yol kənarındakı səkinin dibinə uzandı. Qaraxanovun düşdüyü durum vahiməliydi. Yarımülki, yarıhərbi geyimdə olan Elçin həm Sovet ordusunun, həm də Bakı sakinlərinin hədəfinə çevrilə bilərdi. Belə bir vəziyyətdə o sürünərək ağaclar tərəfə çəkildi. Artıq "Şamaxinkaya" getmək heç bir məna kəsb etmirdi. Qaraxanov yolun kənarına çıxdı və birtəhər fəlakət yerindən uzaqlaşan "Jiqulini" saxlatdı. Sürücü Qaraxanovu yaralı sanıb qoluna girib maşınına oturtdu. "Mən yaxşıyam, narahat olma. Xahiş edirəm, məni DTK-ya çatdır" deyib Nərimanov prospektinə tərəf işarə etdi. Sürücünün sifəti sanki sual işarəsinə dönmüşdü. O, dodaqaltı "Günün bu çağında da DTK-ya gedərlər" deyə giley-güzarla Elçini iş yerinə çatdırdı.

Hələ də qardaşından nigaran qalan Qaraxanova xəbər gecə saatlarında gəldi. Atışmadan çətinliklə canını qurtaran Kamal yaxınlıqdakı polis sahə inspektorunun otağına sığınmış və oradan Elçinə zəng etməyə nail olmuşdu:

- Məndən narahat olma, Elçin. Bir azdan evə qayıdacam...

- Eybi yox, səninlə sonra danışacam!

Nəhayət, İyirmi yanvar gününün səhərisi əməliyyatçıların şəhərə çıxıb vəziyyəti yerindəcə öyrənməsinə icazə verildi. Elçin Rzaqulu ilə birgə əməliyyat təminatlarında olan institutlara yola düşdülər. Şəhərin küçələri əsgər və zirehli maşınlarla dolu idi. Addımbaşı hərbi postlar qurulmuşdu. Hər tində əzilmiş mülki, o cümlədən təcili yardım avtomobilləri, üzərindən tanklar keçmiş avtobus, trolley-

bus və iri kalibrli silahlardan güllə yaraları almış insan cəsədləri var idi. Hər şey Elçinə qorxulu bir yuxu kimi gəlirdi. Sanki bir azdan ayılacaq və həyat öz axarına düşəcəkdi. Necə ola bilərdi, Qızıl ordu onun xalqının qanını necə tökə bilərdi? Dünyanın dinc vaxtında bu ölkənin başını niyə qara buludlar almışdı? Niyə, nəyin naminə dinc sakinlər öz ölkələrində güllələbaran edilmişdi?! Bütün bu cavabsız suallar Elçinin beyninə bıçaq kimi saplanırdı.

Tbilisi prospektində Rzaqulu avtomobilini saxlayıb bayıra çıxdı. Yolun kənarındakı meyitə baxıb Elçinə müraciət etdi, onun səsi tez-tez qırılırdı:

- Mən bu oğlanı tanıyırdım. "Xarici dillər"in beşinci kursunda oxuyurdu.

- Rzaqulu, bu oğlan da mənə tanış gəlir. Deyəsən, "APİ Axundov" üzrə "Xalq cəbhəsi" hərəkatı özəyinin rəhbəri Qulu Nəbiyevdir, -deyə Qaraxanov dəhşətə gəldi.

- Nədən tanıdın, Elçin? Sağ qolu yox, sifətinin yarısını isə güllə aparıb...

- Kaş ki yanılaydım. Çox mərd və mübariz tələbə idi.

- Yəqin, axşama kimi həlak olanların siyahısı tərtib ediləcək. O vaxt dəqiq məlumat əldə edərik.

- Eşidirsən, Rzaqulu, "Salyan kazarmaları" tərəfindən atəş səsləri gəlir!?

- Hə! Otur maşına, yolumuza davam edək. Görək institutlarda vəziyyət nə yerdədir,- deyə Rzaqulu taqətdən düşmüş kimi görünən Elçini maşına doğru çəkdi.

İnstitutlarda da vəziyyət eyni dərəcədə məyusedici idi. Tələbələrin sırasından həlak olanlar, saxlanılanlar çox idi. Ali təhsil ocaqlarının müəllim və tələbə heyəti qan ağlayırdı. Lakin dərdlərini söyləmək üçün nə lider, nə də

respublika rəhbərliyi var idi. İki saatdan bir radio vasitəsilə səslənən Elmira Qafarovanın bəyanatı artıq insanlarda ikrah hissi yaratmağa başlamışdı. "İndiyədək haradaydınız?", "Nə üçün tutarlı tədbirlər görmədiniz?", "Niyə qoşunların paytaxta yeridilməsinin qarşısını almadınız?" kimi suallar millətin beynini və qəlbini oymaqda idi.

Xidməti vəzifəsini yerinə yetirdikdən sonra Rzaqulu Elçini əvvəlcədən sövdələşdikləri yerdən götürüb DTK-ya qayıtdı. Binanın önünü bir tank və iki ədəd piyadaların döyüş maşını kəsmişdi.

- Xeyir ola, Rzaqulu, indi də DTK-ya hücum çəkiblər?

- Sən hələ binamızın üstünə bax, Elçin, orada da sərrast atıcı mövqe tutub.

Hərbçilərin icazəsiylə içəri daxil olan əməliyyatçılar Əhməd və Fuadla üzləşdilər:

- Əhməd, yenə nə baş verib? Binamızı hərbçilər mühasirəyə alıb ki...

- Bir azdan toplantı olacaq, Elçin.

- İclas vaxtıdır indi? Bütün morqlar ölülərlə doludur! Onların şəxsiyyətini müəyyən etmək lazımdır. Qohumları, yaxınları təşviş içindədirlər. Öz qardaşımı demirəm! Bir təhər səhərə yaxın mənimlə əlaqə yarada bilib.

Fuad əlini əlinə vurdu:

- Pah atonnan! Şəhərimiz şayiələr içində boğulur, bunlar da iclas keçirmək eşqinə düşüb. Camaat deyir ki, hərbçilər həlak olanların cəsədlərinin bir qismini mərkəzi stadiona yığıb yandırır, digər hissəsini Xəzərə atır. Nə qədər gec deyil, bu xəbərləri yoxlamaq lazımdır.

- "Salyan kazarmaları" ərazisində atəş səsləri susmaq bilmir. Görəsən orada nə baş verir?- deyə Rzaqulu əlavə etdi.

Əhməd də söhbətə qoşuldu:

- Şayiə gəzir ki, hərbi "uçilişin" bir qrup azərbaycanlı müdavimi ordu zabitlərinə qarşı müqavimət göstərir.

Bu məlumat Elçini özündən çıxardı:

- Eşidirsiniz, dostlar, bu şayiələri qəsdən yayırlar ki, qoşunların Bakıya yeridilməsinə haqq qazandırsınlar. Guya, azərbaycanlılar hökuməti devirmək üçün silahlı üsyana qalxıbmışlar. Xeyir ola, "Salyan kazarmaları"nda komandanlıq silahları ancaq azərbaycanlı kursantlara paylayırdı?

Rzaqulu söhbəti yenə iclasa gətirib çıxardı:

- Uşaqlar, demədiniz axı, iclasda hansı məsələləri müzakirə edəcəklər?

Fuad cavabında çiyinlərini çəkdi:

- Müzakirə ediləsi heç bir məsələ yoxdur. Sadəcə Filip Bobkov təşrif buyurub. Şəxsi heyətlə söhbət etmək fikrinə düşüb.

Rzaqulu təəccübləndi:

- General-polkovnik? Birinci müavin?

- Bəli, özüdür ki, var.

Bu məqamda söhbətə İman müdaxilə edərək rəhbərliyin hamını akt zalına dəvət etdiyini bildirdi. Yarım saatdan sonra Bobkovun sədrliyi ilə iclas açıq elan edildi. General tribunaya keçib ordunun Bakıya yeridilməsinin səbəblərini açıqlamağa başladı. Azərbaycanda "Xalq cəbhə-

si" hərəkatının liderlərinin hakimiyyəti ələ keçirmək cəhdlərindən tutmuş ermənilərin kütləvi şəkildə öldürülməsinədək cəfəngiyyat dolu nitq söyləyən Bobkov onsuz da əsəbləri tarıma çəkilmiş əməliyyatçıları bir az da təhrikə çəkdi. Əsassız faktların gətirilməsinə dözməyən kəşfiyyat şöbəsinin əməkdaşı Eldar Nicatov onun çıxışını yarımçıq kəsdi:

- Товарищ генерал, мы, чекисты, ждали от вас правды. А вы повторяете все слова и действия армянских националистов и сепаратистов!

Eldarın bu sözlərindən sonra sanki qurbağa gölünə daş atdılar. Zalda hamıya məlum idi ki, SSRİ DTK-sında xidmət etdiyi dövr ərzində Bobkov kimi zəhmli, mühüm və yüksək rütbəli zabitin ünvanına heç kim bu cür tənqidi sözlər söyləməmişdi. DTK əməkdaşları arasında bir neçə saniyə sürən sükutdan sonra Filip Denisoviç nəhayət özünə gəldi:

- Я не понял, что вы имеете в виду, товарищ офицер?

- А то, что, будучи осведомленным о террористических действиях армянского КГБ на территории союзной республики Азербайджан, пытаетесь свалить вину на каких-то вымышленных боевиков «Народного фронта"!

Bu sözlərdən sonra artıq Eldara heç kim qulaq asmırdı. Hamının diqqəti akt zalının giriş qapılarının ağzında mövqe tutan "Alfa" xüsusi təyinatlılarının davranışına yönəlmişdi. Vəziyyət o qədər gərginləşdi ki, əməliyyatçılar onlardan yeganə hərəkət gözləyirdilər: Nicatovun sinəsinə,

yaxud gicgahına nə vaxt atəş açılacaqdır? Durumu Bobkov da anladı və azərbaycanlı əməliyyatçıların da silahlı olduqlarını nəzərə alıb, çıxış yolunu oda su səpməkdə tapdı:

- Я вас понимаю, офицер. После ввода войск в Баку, пострадали много его жителей…

- Пострадали? О чем вы, товарищ генерал? Сотни человек были расстреляны разными калибрами на месте.

- Ну ведь, убиты, в основном, те люди, которые оказывали ожесточенное вооруженное сопротивление против красной армии. Эти боевики также виновны в многочисленных преступлениях против армянского населения вашей столицы.

Eldarla Bobkovun dialoqu DTK-nın vətənpərvər əməkdaşlarını daha da alovlandırdı. Söhbətə əks-kəşfiyyat şöbəsinin əməkdaşı Şahverdi Arifov da müdaxilə etdi:

- Так, подождите, товарищ генерал, какие "боевики"?

- Боевики так называемого движения "Народный фронт"!

- Каким образом они могут стать боевиками, если, согласно установке Центра, у всего азербайджанского народа отобрано даже охотничье оружие!? Я не говорю о перочинных и столовых ножах. А армянское население в это время вооружалось до зубов.

- Честно говоря, я пока не в курсе информации о вооруженных нападениях…

- Как же вы не в курсе, товарищ зампредседателя КГБ СССР, если мы, чекисты Азербайджана,

ежеминутно информировали вас в письменном виде о противоправных диверсионных действиях армянских “бородачей”, террористов и прочих антисоветских элементов!?

- Я уверяю вас, что, лично, ко мне такая информация не поступала.

Bobkovun bu cavabından sonra ara bir qədər sakitləşdi. Zalda əyləşən əməliyyatçılar onun son sözlərindən dəqiq nəticə çıxara bilmədilər: Filip Denisoviç Azərbaycan SSR rəhbərliyini susqunluqda günahlandırdı, yoxsa öz canını qurtarmağa cəhd göstərdi? Özünü qorumaqdan söhbət gedə bilməzdi. Çünki onun arxasında sovet dövlətinin başdan-ayağa silahlanmış ordusu, binanın daxilində isə “Alfa”nın peşəkar zabitləri dururdu. Deməli, Azərbaycanın rəhbərliyi erməni separatçı və terroristləri barədə Sov.İKP MK-ya dolğun məlumat göndərmirdi, SSRİ KQB-silə əlbir olaraq vəzifədə qalmaq naminə müxalifətin başını əzmək istəyirdi və nəhayət, kor-koranə, əmrə müntəzir robot kimi soydaşlarının əlehinə Mərkəzə qüsursuz xidmət göstərirdi. Siyasi təlxək rolunda olan Əbdürrəhmanla yanaşı, Azərbaycan Respublikasında əksər dövlət strukturlarının rəhbərləri, xüsusən DTK sədri Vaqif Hüseynov da “vəzirovlaşmışdı”.

İclasdan heç nə əldə edəməyəcəyini anlayan Bobkov gündəmdəki məsələlərin müzakirəsinə son vermək istədi. Lakin sözlərini bitirməyən Eldar Nicatov monoloquna davam etdi:

- Последнее, что я хочу сказать, товарищ Бобков, это – я не одобряю действия советской армии против моего народа. И мне стыдно носить партбилет

коммуниста и удостоверение чекиста. Я ухожу со службы.

Bu sözlərdən sonra Bobkov vəsiqələri kütləvi şəkildə onun önünə atmasınlar, -deyə Nicatova müraciət etdi:

- Товарищ офицер, я внимательно выслушал ваши претензии. Поэтому хочу поговорить с вами наедине.

- Я полностью высказал свои соображения, товарищ Бобков. Добавить нечего.

Hamı nəfəsini içinə çəkib dayanmışdı, Eldarı nə gözləyirdi? Onu çox güman ki, xidmətdən uzaqlaşdıracaqdılar. İndiki halda bu, qaş düzəltdiyi yerdə göz çıxarmaq olmazdımı?! Onun bu hərəkəti hər kəsin ürəyindən xəbər verirdi, lakin hamı öz partiya biletindən imtina etsəydi, onlara ehtiyacı olan bu xalqa necə qulluq edəcəkdilər?

Bu analiz özünü çox gözlətmədi, iclasdan dörd gün sonra Eldar əməliyyat müvəkkili qismində kəşfiyyatdan DTK-nın Sumqayıt şəhər şöbəsinə keçirildi.

Tədbirdən sonra Elçin Fuadla birgə bölmə rəisinin qəbuluna getdi. Onların bundan belə nə edəcəkləri, əməliyyat fəaliyyətini hansı istiqamətə yönəldəcəkləri, şəhərə soxulmuş sovet ordusu, Bakı şəhəri üzrə təşkil edilmiş komendatura numayəndələrilə əlaqələri necə quracaqları barədə məlumat və təlimatlara böyük ehtiyacları var idi. Yolüstü Teymur Ağayev Elçini bir neçə dəqiqəliyə öz kabinetinə dəvət etdi. Otağa daxil olduqda Qaraxanov orada əks-kəşfiyyat və beşinci şöbənin bölmə rəislərilə üzləşdi. Oleq Cəbiyevlə Sadıx Vəliyev masa üzərində hansısa bəyənatı müzakirə edirdilər. Oleq Elçini gördükdə çox sevindi:

- Eşitdin da Bobkovun söylədiklərini?

- Əlbəttə! Gah mıxa, gah da nala vururdu.

- Qaraxanov, vaxtımız çox məhduddur. Moskvaya və Azərbaycan rəhbərliyinə bəyanat hazırlayırıq...

- Əla oldu, yoldaş Cəbiyev! Mən də belə bir təklif vermək fikrində idim.

- Deməli, səni bura dəvət etməkdə haqlıydıq. İmzanı da sənədə atarsan?

- Mütləq. Elə bu dəqiqə.

- Tələsmə. Sənin yazı qabiliyyətini yaxşı bilirik...

- Oleq müəllim, yazmaq, həqiqət uğrunda sonadək getmək, düzünü danışmaq biz naxçıvanlıların qanındadır.

- Bunu əla bilirəm, Elçin. Ona görə də səndən xahişimiz ondan ibarətdir ki, bəyanata düzəlişlər verəsən. Necə deyərlər, "skeleti" hazırdır.

- Mənim gözüm üstə, yoldaş podpolkovnik. Nə qədər ki, Bobkov buradadır, bəyanatı onun əliylə Mərkəzə çatdırmalıyıq.

- Bizim də fikrimiz budur.

Çox keçmədən otağa Fuad daxil oldu. O, bildirdi ki, "Alfa" qrupunun rəhbərliyi əməliyyatçıların şübhəli əməlləri barədə müzakirələr apararaq onların üzərində nəzarəti gücləndirmək qərarına gəliblər və koridorlarda Moskvadan gələn KQB zabitləri gəzişməyə başlayıblar. Sadıx Fuadın məlumatını ciddiyə alıb haradan əldə etdiyilə maraqlandı. İbrahimov cavabında:

- Birincisi, onları bizim koridorda şəxsən gördüm. Rəhbərlərinin qərarı barədə isə mənə İsmixan məlumat verdi.

- İsmixan kimdir, Fuad?

- İsmixan İsrafilov!

- Bildim e, Fuad. Kimdir?

- Akademiyada Elçinlə bir yerdə oxuyub, Sadıx müəllim. Bir həftə olar ki, o da Bakıya ezam olunub.

İbrahimovun cavabını dinlədikdən sonra Vəliyev suallarını Qaraxanova yönəltdi:

- Akademiya hara, "Alfa" qrupu hara? Necə ora düşüb?

- İsmixan idmanı çox sevərdi, Sadıx müəllim. Hələ tələbəlik illərindən xüsusi təyinatlılara qoşulmaq istəyirdi. Bir sözlə, bizə köməklik göstərməyə hazırdır.

- Aydındır. Başqa əlacımız yoxdur. Ona inanmağa məcburuq.

- Bəli, yoldaş Vəliyev. Mən də o fikirdəyəm.

Bəyanat mətninin müzakirəsindən sonra onu hazır vəziyyətdə təqdim etmək üçün Elçinə və Teymura axşama kimi vaxt verildi. Mətn elə düşünülməli idi ki, nə DTK-nın sadə, vətənpərvər əməkdaşlarına xələl gətirsin, nə də komitənin aqibətinin nə ilə nəticələnəcəyinin bilinmədiyi məqamda Mərkəzdən gəlmiş ermənipərəst zabitlərin ayaqları yer alsın. Lakin axşama yaxın hazır bəyanatı Oleq müəllimə təqdim etdikdə məlum oldu ki, onu səsləndirməyə, Mərkəzə göndərməyə və ya mətbuatda dərc etməyə lüzum qalmamışdır. Birincisi, bəyanatın mətninə SSRİ DTK-sında heç kim fikir verməyəcəkdi, ikincisi də, Azərbaycan Respublikasının Ali Soveti önündə "20 Yanvar" fəlakətilə əlaqədar keçirilən mitinqdə bəyanatdan xəbərdar olan müxalifət liderləri, görkəmli ziyalılar onun ictimailəş-

dirilməməsini xahiş etdilər. Onların, "Biz bilirik ki, DTK orqanlarının vətənpərvər, mübariz və mərd oğulları ölkəmizdə Mərkəz tərəfindən törədilən qətllərlə əlaqədar bəyanat hazırlayıblar. Təhlükəsizlik orqanlarımız zərbə almasın deyə, xahişimiz budur ki, bəyanatın mətni aşkarlanmasın" sözləri ilə mitinq iştirakçıları da razılaşdı. Bir qədər sonra Oleq Cəbiyev təəccüblə Elçinlə Teymura sual verdi:

- Necə olur ki, hazır bəyanatı mənə bu dəqiqə təqdim etdiyiniz halda mitinqə onun müzakirəsini çıxarırlar?

Bu xəbər Elçini də çıxılmaz vəziyyətə saldı:

- Oleq müəllim, əvvəla, natiqlər bəyanatın mətni barədə mitinqçilərə bir söz belə deməyiblər. Ona görə də sənədin məğzi haqqında onlarda məlumat yoxdur. İkincisi də ki, KQB-də nə çox əməkdaşlarımız var ki, qohum-əqrəbaları, tanışları "Xalq cəbhəsi" hərəkatının fəal üzvləridir. Ola bilsin ki, həmin əməliyyatçılar "biz də təhlükəsizlik orqanlarının əməkdaşları olaraq kənarda qalmayacağıq və bəyanat vasitəsilə narazılığımızı, hikkəmizi Moskvaya çatdıracağıq" fikirlərini yaxınlarına söyləyiblər.

Söhbətə Teymur da biganə qalmadı:

- Oleq Qəniyeviç, burada nə var ki? Vətən uğrunda bizlərin də hər cür mübarizəyə hazır olduğumuzu xalq bilməlidir.

- Teymur, söhbət bəyanatın mətnindən deyil, onu mitinq təşkilatçılarına çatdırılmasından gedir. Mən də şadam ki, mitinqçilər bizim xoş məramımızdan agahdılar. Lakin bu gün bəyanatımız barədə ictimaiyyətə xəbər verənlər sa-

bah mühüm işlərimizi də binamızdan kənara çıxara bilərlər. Başa düşdün məni?

- Aydındır, yoldaş Cəbiyev.

- Elçinin söylədiklərini təhlil etdikdən sonra sakitləşdim. Mən də onun kimi düşünürəm. Məncə, burada satqınlıq əlamətləri yoxdur. Ona görə də qərara aldım ki, bəyanat elə kağız üzərində də qalsın.

Oleq müəllimlə söhbət bitməmiş Fuad otağa daxil oldu və Elçini rəisləri Xəzər müəllimin kabinetində keçiriləcək toplantıya çağırdı. Elçin Oleq Qəniyeviçlə xudahafizləşib Fuadla birgə onun otağını tərk etdi. İsmətovun kabinetinə yaxınlaşdıqda Qaraxanov İlhamın otağından radio vasitəsilə gələn o saxta səsi bir daha eşitdi: Ali sovetin sədri Elmira Qafarova "məyus" nitqi ilə sovet ordusunun Bakıya yeridilməsini guya qınayırdı.

Bölmənin bütün əməkdaşları Xəzər müəllimin otağına yığışmışdı. Bölmə rəisi bildirdi ki, sabah ağır gün olacaq:

- Yanvarın on doqquzundan iyirmisinə keçən gecə şəhərimizdə törədilmiş qətliam zamanı həlak olanların cənazələrinin "Kirov", yəni "Dağüstü park"da torpağa tapşırılması qərara alınıb. Biləsiniz ki, minlərlə deyil, milyonlarla insan oraya axışacaq. Onların sıralarına soxulacaq hər bir təxribatçının əməlinin qarşısının alınması DTK-nın şəxsi heyətinə tapşırılıb.

Fəxrəddin dərin fikirlərdən ayrılıb sual verdi:

- Ordu nə edəcək, Xəzər müəllim? Yoxsa bu qara günümüzdə mərasim tədbirinə də başını soxacaq?

- Hərbçilərlə danışılıb. Küçələrdəki nəzarət-buraxılış məntəqələrindən savayı mərasim zamanı bütün zabit və əsgərlər kazarmalara çəkiləcək.

Elçin gülümsəyərək:

- Şekspirin "Otello" əsərindəki kimi: Mavr öz işini gördü. İndi də müvəqqəti olaraq istirahətə çəkilir. Bir də ki, rəis, "Salyan kazarmaları"ndakı atışmaların sonu nə ilə nəticələndi? Ordu nümayəndələri yalandan şayiə yaymışdılar ki, guya azərbaycanlı kursantlar əlində silah hər tərəfə od saçırlar.

- Darıxma, Elçin, gec-tez bu kimi faktlar dərindən araşdırılacaq. Çox güman ki, sən deyəndir: guya!

Rzaqulu əsəbiləşərək:

- Bu günə kimi tələbələr məndən bir KQB işçisi kimi həlak olan və yaralananların sayını tələb edirlər. Məndə bu məlumat yoxdur. Onlara nə cavab verim, Xəzər müəllim?

- Bilirsən, Talıbov, gün ərzində bizim özümüzünkülər mənə nə qədər suallar verir? Stadiona yığılan meyitlərin aqibəti, vertolyotlardan həlak olanların cənazələrinin Xəzərə atılması, tutulanların sayı barədə sualların ardı kəsilmir. Məni də başa düşün. Yaxşı olar ki, bu sualların cavabını siz də axtarasınız. Hamınız təcrübəli əməliyyatçısınız.

- Hansı bəşər övladına desən ki, Mərkəz "qardaş" respublikaya belə bir divan tutdu... inanmaz.

Müzakirələr zamanı Xəzər müəllim nəhayət, özündə cəsarət tapıb növbəti bəd xəbəri əməliyyatçılarına çatdırdı:

-Hələ bu, harasıdır? Həlak olanları dəfn etdikdən sonra siyahı üzrə "Xalq cəbhəsi" hərəkatının fəallarının həbsini həyata keçirməliyik.

İsmətovun boğazdanyuxarı təklifindən əməliyyatçılar demək olar ki, şok vəziyyətinə düşdülər. Bir neçə saniyə sürən sükunətdən sonra Fuad fikrini söylədi:

- Mən heç kimin dalınca getməyəcəyəm! Vəssalam.

Fuadın replikasından sonra Rzaqulu da əsəblərinə hakim ola bilmədi:

- Siz nə danışırsınız, Xəzər müəllim? Bu lap "Məşhədi İbad"a oxşadı, e! Milləti qırmağınız bəs deyil, hələ bir diri qalanları da həbs edirsiniz?

Fəxrəddin sarsılmaz təmkinindən istifadə edərək cəmi bir cümlə söylədi:

- Mən vəsiqəmi qoyub evə gedirəm!

Hamının diqqəti bir qıraqda sakit oturan Elçinə yönəldi. Qaraxanov sakitcə ətrafa nəzər salıb düşüncələrini bildirdi:

- Mən fəalları həbs etməyə gedəcəyəm.

Bəlkə də, bu sözləri Rodion Əkbəroviç, Vladimir Adiloviç, yaxud Ramis Diniyev desəydi, heç kimə təsir etməzdi. Lakin bu cümlənin Elçinin ağzından çıxması iclas iştirakçılarının hamısını məyus və pərişan etdi. Otaqda pıçhapıç baş alıb gedəcəkdi ki, Xəzər müəllim sakit səslə Qaraxanovdan soruşdu:

- Belə bir qərarı səndən başqa hamıdan gözləyə bilərdim. Səbəbini bizlərə anlatsan, heç bir dərdimiz olmaz.

Elçin ayağa qalxıb pəncərəyə yaxınlaşdı. Qışın soyuq keçdiyinə baxmayaraq bayırda hava günəşli idi. Qaraxanov kolleqalarına üz tutaraq rəisinin sualını belə cavablandırdı:

- Əvvəla, günəş şüalarını içəriyə daşıyan pəncərənin önündən danışıram ki, utanan sifətimi görməyəsiniz. İkincisi də, ümidvaram ki, gətirdiyim dəlillərə anlamlı ya-

naşacaqsınız... Tutalım ki, hamımız fəalların həbsindən imtina etdik. Onda nə olacaq?

Fuad çoxmənalı, bir qədər də lağla Elçinin üzünə baxaraq təkrarən soruşdu:

- Nə olacaq, Elçin müəllim?

- "Qızıl ordu" zabit və əsgərlərinə, Mərkəzdən gələn "çekistlərə" heç nə olmayacaq. Nə olacaqsa, millətə olacaq!

Rzaqulu sual verdi:

- Məsələn?

Elçin səbrlə izah etdi:

- Ən azı "xalq cəbhəsi" hərəkatı fəallarını həbs etmək üçün bizim yerimizə İvanı, Arturu ya da ki, başqa qeyri-azərbaycanlını göndərəcəklər. Onda nə edəcəyik?

Bu dəfə heç kim Qaraxanovun sualını cavablamadı. Kimisi başını aşağı saldı, kimisi də rəislərinin üzünə baxaraq onun reaksiyasını gözlədi. Qaraxanov qərarının düzgünlüyünü sübut etmək üçün söhbətinə davam etdi:

- Deməli, nə olacağını cavablandıra bilmədiniz. Amma mən deyim nə olacaq: heç kimin göz yaşına, yalvarışına baxmayacaq, zindanlara atacaqlar. Hələ ölkəmizin belə bir vəziyyətində onların öldürülməsini də istisna etmirəm.

Rzaqulu yaranmış vəziyyətlə əlaqədar öz fikrini söylədi:

- Mənə elə gəlir ki, biz bir qədər tələsik və erkən qərar verdik. Sadəcə Xəzər müəllimin sözlərinə hirsləndik. Elçin fikrini məntiqlə izah etdi. Fəalların dalınca özümüz getsək, onların günahsızlığını sübut edə, ədalətsiz cəza almaqdan canlarını qurtara biləcəyik.

Fəxrəddin də Elçinin təklifinə dair sifətində razılıq əlamətlərini büruzə verib düşüncələrini bölüşdü:

- Təbii ki, Etibar Məmmədov, Xəlil Rza, İsa Qəmbərov və digər üzdə olanların taleyini SSRİ KQB-si özü həll edəcək. Lakin kiçik vəzifəli fəalların əksəriyyətini həbsdən qurtara bilərik. Nə qədər ağır olsa da, Elçinin təklifi ilə, deyəsən, razılaşacağam.

Nöqtəni Xəzər müəllim qoydu:

- Mən əvvəldən belə düşünürdüm. Cilovu əlimizdə tutmalıyıq ki, hərbçilərin bundan sonrakı bəd əməllərinin qarşısını ala bilək. Sualınız yoxdursa, sabahkı günə hazırlaşın. Tariximizin ən ağır günlərindən birini yaşayacağıq. Bu gün hamınız növbətçisiniz, komitədə gecələyəcəksiniz.

Ertəsi gün Bakını böyük bir matəm havası bürümüşdü. O gün Bakı kəndlərində yetişən bütün qərənfillər şəhidlər üçün açmışdı. Paytaxt "qara" qərənfilllərin əhatəsində inildəyirdi. Yüz minlərlə insan "Lenin meydanı"na toplaşıb "20 Yanvar" faciəsinin qurbanlarını son mənzillərinə yola salmağa hazırlaşırdı. Xəzər dənizindəki gəmilər fit səsləriylə fəryad qoparır, sanki SOS siqnallarıyla bu faciəni bütün dünyaya yaymağa çalışırdılar.

Bir xeyli insan da "Kirov parkı"nda həlak olanlar üçün məzar qazmaqla məşğul idi. Bakının ən hündür yerində yerləşəcək, sonralar xalqın ziyarətgahına çevriləcək Şəhidlər Xiyabanının əsası qoyulurdu. Yan-yana düzülmüş çoxlu sayda gənc, qoca, uşaq, qadın, kişi məzarları qazılırdı. Azərbaycanın günahsız yerə güllələnmiş, azadlığın rəmzinə çevrilmiş nakam övladlarını xalq göz yaşı içində ana torpağın qucağına uğurlayırdı. Dağüstü park

təsadüfən seçilməmişdi. Burada min doqquz yüz on səkkizinci ildə Bakıda yenə də erməni qəsbkarları ilə döyüşlərdə şəhid düşmüş Azərbaycan igidləri və onların yardımına yetişən Qafqaz Türk-İslam Ordusunun əsgərləri dəfn edilmişdilər.

Bakının mərkəzi meydanında matəm mitinqi göz yaşları içində başladı. Ölkənin tanınmış ziyalılarından ibarət natiqlər od püskürürdülər. Onlar, illərlə vətən hesab etdikləri bir imperiyadan zərbə almış, xilaskar bildikləri Qızıl Ordu tərəfindən güllələnmiş, qanı axıdılmış millətin ürəyindən keçənləri alovlu dillə ifadə edirdi. Xalqın yanında olduqlarını hiss etdirir, Azərbaycana dərin hüznlə başsağlığı verir, yerli hakimiyyəti məsuliyyətsizlikdə qınayırdılar.  Matəm içində olan izdiham dəniz kimi dalğalanırdı. Hər kəsin üzündə hiddət, ağır kədər, təəssüf, xəyalqırıqlığı, intiqam hissi bir-birinə qarışmışdı.

Azərbaycanın tanınmış ziyalıları çıxışlarını bitirdikdən sonra, "20 Yanvar" şəhidlərinin tabut "karvanı" xalq izdihamı ilə birlikdə Dağüstü parka doğru istiqamət aldı. Təəssüflər olsun ki, respublikanın hakimiyyət nümayəndələri meydandakı vida mitinqində və dəfn mərasimində iştirak etmədilər. Bunun üçün nə üzləri qalmışdı , nə də mədəniyyətləri çatırdı.

Küçələrdəki insanlar şəhidlər qarşısında baş əyərək izdihama qoşulub parka tərəf yönəlirdilər. Onların bəziləri aralarında pıçıldaşaraq birinci katibin, yəni Vəzirovun yerinə kimin gələcəyi ilə maraqlanırdılar. Öndə gedənlərdən biri isə sakitcə arxaya tərəf dönüb "Məgər eşitməmisiniz?

Mütəllibov! Nazirlər Sovetinin sədri!" deyə, suallara cavab verdi və ağır addımlarla dəfn yerinə doğru yeriməyə davam etdi.

Dünyanın hər yerində abstrakt mənada səslənən "xalq" məfhumu sanki bu gün Bakı şəhərində öz varlığını göstərirdi. Şəhidlərini çiynində daşıyan böyük izdiham qəribə bir mənzərə yaradırdı: sanki qərənfillər içində itmiş tabutlar bir ümmanın nəhəng dalğalarının qucağında atılıb-düşürdü.

***

Qətlə yetirilənləri dəfn etdikdən sonra Xəzər İsmətov başda olmaqla bölmənin əməliyyatçıları DTK-ya qayıtdı. Şöbə rəisi Vladimir Adiloviç onları kabinetində gözləyirdi. Polkovnik dəfn mərasimindəki vəziyyətlə maraqlandıqdan sonra əsas məsələyə keçdi:

- Hava qaraldıqda əməliyyatçılar komendaturanın hərbçiləri və "Alfa" qrupunun zabitlərilə birgə "Xalq cəbhəsi" hərəkatının fəallarını sorğulamaq üçün onların evlərinə reydlər keçirəcəklər.

İyrənc səslənsə də, Elçinin "payına" Bakının Lenin rayonu "cəbhəçilərinin" hələlik şəxsiyyəti bəlli olmayan liderlərindən biri düşmüşdü. Fəalların adları gizlədilirdi. Sovet ordusunun komandirləri gözəl anlayırdılar ki, DTK-nın aşağı rütbə və vəzifəli zabitləri reydlərdən imtina edə bilərlər. Ən təhlükəlisi isə milli zabitlərin silahla təmin olunması idi. "Alfa" qrupu əməkdaşlarının nəzəri hər an əməliyyatçıların üzərində idi. Bəlkə də, Azərbaycan dilini bilsəydilər, DTK-nın əməliyyatçılarını bütün tədbirlərdən kənarlaşdırardılar.

Mirzoyevin kabinetini tərk etdikdən sonra əməliyyatçılar Xəzər müəllimin otağında toplaşdılar. Gözlənilmədən Rasim yarı rus, yarı azərbaycan dilində öz etirazını bildirməyə başladı:

-Yolüstü men bunların xamısını azdıragam! Как Иван Сусанин. Знаете да, в свое время что он натворил? Заведомо завел польских оккупантов в дремучий лес.

Rzaqulu təəccüblə Rasimin həyəcanlı sifətinə baxaraq:

- Sağ ol e, Rzayev. Sən tədricən gözümüzdə böyüyürsən. Amma bunu etmə. Yerinə başqasını göndərəcəklər. Bax onda o “cəbhəçinin” evi tamamən yıxılacaq. Elçin bu barədə demişdi axı.

Bölmə rəisi müzakirələrin vüsət almasını istəmədi:

- Sizin yerinizə olsam, sakitcə oturub özümə təskinlik verərdim. Qabaqda yuxusuz gecəmiz var. Bir az dincəlin.

Elçin də sözünü deməyə məqam tapdı:

- Rəis, “Arşın mal alan” kinosuna baxmısınız da?

- O nə sualdır, Qaraxanov? Azərbaycanda elə bir insan var ki, bu filmi görməsin?

- Yadınızda, rəis, Telli deyirdi, e: Oğlan indi gələr.., bu saat gələr...

- Bilirəm nə demək istəyirsən. Yəni, biz də burada oturub...

Xəzər müəllim sözünü tamamlamamış telefonuna zəng gəldi. Əməliyyat növbətçisi “reydə gedən qrup Elçini giriş qapısında gözləyir” sözlərini bölmə rəisinə çatdırıb dəstəyi yerə qoydu. İsmətov Elçinin pərişan üzünə baxaraq gözləriylə qapıya işarə etdi:

- İrəli, yoldaş Qaraxanov. Səndən xoş xəbərlər gözləyirik!

- Əgər sağ qalsam...

- Ağzını xeyirliyə aç, Elçin. Sənə uğurlar!

Elçin birinci mərtəbəyə endi. Orada “Alfa” xüsusi təyinatlı dəstəsinin slavyan sifətli zabiti ona yaxınlaşdı:

- Это вы Караханов?

- Да, товарищ майор.

- Значится так, мы едем задержать одного типа, точнее, “фронтовика”. Я не знаю, что он натворил, но приказ есть приказ.

- Имя не назвали.

- А, да. Его зовут Заки!

- Вы не поняли меня. Вас как зовут, товарищ майор?

- Понял. Иванов Ефим Викторович. А Вас?

- Меня зовут Эльчин, а фамилию знаете. И вообще, давай перейдем на “ты”.

- Согласен полностью. Так вот, Альчин, во дворе КГБ нас ждут два автобуса марки “Икарус”, один БМП, взвод бойцов и представитель Ленинского районного военкомата.

Hələ Moskvada təhsil alarkən Qaraxanov bilirdi ki, ruslar onun adını “Elçin” kimi çəkməkdə çətinliklərlə üzləşir. Ona görə də, Yefimin ona “Alçin” deməsinə heç bir irad tutmadı və söhbətə davam etdi:

- Ефим! Конечно, не в обиду тебе, но объясни, пожалуйста, мы Берлин едем брать?!

- Не понял, Альчин…

- Зачем нам такое войско за одним человеком?

- Но, ведь, он вооружен.

- Кто?

- "Фронтовик" этот…

- Кто тебе эту ерунду наплёл?

- Альчин, Вы так свободно владеете русским, я даже удивлён...

- Нечему удивляться. Большинство азербайджанцев свободно говорят на русском языке. Ты не путай нас с армянами. 90 процентов армян не знают русского языка. Ладно, дело не в этом. С таким количеством людей ехать на задержание одного человека не имеет смысла. Ни у кого из них нет оружия. Это я тебе гарантирую, Ефим.

- Альчин, я тебя понимаю и согласился бы. Но, сам знаешь, не имею права снять их с задания. В крайнем случае оставим транспорт на расстоянии и зайдём к нему домой в количестве 3-4-х человек.

- Тоже дело. Тогда поехали.

Bir saatdan sonra Zəkinin dalınca gedən "zirehli" dəstə onun evindən əlli metr aralıda dayandı. Yefim Viktoroviç Elçinin məsləhətini nəzərə alaraq, əsgərlərə yerində qalması, "voyenkomatın" nümayəndəsi Viktor Pavloviçə və "Alfanın" zabitinə onunla birgə hərəkət etməsi əmrini verdi. Bir neçə dəqiqədən sonra "voyenkomatın" işçisi Zəki Hüseynovun qapısını döydü. Qapının arxasından qadın səsi eşidildi:

- Kimdir?

Viktor komandir səsilə rus dilində xanıma cavab verdi:

- Это представитель военкомата. Нам нужно проверить ваши документы!

- Ay qardaş, Azərbaycan dilində danış. Heç nə başa düşmürəm.

Viktor Elçinə tərəf çönüb qadının nə dediyini öyrənmək istədi. Qaraxanov həmən yaranmış vəziyyətdən nəticə çıxartdı: Deməli, ailə rus dilində danışa bilmir. Məsələni anlatmaq mənə düşdü. Əla! Zəkiyə lazım olanı mən tərcümə edəcəyəm. Elçin Viktora xanımın dediklərini anlatdıqdan sonra qapıya yaxınlaşdı:

- Xanım, bu Zəki müəllimin evidir?

- Bəli.

- Biz "voyenkomatın" işçiləriyik. Sənədlərinizi yoxlamalıyıq. Zəhmət olmasa, qapını açın.

- Zəki balkonda siqaret çəkir. Mən onun həyat yoldaşıyam. Vəsiqənizi göstərə bilərsinizmi? "Qlazokdan" ona baxmaq istəyirəm.

Elçin qadının xahişini Viktora bildirdi, o sənədini təqdim etdikdən sonra qadın qapını açdı. "Nümayəndə heyəti" Hüseynovun mənzilinə soxuldu. Artıq Zəki də balkondan dəhlizə keçmişdi. Elçin məqamdan istifadə edərək Zəkiyə cəmi bir kəlmə söz dedi:

- Urus dilində danışa bilmirsən ha!

Görünür, Zəki həqiqətən zəkalı idi. Qaraxanovun sözləri onun beyninə həkk olundu. O, gözüylə işarə edərək Elçinin sözlərini anladığını bildirdi. Hüseynov həyəcanını dəf edib çağırılmamış qonaqları zala dəvət etdi. Yefim vaxt itirmədən Zəkiyə sual verdi:

- Вы Заки Гусейнов?

Zəki adını eşitdikdə nəzərini Elçinin üzərinə yönəltdi və yarı rus, yarı azərbaycan dilində Yefimin sualına cavab verdi:

- Mən sizi не пониль…

Yefim də Elçinə tərəf dönüb Zəkinin nə dediyini anlamaq istədi. Artıq Qaraxanov istədiyinə nail olmuşdu. Bilirdi ki, bütün suallar Zəkiyə onun vasitəsilə yönələcək. Qaraxanov İvanova bildirdi ki, nə Zəki, nə də onun həyat yoldaşı rus dilində danışa bilir. Yefim bir qədər təəccüblənərək Zəkiyə aid sualları Qaraxanova verəcəyini söylədi. Elçinə də elə bu lazım idi. O, İvanovun məyus sifətinə baxaraq həmən razılığını bildirdi:

- Конечно, Ефим. Никаких проблем. Я все переведу.

- Тогда, Альчин, спроси у него, где он находился с 19-го по 20-е января сего года?

Zəki mexaniki olaraq  az qala İvanovun sualını özü cavablandırmaq istədi. Lakin Elçin onun sözünü kəsib uca səslə "məlum hadisələr zamanı sən haralarda idin?" sualını verdi. Hüseynov səhvini anladı və bildirdi ki, 19-20 yanvarda "Xalq cəbhəsi" hərəkatının qərargahındakı yığıncaqlarda iştirak edirdi. Qaraxanov Zəkidən bu cavabı heç gözləmirdi, ona görə də onun sifətinə baxaraq "Ə, sən nə danışırsan? Heç hənanın yeridi?" sözləri ilə irad tutdu. Bu məqamda Yefim Zəkinin nə söylədiyini təkidlə öyrənmək istədi. Qaraxanov ağıryana ona aşağıdakıları bildirdi:

- Заки утверждает, что 19-20-го января он вместе со своими друзьями сопровождал своих армянских соседей в Бакинский порт.

Bu sözlərdən sonra Yefim bir az özünü itirdi. O, başdan ayağa silahlanmış, aqressiv, SSRİ-yə qarşı düşmənçilik mövqeyindən çıxış edən insan əvəzinə qarşısında məzlum, əlində mətbəx bıçağı belə olmayan, eyni zamanda ziyalı insanı görürdü. İvanov Qaraxanova növbəti sualını ünvanladı:

- Спроси, пожалуйста, у него, Альчин, почему он спасал армян, если те истязали, убивали его сородичей в Армении?

Bu dəfə Qaraxanov yerində quruyub qalaraq dərin fikirlərə daldı: "Deməli, köpoyoğlu hər şeyi əlivin içi kimi bilirsən. Mən də deyirəm bəlkə, Bakıda veyil-veyil gəzdiyindən dünyadan xəbərin yoxdur." Bir neçə saniyəlik sükutdan sonra Elçin Yefimin sualını guya Zəkiyə tərcümə etdi:

- Bildin da, Zəki, səndən nə soruşdu?

- Əlbəttə.

- Cavabın nə olacaq?

- Nə deyim? Dəniz limanında olmamışam axı. Bir də ki, bizim binada bir nəfər də olsun erməni qalmır. Qonşu binalardakı ermənilərə isə bir nəfər belə barmağı ilə toxunmayıb...

- Bunları bilirəm, ay kişi! Ucundan tutub nə ucsuzluğa gedirsən?

Söhbətin uzandığını görən İvanov Elçindən yenə də soruşdu:

- Альчин, а что вы так горячо обсуждаете? Что-то не так?

- Все хорошо, товарищ Иванов. Заки объясняет мне, что всю жизнь рос с армянами. Кроме армян, в Баку

проживают много русских, грузин, лезгин, евреев. Никто из них никогда не жаловался на плохое с ними обращение со стороны азербайджанцев.

- Да, Альчин. Я тоже постоянно слышу, что азербайджанцы очень толерантны по отношению ко всем народам и религиям. Но ведь, все-таки, имели место избиения представителей армянского народа.

- Было такое, Ефим. Даже по моим данным произошли и убийства. Но мы арестовали пару человек. Они признали свою вину и заявили, что были подосланы в Баку армянскими спецслужбами. Сам можешь поговорить с ними. Точь-в-точь, как в Сумгаите…

- Знаю, Альчин, про сумгаитские события. Григорян?!

- Точно, товарищ Иванов. И с ним еще несколько армян.

- Выходит так, что зря мы сюда заехали. Человек спасал армян, а мы хотели его арестовать. Какая-та ложь и дезинформация бродит по поводу Баку.

- Так оно и есть, товарищ Иванов. Единственное, что прошу учесть, Баку многонациональный город. Даже в эти трудные дни здесь продолжают вольготно жить представители разных народов.

Elçinin sözlərindən sonra Yefim Hüseynovun evinə "təşrif buyuran" hərbçilərə gözü ilə işarə verərək "qayıdırıq bazaya", -dedi. Beləliklə, Qaraxanovun Xəzər müəllimin kabinetində söylədiyi fikirlər öz təsdiqini tapdı: nə şiş yandı, nə kabab.

Reyddən sonra Qaraxanov DTK-nın binasına qayıtdı. Orada məlum oldu ki, əməliyyatçıların əksəriyyəti reyd edəcəkləri ünvanları "tapa bilməmiş", bəzilərisə, "Alfa" qrupunun zabitlərinə dalınca getdikləri insanların günahsız olduqlarını sübut edə bilmişdilər. Təbii ki, əməliyyatçıların sırasında bir-iki nadan da olmuşdu. Onların "səyi" nəticəsində KQB-nin istintaq şöbəsinə "Hərəkatın" iki nəfər fəalı gətirilmişdi. Sorğulandıqdan sonra müstəntiqlər onların da əməllərində cinayət tərkibi tapmadıqlarından evlərinə geri göndərmişdilər.

"Alfa" qrupunun əməkdaşları ilə birgə keçirilmiş reydlər barədə şöbə rəisi Mirzoyevə hesabat verdikdən sonra Elçin dincəlmək üçün səhərə yaxın Rzaqulunun maşınında evinə tərəf istiqamət götürdü. Paytaxtın hər küçəsi hərbçilər tərəfindən nəzarətə götürülmüşdü. Talıbov "20 yanvar" səhərini yada salıb əsgərlər barədə söhbət açdı:

- Yadındadır, Elçin, faciəvi hadisələrdən sonra biz institutlara getməli idik. Tbilisi prospektində müəmmalı görkəmdə əsgərlərlə üzləşdik...

- Yadımdadır, Rzaqulu. Necə bəyəm?

- O əsgərlərlə bugünkü əsgərlər arasında yerlə göy qədər fərq var.

- Görürəm. Keçən dəfə qolunu güllə aparmış meyitə baxış keçirəndə mən sənə demədim.

- Nəyi, Elçin?

- Arxamızda həmən iki əsgər peyda oldu. Saçları uzun, qıvrım, hərbi çəkmə deyil, mülki ayaqqabıda idilər. Sanki onları xidmətə bu dəqiqə çağırmışdılar.

- Nə demək istəyirsən, yoldaş Qaraxanov?

- İstehza yeri deyil, yoldaş Talıbov. Onu demək istəyirəm ki, həmin hərbçilər erməni dilində danışırdılar!

- Sən nə deyirsən? Nə erməni?

- Bəli, erməni dilində bəzi sözləri başa düçürəm. Uşaq vaxtı ərzaq dalınca Yerevana tez-tez gedərdik və onlarla ünsiyyətdə olardıq. "Yes kes, barevçez, dığa" sözlərindən xəbərim var. Demək istəyirəm ki, o iki nəfər bizi gördükdə istehza ilə "barevçez" sözünü işlətdilər. Sanki bizə lağla salam verdilər.

- "Barevçez" salam deməkdir?

- Bəli, Rzaqulu.

- Bəs mənə niyə bir söz demədin onda?

- Desəm, nə olacaqdı ki?

- Gülləni onun qarnına dolduracaqdım...

- Yavaş, e. Deyirsən də! Birincisi, o hayda deyildik, ikincisi, elə bir məqam idi ki, gülləni onlar bizim qarnımıza dolduracaqdılar. Əlləri tətikdə idi. Məqam gözləyirdilər.

- Alçaqlar! Deməli, üstümüzə Rusiyanın vilayətlərindən topladıqları erməniləri göndəriblər?

- Bəlkə də, içərilərində Yerevan erməniləri də var idi...

Elçinlə Rzaqulu arasında söhbət davam edirdi ki, "Leytenant Şmidt" küçəsi ilə "Bakıxanov" prospektinin kəsişdiyi yerdə quraşdırılmış postda bir qrup hərbçi əməliyyatçıları saxladı. Kapitan onlara yaxınlaşaraq salamsız-sabahsız sənədlərini tələb etdi:

- Ваши документы!

Elçin Rzaqulunun üzünə baxaraq "yaxşı yerdə axşamladıq" - dedi. Zabit isə robot kimi təkrarən əməliyyatçıla-

rın sənədlərini tələb edirdi. Elçin başını pəncərədən çıxarıb post komandiriylə ünsiyyətə girdi:

- У нас в наличии только удостоверения КГБ Азербайджана…

- Какой КГБ? Нам наплевать на ваше ведомство! Предъявите пропуск или выйдите из машины!

Vəziyyətin nə qədər gərgin olduğunu hər iki əməliyyatçı anladı. Hərbçilərdən nə desən gözləmək olardı. Kapitanın tələbindən dərhal sonra əsgərlər silahlarını Elçinlə Rzaqulunun üzərinə tuşladılar. Elçin dodaqaltı Rzaquluya xitabən:

- Maşından düş və sakitcə əllərini kapota qoy. Artıq-əskik heç nə söyləmə. Bu alçaqlardan hər nə desən, gözləmək olar.

- Aydındır. Düşürəm.

Elçin zabitin üzünə baxaraq gülümsədi və qeyd etdi ki, əməliyyatda olduqlarından buraxılış vəsiqələrini ala bilməyiblər. Hərbçi iyrənc səslə hey buraxılış vəsiqəsini tələb edirdi. Bu zaman Elçinin ağlına Bakı şəhərinin komendantı Dubinyak gəldi. İclasların birində ona demişdilər ki, buraxılış vəsiqələrini almaq üçün DTK əməkdaşlarının siyahısı Dubinyaka göndərilib. Qaraxanov mayorun sifətinə baxaraq gerçəkliyi anlatmağa çalışdı:

- Товарищ майор, наши удостоверения КГБ у вас в руке. По рации выйдите на штаб Дубиняка. Передайте им наши фамилии и вам предоставят шифры пропусков.

Qaraxanovun bu sözlərindən sonra zabit bir qədər sakitləşdi. Elçinlə Rzaqulu özlərinə gəldikdə anladılar ki,

mayor "dərəcə" altındadır. Yəni, mədəsi araq, yaxud çaxırla doludur. Elçinin söylədiklərini yoxlamaq üçün postun rəisi Dubinyakın qərargahı ilə əlaqə yaratdı. Oradan "gözləyin, beş dəqiqədən sonra cavab verəcəyik" söylədilər. Mayor Elçinin üzünə baxaraq sakitcə bildirdi ki, məlumat təsdiq olunmasa, hər ikinizi güllələyəcəyəm.

Komandirin hədələri nə Elçini, nə də ki, Rzaqulunu qorxutdu. Üstəlik də, "20 yanvar" faciəsi onlarda nifrət və qisas hissi yaratmışdı. Qısa bir zamanda əməliyyatçılar mayorla xoş ünsiyyət yarada bildilər. Nəhayət, qərargahdan ratsiya vasitəsilə məlumat gəldi. Elçinlə Rzaqulunun adına buraxılış vəsiqələrinin mövcudluğu təsdiqləndi. Yarım saatdan sonra dostlar isti yataqlarında ertəsi günün müsbət  hadisələrini görmək ümidilə dərin yuxuya getmişdilər.

# X FƏSİL

## DÜŞMƏN PUSQUDA

Min doqquz yüz doxsanıncı ilin soyuq qış ayında Yerevan şəhərində sakitlik və əmin-amanlıq hökm sürürdü. Axşamüstü bütün əhali evinə çəkilib televiziya və radio vasitəsilə yanvarın iyirmisində Bakıda törədilən qətllər haqqında xəbərlərdən feyzyab olmuşdu. Kimiləri evlərində şənlənir, yeyib-içir, şampan şərabı partladır, bəziləri ucadan gülərək qələbələrini müzakirə edir, digərlərisə bir bucaqda qəmli-qəmli oturub azərbaycanlı dostlarını xatırlayır, qonşu respublikada törədilən hadisələrin nə vaxtsa Ermənistana sirayət edəcəyi barədə düşünürdü.

Ermənistan KQB-sinin binasında öz kabinetində əyləşən general Stepanyan da çırtma vurub oynamaqdan özünü güclə saxlayırdı. Simonyanın, Yesayanın və digər zabitlərin onun otağında olmaları generalı bu ehtirasdan məhrum edirdi. Hamı özündən razı idi. Nə üçün də olmasınlar? Ətlərini diri-diri yeməyə hazır olduqları azərbaycanlıları qurduqları tələyə sala bilmişdilər. Toplantını Stepanyan açıq elan etdi. Səsində bir qədər istehza olan general sanki özü özünə suallar yönəldirdi: Nə oldu, türklər? Elə bilirdiz, sizinlə bacara bilmərik? Hər yerdə oturub-duranda deyirdiniz "erməni qan gördü... qorxdu". Qan da gördük, meyitlərinizi də gördük, ana-bacılarınızı, arvad-uşaqlarınızı ağlar da qoyduq! Lakin bir qram da qorxma-

dıq. Gözləyin, başınıza hələ çox müsibətlər açacağıq. Bu başlanğıcdır.

General şanlı nitqinə başlamaq istəyirdi ki, Simonyan ayağa qalxıb təklifini səsləndirdi:

- Yoldaş Stepanyan, sizdən bir ricam var. Onsuz da iş vaxtımız bitmək üzrədir. Oktemberyan rayonunun Zvart kəndindən əmioğlum Norik qələbəmiz münasibətilə mənə öz əllərilə çəkdiyi konyakı göndərib. Üç litrlik balonda! İcazənizlə...

Polkovnik sözünü bitirmədən Stepanyan onu qabaqladı:

- Hələ bir soruşurrsan da, Karo? Görmürəm axı, o təriflədiyin konyakı!

- Yoldaş general, qapının ağzında əmakdaşımın əlindədir. İcazə versəniz onu içəri dəvət edərdim.

- Çağır içəri, Karo, çağır. Bu xoşbəxt günümüzdə belə bir fürsəti fövtə vermək olmaz.

Simonyanın tabeliyində olan Bəyləryan konyak dolu balonu rəisinə təhvil verdikdən sonra əyri addımlarla Stepanyanın kabinetini tərk etdi. Görünürdü ki, aşağı vəzifəli zabitlər də Bakıdakı iyirmi yanvar qırğınını öz otaqlarında qeyd edirdilər.

Generalın tostundan sonra konyakla boğazlarını yaşlayan polkovniklər Azərbaycanda törədəcəkləri yeni planlarını açıqlamağa başladılar. Hamısının sinəsində bir an öncə Ermənistan KQB-sinin sədri tərəfindən sancılmış "Vətən uğrunda" ordenlər parlayırdı. Stepanyan ilk sualını Simonyana verdi:

- Karo, təbii ki, nailiyyətlərin danılmazdır. Amma səninlə İqorun itkiləri də var: Kazımov Suren və Allahverdiyev Karmen.

- Yoldaş general, haqlısınız. Surenlə Karmeni xilas etmək üsullarını çox aradım. Nəhayət, qərara gəldim ki, onları azərbaycanlı əsirlərə dəyişmək yeganə çıxış yoludur.

- İndi, "yağlı" əsirləri haradan tapaq, Karo? Bilirsən ki, türklər Karmentək mühüm "kəşfiyyatçımızı" sadə bir insan ilə əvəzləməyəcək.

Bu məqamda Yesayan da söhbətə müdaxilə edərək fikirlərini izah etdi:

- Yoldaş Stepanyan, mən azəriləri gözəl tanıyıram. Hər vətəndaşını qiymətləndirir, arxasında durur, bəladan xilas etmək üçün istənilən riskə özünü atmağı bacarır. Ola bilsin ki, bizim qəhrəmanlarımızı bir nəfərə dəyişməyə razılıq verməsinlər. Ona görə də danışıqlar aparmalıyıq.

- Ağıllı təklifdir, İqor.

Qeneral bir qədər düşünüb yenidən Simonyana müraciət etdi:

- Karo, sən kontorumuzdakı SSRİ KQB-sinin nümayəndəsi Qordeyevlə görüş. O, öz kanalları ilə azərbaycan çekistlərinə çıxsın və təkliflərimizi onlara başa salsın. Dəyişmək üçün "əldə qalan" əsir və girovlardan boluq. Kazımovla Allahverdiyev üçün nə qədər adam tələb etsələr... razılaşarsan. Bir də ki bizimkilər qayıdıb gəldikdən sonra şəxsi göstərişimi onlara çatdırarsan: hər ikisi erməni familiyası götürsün. Ayıbdır... Allahverdiyev nədir? Heç olmasa, Allahverdyan olsun.

- Anladım sizi, yoldaş general. Sabah nahardan sonra Qordeyevlə görüşümün nəticələrini sizə məruzə edəcəyəm.

Simonyanla problemi həll etdikdən sonra Stepanyan özündən razı halda digər zabitlərə müraciət etdi:

- Keçək əsas məsələyə. Yoldaş Tarverdiyev!

Tarverdiyevin adını çəkdikdə Stepanyan duruxdu. Bir neçə saniyəlik sükutdan sonra o, Aşotu danlamağa başladı:

-Familiya məsələsi sənə da aiddir, Aşot. Tarverdyan olsan, səsin daha gur çıxar. Bir də ki, sənə demişdim, bugünkü iclasımıza Köçəryanı da dəvət edəsən. Buradadır?

Əks-kəşfiyyat şöbəsinin rəisi Aşot Tarverdiyev KQB-nin sədri general Dilanyanın əlindən orden alsa da, masa arxasında qəmgin vəziyyətdə oturmuşdu. Stepanyan polkovnikinin kədərli sifətini gördükdə bir daha onu sorğuladı:

- Nə olub, Aşot? Yoxsa gəmilərin batıb?

- Problem yoxdur, yoldaş general, hər şey qaydasındadır...

- Görürəm axı, üzündə iztirab əlamətləri var. Yenə də olsun, söylə, ürəyini boşalt.

- Orden alsam da, fəaliyyətimdən sadəcə narazıyam. Simonyanla Yesayan vətənimizin şərəfli dövründə əllərindən gələni edirlər, Azərbaycanda aktiv işlərlə məşğuldular. Mənsə, kabinetimdən bayıra çıxmıram. Bir dəfə də olsun, Arsaxa getməmişəm, hələ də bir türkün qanına qəltan etməmişəm...

- Darıxma və tələsmə, Aşot! Mübarizəmizə yenicə başlamışıq. İrəlidə dağ boyda işlərimiz var. Onlardan sənin də payına düşəcək. İndisə, Robert Koçaryanı otağıma dəvət et. Qoy Qarabağla əlaqədar gələcək planlarımızdan o da agah olsun.

Stepanyanın rəhbərliyi ilə keçən iclas gecə yarısınadək uzandı. Zabitlər Azərbaycanın böyük şəhərlərindən tutmuş kiçik kəndlərinin ərazilərində təxribatların, diversiya-

ların, terror aktlarının törədilməsinə rəvac verməyi məqbul hesab etdilər. Dağlıq Qarabağ ərazisində yaşayan azərbaycanlı ailələrinə qarşı sonuncu zərbənin vurulmasının incəlikləri Köçəryanla da dərindən müzakirə edildi. Robert tam təlimatlandırılaraq geriyə - Stepanakertə yola salındı. Stepanyan iclas iştirakçılarına xitabən yeni suallarını səsləndirdi:

- Mənə Azərbaycana yeni təyin olunmuş birinci katib Mütəllibov barədə məlumat verin.

Simonyan Azərbaycanın yeni rəhbəri barədə topladığı məlumatları generala məruzə etmək üçün icazə istədi. "Buyur!" cavabını verdikdən sonra Stepanyan kabinetdən-kabinetə daşıdığı sevimli kreslosuna yayxandı və şövqlə "eşidirəm səni" söyləyib diqqətini Karoya yönəltdi. Simonyan bloknotunu vərəqləyərək məruzəsinə başladı:

- Mütəllibov Ayaz Niyazoviç, min doqquz...

General yuxulu gözlərini ovuşduraraq Simonyanı yarıyoldan qaytardı:

- Karo, gecə saat ikinin yarısıdır! Mənə Mütəllibovun tərcümeyi-halını danışsan, evə gedib çıxa bilməyəcəyəm. Mən də insanam axı. Gün ərzində heç olmasa, dörd saat yatmalıyam. Məlumatı qısaca söylə.

Generalın sözlərindən sonra arzusu ürəyində qalan Simonyan dodaqaltı "üç günlük əməyimi yerə vurdun" söyləyib, məruzəsinə davam etdi:

- Yoldaş general, qısaca deyə bilərəm ki, Vəzirovun Azərbaycandan, onun xalqından, adət-ənənələrindən bir qram xəbəri yox idi. Mütəllibovu isə cəmi bir sözlə səciyyələndirmək olar: həddindən artıq qorxaqdır.

- Elə bu, Karo?

- Özünüz dediniz axı, söhbəti uzatmayım...

- Düzdür. Əla! Mənim üçün hər şey aydındır. Bundan sonrakı fəaliyyətimizi Mütəllibovun qorxaqlıq keyfiyyəti üzərində quraçağıq. Bilirsən, niyə dedim qısa elə?

- Sizin düşündüklərinizi haradan bilim, yoldaş general?

- Onda eşidin məni: Mütəllibov mənim üçün heç bir əhəmiyyət kəsb etmir! Əsas odur ki, Azərbaycandakı hakimiyyət Heydər Əliyevin əlinə keçməsin. Bax, əsl o zaman bu günədək qurduğumuz bütün planlar, apardığımız mübarizə puç olub gedəcək. Aydındır, yoldaş Simonyan?

- İndi mənim üçün hər şey bəlli oldu. Bilirsiniz də, 20 yanvar hadisələrilə əlaqədar Heydər Əliyev Azərbaycanın Daimi Nümayəndiliyində geniş brifinq təşkil edərək, bəyanatla çıxış edib. Səriştəsizlikdə, düzgün məlumat verməməkdə Azərbaycan rəhbərlərini, Bakıya qoşunları lüzumsuz yeritməkdə isə Mərkəzi yıxıb-sürüyüb.

- Bilirəm, Karo, hər şeyi bilirəm. Nəysə.

Nitqini bitirən general Stepanyan zabitləri dincəlmək üçün evlərinə buraxdı. Özü də aşağı enib xidməti maşınına əyləşərək azərbaycanlıların başına gətirəcəyi yeni bəlaların xəyalı ilə evinə yollandı.

***

Bakı şəhərinin hər yerində hərbi postlar vətəndaşların azad hərəkətini məhdudlaşdırmaqda idi. Azərbaycanın paytaxtında siyasəti, iqtisadiyyatı idarə edən hərbi komendatura idi. Keçiriləcək tədbirlər, yas mərasimləri üçün icazəni yalnız boyunları yoğunlamış, sifətləri al qanla dol-

muş, spirtli içkilərlə mədələri və qara ciyərləri şişmiş yarı ayıq sovet zabiti və əsgərindən almaq olardı. Xalq itaətsizlik göstərməkdə idi. Etiraz əlaməti olaraq heç kim işləmirdi. Hərbçilər küçə-küçə gəzərək evlərə girib insanları işə getməyə məcbur edirdilər. Lakin ordunun bu səyləri nəticə vermirdi. Çünki əsgərlərin qətl etdiyi yüzlərlə mülki insanların ruhları Bakı sakinlərini bağışlamazdı.

Azərbaycan DTK-sında da vəziyyət ürəkaçan deyildi. Əməkdaşlar kimin və nəyin xidmətində olduqlarını dərk edə bilmirdilər. "Sovet İttifaqına xidmət edirəm" sözləri öz aktuallığını tamamən itirmişdi. "Azərbaycan Respublikasına xidmət edirəm" ifadəsi isə könüllərdə öz yerini almağa başlamışdı. Bütün yazı işlərini rus dilində icra edən əməliyyatçılar artıq Azərbaycan dilinə keçməkdə israrlı idilər. Hətta  Rasim kimiləri də əzab-əziyyət çəkərək ana dillərini qavramağa və dərk etməyə başlamışdılar. Buna baxmayaraq, "ruslaşmış" beyinli adamlar öz xəyallarında Vətəndən uzaqlarda dolaşmaqda idilər. Bakı rusları, gürcüləri, yəhudiləri azərbaycan dilinə üstünlük verməklərilə fəxr etsələr də, bəzi azərbaycanlılar ana dilində danışmaqdan çəkinir və utanırdılar.

Dövlət Təhlükəsizlik Komitəsində ana dilinə görə köklü dəyişikliklərə məruz qalan bir neçə əməkdaş acizlikdən çekist sıralarını tərk etməyə məcbur oldular. Ermənistan KQB-sinin əməkdaşları isə əksinə, çətinliklə rus dilində fikirlərini izah etmələrinə baxmayaraq,  Qorbaçovun ətrafında özləri üçün yeni havadarlar və dostlar əldə edirdilər.

Belə bir şəraitdə DTK-nın bölmə rəisi Elçini kabinetinə dəvət etdi. Xəzər müəllimin kefi heç də xoş deyildi. Keçən gün işdən evə qayıdarkən rus əsgərləri onu postda saxla-

yıb təhqirə məruz qoymuşdular. Qaraxanovla salamlaşdıqdan sonra İsmətov dərdini söyləməyə başladı:

- Mənə yer eləyən o deyil ki, hərbçilər vəsiqəmə əhəmiyyət vermədən üstümü və maşınımı yoxladılar. Xeyr! Onların bizim millətə qarşı işlətdikləri təhqiramiz sözlərdən anladım ki, Bakıya yeridilən sovet ordusu tərkibində erməni əsilli zabitlər də var.

- Nədən bildiniz, Xəzər müəllim?

- Danışıqlarından. Bilirsən də, Elçin, ermənilər iyrənc sksentlə rus dilində necə danışırlar.

- Əlbəttə, bilirəm, rəis. Moskvada onlarla bir yerdə təhsil aldım. Axıra kimi rus dilinə yiyələnə bilmədilər. Amma nə olsun? Hamısı akademiyanı bitirdilər, diplomlar, zabit poqonları aldılar. Bəs bizimkilər? Azərbaycanın bütün böyük şəhərlərində sakinlər rus dilini, ədəbiyyatını, tarixini, hətta coğrafiyasını ruslardan da yaxşı bilirlər. Ayrı bir millətin dilini bu cür mükəmməl bilsəydik, bizləri başlarının tacı edərdilər.

- Bu da "sağ olun" deməkləridir. Qoşun yeridib elə rusdilliləri də məhv etdilər.

- Belədir də, Xəzər müəllim! Nə qədər ki, böyük dövlətlərin qarşısında özüvü məzlum göstərirsən, onların adət və ənənələrinə yiyələnirsən, o qədər də təpəndə qoz sındırırlar. Gərək sözüvü deyə biləsən, haqqın dalınca qaçasan, siyasi bicliklərdən istifadə edəsən ki, kiçik xalq olsan da, sənə hörmət qoysunlar. O qədər böyük qəhrəmanlarımız olub ki! Babəkdən tutmuş...

- Deyirsən də, Elçin. Məsəl var: kiçik xalqın böyük oğlu olmaqdansa, böyük xalqın kiçik oğlu olmaq daha sərfəlidir.

- Nə bilim, vallah. İş görməyə də əlim gəlmir.

- Elə ona görə də səni otağıma dəvət etmişəm. Ezamiyyətə göndərilirsən – Naxçıvana.

Elçinin gözləri sanki nurla doldu:

- Əminəm ki, bu dəfə Qorelovskinin tələbiylə məni Bakıdan uzaqlaşdırmırsınız? Mən hazır, Xəzər müəllim. Nə vaxt?

- Qorelovski kimdir, e? Bilirsən ki, Naxçıvanda vəziyyət çox gərgindir. Erməni yaraqlıları hər istiqamətdən muxtar respublikanın ərazisinə soxulmaq istəyirlər.

- Məlumatım var, rəis. Valideynlərimlə mütəmadi əlaqə saxlayıram. Naxçıvanlılar əzmkarlıqla döyüşürlər. Sözün əsl mənasında düşmənə bir qarış belə torpaq verməməkdə israrlıdırlar.

- Silahları da, döyüşçüləri də azlıq təşkil edir. Buna baxmayaraq, ermənilərin gözünün odunu alıblar. Bir sözlə, yardım məqsədilə oraya üç nəfər ezam olunursunuz.

- Üç nəfər?

- Hə. Şəmil Naibov və Böyükağa Həziyev də səninlə birlikdə Naxçıvana gedəcəklər.

- Hər ikisini tanıyıram. Arxiv şöbəsindən. Əsas odur ki, mübariz və mərddirlər.

- Deməli, sizinki tutacaq. İkinci reyslə uçacaqsınız. İndisə evə gedib yola hazırlaş, Qaraxanov.

- Oldu, yoldaş İsmətov.

- Az qala yadımdan çıxmışdı, Elçin. Silah-sursatı aşağıda hazırlayıblar. Mayor  Qurbanov sizi gözləyir.

- Deyirəm, Xəzər müəllim, hadisələrlə əlaqədar burada əl-qolumuzu bağlayıblar. Heç olmasa, Naxçıvanda şəhidlərimizin qisasını almaq imkanı əldə edərik.

- Sizə yaxşı yol, Elçin. Sağ-salamat qayıdasınız!

-Xəzər müəllim! Bəs silahları postlardan necə keçirəcəyik?

- Narahat olma, rəhbərliyimiz hər şeyi Dubinyakla razılaşdırıb. Ad-familiyanız bütün postlara verilib, maneəçilik törətməyəcəklər...

- Hə da, Dubinyaka nə lazımdır ki?

- Nə, Qaraxanov?

- Silahlanaq və ermənilərlə bir-birimizi qıraq!

- Nəysə, Elçin, təhlillərini özündə saxla. Bir daha sənə yaxşı yol.

- Sağ olun, rəis!

Axşama yaxın Böyükağa müəllim başda olmaqla DTK-nın mərkəzi aparatının əməkdaşları artıq Naxçıvan aeroportuna enmişdilər. Həziyevlə Naibov həyatlarında ilk dəfə idi ki, Muxtar respublikanın ərazisinə təşrif buyururdular. Şəmilin ilk sözü "buraların necə təmiz havası var, Elçin!" oldu. Böyükağa müəllim isə "bilmirəm daşnakların üzünə tüpürüm, yaxud sağ ol deyim ki, sayələrində, nəhayət ki, Vətənimin bu gözəl guşəsini də gördüm"- söyləyib yaxınlıqda gözləyən taksi sürücüsünə işarə verdi. Sürücü əməliyyatçılara yaxınlaşaraq salamlaşdı və Elçini tanıyan kimi ona qəmgin səslə sual ünvanladı:

- Yəqin ki, şəhərə tərəf gedəcəksiniz?

- Bəli, qardaş. Amma görürsən də, yükümüz ağırdır. Onları maşınıva qoymağa köməklik göstərsən, məmnun olarıq.

- Baş üstə, müəllim. Hara aparacağam sizi?

- KQB-yə!

- Anladım. Yükünüzün ağır olması bilirəm ki, xeyrimizədir. Deməli, döyüş zonasına gedəcəksiniz, Sədərək kəndinə.

Sadə sürücünün bu qədər ayıq-sayıq olmasını görən Həziyev DTK binasına çatanadək Qaraxanova cəmi bir kəlmə söylədi:

- Deyirdilər axı, naxçıvanlıların hamısı anadangəlmə "çekistdirlər."

Elçin gülümsəyərək Böyükağa müəllimə "bir də deyiblər ki, burada ala qarğa bala çıxartmaz" cavabını verdi. Bu sözlərdən sonra Naibov müəmmalı mimika ilə nəzərini Qaraxanova yönəltdi və "xahiş edirəm, komitədə bu deyimin mənasını mənə dəqiq başa salasan" sözlərini söyləyib uzaqda görünən Haça dağa baxmağa davam etdi.

İyirmi dəqiqədən sonra qonaqlar gətirdikləri az miqdarda silah-sursatı DTK-nın zirzəmisinə boşaltdılar. Naxçıvan DTK-sının əməkdaşları çox yorğun idilər. Bir qismi Sədərəkdən, digərləri də Ordubad və Şahbuzdan qayıdırdılar. Həmin zonada erməni təcavüzkarları ilə qızğın döyüşlər gedirdi. Ana Vətənlə əlaqəsi kəsilən naxçıvanlılar bir Allahın, bir də mərd və mübariz oğullarının ümidinə qalmışdılar. Yükü təhvil verdikdən sonra qonaqlar İsfəndiyar Mirzəyevin kabinetinə keçdilər. DTK sədrinin başı erməni yaraqlıların hücumları ilə ələqədar məsələlərə qarışmışdı. Nəhayət o, başını yuxarı qaldırıb yorğun və yuxulu səslə qonaqlara "xoş gəlmisiniz!" kəlməsini söyləyə bildi. O, həm də Qaraxanova xitabən xahişini bildirdi:

- Elçin! Qonaqlar sənlikdir. Onları aparırsan öz evinizə və yedizdirirsən. Sabah səhər tezdən ya avtobusla, ya da ki, qohumlarının şəxsi maşını varsa... onunla gedirsiniz İliç rayon şöbəsinə. Bizimkilər sizi qarşılayacaq. Silahla orada təmin olunacaqsınız.

- İsfəndiyar müəllim, Sədərəyə nə vaxt gedəcəyik?

- Bu nə sualdı, Qaraxanov? Oradan birbaşa Sədərəyə gedəcəksiniz, bilavasitə döyüşə. Yerli camaatla davranışınıza fikir verin. Hamısının əsəbləri tarıma çəkilib.

- Bunu mənə deyirsiniz, yoldaş polkovnik?

- Doğrudan da... görün, kimə nə deyirəm e. Naxçıvanda doğulub boya-başa çatan insana. Nəysə, Elçin, gedə bilərsiniz. Sizə uğurlar!

- Oldu, yoldaş polkovnik!

Vaxt itirmədən Elçin Böyükağa müəllimi və Şəmili götürüb evlərinə apardı. Doğma ocağa çatdıqda aydın oldu ki, orada nə işıq var, nə də ki, istilik. Elçinin pərişan simasını görən Şəmil dostuna ürək-dirək verməyə başladı:

- Kefin niyə qaçdı, Qaraxanov? Məgər Yesentukiyə dincəlməyə gəlmişik?

Böyükağa müəllim də zarafatla öz fikrini səsləndirdi:

- Heyiflər olsun ki, Azərbaycanın bu gözəl diyarına belə bir ağır vaxtda gəldim. Onu da deyim ki, əgər Elçinin evində hər cür şərait, yaxud rahatlıq olsaydı, döyüşdə iştirakımız zəifləyəcəkdi. Yaxşı ki, qonaq gəldiyimiz ev də müharibə vəziyyətindədir.

Həziyevin sözləri Elçini bir balaca ruhlandırdı və o, həyət darvazasını itələyərək çətinliklə açdı. Həyətə çoxlu qar yağmışdı. Qonaqlar şüşəbəndə keçdilər. Qapını açan

Elçinin atası Nəsib kişi yerindəcə donub qaldı. Deməyə sözü yox idi. Həmən anladı ki, oğlunun qəfil gəlişi sərhədlərdəki döyüşlərlə əlaqədardır. Bir neçə saniyə davam edən səssizlikdən sonra Elçinin atası qonaqlarla görüşərək onları içəriyə dəvət etdi. Səs-küyə Naibə xala da dəhlizə gəldi və oğlunu qucaqlayıb ağlamağa başladı. Elçin kövrəldi, anasına ürək-dirək verdi:

- Sevinmək əvəzinə niyə bə ağlayırsan?

- Nəyə sevinim, ay oğul? Erməni alçaqları hər tərəfdən Naxçıvana hücum çəkiblər. Şıdırğı döyüşlər gedir. Nə qədər igid oğullarımız həlak olub!

- Darıxma, ana! Biz də yardıma gəlmişik. Sən əsas torpaqlarımızdan danış.

Naibə xala bir qədər geriyə çəkilərək qonaqların üzünə baxdı və fəxrlə bildirdi:

- Bir qarış belə torpağımızı ala bilməyiblər. Yüzlərlə daşnak qırmışıq, meyitlərini "Kamaz" maşınlarıynan daşıyırlar. Yadelli "dığalara" biz torpaq verərik?

- Şad xəbər olasan, ana. Bunu bildik. Bəs yeməyə nəyin var?

- Bu dəqiqə, Elçin. Mətbəxdə şam yeməyini hazırlayırdım ki, siz gəldiniz. Hamınız xoş gəlmisiniz! Özüvüzü evivizdəki kimi hiss edin.

Elçin yataq otaqlarının qapısını kilidli gördükdə təəccüblə atasını sorğuladı:

- Qapıları niyə bağlamısınız?

- Soruşma, Elçin. Bu il Muxtar respublikanın bütün ərazilərində soyuqlar tüğyan edir. Qaz yox, işıq yox. Gecələr bir mətbəxi, bir də ki qonaq otağını neft sobası ilə qız-

dırırıq. Yaxşı ki, iki ədəd almışıq. Yoxsa, qonaqlarımız donacaqdılar.

- Sən mənə ikinci sobanın yerini göstər ki, vaxt itirmədən quraşdırım.

- Narahat olma! Özümüz düzüb-qoşacağıq. Qardaşın getdi zirzəmidən neft gətirsin. Yataq otağının birini isidəcəyik.

Bu məqamda Şəmil də söhbətə qoşuldu:

- Nəsib dayı, siz qəti narahat olmayın. İndiki zamanda neft çətinliklə tapılır. Biz özümüzlə qalın hərbi geyimlərimizi gətirmişik. Sobasız da gecələyə bilərik. Məncə onu yandırmağa ehtiyac yoxdur. Bir də ki, səhər tezdən İliç rayonuna çıxacağıq.

Bu vaxt əlindəki qazanla otağa daxil olan və Şəmilin son sözlərini eşidən Naibə xala yenə kədərləndi. Yazıq qadın çətinliklə sözlərini izhar etdi:

- Allah sizi bütün bəlalardan qorusun!

Ertəsi gün səhər yeməyindən sonra qonaqlar Elçinin divar qonşusu olan Cəfərin "Vilis" markalı köhnə avtomobilində İliç rayonuna istiqamət götürdülər. Orada onları əvvəlcədən danışıldığı kimi şöbənin rəisi Cavanşir Həmidov qarşıladı. Əməliyyatçılar avtomatlarla silahlanıb Sədərəyə yola düşdülər. Kəndə bir-iki kilometr qalmış Ermənistan tərəfdən sakinlərin başına yağdırılan top mərmilərinin uğultulu səsləri əməliyyatçıların qulağını dəlməyə başladı. Bakıda mülki əhaliyə qarşı atılan güllələrin səsi Elçingilə bəlli idi. Lakin top mərmisinin partlayışları onlarda təşviş hissi yaratdı.

İnsanın taleyini həll edə biləcək anlar var. Kim desə ki, "mən heç nədən qorxmuram", o şəxs ən azı qeyri-səmimidir. Yer kürəsində nədənsə qorxmayan insan hələ doğulmayıb. Əgər adamlarda qorxu hissi olmasaydı, bəşəriyyətin kökü çoxdan kəsilərdi. Hamı istədiyi vaxt binanın on beşinci mərtəbəsindən yerə tullanar, üzə bilməyənlər dənizlərə, çaylara kəllə vurub qərq olar, hər şeyi sınamaq istəyən adamlar tapançadan gicgahına atəş açar, zəhərli mayeni qəbul edər, şir-pələngin, canavarın ağzına atılardı. Bir var, qorxaq olmaq, bir də var, qorxmaq. Qorxaqlardan şər, axmaqlıq, satqınlıqdan başqa heç nə gözlənilməz. Bu şərəfsiz hiss onların alnına ömürlük yazılıb. Qaldı ki, qorxmağa... bu əməl igidə, mərdə, xeyirxah və mübariz insanlara da məxsusdur. Dağı dağ üstünə qoyan qəhrəman eşşək arısından, əqrəbdən, ilandan qorxa bilər. Belə vəziyyət igidə şərəf gətirər, ətrafındakılarda ona qarşı yalnız səmimi gülüş törədər. Vay o günə ki, sadalanan durumlara qorxaq düşə. Cüzi qalan şərəf, qeyrət, namusunu da itirər. Dediyim o ki, insan oğluna qorxu hissi yad deyil. Bu, onun özünü müdafiə mexanizmi, həyatda qalmaq instinktidir.

Sovet İttifaqı adlanan dövlətin ərazisində qızğın döyüşlər gedirdi. Rusiyanın ətrafında birləşən iki müttəfiq respublikanın arasında müharibənin bütün əlamətləri təzahür edirdi. Yeganə fərq onda idi ki, başdan ayağa silahlanmış erməni yaraqlıları əlində "dayan doldurum" tüfəngli azərbaycanlılara qarşı hər tərəfdən hücuma keçmişdi.

Azərbaycandan ayrı düşən naxçıvanlılar da primitiv silahlarla təkbaşına təcavüzkar ermənilərə qarşı mərdi-

mərdanə döyüşürdülər. Respublikanın yeni rəhbərliyinin nəylə məşğul olacağı hələlik heç kəsə bəlli deyildi. Mübariz və cəsur Sədərək əhli paytaxtdan əlini çoxdan üzmüşdü. Onlar bir şeyi dəqiq anlayırdılar ki, heç vaxt Naxçıvana doğma münasibət bəsləməyən Vəzirov nə idi ki, Nazirlər Sovetinin keçmiş sədri, yəni, birinci katib Mütəllibov nə olsun! Ona görə də, Bakıdan gələn üç nəfər KQB əməkdaşı əllərində tutduqları müasir silahlarla kənd sakinlərinin qələbəyə olan inamını az da olsa, möhkəmləndirdi.

Nəhayət, Elçin öz dostları ilə birlikdə Sədərək kəndinin "cin təndiri" adlanan yerində mövqe tutdu. Qarşı tərəfdən müxtəlif növ silahlardan açılan atəşin ardı-arası kəsilmirdi. Elçin Şəmilin üzünə baxaraq zarafatla fikrini söylədi:

- İndi mənə dəqiq çatdı ki, rəhmətlik nənəm "göydən camaatın başına güllə yağırdı" sözlərini dedikdə nəyi nəzərdə tuturdu.

Şəmil Elçinin dediklərinə gülümsəyərək qulaq asırdı. Lakin gözlərini qarşıdakı yüksəklikdən çəkmirdi. Qaraxanov Şəmilin bu hərəkətinin səbəbini soruşdu:

- Şəmil, dağlarda nəyi elə diqqətlə seyr edirsən?

- Elçin, sən gözdən məndən də itisən. Önümüzdəki zirvənin üzərində qırmızı qayanı görürsən?

- Hə, Şəmil, görürəm və əminəm ki, onun arxasında sərrast nişançı oturub.

- Ay sağ ol. Mən əlli metr irəliyə yürüyəcəyəm ki, qəbir daşlarının arxasından həmin sərrast atıcını nəzarətə götürüm...

- Bir dəqiqə səbr elə, Şəmil. Əlindəki avtomat səkkiz yüz metri zorla vurur. Buradan zirvəyədək azı bir kilometr məsafə var.

- Bilirəm, Elçin. Fikrim odur ki, mən nişançının mövqeyini sağ istiqamətdən atəşə tutum. Sənsə pulemyotunla onun sol tərəfini nəzarətə götür. Bu vəziyyətdə Böyükağa müəllim snayper tüfəngilə onu zərərsizləşdirə biləcək.

- Düz deyirsən, qardaş. İt oğlu mövqelərimizi tam nəzarətdə saxlayır. Onu aradan götürmək lazımdır.

Bu minvalla Naibov avtomatını döyüş vəziyyətinə gətirib qəbiristanlıq tərəfə üz tutdu. Əməliyyatçılar haradan biləydilər ki, qaya arxasında bir deyil üç nəfər erməni yaraqlısı mövqe tutub? Binokl yox, uzaqgörmə cihazı da yox. Şəmil iyirmi addım irəliləmişdi ki, yüksəklikdən açılan aramsız atəş onu hansısa mərhumun qəbir daşının böyürünə sıxışdırdı. Naibov imkan tapıb geriyə - sığınacağa qayıtsın deyə, Elçinlə Böyükağa müəllim durmadan qaya tərəfi şiddətli atəşə tutdular. Şəmil qəbrin yanında mövqeyini möhkəmlədə bildi. Sonra da zarafatla yoldaşlarına hündürdən səsləndi:

-Hədər yerə patronları israf etməyin. Qaranlıq düşənədək mən burada qalası oldum, axşam qəbir sakinindən mənim buzlaşmış meyitimi təhvil alarsınız.

Ətrafda döyüşlər davam edirdi. Erməni yaraqlıları azərbaycanlıları mövqelərindən uzaqlaşdırmaq üçün mütəmadi hücuma keçirdilər. Lakin onların səyləri əbəs idi. Naxçıvanlıların gözünü qan örtmüşdü. Düşmən böyük itkilərə məruz qalıb geri çəkilməyə məcbur olurdu. Sədərəklilər yaralanma və həlak olmalarına rəğmən, mövqelərində dağ kimi dayanmışdılar.

Bir neçə saatlıq döyüşdən sonra cəbhədə qəflətən sakitlik bərqərar oldu. Elçin tikilinin arxasından sovet ordusunun nişanı olan piyadaların döyüş maşınının onlara tərəf

gəldiyini gördü. O, bilirdi ki, həmin zirehli maşın İliç rayonunun Qıvraq kəndində yerləşən sovet alayına məxsusdur. Qaraxanov bir qədər diqqətini zəiflədib başını divarın arxasından çıxardı. Elə bu məqamda atəş səsi eşidildi. Partlayıcı güllə sanki Qaraxanovun sağ qulağına toxunaraq vıjıltı ilə keçib onun gizləndiyi divarın kərpicinə dəydi. Qırıntılar Elçinin başına töküldü. "Əgər atəş səsini eşidirəmsə, deməli, ölməmişəm" fikirilə Qaraxanov yerə yatdı. Uzaqdan Şəmilin qışqırtısı gəlirdi:

- Elçin, sağsan? Elçin!

- Sağam, Şəmil, sağam. Narahat olma! Gördün də? Bu da bizim "Qızıl ordu". Ermənilər hamısını satın alıb. Əclaflar az qala alnımı deşəcəkdilər.

- Min şükür, Elçin! Elə istədim qışqıram ki, bunlardan ehtiyatlı ol... atəş açıldı. Buradan PDM yaxşı görünürdü. Nəysə, Allah səni qurtardı.

Sovet hərbçilərinin hərəkətlərini sağ tərəfdəki səngərdə mövqe tutan Azərbaycan döyüşçüləri də gördülər. On dəqiqədən sonra zirehli maşının ekipajı saxlanılaraq sorğulanmaq üçün Naxçıvanın hərbi komendaturasına göndərildi. PDM-dəkiləri tərk-silah edən Sədərək kənd sakini Elçinə yaxınlaşıb onun əhvalı ilə maraqlandı:

- Qardaş, bizlər qonağa artıq söz deyənin əhədini üzərik. Sənin üçün bint və yod gətirmişəm. Güllənin kərpici dəldiyini, onun qırıntılarının sənin üzərivə sıçradığını gördüm. Deyəsən, bir balaca alnın siyirilib.

- Qəti narahat olma, dostum. Belə bir ağır döyüşlərin qabağında adi siyirilmənin əhəmiyyəti yoxdur. Mənim

özüm də buralardanam, hər şey əladır. Lakin əslən bakılı qonağımızın başı dərddədir!

- Qardaş, sizin adınız nədir?

- Elçin!

- Mənim adım Vidadidir. Anlamadım, bakılı qonağımıza nə olub?

- Qəbiristanlıq tərəfə bax, Vidadi.

- Baxıram. Buraların hər qarışını tanıyıram!

- Gözəl. Görürsən dostumuzu? Əlli metr irəlidə, ağ qəbir daşının sağ tərəfində!

- Görürəm, Elçin. O, necə oraya gedib? Dəhşət!

- Guya, istədik zirvədəki sərrast nişançını məhv edək. O da  alınmadı. Qonağımızın adı Şəmildir. Başını qaldırmağa belə macal tapmır. Daşnaklar həmən atəşə tuturlar. Qaranlığın düşməsini gözləyirik.

Vidadi bir kəlmə söyləmədən ratsiya vasitəsilə komandirlə əlaqə saxladı və yüksəklikdəki erməni yaraqlılarının koordinatlarını ona izah etdi. Dodaqaltı da hey bir cümləni təkrarlayırdı: “Ta ki, qonağımızın başına bir iş gəlməsin!” Beş dəqiqədən sonra Vidadinin komandiri Seyfulla bildirdi ki, Şəmil hazır olsun, birinci “alazan” mərmisinin səsini eşitdikdə var gücü ilə geriyə tərəf qaçsın. Elçin Seyfullanın tələbini birtəhər  Naibova çatdırdı. Şəmil baş barmağını yuxarı tutub sözləri anladığını təsdiqlədi. Beş dəqiqədən sonra  “alazan” mərmisi zirvədəki qayanı param-parça etdi. Naibov on beş saniyə ərzində xilaskarlarının yanına yürüdü. O, ağızdolusu öz təəssüratlarını  bölüşürdü. Vidadi Şəmilə “qonaq bizim üçün müqəddəsdir, eh-

tiyatlı olaq" sözlərini söyləyib cəbhə xəttinin sol cinahına tərəf üz tutdu.

Elçin sədərəkli döyüşçünün arxasınca yalnız "sağ ol, qardaş!" sözlərini deyə bildi. Dostlar bir daha Vidadini görmədilər. Beş gündən sonra isə məlum oldu ki,Vidadi adında döyüşçü ağır yaralanaraq Naxçıvan Şəhər Xəstəxanasına aparılmışdır.

Bakıdan Naxçıvana ezam olunan "çekistlərin" ongünlük "sərgüzəşti" döyüşlərdə bitdi. Onlar bir daha əmin oldular ki, Naxçıvanın əjdaha kimi oğullarının qarşısında heç bir erməni daşnakı tab gətirə bilməyəcək. Artıq Bakıya qayıtmaq vaxtı gəlib çatmışdı. Bakılı dəstəkçilər bariz döyüşçülərlə vidalaşırdılar ki, milis şöbəsinin rəisi onların yanına gəldi və əsəbi halda Qaraxanova iradlarını bildirməyə başladı:

- Eşitdiyimə görə, sənin adın Elçindir!

- Bəli, sənə düzgün məlumat veriblər.

Milisin tərbiyəsizliyi müqabilində Qaraxanov "sən" sözünü uca səslə vurğuladı və əlavə etdi:

- Biz səninlə nə duz-çörək kəsmişik, nə də ki, bir yerdə döyüşmüşük! "Sən" nə deməkdir?

Milis rəisi Həsən Allahverdiyev bir az da coşdu:

- Ucuz söhbətləri qoy qırağa, Elçin. Sənin məsləhətlərivə ehtiyacımız yoxdur! Məndə olan məlumata görə, sizin avtomatınızın darağında yalnız "xolostoy" patronlar mövcuddur! Buna nə deyirsən?

Qaraxanov özünü sındırmadan milisin cavabını verdi:

- Bəli, sənə düz məruzə ediblər. Hər on patrondan biri gülləsizdir. Bununla nə demək istəyirsən?

Milis rəisi öz inadından əl çəkmirdi:

- Onu demək istəyirəm ki, Bakıdan bura gəlib təxribatla məşğul olursunuz. Onsuz da Vəzirov bizə ögey münasibət bəsləyirdi. İndi də, bu.. nədir onun adı? Hə, Ayaz. Deyəsən ondan da bizə xeyir gəlməyəcək...

Qaraxanov Allahverdiyevin cəfəng sözlərinə məhəl qoymadan Şəmillə Böyükağa müəllimə bildirdi ki, İliç Rayon şöbəsinə getmək üçün maşına minsinlər. Lakin milis rəisi əl çəkmək istəmirdi:

- Sən sualıma cavab vermədin axı!

Burada Elçin əsəbinə sahib çıxa bilmədi:

- Ə, deyəsən başın bədənivə ağırlıq edir axı. Dinmirəm, o demək deyil ki, səndən çəkinirəm. Elə danışırsan ki, guya erməni kəşfiyyatçılarını ifşa etmisən. O dəqiqə bilinir ki, mama uşağı kimi əsgərlikdə olmamısan.

Əsəbdən dodağı əsən milis rəisi də Elçinə bozardı:

- Mənim ömrüm əsgərlikdə, döyüşlərdə, zabitlərin arasında keçib. Sənmi mənə avtomatdan dərs keçəssən?

Bu məqamda mübahisə edənlərin yanına döyüşçülərin rəhbəri Seyfulla yetişdi və gur komandir səsiylə nə baş verdiyini anlamağa çalışdı:

- Nə olub, yerlilər? Erməni faşistlərini biçib qurtardıq ki, öz aramızdakı məsələləri həll edirik?

Elçin Seyfullaya məsələnin məğzini anlatdı. Belə ki, doğrudan da, onların gətirdiyi hər on patrondan biri "xolostoy", yəni boş, daha dəqiqi, güllәsiz idi. Güllənin bu qıt vaxtında boş patronlar belə gurultu səsi çıxardığı üçün ən azından qarşı tərəfdə güclü silahlanma qorxusu yaradır-

dı. Bu hərəkətin əslində anlamlı olduğunu dərk edən komandir milis rəisinə üz tutdu:

- Bu uşaqlar on gündür səngərlərdən çıxmırlar, mənimlə bərabər çiyin-çiyinə döyüşürlər! Sənəmi qaldı onların darağındakı gülləsiz patronları saymaq? Biz də sovet ordusunda xidmət etmişik. Darağa hər on patrondan bir ya "trasser", yada ki, "gülləsiz" düzərdik. Burada nə faciə baş verib ki?

Həsən Allahverdiyev Seyfullanın əlində hazır vəziyyətdə pulemyotu gördükdə səs tonunu aşağı saldı:

- Bilirsən, Seyfulla? Neçə aylardı ki, paytaxtdan silah-sursat istəyirik. Yetim kimi qalmışıq bəxtimizin ümidinə. Sovet alayından it əziyyətilə patron alırıq. Elçinin avtomatındakı güllələr isə son nöqtəni qoydu. Ona görə də əsəbimə hakim ola bilmədim.

Seyfulla milisin iradlarının həqiqət olduğunu anlayırdı. Ona cavab verdi:

- Səni başa düşürəm. Amma sən də başa düşməlisən ki, dostlarımız Bakıda hökm sürən ağır vəziyyətə baxmayaraq ailələrini orada qoyub Naxçıvana gəliblər. Bizimlə bərabər dərdimizi bölüşürlər. Budur sənin sağ olun, qonaqpərvərliyin? Özü də, axırıncı gündür ki, buradadırlar. Axşam Bakıya dönürlər. Nəysə! Əl uzat onlarla görüş, yaxşı yol dilə.

Komandirin nəsihətlərindən sonra milis rəisi qonaqlara dodaqaltı "yaxşı yol" sözlərini çatdırıb xidməti maşınına mindi və şöbəsinə tərəf istiqamət götürdü. Seyfulla isə milis rəisinin adından Azərbaycan DTK-sı əməkdaşlarından üzr istəyərək onları Naxçıvana yola saldı.

Qonaqlar yolüstü DTK İliç Rayon Şöbəsinə baş çəkib şəhərə tərəf üz tutdular. Yol boyu maşında Şəmil Elçinə sual verirdi:

- Demədin axı, ala qarğa nə deməkdir?

Elçin nəhayət, onun sualını cavablandırdı:

- O deməkdir ki, Naxçıvan çox qəliz yerdədir. Ətrafındа Ermənistan, Arazın o tayında farslar, blokada şəraiti, ana Vətəndən ayrı düşmə... Di gəl bu vəziyyətdən çıxış yolu tap, qalsın ki, ala qarğanın bala çıxartması. Bizim yerimizə kim olsaydı, özünə çoxdan əl qatmışdı. Onu da bil ki, Şəmil, min illərlə tariximiz var və Səlcuq dövləti buralardan öz möhtəşəm salnaməsini yazmağa başlayıb!

Qaraxanov sözünü bitirmədən maşın onun həyət darvazasının qarşısında dayandı. Qonaqlar çanta və "buşlatlarını" götürüb Elçinin evinə daxil oldular. Naibə xala bu dəfə oğlunun gəlişindən xəbərdar idi. Dəhlizdə ikən Elçin salam əvəzinə anasına ürəyindən keçənləri söylədi:

- Gözəl qoxudan anladım ki, plov bişirmisən. Özü də "üz-gözü" ilə birgə.

Şəmil təəccüblü sifətilə Elçinin üzünə baxdı, lakin ağzını açıb sual verməyə macal tapa bilmədi. Elçin özü onun xəyali sualına cavab verdi:

- Bilirəm, səni maraqlandıran "üz-göz" sözüdür. Bakılılar plovun ətini ərik qurusu, qoz-şabalıdla bişirirlər. Bizdə isə yalnız pencərlə.

Pencər sözünü eşitdikdə Naibov sol qaşını yuxarıya qaldırdı. Elçin yenə də Şəmilin təəccübünü anlayıb təhlillərinə davam etdi:

- Şəmil, pencər göyərti deməkdir. Plovun üz-gözünü ondan hazırlayırıq, xüsusən də, kəvərdən.

Şəmil "üz-göz" sözünü bir daha dəqiqləşdirmək istəyirdi ki, Naibə xala məsələyə müdaxilə etdi:

- Belə getsə, bişirdiyim yemək soyuyub donacaq. Naxçıvan şivəsinin incəliklərini Bakıda müzakirə edərsiniz. İndisə əllərivizi yuyun və... süfrə başına.

Polkovnik Həziyev dostlara iradını bildirdi:

- Anamız düz buyurur. Sizi bilmirəm, amma mən acından ölürəm. Plovun iyi artıq məni məst eləyib.

Naxçıvanın sərt soyuğu Nəsib əminin evinə dolsa da, məclis çox şən keçdi. Sanki Azərbaycan DTK-sından Naxçıvana təşrif buyuran zabitlər döyüşlərdə deyil, hansısa toy məclisində iştirak edirdilər. Aradabir respublikanın düşdüyü ağır vəziyyət onların kefinə soğan doğqrayırdı. Ancaq qonaqlar özlərini sındırmır, ev sahiblərini məyus və pərişan etmirdilər. İnanırdılar ki, belə bir mərd, mübariz, qəhrəman xalqı olan ölkə haçansa böyük qələbəni qazanacaqdır.

Axşam saat beşə yaxın Böyükağa müəllim bildirdi ki, təyyarənin uçuşuna saat yarım vaxt qalıb, hazırlaşmaq lazımdır. Qaraxanovun evi çuxurda yerləşdiyi üçün maşınlar ora nadir hallarda enirdilər. Xüsusən də qarlı-buzlu günlərdə. Bu səbəbdən qonaqlar əşyalarını qoltuqlarına vurub iki yüz metrə yaxın yolu piyada qalxmalı oldular. Yuxarıda isə bəxtlərindən taksi tez tapıldı. Qonaqlar avtomobilə minib aeroporta istiqamət götürdülər. Mənzil başına çatdıqda Şəmil taksi sürücüsündən yol haqqı barədə maraqlandı. Sürücü Şəmilin üzünə təəccüblə baxıb cavab verdi:

- Sizin üçün müftədir, müəllim.

Şəmil bir qədər duruxdu. Sonra taksiçiyə sual verdi:

- Xeyir ola, dayoğlu? Zəhmətinin qarşısında nə üçün puldan imtina edirsən?

Sürücü Naibovu mat qoyan cavab verdi:

- Şəmil müəllim, on gündür Sədərək döyüşlərində iştirak edirsiniz. Eşitdiyimizə görə bura könüllü gəlmisiniz. Eləcə də Elçin müəllim və Böyükağa müəllim. Bu, bizim üçün kifayətdir.

Naibov və Həziyev təəccüblə taksini tərk etdilər. Yalnız təyyarənin havaya qalxma ərəfəsində çoxdandı ürəklərində qaynayıb-daşan suallarını Qaraxanova verdilər:

- Elçin, taksi sürücüsü Naxçıvan KQB-sində işləyir?

- Əlbəttə yox, ay Şəmil.

- Bəs o, bizim tərcümeyi-halımızı haradan bilirdi?

- Sənə dedim, axı, Naibov, buralarda ala qarğa bala çıxartmaz.

- İndi anladım səni, Elçin.

Bir saatdan sonra əməliyyatçılar sağ-salamat Bakıya eniş etdilər və Komitəyə tərəf yollandılar. Paytaxtın yollarında yenə də sakinlərin nifrətini oyadan hərbi postların əsgərləri gözə dəyirdi. Xoşbəxtlikdən yol boyu "KQB" əməkdaşlarına heç kim ilişmədi. Onlar sərgüzəştsiz iş yerlərinə çatdılar. İçəridə Elcanla Məhərrəm Elçini qarşılarayıb otaqlarına apardılar. Naxçıvandakı vəziyyət barədə maraqlandıqdan sonra Aslanov əsas məsələyə keçdi:

- Bir azdan Riyad Əhmədov da kabinetimə gələcək...

Elçin Elcanın "kabinet" sözünü zarafatla təkrarladı:

- Kabinetivə ha! Bu sözü birtəhər dedin, e, qardaş.

- Bəli, yoldaş Qaraxanov, kabinetimə. Özü də, xahiş edirəm bundan sonra mənə "yoldaş baş əməliyyat müvəkkili" deyə müraciət edəsən!

Elçin sevincək halda Məhərrəmin üzünə baxdı və Elcanın söylədiklərinin təsdiqini istədi. Buğdəliyev ciddi görkəmdə söhbətə davam dedi:

- Bəli, Elçin müəllim! Dünən yoldaş Aslanova yeni vəzifəsini elan ediblər. Onu təbrik etməyə dəyər.

Qaraxanov zarafatından qalmaq istəmirdi:

- Bilsəydim, Naxçıvandan sənə hədiyə olaraq "Nehrəm pendiri" gətirərdim.

Dostların şən əhval-ruhiyyəsi çox çəkmədi, otağa daxil olan Riyad Əhmədov salamlaşdıqdan sonra dostlara təkliflərini təqdim etdi:

- Mən söhbəti çox uzatmayacam, dostlar. Sizinlə yeganə məsələni müzakirə edəcəyəm: Rəhbərliyim altında xüsusi təyinatlılar dəstəsi yaradılır. Ora vətənpərvər, igid, bilikli zabitlər toplamaq fikrindəyəm. Əgər razı olsanız, ön sıralarda sizləri görmək istərdim.

Elcan bir qədər tərəddüd etdikdən sonra öz fikrini açıq bildirdi:

- Təbii ki, Riyad, bizə inandığın üçün sənə minnətdaram. Amma məcburam ki, təklifindən imtina edəm. Xüsusi təyinatlıların əsas meyarlarından biri olan idmana, əlbəyaxa döyüş növlərinə meyillilik təəssüf ki, məndə yoxdur. Sizə yük olmaqdansa, əkş-kəşfiyyatla məşğul olmağım daha münasibdir.

Əhmədov Elcanın cavabından bir qədər pərişan olub üzünü Qaraxanova tutdu:

- Sənin fikrin nədir, elli?

Elçin Riyada böyük rəğbət bəslədiyindən ona təəssüflə cavab verdi:

- Riyad, bir dəfə bu barədə mənə üstüörtülü təklifini bildirmişdin. O vaxtdan bəri çox düşünmüşəm. Hətta mənfi cavab verəcəyimlə əlaqədar həyəcanlanmışam da. Qərarım bu olub: Mənim göbəyim əməliyyat işində kəsilib. Əminəm ki, dövlətimə və millətimə yalnız bu sahədə faydalı ola bilərəm. Yəqin ki, məndən incimərsən, elli.

Riyad dostların gətirdiyi səbəblərə diqqətlə qulaq asıb müzakirələri yekunlaşdırdı:

- Düşünməyin ki, sizdən inciyə bilərəm. Hamımızın məqsədi eynidir: Xalqımıza xidmət etmək! Fərqi yoxdur... əməliyyat işində, yaxud xüsusi təyinatlıların sırasında. Mən öz yolumu seçmişəm. Erməni daşnaklarını, o saqqallı faşistləri torpaqlarımızdan qovmayanadək rahat yaşaya bilmərəm.

Riyadın son cümləsi əməliyyatçıları kövrəltdi. Hətta Məhərrəm bildirdi ki, əgər Şamaxı bölməsində xidmət etməsəydi, çoxdan Riyadın dəstəsinə qoşulardı:

- Mənim Bakıya qayıtmağım çox uzun çəkəcək. Allah kadrlar üzrə sədrin müavini Danilenkonun evini yıxsın. Vəziyyətin bu vaxtında məni rayon şöbəsinə atdı. Bilə-bilə ki Moskvada akademiya bitirmişəm.

Əhmədov dostları ilə vidalaşıb Elcanın kabinetini tərk etdi. Qaraxanov isə Naxçıvan ezamiyyətinin nəticələri ba-

rədə məruzə etmək üçün rəisi İsmətovun kabinetinə qalxmaq istəyirdi ki, Buğdəliyev onu bir az yubatdı və həmin günün planlarını söylədi:

- Şəhərdə işlərimi bitirim, Elçin, otağına gələcəyəm. Səninlə bəzi məsələləri müzakirə etməliyəm, məsləhətinə ehtiyacım var. Sabah günorta Şamaxıya qayıtmalıyam. Yəqin ki, mən də sizin bölmədə gecələməli olacağam.

Qaraxanov Məhərrəmə "problem yoxdur, axşam gözləyəcəyəm" deyib gözdən itdi.

Rəisin kabinetinə daxil olan Qaraxanov İsmətovun üzündə sevinc hisləri müşahidə etdi. "Xeyir ola, məgər Stepanakerti özümüzə tabe etmişik?" fikriylə Qaraxanov rəisinə salam verib masanın arxasında əyləşdi. Xəzər müəllim Naxçıvandakı hərbi vəziyyətlə əlaqədar Elçinə bir neçə sual verdikdən sonra Azərbaycan DTK-sında baş verən kadr dəyişikliyindən söhbət açdı:

- Elçin, birinci şad xəbərim odur ki, sənin və çoxlarımızın rəğbət bəslədiyi Tofiq Heydərov "sürgündən", yəni Moqilyov şəhərindən Vətənə qayıtdı. O, yenə şöbəmizdə rəis müavini vəzifəsini icra edəcək. İkincisi, mənə də yeni vəzifə veriblər – kadrlar şöbəsinin rəisi.

İsmətovun verdiyi xəbəri dinləyən Qaraxanov bir tərəfdən pərişan oldu. Çünki qısa müddət ərzində onun rəhbəri olmağına baxmayaraq, bölmənin əməliyyatçıları Xəzər müəllimin xasiyyətinə, davranışına artıq bələd olmuşdular. Digər tərəfdən isə Elçinin sevinməsinə əsas var idi. Ən azı, azərbaycanlıların mentalitetindən xəbərsiz olan Danilenkonun nəzarətindən yayınıb DTK-ya millətçi

və vətənpərvər namizədlərin qəbulunu İsmətov asanlaşdıracaqdı. Bir də ki, komsomol xəyalları ilə yaşasa belə, Xəzər müəllim əməliyyat işini mənimsəmiş, bölmə və şöbənin nəfinə müstəqil qərarlar qəbul etməyə qadir idi. Vaqif Hüseynovun kadrı olsa da, podpolkovnik İsmətov İyirmi yanvar faciəsinə görə ondan uzaqlaşmağı da özünə rəva bilmişdi. Həm də, Heydərov olan yerdə əməliyyatçıların mühüm məlumatlarının havadan asılı vəziyyətdə qalması müzakirə mövzusu ola bilməzdi. Bu düşüncələrlə Qaraxanov rəisini təbrik etdi və ona sual verdi:

- Sevindim, Xəzər müəllim. Sizi təbrik edirəm, uğurlar arzulayıram. Bəs demədiniz axı, yerinizə kim gələcək?

Rəis bir qədər fikrə getdikdən sonra "Sabir Budaqov" cavabını verdi və Elçindən onun barəsində maraqlandı:

- Tanıyırsan Budaqovu?

Qaraxanov narazı halda rəisinə cavab verdi:

- Əlbəttə, tanıyıram. Özü də, yaxından. Qarabağ bölgəsində rayon bölmə rəisi işlədiyi müddətdən. Bir-iki dəfə də orada ezamiyyətdə olmuşam, əməliyyat işlərini yoxlamışam. Fəaliyyəti və tabeçiliyində olan əməkdaşları ilə davranışı ürəkaçan olmayıb. Allaha təvəkkül! Görək, bizimlə dil tapacaq, ya yox?

- Narahat olma, Qaraxanov, arxanda dağ kimi dayanmışam. Problemin olsa ya mənə, ya da Tofiq müəllimə müraciət edə bilərsən.

- Ümidvaram ki, aramızdakı məsələləri "sülh yolu" ilə həll edəcəyik, rəis. Başınızı aşağı etmərəm.

Xəzər müəllim müzakirələrin müsbət tərəfini yekunlaşdırıb Elçinə xoşagəlməz bir məlumat da çatdırdı:

- Bilmirəm, xəbərin var, ya yox, təxminən bir saat bundan əvvəl erməni terroristləri Şuşa-Bakı marşrutu ilə hərəkət edən avtobusu partladıblar.

- Yenə, Xəzər müəllim? Bunlar nə alçaq məxluqlar imiş! Ölüb-itən yoxdur?

- Həlak olan yoxdur, Elçin. Amma on üç nəfər ağır yaralı var. Qalanlarının bəxti gətirib, min şükür!

- Min şükür? Xəzər müəllim, görün nəyə sevinirik! Artıq bizi təkcə sağ qalanlar deyil, yaralananlar da qane edir. Bu faciələrin kökünü kəsə biləcəyikmi?

- Erməni faşistləri daha da azğınlaşıblar. Qarabağda azərbaycanlıların yaşadığı bir-iki kənd qalıb, onların da əhalisinə murdar əllərini uzadırlar. Şuşada və ətraf rayonlarda məcburi köçkünlər üçün yer qalmayıb.

- Eşitdiyimə görə, Xəzər müəllim, Şuşanın komendantı ermənilərlə əlbir olub orada yaşayan camaatımızı yaman incidir.

- Xəbərim var, Qaraxanov. Rafiq Sadıxov və Tofiq Heydərov sədrin kabinetində keçirilən müşavirədə bu barədə geniş hesabat verdilər və təkidlə tədbir görülməsini istədilər. Birinci katib Mütəllibov da komendantın iyrənc əməllərindən xəbərdardır.

- Bir sözlə, hamı xəbərdardır. Amma köhnə hamam, köhnə tas. Tədbir görən yoxdur. Yuxarıdakılar yenə də xalqın deyil, kreslolarının dərdinə qalıblar.

- Yenə başlama, Elçin. Respublikanın rəhbərliyi yenicə dəyişilib. Qoy bir bismillah desinlər, sonra iradını bildirərsən.

- Başa düşdüm, rəis. Bir az da gözləyək. Bəlkə qeyrətə gələcəklər. Amma Əbdürrəhmanın buraxdığı səhvləri

bunlar da təkrarlasa... vay hallarına. Xalqın qəzəbinin önünü bu dəfə heç kim kəsə bilməyəcək.

Elçinin son kəlməsindən sonra İsmətov yerindən qalxıb kabinetindəki əşyalarını qutuya yığmağa başladı. Elçinə "artıq gecdir, ezamiyyətdən, daha doğrusu, döyüşdən qayıtmısan, get dincəl" sözlərini çatdırdı və vidalaşmaq üçün şöbə rəisi Vladimir Mirzoyevin kabinetinə keçdi.

Qaraxanov gecələmək üçün  öz otağına qayıtdı. Məhərrəm Buğdəliyev və Saşa Rojnı çoxdan Elçini gözləyirdilər. Şam yeməyi üçün süfrə də hazırlanmışdı. Qaraxanov otağa daxil olduqda Saşaya xitabən Məhərrəm haqqında ürək sözlərini dedi:

- Sən Buğdəliyevi yaxşı tanımırsan, Saşa. Moskvada dörd il bizimlə bərabər  "sapoq" yəni, çəkmə döyüb...

Məhərrəm "sapoq" sözünü eşitdikdə həmişəki kimi zarafata keçdi:

- "Sapoq" dedin bildik da, Elçin. Day tərcümə niyə edirsən?

Elçin də Məhərrəmin sualını zarafata saldı:

- Fikirləşdim ki, birdən Rojnı "sapoq" sözünün mənasını başa düşməz.

Məhərrəm bu dəfə Elçinin dediklərini dərindən anlaya bilmədi:

- Məgər Saşa rus deyil?

Elçin gülümsəyərək Məhərrəmə cavab verdi:

- Əlbəttə, rusdur. Mingəçevirdəndir.

Məhərrəm bu dəfə küt baxışlarla Elçinin fikirlərini tamamlamasını gözlədi. Qaraxanov Buğdəliyevi çox gözlətmədi:

- Sadəcə, Məhərrəm, Saşa azərbaycan dilini öz ana dilindən o qədər mükəmməl bilir ki, "sapoq" sözünü "çəkmə" sözü ilə əvəzləməyi zəruri hesab etdim. Fikrimi izah edə bildimmi?

Məhərrəmin üzündəki müəmmalı mimika öz axarına qayıtdı və o, Elçinin dediklərini dərk edib şübhələrini izah etməyə başladı:

- Elə bildim, Elçin, mənimlə məzələnirsən, "sapoqun" mənasını mənə anladırsan. Onu da deyim ki, Azərbaycanın çörəyi Saşaya halaldır. Sən gəlməzdən qabaq bir saat onunla söhbət etdim. Kaş bütün azərbaycanlılar Saşa kimi azərbaycanlı olardı. Nəysə... Sizin üçün Şamaxıdan zoğal arağı gətirmişəm. Yorğunsunuz! Dedim bir boğazımızı yaşlayaq. Artıq iş vaxtı bitib.

Qaraxanov ciddi sifətlə Məhərrəmə iradını bildirdi:

- Rayon yeməkləri üçün təşəkkür edirik. Amma DTK-nın binasında araq vurmaq... ən azı, zabitə şərəf gətirməz.

Nəhayət, Saşa da söhbətə qoşuldu:

- Bura kimi yaxşı gəlirdin, Elçin. Lakin sonunda məsələni korladın.

Elçin gülümsəyərək:

- Niyə, Saşa?

- Çünki indiyədək görmüşdün ki, əməliyyatçılar KQB-də masanın üstündə yatsınlar? Yorğan-döşəyimizi də evdən kabinetə daşımışıq! Bu nə deməkdir?

Məhərrəm:

- Nə deməkdir, ay Saşa?

- O deməkdir ki, yataq otağımızla bərabər mətbəximizi də mənzilimizdən şöbəyə daşımışıq. "Так что", təmiz vicdanla tut arağı ilə feyzyab ola bilərik.

Elçin yenə səbəb gətirdi:

- Birdən həyəcan siqnalı versələr, nə olacaq?

Məhərrəm söhbəti zarafata salmağa çalışdı:

- Nooldu, Elçin? Ordubadın tut arağını o boyda Moskvada kurs rəisi Seleznyovun kabinetində Zeynal və Əhmədlə birlikdə mədənə ötürə bilirdin. Bəs burada niyə tərəddüd edirsən?

- Deməli, akademiyada bizi güdürmüşsən, Məhərrəm?- Elçin zarafatı davam etdirmək istədi,- Sənin kimi dostu olana düşmən lazım deyil ki?

- Nəysə, Elçin, zarafatı qoyaq qırağa və bir az boğazımızı yaşlayaq.

Saşa öz növbəsində:

- Gəlişin, Məhərrəm, kefimizə doğranmış soğanı bir balaca şirinləşdirdi, "наливай", yəni süz!

Saşa "наливай" sözünü tərcümə etdikdə otaqdakıların kefini daha da qaldırdı. Sanki yorğunluq hamının bədənini tərk etməyə başladı. Əməliyyatçıların səsinə Rzaqulu ilə Teymur da kabinetə girdilər. Saşa qonaqları salamlayaraq onları "ikinizi də qayınananız çox istəyir, buyurun süfrəyə" sözləriylə qarşıladı.

Bayırda isə sərt fevral şaxtası tüğyan edirdi. "Fəxri xiyaban"ın sağ tərəfindəki postda sovet hərbçilərinin qışqırtısı və söyüşləri hərdən əməliyyatçıların qulağına çatırdı. Görünür, yenə də hamısı əldəqayırma araqlardan içib dəm olmuşdular. Zabit və əsgərlərin bu cür davranışı SSRİ-nin sonunun yaxınlaşmasından xəbər verirdi. İmperatorlar, padşahlar, hökmdarlar, hətta sadə insanlar istə-

məsələr belə, hər imperiya dağılmağa və özü ilə yanaşı, vətəndaşlarını da uçuruma daşımağa məhkumdur. Təbiətin qanunu budur. Böyük imperiyaların məhvə uğraması üçün kiçicik səbəblər də məqbuldur. Min doqquz yüz səksən səkkizinci ilin iyirmi iki fevralında Qarabağın Əsgəran rayon ərazisində ermənilər tərəfindən qətlə yetirilən iki azərbaycanlı balasının ağlına belə gəlməzdi ki, onların ölümü Sovet İttifaqı adlanan nəhəng imperiyanın tez bir zamanda dağılmasına rəvac verəcək. Həmin faciədən sonra Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində cərəyan edən ictimai-siyasi hadisələr SSRİ məkanının müxtəlif reqionlarına sirayət etməyə başladı. Azğınlaşmış sovet ordusu səksəninci illərin sonlarında yaradılmış "xalq cəbhəsi" hərəkatlarının fəallaşmasının qarşısını almaq üçün Azərbaycan, Gürcüstan, Litva və Moldova respublikalarında qətllər törətdi. Ən ağır qətliama isə Azərbaycan vətəndaşları məruz qaldı.

Növbəti aylar da Azərbaycan üçün xoş xəbər vəd etmək fikrində deyildi. İstər dəmir yollarında, istərsə də avtobus marşrutlarında erməni terroristləri tərəfindən Azərbaycan vətəndaşlarına qarşı törədilən təxribatlar adi hal almışdı. Hakimiyyətə sahiblənmiş yeni iqtidar da Dağlıq Qarabağda at oynadan erməni yaraqlı və "saqqallılar"ın törətdikləri cinayətlərin qarşısını almaq əvəzinə, fəaliyyətini mərkəzin Azərbaycan SSR-də laxlamış mövqelərini möhkəmləndirməyə, ölkəni yenidən Moskvaya tabe etməyə yönəltmişdi. Ermənistan SSR hakimiyyəti Azərbaycanın bu əcaib mövqeyindən çox səmərəli istifadə edirdi.

Vaxtlı-vaxtında siyasi qərarlar qəbul edir, diasporları vasitəsilə dünya ictimaiyyətinin gözündə Bakını nüfuzdan salır, Qarabağ ərazisinə Suriya və Livandan dəvət edilmiş erməni muzdlularını yerləşdirirdi.

Belə bir şəraitdə yeni rəis Sabir Budaqov bölməsinin növbəti iclasını keçirirdi. Müzakirələr Qasım İsmaylov rayonu ərazisində azərbaycanlı milislərinin öldürülməsi ətrafında cərəyan edirdi. Hüseynov çıxışına bu sözlərlə başladı:

- Nankor qonşularımız o qədər azğınlaşıb ki, Dağlıq Qarabağ ərazisində soydaşlarımızı qətlə yetirməklə kifayətlənməyərək ətraf rayonlarımıza da hücum etməyə başlayıblar. Söhbət Qasım İsmaylov rayonundan gedir.

Rasim əsəbiləşərək güc strukturlarının naşılığına iradını bildirməyə başladı:

- Men başa duşa bilmirem ki, bizim miliçiyanın rayon otdelleri haraya baxırlar?

Sabir müəllim Rzayevin Azərbaycan dilində hətərən-pətərən danışığını anlamayaraq onu fikirlərini rus dilində söyləməyə dəvət etdi. Əməliyyatçılar da Rasimin doğma dildə danışmaqda əziyyət çəkdiyini nəzərə alaraq təhlillərini hər dildə qəbul edəcəklərini bildirdilər. Rzayev kolleqalarının rişxəndlə səylədikləri sözlərdən bir az da əsəbiləşdi və rus dilində bülbül kimi ötməyə başladı:

- Я хотел выразить претензии силовым структурам и, вообще, руководству вышеназванного района: Какого черта они сидят там и бездействуют? Откуда на территории района появились армянские террористы?

Почему они так свободно разгуливают по территории района и убивают наших милиционеров?

Rzayev müzakirələrə heç bir yenilik gətirməsə də, hiss olunurdu ki, artıq o, ana dilində danışa bilmədiyinə görə həyəcanlanır. Bunun özü də böyük nailiyyət idi. Təbii ki, Rasimin mənasız sualı cavabsız qaldı. Söhbətə Fuad da müdaxilə etdi:

- Sabir müəllim, hadisə Qasım İsmayılov şəhərində baş verib, ya hansısa...

Rəis İbrahimovun sualını yarımçıq qoydu:

- Post-patrul xidmətinin iki milisi rayonun Erməni Borisi adlanan kəndində öldürülüb.

Rzaqulu uca səslə iradını bildirdi:

- Öldürərlər da! Bir şey ki Azərbaycanın göbəyində yerləşən kəndin adı Erməni Borisidir.

Elçin Rzaqulunu dəstəkləyərək müzakirələrə qoşuldu:

- Eşitdiyimə görə, Qasım İsmayılov rayonunda iki eyniadlı kənd var: biri Erməni Borisi, digəri isə Rus Borisidir.

Rəis mənasız söhbətləri bitirmək üçün qeyd olunan kəndə haradan hücum çəkildiyini izah etdi:

- Artıq erməni yaraqlılarına Dağlıq Qarabağ ərazisi dar gəlir. Qasım İsmayılovun ərazisinə Mardakertdən hücum çəkiblər.

Müzakirələri sakitcə izləyən Fəxrəddin Tağızadə təmkinlə fikrini bildirdi:

- Bu da Mardakert. Dalınca Martuni, Erməni Borisi nəhayət, Bakının Kirov rayonu, Razin qəsəbəsi...

Rəis Fəxrəddinin uzun-uzadı sadalamalarının qarşısını alaraq fikirlərinə aydınlıq gətirməsini tələb etdi:

- Fəxrəddin, sən bölmənin ən təcrübəli əməkdaşısan. Ancaq təqdim etdiyin rayon və şəhər adlarından heç nə anlamadım.

Fəxrəddin təmkinlə fikirlərinə aydınlıq gətirdi:

- Deməyim odur ki, nə qədər ərazilərimizi bizə qarşı düşmən mövqeyindən çıxış edən əcnəbilərin adları ilə çağıracağıq, o qədər də təpəmizdən ağır zərbələr alacağıq. Əgər siyahını bir az da uzatmaq lazımdırsa, mən hazır.

Sabir müəllim Fəxrəddinin dolğun cavabından məmnun qalıb çıxışına davam etdi:

- Qasım İsmayılov rayonu ərazisində durumu nəzərə alaraq Elçin Qaraxanovu digər bölmələrin əməliyyatçıları ilə birgə oraya ezam etmək qərarına gəlmişəm. Bu gün axşam qatarla rayona yola düşəcəksiniz.

Elçin "oldu, rəis" cavabını verdi və ezamiyyətə hazırlaşmaq üçün Budaqova müraciət etdi:

- Rəis, icazənizlə evə bir saat tez gedim. Neçə gündür DTK binasında gecələyirəm. Bilmirəm, evim yerindədir, ya dağılıb?

- İnşallah, salamatlıq olar, Elçin, darıxma.

- Əgər elədirsə, mən də Fəxrəddin Tağızadənin rayonlar siyahısına əlavələr etmək istərdim.

- Buyur, Qaraxanov.

- Nə qədər ki, qulağımızın dibində Bakının Şaumyan rayonunu "işğaldan" azad etməmişik, Dağlıq Qarabağ barədə düşünməyin yeri yoxdur.

- Həmişəki kimi kəskin rişxənd. Çalışaram sənin bu təklifini də rəhbərliyə çatdırım.

- Minnətdaram sizə, rəis.

Sözünü acıqla bitirən Qaraxanov Sabir müəllimin kabinetini tərk etdi və evinə tərəf istiqamət götürdü. Yolda o, hey ürəyində aşağıdakı sözləri təkrar edirdi: Şaumyanı mən yadıvıza salmalıyam? Bəs öz təpəriviz haradadır?

Axşam saat səkkizdə əməliyyatçılar podpolkovnik Slava Məşədiyevin başçılığı altında Bakı Dəmir Yolu vağzalına yığışdılar. DTK əməkdaşlarını vacib ezamiyyət gözləyirdi. Erməni Borisi kəndində öldürülən milis işçilərinin qatillərinin axtarışı aparılacaqdı. Zabitlər yaxşı bilirdilər ki, qatillər Dağlıq Qarabağ Vilayətinin sakinləri deyil və izlərini çoxdan siliblər. Buna baxmayaraq, əməliyyatçılar Erməni və Rus Borisi kəndlərində digər daşnak və "saqqallılar"ı aşkarlayıb üzə çıxarmaq ümidində idilər.

Axşam saat doqquzda qatar Gəncə istiqamətində hərəkət etdi. Qasım İsmayılova ezam olunan zabitlər şam yeməyindən sonra bir qədər söhbətləşdilər. Sonra kimisi yatmağa getdi, digərləri kupelərdə nərd, domino oynamağa başladı.

Səhərə yaxın qatar artıq Qasım İsmayılov rayonunun ərazisində idi. DTK əməkdaşları rayon bölməsinə baş vurub avtobus vasitəsilə "Şəfəq kolxozu" adlanan məkana tərəf yola düşdülər. Kolxoz erməni terrorçularının at oynatdığı bir neçə kəndə, o cümlədən Erməni Borisinə yaxın ərazidə yerləşirdi. Onun inzibati binası üç-dörd otaqdan ibarət idi. Gecələmək üçün şərait qənaətbəxş idi. Zabitlər yerbəyer olduqdan sonra cinayətlə bağlı məqamları araşdırmaq məqsədilə azərbaycanlıların yaşadığı kəndlərə üz tutdular.

Gözlənildiyi kimi, milis qatillərinin şəxsiyyəti, zahiri görünüşü, törətdikləri digər iyrənc əməllər barədə dolğun məlumatlar alındı. Hətta onlardan birinin adı və soyadı da müəyyən edildi. Həmin şəxs Ermənistanın Masis rayonundan qohumu yaşayan Mardakert şəhərinə hadisədən iki ay öncə gəlmişdi. O, bir neçə dəfə Qasım İsmayılovun Çinarlı və rus Borisi kəndlərinə baş çəkərək əhalidən qətlə yetirilən iki milis barəsində maraqlanmışdı. Lakin erməni diversantının şübhəli hərəkətlərinə nə güc strukturlarının nümayəndələri, nə də ki, yerli əhali əhəmiyyət vermişdi.

Bir həftə ərzində aparılan əməliyyat tədbirləri nəticəsində o da müəyyən edildi ki, Dağlıq Qarabağ və ona bitişik ətraf rayonların meşələrində, erməni kəndlərində Suriya və Livandan gələn çoxlu sayda daşnak və Asala terror təşkilatlarının yaraqlıları məskunlaşıb. Muzdluların qərargahı isə Şaumyan-selski deyilən qəsəbədə yerləşir. Əldə edilən vacib məlumatlar yazılı şəkildə bilavasitə DTK-nın sədri Vaqif Hüseynovun masasının üzərinə sərilirdi. Qərar qəbul etmək və məlumat əsasında SSRİ DTK-sının rəhbərliyinə dolğun arayış göndərmək sədrin vəzifəsi idi. Məşədiyevin başçılıq etdiyi qrup üzvləri ən azı vicdanları qarşısında rahat idilər.

Ezamiyyətin vaxtı sona çatmaq üzrə idi. Bu münasibətlə "Şəfəq" kolxozunun sədri Meydan kişi əməliyyatçılar üçün qonaqlıq təşkil etmişdi. Bakıdan gətirilmiş ərzaq ehtiyatı, yəni konservləşdirilmiş inək və donuz əti, yarma, düyü tükənmək üzrə idi. Bayırda kolxoz sədrinin oğlunun

kabab bişirdiyini gördükdə Şahverdi Arifov Məşədiyevə yaxınlaşıb narazılığını bildirdi:

- Slavik, məncə, rayonun belə bir ağır vaxtında manqalı tüstülətmək ayıbdır.

- Niyə, Şahverdi? Kabab üçün quzunu, meyvə-tərəvəzi kənd camaatının özü gətirib...

- Bilirəm e, Slavik, yenə də olsun. Kənd əhli elə də imkanlı deyil, bizim üçün bu qədər əziyyətə qatlaşsın.

Arifovun iradları kababın dadlı alınması üçün oğluna göstəriş və məsləhət verən Meydan kişinin də qulağına çatdı. Bundan narahat olan kolxoz sədri qonaqlara fikrini bildirdi:

- Əziz dostlar, dörd saatdan sonra buralara gəlmənizin doqquz günü tamamlanacaq...

DTK əməkdaşı Gündüz Şabanov Meydan kişinin dəqiqliyinə heyran qalıb onun sözünü kəsdi:

- Halaldır sənə, sədr! Məndən soruşsaydılar ki, buraya haçan gəlmişik - "dünən" cavabını verərdim. Sən isə saatına kimi dəqiq hesablamısan.

Meydan kişi söhbətinə davam etdi:

- Sizin də ailəniz, valideynləriniz, qohumlarınız var. Onların gözünü yolda qoyub bizim rayonu erməni terrorçularından müdafiə etməyə gəlmisiniz. Belə bir vəziyyətdə camaatımızın sizə ərmağan etdiyi quzu halaldır.

Nəhayət, söhbətə Məşədiyev də müdaxilə etdi:

- Dəstəmiz adından sizə öz təşəkkürümü bildirirəm, Meydan kişi. Sizin zonanın əhalisini gözəl tanıyıram. Mənim həyat yoldaşım Yevlaxdandır. Hər yay məzuniyyətə

çıxdığımda vaxtımı buralarda, yəni Erkəc, Mənəş, Buzluqda keçirərdim. Azərbaycanın hər guşəsində olduğu kimi sizin də əhali çox qonaqpərvərdir. Hələ Şaumyandakı o dağ çaylarını demirəm! Oturardıq onların kənarında və o ki var yeyib-içərdik...

Bu dəfə Məşədiyevin sözünü Elçin kəsdi:

- Vyaçeslav Ənvəroviç, indi biz haradayıq?

Məşədiyev bir qədər duruxaraq baxışları ilə Elçindən sualın təkrarlanmasını istədi. Qaraxanov onu anlayıb söhbətə davam etdi:

- Demək istəyirəm ki, biz Ermənistandayıq, ya Azərbaycanda? Erməni Borisi, Şaumyan, Mənəş...

- İndi mənə çatdı sualın, Qaraxanov. Nə edə bilərik? On illərdi ki, Sovetlər kəndlərimizin, şəhərlərimizin adlarını dəyişib. Dədə-babalarımız da səslərini kəsib, dinməyib. Bizlərə qalan miras budur. Fikir vermə! Əsas vəzifəmiz sadaladığın kəndləri erməni "saqqallılar"ından təmizləmək, insanımızın sülh şəraitində yaşamasını və çalışmasını təmin etməkdir...

Məşədiyev fikirlərini yekunlaşdırırdı ki, təpənin arxasındakı qonşu erməni kəndindən qızların gülüş səsləri gəldi. Meydan kişi Elçinin üzünə baxaraq üzüntüsünü bildirdi:

- Təpənin arxasında ermənilər hərbi post qurublar. Gecələr kolxoz binasında qalanda onların erməni, həm də deyəsən, ərəb dilində danışmaqlarını eşitmişəm. Siz gəldiyiniz gündən səslərini kəsmişdilər. Bu gün isə kababın iyini hiss etdiklərindən bizlərə "göz dağı" verirlər. Hətta fahişə qismində erməni "axçilərini" sifariş ediblər.

Gündüz Şabanov təəccübünü gizlətmədən fikrini söylədi:

- Buna bax, e! Təpədən başlarını uzadıb bir-iki qranatı qaldığımız kolxoz binasına vızıldatsalar tikəmiz tapılmaz.

Məşədiyev Şabanovun dedikləri ilə razılaşaraq cavab verdi:

- Əlbəttə elədir, Gündüz. Amma biz də uşaq-muşaq deyilik. Gecələr növbələri bunun üçün təşkil etmişdik. Ermənilərin hünəri nə idi ki, biz tərəfə "не то" baxsın? Həmən başları ağrıyardı.

- Bunu anladım e, Vyaçeslav müəllim. Bəs nə üçün elə bu dəqiqə onları tərk-silah edib postlarını dağıtmayaq!?

- Olmaz, Gündüz! Rəhbərlik nə dedi? Bir güllə belə atılmamalıdır. İstəyirsən ki, məsələyə yaxınlıqda yerləşən sovet ordusunun alayı qarışsın? Hamısı satın alınıb. Tankların qarşısına avtomatla çıxacaqsan? Döz görək, başımıza nə gəlir.

Müzakirələr bitməmiş Meydan kişinin oğlu kababların hazır olduğunu bildirdi. Əməliyyatçılar kolxoz binasının qarşısında açılmış süfrə arxasına keçdilər. Şabanov gülümsəyərək Elçinə kefinin saz olmasının səbəbini bildirdi:

- Beynimdə avara bir səs dolaşır, Qaraxanov.

- Xeyir ola, Şabanov, xəstələnməmisən?

- Yox, e. Yadında, bura gələndə Səfikürd kəndindən keçdik?

- Yaxşı yadımdadır. Hələ orada gözəl ağ at da gördük. Bahalı cinsdən idi. Necə bəyəm?

- "Karvan" qrupunun mahnısı var e, "Sarı güllər..."

- Hə, Gündüz, eşitmişəm. Əla mahnıdır!

- Bax Elçin, səhərdən "sarı güllər" əvəzinə "səfikürdlər" deyib o gözəl mahnını təkrarlayıram. Musiqi sanki beynimdə ilişib qalıb.

- Başa düşürəm səni. Barı dediklərivi Meydan kişinin yanında təkrarlama, acığına gələr.

- Oldu, Qaraxanov. Görürsən, yenə başladı musiqi...

- Özüvü ələ al. Bakıya çatan kimi səni psixiatra göstərəcəm.

Elçinin son cümləsindən sonra dostlar gülüşərək yeməyə başladılar. Məclis çox şən keçdi. Sanki doqquzgünlük stress, əsəb, həyəcan əməliyyatçıların bədənini tərk etməyə başladı. Təpənin arxasında isə erməni qızlarının və yaraqlıların həyasız gülüşü Arifovu cızığından çıxarmaq üzrə idi. O, ağlından keçəni dilə gətirdi:

- Gecə mən bu erməni kəndinin kolxoz binasına bayrağımızı sancacağam.

Gündüz Şahverdini bu əməldən yayındarmağa çalışdı:

- Bilirəm, Arifov, səbrin tükənmək üzrədir. Amma ehtiyatlı ol. Sabah ezamiyyətimizin müddəti bitəcək. Gəl bu daşı ətəyindən tök. Gedib yuxarıların qulağına çatanda deyəcəklər ki, Şahverdi içkili vəziyyətdə təxribat törətdi.

- Cəhənnəmə kimi, Gündüz, qoy desinlər. Millətimiz üçün barmaqlarını barmaqlarına vurmadılar. Oturublar Bakıdakı isti kabinetlərdə, vəzifə bölgüsü aparırlar. Bir də, bilirsən nə var? Mən getdim, bayrağımızı onların təpəsinə taxacam...

Söhbətə Məşədiyev da müdaxilə etdi:

- Arifov, ağlını yığ başına. Birincisi, bayrağımızı haradan tapasan? İkincisi də, yediyimizi burnumuzdan gətirmə! Keç içəriyə, yat, dincəl. Onsuz da ezamiyyətin son saatlarıdır, hamının əsəbi tarıma çəkilib...

Arifov Vyaçeslav Ənvəroviçin sözünü yarımçıq qoydu:

- Görürəm, hamınız xoş niyyətimin əleyhinəsiniz. Bu gün daşnaklar buralarda kef çəkər, sabah isə gəlib Yevlaxda, Bərdədə oturarlar. Allah göstərməsin. Mən getdim dincəlməyə.

- Başa düşmədim, Şahverdi. Sən elə düşünürsən ki, biz bayrağımızın onların kolxoz binasının damına sancmağın əleyhinəyik?

- Əlbəttə! Əks-halda mənim istəyimə şərik çıxardınız. Yaxşı, söhbəti uzatmayaq. Mən gedirəm yatmağa.

Şahverdinin söylədiyi haqq sözlər əməliyyatçıları kədərləndirdi. Lakin nə etmək olardı? Əmrin qarşısında hamı acizdir. Moskvada ermənilərin dili çox uzun idi. Arifovun törədəcəyi əmələ elə bir don geyindirəcəkdilər ki, tüstüsü ezamiyyət qrupunun hər bir üzvünün kəlləsindən çıxacaqdı.

Artıq hava qaralırdı. Məşədiyev gecə növbəsinə Qaraxanovla İsmayıl Qazıbəyovu təyin etdikdən sonra DTK əməkdaşları "Şəfəq" kolxozunun binasına keçdilər. Bayırda əsil yaz havası hökm sürürdü. Çay tərəfdən gələn sərin külək və gecə çəyirtkəsinin melodik səsi növbətçiləri xumarlandırırdı. Aydan gələn nur kəndin hər tərəfinə işıq saçırdı. Arabir təpənin arxasından erməni yaraqlılarının xorultusu da eşidilirdi. Lakin çox keçməmiş erməni daş-

nakları arasında mübahisə düşdü və dalaşma səsləri sükunəti pozdu. Elçin İsmayıla pıçıltı ilə niyyətini açıqladı:

- Mən təpənin sağ tərəfindən yuxarı qalxıb ermənilərin mübahisəsini gizlicə izləyəcəyəm. Sənsə silahıvı tətikdə saxla. Başıma bir iş gəlsə, havaya atəş açarsan.

İsmayıl Elçinin təpəyə qalxmasını təhlükəli sandığından onu yanlış hərəkətdən yayındırmağa çalışdı. Lakin Qaraxanov inadından dönmək fikrində deyildi. Beş dəqiqədən sonra o, təpənin sağ cinahında mövqe almış, erməniləri nəzarətə götürmüşdü. Məsələ aydın idi. Həngamə qızların ucbatından qopmuşdu. “Alçaqlar iki-üç qızı da aralarında bölə bilmirlər! Taxtabaş ki, taxtabaş” cümlələrini ehmalca təkrarlayaraq Qaraxanov aşağıya endi. Elə bu məqamda onun qulağına addım səsləri gəldi. Elçin ağacın arxasına keçib diqqətini səs gələn yerə yönəltdi. Çox keçmədi ki, Qazıbəyov da Elçinin yanına gəldi. Müəmmalı addım səslərini o da eşitmişdi. Əməliyyatçılar avtomatlarını döyüş vəziyyətinə gətirdilər. Elə bu zaman zabitlər gördükləri mənzərənin həyəcanından yerlərində donub qaldılar: Şahverdi Arifov əlində Azərbaycan bayrağı ilə ermənilər yaşayan kəndin kolxoz binasına tərəf yüyürürdü. Bir azdan dostlar Şahverdinin binanın damına çıxmağa cəhd göstərdiyini gördülər. Əməliyyatçılar həmən avtomatlarının lüləsini Arifovun sağ və sol tərəfinə yönəltdilər. Elçin Şahverdinin dırmaşdığı binanın yaxınlığında iki nəfər ermənini gördükdə Qazıbəyova planını söylədi:

- Əgər o iki nəfər Şahverdini görsə, həmən başlarının üstündən güllə atacağıq. Başa düşdün məni?

- Hə, Elçin! Mən hazır.

Həyəcanlı anlar on beş dəqiqə çəkdi. Arifov bayrağı kolxoz binasının damına sancdı. Sonra o, ehmalca enib geriyə çəkilməyə başladı və nəhayət, pusquda duran Elçinlə İsmayılın yanına çatdı. Əməliyyatçıları görən Şahverdi zarafata keçdi:

- Məni güdürsünüz? Elə bildiniz yatmışam? Sözüm, sözdür! Dedim, bayrağımızı ora taxacağam? Taxtım da. İndi rahat yata bilərəm.

Bu sözlərdən sonra heç nə baş verməmiş kimi Arifov "Şəfəq" kolxozunun binasına daxil oldu və bir stəkan sərin su içib yatağına girdi. Qazıbəyov isə Elçinin üzünə baxaraq cəmi bir kəlmə söylədi:

- Görünür, araqdan çox vurub!

Ertəsi gün qrup üzvləri səhər yeməyini yeyib yola hazırlaşmağa başladılar. Elçin əməliyyatçıları işlərindən ayırıb gülümsədi və ürək sözlərini söylədi:

- Xahiş edirəm, hamınız qarşınızdakı erməni kəndinin kolxoz binasına baxasınız.

Əməliyyatçılar nəzərlərini Qaraxanov dediyi istiqamətə yönəltdilər. Hamı dərin sükuta qərq oldu. Sol tərəfə əyilsə də, erməni binasının üzərində Azərbaycan bayrağı dalğalanırdı. DTK əməkdaşı Vidadi Salmanov Qaraxanovun üzünə baxaraq "yüz faiz Şahverdinin işidir" dedi. Elçin isə qürurla "Bəli, Arifovun qəhrəmanlığıdır!" deyə gecə sərgüzəştlərini əməliyyatçılara anlatdı.

Salmanov müəmmalı bir baxışla rişxənd etdi:

- Mən də sərxoş olsaydım, qəhrəmanlıq edərdim! Elə siz də. Düz demirəmmi?

Vidadinin bu tikanlı sözləri Arifovu haldan çıxardı. O, bir kəlmə belə söyləmədən yerindən qalxıb erməni kəndinə tərəf istiqamət aldı. Nitqi qurumuş əməliyyatçılara isə yalnız onu səssiz-səmirsiz izləmək qaldı. Həm də zabiti qorumaq üçün əməliyyatçıların barmağı avtomatik olaraq silahlarının tətiyinə keçdi. Meydan kişi qarışıq hamının qəlbində həyəcanlı anlar tüğyan etməyə başladı. Şahverdi yenə gecədəki kimi arxayınlıqla eyni məsafəni qət etdi, onu müşahidə edənlərin gözünün önündə dama qalxdı və əyilmiş bayrağımızı düzəldərək geriyə qayıtdı.

Qorxudanmı, çaşqınlıqdanmı, sərxoşluqdanmı... ermənilər hələ də yerindəcə donub qalmışdılar. Arifovun hərəkəti bundan öncəki rişxəndli atmacaya əsl kişiyana cavab, şərəfli bir zabit əzmkarlığı idi. Şahverdi hələ də özünə gələ bilməyən dostlarının yanından sakitcə ötüb DTK əməkdaşlarını rayon bölməsinə çatdırmağa hazırlaşan avtobusa qalxdı. Əməliyyatçıların ağlından yeganə bir fikir keçirdi: "İgidin arxasında daim Allah durar!" Qəhrəmanlıqla dolu hadisələrdən üç saat sonra Məşədiyev başda olmaqla ezamiyyət qrupunun üzvləri paytaxta tərəf istiqamət götürdülər.

Sabahısı gün Vyaçeslav Ənvəroviç Qasım İsmayılov rayonunun erməni kəndlərində cərəyan edən vəziyyət barədə DTK-nın müavini Rafiq Sadıxova geniş məlumat verdi. Qaraxanovu isə yeni ezamiyyət gözləyirdi. Bu dəfə səfərin ünvanı Qazax rayonunun Ermənistanla həmsərhəd

kəndi olan Aşağı Əskipara idi. Bölmə rəisi Sabir Budaqov Elçini kabinetinə dəvət edib ona səfərin məqsədlərini izah etməyə başladı:

- Məndə olan məlumata görə, Qaraxanov, siz yanvar hadisələri zamanı Ermənistandan respublikamıza göndərilən Suren və Karmen adında iki nəfər diversantı yaxalamışdınız?

- Elədir ki, var, Sabir müəllim. Onları sorğuya tutduqdan sonra məlum oldu ki, başçılıq etdikləri təxribat qrupunun üzvləri çoxlu sayda erməni kökənli Bakı vətəndaşlarına ağır xəsarətlər yetirmiş, hətta üç nəfəri acımasızcasına öldürmüşdülər.

- Elə, söhbət də o iki nəfərdən gedir, Qaraxanov.

- Necə bəyəm? Yeni məlumatlar aşkar edilib?

- Əksinə, rəhbərlik onları azadlığa buraxmaq qərarına gəlib. Məni dinlə, hər şeyi başa salacağam...

Bölmə rəisi sözünü bitirməmiş Qaraxanov əsəbindən sualları dalbadal verməyə başladı:

- Bu nə deməkdir, Sabir müəllim? Qatilləri azadlığa buraxmaq? Əminəm ki, mənimlə zarafat etmirsiniz! Bilirsiniz ki, həmin adamlar Ermənistanda yaşayan soydaşlarımızın qanına qəltan ediblər!

Sabir Budaqov əsəblərinə sahib çıxa bilməyən Elçini birtəhər sakitləşdirə bildi:

- Qaraxanov, xahiş edirəm, məni axıra kimi təmkinlə dinləyəsən!

- Ümidvaram ki, caniləri azadlığa buraxmaq üçün əlinizdə kifayət qədər dəlil və səbəblər vardır?

- Kifayət qədər deyil, amma tutarlı səbəb var.

- Eşidirəm sizi, rəis.

- Bu, başqa məsələ. Deməli, vəziyyət belədir: soydaşlarımızı vəhşicəsinə döyüb Ermənistan Respublikasından qovarkən mənşəcə azərbaycanlı olan üç nəfər milis işçisini, bir nəfər Masis rayon partiya komitəsinin məmurunu və beş nəfər adi soydaşımızı girov götürüblər. Həmin adamlar yüzlərlə azərbaycanlı uşaq, qoca və qadınımızı ölümün cəngindən dartıb çıxarıblar. Girov götürülənlər bu günədək ağır işgəncələrə məruz qalırlar. Ermənistanın KQB-si Yerevanın həbsxanasında saxlanılan doqquz nəfər soydaşımızı Surenlə Karmenə dəyişmək təklifini verib. Bizim rəhbərlik buna razılığını bildirib. Əminəm ki, Qaraxanov, bu şərəfli missiyanı layiqincə yerinə yetirəcəksən.

Stressdən çıxan Elçin rəisinin təklifindən razı qaldı:

- Yenə, cəhənnəm. İki cındırın əvəzinə doqquz mərd soydaşımızı xilas edəcəyik. Mən hazır. Qazaxa nə vaxt çıxıram?

- Ezamiyyətdə səni Daxili İşlər Nazirliyinin iki əməkdaşı müşayiət edəcək. Əsirləri dəyişmə zamanı bizim Qazax Rayon Şöbəsinin əməkdaşı da sənə yardım göstərəcək. Bir o qədər adam da Ermənistan tərəfindən sərhədə gələcək. Ona görə də həddindən artıq ehtiyatlı ol və əsəblərinə sahib çıx. Sabah səhər əsirləri müvəqqəti saxlanma məntəqəsinin rəisi İsfəndiyar müəllimdən təhvil alıb xüsusi avtobusla yola düşməlisən. Sualın yoxdursa, evə gedib ezamiyyət üçün hazırlıq görə bilərsən.

- Oldu, rəis. Narahat olmayın. Əmrinizi şərəflə icra edəcəyəm. Hələlik.

***

Növbəti gün günorta saatlarında Qaraxanov digər zabitlərlə birlikdə Suren Kazımov və Karmen Allahverdiyevi Qazaxa gətirdi. Rayon DTK bölməsində sərhəddə yerləşən Aşağı Əskipara kəndinə dair əməliyyat vəziyyətini öyrəndikdən sonra qrup qonşu respublikaya tərəf istiqamət götürdü. Sərhəddə Qaraxanov və digər əməliyyatçıların diqqətini çətinliklə ayaqüstündə duran azərbaycanlı girovlar çəkdi. Hətta iki nəfər girov üçüncü məzlumun qollarına girib birtəhər onu ayaqda saxlamağa çalışırdılar. Qaraxanov Qazax Rayon Şöbəsinin əməkdaşı Mahmud Rəsulovun üzünə baxıb təəssüfünü bildirdi:

- Görürsən da, Rəsulov? Bizim təcridxanamızda saxlanılan erməni əsirlərinin fiziki durumuna bax, ermənilərin gətirdiyi məzlumların acınacaqlı vəziyyətinə bax.

- Görürəm, Elçin müəllim! Erməni əsirləri, maşallah, bir az da ətə-qana gəliblər, boyunları da yoğunlayıb. Hələ siz girovlarımızı dəyişdirməyə gətirən erməni zabitlərinin sir-sifətinə baxın. Hamısının üzündən mürdəşirlik yağır.

- Necə də özlərindən razıdırlar. Sanki dünya-aləmi bunlar yaradıb. Bir sözlə, danışıb insanlarımızı geri alaq ki, onlar bu əziyyətdən, işgəncədən qurtulsunlar. Çalış, daşnaklara qarşı nifrətinə hakim olasan, Mahmud. Milis işçilərini də sakitləşdir ki, dəyişmə zamanı problem yaşamayaq.

- Aydındır, yoldaş Qaraxanov. Prosesə başlaya bilərsiniz. Narahat olmayın, arxanızdayıq, barmaqlarımız tətikdədir və durum tam nəzarətimiz altındadır.

- Minnətdaram, Rəsulov.

Təxminən bir saatdan sonra əsirlər siyahı üzrə dəyişdirildi. Növbəti addım xilas edilmiş doqquz nəfəri sağ-sa-

lamat Bakıya çatdırmaq, onlarla filtrasiya və sanitar işlərinin aparılması idi. Əməliyyatçıları daşıyan avtobus paytaxta tərəf yola düşdü. Yevlaxa çatanda Elçin avtobusu saxlayıb girovlara su almaq üçün aşağı endi. Bu zaman onun qarşısını iki nəfər kəsdi və amiranə tərzdə tələblərini ortaya qoydu:

- Yoldaş zabit! Sizdən təkidlə azad edilmiş oğullarımızı istəyirik!

Qaraxanov tanımadığı insanların tələbini eşitdikdə yerində donub qaldı. O, tələb irəli sürən ağsaqqala sual verdi:

- Anlaya bilmədim, dayı, sizlər kimsiniz? Bu avtobusun yanında nə gəzirsiniz?

- Müəllim! Biz Ermənistan qaçqınlarıyıq və Bərdə rayonu ərazisində vaqonlarda yaşayırıq. Erməni faşistlərinin əllərindən qopardığınız iki nəfər milis bizim övladlarımızdır...

- Ay dayı, bunları bildim, e. Məni maraqlandıran başqa məsələdir. Siz sadə vətəndaşlar girovların məhz bu avtobusda olduqlarını haradan eşitdiniz?

- Bildik da, müəllim. Nəyinizə lazımdır, haradan eşitmişik?

Bu dəfə Qaraxanov əsəblərini cilovlaya bilmədi:

- Görürəm, həddindən artıq ağıllı və sirr saxlayansınız! Təkrarən soruşuram: əsirlər barədə məlumatı kimdən əldə etmisiniz? Üçüncü dəfə bu sualı sizə təcridxanada verəcəyəm. Aydındır?

Ağsaqqal Qaraxanovun ciddiliyini və qətiyyətini dərk edib müəmma və şübhələri aradan qaldırmağa cəhd etdi:

- Yoldaş zabit, bu barədə xəbəri bizə ermənilər veriblər...

- Sən özün dediklərivi anlayırsan, dayı? Kimdi o ermənilər? Harada yaşayırlar?

- Müəllim, xəbər verənlər pis adam deyillər. Onlar da milis nəfərləridir, Ermənistanın Oktemberyan rayonunda xidmətdədirlər. Milisliyə bizim övladlarla birgə başlayıblar. Oğullarımız "saqqallılar"a əsir düşəndən bəri onların yerdəyişməsi barədə telefon vasitəsilə bizə həmin adamlar xəbər verirdilər. Vəssalam! İndi övladlarımızı təhvil ala bilərik?

Ağsaqqalın söylədikləri Elçində şübhə doğurdu. Valideynləri sorğulamaq üçün Qaraxanov əməliyyatçı Mahmud Rəsulovu onlarla birgə geriyə Qazax Rayon Şöbəsinə qayıtmağı xahiş etdi. Lakin Məhəmməd adlı ağsaqqal öz inadından əl çəkmirdi:

- Müəllim, sözlərimi havaya atmayın. Elə etməyin ki, sizin barənizdə yuxarılara şikayət məktubu göndərim!

- Siz nə qədər savadsız insansınız. Dedim axı, azad olunmuş şəxslər sağ-salamat Bakıya çatdırılmalıdırlar. Onların üzərində vacib tibbi prosedurlar həyata keçirilməlidir. Xahiş edirəm, vaxtımızı almayasınız.

Qaraxanov bir daha Rəsulova əmr verərək Məhəmmədi və onun yanındakı digər valideyni bölməyə götürməyi tələb etdi. Məhəmməd Elçinin üzünə təəccüblə baxıb əsəbi vəziyyətdə iradını bildirdi:

- Nə olar? Mən sənin bu hərəkətini heç vaxt bağışlamaram. Vaxt gələr, etdiyin bu əməlin qarşılığını dəfələrlə alarsan. Əlvida demirəm, hələlik!

- Qisasıvı alarsan, Məhəmməd kişi, problem yoxdur. Amma filtrasiyadan sonra...

- Nədən sonra?

- Mahmud müəllim hər şeyi sənə anladacaq. Xudahafiz.

Axşama yaxın avtobus Bakıya çatdı. Doqquz nəfəri müvafiq yerlərə təhvil verdikdən sonra Qaraxanov DTK-ya getdi. Bölməsi yerləşən mərtəbədə Elçin Rəsul Adilov və Nurməmməd Məlikovla rastlaşdı. Üç ay olardı ki, Nurməmməd Elçinlə görüşə bilmirdi. Onun özü də yenicə Şuşa ezamiyyətindən qayıtmışdı. Qaraxanovu görən Məlikov sevindi və girovlar barədə maraqlandı. Adilov da Qaraxanovun üzünə baxıb nəsə demək istədi. Lakin Nurməmməd onun sözünü kəsdi:

- Elçin, ölkəmizdəki vəziyyət insanlara psixoloji təsir etməklə yanaşı, dostları da bir-birindən ayırıb. Nə vaxt dalınca gəlirəm otağına... deyirlər ki, ezamiyyətdəsən.

- Bilirəm, Nurməmməd. Eyni sözləri Əhməd də mənə deyir. Çoxdandır, onu da görmürəm. Gəl ümidimizi qırmayaq. Erməni yaraqlıları ilə məsələləri həll etdikdən sonra hər gün bir yerdə olacağıq. Məzuniyyətimizi “Cıdır düzü”ndə keçirəcəyik!

Adilov Elçinlə Nurməmmədin söhbətinə diqqətlə qulaq asdıqdan sonra, nəhayət, öz fikrini söyləməyə macal tapdı:

- Heç inanmıram ki, uşaqlar, bir daha Qarabağa rahat ayaq basaq.

Rəsulun sözləri Elçində ona qarşı qıcıq yaratdı:

- Çoxdandı fikir verirəm sənə, Rəsul. Son zamanlar ruhdan düşmüş insan kimi danışırsan. Özüvü ələ al. Özün bir yana, başqalarında da passivlik oyadırsan...

- Başqaları heç, təki sən mənə bu sözləri demə, Elçin!

- Yaman ürəyin doludur, boşalt gəlsin. Bütün diqqətim səndədir.

Qaraxanovun son kəlməsindən sonra Adilov nifrətlə Elçinə xitabən zəhər püskürməyə başladı:

- Bittə-bittə dənləyəcəyik sizləri, Elçin.

- Rəsul, uzun yol gəlmişəm. Ermənilərin pəncəsindən soydaşlarımızı almışıq. Deyəsən, indi də sən mənə zort vermək istəyirsən?

Adilovun sözlərindən məyus qalan Nurməmməd də ona sual verdi:

- Başa düşmədim, Rəsul. "Bittə-bittə" nə deməkdir? Kimləri dənləyəcəksən?

Adilov bir az da qızışaraq Məlikovun cavabını verdi:

- Bittə-bittə! Yəni bircə-bircə Qaraxanovu və onun yerlilərinin kökünü kəsəcəyik, Nurməmməd. Nə əcəb məni belə çətin anladın?

- Birincisi, səni çox asanlıqla anladım. Elçin naxçıvanlı, mənsə məştağalıyam. Onun dırnağını sənin kimi regionlar arasında nifaq salanların başına belə dəyişmərəm! Başa düşdün? Ermənilərlə dərdimiz azmış kimi, bir tərəfdən də sən millətimizə problem yaratmaq istəyirsən?

Adilov Məlikovun sərt cavabından sonra mübahisəni zarafata çevirməyə çalışdı:

- Siz də ki dostlar, deyib-gülməyi heç bacarmırsız. Guya istədim ezamiyyətdəki problemlərinizi yadınızdan çıxaram, məni tərs başa düşdünüz...

Qaraxanov Adilovun sözünü yarımçıq qoydu:

- Özüvü təmizə çıxarmağa cəhd göstərmə, Rəsul. Məkrli fikirlərini gözəl başa düşdüm. Vəzirovdan qurtu-

lub Mütəllibovun girinə keçdik! Mənim zonama qarşı iyrənc düşüncələrivi hamı yaxşı bilir. Dalımızca danışırsan, elə bilirsən, səni kimsə dəstəkləyir? Dəvəquşu ilə sənin heç bir fərqin yoxdur.

Məlikov əsəbi halda müzakirələrə davam etdi:

- Kütbeyinliyindən, Adilov, başına min cür işlər gəlib. Nəticə çıxarmaq əvəzinə bir az da özünü uçuruma sürükləyirsən. Bizdən böyüksən, səni ağsaqqal sanırıq. Elə etmə ki, adını birdəfəlik ali Məktəbimizin siyahısından silək. Regionçuluq təfəkküründən uzaq dur.

- Sən də ki Nurməmməd, hər şeyi ciddi qəbul edirsən e! Yeri gəlsə, mən Qaraxanovu öz bağımda gizlədərəm...

- Sən nə yaman düşüncəsiz insansan, Rəsul. Yaxşı ki, avara sözlərini başqaları eşitmir. Yoxsa, səni təpiklərinin altına salardılar. Yaxşısı budur, çıx get. Bil ki, sənin Nurməmməd adında yerlin yoxdur.

Məlikovun sözlərindən sonra Adilov başını aşağı salıb mərtəbəni tərk etdi. Nurməmməd Elçinin üzünə baxaraq ona sual verdi:

- İncimədin?

- Əlbəttə, yox, dostum. Rəsul kimilər azərbaycanlıların arasında nifaq sala bilməyəcək. Adilov sadəcə çaşıb. Stalin demişkən: nailiyyətlərindən onun başı fırlanır. Leytenant rütbəsi verdilər, əməliyyat işinə qaytardılar. İndi də müəyyən rəhbərlərin arzularını yerinə yetirir. Ucuz bir alətə çevrilib. Bu alçaqların ucbatından Azərbaycanın regionları arasında anlaşılmazlıq yaranır. Yadında, Moskvada oxuyanda ermənilərdən əl çəkə bilmirdi? Yalnız onlarla dostluq edirdi.

- Nəysə, Elçin, Adilovun səviyyəsinə enməyək. Onsuz da problemlərimiz başımızdan aşır.

Nurməmməd sözünü bitirməmiş koridorda Əhməd Əsədov peyda oldu. O, çox həyəcanlı və özünü itirmiş kimi görünürdü. Dostlara yaxınlaşıb onlara bəd xəbər bildirdi:

- Məhərrəm avtomobil qəzasına uğrayıb, vəziyyəti ağırdır!

Qaraxanov təşviş içində Əhmədə bir az da yaxınlaşıb onu suala tutdu:

- Necə yanı vəziyyəti ağırdır? Qəza harada baş verib?

Əhməd tədricən özünə gələrək Elçinin suallarını cavablandırdı:

- Hadisə Şamaxı yolunda baş verib! Ceyrankeçməz qəsəbəsində. Bakıya sənin yanına gəlirmiş, Elçin. Bacısı oğlundan yalnız bunları öyrənə bildik. Hazırda "Semaşko"nun reanimasiya şöbəsindədir.

Qaraxanov Əsədovun sözünü axıradək dinləmədən, "mən məlumatı İlhama çatdırmalıyam ki, xəstəxananın baş həkimilə əlaqə saxlasın" deyib dostlarının yanından uzaqlaşdı. Yarım saatdan sonra Elçin xəstəxananın reanimasiya şöbəsinə daxil olmaq üçün tibb bacısından təkidlə icazə istəyirdi.

Məhərrəmə baş çəkmək üçün axşama yaxın Elcanla Əhməd də xəstəxanaya gəldilər. Reanimasiya şöbəsinin qapısının önündə onları Elçin qarşıladı:

- Artıq həkimlə danışmışam. Bir azdan bizi Məhərrəmin yanına buraxacaqlar.

Çox keçməmiş Qaraxanovun yanına bir nəfər də yaxınlaşdı:

- Bağışlayın, sizi narahat edirəm, mənim adım Bəkirdir.

Elçin təəccüblə naməlum şəxsin üzünə baxaraq cavab verdi:

- Mənim də adım Elçindir. Lakin sizi tanıya bilmədim.

- Elçin müəllim, biz sizinlə heç vaxt görüşməmişik. Üç saata yaxındır ki, xəstəxananın personalı ilə Məhərrəm barədə maraqlanırsınız, təşviş hissi keçirirsiniz, onun üçün əlinizdən gələni edirsiniz. Şəxsiniz mənim üçün maraq doğurdu, istədim sizinlə tanış olam.

- Demədiniz axı, Bəkir müəllim, sizin Məhərrəmlə nə əlaqəniz var?

- Mən Müşfiq qəsəbəsində yaşayıram. Məhərrəmin qardaşı mənim qonşumdur. Moskvada oxuduğu müddətdə o, tətil vaxtı qardaşının yanına tez-tez gələrdi. O vaxtdan bəri Məhərrəmlə ünsiyyətimiz olub, hətta demək olar ki, aramızda dostluq əlaqələri yaranıb.

Bəkirin səmimi və açıq söhbəti dostlarda ona qarşı xoş təəssürat yaratdı. Elcan söhbətə davam etdi:

- Biz hamımız müxtəlif illərdə Moskvada Məhərrəmlə birgə təhsil almışıq. Aramızda akademiyanı sonuncu bitirən Buğdəliyev olub. Onun xətrini çox istəyirik. Başına gələn hadisədən məyus olmuşuq.

Bəkir bir qədər də özü barədə məlumat vermək istəyirdi ki, tibb bacısı əməliyyatçıları reanimasiya şöbəsinə dəvət etdi. Dostlar Məhərrəmi huşsuz vəziyyətdə çarpayı-

da gördükdə, həkimdən onun səhhətilə maraqlandılar. Cərrah bir azdan onun beyin nahiyəsində əməliyyat aparacaqlarını bildirdi və dostlardan şöbəni tərk etmələrini istədi:

- Əməliyyat ağır olacaq. Məhərrəmin beyninin müəyyən hissəsinə qan yığışıb. Biz həkimlər buna “hematoma” deyirik. Təcili qanı oradan təmizləməliyik. Ümidvaram ki, məni düzgün anladınız.

Həkimin xahişindən sonra dostlar reanimasiyanı tərk etdilər. Əməliyyatın nəticələri ürəkaçan olmadı. Məhərrəmin vəziyyəti ağır qalmaqda davam etdi və beyni fəaliyyətini tam itirdi. Qəzadan dörd gün sonra həkimlər süni tənəffüs aparatını Buğdəliyevdən ayırmağa məcbur qaldılar. Bununla da zarafatcıl, mehriban, nikbin xasiyyətli Məhərrəmin çılğın həyatına son qoyuldu. Elçin bütün sənədləri əldə etdikdən sonra onun cənazəsini təcili tibbi yardım maşını ilə doğma yurdu Qax rayonunun Qıpçaq kəndinə yola saldı. Məhərrəmlə bir yerdə təhsil alan əməliyyatçılar onun “Şəki xalq mahnısı “dartma yaxam cırıldı” sözlərini xatırlayaraq mərhumu mütəmadi yada salırdılar.

***

Azərbaycanda nə Dağlıq Qarabağın, nə iqtisadi, nə də ki siyasi problemlərin həllində heç bir irəliləyiş müşahidə edilmirdi. Əksinə, yaranmış gərginliyin üzərinə yeni təhlükəli məsələlər də əlavə olunurdu ki, onlardan biri də regionçuluq idi. "Haralısan?" Bəlkə də, azərbaycanlıların ən çox nifrət etdiyi söz. Öz vətənində aşırı dərəcədə regionçu olmaq, fərqi yoxdur bakılısan, naxçıvanlısan, gəncəlisən

yaxud da ki, lənkəranlı – Azərbaycana qarşı düşmən kəsilməyə bərabərdir. Həddindən artıq yerlipərəst Rusiyada, Avropada, Amerikada, lap Antarktidada olmaq lazımdır. Buna heç kim maneə törədə bilməz. Oğul var soruşan da ki, "haralısan?" deyər azərbaycanlıyam. Təkidlə dəqiq məkanını, diyarını öyrənmək istəyəndə isə səni hamının yanında rəzil edər. Əsil vətənpərvər insanlar bunlardır. "Oğul" da var ki, ona maraq bildirmədən belə haralı olduğu barədə israrla söhbət açar. Ondan uzaqlaşmaq istəyəndə də səni "yerə yıxar" və kəndindəki küçəsinin adını belə qulağına pıçıldayar. Həmin fərd azərbaycanlılıqdan nəinki uzaqdır, heç millətin nümayəndəsi də ola bilməz. Bir sözlə, hamımız azərbaycanlıyıq və kənardan xəta gələrsə, çarəni özümüz tapmalıyıq.

KQB-də vəzifə bölgüsü və təyinatlar davam etməkdə idi. Komsomolçu Vaqif Hüseynov mühüm postlara öz adamlarını yerləşdirirdi. Onlar respublika rəhbərliyini əyri yoldan sapdırmaq əvəzinə tanışları, qohum-əqrəbaları vasitəsilə yalnız öz mənafelərini güdürdülər. Sadə "çekistlər" isə ölkənin zəif nöqtələri, xarici ölkələr üçün çalışan satqınlar, erməni faşistlərinin Bakıda və Vətənin digər böyük şəhərlərində fəaliyyət göstərən özəkləri barədə rəhbərliyə məlumatları çatdırmağa davam edirdilər. Lakin Mütəllibov iqtidarının diqqəti əməliyyat məlumatlarının təhlilinə deyil, Moskvanın göstərişlərinə yönəlmişdi.

Xalq tərəfindən suallar peyda olduqda, respublika rəhbərliyinin əvvəlcədən hazırlanmış cavabı özünü çox gözlətmirdi: Nə etmək olar? O boyda Rusiya ilə davaya çı-

xaq? Rəhbərlərdə sadəcə Vətən və millət qüruru olmalı idi ki, ağıllı siyasətlə Baltikyanı ölkələrtək sovet hakimiyyətindən cüzi bir pay qoparsınlar.

Vətəni sevmək hər vətəndaşa ərməğan edilir. Lakin hər vətəndaş Vətəni sevməyə qadir deyil. Tolerantlığı ilə seçilən Azərbaycanda istər türkü, yəhudisi, kürdü, istərsə də rusu, ləzgisi, talışı Vətənini çox sevirdi. Vətən sevgisi insanın qanında olmalıdır. Hər bir vətəndaş Azərbaycanı sevməyə adətkərdə olmalıdır. Vətən eşqi, sevgisi, məhəbbəti, duyğusu sözdə deyil, əməldə göstərilməlidir. Kimsə Vətənini sevər, lakin elə bilər ki, Vətən onu sevmir. Yalandır! Vətən hamını daim sevib, sevir və sevəcək. Yalnız onun başında duranlar vətən övladlarını sevməyə bilər. Buna görə heç vaxt məyus, pərişan olmaq lazım deyil. Vətən, zamanı gəldikdə, bütün anlaşılmazlıqları aradan qaldıracaq. Azərbaycanı sevməyin qaydaları var. Kimisi onu mərdcəsinə, kimisi reklam xətrinə, digərisə məkrli niyyətlərini həyata keçirmək üçün sevər. Səmimiyyətsə, Azərbaycanı dəlicəsinə deyil, sakit və ağılla sevəndədir. Əgər vətəndaş ölkəsi əvəzinə onun rəhbərliyini sevməyə başlayarsa, vətənpərvərlik bitər, milləti satmaq da an məsələsinə çevrilər.

***

Cənnət fəsli baharın may ayı qədəmlərini Bakıya basmış idi. Qaraxanov İlham Quliyevlə birgə kabinetində oturub çay içirdi. İlham Elçinin otağına ciddi təkliflə gəlmişdi: ona dövlət rəhbərlərinin mühafizəsini təşkil etmək üçün vəzifə tapşırılmışdı. Azərbaycanda həmin vəzifəni

DİN-in müvafiq şöbəsi səthi icra edirdi. Ona görə də xarici ölkələrdə olduğu kimi, Azərbaycanda da həmin strukturun təşkilinə ehtiyac duyulurdu. Gələcəkdə mühafizə xidmətinin nə dərəcədə mühüm olacağının dərinliyinə varmayaraq, Quliyev Elçini təklifindən razı salmaq niyyətində idi. Bir fincan çayı içdikdən sonra İlham söhbətə başladı:

- Elçin, şöbə rəisimiz Mirzoyevin tapşırığı ilə Mütəllibov və digər hökumət rəhbərlərinin mühafizəsini təşkil etmək üçün qrup yaratmalıyam.

- Bu da təzə çıxdı, dostum? Mən bilən, bu işlə milislər məşğul olur.

- Elədir, Elçin. Dövlət əhəmiyyətli obyektləri mühafizə etmək üçün onların şöbəsi var. Lakin bu kifayət etmir. Mənim yaradacağım qrup sırf müəyyən şəxsləri qorumaqla məşğul olacaq.

- Nəsə xəbər var? Yoxsa, naşı rəhbərlərimizin canlarına göz dikənlər peyda olub?

- Zarafat yeri deyil, Elçin. Bir də ki, can demişkən. Biz qeyd etdiyim insanların cangüdəni olacağıq!

- Elə bu başdan sənə deyim ki, İlham, yeni vəzifə qəti mənlik deyil. Əslinə qalsa, sənlik də deyil. Biz səninlə daim əməliyyat işinin içində boya-başa çatmışıq. Birdən-birə yüksək vəzifəli şəxslərlə Bakının, yaxud Azərbaycanın şəhərlərinin küçələrini gəzməyə nə həvəsim, nə də ki, gücüm yetər.

- Nə bilim, vallah. Düşündüm ki, Moskvada təhsil almısan, dövlət xadimlərinin mühafizəsi qaydalarından məlumatın var, mənə də köməyin dəyər. Amma elə danışdın ki, məni də ruhdan saldın.

- Qəti, məyus olma, İlham. Bu işlərdən mənimlə bərabər Moskvada təhsil alan Əhmədin də başı çıxır. Sən bir onunla da məsləhətləş.

Son cümləni deyən Elçin sanki fala baxırdı. Elə həmin an otağın qapısı açıldı və içəriyə Əhməd Əsədov daxil oldu. Hal-əhval etdikdən sonra Əhməd Elçinə sual verdi:

- Tapa bilərsən, sənə kimləri gətirmişəm? Qapının arxasındadırlar!

Söhbətin uzanacağını hiss edən İlham Quliyev Qaraxanovla əlaqədar sualını təkrarladı:

- Deməli, Elçin, verdiyim təkliflə razı deyilsən?
- Üzrlü hesab et, İlham. Məni bu işlərdən uzaq tut.
- Anladım səni, Elçin. Problem yoxdur. Məsələni özüm də götür-qoy edəcəyəm. Bəlkə, bu təklifdən mən də vaz keçdim.
- Qərar özüvündür, qardaş. Lakin unutma ki, sənin göbəyin əməliyyat işində kəsilib.
- Aydındır, dostum, hələlik.
- Sağ-salamat, İlham.

Quliyev otaqdan çıxdıqdan sonra Əhməd bir daha Elçinə sual verdi:

- Demədin, axı, qapı arxasında səni hansı sürpriz gözləyir?

Sualın cavabını gözləmədən Zeynalla Sahil otağa daxil oldular. Əhməd tərs-tərs onların üzünə baxdı:

- Dözə bilmirdiniz? Qoymazsınız ki, tapmacamın cavabını Elçin versin.

Qaraxanovun sevincinin həddi-hüdudu yox idi. İki ildən sonra kursun dörd "dinləyicisi" yenə də bir yerə yı-

ğışmışdı. Zeynal da, Sahil də sağ-salamat xidmət etdikləri Tacikistanın Xoroq sərhəd dəstəsindən qayıtmışdırlar. Artıq onlar doğma vətənlərində, yəni Azərbaycan KQB-sinin sərəncamında idilər. Qaraxanov dostları ilə kef-hal etdikdən sonra onların respublikadan uzaqlarda keçirdikləri xidmətlərilə maraqlandı:

- Ezamiyyətiniz nə cür keçdi, dostlar? Ümidvaram ki, heç bir narahatlıq doğuran sərgüzəştlə üzləşmədiniz?

Ani fikrə dalan Sahil cavab verdi:

- İnşallah, bu barədə geniş danışmaq üçün süfrə arxasında oturarıq. Hələliksə, bizdə maraq doğuran Azərbaycandakı əcaib proseslərdir...

Elçin Sahilin sözünü yarımçıq qoydu:

- Respublikamızda gedən proseslər haqqında yüz cildlik kitab yazmaq olar. Bu barədə söhbətimizi münasib vaxtda davam edərik. Siz mənə deyin görüm, xidmətinizi hansı şöbələrdə davam edəcəksiz?

Elçinin bu sualından Zeynal başını aşağı salaraq "məni Naxçıvana göndərirlər" dedi. Onun cavabı Elçində maraq doğurdu:

- Necə yəni Naxçıvana ezam olunursan?

- Bəli, Elçin, vətəninə gedirəm. Görünür, orada fəaliyyətim daha çox xeyir gətirəcək.

- Mən söz demirəm, Zeynal. Lakin bir şeyi başa düşə bilmirəm! Bakının belə bir ağır vəziyyətində Akademiyanı bitirənləri nə üçün əyalətlərə göndərirlər?

Söhbətə Sahil də müdaxilə etdi:

- Daha kimdən söhbət gedir?

- Elşaddan, Hicrandan, Elmandan. Elşən Tanrıverdiyevisə ümumiyyətlə texniki şöbəyə atıblar!

- Görünür, Elçin, nəsə məqsəd var. Əksinə, DTK-nın paytaxtdakı strukturlarını gücləndirmək lazımdır ki, rayon şöbələri rahatlıqla fəaliyyətlərini davam etsinlər.

- Çox müəmmalar var, ay Sahil. Bu barədə də ayrıca söhbət edərik. İndi isə düşək aşağıya, nahar vaxtıdır. Gör nə vaxtdan bəri bir yerdə çörək kəsmirik.

- Düz deyirsən, Elçin getdik.

***

Doxsanıncı ilin yay ayları erməni terrorçu və millətçiləri üçün çox məhsuldar idi. Hər şey onların tərtib etdiyi plan üzrə həyata keçirilirdi. Azərbaycanın bir neçə rayonunda marşrut üzrə hərəkət edən sərnişin avtobuslarına qarşı sözün əsl mənasında müharibə elan edilmişdi. Tərtər-Kəlbəcər, Tiflis-Ağdam, Şəmkir-Gəncə marşrutları ilə hərəkət edən avtobuslar partladılmışdı. Artıq erməni terrorçuları Azərbaycan ərazisində mülki əhalini qətlə yetirməklə kifayətlənmirdi. Onlar təxribat xarakterli fəaliyyətlərini mühüm əhəmiyyətli körpülərə, Dağlıq Qarabağ ərazisindəki radio-televiziya mərkəzinə, Kəlbəcərdəki qızıl mədənlərinə yönəltmişdilər. Qarabağın "azadlığı" uğrunda fəaliyyətə başlayan erməni separatçıları əslində tam qüvvələrilə regionu dağıntılara, xarabazarlığa çevirmişdilər. Bu proseslər xarici dövlətləri də çaş-baş salmışdı: əgər ermənilər Dağlıq Qarabağı öz torpaqları hesab edirlərsə, nə üçün oranı cəhənnəmə çevirirlər? Əcnəbilərin cavabını respublika rəhbərliyi iki tutarlı cümlə ilə

verməli idi: "Çünki ermənilər XIX-cu əsrədək heç vaxt Dağlıq Qarabağda yaşamayıblar. Ürəyiyumşaqlıq edib yüz yetmiş il bundan əvvəl biz azərbaycanlılar nankorlara orada torpaq vermişik". Təəssüf ki, Azərbaycan iqtidarı bu cür asan cavabı belə verməyə özündə cəsarət tapmırdı. Təbliğat işlərini ya qura bilmirdi, yada ki, aparmaq həvəsində deyildi.

Azərbaycan DTK-sının əməkdaşları, demək olar ki, komitənin yolunu çoxdan unutmuşdular. Ordusu olmayan Azərbaycanı faciə və fəlakətlərdən qurtarmaq üçün daxili işlər və təhlükəsizlik orqanlarının əməkdaşları sırf hərbi məsələlərlə məşğul olmaqda idilər. Onlar əllərində silah respublikanın ərazi bütövlüyünü əməliyyat fəaliyyətilə deyil, erməni yaraqlıları ilə döyüşərək qoruyurdular. Əməliyyatçıların əzmkarlığını qiymətləndirmək əvəzinə Azərbaycanın naşı rəhbərləri arasında dedi-qodular gəzməyə başlamışdı: nə əcəb döyüşlər zamanı KQB əməkdaşları itkilər vermir. Sanki ölkənin hər bir güc strukturunun şəhid verməsi labüd və məcburi idi. Hətta hiss olunurdu ki, komitənin sədri Vaqif Hüseynov yuxarılarda təşkil olunan iclas və yığıncaqlara "üzüqara" girirdi. Nəhayət, Azərbaycanın səriştəsiz və qürursuz rəhbərliyinin qarşısında onun da "çiçəyi çırtladı". Qasım İsmayılov rayonunun işğal altında olan Buzluq kəndində aparılan reydlər zamanı KQB-nin də əməkdaşlarından biri güllə yarası aldı.

Həmin ilin payızı yenə də öz soyuqluğu ilə seçilirdi. Adətən, bu fəsilə xas olan "babye leto"nun mülayım

istilərindən əsər-əlamət belə yox idi. Əksinə, ağaclar vaxtından əvvəl sarı-qırmızı libasını soyunmuşdu və yerə tökülən yarpaqlar artıq xəzana dönmüşdü. Bütün əlamətlər doxsan birinci ilin qış fəslinin sərt keçəcəyinə işarə verirdi. Sanki, təbiət özü də ölkədəki sarsıdıcı vəziyyətlə həmahəng idi. Nəhəng sistem olan Kainat insan orqanizminə bənzər - balaca bir sahəsi sızıldayarsa, o, böyük həssaslıqla ona qarşılıq verər.

Payızın belə bir küskün vaxtında Elçin Qaraxanov bölmə rəisinin kabinetinə daxil oldu. Sabir Budaqov qəmgin idi. Qaraxanov rəisilə salamlaşıb qarşıdakı masada yer aldı. Budaqov söhbətə başladı:

- Kefin necədir, Elçin? Son iki aylıq hesabatınla tanış oldum. Maşallah, hər şeyi çatdıra bilirsən: ezamiyyətlər, əməliyyat işləri, yeni kadrların hazırlanması...

Qaraxanov rəisinin əsl fikrinin başqa olduğunu anlayıb onun sözünü kəsdi:

- Sabir müəllim, ikimiz də bilirik ki, məni başqa bir səbəbdən yanınıza dəvət etmisiniz. Çox istərdim ki, birbaşa mətləbə keçəsiniz.

Budaqov dərindən köks ötürüb fikrini Qaraxanova çatdırdı:

- Elçin, bir yerdə az müddət işləsək də, sənə ehtiram hissimi bildirmək istərdim...

- Mənim üçün hər şey aydın oldu, rəis. Bu gündən birgə fəaliyyətimizə nöqtə qoyulur?

- Hə, Qaraxanov. Vladimir Adiloviçin və kadrların rəis müavini Sənan Kərəmovun göstərişidir.

- Bəs Xəzər müəllimin fikri nədir? Kadrlar şöbəsinin rəisi olaraq.

- O, bu təklifin əleyhinə idi. Lakin göstəriş rəhbərlikdən gəlib.

Elçin gözəl başa düşürdü ki, artıq Azərbaycanda regionçuluğun qarşısını almaq mümkün deyildi. O, çənəsini yuxarı qaldırıb şəstlə fikrini izah etdi:

- Rəis, mən hərbçi insanam. Rəhbərlik nəyi məsləhət görürsə, tam qüvvəmlə onu icra etməyə hazıram!

Sabir müəllim Elçinin sözlərini səmimiyyətlə qəbul edib onun digər bölməyə keçirildiyini elan etdi:

- Qaraxanov, sabahdan Seyfəddin Osmanovun bölməsində fəaliyyət göstərəcəksən.

- Əla, Sabir müəllim. Deməli, tələbələrin əvəzinə fəaliyyətimi ziyalılarla davam edəcəyəm? Akademik, professor, yazıçı və şairlərlə. Mən razı. Mirzoyevə çatdırın ki, onun üzərimə qoyduğu bütün vəzifələri layiqincə yerinə yetirəcəyəm. Sabir Budaqov Qaraxanovun cavabından çaş-baş qalmışdı. O, ayırd edə bilmirdi ki, yeni vəzifə təyinatına Elçin ciddi, yaxud istehza ilə yanaşır. Qaraxanov rəisinin çaşqınlığını hiss edib onu sakitləşdirməyə çalışdı:

- Rəis, xahiş edirəm sözlərimi düzgün və səmimi qəbul edəsiniz. Yeni vəzifəmdə biliyimi və gücümü əsirgəməyəcəm. Əmin olun ki, başınızı uca edəcəyəm.

- Əgər elədirsə, bölməmizin bütün sənədlərini təhvil ver ki, sabah yeni otağında rahat oturasan.

- Oldu, Sabir müəllim. Lakin istərdim ki, bu gün əldə etdiyim yeni məlumatları sizinlə bölüşəm.

Budaqov diqqətlə Qaraxanovun üzünə baxıb düşüncələrə daldı: “Başqa bölməyə keçirilsə də, yeni məlumatları mənə vermək istəyir. Baxmayaraq ki, xal qazanmaq üçün

onları Seyfəddin Osmanova məruzə edə bilərdi". Bir neçə saniyəlik sükutdan sonra Sabir müəllim Elçini dinləməyə hazır olduğunu söylədi:

- Bütün diqqətim səndədir, Qaraxanov.

- Rəis, məndə olan məlumata görə Bakıda "Yandaşlıq" və "Günahlardan təmizlənmə" cəmiyyətləri yaranıb.

- Bu barədə eşitmişəm, Elçin. Sən nədənsə narahatsan?

- Çox narahatam, Sabir müəllim. Bu cəmiyyətlərin bütün fəaliyyəti paytaxta axışan rayon əhlinə qarşı yönəlib. Hətta şüarları da var: Bakı – yalnız bakılılar üçündür!

- Burada nə var ki, Qaraxanov? Hamı öz yurdunu sevir. Sən məgər Naxçıvanı sevmirsən?

- Əlbəttə, sevirəm, rəis. Lakin Azərbaycandan sonra.

- O nə deməkdir?

- O deməkdir ki, hər kəs, şübhəsiz, doğulduğu yeri öz anası qədər sevməlidir. Bu, müzakirə belə olunmur. Ata isə hər insan üçün müqəddəsdir, arxadır, dayaqdır, örnəkdir, zirvədir, sevgi mənbəyidir. Bu, iki sevgi Tanrıdan gəlir və insanın damarlarında axır. Bütöv Azərbaycanı birləşdirən regionlarımızda yaşayan insanlar anlamalıdırlar ki, bizim gücümüz yalnız birliyimizdədir, biri-birimizə mehriban olmağımızdadır. Birliyimiz möhkəm olsa - yağı düşmən bizə heç vaxt qalib gələ bilməz. XVIII əsrdə xanlıqlara bölünən Azərbaycan 70 il ərzində daxilən də parçalanmış oldu. Məmməd Araz demişkən, "bununlamı neçə dəfə ata-oğul, qardaş hissi haçalandı, bir şəhərin, beş qardaşın xanlığına parçalandı? O zamanmı bitdi bizim dilimizin "sənin", "mənim" qabarı

da? O zamanmı bitdi bizim dilimizin "haralısan" damarı da?" Hərə öz sevgisini yalnız diyarına yönəldərsə, Azərbaycan üçün məhəbbətimizdən əsər-əlamət də qalmaz.

- Bilirsən, Elçin, dövr dəyişib. Azərbaycanın yazılmamış qanunları var: hakimiyyətə hansı regionun nümayəndəsi gəlirsə, o rayonun əhalisi də kef çəkməlidir.

- Sabir müəllim, siz nə danışırsınız? Bilirsiniz ki, bu cür ideyalar respublikamızı uçuruma sürükləyə bilər?

- Yox, bilmirəm. Əslinə qalsa, bilmək də istəmirəm. Vaxt var idi sizlər hökmranlıq edirdiniz, indi isə bizim dövranımızdır, yoldaş Qaraxanov.

- Heyiflər olsun, rəis! Mənfur əməllərin qarşısını almaq əvəzinə onların təbliğatçısına çevrilmisiniz. Unutmayın ki, yerlipərəstlik xəstəliyinə düçar olanlar sadə xalqın nümayəndələri deyil, harınlamış pul və hakimiyyət düşkünləridir. Bir-iki nəfər istisna olmaqla, istənilən sadə KQB əməkdaşını regionçuluq barədə suala tutsanız, hamısı doğma Azərbaycanımızı hər rayondan üstün tutar. Siz DTK-da üstün mövqeyə maliksiniz. Məncə, bütün fəaliyyətinizi millətimizin sonunu gətirə biləcək yerlipərəstlik məfhumunun kökünün kəsilməsinə yönəltməlisiniz...

- Qaraxanov, sənə elə gəlmir ki, rəisinə həyatın mənasını aşılamağa başlamısan?

- Qətiyyən! Sadəcə bildirmək istədim ki, "Yandaşlıq" və "Günahlardan təmizlənmə" cəmiyyətlərini ciddi nəzarətə götürmək lazımdır. Xaricdən erməni faşistləri, daxildən isə bunlar sonumuzu gətirəcəklər.

- Bir sözlə, Elçin, yeni vəzifəndə sənə uğurlar diləyirəm. Söhbəti uzatmayaq, bölmənin sənədlərini təhvil ver və get.

Budaqovun sözlərindən məyus olan Qaraxanov əsəbi halda onun kabinetini tərk etdi. Otağına qayıdarkən Elçin beynində "Belə də bədbəxtlik olar? Xalq Vəzirovdan qurtulub bunların cənginə keçdi! Nə qədər daxili çəkişmələrdən qurtulmamışıq, erməni daşnaklarının qurduqları tələlərə tez-tez düşəcəyik" kimi fikirləri çək-çevir edirdi ki, Tofiq Heydərova tuş gəldi. Heydərov Qaraxanovu qəmgin görüb səbəbini öyrənmək istədi:

- Xeyirdir, Elçin? Qaş-qabağın yerlə gedir.

- Hər şey qaydasındadır, Tofiq müəllim, narahat olmayın.

- Dərdini bilirəm. Mən də iclasdan qayıdıram. Bir-iki nəfər ağzıgöyçək səni rəhbərliyin gözündən salmaq istəyirdi. Rafiq Əliyeviçlə birgə onlara yerlərini göstərdik. Sənsə heç nəyə fikir vermə, başını aşağı sal və həmişəki kimi dövlətimizə fayda gətirən işini gör. Bil ki, mən də, Sadıxov da arxanda dağ kimi dayanmışıq.

Heydərovun sözlərindən Elçin qürurlandı. Artıq Sabir Budaqovun dedikləri onun üçün heç bir əhəmiyyət kəsb etmirdi, çünki o, bir daha əmin oldu ki, Azərbaycan beş-altı nəfər kökünü danan "ikiayaqlı həşəratdan" ibarət deyil. Qaraxanov onu da dərk etdi ki, yaşadığı respublikanı ayaqda saxlayan igid, mərd, vətənpərvər insanlardır. Belə ölkənin gələcəyi işıqlı olmalı, xalqı isə xoşbəxt və firavan yaşamalıdır.

## XI FƏSİL

## ARTAŞATDA DOLMA MƏSƏLƏSİ

Min doqquz yüz doxsanıncı ilin dekabr ayında Artaşat rayon şöbəsində keçiriləcək iclasa Stepanyan özü ilə respublika KQB-sinin nə az, nə çox, düz altı şöbəsinin rəisini gətirmişdi. Azərbaycanla münaqişədə Ermənistanın müvəqqəti uğurlarından fərəhlənən general Stepanyan KQB-nin bəzi iclaslarını rayon şöbələrində keçirməyi məqbul hesab edirdi. Öz aləmində olan general təhlükəsizlik orqanlarının əməkdaşlarında inam, qətiyyət, mübarizlik yaratmaq niyyətində idi. Sadalanan keyfiyyətlərin millətin nümayəndələrinə genlərlə keçməsi Serjik Stepanyana çatmırdı. Möhtəşəm xalqların saya gəlməyən qəhrəmanları və şərəfli salnamələri var. Həmin məfhumlar isə əzəldən bəri Stepanyanın istehza və nifrətlə yanaşdığı türklərə məxsusdur. Ermənilərin yeganə fəxr ediləsi keyfiyyəti hiyləgərlikdir. Onlar məhz bunun hesabına başqa dövlətləri öz tərəfinə çəkərək Dağlıq Qarabağın ərazisində məzlum, silahsız, qoca, qadın, uşaqlar üzərində qələbə çalmağa nail olmuşlar.

Şöbənin uçuq-sökük binasında keçirilən yığıncaq səhər saat onda başladı. Yerevandan Artaşata təşrif buyurmuş rəislər şöbənin iclas zalının tavanı, divarları və döşəməsinə nəzər yetirdikdə əmin oldular ki, hökumətin Ermənistan xüsusi xidmət orqanlarına bəslədiyi səthi münasibət

gələcəkdə müsbət nəticələnməyəcək. Ən azı ona görə ki, polkovnik Yesayanın Dağlıq Qarabağda gördüyü vilayət KQB binası keyfiyyətcə Ermənistan Respublika DTK tikilisindən qat-qat üstün idi. General Stepanyan çıxışına başladı:

- Əziz kolleqalar, mənfur türk qonşumuza həsr edilmiş iclası açıq elan edirəm.

Serjikin qeyri-müəyyən sözlərini anlamayan əks-kəşfiyyatın rəisi Aşot Tarverdiyev ilk sualını verdi:

- Yoldaş general, söhbət hansı türklərdən gedir? Azərbaycan, yoxsa Anadolu türklərindən? Axı hər ikisi bizim qonşumuzdur...

Stepanyan narazı halda üzünü kəşfiyyatın rəisi polkovnik Karo Simonyana tərəf tutdu:

- Yoldaş Simonyan, Tarverdiyevin dediklərini necə izah edə bilərsən?

Simonyan tərəddüd etmədən Serjikin sualını cavablandırdı:

- Əlbəttə, söhbət Azərbaycan türklərindən gedir.

Sonra Karo Aşota tərəf çönüb onu tənbehlədi:

- Biz kiminlə müharibə şəraitində yaşayırıq, Aşot? Təbii ki, azərbaycanlılarla. Sənin kimi polkovnikdən bu cür naşı sual gözləməzdim.

Tarverdiyevə iradlarını söylədikdə Karonun bir gözü general Stepanyanda idi, görsün, bicliyi keçərli oldu, ya yox?

Stepanyan Simonyanın cavabından məmnun qalaraq sözlərinə davam etdi:

- Bilmənizi istərdim ki, iclasımızı Artaşat şəhərinə salmağımın iki məqsədi var. Birincisi, bu şəhər vaxtilə "Bö-

yük Ermənistan"ın paytaxtı olub. Xahiş edirəm, bunu unutmayasınız. İkincisi, yavaş-yavaş... Naxçıvana yaxınlaşırıq. Anladınız da nə demək istəyirəm?

Belə bir məqamda xal qazanmaq üçün beşinci şöbənin rəisi İqor Yesayan da söhbətə müdaxilə etdi:

- Əlbəttə, yoldaş general. Artaşat şəhərindən Naxçıvan MSSR-ə cəmi otuz-qırx kilometrdir. Ümidvaram ki, yaxın gələcəkdə bu məsafəni də şərəflə qət edəcəyik. Naxçıvan da Qarabağ kimi Ermənistan torpağıdır və əbədi bizim olacaq.

Yesayanın pafoslu çıxışından sonra erməni diasporu üzrə şöbənin rəisi polkovnik Karen Apresov müavini Şahnazaryanın üzünə baxıb sakitcə yalnız bunu söylədi:

- Həmişəki kimi İqor barıtı çox qoydu.

Stepanyan od püskürə-püskürə çıxışına davam etdi:

- Biz türklərə yerlərini bildirməliyik. Dediyim kimi, onların ermənilərə qarşı törətdikləri soyqırım cavabsız qalmayacaq.

Generalın duruşundan və uca səslə söylədiklərindən belə qənaətə gəlmək olardı ki, Stepanyanın simasında Hitler hələ də sağdır və Ermənistanda faşizm mütləq qalib gələcək. Serjik öz ampluasında idi:

- İndiyədək Azərbaycanın sayəsində qazandığımız nailiyyətləri inkişaf etdirməliyik və oradakı türklərin kökünün kəsilməsini davam etdirməliyik.

Bu zaman Tarverdiyev generalın çıxışına müdaxilə edib növbəti sualını verdi:

- Yoldaş Stepanyan, demədiniz axı türklərin kökünü hansı yolla kəsəcəyik?

Serjik sözünü yarmçıq qoyduğu üçün Aşotun cavabını sərt şəkildə vermək istədi. Lakin özünü ələ almağa bacardı. O, Tarverdiyevin sədr Dilanyanın qohumu olduğunu xatırlayıb səs tonunu yumşaltdı:

- Xahiş edirəm, bir qədər səbr edəsiniz. Bir azdan konkret şəkildə Azərbaycan üzrə planlarımı açıqlayacağam. İndisə şöbə rəislərini dinləyək.

Çıxış edən şöbə rəisləri sanki bəhsə girmişdilər. Hamı bir ağızdan Ermənistandan qovulan, öldürülən azərbaycanlıların, Dağlıq Qarabağda işgəncə verilən qadın və uşaqların tarixçəsini anladırdı. Nəhayət, Stepanyan Yesayana müraciət edərək müzakirələrə son qoydu:

- İqor, sənə söz verdiyim kimi bu yaxınlarda Bakı şəhərindəki xüsusi qruplarımızın həbs edilmiş rəhbərlərini geri ala bildik. Onları tərtib etdiyimiz plan üzrə Ermənistanda girov götürülmüş azərbaycanlı mənşəli polis əməkdaşları və mülki şəxslərə dəyişdik. Əminəm ki, bu barədə sualın yoxdur.

Yesayan Stepanyana razılığını ifadə etdi:

- Qətiyyən, yoldaş general. Əmin olun ki, Azərbaycan xüsusi xidmət orqanlarının caynağından çıxarılmış Kazımov Suren və Allahverdiyev Karmeni gələcək əməliyyatlarımızda fəal istifadə edəcəyik.

- Əla! İndi isə yeni planlarım barədə sizləri məlumatlandırmaq istəyirəm.

Bütün şöbə rəisləri diqqətlərini Stepanyana yönəltdi. General sakit tərzdə gələcək planlarını təfsilatı ilə anlatmağa başladı:

- Yoldaş zabitlər, bildiyiniz kimi qonşu respublika ərazisində azərbaycanlılara qarşı yönəldilmiş əksər təxribat-diversiya fəaliyyətini həyata keçirdik. Mən bu məfhumlardan ona görə istifadə edirəm ki, artıq Azərbaycanla açıq müharibə şəraitində mübarizəyə başlamışıq. Lakin əldə etdiyimiz nailiyyətlərlə kifayətlənməməliyik. Qarşımızda həyata keçiriləsi yeni tədbirlər var. Bundan sonra azərbaycanlılara qarşı mübarizəmizi onların respublikası hüdudlarından kənara daşımalıyıq. Bilirəm ki, Azərbaycanın ərazisində partlatdığımız marşrut avtobuslarının sayı-hesabı yoxdur. Çox gözəl! Bəs nə üçün türklərin qatarları Rusiya ərazisində rahat hərəkət edir?

Bir neçə saniyəlik fasilədən sonra Stepanyan özü öz sualına cavab verdi:

- Çunki hörmətlə yanaşdığım Yesayan və Simonyan bu barədə təkliflərini mənimlə hələ də bölüşməyiblər.

Simonyan dərhal generala cavab verdi:

- Yoldaş Stepanyan! Biz hərbçi adamlarıq. Yalnız yuxarıların göstərişlərini təmkinlə icra edirik. Siz nə vaxt bizə bu istiqamətdə əmrlər verdiniz ki, biz yerinə yetirmədik?

- Karo, fikirlərin mənə su kimi aydındır. Lakin təşəbbüskarlıq hər rəhbərdə olmalıdır.

- Əgər elədirsə, yoldaş general, mənim də təklifim var.

- Buyurun, yoldaş Simonyan.

- Azərbaycanda bəzi jurnalistlər var ki, müqəddəs işimizdə bizə maneələr törədə bilərlər.

- Düzdür! Kimlərdir onlar?

- Salatın Əsgərova və Mərdan Kazımov.

- Başa düşmədim, Karo. Bəs nəyə görə onlar bu günədək sağ-salamatdırlar?

- Onların barəsində mən sizə hələ dünən məruzə etmək istəyirdim ki, ezamiyyətimiz başladı.

- Artaşatdan qayıdan kimi yazılı şəkildə təkliflərini gözləyəcəm.

- Təkliflərim çoxdan hazırdır. Nə qədər ki, həmin insanlar sağdır, o qədər də ziyanımıza işləyəcəklər.

General kəşfiyyat şöbəsi rəisinin söylədiklərindən məmnun qalaraq söhbətinə davam etdi:

- Deməli, dostlar, Azərbaycan Respublikasına mal daşıyan qatarlarda diversiya törətmək vaxtı gəlmişdir. Qoy Dağıstandakı adamlarımız hazır vəziyyətdə bizdən "vur" əmri gözləsinlər. İqor, Yerevana qayıtdıqda yanıma gələrsən. Əməliyyatın bütün incəliklərini anladacağam.

Bu təklifdən Yesayanın gözləri işıldadı. O, azərbaycanlılara qarşı törətdiyi hər terror əməlindən ayrıca zövq alırdı. İqor generalın təklifinə dair rəyini bildirdi:

- Yoldaş general, çətinliklə azadlıqlarını təmin etdiyimiz Suren və Karmenin "qatar" əməliyyatında iştirak etməsini vacib sayıram.

- Artıq o sənin işindir, İqor. Planıma əlavələri özün edərsən,- deyə general tələsik müsahibini başından elədi.

Serjik iclas iştirakçılarına xitabən hələ də Dağlıq Qarabağda yaşayan azərbaycanlılar barədə fikirlərini söylədi:

- Məndə olan məlumata görə, Qarabağda yaşayan azərbaycanlılar hələ də diyarımızın nemətlərini dadırlar. Nədənsə biz bu məxluqlardan tam şəkildə azad olmuruq

ki, olmuruq. Xahiş edirəm, bu yöndə fəaliyyətinizi davam edəsiniz. Xocalı aeroportu azərbaycanlıları qida məhsulları ilə təmin etmək üçün əlverişli platformaya çevrilib. Mən anlaya bilmirəm ki, nəyə görə xocalılılar bu günədək azaddırlar. Aşot, təkliflərini gözləyirəm.

Aşot müavinilə söhbətini tamamlayıb Stepanyana cavab verdi:

- Mən onu deyə bilərəm ki, ölü xocalılı, şuşalı, malıbəylili... "Qarabağ - ermənilərindir" deməkdir!

- Razıyam, Tarverdiyev. Söylədiyin "tarixi" kəlməyə dair əməliyyat planlarının intizarındayam.

Stepanyan şöbə rəhbərlərinə göstərişlərini verdikdən sonra kəşfiyyatın rəisindən sovet ordusunun Qarabağda yerləşən üç yüz altmış altı saylı alayı ilə maraqlandı:

- Karo, alayın rəhbərliyilə danışıqları yekunlaşdırdınmı?

Simonyan polkun komandiriylə görüşlərdə əldə etdiyi nailiyyətlər barədə generala şəstlə məruzə etdi:

- Yoldaş general, polkovnik Skobeyev Dağlıq Qarabağın müdafiəçilərini atıcı silahlarla təmin edəcəyinə söz verdi. Bununla yanaşı, erməni mənşəli gizirləri silah-sursat, geyim və qida anbarlarına müdir təyin etməyə Vitali Skobeyevi tam razı saldıq. Niyyətimiz baş tutarsa, gizirlərin səyi ilə hərbi sursatları oğurlayıb Suriyadan, Livandan gətirdiyimiz və Qarabağın kəndlərinə yerləşdirdiyimiz erməni könüllülərinə verə bilərik.

Serjik təəccüblə Karoya baxıb ona yenidən sual ünvanladı:

- Könüllülərə külli miqdarda payladığımız silahlar kifayət etmədi ki?

- Təbii ki, yoldaş general, hamıya yetdi. Lakin bildiyiniz kimi Rusiyadan, bir çox Avropa və hətta Cənubi Amerika ölkələrindən də soydaşlarımız respublikamıza gəlməkdədir. Onlar Qarabağda yaşayan ermənilərə əllərindən gələn köməyi əsirgəməyəcəklər. Qardaşlarımızı silahlandırmaq üçün gizirlərimiz nəzarət cəhətdən zəif olan anbarlardan yeni sursatlar çıxaracaqlar.

- Bu başqa məsələ. Görünür, kəşfiyyat şöbəmiz üzərinə qoyulan bütün məsələləri təmkinlə həll etməkdədir,- deyə şovinist erməni generalı rahat nəfəs aldı.

Axşam saat beşədək davam edən iclas yekunlaşmaq üzrə idi. Toplantıda yeni ideya da öz təsdiqini tapmışdı: mononomillətli Ermənistan. Azərbaycanlılarla yanaşı Ermənistan Respublikasında yaşayan digər millətlər də qovulmalı idi, baxmayaraq ki, artıq onların cüzi miqdarda qalmış nümayəndələrinin ermənilərə nə istisi, nə də soyuğu var idi.

Belə bir nəticə ilə general Stepanyanın növbəti iclası yekunlaşdı. Ermənistan SSR KQB-si Artaşat şöbəsinin rəisi Volodya Kirokosyan qonaqları Araz çayının kənarında yerləşən evinə apardı. Onun həyat yoldaşı Hasmik və qızı Janna generalın şərəfinə vaxtilə qonşuluqlarında yaşayan azərbaycanlı ağbirçək Sarabəyim xaladan mənimsədikləri yarpaq və kələm dolması hazırlamışdılar. Stepanyan dolmaları görüncə, "kaş ki, bizim də azərbaycanlılar kimi mətbəximiz olaydı" düşünərək süfrə başında əyləşdi. O iştahla udqunub əlini dolmaya uzatdı və Yesayana müraciət etdi:

- İqor, günü sabahdan şöbəndəki əməliyyatçıların və gizli yardımçıların qüvvələrini, bacarıqlarını dolmanın er-

məni mətbəxinə mənsubluğunun təbliğinə yönəldirsən! Aydın oldumu sənə?

İqor süfrədəki məzələri yüksək rütbəli qonağın önünə düzə-düzə yaltaqcasına təsdiq etdi:

- Narahat olmayın, yoldaş general. Dolma da bizim olacaq...

***

Artıq min doqquz yüz doxsan birinci ilin qışı ölkəmizə qədəm basmışdı. Bakıda üçüncü yanvar ayı idi ki, SSRİ DTK F.E.Dzerjinski adına Ali Məktəbinin məzunları yeni ili qeyd edə bilmirdilər. Çünki leytenantdan tutmuş kapitana kimi akademiyanın gənc müdavimlərin Dağlıq Qarabağ zonasına təyin edilmiş ezamiyyətlərdən başları açılmırdı. Nə vaxtdı, Azərbaycan SSR DTK-sının iş qrafiki yeni rejimdə fəaliyyət göstərirdi. Demək olar ki, xüsusi xidmət orqanının hər bir əməliyyatçısı ayın iyirmi gününü döyüş bölgələrində, qalan on gününü isə kabinetlərində keçirirdilər. Əməliyyat fəaliyyəti nəticəsində gizli yardımçılardan əldə edilmiş əksər məlumatlar məhz Dağlıq Qarabağla əlaqədar idi.

Elə bir həftə olmurdu ki, erməni yaraqlılarının marşrut nəqliyyatlarında, körpülərdə, mühüm əhəmiyyətli obyektlərdə təxribatlar törədəcəyi barədə əməliyyat məlumatı əldə edilməsin. Bir çox hallarda diversiya və terror aktlarının qarşısı alınırdı. Lakin erməni daşnakları çirkin əməllərindən əl çəkmirdilər. İllərlə dünyanın müxtəlif yerlərində diversiya aktları törədən ekstremist erməni təşkilatları bir-birləriylə sanki bəhsə girmişdilər: hansı terrorçu qurum

törətdiyi partlayışlarda qurbanlar üzrə irəli çıxacaq? Yeni sınaq poliqonu qismində isə Azərbaycan ərazisi seçilmişdi.

Qışın belə bir çağında ali məktəbin səkkiz-on nəfər yetirməsi Bakının Leytenant Şmidt küçəsində yerləşən cızbız kafesində nahar edirdilər. Həmin yer Elçin Qaraxanovun ən çox sevdiyi yeməkxana idi. Orada quzu ciyərindən hazırlanmış cız-bızın yerini heç nə verməzdi. Sahil yeməkxanaya kiçicik şüşədə zeytun arağı da gətirmişdi. Dostlar hesablarını dəqiq aparmışdılar: arağı içib komitəyə qayıdınca spirtli içki tamamilə öz təsirini itirməli idi. Təbii ki, ilk tost Buğdəliyevin anımına içildi. Müsəlman adətinə rəğmən Məhərrəmin sağlığına içiləcək simvolik badənin üzərinə Moskva qaydası ilə qara çörək parçası qoyulmuşdu. Bir də ki sovet dövründə hansısa dini adətlərə riayət etmək heç kimin ağlına belə gəlmirdi. Badə üzərinə qara çörəyin qoyulması mərhumlara dair hörmət rəmzinə çevrilmişdi. Məhərrəm haqqında deyilən xoş sözlər bitmək bilmirdi. Eyni zamanda akademiyanın məzunları Qarabağda başlarına gələn əhvalatları da xatırladılar. Ayrılıqda onların hər məzuniyyəti tarixi hadisəyə çevrilmişdi.

Dostların şam yeməyi üç saat çəkdi. DTK-ya qayıdarkən əməliyyat növbətçisi Qaraxanova Seyfəddin Osmanovun onu axtardığını bildirdi. Osmanov Elçinin yeni bölmə rəisi idi. Qaraxanov Seyfəddin müəllimi Azərbaycan SSR DTK-sına gəldiyi ilk gündən tanıyırdı. O, sakitliyi, ədalətliyi, eyni zamanda sərt, gözlənilməz qərarlar verməyi ilə seçilirdi. Ən əsası, isə görülən işlər barədə mütəmadi yazılı hesabatlar və planlar tələb etməsi idi.

Hesabat! Sovet güc strukturlarının bəlası. Doxsanıncı illərdə dünyanın inkişaf etmiş ölkələrinin xüsusi xidmət orqanlarında əməliyyat işləri barədə hesabat tələb edilmirdi. Əməliyyat fəaliyyəti mükəmməl yaradıcılıq işidir. Onu əvvəlcədən nə planlaşdırmaq, nə də səlis hesabatını tərtib etmək olur. Hesabat maliyyə fəaliyyətinə aid olan bir məfhumdur. SSRİ dövründə əməliyyat işlərinin planlaşdırılmasının otuz yeddi-otuz səkkizinci illərin repressiyalarında böyük rolu var idi.  İş o yerə çatmışdı ki, əməliyyatçı təminatında olan obyektlərdə əvvəlcədən neçə "təxribatçı", "xalq düşməni", "casus" və "terrorçunun" ifşa edəcəyi barədə plan tərtib edirdi. Hesabat ərəfəsi yaxınlaşdıqda isə NKVD əməkdaşı tərtib etdiyi plan üzrə məcburən hərəkətə keçirdi. Beləliklə, əməliyyatçı özü "dar ağacından" qurtulmaq üçün təxribat, satqınlıq və digər cinayətlərdə günahı olmayan vətəndaşların həbsi, hətta qətlinə səbəb olurdu. Plan və hesabat üzərində qurulmuş sistemdən doxsanıncı illərdə qurtulmaq müşkül məsələ idi. Yuxarılardan mütəmadi olaraq aylıq, yarımillik, illik hesabatlar tələb olunurdu.

Qaraxanovun yeni rəisi bir az da irəli gedərək hər həftənin birinci günü tabeliyində olan əməliyyatçılardan hesabat tələb edirdi.  Belə bir şəraitdə Elçin Seyfəddin müəllimin kabinetinə daxil oldu:

- Salam, rəis. Eşitdim, məni axtarmısınız.

Osmanov altdan-yuxarı Qaraxanovu süzərək narazı tonla cavab verdi:

- Axtarmışam, Elçin, axtarmışam. Nahardan sonra bir saat işə yubanmısan. Xeyirdirmi?

- Qəti xeyir deyil, rəis. Moskvada bizimlə bir yerdə təhsil alan Məhərrəm Buğdəliyevi anırdıq.

Osmanov səs tonunu bir az yumşaldıb əlavə etdi:

- Allah rəhmət eləsin. Məgər bunun vaxtıdı? Gələcək üçün xahiş edərdim, bu cür tədbirləri işdən sonraya saxlayasınız.

- Aydındır, rəis!

Osmanovun rişxəndlə söylədiyi son cümlə Elçinin könlünə xal saldı. O, "Necə olur ki, insanlar yaxşılığı tez bir zamanda itirir? Vaxt var idi, Seyfəddin də İsrail Qulamovla birgə qohum-əqrəbalarını institutlardan qovmasınlar deyə, dəfələrlə məndən xahişlər edirdi. İndi isə... rəis oldu. Həmən, xasiyyəti dəyişdi" fikirləriylə Osmanova sual verdi:

- Rəis, demədiniz axı, məni nə üçün axtarırdınız?

- Dağlıq Qarabağın bütün rayonlarında vəziyyət yenə də gərginləşib. Erməni yaraqlıları Muxtar Vilayətin Azərbaycanın başqa regionları ilə əlaqələrini kəsmək üçün yolları, körpüləri kütləvi şəkildə partlatmağa başlayıblar.

- Seyfəddin müəllim, məgər dedikləriniz yenilikdir ki? O gün olmaz, səhər yuxudan ayılanda erməni millətçilərinin törətdiyi hansısa diversiya aktı haqqında eşitməyək.

- Sözümün canı odur ki, Qaraxanov, Qasım İsmayılov rayonunun ermənilər yaşayan kəndlərinə kütləvi şəkildə "saqqallılar" soxulur. Buzluq, Ərkəc, Mənəş kəndləri və Şaumyan qəsəbəsi ərazisindən azərbaycanlıların yaşadığı məntəqələrə dair təxribatların sayı artıb.

- Məndən nə tələb olunur, rəis?-deyə Qaraxanov söhbəti konkretləşdirmək istədi.

Osmanov qarşısındakı kağızları qarışdıraraq dodağının altında mızıldandı:

- Sözügedən ərazilərdə sən dəfələrlə olmusan. Oradakı əməliyyat şəraitini təhlil etmək üçün Qasım İsmayılov rayon şöbəsinə ezam edilirsən. Səninlə birlikdə oraya yeddi nəfər əməliyyatçı, o cümlədən Yarmahmud Hacıyev, Heydər Muradov və Ağəli Həsənov da gedəcək.

- Bunlar aydındır. Necə deyərlər, canımız ezamiyyətlərə öyrəşib. Bəs "saqqallılar" soydaşlarımız yaşadığı kəndlərə soxularsa, nə etməliyik? Onları məhv edəcəyik, ya əvvəlkitək vəziyyəti izləyəcəyik?

- Artıq yerindəcə qərar qəbul etmək səlahiyyəti sizlərə verilib. Hərəkət və əməllərinizdə azadsınız.

- Nəhayət! Bu, əla oldu, rəis. Biz oralarda nə edəcəyimizi gözəl bilirik.

- Sizə uğurlar, Qaraxanov,- müsahibi nədənsə qaşqabaqlı şəkildə davam etdi,-hamınız Qasım İsmayılov Rayon Şöbəsinin rəisi Hüseynağa Qafarovun tabeliyinə keçəcəksiniz. Hə, qatarın yola düşməsinə o qədər də çox qalmır. Elə indidən hazırlaşıb vağzala getsən, yaxşı olar.

- Mən hazıram, Seyfəddin müəllim.

- Onu da deyim ki, Qaraxanov, orada özfəaliyyətlə məşğul olmaq lazım deyil. Yalnız Qafarovun əmrlərini yerinə yetirməlisiz, -deyə Osmanov son təlimatını verdi.

Osmanovun göstərişi və təlimatından sonra əməliyyat qrupu axşama yaxın yola düşdü. Tərslikdən vaqonlar qızdırılmırdı və qatardakı bütün sərnişinlər soyuqdan qorunmaq üçün əllərinə keçən isti paltarları əyinlərinə

geyinmişdilər. Yaxşı ki, əməliyyatçılar da özləriylə isti geyim, xüsusən də, buşlatlarını götürmüşdülər. Dərd orasında idi ki, Elçinin və digər üç nəfər əməliyyatçının olduğu kupedə işıqlar yanmırdı. Ona görə də qaranlıq kupenin sərnişinləri fənər işığı altında bir tikə şam yeməyindən sonra buşlatlarına bürünüb yuxuya getdilər.

***

Səhər saat on radələrində ezamiyyət qrupunun üzvləri Qasım İsmayılov rayon şöbəsinin binasındakı kömür sobanın ətrafına yığışıb qızınmaqda idilər. İnsanın iliyinə işləyən sərt soyuğu tədricən mülayim hava əvəzləməyə başladı. Qışın oğlan çağı olmasına baxmayaraq, bayırdakı müsbət dərəcəli hava əməliyyatçıları sevindirdi.

Qaraxanov Hüseynağa Qafarovun üzünə baxaraq sevincini gizlədə bilmədi:

- Sizə deyim ki, rəis, bəxtimiz var imiş. Erməni yaraqlıların hücumlarını dəf etmək üçün təbiət də bizimlədir.

- Bəli, Qaraxanov. Çünki biz "çekistlər" haqq işiylə məşğul oluruq, dinc insanlarımızın təhlükəsizliyini qoruyuruq.

Əslən şamaxılı olan Hüseynağa müəllimlə Elçin bir neçə dəfə ünsiyyətdə olmuşdu. Min doqquz yüz səksən doqquzuncu ildə Qasım İsmayılovdan olan bir neçə tələbə ilə əlaqədar Qafarov iki dəfə paytaxta gəlmiş və Qaraxanovla görüşmüşdü. Hətta ikinci görüşdə Elçin, Nurməmməd və Əhməd Hüseynağa müəllimi kafeyə nahar yeməyinə dəvət etmişdilər. Məclis çox maraqlı keçmişdi.

Söhbəti davam etdirən Qafarov təkliflərini verdi:

- Qaraxanov, rayonumuzdakı vəziyyət barədə mütəmadi Bakıya məlumat hazırlanmalıdır. Təklifim budur ki, sən şöbədə qalıb Komitə üçün arayışları tərtib edəsən. Yazı qabiliyyətindən xəbərim var. Sadəcə kəndlərə göndərilmiş əməkdaşlarımızın əldə etdikləri məlumatları ümumiləşdirməlisən.

Qafarovun bu təklifi Elçin üçün heç də ürəkaçan olmadı. O, Yarmahmudu və Ağəlini işarə edərək kağız işlərini onlara həvalə etməsini məsləhət gördü:

- Hüseynağa müəllim, bu əməkdaşlarımızı siz məndən də əvvəl tanıyırsız. Əsl arayış yazmaq qabiliyyəti bunlardadır. Xətləri də gözəldir. Vətənin belə bir ağır vəziyyətində yazı-pozu işləri ilə məşğul ola bilmərəm. Mənim yerim qaynar nöqtələrdir.

- Elçin, gəl inad etmə! Yazı-pozu işi deyil, analitik qabiliyyətdən söhbət gedir. Arayışları qaydasında tərtib eləmək lazımdır ki, onu da sən əla bacarırsan.

- Yoldaş Qafarov, xahiş edirəm məni Heydər, Əhməd və Dimadan ayırmayasınız. Onlarla bərabər mən də Todan kəndinə getməliyəm. Heç vaxt razı olmaram ki, dostlarım Buzluq, Mənəş, Erkəc kəndlərində erməni yaraqlıları ilə mənsiz döyüşsünlər. Bir də ki, mən bu tərəflərdə tez-tez oluram, hər dağına-daşına bələdəm.

Qaraxanovun təkidindən sonra Hüseynağa müəllimin ona yaxşı yol deməkdən başqa əlacı qalmadı:

- Nə deyim, Elçin? Cəsarətli seçim oldu! Qarşısını alsam, günah sayılar. Uğurlar arzu edirəm. Sizinlə bərabər

Todan kəndinə işçim İnqilabı da göndərirəm. Kəndlərdə əməliyyat şəraitini əla bilir. Hər gün axşam onunla birlikdə şöbədə hesabatınızı dinləyəcəyəm.

- Oldu, yoldaş Qafarov. İcazənizlə biz yola düşək.

Təxminən qırx dəqiqədən sonra Elçin və digər əməliyyatçılar Todan kəndinin kolxoz binasına yerləşdilər. Hava o qədər isinmişdi ki, əməliyyatçılar nazik geyimdə hərəkət edirdilər. Bu da onların çevikliyini bir az da artırırdı. Hərdən qonşu erməni kəndlərindən atəş səsləri eşidilirdi. Elçin Heydərə yaxınlaşdı:

- Deyirəm, Muradov, dünyanın işinə bax, e. Bir tərəfdə sərçələrin civiltisi, digər tərəfdə – atəş səsləri. Sanki silah səsləri də quş səsləri ilə eyniləşib.

Heydər Elçinin sözlərinə təbəssümlə cavab verdi:

- Ağlıma yeni atalar sözü gəldi, Elçin: quş olmayan yerdə tapança da bülbüldür. Dəftərini açıb sözlərimi qeyd edə bilərsən, hədiyyə edirəm.

- Xeyli məmnunam, dostum!

Silah səslərisə davam etməkdə idi. Kolxoz binasının gözətçisi Məmiş kişi də fikrini söylədi:

- Əziz qonaqlar, nə vaxtdı səhərlər biz xoruz səsiylə deyil, avtomat atəşləriylə oyanırıq. Ermənilər o qədər qudurub ki, qonşu Buzluq və Mənəş kəndlərini özləri üçün əyləncə mərkəzlərinə çeviriblər. Xüsusən də, ərəbdilli daşnaklar.

"Ərəbdilli" daşnaklar sözünü eşitdikdə Elçin təəccüblə Məmiş kişidən soruşdu:

- Mənfur qonşularımız haqqında nə desən eşitmişəm, bir "ərəbdilli daşnak"dan başqa.

Gözətçi əməliyyatçıların təəccübünə fikir vermədən söhbətə davam etdi:

- Bəs nə bilmişdiniz? Oturmusunuz Bakıda, dünyadan da xəbəriniz yoxdur. Rayonumuzun erməni kəndlərinin hamısında ərəb ölkələrindən gəlmiş erməni yaraqlıları yerləşib. Özü də başkəsənlər.

Heydər maraqla gözətçiyə sual verdi:

- Məmiş kişi, görürəm kəndlərin hal-əhvalından xəbərdarsan. Bəlkə əcnəbi yaraqlıların təxmini sayını da bizə söyləyəsən?

Gözətçi bir az da cürətə gəldi:

- Əlbəttə, deyərəm. Kəndlərdə yüz əlli nəfər ərəbdilli erməni yerləşdirilib. Onlardan yetmiş ədədi "Şaumyan selski"də, qırx ədədi Buzluqda, iyirmisi – Erkəc , iyirmisi də Mənəş kəndində keşik çəkirlər.

Bayaqdan bəri susan Əhməd də söhbətə müdaxilə etdi:

- Əvvəla, Məmiş kişi, insanı ədədlə saymazlar...

Gözətçi Əsədovun sözünü cəsarətlə kəsərək:

- Mənə dərs keçmək lazım deyil, oğlum. Bax erməni yaraqlıları mənim üçün gördüyün o cansız odun parçasıdır. Yəni, ədəddir, dənədir. Alçaqlar uşaq, qadın, qoca demədən, hamısını o dünyaya göndərirlər. Cüzi də olsa vicdanları və adamlıqları yoxdur. İkinci sualını da verə bilərsən, bala,- dedi.

- İkincisi də, Məmiş dayı, daşnakların sayı barədə bu qədər dəqiq məlumat sizdə haradandır?

- Siz çekistsiniz, sizlərdən söz gizlədə bilmərəm. Deməli, Buzluq kəndində yaşayan Anjela bizim Abdullanın

məşuqəsi olub. Olub deyəndə ki, indi də onlar xəlvəti yerlərdə görüşürlər. Bax, həmin Anjelanın əri Qiriş ərəbdilli ermənilərin təchizatı ilə məşğuldur. Həftə səkkiz, mən doqquz Yerevan şəhərinə gedib qida məhsulları gətirir: əvvəl Stepanakertə, sonra da "Şaumyan selskiyə". Abdulla ilə görüşsəz, sizə çox şey deyəcək.

Əməliyyatçılar gözətçinin dediklərini eşidəndə bilmədilər, onu qucaqlayıb öpsünlər, yaxud sorğulamaq üçün Abdulla kişilə birlikdə DTK-nın rayon şöbəsinə aparsınlar. Elçin Heydəri kənara çəkərək fikrini söylədi:

- Məmiş kişini şöbəyə aparsaq, bizdən çəkinəcək. Buna görə də ondan elə Todanda yararlanarıq.

- Mən razı, Elçin. Gözətçinin söylədiklərinə əsasən arayış tərtib edib Hüseynağa müəllimə verərik. Qoy Vaqif Hüseynovla birgə əməliyyat tədbirləri görsünlər.

Beş dəqiqəlik müzakirələrdən sonra əməliyyatçılar qərara gəldilər ki, İnqilabla Elçin Todan kəndinin ətrafına çıxıb baxış nəzarəti keçirsinlər, Dima ilə Əhməd Abdullanı tapıb Məmiş kişinin söylədiklərinə aydınlıq gətirsinlər.

Səhərisi Əhməd Abdullanı sorğu-suala tutdu. Məlumatlar mühüm olduğundan Əsədov onu da götürüb rayon şöbəsinə yollandı. Hər şey DTK əməkdaşlarının xeyrinə idi. Abdullanın verdiyi məlumatlar Azərbaycan SSR və ümumilikdə SSRİ ərazisində təxribat fəaliyyətilə məşğul olan əcnəbi vətəndaşların ifşası üçün əsaslı dəlillər idi. Əgər Bakı bu məlumatlardan səmərəli istifadə edə bilərsə, Buzluğu, Mənəşi, Erkəci və erməni separatçıları, terrorçuları, diversantları tərəfindən zəbt edilmiş digər kəndləri də

sovet ordusunun yardımı ilə azad etmək mümkün olacaqdı.

Əhmədi yola saldıqdan sonra Todan kəndində qalan əməliyyatçılar rayon xəstəxanasına mənsub avtomobilə doluşaraq ətraf zonaya nəzarətə çıxdılar. Yolda Elçin İnqilabdan Abdulla barədə maraqlandı:

- Nə əcəb indiyədək yardım üçün Abdullaya müraciət etməmisən?

- Biləsən ki, Elçin, bu kəndlər mənim deyil, bilavasitə rəisin əməliyyat təminatındadır. Ona görə də sualı Qafarova vermək məqsədəuyğundur.

- Başa düşdüm. Əhməd axşam kəndə qayıdanda, yəqin ki, bu məsələyə aydınlıq gətirəcək.

Qış fəslinin yanvar ayı olsa da xoşbəxtlikdən yerdə nə qar, nə də ki, palçıq var idi. Hava günəşli və sərin idi. Sanki bayırda yaz fəsli hökm sürürdü. Heydər sürücünün idmançı qamətinə nəzər salaraq ona sual verdi:

- Firudin, mənim təxminimə görə sən ən azı güləşçi olmusan.

- Bəli, Heydər müəllim. On il güləşin sambo növü ilə məşğul olmuşam. Hətta, min doqquz yüz səksən beşinci ildə SSRİ çempionatında yetmiş iki kiloqram çəki üzrə üçüncü yeri tutmuşam.

- Sən lap məni təəccübləndirdin. Daxili işlər orqanlarında “OMON”, yəni Xüsusi Təyinatlı Milis Dəstəsi yaradılır. Sənin əsil yerin elə oradır. Bu barədə mən şöbəmizin rəhbərliyinə məlumat verəcəyəm. Vətənə sənin kimi idmançılar lazımdır.

- Yoldaş Muradov, mən sənədlərimi Qasım İsmayılov Rayon Şöbəsinə təqdim etmişəm. Əgər sizlər də mənim namizədliyimi dəstəkləsəniz, çox şad olaram.

- Əmin ol, Firudin, günü bu gün sözümün üstündə duracağam və...

Heydər cümləsini bitirməmiş irəlidə iki nəfərin sərbəst hərəkət etdiyini gördü. O, Elçinə fikrini bildirdi:

- Nədənsə bu iki nəfər kənd əhlinə heç oxşamadı.

Elçin cavab verdi:

- Səninlə tam razıyam. Davranışları şübhəli gəlir.

Dima Sidorov avtomatı əlinə alaraq şübhəlilərin şəxsiyyətini yoxlamağı təklif etdi. Əməliyyatçılar Firudindən tələb etdilər ki, piyadaları ötərək maşını onların qarşısında saxlasın. Sürücü əmri peşəkarlıqla yerinə yetirdi. Əməliyyatçılar avtomobildən düşüb iki nəfər naməlum adamı əhatəyə aldılar. Onlarla ünsiyyətə ilk olaraq Qaraxanov girdi:

- Xeyir ola, dostlar? Dünyanın belə bir gərgin vaxtında təhlükəli erməni kəndlərinin yaxınlığında dolaşırsınız.

Naməlum şəxslər qəfləti görüşdən özlərini itirdilər. Lakin saniyələr sonra onlardan biri Elçinin sualını cavablandırdı:

- Biz buraların təsadüfi qonaqlarıyıq. Rus Borisi kəndində qohumumuz yaşayır. Ona baş çəkməyə gəlmişik.

Qaraxanov həmən yadellilərin danışığından şübhələndi və əməliyyatçılara pıçıltı ilə “silahları hazır vəziyyətə gətirin” sözlərini ötürərək növbəti sualını verdi:

- Məlumdur ki, Azərbaycanın vətəndaşları deyilsiniz. Hansı respublikadan gəlmisiniz?

Qonaqlar tərəddüd etmədən Belarusiyadan gəldiklərini söylədilər. Qaraxanov saxladıqları insanların dərisinin və gözlərinin rənginin fərqli olduğunu görüb onları yenidən suala tutdu:

- Zənnimcə, sizin ağdərili insanlarla heç bir əlaqəniz yoxdur...

Cümləni bitirər-bitirməz Elçin ani olaraq müəmmalı şəxslərlə ərəb dilində danışmağa başladı:

- Zahiri görünüşünüzdən, xüsusən də gözünüzün yaşıl rəngdə olmasından belə qərara gəldim ki, siz livanlısınız.

Bu məqamda qonaqlardan biri çaşaraq Qaraxanovun sualına ərəb dilində cavab verdi:

- Bəli, Livan əhliyik...

Öz sözünü yarımçıq qoyan ağılsız əcnəbi rus dilinə qayıdaraq yenə də əfsanə danışmağa cəhd göstərdi. Lakin o, Firudin və Dimanın cəld hərəkətlərilə yerə uzadıldı. Bundan sonra hər iki "qonaq" əməliyyatçılardan imdad istəməyə məcbur qaldılar. Heydər İnqilabla birgə livanlıların qollarına qandal vurdu və onları maşına mindirdi. Elçin İnqilaba xitabən dedi:

- Gördün də, Moskvada beş il ərzində öyrəndiyim ərəb və fars dilləri hərdən işə yarayır.

İnqilab Elçinin hiyləsini təqdir edərək təklifini verdi:

- Hə, lap yerinə düşdü. Təklif edirəm iki qrupa bölünək. Heydər, sən Dima ilə birgə əcnəbiləri rayon şöbəsinə apar, mən və Elçin əraziyə nəzarətimizi davam etdirək.

Heydər İnqilabın fikriylə razılaşıb maşınla onları Todan kəndinə qaytardı. Özü isə digər əməkdaşla birlikdə diversantları götürüb rayona tərəf istiqamət aldı.

Günortaya yaxın hava bir az da istiləşdi. İnqilab kolxoz binasının qarşısında Məmiş dayının samovar çayı hazırlamasına kömək edirdi. Elçin isə haradansa azıb binanın həyətinə gələn toyuq-cücələrə isladılmış çörək qırıntıları yedizdirirdi. O, toyuq bəsləməyin ustası idi. Hələ uşaq ikən Naxçıvandakı ata-baba həyətində üç yüzə yaxın toyuq, hinduşka saxlayırdı. Gündə toyuqlardan otuza yaxın yumurta alırdı. Atası Nəsib kişi yumurtaları bazarda satmağa icazə vermirdi. Buna görə də Elçin onların çoxunu qonşulara paylayırdı. Qalanlarından da məhəllə uşaqları ilə birlikdə daş əvəzi istifadə edirdi. Yəni zarafatla bir-birlərinə yumurta atırdılar.

Qaraxanovun həvəslə toyuqları yedizdirməsini kənardan müşahidə edən İnqilab uşaq vaxtı bəslədiyi qoyun-quzudan söhbət açdı. Bir sözlə, müvəqqəti olsa da, Todan kəndində əmin-amanlıq ab-havası hökm sürürdü. Məmiş kişi samovara odun parçasını əlavə edib keçmişləri yada saldı:

- Son zamanlaradək ailələrimizi də götürüb yaxındakı meşəliklərə gedərdik. Təmiz hava, sərin bulaqlar, üzügülər insanlar. Doqquzaylıq quzunun təravətli ətindən kabab hazırlayardıq. Hətta qonşu kənddəki ermənilər də gəlib bişirdiyimiz yeməklərdən dadardılar.

İnqilab əslən Gədəbəyli olsa da KQB-də işlədiyi dövrdə Qasım İsmayılov camaatının adət-ənənələrindən xəbərdar idi. Məmiş kişinin sözlərini o da təsdiqlədi:

- Bəli, Elçin. Buranın camaatı gözəl yaşamağı bacarır. Todan, Buzluq, Mənəşin ərazilərisə sanki cənnət məkanıdır. Dağlıq Qarabağ Muxtar Vilayəti DTK-sının rəhbərliyi də bazar günlərini bu ərazilərdə keçirərdi.

Elçin İnqilabın sözləri ilə tam razılaşmadı:

- Niyə Qarabağ ərazisinin özünə nə gəlmişdi ki, ermənilər bu tərəflərə burunlarını soxurdular? Əminəm ki, hələ o zamanlardan bunların beyinlərində məkrli fikirlər var idi.

- Bəlkə də, haqlısan, Qaraxanov. Bunların çörəyi dizlərinin üstündədir.

Məmiş kişi xatirələrini bölüşməyi davam edirdi:

- Sonradan kəndimizdə mal oğurluqları baş verməyə başladı. Hətta oğurluğun “Şaumyan selski” sakini Samvel və onun dəstəsi tərəfindən törədildiyini sübuta yetirdik. Heç bir tədbir görülmədi. Bunun ardınca erməni kəndlərində müəmmalı “saqqallılar” peyda olmağa başladı. Dəfələrlə Bakıya məktublar, teleqramlar göndərdik. Hələ Vəzirovun vaxtında. Mənası olmadı. İndisə gördüyünüz kimi pusaraq oturmuşuq evlərimizin qarşısında və hər dəqiqə erməni yaraqlılarının hücumlarını gözləyirik.

Elçin Məmiş kişinin söylədiklərini diqqətlə dinləyəndən sonra fikirlərini açıqladı:

- Bilirsiniz, dostlar, hadisələr nəyə görə bu qədər vüsət aldı? Əlbəttə ki, cəzasızlıq səbəbindən. İnsanın həyatı onun əməlləri üzərində qurulub. Əməllər isə ya cəzalandırılmalı, ya da ki, mükafatlandırılmalıdır. Ortası yoxdur. Bu bir tərəzidir – bir qabında bəd əməllər, digərində isə

xoş əməllər. Dərd orasındadır ki, Adəm övladı hər iki əməli törətməyə qadirdir. Həmin hərəkətlərə ədalətli qiymət vermək üçün cəmiyyət daxilində hər cür qurumlar, o cümlədən güc strukturları fəaliyyət göstərir. Lakin SSRİ məkanında nə milis, nə də KQB öz vəzifələrini lazımınca icra edir. Əvvəl inəklər oğurlandı, sonra "saqqallı" erməni banditləri peyda oldu. İndi də livanlı, suriyalı, hətta argentinalı erməni yaraqlılarının dalınca düşmüşük. Bir sözlə, ermənilərin bəd əməlləri Mərkəz tərəfindən mükafatlandırılır, azərbaycanlıların xoş niyyətləri isə cəzalandırılır. Bundan sonra da SSRİ dövləti və orada yaşayan müxtəlif xalqlar ədalətlə idarə olunmayacaq. Deməli, bir vaxtlar qüdrətli və möhtəşəm ölkə adlandırdığımız Sovet İttifaqının süqutuna çox az zaman qalıb.

Elçinin sözlərini diqqətlə dinləyəndən sonra İnqilab da söhbətə qoşuldu:

- Ay Elçin, bu gün SSRİ dövləti qalıb, ərazisində baş vermiş hansısa iğtişaşın qarşısını ala bilsin?

- Mən də sənin kimi düşünürəm, İnqilab. Kimin ağlına gələrdi ki, Sovet İttifaqının ərazisində silahlı əcnəbilər sərbəst at oynadacaq. Yəqin ki, Stalin qəbrində beş-on dəfə çevrilib!

Məmiş kişi "çekistlərin" söylədiklərinə qulaq verdikdən sonra bir kəlmə ilə fikrini izah etdi:

- Əgər KQB işçiləri SSRİ haqqında bu cür danışırsa... sadə camaat nə etsin?

İnqilab gözətçinin məyus olduğunu duyub ona ürəkdirək verməyə başladı:

- Darıxma, ağsaqqal. Eyni vəziyyət Gürcüstan, Latviya, Litvada da cərəyan edir. Nə birinciyik, nə də axırıncı. Bizə qalan yalnız Vətənimiz Azərbaycanı qoruyub saxlamaqdır. Onu da bil ki, Şura hökumətini ermənilərin əliylə Qorbaçov çoxdan dağıdıb. Allah Kərbəlayı və Qəmloya rəhmət eləsin.

İnqilabın sözləri Məmiş kişini bir balaca sakitləşdirdi. O, samovarın qapağını qaldırıb razı halda çayın hazır olduğunu bildirdi və "çekistləri" süfrə başına dəvət etdi. Çox keçmədi ki, rayon mərkəzindən digər DTK əməkdaşları da qayıtdı. Hətta Qaraxanov Əhmədin əlində böyük qazan, Heydərlə Dimanın çantalarında isə ərzaq gördü. Əsədov "Yarmahmudla Ağəlinin dadlı yeməklərini əllərindən almışam" deyib hamını plov süfrəsinə dəvət etdi. Məmiş kişi kolxoz binasında fəhlə qismində çalışan Nurulla ilə birlikdə yeməkləri süfrəyə düzdü. Gözətçi otağından yarımçıq qalmış tut arağı şüşəsini də masaya qoymağı unutmadı. Məhsuldar günü yeyib-içməklə qeyd etməyə dəyərdi.

***

Ezamiyyətin üçüncü günü havalar soyumağa başladı. Bəzi kəndlərə az miqdara qar yağdı. İki nəfər ərəbdilli erməni yaraqlısını zərərsizləşdirdikdən sonra əməliyyat şəraitinə nəzarəti gücləndirmək üçün Qasım İsmayılov rayon şöbəsinə əlavə olaraq bir müstəntiq və iki nəfər əməliyyatçı göndərildi. Məqsəd rayonun erməni kəndlərində məskunlaşmış əcnəbi vətəndaşların təxribat və diversiya əməllərini protokollaşdırmaq, bazaların yerlərini araşdır-

maq idi. Moskvanı diversant və yaraqlılara qarşı əməliyyatlara cəlb etmək üçün əsaslı zəmin yaranmışdı. Eyni zamanda Azərbaycan SSR ərazisində fəaliyyət göstərən erməni daşnaklarının təbliğat və təşviqatına son qoymağın vaxtı çoxdan çatmışdı. Bunun üçün Azərbaycan rəhbərliyindən sadəcə iradə və milli qürur tələb olunurdu. Lakin rəhbərlik hələ tələsmirdi. Əməliyyat işlərində naşı olmağına baxmayaraq, ümid komsomolçu Vaqif Hüseynova qalmışdı. Azərbaycanın qaynar nöqtələrində ezamiyyətdə olan "çekistlər" gözəl bilirdilər ki, erməni separatçıları və yaraqlıları barədə arayışlar sədr tərəfindən gözə girmək üçün Moskvaya ötürülür. Odur ki, onlar vacib məlumatların Mərkəzi Komitənin başbilənlərinin qulağına çatacağından əmin idilər.

Todan kəndindəki hadisələr davam etməkdə idi. Rayon şöbəsinə ezam edilmiş yeni əməkdaşlardan biri də Elcan idi. Aslanov eşidəndə ki, Elçin Todan kəndindədir həmən Hüseynağa müəllimin razılığı ilə özünü ora yetirdi. Uzaqdan Qaraxanovu gördükdə Elcan ona xitabən zarafata keçdi:

- Quzik, salam, fıştırığın gəlsin. Bakıda olanda bəzi suallar məni rahat buraxmırdı, onlardan biri də... "Quzik haradadır?". Necədir sənin üçün, yaxşı sualıydı?

Elçin Elcanı görüncə çox sevindi:

- Gəl çıx da! Oturmusan paytaxtda, kəndlərdən də xəbərin yoxdur. Cənnət məkanındayıq. Quşların oxumağını eşidirsən?

- Vallah, sərçə və qarğaların qığıltısından başqa qulaqlarıma heç bir səs dəymir. Bir də ki, görmürsən qış fəslidi-

r? Civildiyən quşlar estrada konsertini Afrika ölkələrində verir.

Elcanın son cümləsi ona diqqətlə qulaq asan və söhbətindən nəticə çıxarmağa çalışan dostları qəflət yuxusundan ayıltdı. Hamı bir ağızdan gülməyə başladı və Aslanovu samovar çayına dəvət etdi. Heydər Elcandan soruşdu:

- Nəticə etibarı ilə dediyini anladım, bir şeydən başqa: "Quzik" nə məna kəsb edir?

Aslanov gülümsəyərək Elçinə baxıb cavab verdi:

- "Quzik" mənim, Qaraxanovun və digər üç nəfər əməliyyatçının arasında gizli bir paroldu. Çox adam bu şifrəni açmaq fikrinə düşüb, amma alınmayıb. Düzünü desəm, getdikcə "quzik" sözünün mənasını biz də yadırğamağa başlamışıq. Bir sözlə, Muradov, boş-boş sirlərlə beynini yükləmə.

- Aydındır, Elcan. Bakımızda nə var, nə yox? Üç-dörd gündür doğma şəhərimizdən uzaq düşmüşük.

Elcan ciddiləşrərək cavab verdi:

- Orada köhnə hamam, köhnə tas! Rəhbərlik məkrli işləri, xalq isə öz problemlərilə məşğuldur. Cürbəcür cəmiyyətlər yaranıb: "Yandaşlıq", "Günahlardan təmizlənmə", nə bilim, axı, "Qarpız", "Qovun" və digərləri. Hərə bir tərəfə çəkir. Ən təhlükəlisi isə "Yandaşlıq"dır. Respublikanın bu vəziyyətində regionçuluq ideyalarını yaymağa başlayıb. Hətta "jek"lərdən paytaxtımıza müəyyən zonalardan gələn insanların ünvanlarını götürürlər. Nə etmək istədiklərini bir Allah bilir...

Söhbətə Qaraxanov da müdaxilə etdi:

- Bəli, Heydər, Aslanov düz deyir. Ezamiyyətə gəlməzdən əvvəl rəisimə bu barədə yazılı surətdə məruzə etdim. Çox təhlükəli bir vəziyyət yaranıb. Elcanın söhbət açdığı cəmiyyət Bakıda qardaş qırğını törədə bilər. Tez bir zamanda "Yandaşlığın" fəaliyyətinin qarşısını almaq lazımdır.

Əhməd də öz fikrini söylədi:

- Dediklərinizi dəstəkləyirəm. Amma əsas məqsədimiz Azərbaycanın müxtəlif rayonlarına sızmış erməni yaraqlılarını ifşa etməkdən ibarət olmalıdır.

Elcan əməliyyatçıların təkliflərini dinlədikdən sonra söhbətinə davam etdi:

- Sizin üçün başqa bir ağır və dərdli xəbər gətirmişəm,- deyə anidən Elcan çox hüznləndi,- Salatın Əsgərovanı qətlə yetiriblər.

Kənardan əməliyyatçıların söhbətini dinləyən İnqilab sonuncu məlumatı eşitdikdə Elcana yaxınlaşdı:

- Salatın kimdir, Aslanov?

- Əsgərova! "Azərbaycan gəncləri" qəzetinin müxbiri. Mərd, mübariz bir qadın idi. Qarabağın Qala dərəsi deyilən bölgəsində erməni "saqqallıları" onu maşında rus zabitlərilə birgə avtomat atəşinə tutub.

Qaraxanov Salatını yaxşı tanıyırdı. Jurnalisti onunla Rojnı tanış etmişdi. Təxminən altı ay əvvəl Elçin Saşanın xahişilə Əsgərovanı avtomobillə Bakının Vişnyovka qəsəbəsinə çatdırmışdı. Yolda söhbət əsnasında Qaraxanov Salatının nə qədər vətənpərvər və igid qadın olduğunu müşahidə etmişdi. Bu xəbərdən Elçin və digər əməliyyatçılar çox kədərləndilər. Qaraxanov Elcana sual verdi:

- Bəs bizimkilər nə deyir? Qatilləri axtarıb tapmaq üçün tədbir görülür, ya yox?

- Məşğuldurlar, Elçin. Ancaq hələlik heç bir nəticə yoxdur. Allah qoysa Bakıya qayıdıb bu işin bir qulpundan da biz yapışarıq.

- İnşallah, Elcan.

Müzakirələrdən sonra Aslanov Todan kəndində ezamiyyət keçən əməliyyatçılara rəhbərliyin göstərişini də çatdırdı:

- "Gizyar"ın verdiyi məlumata görə, əcnəbi ölkələrdən gələn erməni banditlərinin bazalarından biri də Buzluq kəndinin ətrafında yerləşir. Elə bu gecə oranın yerini müəyyən edib yaraqlıların vücudunu cüzi qaşımaq lazımdır. Ötən gecə oradan qonşu Azərbaycan kəndlərinin ərazisinə odlu silahlardan və hətta qumbaraatanlardan atəş açılıb. Hətta iki nəfər körpə uşaq xəsarət alıb.

Heydər də Elcana sual verdi:

- Qaşımağı anladım. Bəs "gizyar" nə deməkdir?

Aslanov Elçinə tərəf baxaraq Muradova rişxəndlə cavab verdi:

- Ona görə hər dəfə demişəm, yenə də təkrarlayıram: şifrəli sözləri anlamaq üçün mütləq Moskvadakı ali Məktəbi bitirmək lazımdır. Yoxsa sizin kimi? "Likbezlər"! Görürsən, Elçin artıq sual vermədi. Çünki sözlərimi göydə tutdu.

Qaraxanov müzakirəni davam etdirdi:

- Əslinə qalsa, Elcan, "gizyar"ın" nə məna kəsb etdiyini mən də anlamadım. Baxmayaraq ki, akademiyanı bitirmişəm...

Aslanov Elçinin sözünü kəsərək:

- Ayıb olsun, ay Elçin! Daha sənə sözüm qalmadı. İki saatdır, sinəmə döyürəm ki, bizdən olmaz. Bu da nəticəsi. Bir sözlə, "gizyar" - gizli yardımçı deməkdir. Başa düşdünüzmü?

Heydər yenə Elcana sual verdi:

- Bunu bildik. Bəs, "likbez" nə deməkdir, Aslanov?

Elcan bir qədər fikrə getdi. Bir neçə saniyəlik sükutdan sonra Aslanov "likbez" sözünün mənasını xırdalamağa başladı:

- "Likbez" rus dilində "ликвидация безграмотности" deməkdir. Yəni, savadsızlığın aradan qaldırılması. Min doqquz yüz on yeddinci il inqilabından sonra bu ad altında özəklər yaradılırdı ki, savadsız insanlar orada əlifbanı öyrənsin, elementar biliklərə nail olsun...

Bu dəfə İnqilab Elcanın sözünü kəsdi:

- Qardaş, dediklərinin bizimlə nə əlaqəsi var?

Aslanov sifətini turşudub cavab verdi:

- Bilavasitə əlaqəsi var! Biz Elçinlə birgə Moskvada beşillik akademiyada əzab-əziyyətlə biliklərə sahib çıxan vaxtı sizlər Tiflisin, yaxud Minskin birillik kurslarında əlifba öyrənməklə məşğul idiniz. Buna görə də "likbez" sözünü biz – ali çekist təhsilliləri mütəmadi sizlərə şamil edirik. Necədir?

Heydər gülümsəyərək cavab verdi:

- Nə bilim, vallah, düz sözə nə deyəsən? Amma onu da unutma ki, Elcan, sizlərdə elm, bizlərdə isə helm inkişaf edib. DTK əməkdaşlarına daha çox helm gərəkdir.

Elcan bu yöndəki müzakirələrə bir cümlə ilə son qoydu:

- Bunu yaxın gələcək göstərəcək.

Nəhayət, Aslanov əsas məsələyə keçdi:

- Rəhbərliyin göstərişilə yuxarıda qeyd etdiyim bazanı biz atəşə tutacağıq.

Yarım saat ərzində bir kəlmə belə söz söyləməyən Əhməd də dinləndi:

- Keçirdiyimiz əməliyyat nəticəsində yaraqlılar itki versə, nə edəcəyik?

Elçin əsəbiləşdi:

- Əlbəttə, itki olacaq. Onlar qadın, uşaq demədən əhalimizi kütləvi şəkildə qıranda bu barədə bir kəlmə də soruşmurdular. Nə əkərsən, onu da biçərsən.

Elcan müzakirələrə davam etdi:

- Deməli, dostlar, rəhbərliyin göstərişiylə Elçinlə Dima Buzluq kəndinin ətrafını müşahidə etmək üçün kəşfiyyata çıxacaq, mənimlə Heydər isə onlara arxa olacağıq. Axşama yaxın Əhmədlə İnqilab bizləri təqib edərək qumbaraatanları və pulemyotları ilə birgə qrupumuza qoşulacaq. Qaranlıq düşən kimi yaraqlıların bazası istiqamətində atəş açacağıq. Vəssalam!

Əhməd yenə soruşdu:

- Nəticəsi nə olacaq?

Aslanov bu dəfə uca səslə Əsədovun cavabını verdi:

- O olacaq ki, neçə günlərdi banditlər qaşınır, biz də onların naxçıvanlılar demişkən, gicişən yaralarını saracağıq. Başqa sualınız var, çekistlər?

Elçin tərtib edilmiş plandan razı qalaraq cavab verdi:

- Nə sual ola bilər? Axır ki, rəhbərliyimiz qeyrətə gəldi. Hamı iş başına!

Günün sonunda əməliyyatçılar erməni yaraqlı və "saqqallıların" bazası ətrafında mövqe tutdular və əvvəlcədən danışıldığı kimi banditlərin bədənini qaşımaq deyil, əksinə kürklərinə əlavə bit salmağı bacardılar. Ezamiyyətin sonuna kimi ərəbdilli erməni yaraqlıları ətraf kəndlərin əhalisini narahat etməkdən vaz keçdilər. Onlara qarşı müxtəlif silahlardan açılan atəşlər sübut etdi ki, banditlərin qarşısında təpədən dırnağa silahlanmış böyük bir dəstə döyüşür.

Səhərə yaxın əməliyyatçılar Todan kəndinə üz tutdular. Yolda Əhməd Elçinə yaxınlaşaraq keçirilmiş əməliyyatın müzakirəsini apardı:

- Deyim ki, Qaraxanov, bu uğurlu əməliyyatımız tarixə düşəcək.

Elçin Əsədovun sözlərinə etirazla yanaşdı:

- Allah eləməsin ki, bugünkü şücaətimiz tarixə düşsün, Əhməd.

- Nə üçün? Fikirləşirsən ki, pis iş gördük?

- Əsla, yox. Nə danışırsan? Əksinə, savab iş gördük. Neçə-neçə soydaşımızın həyatını qurtardıq...

- Bəs nədən narazısan, Elçin?

- Sadəcə tarixə nifrət edirəm. Bu ikiüzlü məfhum barədə eşitmək belə istəmirəm.

- İkiüzlü haradan oldu? Sən ki, bu fənni əla bilirsən! Tarix olmasa idi, cavanşirlərimizi, tomrislərimizi, babəklərimizi, nəsimilərimizi, sabirlərimizi nə cür tanıyacaqdıq?

- Təbii ki, qeyd etdiyin insanları tarixə səbəb tanıyırıq. Amma bədbəxtlərin tanınmaları üçün tarix həyatlarını satın aldı.

- Sən nə demək istəyirsən, Elçin? Sözündən belə çıxır ki, qəhrəmanlarımız hədər yaşayıblar?

- Əstəğfürullah! Onu demək istəyirəm ki, tarix onları gah göylərə qaldırırdı, gah da yerə çırpırdı. Məsələn, dünya şöhrətli Cavidimiz. Yazdığı əsərləriylə bir müddət faydalanan tarix elə döndü ki, qısa zaman içində filosof-dramaturqumuzu Sibirin meşələrində çürütdü.

- Əslinə qalsa, səninlə razıyam, Elçin. Elə götürək Hitlerin özünü. Milyonlarla insana qan uddurmağına baxmayaraq, tarix onu hələ də unutmur.

- Hələ sən balayanlar, aqanbekyanlar və qorbaçovlardan danış. Millətimizin qanına qəltan edirlər. Amma bil ki, tarix onları da öz ağuşuna alacaq və yaşadacaq. Yaxud Nizami və Füzulimiz! Bu günə kimi tarix onların milli mənsubiyyəti ilə oynayır. Bir dəfə durub demir ki, bəli, bunlar dahi Azərbaycan şairləridir. İkiüzlü və nankor tarix! Hələ insanların taleyilə çox oynayacaq, Əhməd. Ona görə də gəl tarixə düşməyək. Çünki gələcəkdə o, bizi ya Vətən övladı, ya da xalq düşməni çıxaracaq. Yəni, tarix üçün heç bir fərqi yoxdur.

Dostları uzaqdan izləyən Elcan onlara yaxınlaşıb nə barədə söhbət etdiklərini öyrənmək istədi:

- Xeyir ola, belə şirin söhbət edirsiniz?! Yəqin, qəhrəmanlığınızdan dəm vurursunuz?

Elçin Əhmədin üzünə baxıb gülümsədi və Aslanova cavab verdi:

- Nə qəhrəmanlıq? Samovar çayını, zeytun arağını müzakirə edirik, Elcan.

- Əla. Sabah, daha doğrusu, bu gün nahar vaxtı onlardan geninə-boluna istifadə edərik. Amma bir problem var, Elçin.

- Nə problem?

- Günortaya kimi keçirdiyimiz əməliyyat barədə məlumatı rayon şöbəsinə çatdırmalıyıq.

- Mən hazır, Aslanov. Sən arayışı tərtib edərsən, mən də İnqilabla birlikdə onu şöbəmizə çatdıraram.

- Ağıllı fikirdir. Bu da Todan! Çatdıq. Hamımız dincələk ki, gün boyu özümüzü gümrah hiss edək.

Dörd saatlıq yuxudan sonra əməliyyatçılar kolxoz binasının qarşısında açılan səhər yeməyi süfrəsinə əyləşdilər. Havalar isti keçdiyindən zabitlər bayırda oturub samovar çayı içirdilər. Səhər yeməyini bitirdikdən sonra Elçin Elcana müraciət etdi:

- Sübh tezdən arayış barədə sövdələşməmiz yadından çıxmayıb ki?

- Vallah Elçin, o qədər yorğunuydum ki, nəyə dair söz verdiyimi yadımdan çıxarmışam...

- Qocalırsan, Aslanov. Arayış yazmalıydın. Mən də günortaya yaxın onu İnqilabla birlikdə rayon şöbəsinə aparmalıydım. Yadına düşdü, Quzik, ee, yoldaş baş əməliyyat müvəkkili?

- Xatırladım. Baş üstə, əməliyyat müvəkkili Qaraxanov! Bir saatdan sonra analitik arayış masanızın... üzr istəyirəm, bax, o daşın üstündə olacaq.

- Çox gözəl, Aslanov. Mənsə hələlik sərçələrin cəh-cəh vurmasına qulaq asacam.

Dostların məzəli və lağlağı söhbətinə Heydər də bir neçə söz əlavə etdi:

- İcazə versəniz, əziz rəislər, mən də qarğaların cingiltili və incə səslərindən feyzyab olaram.

Elçin əməliyyatçıların zarafatından xoşlandı və bildirdi ki, insanların kefi kök olanda təbiət də onlarla həmahəng olur:

- Görürsünüz günəşli havanı? Məmiş kişi deyir ki, qış vaxtı Goranboyda bu cür istilərin tüğyan etdiyini hələ görməyib.

Əhməd təəccüblə soruşdu:

- Anlamadım, Goranboy haradır, onun buralarla nə əlaqəsi var?

- Goranboy, Əhməd, Goranboy. Sən demə, Qasım İsmayılovun tarixi adı Goranboy olub. Sonradan bu toponim dəyişdirilərək bolşevik Qasım İsmayılovun adı ilə əvəzlənib.

- Birinci dəfə eşidirəm, Elçin...

- Elə mən də. Sağlıq olsun, Bakıya qayıdanda Azərbaycanın bütün rayonlarının tarixçəsini araşdırarıq.

Bir saatdan sonra Elcan əcnəbilər və onlara qarşı keçirilmiş əməliyyat barədə arayışı Elçinə təqdim etdi. Qaraxanov İnqilab və sürücü Firudinlə bir yerdə rayon şöbəsinə istiqamət götürdülər. Qızmar günəş altında yollardakı palçıq da qurumuşdu. İyirmi dəqiqə keçmişdi ki, sürücünün yanında oturan İnqilab Elçinə tərəf çönərək onu Kə-

pəz dağının zirvəsini fəth etməyə dəvət etdi. Qaraxanov təəccüblə İnqilabdan soruşdu:

- Bilmirəm, fikir verirsən ya yox, sizin hər coğrafi sualınızdan sonra kütbeyinliyim üzə çıxır. Məgər Kəpəz dağı buralarda yerləşir?

- Məni məyus etmə, Qaraxanov. Sən ki tarixi və coğrafiyanı əla bilirsən!

- Düzünü desəm, İnqilab, birinci dəfə eşidirəm ki, Kəpəz dağı Qasım İsmayılovda yerləşir. Doğulan günümdən bəri mənə söyləyiblər ki, bu dağ Gəncədədir.

- Bəli, elədir ki, var. Sadəcə dağın bir tərəfi də buralara düşür. Kəpəz kiçicik bir təpə deyil ki, hansısa şəhərə, ya kəndə sığsın. Bu dağ bizim qürurumuzdur, Elçin. Ona görə də nəyin bahasına olursa olsun, ora qalxmalıyıq.

- Bəs arayış? Onu şöbəyə vaxtında çatdırmalıyıq axı.

- Qaraxanov, bilirsən ki, arayış boş şeydir. Əsas əməliyyatımız idi ki, onu da uğurla başa vurduq. Daha doğrusu, qurbağa gölünə daş atdıq. Bir müddət erməni yaraqlılarının səsləri kəsiləcək, kənd camaatını narahat etməyəcəklər. Yoxsa ki, arayış...

- Məni razı salmağı bacardın, İnqilab. Dırmaşırıq Kəpəzə!

Kiçicik müzakirələrdən sonra əməliyyatçılar Firudindən maşını beş yüz metr sola çəkib onları gözləməyi xahiş etdilər.

İnqilabın söylədiklərinə rəğmən, Kəpəz səyahəti çox uzun çəkdi. Günorta on ikidə başlayan "dağa dırmaşma" əməliyyatı axşam saat onadək uzandı. İnqilab dağın yarısını fəth etsə də, Elçin zorla dağın üçdə birinə çatdı.

Aşağı enən "alpinistlər" maşında mürgüləyən Firudini ayıldıb yollarına davam etdilər. Gecə saat on ikiyə on dəqiqə qalmış Elçinlə İnqilab Hüseynağa müəllimin kabinetinə daxil oldular. Otaqda yas əhval-ruhiyyəsi hökm sürürdü. Rəisin rəngi ağarmışdı. Yarmahmudla Ağəlinin sifətində isə aydınca nifrət hiss olunurdu. Yarmahmud odunu sobaya atıb üzünü Qaraxanova tərəf tutdu:

- Elkin, burada üzqesi yokdur...

Yarmahmudun doğma azərbaycan dilində işlətdiyi qeyri-anlaşılmaz sözlər Elçini qəzəbləndirərək özündən çıxartdı:

- "Üzqesi" nədi, ə, dəftərxana siçovulu? Sən hansı dildə danışırsan?

Elçinin cavabı sanki Yarmahmudun təpəsinə qaynar su əndərdi:

- Biringisi, следи за своими словами, вот! İkingisi de, соблюдай иерархию. Как никак я старше тебя и по званию, и по должности, и по возрасту.

Yarmahmudun Azərbaycan dilinə xas olmayan sözləri Qaraxanovu yenə hirsləndirdi:

- Ağəli Həsənovla isti soba arxasında çətinliklə tərtib etdiyiniz arayışları mərkəzə ötürürsünüz! Xəbəriniz də yoxdur ki, kəndlərimizdə yerləşdirilən KQB əməkdaşları ölümlə üz-üzə qalıblar. Hələ bir məni sorğu-suala çəkmək istəyirsən? Sözə bax: "Üzqesi yoxdur"...

Vəziyyətin gərginliyini anlayan Hüseynağa müəllim əməliyyatçıları sakitləşdirərək ağsaqqal sözlərini izhar etdi:

- Elçin, bir dəqiqə sakitləş. Qulaq as, gör nə deyirəm...

- Buyurun, Hüseynağa müəllim!

- Sifətimin rəngini görürsən, Qaraxanov?

- Əlbəttə, görürəm! Ağappaqsınız...

- Bəli, Elçin, şəkərim qalxıb. Əgər on dəqiqə də yubansaydın, gecə saat on iki tamamda Vaqif Hüseynova sizin erməni "saqqallıları" tərəfindən girov götürüldüyünüzü məruzə edəcəkdim. Sizi vertolyotlar vasitəsilə axtarmaq niyyətindəydim! İndi başa düşdün, rəngim niyə ağarıb?

- Hüseynağa müəllim, sizi anladım. Mənə görə təşviş keçirmisiniz? Bəs bu Yarmahmud nə üçün "üzqesi yoxdur, yubanmağının səbəbləri barədə bizə düzünü söylə" demək istəyirdi?

- Sən onu düzgün başa düşmədin və düşmək də istəmədin, Elçin. Qoydun ki, sözünü axıradək çatdırsın.

- Yaxşı, xahiş edirəm, Yarmahmudun sözlərinə siz aydınlıq gətirəsiniz.

- O, demək istəyirdi ki, "Elçin, burada özgələri yoxdur, hamımız sənin xətrini çox istəyirik və başına iş gələ bilər deyə, təşviş içində idik!"

Hüseynağa müəllimin son cümləsindən sonra kabineti sakitlik bürüdü. Sükunəti Elçinin üzrxahlığı pozdu:

- Elədirsə... hamınızdan üzr istəyirəm. Bizi də anlamağa dəyər. Yarmahmudu ona görə qaraladım ki, ana dilimizə yiyələnmək istəmir. Bir də ki, erməni yaraqlılarına qarşı keçirdiyimiz əməliyyatın fəsadları hələ də özünü göstərməkdədir.

Nəhayət, anlaşılmazlıqlara bölmə rəisi nöqtə qoydu:

- Söhbəti bitmiş hesab edək. Hamının əsəbləri tarıma çəkilib. Keçək gətirdiyiniz arayışın və dünənki əməliyya-

tın müzakirəsinə. Elçinlə Yarmahmud isə bir-birinə əl verib qucaqlaşsınlar.

Hüseynağa müəllimin otağındakı söhbət gecə saat ikiyədək davam etdi. Əlavə olaraq, Elçinlə İnqilab onu da bildirdilər ki, "Şaumyan-selskidə" ermənilərin idarə etdiyi naməlum zirehli maşın peyda olub və nə qədər gec deyil, həmin texnikanı zərərsizləşdirmək lazımdır. Hüseynağa müəllim irəlidəki gün rayon partiya komitəsinin birinci katibi Rəşad Camalovla görüşünü anons edib müzakirələri sabaha saxladı və dincəlmək üçün əməliyyatçıları mehmanxanaya göndərdi. Otaqlarına çatar-çatmaz Elçin və İnqilab həsrətində olduqları isti yataqda həmən yuxuya getdilər.

Növbəti gün sübh tezdən oyanan Elçin mehmanxanada gecələdiyinə inanmadı. Hava baharsayağı olsa da, Todan kəndinin yerini heç nə vermirdi. Sanki təbiət rayon mərkəzindən uzaqlaşmışdı. Nə sərçələrin civiltisi, nə də qarğaların qığıltısı eşidilirdi. Bircə avtomobillər hərdən siqnal verərək işlərinin dalınca yollanırdılar. Bir azdan İnqilab da yuxudan ayıldı. Onun rayon mərkəzində üçotaqlı mənzilinin olmasına baxmayaraq, Qaraxanovla birgə mehmanxanada gecələməyə üstünlük vermişdi. Elə buna görə də Elçin İnqilabdan soruşdu:

- Gecə o qədər yorğun idim ki, səndən soruşa da bilmədim, nə üçün ailəvi buraxıb burda gecələdin?

- Hə, Elçin, beşinci gündür ki, ailəmdən uzaqdayam. Amma bizim tərəflərdə qonağın öz xüsusi yeri var. Özü də bilirəm ki, qonaqpərvərlik ənənəsi siz tərəflərdə də unudulmur.

- Düz deyirsən, İnqilab. Lakin sən də Qasım İsmayılovda qonaqsan. Bildiyimə görə Gədəbəylisən.

- Fərqi nədir, Qaraxanov. Onsuz da hamımız bu dünyanın qonağıyıq...

- Sən də, maşallah, ozan kimi qopuzunu aldın getdin, İnqilab.

- Onu da bildirim ki, ay Elçin, bu gecə iyrənc bir yuxu görmüşəm!

- Allah xeyir eləsin, İnqilab. Barı yuxuvu suya, ya işığa danışdınmı?

- Dedim, əvvəl sənə danışım, sonra suyla, yaxud işıqla əlaqəyə girim.

- Yaxşı. Danış görüm yuxuvu.

- Görürəm, Elçin, şeytanmı, cinmi əl və ayaqları ilə məni hər tərəfdən sarmağa başlayır. Ha istəyirəm imdad diləyəm, nə səsim çıxır, nə də hərəkət edə bilirəm. Yüz faiz əmin idim ki, sonum çatıb...

- İnqilab, belə hallarda nənəm deyərdi ki, ya gecə vaxtı ağır yemək yemisən, məsələn, bozbaş, plov, küftə... ya da yastığıvın altında dəmir əşya gizlətmisən...

Son sözlərdən sonra İnqilab yatağına yaxınlaşıb balıncının altından tapançasını çıxartdı:

- Ağbirçək nənəmiz düz söyləyirmiş da. Tapança, yaxud dəmir – eyni şeydi...

İnqilab sözünü bitirməmiş Hüseynağa müəllimin sürücüsü Zöhrab otağa daxil oldu və əməliyyatçılara birinci katibin onları gözlədiyini xatırlatdı. Elçin səhər yeməyi barədə soruşdu:

- Acqarına katibin yanına getmək yaxşı düşməz.

Sürücü ciddiləşdi:

- Sizi başa düşürəm, yoldaş Qaraxanov. Amma katib də katibdir. Məncə onu çox gözlətmək hörmətsizlik olar,- deyə cavab verdi.

Söhbəti İnqilab yekunlaşdırdı:

- Aydındır, Zöhrab, bayırda gözlə, özümüzü səliqəyə salıb gəlirik.

Yarım saatdan sonra Qafarov başda olmaqla əməliyyatçılar rayon partiya komitəsinin binasına daxil oldular. İnsafən, Rəşad müəllim DTK əməkdaşlarını çox gözlətmədi. Katibin otağına daxil olduqda Qaraxanov heyrətini gizlədə bilmədi: Əgər Camalov eynəksiz olsaydı, onu Mütəllibovdan ayırd etmək mümkün olmazdı. Sən dünyanın işinə bir bax - vəzifəlilərin əqidəcə bir-birlərinə bab olmalarını bilirdim, lakin zahiri görünüşcə də bir-birlərinə oxşamaları maraq doğurur. Elə bu zaman Rəşad müəllimin səsi Qaraxanovu düşüncələrindən ayırdı:

-Yoldaş, Qafarov, bu gecə çox düşündüm.

- Nə barədə, Rəşad müəllim?

- Piyadaların zirehli maşını barədə.

- Deməli, BMP-dən sizin də xəbəriniz var?

- Əlbəttə. Rayonun rəhbəriyəm. Bu barədə məlumatı yubatsaz da... sağ olsun polis rəisi.

Əməliyyatçıların Camalova yönəlmiş şübhəli baxışları hiss edən katib sözünə davam etdi:

- İstəyirəm ki, siz həmin BMP-ni vurasınız!

Katibin “tarixə düşəcək” bu ideyası Elçini şoka saldı. O, ehmalca İnqilabın qulağına pıçıldadı:

- Yoxsa katibiniz elə düşünür ki, bizlər BMP-ni tarlalarda traktor əvəzi istifadə etmək fikrindəyik?

İnqilab gülümsəyərək Elçinin sualını cavablandırdı:

- Yox. Camalov elə düşünür ki, onun kabinetini tərk etdikdən sonra ermənilərə zəng vurub deyəcəyik ki, təcili zirehli maşınınızı gətirin qoyun raykomun qarşısına.

Katib pafoslu çıxışına davam edirdi. Sanki Bakının isti mədəniyyət klublarının birində kommunist və komsomolçulara sosialist inqilabının məramını anladırdı. Rəhbərin "möhtəşəm" nitqindən sonra Qaraxanov yeganə fikir narahat etməyə başladı: bunlarla Vətənimizi tam itirəcəyik!

Camalovun yanındakı iclas təxminən bir saatdan sonra yekunlaşdı. Onun otağından çıxandan sonra Qafarov əməliyyatçılara tapşırıq verdi:

- Qayıdın Todan kəndinə və əvvəlki kimi erməni yaraqlılarının hər hərəkəti və yerdəyişmələrini izləyin. Hər hansı yenilik barədə mənə məruzə edərsiniz.

Qaraxanov beynindəki sualların biriylə Hüseynağa müəllimə müraciət etdi:

- Rəis, katib bizimlə məzələnirdi, yoxsa onun ağlı elə bu qədərdir?

- Elçin, yenə başlama ha. Maşınımı da götürün və irəli... Todan kəndinə.

- Oldu, yoldaş Qafarov!

Günortaya yaxın Elçinlə İnqilab artıq Todanda idilər. Kolxoz binasına daxil olduqda Elçin qapının ağzında Elcanla söhbət edən slavyan görkəmli qızı gördü. Aslanov Elçini kənara çəkib qonağın onu axtardığını söylədi. Əməliyyatçılar qızla birlikdə binanın "Lenin guşəsi"nə çəkildi-

lər, və Qaraxanov qızın gəlişinin məqsədini araşdırmağa başladı:

- Eşidirəm sizi, xanım.

Qonağın əvəzindən suala Elcan cavab verdi:

- Xanım dilimizi bilmir, quzik, rusdur.

Elçin rus dilində təkrar etdi:

- Слушаю вас, девушка. Говорят, вы меня искали.

Xanım Qaraxanovun sualına sualla cavab verdi:

- Вас Эльчин зовут? Можете показать мне любой документ, который удостоверит вашу личность?

Elçin xanımın xahişini yerinə yetirərək ona KQB vəsiqəsini təqdim etdi. Ətrafa bir qədər göz gəzdirəndən sonra müayinə etdikdən sonra qonaq həyəcandan birtəhər özünü ələ ala bildi və söhbətə davam etdi:

- Меня зовут Марина. Я приехала к вам окольными путями, чтобы не было лишних проблем с милиционерами…

Elçin qızın sözünü kəsərək dəqiqləşdirici sual verdi:

- Окольными путями говорите? А откуда вы так четко знакомы с этими местами? Здесь даже мы путаемся.

- Я живу в соседнем Шаумян-сельском, уже 30 лет. Все мое детство прошло в этих местах. Потому и знаю эти села.

- С этим все ясно, Марина. Какими судьбами вы оказались в Тодане?

- Меня прислал к вам Саша Рожный. Надеюсь, вы знакомы с ним?

- Допустим, знаком. И что он велел передать нам?

- В первую очередь, он вас приветствует, Эльчин.

- А во-вторых?

- Саша просил передать вам, что гянджинская семья по ошибке заехала в село Шаумяновск и находится у них в заложниках. Вам, просто, нужно трезвонить по всем инстанциям, чтобы армянские боевики, окопавшиеся в нашем селе, их не убили, а освободили за определенный выкуп.

Söhbətə Elcan da qarışdı:

- А из скольких человек состоит семья?

Marina Aslanovun sualına geniş izah verdi:

- Отец, мать и дочка. Они должны были приехать в гости к своим родственникам в Нафталане, но по пути заблудились и заехали к нам в село. Одним словом, не теряя времени, вы должны поднять тревогу и через сотрудников КГБ СССР или служащих Министерства обороны их вызволить. Все. Долго задержаться у вас я не смогу. Нужно срочно вернуться к своим.

Qız sözlərini bitirdikdən sonra Elçinlə Elcan məsləhətləşmək üçün koridora çıxdılar. Qaraxanov ağlından keçən şübhələri Aslanova söylədi:

- Bəlkə Marinanı Saşa deyil, erməni yaraqlıları göndərib? Yerimizi, sayımızı öyrənmək istəyirlər ki, gecə təxribat törətsinlər?

Elcan da fikrini bildirdi:

- Tutalım ki, sən deyəndir. Bəs sənin adını haradan bilirlər? Bir də ki, Rojnının Şaumyan-selskidə olmasından xəbərin var idi? Bu barədə mənin məlumatım niyə yoxdur?

Qaraxanov Elcanın sualına sərt cavab verdi:

- Aslanov, oyun oynamırıq ki, Rojnının o kənddə olması barədə bütün Azərbaycan bilsin! Saşa ilə bir kabinetdə otururuq. Ona görə də əməliyyatdan mənim xəbərim var.

- Başa düşdüm, Elçin. Əsəbiləşmə, izafi sual verdiyimi boynuma alıram. Qızı məhz Saşa göndərib. Qəti şübhən olmasın. Onu yola salıb təcili şöbəyə getməliyik.

- Bəli, vaxt itirmək olmaz.

Məsləhətləşmələrdən sonra dostlar Marinanı Zöhrabın maşınına oturdub gizlicə Şaumyan-selski tərəfə yola saldılar. Bir saat keçməmiş bütün əlaqədar orqanlar gəncəli ailənin düşdüyü vəziyyət barədə xəbərdar oldular. Gəncə və Qarabağda yerləşən sovet hərbi hissələrinin komandirlərindən başqa, məlumat Moskvaya da ötürüldü. Onlar Ermənistan Respublikasının KQB-silə əlaqə saxlayıb "saqqallılar" tərəfindən girovlara işgəncə verilməsinə mane olmalı idilər.

İki gündən sonra Qasım İsmayılov Rayon Şöbəsinə ezam olunmuş çekistlər paytaxta qayıtdılar. Çox müddət keçmədən külli miqdarda pul müqabilində girov düşən ailə sağ-salamat Gəncə şəhərinə qayıtdı. Artıq Saşa Rojnının Şaumyan-selskidə qalması həyati təhlükə yarada bilərdi. Buna görə də o, beş gündən sonra rahat Bakıya qayıtdı. Hətta Saşanı aradan götürmək üçün erməni daşnakları onun başına pul da qoymuşdular. Gələcəkdə oxşar hadisələr baş verməsin deyə, əməliyyatçıların səyi nəticəsində erməni yaraqlılarının olduğu kəndlərə aparan yollarda nəzarət-buraxılış məntəqələri təşkil edildi.

## XII FƏSİL

## DAĞLARDA DÖYÜŞ VƏ YA SAPI ÖZÜMÜZDƏN OLAN BALTALAR

Bakıda vəziyyət gərgin olaraq qalırdı. Xalqın hökumət qarşısında qoyduğu tələblərə hələ də cavab verən yox idi. Dağlıq Qarabağda azərbaycanlıların yaşadığı kəndlərə "saqqallılar" tərəfindən hücumların ardı kəsilmirdi. Azərbaycan xalqının fəryadını Qorbaçovun ermənipərəst komandası yerindəcə boğurdu.

Min doqquz yüz doxsanıncı ilin iyirmi yanvar faciəsindən sonra həbs edilən "Xalq cəbhəsi" fəalları Moskvada muxtəlif təzyiqlərə məruz qalırdılar. İş o yerə çatmışdı ki, Azərbaycan uğrunda canını qurban verməyə hazır olan tanınmış şair Xəlil Rzanı azərbaycanlıların qatı düşməni olan erməni şairəsi Kaputikyana "Silva xanım" deməyə məcbur etmişdilər. Moskvada Lefortovo türməsində saxlanılan Etibar Məmmədov başda olmaqla "cəbhəçilər" təhqirlərə məruz qalırdılar. Mütəllibov iqtidarının əksər nümayəndələri Moskvanın Bakıdakı nüfuzunu yenidən canlandırırdılar. İqtidardan ümidini kəsən xalq çarəni SSRİ Ali Sovetinin millətsevər azərbaycanlı deputatlarından umurdu.

Bu acınacaqlı vəziyyət DTK əməkdaşlardan də yan keçmirdi. Vətən mənafeyinin müdafiəsinə qalxan əməkdaşlar qara siyahıya salınırdı. Yaxşı halda onlar aşağı vəzifələrə atılır, pis halda isə DTK-dan tərxis edilirdi.

Ezamiyyətdən qayıdan Qaraxanov rəisinin otağına daxil oldu. Seyfəddin müəllimin davranışından bəlli idi ki, o heç də Elçinin Goranboy sərgüzəştlərindən razı qalmayıb. Osmanov həmən iradlarını bildirməyə başladı:

- Qaraxanov, ezamiyyət təlimatlarına əsasən sən əməliyyat şəraitini izləməli və hər bir dəyişiklik barədə rəhbərliyə məlumat verməli idin. Düz deyirəmmi?

- Düz sözə nə deyim, rəis,- deyə Elçin təsdiqlədi.

- Bəs sən nə ilə məşğul idin?

- Mən erməni yaraqlılarından Vətənimi qoruyurdum.

- Bilirsən, Qaraxanov, pafoslu çıxışların mənə lazım deyil. Xarici ölkədən gəlmiş iki nəfər erməni yaraqlısını özbaşına zərəsizləşdirmisiniz!

- Bəli, etmişik!

- "Saqqallıların" bazalarını bombalamısınız?

- Rəis, elə dediniz ki, guya mənim bombardmançı təyyarəm var. Yəqin sonra da Yerevanı artilleriya atəşinə tutmuşam?..

- Dedim axı, pafosla danışma!

Qaraxanov ədalətli, zarafatcıl və eyni zamanda sərt xasiyyətli idi. Heç vaxt icazə verməzdi ki, onun haqq işinə kimsə ləkə yaxsın. Görünür, təzə rəis Elçinin bu keyfiyyətlərindən xəbərsiz idi. Osmanov sual verməkdə davam edirdi. Sanki hansısa beynəlxalq təxribatın qarşısını almağa çalışırdı:

- Nəhayət, Saşanın ifşasına dair...

Qaraxanov rəisinin sözünü kəsdi:

- İfşası?

- Bəli!

- Seyfəddin, məndən cəmi iki yaş böyüksən. Ha çalışıram, sənə hörmətlə yanaşam, alınmır ki, alınmır. Dediklərivə özün inanırsan? Kimsə kefivə soğan doğrayıb, oturub mənimlə məzələnirsən?

- Bu nə tondur rəisinlə danışırsan, Qaraxanov? Heç utanırsan?

- Səndən utanım? Əməkdaşıvın xoşniyyətli əməllərinə verdiyin qiymət budur? Dostun Yarmahmudun şikayətilə hərəkət etdiyivi çoxdan anlamışam.

- Bəli, bütün məlumatları o mənə verib. Əməkdaşlarımın hər bir davranışı ilə daim maraqlanmalıyam...

- Ay kişi, hərəkətlərimizlə maraqlan e, amma torba tikmə! Mənə elə iradlar tutursan ki, kənardan baxan deyər, yəqin, xalq düşməniyəm. Unutma ki, ezamiyyətə dostunla bərabər doqquz nəfər göndərilmişdik. Sadaladığın işlərin hamısını bir yerdə icra etmişik. Mənim yeganə səhvim o olub ki, Kəpəz dağına qalxdığıma görə Hüseynağa müəllimə məruzəni yubatmışam.

- Qaraxanov, dua et ki, arxanda Tofiq Heydərovla Rafiq Sadıxov dayanıb. Yoxsa ki, bilirəm, sənə nələr edərdim.

- Ezamiyyətin nəticələrinə "düzgün" qiymət verdiyin üçün təşəkkür edirəm. İcazənlə kabinetivi tərk edirəm. Onu da bil ki, mənə pislik edə bilən oğlan hələ anadan olmayıb.

- Gedə bilərsən! Aşağıda səni kadrlar şöbəsinin müavini Kərəmov gözləyir.

Qaraxanov gözəl bilirdi ki, Osmanov özünün deyil, Mirzoyevlə Kərəmovun göstərişlərini yerinə yetirir. "Bu rusbaşlar Azərbaycana heç vaxt xeyir gətirməyəcək" düşünərək Elçin Sənan Kərəmovun qapısını döydü. İçəridən səs gəldi:

- Войдите!

Qaraxanov kabinetə daxil olaraq masa arxasında yerini aldı. Kərəmov ilk sualını verdi:

- Как твои дела, Эльчин?

Elçin adının hörmətlə səsləndiyini eşitdikdə vəziyyətin ürəkaçan olmadığını anladı:

- Pis deyil, yoldaş Kərəmov, siz necəsiniz?

- Тоже все нормально с твоей помощью.

- Mənim köməyimlə?

- Əlbəttə! То, что помог мою дочку в прошлом году устроить в институт, я никогда не забуду. Спасибо тебе за это еще раз. Но я пригласил тебя в кабинет не по поводу этого события.

Son cümləni söylədikdə Kərəmovun səs tonu ciddiləşdi. Ani olaraq Elçinin beynindən sual keçdi: "görəsən insanın neçə sifəti olur?"

Sənan müəllim söhbətə davam etdi:

- Эльчин, все равно, для дальнейшего прохождения службы тебя отправят в Нахичеванский КГБ. Так что, лучше самому написать рапорт…

Qaraxanov rişxəndlə Sənan müəllimin cavabını verdi:

- А в честь чего вы приняли такое решение?

- Это не мое предложение. Руководство в курсе.

Bu dəfə Elçin Kərəmova ciddi və bir qədər də acıqlı halda sual verdi:

- Sənan müəllim, respublikanın bu çətin günlərində sizin başqa işiviz-gücüvüz yoxdur?

Kərəmov da səs tonunu sərtləşdirdi:

- Что за глупый вопрос? Приказ есть приказ. И вообще, ваша эра закончилась!

Nədən söhbət getdiyini Qaraxanov çoxdan anlamışdı. Elçin onu da gözəl bilirdi ki, Kərəmovun təklif etdiyi məsələlərin cavabını sədr müavini Sadıxov və şöbə rəisinin müavini Heydərov çoxdan verib. Ona görə də o, hücuma keçdi:

- Bilirsiz, Sənan müəllim, nə üçün mən bu qədər sakitəm?

- Нет, не в курсе!

- Çünki sənin kimi təxribatçılar Azərbaycan xalqının təxminən bir faizini təşkil edir. Mən bu günə qədər özümü nə naxçıvanlı, nə bakılı, nə də  zərdablı saymışam. Yalnız azərbaycanlıyam və doğma Vətənimdə yaşayaraq ona şərəfim və qürurumla xidmət edirəm! Hər dəfə yuxudan oyananda özümü respublikamızın hansısa  regionunda hiss edirəm. Sənin kimi yarımçıqlar isə "Yandaşlıq" və regionçuluğu təbliğ edən digər qurumlarla mübarizə aparmaq əvəzinə bataqlığa yeni insanları salırsınız. Mən Moskvadan üç il bundan əvvəl qayıtmışam. Nələr baş veribsə, sizin probleminizdir. Xahiş edirəm, məni murdar oyunlardan kənarda tutasınız...

- На этот раз ты меня здорово разозлил, Караханов. Я добьюсь твоего перевода в Нахичевань!

- Ə, rus dilinin beşiyi! Mənə pislik etmək üçün ən azı kökümə qayıtmalısan! Моя твоя не понимает!

- "Beşiy" nə demekdir? Soyuşdu?

- Xeyr, mən söyüşlə danışmağı sevmərəm. Bir də ki, sən Bəy hamamı ətrafındakı qədim Romaya aid heykəlləri görmüsən?

- Не понял тебя. Причем тут баня?

- Çünki KQB-də urus dilinin təşviqatçısı sən, Roma imperiyasını bu günədək ayaqda saxlayan isə Bəy hamamıdır. Anladın məni?

- Как же вы любите показывать себя умными!

- Nə cür istəyirsən elə də fikirləş. Mən gedirəm Xəzər İsmətovun, yəni rəisivin qəbuluna. Oradan da yoldaş Sadıxova baş çəkəcəyəm.

- Эльчин, ты меня не понял. Давай, решать вопрос в моем кабинете. Если не хочешь перевестись, то и я не буду настаивать...

Qaraxanov Kərəmovun sözünü yarımçıq qoyub onun otağını tərk etdi. Lakin etdikləri söhbətlər barədə nə İsmətova, nə də ki, Sadıxova məlumat verdi. Elçin əmin idi ki, Sənan Kərəmovun aqibəti heç də yaxşı olmayacaq. Çünki onun kimi insanların cavabını Azərbaycan xalqı gec-tez verəcək.

Kadrlar şöbəsini tərk edəndən sonra Qaraxanov otağının qarşısında Nağı Əliyevlə üzləşdi. Nağı gülümsəyərək Elçini salamladı və bildirdi ki, bir az da mərkəzə yaxınlaşdı:

- DTK-nın yeni yaradılmış Bakı şöbəsində Nərimanov rayonunu mənim əməliyyat təminatıma verdilər. Ona gö-

rə də mərkəzi aparatla ünsiyyətim mütəmadi olacaq, tez-tez görüşəcəyik. Sənin işlərin necə gedir?

- Belə də, Nağı. Gah səngərlərdə erməni yaraqlıları ilə mübarizə aparıram, gah da komitədə bir-iki nankorla. Bir sözlə, boksçu pozasında həyat sürürəm.

- Darıxma, Elçin, inşallah, bütün mənfurlara qalib gələcəksən. Gəlmişdim, üzünü görəm, salamlaşam. Amma tələsirəm. İcazənlə səni tərk edim.

- O nə sözdür, qardaş? Əlbəttə. Keçəcəyəm sən tərəfə. Onda ətraflı söhbətləşərik.

- Hələlik, Elçin.

Ağır günlərdə ölkəni ayaqda saxlayan onun silahlı qüvvələri və təhlükəsizlik orqanlarıdır. Bu strukturları güclü edən isə peşəkar kadrlardır. Hakimiyyəti əldə saxlamaq üçün təbliğat və təşviqat kifayət edir. Lakin dünya miqyasında dövlətin və millətin fikirlərini, sözlərini təbliğat deyil, güclü ordu və təhlükəsizlik xidməti kəsərli və keçərli edir. Belə bir ağır vəziyyətdə Azərbaycanın acınacaqlı gerçəkliyi və eyni zamanda bədbəxtliyi təhlükəsizlik orqanlarında təcrübəli kadrların qovulmasından, dəyişdirilməsindən irəli gəlirdi. İvan Qorelovski DTK-dan peşəkar əməliyyatçıları regional mənsubiyyətinə görə işdən azad edirdisə, Vaqif Hüseynov Komitəyə naşı kadrlar doldururdu. Beləliklə, beynəlxalq aləmdə sözünü şəstlə demək istəyən Azərbaycanın qanadlarından biri sındırıldı. Qarabağ uğrunda döyüşlərdə iştirak edən DTK əməkdaşları vaxt darlığına baxmayaraq, əməliyyat işləri üzrə də fəaliyyətlərini genişləndirirdilər. Onlar "gizyarları", yəni

gizli yardımçıları bütün risklərə rəğmən Dağlıq Qarabağın ərazisinə göndərərək erməni separatçıları, yaraqlıları, orada xidmət edən sovet ordusunun hərbçiləri, qondarma "Arsax" və "Miasum" təşkilatının terrorçu üzvləri haqqında məlumat toplayırdılar. Vətənpərvər "çekist" və gizyarları yalnız bir məsələ düşündürürdü: Qarabağı Azərbaycanın tərkibinə qaytarmaq.

Qaraxanovun "Əqrəb" ləqəbli gizyarı Stepanakertdən yenicə qayıtmışdı. Onun gətirdiyi məlumat böyük əhəmiyyət kəsb edirdi. "Əqrəb" Hadrut qəsəbəsində Baltikyanı ölkədən dəvət edilmiş üç nəfər qadın sərrast atıcısı aşkarlamışdı, hətta, gizyarın səyi nəticəsində onlardan ikisinin adı müəyyən edilmişdi. Məlumat həmən Mərkəzə göndərilmişdi. Bir həftə keçməmiş qızların üçü də öz ölkəsinə qaytarılmış və hətta onlara qarşı cinayət işi açılmışdı.

Əməliyyat fəaliyyətiylə hərtərəfli məşğul olmaq imkanı məhdudlaşdırılmışdı. Moskvadan Bakıya nadir hallarda DTK üçün yeni texnika göndərilirdi. Köhnələrisə çətinliklə təmir edilirdi. Lakin əməliyyatçı çarəsizliyə qapılmırdı, fəaliyyətini keyfiyyətlə davam edirdi.

Riyad Əhmədovun yaratdığı xüsusi təyinatlı dəstə Dağlıq Qarabağ ərazisində erməni terrorçularına qan uddururdu. Sovet ordusunun Şuşadakı komendantı da yerində dinc oturmurdu. Onun xüsusi təyinatlılara qarşı maneələr törətməsinə baxmayaraq, zabitlər mübarizəsini şərəflə aparır, sözün əsl mənasında ölümdən dönürdülər. Onların sərəncamında olan "PAZ" markalı avtobus istənilən yerdə peyda olanda "saqqallılar" və digər erməni ter-

rorçuları qorxudan ərazini tərk etməyə məcbur qalırdılar. Hətta Riyadın dəstəsi xarici ölkələrdən Azərbaycan ərazisinə iki yüz nəfərədək erməni yaraqlısını gətirən konserv zavodunun direktoru Qazaryanı ələ keçirməyə müvəffəq olmuşdu. Xəbəri eşidən Şuşa komendantı silahlı əsgərləri-lə xüsusi təyinatlıların dincəldiyi binaya hücum etmişdi. Əhmədovu qorxutmağa çalışan sovet zabiti Nikolayev xüsusi təyinatlıların igidliyi qarşısında öz qərargahına əliboş qayıtmışdı. Dəstə qəhrəmanlıq salnaməsini yazmaqda davam edirdi. Amma "arxalı köpək qurd basar" atalar sözü igidlərimizə şamil oluna bilmirdi. Azərbaycanın Riyad kimi mərd oğullarının arxasında hökümətin dəstəyi hiss edilmirdi. Mübariz, mərd övladları yeni qələbələrə ruhlandıran yalnız onların Vətənə olan sevgisi idi.

***

Min doqquz yüz doxsan birinci ilin bahar fəsli Bakıda mövqeyini möhkəmlətməkdə idi. Novruz bayramı ilə əlaqədar Zeynalla Ramazan da Naxçıvandan paytaxta qayıtmışdılar. Ali məktəbin məzunlarının bir yerə toplanması üçün əlverişli imkan yaranmışdı. Fürsəti fövtə verməyən dostlar martın iyirmi ikisində Gənclik parkındakı çayxanada bir araya gələ bildilər. Hal-əhval tutduqdan sonra Elçin bir təkliflə çıxış etdi:

-Səhərdən sizləri kənardan seyr edirəm. Maşallah, xeyli varıq – on səkkiz nəfər. Ona görə də, toplantını idarə etmək üçün ağsaqqal seçməliyik. Mənim namizədim Natiq Zöhrabovdur. İçimizdə yaşca ən böyük odur.

Nurməmməd də istəyini səsləndirdi:

- Mənsə Mehrabovu ağsaqqal qismində görmək istəyirəm!

Qaraxanov Məlikovun səs tonunda rəsmiliyi duyunca zarafata keçdi:

- Nurməmməd, partiya iclasında deyilik e, katibin namizədliyini təklif edəsən. Çayxanadayıq, ikincisi də, sən Mehrabovu harada gördün?

- Yoxdur?

- Bir az diqqətli ol. O, görüşə gələ bilməyəcək.

Dostlar gülərək masa arxasına keçdilər. Natiq ağsaqqal seçildiyinə görə minnətdarlığını bildirib Azərbaycanın çətin günündə bir yerdə olduqlarından qürur hissi duyduğunu söylədi:

- Tariximizi vərəqləsək Vətənimizin bu qədər çıxılmaz vəziyyətdə olması barədə məlumat tapmayacağıq. Amma bizlər özümüzü itirmədik. Əməliyyat fəaliyyətində də, Qarabağ döyüşlərində də vəzifələrimizi şərəflə icra etdik.

Tanrıverdiyev Natiqin sözünü kəsərək:

- Bəzilərindən başqa de!

"Eyibsiz gözəl olmaz" atalar sözünü Tanrıverdiyevə xitabən vurğulayaraq Zöhrabov çıxışına davam etdi:

- Bir sözlə, bundan sonra da Azərbaycanın mənafeyinə yönəlmiş fəaliyyətimizə şərəflə davam edəcəyik. Gec də olsa, hamınızı Novruz bayramı münasibətiylə təbrik edirəm.

Məclis yavaş-yavaş qızışmağa başladı. Akademiyanın məzunları döyüş bölgələrindəki ezamiyyətdən qürurla söhbət açırdılar. Çünki erməni separatçılarına, terroristlərinə və "saqqallılarına" qarşı aparılan mübarizədə hamısı-

nın əməyi var idi. Əməliyyatçılar hər ayın iyirmi gününü döyüş bölgələrində keçirirdilər. Söhbətin ortasında Nurməmməd üzünü Nizamova tutub zarafata keçdi:

- Sən necə, Hüseyn? Ezamiyyətlərdə səni nadir hallarda yanımızda görərdik...

- Nadir hallarda deyəndə ki, Məlikov, kimsə əməliyyat işilə məşğul olmalıdır, ya yox? Bir də ki, mən kəşfiyyatçıyam, daha müşkül işlərlə məşğulam!

Nizamovun axırıncı kəlməsini eşidən Zeynal onun sözünü yarımçıq qoydu:

- Anlamadım! Nə olsun? Riyad, Arif və Alik də kəşfiyyatçıdırlar. Bir il olar ki, KQB-nin yolunu unudublar, Dağlıq Qarabağın ərazisindən çıxmırlar.

Zeynalın sözlərinə Cəfər də öz əlavəsini etdi:

- Sən də söz dedin də, Hüseyn. Kəşfiyyatçı Leninakanda, Masisdə və ya bəd ayaqda Yerevanda çay içər. Daha sənin kimi burda oturub limonlu su içməz.

İradlardan sonra Nizamov əlindəki stəkanı cəld masaya qoyub Zeynala Məşhədi İbadın sözləriylə cavab verdi:

- "Görürəm ki, mənə sən çox yetirirsən gözünü", Zeynal, "qorxuram ki, sən axırda itirəsən özünü!" Kim bilməsə də, sən bilməlisən ki, Azərbaycan üçün kəşfiyyat nə deməkdir!

- Nə deməkdir?

- Hər şey!

- Elə bu, Hüseyn?

- Bəli, Zeynal. Birdə ki, biz olmasaq, siz əks-kəşfiyyatçılar nə edərdiniz?

Bu dəfə Nizamovun cavabını Nurməmməd verdi:

- Ay sağ ol e, Hüseyn. Siz olmasaydız, bilmirəm biz kimi zərərsizləşdirərdik. Çörəyimiz elə siz kəşfiyyatçılardan çıxır da...

Natiq ağsaqqallığına sadiq qalaraq qızışmaqda olan mübahisəni dayandırdı:

- Kəşfiyyatın da, əks-kəşfiyyatın da öz yeri var. Onlara dəyəri yalnız müstəqil Azərbaycan verə bilər. Bizim fəaliyyətimiz sovet dövlətində həyata keçirilir və göstərişləri o, bizə verir. Siz nədən danışırsınız? Zeynalla razıyam. Kəşfiyyata o qədər ehtiyac duyulmasa da, əks-kəşfiyyat Azərbaycanımıza hava-su kimi lazımdır. Sən də sinənə az döy, Nizamov. Kəşfiyyat azad, müstəqil dövlətlərə xas olan xidmətdir. Sənin əldə etdiyin mühüm məlumatlar ilk növbədə ora, Mərkəzə ötürülür. Çünki Moskvanın icazəsi olmazsa, ayağını bir santım belə xarici ölkəyə qoya bilmərsən.

Ali Məktəbin məzunları Moskva həyatlarını, orada qalan soydaşlarını, digər institutlarda təhsil alan Azərbaycan qızlarının onlar üçün milli yeməklər hazırlamaqlarını və digər saysız sərgüzəştlərini yada salıb uzun-uzadı söhbət etdilər. Birdən Natiq Elçinin kənarda fikirli oturduğunu görüb onu səslədi:

- Xeyir ola, Elçin? Elə bir toplantımız olmazdı ki, bizi əyləndirməyəsən. İndisə səsziz-səmirsiz bir qıraqda oturub sanki gizlicə hərəkətlərimizi izləyirsən.

Zöhrabovun sözlərindən sonra məclis iştirakçılarının da diqqəti Qaraxanova yönəldi. Əhməd sözə başladı:

- Natiqlə tam razıyam və qəmgin əhvalının səbəblərinə aydınlıq gətirməni gözləyirik, Qaraxanov.

Elçin əlindəki çayla dolu stəkanı yerə qoyaraq müzakirələrə qatıldı:

- Əvvəla, dostlar, yadıma Məhərrəm düşdü. Bildiyiniz kimi onu bütün məclislərimizin tamadası seçərdik. Allah ona rəhmət eləsin! Əminəm ki, sağ olsaydı,o da bizim kimi döyüş bölgələrindən çıxmazdı. İkincisi, KQB-yə dərin minnətdarlığımı bildirirəm.

Qaraxanovun ikinci şərhi sanki qurbağa gölünə daş atdı. Hətta həmişə sakitlik və susqunluğu ilə "lal Hüseyn" ləqəbi qazanmış Sahib Tağıyev diqqətini Elçinə yönəldib məclisboyu ilk sualını verdi:

- İkinci "maddəni" xahiş edirəm mənə dərindən anladasan, Elçin.

"Maddə" sözü Qaraxanovun xoşuna gəldi və o, həmin kəlməni təkrarladı:

- "Maddə" ha?

- Bəli, Elçin, "maddə".

- Bilirsən, Sahib, bir azərbaycanlı kimi mən də həddindən artıq tolerant idim. Lakin Akademiya və KQB məndən qatı Azərbaycançı düzəltdi. Bayaq Natiqin müstəqilliyimiz barədə sözlərini eşidəndə fikrimdən Ledomski keçdi.

- Əstəğfürullah de, Qaraxanov. Şeytanı yadımıza salma.

- Deməli, Tağıyev, həmin bu məxluqun özbək, gürcü, latışlara qarşı sərt və aşağılayıcı mövqeyinin şahidi olmasaydım, bəlkə də xidmətimi Moskvada davam etdirərdim. Daha sonra 20 yanvar fəlakəti zamanı general Bobkovun bizə qarşı nifrətini duymasaydım, Qorelovskinin, Hüsey-

novun addımbaşı azərbaycanlılar haqqında yalan məlumatları Mərkəzi komitəyə ötürmələrindən şübhələnməsəydim, elə kommunist də qalacaqdım. Bunlar yanlış hərəkətlərilə əqidəmi azərbaycançılıq ideyasına bağladılar. İndi də Qarabağ. Yetmiş il ərzində Mərkəzə təmənnasız xidmət edən, Böyük Vətən Müharibəsində sovetin qələbəsini təmin edən azərbaycanlıların əməyini bilərəkdən ermənilərin ayaqları altına atdılar. Di gəl bundan sonra bu axmaqlara qulluq et! Sözüm ondadır ki, buraya yığışmışkən daim Azərbaycanımızın maraqlarını qorumağa söz verək. Vaxt gələcək, biz öz müstəqilliyimizi qazanacağıq. İndidən fəaliyyətimizi elə qurmalıyıq ki, gələcəkdə azad Vətənimizdə alnıaçıq gəzək. Bir sözlə, kökümüzə qayıdaq - Dədə Qorqudlara, Oğuzlara, türklərə.

Qaraxanovun sözləri məclis iştirakçılarını kövrəltdi. Bir neçə saniyə davam edən sükutu Cəfər pozdu:

- Qaraxanov, səni bağrıma basıram. Hələ heç bir çıxışdan mən bu qədər ləzzət almamışdım! Vətənimiz sağ olsun!

Dostlar Məhərrəm Buğdəliyevi də yad etməyi unutmadılar.

Növbəti gün Elçin üçün xeyrə açıldı. Ümumiyyətlə, bahar fəsli onun üçün həmişə düşərli olurdu. Səhər saat səkkizdə o, bir həftə əvvəl əldə etdiyi köhnə "Jiquli" markalı avtomobilinə əyləşib işə yollandı. "Olimp" mağazasının qarşısındakı svetoforun qırmızı işığında maşınını saxlayan Elçin bir daha avtomobili iş rejiminə qaytara bilmədi. "Jiquli" tərsliyi tutan ulaqtək yeriməkdən imtina edir-

di. Qəfildən Qaraxanov avtomobilinin önündə Rzaqulunun "QAZ-21" markalı avtomobilini gördü. Talıbov maşınından düşüb əlində hazır vəziyyətdə saxladığı tros simi salam-sabahsız Qaraxanovun "Jiquli"sinə caladı. Sanki o, Elçinin maşınının məhz "Olimp" mağazasının önündə xarab olacağını əvvəlcədən bilirmiş. "Səni mənə Allah yetirdi, Talıbov" sözlərilə minnətdarlığını bildirən Qaraxanov sükan arxasına əyləşdi və kolleqasının köməyilə vaxtında özünü DTK-ya yetirdi. Avtomobilindən düşərək Elçin Rzaquluya ürəkdolusu minnətdarlığını çatdırdı:

- Qardaş, təşəkkürlər!

- Dəyməz, Elçin, mənim xeyirxah olduğumu hamı bilir...

- Yaxşı, yaxşı, az sinəvə döy. Bunun axşamı da var, Rzaqulu.

- Necə bəyəm?

- İti öldürənə sürütdürərlər, Talıbov. İşdən sonra evə kimi maşınımı yenə dartmalı olacaqsan.

- İnşallah, axşama kimi maşınının ağlı başına gələr və mühərrikin özü işə düşər.

- Yəni, demək istəyirsən ki, maşınım papağını qarşısına qoyub fikirləşəcək və ağıllı bir qərara gələcək?

Dostlar zarafatlarını bitirməmiş gizir Aslanov Qaraxanovu səsləyərək Tofiq Heydərovun kabinetinə dəvət etdi. Mart ayı olmasına baxmayaraq, bayırda qar yağmağa başlamışdı. Elçin idman çantasını otağına qoyub Tofiq müəllimin kabinetinə tərəf yeridi. Lakin Heydərov harasa tələsirdi və ayaqüstü Qaraxanova sual verdi:

- Sənin Sənan Kərəmovla söhbətin olub? Naxçıvana göndərilməyin barədə?

Əvvəlcə Elçin söhbətdən qaçmaq istədi. Lakin Heydərovun hər yerdə gözü və qulağının olduğunu nəzərə alıb Kərəmovla söhbətinin məğzini qısaca ona anlatdı. Heydərov hadisədən Rafiq Sadıxovun da xəbərdar olduğunu bildirərək, nəhayət, Elçinə şad xəbəri verdi:

- Qüsursuz fəaliyyətini nəzərə alaraq Kərəmovun əli ilə hazırlanmış sənədlər əsasında sən bu gündən baş əməliyyat müvəkkilisən. Sədrimiz dünən əmrə imza atıb.

- Təşəkkür edirəm, Tofiq müəllim. Bilirdim ki, siz olan yerdə rütbə və vəzifəmlə bağlı heç bir problem olmayacaq. Əmin olun ki, bundan sonra da üzərimə düşən vəzifəmi şərəflə yerinə yetirəcəyəm.

- Təbrik edirəm, Qaraxanov. Ümidvaram ki, yeni vəzifəni Gənclikdə- çayxanada qeyd etməyəssən.

Elçin gülümsəyərək polkovnik Heydərovdan ayrıldı və kabinetinə qalxdı. Otaqda Saşa da var idi. Qaraxanov onu salamlayıb Rzaquluya şikayət etməyə başladı:

- Deyirəm, qardaş, Heydərov mənim Gənclikdəki çayxanada olduğumu hardan bildi?

- Nə Gənclik, nə çayxana? Sən özündəsən, Qaraxanov?

- Heç, Rzaqulu, problem yoxdur. Sözdü da, dedim...

Talıbov müəmma ilə Saşanın üzünə baxdı və Qaraxanovun çayxana barədə sözlərini anlamadığını bildirdi. Elçinin beynində isə cürbəcür fikirlər dolaşırdı.

Həmin günü Qaraxanov rəisi Osmanovla birgə Dağlıq Qarabağdan dönmüş bir neçə gizyar ilə görüşdü. Onların təqdim etdiyi məlumatlar heç də Azərbaycanın sakit gələ-

cəyindən xəbər vermirdi. Əcnəbi ölkələrdən gəlmiş erməni yaraqlıların Qarabağ ərazisində yerləşdirilməsi davam edirdi. Moskvadan Stepanakertə təşrif buyuran "qonaqların" sayı da artmışdı. Kommunist partiyasının tanınmış fəalları, KQB və Daxili İşlər Nazirliyinin yüksək rütbəli zabitləri general Stepanyan və polkovnik Yesayanla birgə mütəmadi Koçaryanla görüşlər keçirirdi. Azərbaycanlıların Qarabağdan qovulması, döyülməsi və qətlə yetirilməsi davam edirdi. Mənası olmasa da, məlumatların hamısı KQB sədri general Hüseynov və Respublika rəhbərliyinə dərhal məruzə edildi.

Axşam saat yeddi radələrində Talıbov rəisin yanından qayıtdı:

- Nədənsə bu gün evə tez buraxdılar. Mən hazır. Gedək maşınını dartaq.

Elçin pəncərədən bayıra baxdı və yağan qardan az da olsa yolların ağardığını gördü. O, qəmli-qəmli Rzaquluya sarı döndü:

- Deyirəm, tərsliyə bax e, martda da qar yağar? Fikirləşirdim ki, avtomobilimi dartdığın yerdə mühərrikin özü işə düşəcək. Amma yollar qarlı və sürüşkən olduğundan evə kimi əziyyətimi çəkməyə məcbursan.

- Narahat olma, Elçin. Lazım gəlsə, Naxçıvana kimi də maşınını çəkərəm.

Qaraxanov Rzaqulunun söylədiyi sözləri gülümsəyərək təkrarladı:

- "Lazım gəlsə!" Son zamanlar daim bu ifadədən istifadə edirik. Artıq "lazım" sözü canlı insan obrazı yaradıb. Sanki gəlib bizi bütün bəlalardan qurtaracaq.

- Getdik e, Elçin, demaqoqluğa keçmə.

Bayırda əməliyyatçılar Saşanın da köməyilə tros simini "Jiquli"yə qoşub yola düşdülər. Yüz metr irəliyə hərəkət edəndən sonra Rzaqulu güzgüdən Qaraxanovun avtomobil faralarının siqnal verdiyini gördü. O, "QAZ-21"-ini saxlayıb Elçinə yaxınlaşdı və təəccüblə soruşdu:

- Bu nə deməkdir, maşınının mühərriki çalışır ki!?

- Rzaqulu, desəm, inanmazsan! Maşınımı dartdığın yerdə kanalizasiya qapağı gördüm. Çirkli sular isti olur, axı. Ona görə də quyu qapağının üstündəki qar ərimişdi. Həmin kiçicik ərazidə paylama qutusunu qoşdum və ayağımı muftadan çəkdim. Nəticədə... maşının mühərriki çalışır.

- Elçin, maşınında benzin var?

- Təbii ki. Dünən doldurmuşam. Necə bəyəm?

- Qoy bir az çalışsın ki, mühərrikin qızsın. Mənimsə sənə suallarım var.

- Buyur, qardaş.

- Paylama qutusu nə deməkdir? Özü də bu kəlməni çətinliklə tələffüz etdin.

- Azərbaycan dilinə yeni sözlər əlavə edirəm, Rzaqulu. Paylama qutusuna urus dilində "коробка передач" deyirlər.

- Bəs, mufta?

- "Сцепление", dostum.

- Məndə günah yoxdur e. Dilimiz təmiz keçəlləşib.

- Səndə günah hardan olsun? Nə avtomobil, nə də ki velosiped icad etmişik.

- Bəs ana dilimizdə velosipedə, kanalizasiyaya nə deyirlər, Elçin?

- Mühərrik vamını aldı, Rzaqulu. Artıq gecdir. Gedək evimizə.

- Düzdür, Qaraxanov. Sabahadək.

Qaraxanovun yeni vəzifəyə təyin edilməsi Rzaqulunun yadına yalnız evə çatdıqdan sonra düşdü. "Biabırçılıq! Elçini təbrik etmək təmiz yadımdan çıxdı. Fərq etməz, səhər işdə təbrik edərəm" düşünüb Talıbov şam yeməyinə oturdu.

Yeni gün günəşli hava ilə açıldı. Nəhayət, baharın ılıq nəfəsi sanki insanların qəlbinə ümid gətirmişdir. Rzaqulu Elçini koridorda qarşıladı və üzrxahlıq edib yeni təyinat münasibətilə onu təbrik etdi:

- Yeni vəzifəni və günahımı yumaq məndən. Nə deyirsən?

- Rzaqulu, səhər-səhər məni yuxudan rəisim oyadıb. Nəsə xəbər var. Onun yanına tələsirəm. Yeni vəzifəm barədə sonra söhbət edərik.

Qaraxanov Rzaquludan ayrılıb Osmanovun kabinetinə daxil oldu. Seyfəddin müəllim vaxt itirmədən mətləbə keçdi:

- Qaraxanov, dünən axşam erməni yaraqlıları Laçın rayonu ərazisində yenə terror aktı törədiblər. SSRİ DİN-nin polkovnikini qətlə yetiriblər.

- Belə olacaq da, rəis. Cəzasızlıq öz barını verməkdədir...

- Hadisəni araşdırmaq üçün Moskvadan KQB və DİN əməkdaşları gəlir. Onları qarşılayıb "İnturist" mehmanxanasına yerləşdirərsən.

- Maşallah, həmən tökülüb gəldilər! Erməni daşnakları yüzlərlə soydaşımızı qırıb-tökəndə nədənsə gözləri kor, qulaqları kar olur...

- Qaraxanov, bu söhbətlərin yeri deyil. Təcili aeroporta çıxmalısan. Aşağıda səni maşın gözləyir. Özü də qəti surətdə səndən tələb edirəm ki, onlara heç bir irad tutmayasan. Yeni düşmən qazanmaq vaxtı deyil.

- Əlbəttə, rəis, sakitcə yanlarında oturub mehmanxanaya gətirəcəyəm. Narahat olmayın. Familiyası nə idi?

- Kimin? Gələnlərin?

- Yox, ölənin.

- Hə, polkovnik Qriqoryev.

Yarım saatdan sonra Qaraxanov aeroportda qonaqları gözləyirdi. SSRİ güc strukturlarının nümayəndələri gözləmə zalına daxil olanda Elçin yerindəcə dondu. Qonaqlardan biri onunla birgə ali məktəbdə təhsil alan Sergey Studenkov idi. Sergey də Qaraxanovu görüncə quruyub qaldı. Bir neçə saniyədən sonra özünə gələrək o, Elçinə sarıldı. Studenkovun sevincinin həddi-hüdudu yox idi. Tələbə vaxtı Qaraxanovun ona böyük yaxşılığı keçmişdi. Partiya təşkilatının katibi olduğundan o, Sergeyin komsomoldan Kommunist partiyasının sıralarına keçməsinə köməklik göstərmişdi. Bu hadisə baş verməsəydi, Studenkovu akademiyadan xaric edəcəkdilər. Heç kim bu işin altına girmək istəmirdi, çünki Sergey dəcəl və intizamsız bir müdavim idi. Lakin Qaraxanov hər şeyə rəğmən onu partiya üzvlüyünə qəbul etdirə bildi. Sergey bu yaxşılığı unutmamışdı. Elçinlə görüşəndən sonra onun ilk kəlməsi də elə bu barədə oldu:

- Привет, Эльчин, дорогой! Очень рад тебя видеть! Учти, что я ни о чем не забыл. Все равно, я тебя нашел бы и еще раз поблагодарил за ту услугу, которую ты оказал мне на пятом курсе!

- Да, брось ты, Сергей. Мы с тобой однокашники и обязаны поддерживать друг друга в трудные минуты. Добро пожаловать в Азербайджан.

- Спасибо, Эльчин!

Qaraxanov Studenkovu mehmanxanaya yerləşdirəndən sonra geriyə DTK-ya qayıtdı. Mərkəzdən Bakıya gələn əməliyyatçıları yerbəyer etdiyi barədə Qaraxanov rəisinə vəziyyəti anlatdı:

- Seyfəddin müəllim, Moskvadan gəlmiş qonaqlar arasında KQB-nin Ali Məktəbində mənimlə birgə təhsil alan Sergey Studenkov da var.

- Lap yaxşı. Bunu mənə anlatmaqda məqsədin nədir?

Osmanovun sualı Qaraxanovu xeyli məyus etdi. "Necə yəni, məqsədin nədir? Rəisim erməni olsa idi, çoxdan Yerevanın bahalı restoranlarının birində Sergey üçün qonaqlıq təşkil etmişdi! Bu isə məqsəd və məramımla maraqlanır" düşüncələri beynində çək-çevir edib Elçin müzakirələri davam etdirdi:

- Məqsədim çox genişdir, Seyfəddin müəllim. Studenkov rus zabitlərini qətlə yetirən erməni "saqqallılarının" axtarışını təşkil etmək üçün Dağlıq Qarabağa ezamiyyətə göndərilib. Bundan böyük şans bir daha əlimizə düşməyəcək...

- Qaraxanov, onların ezamiyyətinin məqsədini mən də bilirəm. Sənin istəyin nədir?

- Əvvəla, rəis, bu axşam onu şam yeməyinə dəvət edəcəyəm. Sonra da ki,.. Allaha təvəkkül.

- Sən də ümidini daim Allaha bağlayırsan. Olmadı ki.

- Seyfəddin müəllim, qıcıq doğuran sözləriniz kimə lazımdır? Məqsədim budur ki, Sergeylə isti və daha da sıx əlaqələr yaradım. Bəlkə gələcəkdə bizə qulluq göstərər, yaxud onun xidmətindən yararlanarıq. Vəssalam.

- Fikirlərim səni maraqlandırırsa, mən bunun əleyhinə deyiləm, Qaraxanov. İstədiyin qaydada hərəkət edə bilərsən, təki planların bölməmizin əməliyyat fəaliyyətinə yararlı olsun.

- Çalışacağam, rəis.

Osmanovun kabinetindən çıxdıqdan sonra Qaraxanov öz otağına keçib Zeynalla Əhmədi yanına dəvət etdi. Rəisi barədə mənfi fikirlər Elçini rahat buraxmırdı: "Bu qədər mühüm işlərə belə laqeyd yanaşmaq olar? Sergeylə özünün də görüşəcəyini təklif etmək əvəzinə mənə avara-avara suallar verir. Sonra da deyirlər ki, ermənilər bizi yıxıb sürüyür!" Elə bu məqamda Zeynal Qaraxanovun otağına daxil oldu. On saniyə keçməmiş onun dalınca Əsədov da gəldi və həmən suala keçdi:

- Deyəsən, xeyirli olmasa da, mühüm xəbərlərin var, Qaraxanov...

- Var, var, Əsədov. Aeroportda idim. Moskvadan gələn qonaqları qarşılayırdım. Elə indicə "İnturist"dən gəlirəm.

Söhbətə Zeynal da müdaxilə etdi:

- Çox güman ki, Laçında öldürülən rus zabitinə görə gəliblər. Düz deyirəm, Elçin?

- Düzdür, Zeynal. Məsələni müzakirə etmək üçün sizə ehtiyacım var.

Əsədov müəmma ilə Qaraxanovdan soruşdu:

- Ay Elçin, biz hara, "irayon" hara?

- Sualı əla verdin, Əhməd. Aktrisa Ofelya Aslanın məzəli mahnısını yadıma saldın. Günlərimiz varıydı, e. Nəysə, sentimentallığı kənara buraxaq. Qonaqların tərkibində kim olsa, yaxşıdır?

Fikirli-fikirli pəncərədən küçəyə baxan Zeynalın üzünə sanki soyuq su çilədilər:

- Kim gəlib, Elçin?

- Studenkov, ay Zeynal. Sergey Studenkov.

- Sən nə danışırsan? Bizimlə bərabər o da Tacikistanda idi. Sonra da deyilənlərə görə, Almaniya Demokratik Respublikasına "osobist" qismində xidmətə göndərilmişdi.

- Bilmirəm, Zeynal, haralarda idi, indi Bakıda "İnturistdə"dir. Sabah Laçına, oradan da Dağlıq Qarabağa yola düşəcək. Bu axşam onu ujinə dəvət edəcəyəm. Sizin də iştirakınız vacibdir, alman ödənişi edəcəyik.

Əhməd fikrini bildirdi:

- Bu ki, əla oldu. Deməli, Qarabağda olacaq, daşnakların içində! Nəyin bahasına olursa olsun, ondan istifadə etməliyik, Elçin.

- Bunu mənə yox, rəisimə anlat, Əhməd!

- Necə bəyəm, problem var?

- Heç nə yoxdur. Bu barədə sonra söhbət edərik. Axşam Komitədən bir yerdə çıxarıq. Qonaqlığı da elə "İnturist"in restoranında verərik. Əliniz cibinizdə olsun. Qabırğadan boluq.

“Qabırğa” sözünü eşitdikdə Zeynal əlavə adamların da olacağını anladı:

- Daha kimlər var, Elçin?

- Aralarında bir-iki nəfər də milis işçisi var.

- Hər şey aydındır. Onların tox günü heç zaman olmayıb.

- Dostlar, mən dediyimi dedim. Axşam masa arxasında müzakirələrə davam edərik.

***

Gecə yarısınadək mehmanxananın restoranında davam edən görüş yüksək səviyyədə və səmərəli keçdi. Sergey söz verdi ki, erməni separatçıları və yaraqlıları barədə əldə etdiyi mühüm məlumatları hökumət rabitəsilə bilavasitə Qaraxanova ötürəcək. Ertəsi günün səhərisi Elçinlə Əhməd mərkəzdən gələn qonaqları Laçına deyil, Zabrat qəsəbəsindəki aeroportdan vertolyotla Xocalıya yola saldılar. Vertolyot səmaya qalxandan sonra Əhməd rişxəndlə Elçindən soruşdu:

- Deyirsən, yəni, Studenkov sənə nəsə xeyirli xəbər çatdıracaq?

- Çatdıracaq, Əhməd, çatdıracaq. Onun üçün nə fərqi var: azərbaycanlı, yaxud erməni? Əsas odur ki, kim onun qarnını doyuzdurur. Bizimki gətirdi. Mədəsini plovla doldurduğumuz Sergey əvəzində bir həftə beynimizi mühüm məlumatlarla qidalandıracaq. Əmin ol.

Şəhərə qayıtdıqda Elçin DTK binasının qarşısında Rəsul Adilovla üzləşdi. Salamlaşandan sonra Qaraxanov Rəsuldan Uqandada yaşayan tutsi milli azlığın taleyi ilə maraqlandı:

- Bilirəm ki, Adilov, tutsilərin taleyi səni dərindən maraqlandırır. Bəlkə onları Ruanda dövlətinə köçürək?

- Görürsən, Elçin, sonra deyəcəksən ki, Rəsul yerlibazlıqla məşğuldur. Sakitcə işimin-gücümün dalınca gedirdim. Vəziyyət gərgindir. Sən də vaxt tapdın zarafat etməyə...

- Elə əsl vaxtıdır, Rəsul. Demirdin, "bittə-bittə sizləri dənliyəcəyik"? Mən də sənin üçün yem tapdım – tutsiləri.

- Heç hənanın yeridi? Şöbə rəisimiz töhməti düz alnıma yapışdırıb.

- Nə edibsə düz edib. Sən buna layiqsən. Lakin Akademiyada birgə oxuduğumuza görə icazə ver, maraqlanım: nə üçün?

- Töhmətin səbəbkarı "Yandaşlıq" cəmiyyətidir. Artıq silah əldə etməyə başlayıblar. Cəmiyyətin üzvlərindən biri silah gücünə qızıl dükanından üzük və braslet götürüb. Günahı da məndə görürlər. Vaxtında cəmiyyət barədə dolğun və tutarlı məlumatlar əldə etməmişəm.

- Düz edirlər, Adilov. Sənə dəfələrlə demişdim ki, "Yandaşlıq" və "Günahlardan təmizlənmə" cəmiyyətinin bəzi üzvləri nə vaxtsa qarətlə məşğul olmağa başlayacaqlar.

- Mən nə bilim ki, onlar bu qədər quduracaqlar, Qaraxanov!?

- Gözəl bilirdin, Rəsul! Onların cinayət törətməsində sənin fəaliyyətsizliyinin də rolu var. Neçə dəfə xəbərdarlıq etdim ki, bunlar "jeklər" vasitəsilə bəzi bölgələrdən Bakıya gələn vətəndaşlarımızın ünvanları ilə maraqlanır?! Sən nə etdin?

- Həmən tədbir gördüm, Elçin...

- Yalan danışma, eşitməməzlikdən gəldin. Nəticəsi belə olmalıydı. Söylədiklərimi Nurməmməd də təsdiq edə bilər.

- Nəysə, Qaraxanov. Uşaq kimi məni nə danlayırsan? Onsuz da bir ayağım burda, o biri ayağım gordadır. Tələsirəm. Bir gün otağına gəlib hərtərəfli söhbət edərəm.

- Mən razı, gözləyəcəm. Hələlik.

Elçin Adilovla müzakirəni bitirmişdi ki, Rzaqulu Tofiq müəllimin onu axtardığını bildirdi. Qaraxanov vaxt itirmədən Heydərovun kabinetinə tərəf yönəldi. Qapını döyüb içəri daxil olanda Heydərovun otağında Seyfəddin Osmanovu, Fuad və Məmmədəlini gördü. “Görünür, ciddi məsələdir” düşünərək Qaraxanov Tofiq müəllimin işarə etdiyi yerdə əyləşdi. Rəis müavini həmişəki kimi iki dirsəyini də qarşıdakı masaya dirədi və biləklərini sakitcə tərpədərək məsələni anlatmağa çalışdı:

- Sabah tezdən siz və daha doqquz nəfər əməliyyatçı podpolkovnik Qədir Məmmədovun rəhbərliyi altında Qaladərəsinə yola düşəcəksiniz. Qərargahınız Şuşada yerləşəcək. Bir sözlə, aldığınız qərarları, atdığınız addımları Şuşa rayon bölməsinin rəisi Rəfalət Mirzalıyevlə razılaşdırarsınız. Qrupda isə Məmmədovun əmrləri keçərlidir. Aydındırmı?

Məmmədəli bikef halda ezamiyyətin məqsədi ilə maraqlandı:

- Tofiq müəllim, demədiniz axı, Şuşaya nə üçün gedirik.

Heydərov özünəməxsus qaydada ağıryana və sakit izah verdi:

- Bildiyiniz kimi bu ilin yanvar ayında Qaladərəsi deyilən yerdə jurnalist Salatın Əsgərova və rus hərbçiləri vəhşicəsinə qətlə yetiriliblər. Əldə etdiyimiz məlumatlara görə, canilər erməni "saqqallılarıdır". Onlar ətrafdakı erməni kəndlərinin sakinləridir. Sizdən tələbim odur ki, banditlərin şəxsiyyətini dəqiqləşdirib yerlərini müəyyən edəsiniz. Başa düşdünüzmü?

Müzakirələrə Fuad da qoşuldu:

- Tofiq müəllim! Məsələni anlamağına anladıq. Lakin mən və bildiyimə görə, şöbəmizin əməkdaşları ilk dəfədir ki, Şuşa şəhərinə gedirik. Orda heç bir əməliyyat mövqeyimiz yoxdur və...

Heydərov Fuadı axıra kimi dinləmədən onun nə demək istədiyini anladı:

- İbrahimov, şöbə rəhbərliyi tutacağınız iradları çoxdan nəzərə alıb. Ezamiyyətdə olduğunuz müddətdə sizləri Şuşa rayon bölməsinin əməliyyat müvəkkili Ağalar Babayev müşayiət edəcək. O, kəndlərin hər daşını tanıyır və sualınızı ona verəcəksiniz. Hər şey aydındırmı?

Sözünü bitirər-bitirməz Heydərovun gözü Məmmədəlini aldı:

- Fərəcov, halın heç xoşuma gəlmədi. Problemlərin yoxdur?

- Hə, bir balaca narahatam, Tofiq müəllim. Kiçik oğlum xəstələnib, dava-dərmanını tapmaq lazımdır.

- Sən qəti narahat olma. İlham Quliyevə tapşıracağam ki, lazımi dərmanları evinə çatdırsın. Sənin yoxluğunda ailənə baş çəkəcək. Bildiyimə görə ata-anan da sizinlə birgə qalır?

- Bəli, yoldaş Heydərov.

- Bunu həll etdik. Başqa kimin problemi var?

Elçin də sual verdi:

- Tofiq müəllim, Qaladərəsinə Laçından, yoxsa Ağdamdan keçəcəyik?

- Ağdamdan. Necə bəyəm, nəsə başqa təklifin var?

- Heç. Sadəcə Riyad Əhmədovun dəstəsi Laçın rayonundadır. Deyirdim, yolüstü onlara da baş çəkək...

- Qaraxanov, Riyadgil bir yerdə durmurlar ki! Qarabağın hansı nöqtəsinə getsən, onları görə biləcəksən.

- Əla, başqa sualım yoxdur.

Əməliyyatçılar bir ağızdan hər məsələnin aydın olduğunu bildirib Heydərovun kabinetini tərk etdilər.

Növbəti gün Qədirovun başçılıq etdiyi qrup əvvəl Ağdama, oradan da Şuşa şəhərinə istiqamət götürdü. Axşama yaxın əməliyyatçılar artıq Şuşanın ecazkar təbiətindən feyzyab olur, onun təmiz havasını ciyərlərinə çəkirdilər. Şəhərin girəcəyində DTK əməkdaşlarını Ağalar Babayev qarşılayıb onları bölməyə apardı. Rəis Mirzalıyev rayondakı əməliyyat şəraitini ətraflı izah etdi və ezamiyyətçiləri şəhər mehmanxanasına yerləşdirdi. Əşyaları yerbəyer edəndən sonra podpolkovnik Məmmədov qrup üzvlərinə müraciət etdi:

- Sizin kimi mən də bu cənnət məkanına ilk dəfədir ayaq basıram. Deyirəm, nə qədər qaranlıq düşməyib şəhəri gəzək, imkan olsa, təbiətin qoynuna çıxaq. Fikriniz nədir?

Qaraxanov həmən Qədirin təklifini qəbul etdi:

- Mən razı. Hey Şuşanın tarixi, incəsənəti, Azərbaycana bəxş etdiyi bəstəkarları, müğənniləri barədə eşidirdim,

lakin buralara gəlmək mənə qismət olmurdu. Təəssüf ki, bu gözəl diyarımıza belə ağır vəziyyətdə gəldik.

Fuad da sevincini boğa bilmədi:

- Şəhərə daxil olan kimi millətimizin Şuşa şəhəri barədə tərif sözlərini anladım. Mütləq buraları günü bu gün gəzməliyik. Bir daha belə imkan əlimizə düşməyəcək!

Vaxt məhdud olduğundan qrup üzvləri silahlarını da özləriylə götürüb mehmanxananı tərk etdilər. Nə bilmək olardı? Erməni yaraqlıları Şuşanın ətrafında yerləşə və "təzə qonaqlara" tələ qura bilərdilər. Təhlükəli olsa da, gəzinti baş tutdu. DTK əməkdaşları Şuşa qalasına, Pənah xanın sarayına, Həsən Ağanın, Natəvanın evinə baş çəkəndən sonra mehmanxanaya qayıtdılar. Artıq qaranlıq düşmüşdü. Əməliyyatçılar özlərilə gətirdikləri azuqələrdən yeyib yataqlarına girdilər.

Ertəsi gün Babayev Qaraxanovla birgə milis leytenantı Adili də götürüb Şuşa rayonunun Göytala kəndinə yollandılar. Kəndin yerləşdiyi mövqe çox əlverişli idi. Bir tərəfdən azərbaycanlıların yaşadığı Qaladərəsi, digər tərəfdən isə erməni yaraqlıları ilə dolu Yesxaok kəndi. Elçinlə Adil həmin kəndlə Göytala arasında yerləşən vaqon tipli daxmada yaşamağa məcbur idilər. Ağalar Babayev Qaraxanova yaxın kəndlərdəki əməliyyat şəraiti barədə məlumat verməyə başladı:

- Elçin, buralar həddindən artıq təhlükəli yerlərdir. Bizim sağ tərəfimizdə Qaladərəsi kəndi yerləşir, Salatının öldürüldüyü yer. Qarşımızda da Yesxaok kəndidir. Bütün xatalar da elə bu kənddən gəlir. Yerli və əcnəbi erməni terrorçuları ilə doludur. Hamısı başdan - ayağa silahlanıblar.

Əsas postları sol tərəfimizdəki yüksəklikdə yerləşir. Yaraqlılar kiçicik daşı, yaxud kəsəyi yaşadığınız vaqona tərəf yuvarlasalar, altında qalıb can verəcəksiniz.

Elçin Ağaların zarafatlcasına söylədiyi son cümləsinə gülərək cavab verdi:

- Durumu bizə necə də gözəl anlatdın, Babayev. Yeganə xilas yolumuz tabuta uzanmağımızdan keçir. Heç olmasa, yaşadığımız daxmaya elektrik xətti çəkiblər? Adili görə biləcəyəm?

- Sən lap mehmanxananın lüks nömrələrindən dəm vurdun, Qaraxanov. Buralarda işıq olsaydı, mən şəhərdə niyə yaşayırdım? Elə köçərdim Göytala kəndinə də.

- Ağalar, zarafatın yeri deyil. Gecə "saqqallılar" hücum edərsə, döyüş mövqeyimizi harda tutsaq sərf edər?

- Bax bu peşəkar əməliyyatçı sualı oldu. Keçək vaqonun arxa tərəfinə. Görürsən, Qaraxanov, bura necə dərin uçurumdur? Yaraqlılar gecə vaxtı hücuma keçsələr, uçurum tərəfə gəlməyə cəhd göstərməyəcəklər. Çünki onları yaralasaz, mütləq dərəyə yuvarlanacaqlar.

- Bu əla oldu!

- Sevinmək hələ tezdi, Elçin. Üstünüzə qumbara ata bilərlər. Ona görə də dərənin sol tərəfində, təxminən iki metr aşağıda yuva qazılıb. Ora girə bilsəniz, heç bir köpəkoğlunun ermənisi ora enməyə cəsarət etməyəcək. Terrorçular üçün yuvanın yolu böyük təhlükə törədəcək.

- Yenə cəhənnəm, sakitləşdirdin bizi. Ümidvaram ki, Adil heç olmasa, əlində ov tüfəngi tutub.

Haqqında deyilən sözləri eşitdikdə Adil də söhbətə qoşuldu:

- Elçin müəllim, Şuşikənd və Kosalar yolunda erməni yaraqlıları ilə  üzləşmişəm. Ağır döyüş gedib, hamısını təkbaşına zərərsizləşdirmişəm.

Babayev üzünü Qaraxanova tutub milis zabitinin dediklərini təsdiqlədi:

- Sən Adili yaxşı tanımırsan. Əjdahadır!

- Olsun, Ağalar, olsun. Kor nə istər? İki göz: biri əyri, biri düz. Nəysə, əməliyyat durumu barədə verdiyin məlumata görə minnətdaram. Problem və çətinliklər yaranarsa, ratsiya vasitəsilə əlaqə saxlayacağam.

- Hələlik, Qaraxanov. Allah özü köməyiniz olsun! Sabah günortaya yaxın sizə baş çəkəcəyəm.

- Çox sağ ol. Sənə yaxşı yol, qardaş!

Bir neçə saniyədən sonra Babayevin avtomobili iki dərənin arasında qeyb oldu. Elçin Adilə təklifini verdi:

- Deyirəm, Adil, alüminiumdan olsa da, çaydanımız var. Çürümüş otdan-budaqdan toplayıb od qalayaq, çay qoyaq. Nə deyirsən?

- Əla olar, Elçin müəllim. Mən ağaclıq tərəfə gedirəm, siz də çaydanı qaynatmaq üçün yer hazırlayın.

- Baş üstə, Adil. Amma çox uzağa getmə!

- Oldu, rəis!

Təxminən iyirmi dəqiqədən sonra əlində kol-kos olan Adil vaqonun yanına qayıtdı. Zabitlər topladıqları kəklikotundan  ətirli çay hazırladılar. Adil çaydan dadıb Elçinə fikrini söylədi:

- Əminəm ki, Bakıda bu cür çay içməmisiniz.

- Bəli, Adil. Dağlarda dəmlənmiş çayın dadını heç nə verməz. Çox sağ ol. Bu cür ətirli  çayı mən Naxçıvanın Ba-

tabatında içmişəm. Oraların kəkotunu yəqin ki, heç vaxt dadmamısan.

- Hər il dadıram, yoldaş Qaraxanov.

Adilin cavabından Elçin təəccübləndi:

- Necə? Naxçıvanla əlaqən var?

- Əlbəttə, Elçin müəllim. Doğmaca xalam sizin Şahbuz rayonunun Biçənək kəndində ərdədir. Altı aydan bir xalam oranın kişmişlə bəslənmiş quzusunun ətindən, meyvəsindən, cürbəcür müalicəvi otlarından göndərərdi. Lakin döyüşlər başlayandan bəri yollar kəsildi. Ona görə də çoxdandır xalamgildən xəbərim yoxdur.

- Gəlin Şuşadan, bəy Şahbuzdan. Bunlar bir-birini haradan tapıb, Adil?

- Çox sadə. Hər ikisi "APİ Lenin"də təhsil alıb. Həmin müddətdə aralarında məhəbbət macərası yaşanılıb və xalam sevgilisi Nürəddinlə bərabər Şahbuz rayonunun Biçənək kənd məktəbinə təyinat alıb. O vaxtdan orada müəllimlik edirlər. Hətta xalam direktor müavini vəzifəsinə keçirilib.

- Mənim üçün xoş xəbər oldu. Gərək rayonlarımız arasında daim kadrlar mübadiləsi olsun ki, "haralısan?" sualına son qoyulsun. Xalan üçün narahat olma, Adil. Naxçıvanlılar qonaqlarını göz -bəbəyi kimi qoruyur.

- Bilirəm, Elçin müəllim. Bir də ki, artıq xalam Nüşabə naxçıvanlı, əri Nürəddin isə şuşalıdır.

Elçin qəfildən qəhqəhə çəkdi:

- Son cümlən mənə yaman ləzzət verdi, Adil. Həm də döyüşdəyik, dostum. Bundan sonra mənə adımla müraciət et, müəllimsiz-filansız.

- Oldu, Elçin.

Göytala kəndində Qaraxanovun ezamiyyətinin ilk günü sakit və xətasız keçdi. Onun ürəyində yalnız bir arzu var idi: kaş respublikanın dinc günləri olaydı, o da məzuniyyət zamanı adam kimi bu yerlərdə dincələydi.

Vaqonun yanında qalanmış ocağın çırtıltıları səhər tezdən Qaraxanovu yuxudan oyatdı. Adil erkən durmuşdu. O, səhər yeməyini süfrə əvəzi sərdiyi əl-üz dəsmalının üzərinə düzmüşdü. Süfrə o qədər də zəngin deyildi: iki fincan, qənd və evdən gətirilmiş dörd ədəd paxlava. Elçin vaqonun sol tərəfində axan sərin bulaqda əl-üzünü yuyandan sonra süfrəyə əlavələr etdi: dörd ədəd qaynadılmış yumurta və şəkər tozu. Qaraxanov azuqələri süfrəyə düzdü və Adillə söhbətə başladı:

- Səncə hansı yemək ləzzətlidir? Evdəki, yoxsa dağ ətəyində bizimki?

- Ən dadlı yeməklər, Elçin, səmimi qəlblə açılan süfrənin üzərindəkilər olur. Fərqi yox, plov, ya üç dörd ədəd soyutma yumurta...

- Deməli, bizim burdakı yeməklər ən ləzzətlisi sayılır, eləmi, Adil?

Adil çayı fincanlara süzərək Elçinə "bəli" deyə, cavab verdi.

Səhər yeməyindən sonra ətrafı nəzarətə götürmək üçün zabitlər seyrə çıxdılar. Adil Yesxaokda yerləşmiş erməni yaraqlıları, onların qonşu azərbaycan kəndlərinə mütəmadi hücumları barədə geniş məlumat verdi. Milis leytenantı onu da qeyd etdi ki, son zamanlar Riyad Əhmədovun başçılıq etdiyi Azərbaycan DTK-sının xüsusi təyinatlılarının kəndin yaxınlığında tez-tez peyda olmaları "saqqal-

lıları" qorxuya salıb. Adil jurnalist Salatın Əsgərovanın və onu müşayiət edən rus hərbçilərinin qətlə yetirilməsi barədə də söhbət açdı. Salatının adını eşidəndə Elçin milis leytenantı ilə bəzi məqamları dəqiqləşdirməyə çalışdı:

- Yaxşı ki, jurnalistimizdən söhbət açdın, Adil. Bilirəm ki, ermənilər onu buralarda qətlə yetiriblər.

- Elədir ki, var, Elçin. Qarşımızda dağ olmasaydı, hadisə yerini, yəni Qaladərəsi kəndinə gedən yolu sənə göstərərdim.

- Bilirsən, Adil, bura ezam olunmağımın məqsədlərindən biri də Əsgərova və rus hərbçilərin qatilləri barədə məlumat toplamaqdır. Bəlkə, bu barədə sən nəsə bilirsən?

- Cüzi də olsa, məlumatım var, Elçin. Deyilənlərə görə, onu öldürənlər Yesxaokda məskunlaşan erməni terrorçularıdır.

- Adları, familiyaları, peşələri barədə məlumatın varmı?

- Salatının həyatına qəsd edənlərin adları təbii ki, heç kimə məlum deyil. Amma bir məsələ var...

- Nə məsələ, Adil?

- Jurnalistin qətlində Yesxaok kəndinin bir neçə sakininin də əli var.

- Adlarını deyə bilərsənmi?

- Adlarını bilmirəm, Elçin. Lakin camaatın dediyinə görə kənd müəllimləridir. Bildiyim yalnız budur.

- Təşəkkürlər Adil, bu məlumatların...

Qaraxanov sözünü bitirməmiş əlindəki ratsiyaya siqnal gəldi. O, Adildən üzr istəyib ratsiyaya cavab verdi:

- Eşidirəm!

Amma cavab gəlmədi. Elçin yenidən ratsiyaya qoşulub abonenti danışığa dəvət etdi:

- Eşidirəm sizi, xahiş edirəm cavab verəsiniz!

Bir neçə saniyədən sonra ratsiyada qırıq-salxaq Azərbaycan dilində səs gəldi:

- Na anqırırsan, turk? Man sani ham eşidir, ham da goruram...

Qaraxanov Adilə "ermənidir, çəkilək ağaclıq tərəfə" deyib vaqondan uzaqlaşdı. Ağacların arxasında gizlənərək Elçin Adilə pıçıltı ilə işarə verdi:

- Silahı döyüş rejiminə keçir.

- Çoxdan keçirmişəm, Elçin. Narahat olma. Mən döyüşə tam hazıram.

Ratsiyanın o biri ucunda qərar tutan şəxs özünü "yırtmağa" davam edirdi. Azərbaycan dilində mükəmməl danışa bilməsə də, söyüşlərə dərindən yiyələnmişdi. O, təxminən iki dəqiqə ərzində əsəbi şəkildə bağırdıqdan sonra səsini kəsdi. Elçin özünü itirmədən sakitcə ermənininin cavabını verdi:

- Əminəm ki, ürəyivi boşalda bildin.

Ratsiyadan bir daha söyüş məzmunlu ifadələr eşidildi. Qaraxanov yenə də təmkinlə erməniyə cavab verdi:

- Sən nə üçün belə əsəbisən, dostum? Nə qədər istəsən, ratsiyada sənin sakitləşməyini gözləyə bilərəm. Mən heç bir yerə tələsmirəm.

Qaraxanovun təmkinli davranışı sanki ermənininin sifətinə sərin su çilədi. Bir neçə saniyədən sonra o, söhbətə davam etdi:

- Ela bilirsiz, ağaşların arasına girib gozdan itdiz? Axır ki, çıxıb qene da vaqona qiragaxsız. Bütün haraketleriniz nazaratımız altındadır!

- Adıvı da bilmirəm, dostum, lakin nə təhdidindən qorxuruq, nə də ki, səndən qaçmaq fikrimiz var. Sadəcə elə çığır-bağır saldın ki, tədbir görməyə məcbur qaldıq. Adam kimi danış ki, səninlə ünsiyyət yarada bilək.

Elçinin sözlərindən sonra erməni bir qədər də sakitləşdi və normal ünsiyyətə keçdi:

- Goruram, sabrlı insana oxşuyursan. Ancaq bir şeyi başa duşmuram, ara...

- Nəyi, dığa?

- Adım dığa deyil. Deyak ki, Andronikdir...

- Biz bütün ermənilərə dığa deyirik. Androniksənsə, lap yaxşı! Eşidirəm səni.

- Deyiram ki, qurd urayi yemisiz? Takbaşına buralarda na işiniz var?

- Vətənimizin torpaqlarında gəzmək üçün səndən icazə istəməliyik, Andronik!?

- Amma kallaniz na qüllama tuş qalir! Prosta, hala qostariş yoxdur, a to ikinizi da qondarardim o dunyaya!

- Bəlkə, sənə pisliyimiz keçib, Andronik? Suyumuzu içirsiniz, çörəyimizi yeyirsiniz, üstəlik də bizi öldürmək istəyirsiniz? Xeyirdi?

- San adıvı de mana ...

- Deyək ki, adım Vaqifdir.

- Ha, Vaqif, buralar sizin yox, bizim torpaxlardı. Az qalıb, yaxınlarda hamınızı buralardan qovagayık. Yaxşisi budur, oz xoşunuza çixib qedasiniz.

- Mən də elə onu soruşuram da, Andronik, nə üçün?

- Kunki sizin dada-babalarınız bizimkilari kox oldurublar. Sizinkilar...

Elçin əsəbiləşərək Andronikin sözünü yarımçıq kəsdi:

- Ədə, nadan, dədə-babalarımız bu torpaqlarda yaşamağınız üçün sizlərə yer verib, yoxsa öldürüb? Nəyə görə yalan danışırsan?

Andronik cavab verməyə söz tapmadığından sükut yarandı. Bir neçə saniyə keçəndən sonra Elçin söhbətə davam etdi:

- Onu da bil ki, bizi asanlıqla öldürə bilməyəcəksən. Danış deyirsən – danışaq, döyüş deyirsən – döyüşək. Cavab ver!

Qısa aradan sonra Andronik cavab verdi:

- Biz buralara turklarin kokunu kasmağa qalmişik. Qoruram, ağıllı insana oxşuyursan. Siza ataş akmayagam, sakitca kıxın qedin!

- Qorxudursan bizi? Dedim axı, biz döyüşə hazırıq!

- Asablaşdırma mani, Vaqif. Sizi da o qızın dalınca qabira soxarıx. Bir şey ki, bizim Yesxaok kandinin prostoy muallimi sovetin ofiserini oldurur. Siz qabağımızda na eda bilarsiniz?

Son sözləri deyəndə, Andronikin yanında olan digər erməni öz dillərində qışqırmağa başladı və ratsiya ilə əlaqə birdəfəlik kəsildi. Bir neçə dəqiqə davam edən sükutu Adil pozdu:

- Elçin, Andronik deyəsən quşladı ha?

- Quşladı da sözdür, Adil, lap ağzından qarğa buraxdı!

- Elə, ona görə də efirdən itdi. Bəlkə də müəllimləri satdığına görə onu yerindəcə güllələdilər.

Qaraxanov bir qədər sevinərək Adilə cavab verdi:

- Bunlardan nə desən gözləmək olar. Amma güllə səsi gəlmədi. Deməli, Salatını öldürənlər haqqında dediklərivi Andronik bir kəlməsilə təsdiqlədi. Bircə qaldı qatillərin adını öyrənmək.

Efirdə yaranan fasilədən istifadə edib zabitlər ehtiyatla vaqon tərəfə keçdilər. Daxmalarına çatdıqda Elçin Adilə həddindən artıq ayıq-sayıq olmağın vacibliyini bildirdi:

- Adil, hadisə ilə əlaqədar qarşımızda iki problem yarandı. Birincisi, müəllim barədə buraxılan səhvi düzəltmək üçün ermənilər üzərimizə gələcək.

Adil Elçinin dedikləri ilə razılaşdı:

- Bəli, qardaş, dilimiz qısa olsun deyə, yaxşı halda bizi əsir götürməyə cəhd edəcəklər...

- Pis halda isə, Adil, güllələyəcəklər, yaxud da ki, Ağalar demişkən, gecə yatdığımız yerdə vaqonun üstünə böyük daş parçası itələyəcəklər.

- Ona görə də təklif edirəm ki, gecəni növbə ilə aşağıdakı yuvada başa vuraq.

- Tam razıyam, Adil...

Elçin fikrini tamamlamamış uzaqdan “UAZ” markalı avtomobilin onlara tərəf yaxınlaşdığını gördü. Qaraxanov üzünü leytenanta tutub yarızarafat-yarıciddi dedi:

- Deyəsən, erməni “saqqallıları”, yəni çaqqalları canavarların ətrafına toplaşmağa başladılar. Hazır ol, Adil!

Zabitlərə yaxınlaşan maşın işıqları ilə işarə verməyə başladı. Elçin yenə Adilə tərəf döndü:

- Tələsmə, qardaş! “UAZ” düşmənə oxşamadı.

Qaraxanovun söylədiklərini Adil gülüşlə qarşıladı:

- Elçin, deyəsən maşını insana bənzətdin, axı?

Avtomobil vaqona çatıb onun qaqrşısında dayandı. Silahını döyüş vəziyyətinə gətirən Adil avtomobilin içində Ağaları tanıdı və ucadan Qaraxanova səsləndi:

- Elçin, maşında oturan Babayevdir!

Ağalar gülümsəyərək qapını açıb ağır tərzdə maşından endi və Qaraxanovdan zarafatyana soruşdu:

- Nə oldu? Deyəsən, rəisini tanımadın axı?

- Tanıdım, Babayev. Niyə də tanımayım?! Evin tikilsin, az qala maşınıvı erməni daşnaklarınınkı bilib gülləbaran edəcəydim. Keçən dəfəki “Vilis”  avtomobilivə nə oldu ki, üstümüzə “UAZ”la gəlirsən? Sən bizi az çaşdır. Bir də gördün ki, əlimizdən xəta çıxdı.

- Yüz faiz məni Allah qurtardı! Bəs görmürdün uzaqdan sənə işarə verirəm!?

Elçin sifətini ciddiləşdirib Babayevə cavab verdi:

- Vəziyyət qoleydi, Ağalar. Mənə diqqətlə qulaq as.

Qaraxanov qısa şəkildə başlarına gələn əhvalatı Babayevə anlatdı və bu barədə məlumatı təcili qərargaha çatdırmağı labüd saydı. Babayev Elçinlə razılaşıb maşının baqaj hissəsini açdı və üzünü Adilə tutdu:

- Adil mən xəbəri mərkəzə çatdırıb geriyə qayıdınca azı bir saat çəkəcək. Ona görə də maşındakı qumbaraatanı və avtomat üçün lüləaltı minaatanı götür ki, mən qayıdanadək özünüzü müdafiə edə biləsiniz.

Söhbətə Elçin də qoşuldu:

- Ağalar, biz əlavə silahları da götürüb qayadakı yuvaya tərəf çəkiləcəyik. Sən də çalış ki, yubanmadan...

Qaraxanov sözünü bitirməmiş qulağına səs dəydi. O, diqqətini qarşıdakı dağın ətəyinə yönəltdi. Ağalar da dağ tərəfə çöndü. Vəziyyət gərginləşməyə başladı. Ağacların arxasında gizlənən erməni yaraqlıları yavaş-yavaş vaqona tərəf enirdilər. Təcili döyüş mövqeyini tutmaq lazım idi. Zabitlər vaqonun yanındakı xəndəyə tullanan kimi atəş səsləri gəlməyə başladı. Elçin Adillə Ağalara səsləndi:

- Siz yavaş-yavaş yuvaya tərəf çəkilin ki, atəşinizlə məni də qoruya biləsiniz. Dalınızca mən də gələcəyəm.

Ağalar avtomatını kənara qoyub qumbaraatanı götürdü və Qaraxanova səsləndi:

- Elçin, üç deyəndə gülləsaçanınla məni qoru ki, ayağa qalxıb qumbaranı ata bilim!

Elçin gülləsaçanla ermənilərin yerləşdiyi tərəfə od yağdırdı. "Saqqallılar" başlarını qaldırmağa imkan tapa bilmədilər. Bu məqamda Ağalar qumbaraatanı işə saldı. Mərmi düz düşmənlərin qarşısına düşdü. DTK əməkdaşları yerə uzandılar. Elçin torpağa batmış üzünü Babayevə çevirərək soruşdu:

- Sən bir saniyəyə iki qumbara atdın, Babayev?
- Elə şey olar, Elçin? Cəmi bir dəfə atəş açdım!
- Bəs erməni daşnaklarının böyründə partlayan ikinci mərmi haradan çıxdı?
- Nə ikinci? Mən görmədim, Elçin...

Atəş səsləri Babayevin səsini batırdı. Partlayışlar və güllə səsləri o qədər intensivləşdi ki, ağız deyəni qulaq eşitmirdi. Qaraxanov çətinliklə Ağalara yaxınlaşıb qışqırmağa başladı:

- Mən anlaya bilmirəm ki, bu qədər atəş və bomba səsləri gəldiyi halda, güzümüzə heç tüstü də dəymir?

- Mən də sənin kimi, Elçin. Bunlar bizi tədricən mühasirəyə alırlar! Arxamızdakı yüksəklikdən də güllə səsləri gəlir!

Elçin başını uzadaraq ətrafa nəzər salmaq istəyirdi ki, kimsə onun sağ ayağından tutdu. Qaraxanov özünü itirmədən avtomatın lüləsini həmin şəxsin alnına tuşladı. Onun qarşısındakı Adil  idi. Qaraxanov həyəcanlı səslə onu danlamağa başladı:

- Sən xəstəsən, nəsən? Demirsən, güllələri başıva dolduraram? Hər ikimizi Allah qurtardı: səni ölümdən, məni vicdan əzabından!

- Elçin, yuvaya tərəf sürünəndə barəsində danışdığın qırmızı "PAZ" avtobusunu gördüm! Deyəsən Riyadgilin maşını idi...

Adil fikrini sona çatdırmamışdı ki, Ağaların sualına tuş gəldi:

- Adil, niyə çığırırsan? Yəni, elə səs-küy var?

Adil yenə qışqıraraq Babayevə sual vermək istədi, amma sanki birdən qəflət yuxusundan ayıldı:

- Nə əcəb belə sakitlikdir, dostlar? Elə bil qurbağa gölünə daş atdılar.

Leytenantın sualına bir qədər uzaqdan cavab gəldi:

- Dostlar, ehtiyatlı olun ha, mənəm, Riyad. Yoxsa vurub dəstəmizi dağıdarsınız!

Qaraxanov doğma səsi eşitdikdə həmən başını xəndəkdən çıxardı. O, Riyadla İmranın onlara tərəf yaxınlaşdığını görəndə Babayevə səsləndi:

- Qalx, Ağalar, özümüzünkülərdir!

Babayevin gözlərinə ümid işıltısı gəldi. O, Qaraxanovun üzünə baxaraq şübhələrinə aydınlıq gətirdi:

- İndi bildin, Elçin, qumbaraatandan cəmi bir dəfə atəş açmışam? İkinci, üçüncü və sair atəşlər qardaşlarımızın işi imiş!

- Bildim, Babayev, bizə yaraqlıların meyitlərini daşımaq düşdü.

Riyad Əhmədov yanındakı dörd nəfər xüsusi təyinatlı ilə Elçingilin yanına çatdı. İmran zabitlərə ürək-dirək verdi:

- Şükür eləyin ki, yolumuz buralardan düşdü. Müşahidəmizə görə, üstünüzə on beşə yaxın erməni yaraqlısı hücum çəkmişdi.

Qaraxanov da öz fikrini bildirdi:

- İmran, biz mövqeyimizi əlverişli yerdə tutduq. Sona kimi döyüşüb yuvaya çəkiləcəkdik. Orayada ki, bizim icazəmiz olmadan heç kim gələ bilməzdi.

- Düzdür, Elçin, mövqeyinizə söz ola bilməzdi. Amma döyüş bir gündən çox çəkəcəkdi. Sonra nə edəcəkdiniz?

Adil əlavə etdi:

- Sonrası da... Allaha təvəkkül.

Çay süfrəsi arxasında söhbət axşamadək davam etdi. Riyad bir tərəfdən erməni silahlıları ilə vuruşduğunu, digər tərəfdənsə sovet ordusunun Şuşa şəhərindəki komendaturası ilə mübarizə apardığını dəfələrlə dilə gətirdi. Vəziyyət gərgin olaraq qalırdı. “Saqqallıların” rus zabitlərini də qətlə yetirmələrinə baxmayaraq, sovet ordusunun üç

yüz altmış altıncı alayının rəhbərləri erməni gizirlərinin əli ilə onları silahlandırmağa davam edirdilər.

Artıq hava qaralmışdı. Gecikmək olmazdı. Riyad yaraqlılarla döyüşü vurğulayaraq Elçinlə Adilin vaqonda qalmalarını məsləhət bilmədi və bir yerdə Şuşaya dönmələrini istədi:

- Burada qalmağın mənası yoxdur, elli. Bir də ki, qarşında qoyulan məsələni həll etmisən. Mirzalıyevə hər şeyi özüm başa salacağam. Qayıdırıq Şuşaya.

Əhmədovun təklifini Ağalar da dəstəklədi:

- Kak raz, sizi şəhərə qaytarmaq üçün dalınızca gəlmişdim. Günortaya yaxın bölməyə Sergey adında urus zabiti gəlmişdi, Elçin. Təcili səni axtarırdı.

- Nə danışırsan, Babayev? O mənə hava-su kimi lazımdır.

- Darıxma, Qaraxanov. Dedi ki, sabah tezdən Şuşa komendantı ilə söhbəti var. Bölməyə də baş çəkəcək.

Müzakirələri Əhmədov yekunlaşdırdı:

- Kifayətdir, dostlar, yolçu yolunda gərək. Tez yığışın, tərpənirik.

Saat yarımdan sonra zabitlər artıq Şuşa şəhərindəki mehmanxanada dincəlirdilər. Şuşaya ezam olunan əməliyyat qrupunun zabitləri başlarına gələn əhvalatlar barədə söhbət etdikdən sonra dincəlmək üçün öz otaqlarına keçdilər.

Ertəsi gün Elçinlə Məmmədəlini otağa saçan günəşin şüaları oyatdı. Qaraxanov pəncərəyə yaxınlaşıb gözəl Şuşa şəhərini seyr etməyə başladı. Məmmədəli istehza ilə Elçinə sual verdi:

- Yəni, bir şey görmək olur bizim mərtəbədən?

- Əlbəttə, Məmmədəli. Unutma ki, mehmanxanamız yüksəklikdə yerləşir.

- Nə görürsən, Elçin? Bəlkə mənə də söyləyəsən?

Qaraxanov üzünü Məmmədəliyə tərəf çevirib ona irad tutdu:

- Nə oldu, Fərəcov? Bakıda sən demirdin ki, Azərbaycanın səfalı və şəfalı guşələrindən dünyanın heç bir yerində yoxdur? Xüsusən də, Şuşa şəhərini və Göygölü tərifləyərdin. Bəs indi? Gəlmişik də Şuşaya. Suallar vermək əvəzinə dur gəl pəncərə tərəfə! Əgər cənnət görmək istəyirsənsə.

Məmmədəli yerində gərnəşərək Elçinə cavab verdi:

- Səndən heç nə soruşmaq olmur ki. Mütləq dərs verməyə başlayırsan...

Qaraxanov Məmmədəlini fikirlərini axıra kimi söyləməyə imkan vermədi:

- Az demoqoqluq elə. Dur gəl pəncərənin qabağına. Kim bilir, bəlkə bir daha bu diyara qayıtmadıq, dostum.

Nəhayət, Fərəcov yataqdan qalxıb özünü sanki təbiətin qoynuna atdı. O da meşə və təpələrə nəzər salıb xəyala daldı:

- Bilirsən, Elçin, şair yaxşı deyib: Sevirəm təbiətin meşələrini...

Fərəcov şeiri bitirməmiş otağın qapısı döyüldü və mehmanxananın administratoru Qaraxanovun telefona dəvət edildiyini bildirdi. Məmmədəli bir daha pəncərədən bayıra baxıb dodaqaltı mızıldadı:

- Qoymazlar ki, poetik düşüncələrimi bölüşüm.

Beş dəqiqədən sonra Qaraxanov otağına qayıdıb Məmmədəliyə "təcili bölməyə çağırırlar, hazırlaş gedirik" deyib dərhal bayıra çıxdı.

DTK-nın binasında əməliyyat növbətçisi Elçinə bildirdi ki, rəis Rəfalət Mirzalıyev onu kabinetində gözləyir. Qaraxanov rəisin otağına girdi və orada Qədirlə yanaşı Sergey Studenkovu da gördü. O, hamı ilə salamlaşıb masa arxasına oturdu. Rəfalət müəllim həmən mətləbə keçdi:

- Qaraxanov, Sergey Vitalyeviç yarım saatdan çoxdur ki, kabinetimdədir. Soruşuruq, nə cür yardım edə bilərik, deyir mütləq Qaraxanov gəlməlidir.

Elçin hamını nəzərdən keçirib söhbətə başladı:

- Sergey Moskvadan bəri mənim tələbə yoldaşımdır. Rus zabitini qətlə yetirən erməni yaraqlılarının axtarışı ilə məşğuldur. Bura gəlməyinin məqsədini mən də bilmirəm. İndi öyrənərik.

Qaraxanov sözünü bitirər-bitirməz Sergey də müzakirəyə qoşuldu:

- А это ничего, что я вас не понимаю? О чем говорите? Надеюсь, никто меня не ругает!?

Məmmədov Studenkovun zarafatına gülümsəyərək sualına cavab verdi:

- В наших краях гость превыше всего! Поэтому, даже в мыслях не смей о плохом думать.

Sergey Qədirin dediklərindən məmnun qalıb Qaraxanova müraciət etdi:

- Могу я при них выдать некоторую информацию? Или перейдем в другую комнату?

- Ни в коем случае, Сергей. Они – мои начальники и от них у меня секретов нет.

Studenkov ciddiləşərək erməni tərəfdən öyrəndiklərini söyləməyə başladı:

- У вас была журналистка по имени Салатын?

Studenkovun sualından Mirzalıyevin kabinetinə sükunət çökdü. Bir neçə saniyədən sonra Elçin həyəcanla Sergeyə məramlarını bildirdi:

- Мало того, что знаем, да еще приехали сюда, чтобы вычислить ее и русских офицеров убийц!

- Ну что, Эльчин? Нашли тех, кто их расстрелял?

- Пока наша информация неподтвержденная. Но намётки имеются.

- И какие у вас сведения по поводу этого убийства?

Qədir şübhə ilə Qaraxanova baxdı. Təbii ki, Elçin Sergeydən heç nə öyrənmədən ona məlumat vermək fikrində deyildi:

- Сергей, я же говорю, наша информация непроверенная. Если у тебя есть какие-то улики, можешь, с нами тоже делиться. Нет... так, выбор за тобой.

- Эльчин, а зачем, по-твоему, я здесь?

- Так, не тяни за душу, Сергей, выкладывай!

- Значит, друзья, у меня есть информация про убийц журналистки и русских военных. Конечно, не густо, но поделюсь и с вами. Запомните, что все указывает на село Ецхаок. Там сборище разных армянских головорезов, боевиков и бандитов. Нападение совершили 7-8 человек, может, даже

больше. В бандитской группе были и простые учителя средней школы.

- Про учителей у нас тоже есть информация.

- Так вот, Эльчин. Называю тебе две фамилии: Мкртчян и Петросян. Эти двое наверняка причастны к убийству вашей журналистки. Остальное за вами. Я очень спешу и вынужден покинуть ваше здание.

Mirzalıyev Sergeyin söylədiklərindən xeyli məmnun qalıb onu nahar yeməyinə dəvət etdi. Lakin Studenkov mühüm işlərinin olduğunu bəhanə gətirərək dedi:

- Спасибо вам, друзья, за приглашение на обед. Но сами понимаете – дела. Единственная просьба к вам, чтобы о моем посещении здания КГБ ни коим образом не узнал комендант города Шуши.

Qədir söhbətin bölmə binasından çıxmayacağı barədə Studenkovu əmin etdi və onu yola salmaq üçün Elçinlə birgə aşağıya düşdü. Sergey avtomobilə əyləşib Stepanakert şəhərinə istiqamət götürdü. Məmmədov Elçinə tərəf çönüb ona sual verdi:

- Nə dərəcədə bunun sözlərinə inanırsan, Qaraxanov?

- İnanıram, Qədir. Əsgərovanın qatilləri barədə verdiyi məlumatlara şübhəm yoxdur. Birincisi, Laçın yolunda öldürülən rus zabiti Konovalovun qisasını alır, ikincisi də, erməni qəsbkarları ilə aramızı vurur. Nə qədər aramızdakı konflikt uzansa, o qədər də Qafqazda Mərkəzin canı rahat olacaq!

- Paradoksa bax e, Elçin. İki millət arasındakı nifaq hesabına üçüncü millət əmin-amanlıq içində kef çəkir.

- Söylədiyin kəlmə lap atalar sözlərinə bənzədi, Məmmədov. Hesab elə ki, bu dəfə mənalı sözlərin atası, yəni sən naməlum qalmayacaqsan. Adıvı tarixə yazdım.

Qədir də zarafatdan geri qalmayanın birisi idi. O, çənəsini yuxarı qaldırıb "fotoşəklimi də tarixə həkk etsən, sənin barəndə kitab yazmaq mənim boynuma" deyib Elçinlə bərabər yuxarı - Rəfalət Mirzalıyevin kabinetinə qayıtdı. Otağa girəndə bölmə rəisi Məmmədova Rafiq Əliyeviçin göstərişini çatdırdı:

- Qədir, bu dəqiqə general Sadıxovla danışdım. Əmr elədi ki, başçılıq etdiyin qrup təcili Gəncə şəhərinə çıxsın!

Məmmədov bir qədər çaşqın vəziyyətdə Mirzalıyevə sual verdi:

- Bəs Salatınla hərbçiləri qətlə yetirən ermənilərlə nə edəcəyik?

- Rafiq Əliyeviçə hər şeyi məruzə etdim. Söylədi ki, Məmmədəli ilə əməliyyat müvəkkili Sahib Şuşada qalsınlar. Bölmənin əməliyyat imkanları və yardımı ilə qatilləri həbs edib Bakıya gətirsinlər. Şuşa prokurorluğu və milis şöbəsi ilə hər şey razılaşdırılacaqdır.

- Bax, indi bu iş oldu. Xahiş edirəm Rəfalət, bizim üçün nəqliyyat təşkil edəsən ki, Ağdam şəhərinə qayıdaq.

- Nəqliyyat nədir, Qədir?

- Necə yəni nəqliyyat nədir? Kiçicik bir avtobus lazımdır.

- Bunu səhər tezdən desəydin, bəlkə də Riyad Əhmədov öz avtobusları ilə səni Ağdama çatdırardı. Təəssüf ki, onlar artıq yoldadır.

- Bəs təklifin nədir, Mirzalıyev? Biz səkkiz nəfərik...

- Nə olacaq, Məmmədov? Hamı necə, siz də elə! Çıxırsınız Cıdır düzünə və vertolyotun səsi gələndə onu yerə endirib Ağdam şəhərinə uçursunuz.

Mirzalıyevin təklifinə Elçin mat qaldı. O, üzünü bölmə rəisinə tutub ürək sözlərini söylədi:

- Rəfalət, bilirəm ki, insanların kefini kökləməyi bacarırsan, amma zarafatın yeri deyil axı.

- Kim sənə dedi ki, mən zarafat edirəm, Elçin? Başqa çarəmiz yoxdur. Buralarda vertolyot ən təhlükəsiz nəqliyyat vasitəsidir. Sizə yalnız müvəffəqiyyət diləməyim qalır.

Qədir Mirzalıyevin təklifinin ciddi olduğunu anladı. Kabineti tərk etmədən əvvəl o, Rəfalətə son sualını verdi:

- General demədi ki, Gəncəyə nə üçün gedirik?

- Sadıxovun sözündən belə başa düşdüm ki, deyəsən Getaşeni, yəni Çaykəndi erməni yaraqlılarından təmizləməyə gedirsiniz. Nə bilim, vallah, bəlkə də məqsədi başqadır.

- Nəysə, Rəfalət, biz getdik. Sənə Salatın Əsgərovanın qatillərini yaxalamaqda uğurlar diləyirəm. Hələlik.

Bayıra çıxanda Qaraxanov qapının ağzında Məmmədəli və Sahiblə rastlaşdı. Qədir Fərəcova qeneralın göstərişlərini çatdırmaq istəyirdi ki, onun yanında duran Ağalar məsələ ilə bağlı dilləndi:

- Bilirik, Məmmədov. Yesxaokdakı qatilləri mütləq yaxalayacağıq. Heç narahat olmayın!

Qədirlə Elçin mehmanxanada əşyalarını toplayıb digər zabitlərlə Cıdır düzünə yollandılar. Əməliyyatçılar

cənnət məkanının gözəlliyini məftunluqla seyr edirdilər. Aprel ayına baxmayaraq, hər tərəf laləzara bürünmüşdü. Otların təravəti ətrafa başgicəllədici qoxu səpirdi.

Zabitləri Ağdama yola salmağa gələn Ağalar ətrafdakı dağlarda yerləşən bulaqlar barədə məlumat verirdi ki, uzaqdan vertolyot mühərrikinin səsi gəldi. Elçin Məmmədovun diqqətini vertolyota yönəltdi. Zabitlərin hamısı silahlarını göyə tərəf tutdu. Hava nəqliyyatının çıxış yolu qalmadı və o, yerə endi. DTK əməkdaşları Babayevlə xudahafizləşib vertolyota doluşdular. İsmayıl Qazıbəyov nəqliyyat vasitəsinə axırıncı daxil olub birtəhər qapını bağladı. Vertolyotda nəvəsi ilə bucaqda oturan qoca kişini və onun yanında iki baş qoyunu görüncə İsmayıl təəccübləndi. O, hava nəqliyyatında artıq yükün olması barədə pilotlara irad tutdu. Qazıbəyovu həyacanlı görən Qədir onu sakitləşdirməyə çalışdı:

- Narahat olma, İsmayıl. Mən pilotlarla danışdım. Dedilər ki, qoyunlara görə təhlükə yoxdur. İstəyirsən, bir də soruş.

Qazıbəyov inadından əl çəkmədi və bir daha vertolyotun pilotlarına sual verdi:

- Mən başa düşə bilmirəm, sizin vertolyotunuz örüşdür ki, qoyun sürüsü otarırsınız? Elə edin ki, uçuşumuz fəlakətlə nəticələnməsin!

Söhbətə Səlim də qoşuldu:

- Adınızı da bilmirəm, pilot qardaşlar, hansı tərəfə uçurdunuz ki, sizi yoldan elədik?

Bir neçə saniyəlik səssizlikdən sonra vertolyotu idarəedənlərdən biri nədənsə rus dilində Səlimin sualını cavablandırdı:

- Çaykəndə uçuruq.

- Bizə isə yoldaş pilot, Ağdam lazımdır.

Pilot yenə də rus dilində sakit tərzdə Səlimin cavabını verdi:

- Problem yoxdur. Sizi sağ-salamat Ağdam aerodromuna çatdıracağam. Sonra yolumuza davam edəcəyik.

"Əla!" və "təqdirəlayiq!" deyib Səlim öz yerinə keçdi. On beş dəqiqədən sonra DTK əməkdaşları Ağdam şəhərinin hava meydanına eniş etdilər. Əməliyyatçılar hava nəqliyyatını tərk etdəndən sonra vertolyot sanki əjdahanın ağzından qurtularaq sürətlə meydandan uzaqlaşdı. Elçin vertolyotun arxasınca baxdı və Qədirə sual verdi:

- Sən fikir verdin, Məmmədov, vertolyot nədənsə aerodromun ortasına deyil, kənarına endi. Özü də digər hava nəqliyyatları kimi havaya ehmalca qalxmadı. Elə bil onu kimsə qovurdu...

Qədir Qaraxanovun sözünü yarımçıq qoydu:

- Pilot deyirdi, hara uçuruq?

Məmmədovun sualına Səlim cavab verdi:

- Çaykəndə.

Qaraxanov Qədirə ikinci sualını verdi:

- Bəs biz əməliyyat üçün hara gedirik, Məmmədov?

- Gəncəyə, Elçin. Çox güman ki, oradan da Çaykəndə. Məndə olan məlumata görə, kəndi erməni yaraqlılarından təmizləmək üçün...

Bu dəfə Elçin Qədirin sözünü kəsdi:

- İndi mənə de görüm, Qədir müəllim, erməni terrorçuları ilə qaynayıb-daşan Çaykənddə vertolyotun, qoca ilə nəvənin, qoyunların nə iti azmışdı?

Qaraxanovun sualından bütün KQB əməkdaşları quruyub yerlərində qaldılar. Nəhayət, İsmayıl qəmli-qəmli suala cavab verdi:

- Dostlar, bizləri Allah ölümdən qurtardı!

Səlim Qazıbıyovun dediklərindən kədərlənərək:

- Belə çıxır ki, biz erməni vertolyotuna minmişdik. Öz aramızda qalsın, bizim kimi "ağıllı" çekist hələ dünyaya gəlməyib. Pilotlar sükanı Yerevana tərəf döndərsəydilər nə olacaqdı?

Suala bayaqdan söhbəti sakitcə izləyən baş leytenant Cavadov cavab verdi:

- Deyim də, nə olacaqdı! Ağdam yolundan sapdıqlarına görə ya pilotları zərərsisləşdirməliydik, ya da ki Yerevanın aeroportunda yaraqlıların əhatəsində vertolyotu partlatmalıydıq. Hər iki halda bizi ölüm gözləyirdi. Ona görə də, İsmayılın dediyi "tarixi" sözlərlə tam razıyam: bizi həqiqətən də, Allah qurtardı!

Axşama yaxın əsəb və gərginlikdən hələ də qurtulmayan əməliyyatçılar DTK-nın Gəncə Şəhər Şöbəsinə girdilər. Çaykənd ezamiyyətinin məqsədini ətraflı öyrənmək üçün Məmmədov rəisin kabinetinə üz tutdu. DTK əməkdaşları foyedəki divan və kreslolarda əyləşdilər. Onlar yol yorğunu idilər, istirahətə ehtiyac duyulurdu. Təx-

minən qırx dəqiqədən sonra Qədir əməliyyatçıların yanına qayıtdı. Əvvəl Məmmədov pis məlumatları bölüşdü:

- Ayağımızı Şuşa şəhərindən bayıra atan kimi faciə baş verib. Erməni faşistləri mehmanxananın yanındakı beşmərtəbəli binanı partladıblar. Ölən və yaralananlar var.

Mürgüdən yenicə ayılan Səlim Elçinə xitabən ürəyini boşaltdı:

- Görəsən o gün olacaq ki, bu daşnaklar heç olmasa, bir saat partlayışlara ara versin?

Qədir məlumat verməyə davam etdi:

- Eyni zamanda Rusiya ərazisində qatarımız partladılıb. İlkin məlumatlara görə hadisə qurbansız ötüşməyib. Ruslar deyir ki, terror əməlində ermənilərin barmağı var.

Elçin bəd xəbərlərdən əsəbiləşərək kinayə ilə Məmmədova sual verdi:

- Xoş xəbərlər barədə nə deyə bilərsən, Qədir? Əgər varsa!

Məmmədov üzünü əməliyyatçılara tutub Elçinin sualını cavablandırdı:

- Var! Sizlərə xoş xəbərlərim də var. Birincisi, Məmmədəli, Adil, Ağalar və digər güc strukturları əməkdaşlarının səyi nəticəsində Salatın və rus hərbçilərin qatilləri yaxalanıb.

Qazıbəyov dözməyib Qədirin sözünü kəsdi:

- Barələrində məlumat topladığımız Yesxaok kənd müəllimləri onların arasında varmı!?

- Bəli, İsmayıl, özü də iki nəfər. Qalanları Dağlıq Qarabağın müxtəlif kəndlərində yaşayan erməni yaraqlılarıdır.

On bir nəfər qatil Bakıya aparılır. Müstəntiqlərimiz sabah onları sorğu-suala çəkəcəklər.

Söhbətə gənc əməliyyatçı Anar da qoşuldu:

- Qədir müəllim, söhbətin əvvəlində bir neçə xoş xəbər barədə məlumat verdiniz. Digəri hansıdır?

- İkincisi, Anar, yarım saatdan sonra gedirik Hacıkəndə.

- Ora nə əcəb, yoldaş Məmmədov?

- KQB-nin bir çox əməkdaşı ordadır! Çaykənd və Qarabulaq kəndlərində pasport rejimini yoxlayaçağıq. SSRİ Daxili İşlər Nazirliyinin əməkdaşları da bu tədbirdə iştirak edəcəklər.

Səlim divandan qalxıb Qədirə müraciət etdi:

- Belə çıxır ki, əcnəbi erməni yaraqlıları, Ermənistandan gəlib ərazilərimizdə məskunlaşmış vəhşi "saqqallılar" barədə mərkəzə göndərdiyimiz məlumatlara nəhayət, əhəmiyyət verildi. "Malades" bizim rəhbərliyə. Birinci dəfədir ki, Moskvaya nəyisə anlada biliblər.

Səlimin sözlərinə əlavəni Elçin etdi:

- İnanmıram ki, mərkəzdəkilər qara güzümüzə vurulsun. Sadəcə son beş-altı ay ərzində erməni faşistləri onların da bir neçə əsgər və zabitini qətlə yetiriblər. Ona görə də, ruslar öz vətəndaşlarının qisasını alırlar.

Qədir hamını sakitləşdirdi və məlumat verməyə davam etdi:

- Əməliyyat tək burada deyil, Ermənistanın bizimlə sərhəd rayonlarında da həyata keçiriləcək. Deyilənlərə gö-

rə, xaricdən gələn və daxildəki yaraqlılar onların Dilican və Gorus bölgələrində at oynadırmışlar.

Səlim dərindən ah çəkib ürək sözlərini söylədi:

- Deyirəm axı, qarğa camışı onun dədəsi xeyrinə bitləməz. Bunların öz dərdi var imiş. Bir də ki, Mütəllibov mart referendumunda SSRİ-nin dağılmasına etiraz etdi. Uruslar onun bu hərəkətini mükafatlandırırlar...

Məmmədov Səlimin sözünü yarımçıq qoydu:

- Bu dəqiqə biz o hayda deyilik ki, rəhbərliyin mövqeyini tənqid atəşinə tutaq, yaxud tərifləyək. Qarşımızda mühüm vəzifələr qoyulub. Bizdən tələb olunan odur ki, Çaykənd və Qarabulaqdan erməni banditlərini rədd edək.

İsmayıl da kreslodan qalxıb Qədirə sual verdi:

- SSRİ DİN əməkdaşlarından başqa biz tərəfdən daha kimlər əməliyyatda iştirak edəcək?

- "Omonçularımız" da bizimlə bir yerdə olacaq. Xüsusən də, Gəncə "omonu".

- Hə, Qədir. Bax, bu yaxşı hal oldu. Yoxsa ki, sovet daxili qoşunları!

- Gəncədə yerləşən sovet diviziyasının əsgərləri də bizlərə dəstək olacaq, İsmayıl.

Səlim də istehza ilə fikrini söylədi:

- Hə da, gözəl! Tədbir zamanı bilməyəcəyik özümüzü erməni yaraqlılarından, yoxsa sovet hərbçilərindən qoruyaq.

Qədir Səlimin son cümləsindən əsəbiləşdi və hamını avtobusa dəvət etdi:

-Nəysə, müzakirələr bitdi, yola düşürük. Hamınıza uğurlar arzulayıram.

Məmmədovun üzünün ifadəsindən bəlli idi ki, o da Səlimin dediklərini dəstəkləyir. Lakin əməliyyat öncəsi izafi düşüncələrdən uzaq olmaq gərəkdir. Buna səbəb də o, Səlimin fikirlərinə rəvac verə bilməzdi.

Bir saatdan sonra əməliyyatçılar Hacıkəndə çatdılar və oradakı sanatoriyanın binasına yerləşdilər. Həyətdə bir neçə "İkarus" markalı avtobus dayanmışdı. Görünürdü ki, qarşıda zabitləri böyük tədbir gözləyir. Yalnız aylar keçdikdən sonra DTK əməkdaşlarına əməliyyatın adının "Halqa" olması açıqlanacaqdı. Hələlik isə Məmmədovun rəhbərliyi altında Hacıkənddə yerləşən əməliyyat qrupu sanatoriyanın həyətində digər çekistlərlə söhbətləşirdi. Onların arasında Fuad, Elcan və Əhməd də var idi. Elçin Elcanla görüşəndən sonra ona həbs edilən erməni yaraqlıları barədə məlumat verdi:

-Məmmədəligil Salatın Əsgərovanın qatillərini yaxalayıb paytaxta apardılar. Xəbərin varmı?

-Gör, neçə saatdır Bakıdan çıxmışam. Məlumatdan xəbərim yoxdur. Birdə ki, inanmıram hələ ora çatsınlar. Alçaqlar terrorist qrupları yaradıb ərazimizdə partlayışlar, basqınlar, oğurluqlar törədirlər.

- Amma Çaykənddən başım çıxmadı, Aslanov. Bir il olar ki, Azərbaycanın kəndlərində yerləşdirilən əcnəbi yaraqlılar barədə rəhbərliyə ətraflı məlumatlar verirdik. Xeyir ola, bu gün qeyrətə gəldilər!?

- Məgər bunların xasiyyətini hələ öyrənmədin, Qaraxanov? Mərkəz nə desə, odur. Gürcüstanın birinci katibi Patiaşvili yadındadır? Sovet ordusu Tbilisiyə girən kimi istefa verdi. Heç olmasa bizimkilər də etirazlarını bu cür bildirərdilər!

- Qorxaqdılar, Elcan, həm də pulgir. Bunun üçün ürək lazımdır. Mərkəz torpaqlarımızda "pasport" əməliyyatını millətimizə hörmət əlaməti olaraq keçirmir...

Dostların müzakirəsinə diqqətlə qulaq asan Əhməd söhbətə müdaxilə etdi:

- Əlbəttə, mərkəz bizim xeyrimizi güdmür, Elçin. Suriya, Livan və dünyanın bir çox ölkəsindən qeyri-qanuni yollarla SSRİ ərazisinə keçən erməni terrorçuları bütün respublikalara təhlükə yaradır. Buna görə sovet ordusu, daxili qoşunlar Ermənistanın və Azərbaycanın ərazilərində yaraqlıların kökünü kəsmək qərarına gəlib.

Elcan Əhmədin dediklərinə təsdiq olaraq ürək sözlərini bildirdi:

- İstərdim ki, Allahımıza şükür edək və urus demişkən "через левое плечо" tüpürək. İstənilən halda bizim rəhbərlik nəhayət, düzgün qərar qəbul etmişdi.

Elçin gülərək Aslanova sual verdi:

- Deyirsən, yəni Mərkəzi Komitənin haqq işini nəzərləyə bilərik?

- Bəli, Elçin. "Чем чёрт не шутит"?

- Son cümlən, Elcan, bizim dildə nə cür səslənir?

- "Nə ilə desən, şeytan zarafat edə bilər". Təxminən bu cür.

Saşa Rojnı da əməliyyatçıların bir yerə toplandığını görcək onlara yaxınlaşdı:

- Salam, dostlar! Əllə-qolla yaman danışırsınız. Uzaqdan baxan elə başa düşər ki, Yerevanı almağa gedirik...

Rojnı sözünü bitirməmiş DTK əməkdaşlarına başçılıq edən Tofiq Heydərov hamını sanatoriyanın mərkəzi meydançasına topladı və onlara rəhbərliyin göstərişlərini çatdırdı:

- Deməli, belə! On beş dəqiqədən sonra Çaykənd və Qarabulaqda pasport rejimi yoxlanılacaq. Kəndlərə ilk növbədə ordu bölmələri, dalınca bizim OMONçular daxil olacaq. "Çekistlərin" vəzifəsi - kəndlərin çıxışlarını bağlamaq, oranı tərk edəcək "saqqallıları", yaraqlıları, əcnəbi vətəndaşları, bir sözlə, əllərində qeyri-qanuni silah daşıyan erməniləri zərərsizləşdirməkdir! Bunun üçün qruplar təşkil edilib. Hamı əmrimi gözləsin.

Polkovnik Heydərovun çıxışından sonra Saşa Rojnı dostların yanından ayrıldı. Hamıya aydın oldu ki, qrupların birinə o, başçılıq edəcək.

Nəhayət, əməliyyata start verildi. DTK əməkdaşları vəzifələrinin icrası üçün yola çıxırdılar ki, "omonçular" sırasında Əhmədin gözü əlində bıçaq, qısaqol mülki köynək və hərbi şalvarda bir döyüşçünü aldı. Əsədov işarə ilə Elçinin də diqqətini həmin şəxsə yönəltdi və ona iradını bildirmək istədi. Qaraxanov Əhmədin sualını gözləmədən döyüşçüyə özü müraciət etdi:

- Qardaş, bəs sən hara gedirsən?

Bıçaqla silahlanmış şəxs gülümsəyərək Elçinə tərəf baxdı:

- Adım "qardaş" deyil, Toğruldur. Əlbəttə ki, döyüşə gedirəm! Necə bəyəm, görünüşüm xoşuna gəlmədi?

- Hörmət və səmimiyyətlə sənə "qardaş" deyə müraciət etdim. Bir də ki, söhbət zahiri görünüşündən getmir, Toğrul. Mәncə əlindəki bıçaq çox zəif silahdır və inanmıram işə yarasın. Sadəcə canın üçün narahat oldum. Sən hansı "omonçulardansan?"

Döyüşçü hələ də gülümsəyirdi:

- Gəncə "omonundanam". Erməni banditlərinin canı sağ olsun. O qədər silahları var ki. İki ədəd avtomatlarını əlimə keçirsəm, problem öz həllini tapacaq.

"Bu cür mərd, igid insanlara həqiqətən heç nə olmaz" düşünüb Qaraxanov Toğrula uğurlar dilədi və yoluna davam etdi.

Çaykənd və Qarabulaqda pasport əməliyyatı bir neçə gün davam etdi. Başdan-ayağa silahlanmış erməni yaraqlıları vəziyyəti anlayıb kəndlərin hər tinindən hərbçiləri atəşə tutur, əsgərləri pusquya salıb girov götürürdülər. Bu hal sovet zabitləri və "omonçuların" səbrini tükətdi. Onlar da aktiv fəaliyyətə keçdilər. Komandirləri Tatul Krpeyan başda olmaqla silahlı müqavimət göstərən bir neçə erməni terrorçusu məhv edildi, bəziləri aman diləyib Ermənistana qayıtdı, icazəsiz aradan çıxmaq istəyənlər də blokpostlarda ələ keçirildi. Əməliyyat nəticəsində erməni yaraqlılarından külli miqdarda silah yığılıb sovet ordusu nümayəndələrinə təhvil verildi.

Tədbir bitəndən sonra DTK əməkdaşları bazaya qayıtdılar. Onlar yorğun olsalar da, kefləri kök idi. Son üç ildə ilk dəfə idi ki, Azərbaycan ərazisində dərəbəylik edən erməni terrorçuları ilə mübarizədə mərkəzin qüvvələri də iştirak edirdi. "Çekistlər" əməliyyat zamanı itki vermədi. "Omonçular" da tədricən Hacıkənddə yerləşən qərargaha qayıdırdı.

Saşa Tofiq Heydərova əməliyyatın nəticələrini məruzə edirdi. Elə bu zaman Qaraxanovun gözü qısaqol köynəkli Gəncə "omonçu"suna sataşdı. Onun əlində bıçaq deyil, çiynindən iki təzə avtomat asılmışdı. Toğrul əvvəl söhbət etdiyi DTK əməkdaşlarına yaxınlaşıb onlarla yenidən ünsiyyət qurmağa çalışdı:

- Necəsiz, dostlar? Adınızı da bilmirəm, amma...

Əhməd əlini Toğrulun çiyninə qoyub onun sözünü kəsdi:

- Məndən sağdakı Elçin, soldakı da Elcandır. Polkovnik isə rəisimizdir – Tofiq müəllim.

"Omonçu" Əsədova təşəkkür edib sözünə davam etdi:

- Sadəcə onu demək istədim ki, mərdlik, şərəf qısaqol köynək, yaxud bıçaqla ölçülmür. Bu xüsusiyyətlər insanın ürəyində, qanında olmalıdır.

Əməliyyatçılar onlardan uzaqlaşan Toğrulun ardınca çox baxdılar. Nəhayət, Elcan dilə gəldi:

- Nə deyim, vallah, biz buyuq! Ananın südü sənə haladır, Toğrul. Azərbaycan bu cür mərd insanlardan ibarətdir. Neyləsin ki, onun başının üstünü sərçə ürəkli rəhbərlər alıb!?

Gəncə "omonçusu" gözdən itdi. Elçin dostlarına müraciət etdi:

- Gərək Toğrulun ünvanını öyrənərdik, bu tərəflərə dönəndə bir daha onunla görüşərdik.

Əhməd igid "omonçu" tərəfə baxdı. Lakin Toğrulun izi çoxdan itmişdi. Əsədov üzünü Qaraxanova tutub "inanmıram ki, bir daha onunla yolumuz kəsişsin, heyif" deyə təəssüfləndi.

Tofiq müəllim pasport əməliyyatından məmnun idi. Heydərov əməliyyatçıların qarşısında çıxış edib tədbirin sona çatdığını bildirdi. O, əməliyyatçılara Bakıya yola düşmək üçün hazırlıq əmrini verdi. Yarım saatdan sonra "çekistlərlə" dolu avtobuslar Hacıkəndi tərk etdilər.

***

Min doqquz yüz doxsan birinci ilin may ayı idi. Bu dəfə Yerevanda əsəblər tarıma çəkilmişdi. KQB sədri Aramayıs Dilanyanın iradlarından pərişan olan Stepanyan qanı qara vəziyyətdə kabinetində var-gəl edirdi, əsəbdən ürək sözlərini yüksək səslə otağına püskürürdü: "Bu da bizim hörmət qoyduğumuz böyük qardaşlar. Azərbaycan bir kənara, hələ bir Ermənistan Respublikasının rayonlarında da əməliyyatlar keçirdilər. Neçə-neçə mərd övladlımızı öldürdülər, hələ həbs edilənləri demirəm. Nə olar, vaxt gələr, hər şeyin əvəzini çıxarıq. Şovinistlər!"

Stepanyan rusları təhqir və söyüş yağmuruna tutmaq istəyirdi ki, kabinetinin qapısının arxasından səs gəldi:

- İcazə olar, yoldaş general?

Serjik incik səslə şöbə rəhbərlərini otağına çağırdı:

- Gəlin görüm, mənim səriştəsiz rəislərim.

Yesayan, Simonyan, Tarverdiyev və digər şöbə rəisləri Stepanyanla salamlaşıb masa arxasına keçdilər. General ağıryana kreslosuna əyləşib başıyla zabitlərə oturmağı işarə etdi. Stepanyan həmən çıxışına başladı:

- Jurnalist qadını və onun yanındakı əbləh sovet hərbçilərini aradan götürdüyünüzdən sonra xoş günlərim o qədər də uzun çəkmədi. Dalınca bir ucdan uğursuzluqlara düçar oluruq. Siz nə ilə məşğulsunuz? Burnunuzun qoxu alma qabiliyyətini itirdiniz? Son vaxtlar nə iş tapşırıram, yarıtmırsınız! Məsələn, sən, İqor!? De görüm, Şuşanın Qaladərəsi kəndində nə baş verdi? Adamlarımız az qala bir-birlərini vurub öldürəcəklərmiş!

Yesayan həmin məsələnin araşdırılması ilə dərindən məşğul olmuşdu. Həmin ərazilərdə törədiləcək terror, diversiya və kəşfiyyat əməliyyatları məhz İqora həvalə edilirdi. Ona görə də nüfuzuna xələl gəlməsin deyə, Yesayan əcnəbi ermənisi ilə onun agenti arasında baş vermiş insident barədə ətraflı məlumat toplamışdı. İqor məzlum-məzlum Stepanyanın üzünə baxaraq onun sualını cavablandırmağa başladı:

- Yoldaş general, bildiyiniz kimi Salatın Əsgərovaya və onun yanında olan rus hərbçilərinə qarşı əməliyyatın keçirilməsi Yesxaok kənd sakinləri - uşaqlıq dostlarım Mkrtçyan və Petrosyana həvalə edilmişdi. Həmin tədbirdə Qaladərəsi kəndində məskunlaşmış erməni mənşəli Suriya vətəndaşları da iştirak edirdi. Onların fəaliyyəti agen-

tim "Jorikin" tam nəzarətində olub. Lakin davaya səbəb suriyalı erməni oldu.

Stepanyan üzünü turşudub Yesayandan qarşıdurmanın səbəbləri ilə maraqlandı:

- Belə bir gərgin vəziyyətdə sən mənə adamlarımız arasında olan nifaqdan danışırsan? Əgər bunlar bu gün bir-birini qırmaq fikrindədirsə, sabah nə olacaq? Biz başdanxarablara hansı mühüm işi həvalə edə bilərik? Davam et, İqor.

- Deməli, yoldaş Stepanyan, suriyalı soydaşımız Salatının qətlini araşdıran Azərbaycan KQB-sinin əməkdaşıyla icazəsiz ratsiya əlaqəsi yaradıb.

- Başa düşmədim, polkovnik!? Onlara məlumat ötürürmüş?

- Xeyr, yoldaş general. Sadəcə boşboğazlıq edib azərbaycanlı zabitlərini təhqirə məruz qoyurdu.

- Sonra nə baş verdi, Yesayan?

- Başı o qədər söyüşlərə qarışmışdı ki, təsadüfən qətlin Yesxaokdan olan müəllimlərin törəddiyini açıqladı. Lakin onu da deyim ki, heç bir ad çəkməyib...

General əsəbiləşərək Yesayanın sözünü yarımçıq kəsdi:

- Sadəcə jurnalist və hərbiçiləri öldürənlərin adlarını bilməyib. Yoxsa, səfehliyindən hamısını bada verəcəkdi. Təcili o heyvanı Yerevana çağırıb dərsini vermək lazımdır! Məni anladın, İqor?

- Artıq onu həbs edib təcridxanamıza qoymuşam. Məsələni də dərindən araşdırıram.

- Araşdırın! Hər şeyi öyrənəndən sonra o əbləhi doğma Suriyasına rədd edin. Bizə qəflət və təsadüflər lazım deyil.

- Oldu, yoldaş general.

- İşimizin bu vaxtında həbs edilən Mkrtçyanı, Petrosyanı və digər qəhrəmanlarımızı azərbaycanlıların əlindən necə qurtaracağam... bir onu bilmirəm!

Yesayanın məruzəsini dinlədikdən sonra general Stepanyan növbəti sualını Aşot Tarverdiyevə ünvanladı:

- Son zamanlar, polkovnik, tabeçiliyində olan əməkdaşlar yaman passivləşiblər. Mərkəzin pasport əməliyyatına dair məlumat mənə cəmi bir gün qabaq çatdırıldı.

- Yoldaş general, Moskvadakı adamlarımız xəbərdən çox gec agah oldular. Görünür, məlumat məxfi saxlanırmış...

Əsəbdən Stepanyan Aşotun da məruzəsini yarımçıq kəsdi:

- Tarverdiyev! Sənin səriştəsizliyin nəticəsində istər Ermənistan, istərsə də Azərbaycan ərazisində neçə-neçə vətənpərvər, igid insanlarımız həbs edildi, əziyyətlə əldə etdiyimiz silahlar müsadirə olundu, illərlə təşkil etdiyimiz mövqelərimiz sarsıldı. Nə var nə yox ki, sənin Mərkəzdəki adamların maliyyə vəsaitimizi özləri və ailə üzvlərinin kef çəkməsinə xərcləyirlər!

- Yoldaş general, bu məsələdə mənimlə bərabər polkovnik Simonyanın da günahı var. Onun Moskvada yerləşdirdiyi adamların imkanları daha genişdir.

Tarverdiyevin dediklərindən narazı qalan Simonyan söhbətə müdaxilə etdi:

- Görürsüz də, yoldaş general!? Aşot öz gözündə tiri görmür, mənim gözümdə çöp axtarır. Hələ bir, satqınlıq da edir.

Vəziyyətin getdikcə gərginləşdiyini hiss edən general polkovniklərə irad tutdu:

- Gözəl! Sizinlə o suriyalı ermənilər arasında heç bir fərq yoxdur. Bir az da cilovunuzu boş buraxsam, vurub bir-birinizi öldürəcəksiniz. Özü də generalın hüzurunda. Ayıb olsun!

Stepanyanın tənbeh və iradlarından sonra Tarverdiyevlə Simonyan bir qədər sakitləşdilər. Sonra general Simonyana müraciət etdi:

- Azərbaycanda siyasi durum nə yerdədir? Bizim ziyanımıza dəyişən hallar varmı?

- Xeyr, yoldaş Stepanyan. Bakıda əvvəlki kimi hər şey öz axarında gedir və durum nəzarətimiz altındadır. Azərbaycan Respublikası rəhbərliyi öz şəxsi mənafelərini güdməkdə, pul vurub qazan doldurmaqda, vəzifələrə özləri kimi rusbaş kadrları doldurmaqdadırlar.

- Yenə cəhənnəm, Karo, bəzi məlumatların ürəkaçan və ümidvericidi. Türklər haqqında başqa nə xəbər gətirmisən?

- Hələlik bunlardı, yoldaş general. Bəzi kiçicik hadisələr və məsələlər var ki o da Naxçıvanla əlaqəlidir.

Simonyanın son cümləsi generalda maraq doğurdu və o, bir daha polkovnik Simonyana səsləndi:

- Anlat görək, o kiçicik məsələləri.

Karo generalın təkidindən təəccüblənib sözlərinə davam etdi:

- Bildiyiniz kimi, Heydər Əliyev Naxçıvan şəhərində məskunlaşıb, adi deputatdır. Ehtimal var ki, muxtar Respublika Ali məclisinin növbəti sessiyasında sədr seçiləcək. Vəssalam.

Stepanyan dərin düşüncələrə daldı. Nəhayət o, "bu gün mənimki heç gətirmir, sanki şöbə rəislərimi cadu ediblər" düşünərək üzünü Simonyana tutdu:

- Əgər sən mənə desəydin ki, dünyada yaşayan bütün erməni milyarderləri maliyyə vəsaitlərini Respublikamıza bağışlayıblar, mən bunu kiçik hadisə adlandırardım. Əgər, Karo, sən mənə bəyan etsəydin ki, bütün inkişaf etmiş Avropa ölkələri Azərbaycanı dəf etmək üçün qoşunlarını bizə hədiyyə ediblər, bunu da kiçicik məsələ sanardım. İndi sən Heydər Əliyevin Ali məclisin sədri seçiləcəyini kiçik hadisə hesab edirsən!?

- Yoldaş general, nəsə səhvə yol verdim?

- Ay polkovnik, Ermənistan rəhbərliyi Heydər Əliyevin siyasətdən çəkildiyini düşünərək bütün planlarını bu amil üzərindən qururdu. O isə siyasətə qayıdır. Bu kiçicik hadisə deyil! Bu bizim faciəmiz və fəlakətimizin başlanğıcı deməkdir. Bundan sonra əldə etdiyimiz və edəcəyimiz nailiyyətlər puça çıxacaq. Bunu biz duymazlıqdan gəlsək, övlad və nəvələrimiz görəcək!

- Yoldaş Stepanyan, bu gün-sabah Əliyevin yetmiş yaşı tamam olacaq. Təzədən o, bizə nə xətər yetirə bilər ki?

- Deyim də, Karo. Onun bu gündən atdığı bünövrənin üzərində bizim tabutlarımız yerləşdiriləcək. Vaxt gələcək, sənin kiçicik hesab etdiyin hadisə böyüyüb övladlarının boğazında kəndirə çevriləcək.

Simonyana xitabən Yesayan da sözünü dedi:

- Unutma ki, Karo, 20 yanvar hadisələrində Sov.İKP mərkəzi komitəni və sovet ordusunu kəskin tənqid atəşinə məhz Heydər Əliyev tutdu. Azərbaycanın üçrəngli bayrağı onun təşəbbüsü ilə yüksəldi. Respublikanın SSRİ tərkibində qalmasının əleyhinə Heydər Əliyev çıxdı. Bundan əlavə türkləri elə Heydər Əliyev birləşdirəcək. Artıq Araz çayının üzərindən "Ümid" adlı Naxçıvan-İğdır körpüsü salınır  və daha nələr.

General Simonyanın fəaliyyətinə irad tutmağa davam etdi:

- Deyirsən ki, Azərbaycan rəhbərliyi səriştəsiz və naşıdır, eləmi?

- Xeyr, yoldaş Stepanyan! Mən dedim ki, onlar vəzifələrə özləri kimi rusmeylli kadrlar gətirir. Məncə, bu bizim xeyrimizədir. Ermənistana sərf edən qərarları Mərkəzin əli ilə rusbaşlara qəbul etdirə bilərik.

- Lakin  məndə olan məlumatlara görə, Azərbaycan Respublikasını idarə edənlər sırasında vətənpərvər insanlar da var. Elə götürək Tofiq İsmayılovu. SSRİ Ali Sovetinin tribunasından onu endirmək olmur. Əleyhimizə ağzına gələni danışır.

- Bəli, yoldaş general. Onun çıxışına qulaq asmışam.

- Daxili işlər naziri Əsədov, Respublika prokuroru İsmətov! Bəs bunlara nə deyirsən? Öz millәti üçün canlarından da keçərlər. Bizə belə insanlar qəti lazım deyil. Mənə Azərbaycandakı siyasi vəziyyət barədə məlumat verəndə onun dürüstlüyünü dərindən təhlil edin. Aydındır hamıya?

İclas iştirakçıları Stepanyanın dediklərini bir ağızdan təsdiqlədilər. Tarverdiyev rəhbərlik etdiyi əks-kəşfiyyat şöbəsinin gələcək fəaliyyətini səmərəli təşkil etmək üçün generala sual verdi:

- Yoldaş Stepanyan, dünən Respublika rəhbərliyimizin keçirdiyi geniş iclasda siz də iştirak etmisiniz. Yəqin ki, bizə də deyiləcək sözləriniz, çatdıracaq əmrləriniz var?

- Əlbəttə, Aşot. Bu məqsədlə sizi kabinetimə dəvət etmişəm. Sədrimiz Dilanyanın da sizlər üçün bəzi göstərişləri var.

- Dinləyirik sizi, yoldaş Stepanyan.

General bir qədər də sifətini ciddiləşdirib çıxışına davam etdi:

- Əks-kəşfiyyat üçün elə bir konkret təkliflərim yoxdur. Həmişəki kimi öz işinizlə məşğul olun. Azərbaycan xüsusi xidmət orqanlarının bizə qarşı yönəldə biləcəyi təxribatların qarşısını almağa davam edin. Əsas sözüm, məsləhətlərim beşinci və kəşfiyyat şöbələrinə aiddir.

Son kəlmələri söyləyəndə general Stepanyan nədənsə dərin fikrə getdi. Sifətindən bəlli idi ki, artıq o da tərtibatçısı olduğu təxribat, terror əməlləri və mülki insanların qətlindən cana doyub. Lakin Ermənistan Respublikasının

rəhbərliyi artıq ölümün iyini, qanın dadını almışdı. Necə deyərlər, öldürmək mexanizmini tam şəkildə hərəkətə gətirmişdi və onun altından çıxmaq üçün özünü fəda etməli idi.

Can çox şirin şeydir. Ölməkdənsə öldürmək üstündür. General Stepanyan gözəl anlayırdı ki, terror aktları nəticəsində qətlə yetirilən azərbaycanlıların ahı onu bu dünyada tutmasa da, mütləq cəhənnəmdə yaxalayacaq. Generalı dərin düşüncələrdən reallığa qaytarmaq üçün Simonyan sualını ikinci dəfə təkrarladı:

- Yoldaş Stepanyan, bizim vəzifələrimizi səsləndirmədiniz axı!

General diksinərək sanki dərin yuxudan dik atıldı. Stepanyanın bu hərəkətindən Karo söylədiyinə peşman oldu və üzünü Yesayana tutub pıçıltıyla soruşdu:

- Bəlkə generala nə olduğunu sən bilirsən? Hələ onu bu qədər kədər və qəhr içində görməmişdim.

- Bilmirəm, Karo, mən də sənin kimi. Axırını gözləyək.

Nəhayət, Serjik Stepanyan özünə gəldi və heç nə olmamış kimi nitqinə davam etdi:

- Rəhbərliyimizin göstərişlərini sizlərə çatdırıram. Həmişəki kimi müxtəlif bəhanə və təxribatlarla Dağlıq Qarabağ ərazisində yaşayan azərbaycanlıları qovmağa davam edin. Özü də gözlərinin yaşına baxmayın, müqavimət göstərənlərə güc, işgəncə tətbiq edin.

Yesayan həmən generalın sözlərinə qüvvət verdi:

- Yoldaş Stepanyan, demək olar ki, Şuşa şəhəri və bir-iki böyük kənd xaric, qalan yaşayış məntəqələri türklər-

dən təmizlənib. Azərbaycanlılar yaşadığı bir-iki kəndə qarşı isə genişmiqyaslı təxribatları artıq hazırlamışıq. Silah payladığımız erməni fədailəri əhalini qırmaq üçün rəhbərlikdən əmr gözləyirlər.

- Bu sözlərini keçən iclaslarda da söyləyirdin. Lakin hələ də Dağlıq Qarabağ türklərdən təmizlənməyib. Nəysə! Qoy fədailər hazır olsun. Əmrlərimiz gecikməyəcək. Bir də ki, bayaq Azərbaycan Respublikası rəhbərliyindəki vətənpərvər kadrlardan elə-belə söhbət açmadım. Sözüm sənədir, Simonyan. Həftə ərzində qeyd etdiyim insanları aradan götürmək üçün tədbirlər planı hazırla. Nə qədər ki, İsmayılovlar, Qayıbovlar sağdır, o qədər də SSRİ-nin rəhbərliyi qarşısında sözümüzü keçirə bilməyəcəyik. Əminəm ki, Karo, məni gözəl başa düşdün.

Generalın sözlərindən Simonyanın gözləri işıldadı. O, iftixarla ürək sözlərini söylədi:

- Təki siz əmr edin, yoldaş general. Hər türkdən aldığım can mənim ömrümü uzadır.

"Bu məndən də betər imiş ki! Bunlar nə vaxtdan qaniçən oldular? Belə hal artıq mənim üçün də müəmma qalacaq. Qorxuram ki, bir gün gələcək, bunlar elə məni də kabinetimdə güllələbaran edəcəklər!" fikirləri ilə general Stepanyan toplantını yekunlaşdırdı. O, İqor Yesayanı da özü ilə götürüb sədr Dilanyanın qəbuluna getdi.

## XIII FƏSİL

## DTK-DAN MTN-Ə

Min doqquz yüz doxsan birinci ilin yayında Bakının bürkülü havası insanı bir az da kədərli fikirlərə kökləyirdi. Xüsusən, yayda insan bütün problemlərdən qurtulmaq, bədənini, beynini dincə qoymaq istəyir, o üzdən insanlar tətil planları qurur, ən azından dəniz sahillərinə üz tutub yorğunluğunu atmağa çalışır. Lakin bunun üçün münbit şərait- həm ölkənin, həm fərdin problemlərinin kökündən həll olunması lazımdı.

Elçin Qaraxanov kabinetinə daxil olanda tanımadığı şəxsi gördü. Həmin insan bədəni ilə pəncərədən gələn günəş işığını qapatmış və ağıryana ədayla Ağəli Həsənovla söhbət edirdi. Qaraxanov etik davranıb otağını tərk etdi və koridorda İsraillə üzləşdi. Qulamov yuxarıdan -aşağı Qaraxanovu süzüb ondan salam gözlədi. Lakin Elçin bir müddət susduqdan sonra İsrailə səsləndi:

- Dostum İsrail, görünür xətrinə dəymişəm!?

- Yox, o nə söhbətdir, Elçin?

- Nə bilim, vallah. Vaxt var idi, otağıma girəndə ikiqat olurdun. Deyəsən, bağda ərik qurtarıb.

- Yox, Elçin! Ərik nə qədər desən, var. Amma Bayramın bölməsində.

Elçin Qulamov tipli insanların xasiyyətini dərindən təhlil etmiş və onların nələrə qadir olduğunu çoxdan anla-

mışdı. Ona görə də, İsrailin nankorluğu cüzi də olsa, ona təsir etmədi. Əksinə, onun hərəkəti bir daha sübut etdi ki, Qaraxanov insanlara düzgün qiymət verməyi bacarır və vaxtında canını onlardan qurtarmağa qadirdir. Qulamov Elçini rahat buraxmaq fikrində deyildi. O hey dostu Elxan barədə söz açmaq istəyirdi:

- Bilirsən də, Qaraxanov!? Elxanı da rabitə xidmətindən dartıb şöbəmizə gətir...

Elə bu zaman Elçinin otağının qapısı açıldı və İsrailin alnına dəydi. Naməlum şəxs Ağəli Həsənovla söhbətini bitirib kabineti tərk etdi. Elçin İsrailə xitabən ürək sözlərini söylədi:

- Qulamov, bir az ehtiyatlı ol. Daha doğrusu, şəri xeyirdən ayırmağı bacar. Görürsən, cansız qapı da nadanlığıvı cəzalandırdı.

İsrail həyəcanlı halda sağollaşıb Elçindən uzaqlaşdı. Qaraxanov isə geriyə - öz kabinetinə döndü və Həsənova sual verdi:

- Ağəli, neçə aydır səninlə bir otaqda otururam, amma qonağının kim olduğunu ayırd edə bilmədim. Bəlkə qiyabi olsa da, bizi tanış edəsən. Əgər sirr deyilsə.

Ağəli qürurla sinəsini qabağa verib Elçinin sualını cavablandırdı:

- Məgər sən Namiq müəllimi tanımırsan?

- Necə bəyəm? Mütləq tanımalıyam, Həsənov?

- Əlbəttə! O, bizim ağsaqqalımızdı. Əvvəl kadrlar, sonra da əməliyyat işləri üzrə sədrimizin müavini olub.

- Qorelovskinin?

- Yox, Elçin, general Ziya Yusifzadənin. Özü də sizin Məktəbi bitirib, rəhbər heyəti üçün kursları. İstedadlı jurnalistdir, partiyamızın məsul vəzifələrində çalışıb.

- Bunları bildim. Bəs indi haradadır? Yusifzadə kimi pensiyada?

- Yox! Qorelovski onu kadrlar mübadiləsi əsasında SSRİ-nin Murmansk şəhərinə ezam etmişdi. Yazıq kişi çox əziyyət çəkir. Murmanskın bəyaz gecələri və soyuqlarına bu insan necə dözür... onu bir Allah bilir.

Həsənovun Namiq Abbasov haqqında hekayəsini dinləyincə Elçinin yadına bir il bundan əvvəlki "Komsomolskaya pravda" qəzetində dərc edilmiş şəkil düşdü. Orada Sovet hökumətinin enli və şişman əndamlı Ərzaq üzrə Xalq komissarı Sürupa kabinetinin pəncərəsindən Moskvanı seyr edirdi. Şəkilin altına isə "Ərzaq üzrə xalq Komissarı Sürupanın acından ölməsinə inanmıram!" sözləri yazılmışdı.

Bir anlığına fikrə gedən Qaraxanov yüksək vəzifəli Abbasovun gününə acıya bilmədi. Ağəli isə təriflə dolu monoloquna davam etdi:

- Hazırda Namiq müəllim məzuniyyətdədir. Ürəyindən Bakıya qayıtmaq keçir. Lakin inanmıram ki, onun istəyi baş tutsun. Özün bilirsən də, Elçin, indiki rəhbərliyin sizlərlə münasibəti o qədər də isti deyil.

- Başa düşmədim, Həsənov, Abbasov mənim yerlimdir?

- Əlbəttə, Elçin! Ordubaddandır.

- Bəs səninlə nə əcəb yaxındır? Görürəm, əlaqələriniz dostyanadır.

- Bəli, Qaraxanov. Onun mənə çox xeyri keçib. Sən bilmirsən e, o nə qədər alicənab insandır!

Həsənov dayanmadan züy tutub pafoslu tərifinə davam edirdi. Elçin birtəhər  Ağəlinin sözünü kəsməyə müvəffəq oldu və ona gerçəkləri anlatmağa çalışdı:

- Deyirəm, Həsənov, bəzi insanlarımız "kopya" sənin kimidir. Özünüzdən yuxarıdakıları tərifləyir, aşağıdakılardan tərif gözləyirsiniz. Bu iki əməl həyat tərzimizə çevrilib. Bəlkə də qarşınızdakı insan tərif sevmir. Lakin siz zəli kimi yapışıb o ki var onu tərifləyirsiniz. Nəticədə həmin adamı da öz gününüzə salırsınız. Başa düşmək istəmirsiniz ki, insan artıq on beş yaşından sonra nəyə qadir olduğunu dərk etmiş olur.

Ağəli Qaraxanovun söylədikləri ilə razılaşmayıb ona sual verdi:

- Bəs qadınlar barədə nə deyirsən? Məqsədimizə çatmaq üçün onlara hər cür komplimentlər söyləyirik.

- Xeyr, Həsənov! Unutmayasan ki, onlar zərif cinsdir. Kompliment incəlik əlamətidir, qızların alnına yazılıb. Təriflə onun arasında yerlə göy qədər fərq var. Lakin sizlər komplimenti də tərifə çevirirsiniz. Zəif cinsə o qədər yaltaqlanırsız ki, nəticədə o da sizdən bir baş yuxarı olduğunu anlayır. Demək olar ki, onu yoldan çıxarırsınız. Gözünə döndüyüm də  özünü dağın kəlləsinə qoyur, probleminizə şərik çıxmaq əvəzinə yükə çevrilir. Deməyim odur ki, yaltağı da, əyiləni də, qorxağı da sənin kimilər yaradır.

Görmədim ki, bir nəfər avropalı, yaxud amerikalı özünə bənzərləri tərifləsin. Tərifləyəndə də heyvanları tərifləyər.

- Bir sözlə, Elçin, dediklərindən anladım ki, insanlara düzgün qiymət vermək qadağandır.

- Məni çox gözəl anladın, Ağəli. Söz güləşdirməyə də ehtiyac yoxdur. Mənim aləmimdə yaltaqlıq, tərif, satqınlıq mənəviyyata zidd hisslərdir. Bu məfhumlar altında insanlar şəxsi mənafelərini güdür, vəzifə və pul qazanmaq istəyir.

Həsənov Elçinin sözlərinə diqqətlə qulaq asandan sonra son sözünü dedi:

- Bil ki, neqativ hesab etdiyin bu halların kökünü kəsmək, yaxud ən azı qarşısını almaq mümkün deyil.

- Deməli, Ağəli, könlündə dediklərimlə razılaşırsan. İndi qayıdaq Namiq müəllimə. Nə əcəb Murmanskdan Bakıya təşrif buyurub?

- Birincisi, Elçin, bir daha təkrarlayıram, o, məzuniyyətdədir. İkincisi də, ümumiyyətlə rəhbərliklə görüşüb Azərbaycan DTK-sına "perevod" almaq niyyətindədir.

- Əladı da, Həsənov. Vətənimizin ağır günlərində təcrübəli kadrlara ehtiyacımız var.

- Görürsən, Elçin, sən də tərifə keçdin.

- Qətiyyən!

- Bəs haradan bildin ki, təcrübəli kadrdır?

- Demədin, bizim Məktəbi bitirib? Özü də rəhbər heyətinin hazırlanması kurslarını.

- Düzdür. Az qala yadımdan çıxmışdı.

Həsənovla müzakirələrdən sonra Elçin Osmanovun kabinetinə yollandı. O, Dağlıq Qarabağ ərazisində banditlik

edən erməni yaraqlıları barədə gizyar "Elbrusdan" aldığı məlumatı rəisinə məruzə etməli idi. Dəhlizdə yeriyərkən Abbasova dair pafoslu cümlələr Qaraxanovun beynindən çıxmırdı. Elçinin ağlına belə gələ bilməzdi ki, Ağəlinin tərifədiyi həmin şəxs dörd ildən sonra onun qənimi olacaq.

Kim nə deyirsə desin, amma bu dünyada hamının bir-biriylə əlaqəsi var. Yəni, səkkiz milyard nəfərlik planetdə hamı ilə təsadüfi görüşlər mümkündür. Bir də görərsən ki, Afrika ölkəsində doğulmuş Bambaraş Mqumba cənubi Amerikalı hindusu Çinqaçkukun qatili oldu. Heç kimin ağlına gəlməz ki, BMT-nin sülhməramlı qüvvələrinin tərkibində xidmət edən həmin afrikalı əlindəki tapança ilə Peruda üsyana qalxmış hindunun düz ürəyindən vura bilər. Yaxud da ki, Azərbaycanın ucqar kəndində dünyaya göz açan İmamverdi Afrikada safariyə çıxarkən aslan əvəzinə həmin Mqumbanın gicgahında səhfən deşik aça bilər. Ağıla gəlməyən hadisələrin hər kəsin başında olması ehtimalı mümkündür.

Qaraxanov rəisi Seyfəddin müəllimin kabinetinə daxil olanda orada İman Abdullayevi gördü. Səmimi görüşdən sonra Elçin İmanın işləri ilə maraqlandı:

- Çoxdandır, səninlə görüşə bilmirəm. Əminəm ki, işlərin də, sağlamlığın da öz yerindədir.

- Təşəkkürlər, Elçin. Ezamiyyətlər qoyur ki, bir-birimizlə əlaqə saxlayaq!? Gah sən Qarabağda, mən Laçında, gah da mən Todanda, sən Sədərəkdə olursan.

- Elədir, İman. Vətəni müdafiə etmək vəzifəsini seçmişik. Ona görə də, bu çətinliklərə qatlaşmalıyıq.

Dostların söhbətinə bölmə rəisi də qoşuldu:

- Bilirəm, Elçin, Gəncə ezamiyyətindən təzə qayıtmısan. Amma ortaya mühüm məsələ çıxıb.

- Yəqin ki, bəd xəbər verməzsən, Seyfəddin müəllim.

İman hövsələsiz vəziyyətdə Qaraxanova məsələni açıqladı:

- Bəd xəbərdir, Elçin. Səninlə bir yerdə Dağıstana uçmalıyıq.

- Yenə nə hadisə baş verib, İman?

- İndi də qatarımızı partladıblar. Çox güman ki, şərəfsiz daşnakların əməlidir. Hələlik on iki nəfərin həlak olması və iyirmi vətəndaşımızın yaralanması barədə məlumat daxil olub. Deyilənlərə görə, ölənlərin sayı çoxdur.

- Bəli, bəd xəbər oldu. Özü də çox faciəli.

Seyfəddin Osmanov dostların pərişan olduğunu görüncə onlara təsəlli verdi:

- Ümidimizi itirməyək. Vaxt gələcək, bu cür iyrənc xəbərlərdən qurtulacağıq. Bir də ki, bəd xəbər heç vaxt olmur, Elçin. Onların hamısı xeyirlidir.

- Sizi anlaya bilmədim, rəis. Demək istəyirsən ki, ermənilərin törətdiyi pis əməllərin hamısı gözəl xəbərlərdi?!

- Əlbəttə, Elçin. Erməni daşnakları üçün qatarımızın partladılmasından qəşəng nə xəbər ola bilər?

- Seyfəddin müəllim, heç olmasa de ki, bəd xəbər nisbidir. Kimin üçün yaxşı, kimə görəsə də fəlakətdir.

İman da söhbətə müdaxilə edərək Osmanova sual verdi:

- Bəs keçən həftə Rasimin atasının vəfatı barədə nə deyə bilərsən, Seyfəddin? Bu da xoş xəbəriydi?

- Nə deyim, İman? Rasimin yerinə göz dikən, hər dəfə sözü onunla çəp gələn Fikrət üçün kişinin vəfatı gözəl xəbərdir. Əfsuslar olsun ki, dünyanın qanunları bu cürdür. Eləcə də təyyarə qəzası zamanı həlak olmuş pilotun yerinə götürülən yeni təyyarəçinin anası uşağının işə düzəlməsi münasibətilə sevincini gizlədə bilməz. Elçin demişkən, xəbərlər nisbidir. Kimlərəsə sevinc, kimlərəsə kədər gətirir.

- Nəysə, Seyfəddin. Bu heç də xoşagələn mövzu olmadı. Sən bizim ezamiyyətimiz barədə danış. Nə etməliyik?

- Hazırlaşın. Sabah səhər Zabrat qəsəbəsində sizi vertolyot gözləyəcək. Prokuratura əməkdaşları ilə birgə Dağıstana gedəcəksiniz. Çalışın qatardakı partlayış barədə geniş məlumat toplayasınız. Rusiyalı həmkarlarınızdan səmərəli istifadə edin. Hər halda onların hadisə haqqında məlumatları genişdir.

Elçin də fikirlərini bildirdi:

- İnanmıram ki, ruslar ermənilərə dair məlumatları bizimlə bölüşsünlər. Ümidim dağıstanlılaradır. Orada mənimlə birgə ali Məktəbimizi bitirən Tufanov adlı həmkarım var. Deyilənlərə görə, Dağıstan KQB-sində yaxşı vəzifədədir. İcazə versən, rəis, onunla da əlaqə saxlayardım.

- İcazə verirəm. Bütün imkanlarınızdan hərtərəfli istifadə edin. İndi isə hər ikinizə uğurlar diləyirəm.

İmanla Elçin yola hazırlaşmaq üçün işdən bir qədər tez çıxdılar və ertəsi gün səhər tezdən Zabrat qəsəbəsindəki aerodroma gəldilər. Artıq vertolyot hazır vəziyyətdə onları gözləyirdi. Əməliyyatçılar hava nəqliyyatına minəndə gözlərinə inanmadılar. Yanacaqla dolu çən ver-

tolyotun salonunun ortasında yerləşdirilmişdi. Elçin zarafatla İmana fikrini anlatdı:

- Yaxşı ki, siqaret çəkən deyilik, qardaş. Bu çən bir qığılcıma bənddir.

- Biz heç olmasa müharibənin üzünü görmüşük, partlayışların səsini eşitmişik. Prokuraturanın müstəntiqləri vertolyotun bu dərəcədə köhnə və xətalı olduğunu görsələr Dağıstana uçmayacaqlar.

Abdullayev sözünü bitirməmiş vertolyota qalxan müstəntiq Cəbrayılov onun cavabını verdi:

- Xeyr, qardaş döyüşlərdə də olmuşam, avtobuslarımızı partladan erməni terrorçularının axtarışında da iştirak etmişəm. Hətta üçüncü dəfədir ki, bu cür yararsız vertolyotda uçuram. İki ay öncə daşnaklar Çeçenistan ərazisində də qatarımızı partlatmışdılar. Həmin faciənin təhqiqatını şəxsən özüm aparmışam.

Qaraxanov müstəntiqin söylədiklərindən məmnun qalıb əlini ona tərəf uzatdı:

- Mənim adım Elçindir. Bu da həmkarım İmandır.

Müstəntiq Qaraxanovun əlini sıxaraq cavab verdi:

- Cəbrayılov! Vasif Cəbrayılov. Bir azdan kolleqam da gələcək. Onun adı isə Qaçaydır. Qaçay Xanbabayev. O da çox təcrübəli prokuror köməkçisidir. Əminəm ki, birlikdə qatillərin izlərinə düşəcəyik.

İman da məsələyə münasibətini bildirdi:

- Öz ərazimizdə törədilən terror aktlarının cəmi əlli faizinin üstünü aça bilmişik. İnanmıram ki, Rusiya ərazisində bu qanlı cinayətin təşkilatçılarını tapa bilək.

Cəbrayılov Qaçayın vertolyota tərəf tələsik yüyürdüyünü görcək üzünü İmana tərəf çevirdi:

- Əsas odur ki, üzərimizə düşən vəzifəni layiqincə icra edək. Yəni, hadisə yerinə ciddi baxış keçirək, dəlillər toplayaq, şahidləri ətraflı sorğu-suala tutaq.

Bir neçə dəqiqədən sonra vertolyot havaya qalxdı. İkinci pilot üzünü zabitlərə tutub "zəhmət olmasa, gözünüzü dəmir yolundan ayırmayın ki, hadisə yerinə vaxtında çata bilək" xahişini etdi. Birinci pilot da diqqətini kabinanın şüşə döşəməsindən dəmir yol xətlərinə yönəltdi. Vasif Cəbrayılov pilotlara yaxınlaşıb marşrut barədə sual verdi:

- Necə yəni, qatar yolunu izləməliyik!? Biz hansı əsrdə yaşayırıq? Məgər vertolyotunuzun naviqasiya sistemi işləmir ki?

Pilot Cəbrayılovu həyəcanlı görərək onu sakitləşdirməyə çalışdı:

- Narahat olmağa dəyməz. SSRİ məkanında vertolyot aerodromlarında vəziyyət bu cürdür. Çalışacağıq sizləri ünvana sağ-salamat çatdıraq.

Elçin vertolyotçunun cavabından qane olmayıb bəzi məqamlara aydınlıq gətirmək istədi:

- Dostum, biz digər Respublikanın ərazisinə keçməliyik. Mən bilən, ən azı sərhədçilərə gəlişimiz barədə məlumat ötürməliyik ki, bizi düşmən ölkəsindən gəlmiş "qonaq" sanmasınlar. Əllərindən min dənə xəta çıxa bilər...

Pilot Elçinin sözünü kəsərək müstəntiqə söylədiyi sözləri bir daha təkrarladı:

- Dedim axı, narahatlığa səbəb yoxdur. Sadəcə mənim göstərişlərimə əməl edin ki, heç birimizin başı ağrımasın.

Bundan sonra hamı illüminatordan Rusiya ilə Azərbaycanı birləşdirən dəmir yolu xəttini izləməyə başladı. Təxminən iki-üç saatdan sonra vertolyot Dağıstan ərazisində diversiyaya məruz qalmış sərnişin qatarının yanına endi. İman müstəntiqlərin üzlərinə baxaraq gülümsədi:

- Buraya nə cür gəldiyimizi kimə anlatsaq, inanmayacaq. SSRİ-də hərc-mərclik baş alıb gedir. Belə bir vəziyyətdə hələ dünyaya meydan da oxuyur.

Cəbrayılov İmanın dedikləri ilə tam razılaşaraq həmən sərnişinləri sorğu-suala çəkdi. Elçin isə milis işçilərinə yaxınlaşıb orada KQB əməkdaşlarının olub-olmaması barədə maraqlandı. Milis nəfəri çekistlərin partladılmış vaqonda olduqlarını bildirdi. Bir neçə saatdan sonra İmanla Elçin iki rus çekistini tapa bildilər. Özlərini təqdim etdikdən sonra onlardan diversiya barədə ətraflı məlumat toplamağa çalışdılar. Ruslar insafən bir sıra vacib məlumat əldə etmişdilər. Çekistlərdən Pyotr adlı biri rəisinin icazəsilə diversiyaya dair əldə etdiyi materialları Azərbaycandan gələn əməliyyatçılara verdi və ehtimalları ilə bölüşdü:

- До вашего прилёта накопленные нами и нашими криминалистами материалы, безусловно, указывают на следы террористического акта. В материалах также находятся протоколы опросов русских и дагестанских пассажиров, которые косвенно указывают, что подрыв поезда было совершено лицами с кавказской внешностью. Впрочем, к

документам прилагаются фотороботы подозреваемых взрывников.

İman rus kolleqasına təşəkkürünü bildirib materialları çantasına qoydu və fikrini söylədi:

- Мы уверены, что вы продолжите расследование этого преступления на территории РСФСР и поделитесь с нами результатами. Учитывая постоянное совершение террористических актов, диверсий, убийств армянскими боевиками на территории Азербайджана, можно выдвинуть версию, что подрыв поезда рейса Москва-Баку также совершили вышеуказанные преступники.

Pyotr İman Abdullayevin ehtimalları ilə razılaşdı. O, bildirdi ki, son zamanlar erməni kökənli cinayətkarlar Rusiyanın cənub ərazilərində çox fəallaşıblar və xüsusən də insan oğurluğu ilə məşğul olurlar. Görüşün sonunda rus zabiti əldə edəcəyi yeni məlumatlarla bölüşəcəyinə söz verib azərbaycanlı çekistlərdən ayrılmaq istədi. Lakin Qaraxanov onu bir qədər yubadaraq Akademiyada bir yerdə təhsil aldığı Tufanov barədə maraqlandı. Pyotr təəccüblə Elçindən soruşdu:

- А вы откуда знаете товарища Тюфанова?

- Мы с ним вместе учились в Москве. Очень бы хотелось с ним встретиться.

- Вы знаете, к сожалению, я не смогу свести вас.

- Какие-то проблемы, Пётр?

- Да. Наш начальник Николай Тюфанов, буквально, перед вашим прилётом уехал в командировку.

- Жаль, конечно. Когда-нибудь в следующий раз. Передайте ему от меня привет.

- Обязательно, товарищ Караханов. Думаю, он очень обрадуется…

Pyotr yenə də nəsə demək istəyirdi ki, ikinci pilot Qaraxanovu vertolyota dəvət etdi:

- Elçin müəllim, sizi gözləyirik. Yoxsa qaranlığa düşəcəyik!

Qaraxanov Pyotrla vidalaşıb vertolyota tərəf yürüdü. Beş saatlıq tədqiqatdan sonra əməliyyat-istintaq qrupunun üzvləri Bakı şəhərinə istiqamət götürdülər. Elçin zarafatla yol yoldaşlarına müraciət etdi:

- Yaxşı ki, günlər uzanıb, yoxsa dəmir yolunu izləyə bilməyib İstanbula enərdik.

Qaçay Xanbabayev də əməliyyatçılara söz atdı:

- Hanı bizdə o xoşbəxtlik?

Təxminən axşam saat səkkizdə vertolyot macərasız Zabrat aerodromuna endi və əməliyyatçıların hər biri öz idarəsinə üz tutdu.

Partlayışla əlaqəli əməliyyat və istintaq tədbirləri iyirmi gün davam etdi. Nəticədə qatarın Xasavyurt şəhəri ərazisində erməni diversantları tərəfindən partladılması tam sübuta yetdi. Lakin Respublika rəhbərliyinin səriştəsizliyi nəticəsində canilərin tutulub Azərbaycana gətirilməsi mümkün olmadı.

Ermənilərin törətdiyi terror aktları səngimirdi. Azərbaycanın mülki şəxsləri - qoca, qadın, uşaqlar onun qurbanlarına çevrilirdilər. Cəzasızlıqdan bəhrələnən terrorçular bir aydan sonra Dağıstan ərazisində Moskva-Bakı

marşrutu ilə hərəkət edən növbəti qatarı da partlatmağa müvəffəq oldular. Qətlə yetirilən Azərbaycanlıların sayı günü-gündən artırdı. Rusiya ərazisində etnik azlıqlardan yaradılan terrorçu təşkilatların filialları Azərbaycanda da kök salırdı. Həmin təşkilatlardan biri də "Sadval" idi. Tez bir zamanda erməni şovinistlərinin təsiri altına düşən bu təşkilatın üzvləri Bakı metropolitenində terror əməli törətdi. Eyni zamanda Azərbaycan ərazisində dini partiyalar da peyda olmağa başladı. Azərbaycanlıların mentalitetinə yad olan şiə və sünni yönümlü təriqətlər millət arasında ayrıseçkilik toxumlarını səpirdilər.

Min doqquz yüz doxasan birinci ilin avqust ayının ortalarında Elçin yeni günə kabinetində gözünü açdı. Bayırda sərçə, qarğa və təəccüblü olsa da, bülbüllərin səsi eşidilirdi. Əl-üzünü yuyandan sonra Qaraxanov yeməkxanaya yollandı. Adilov da orada idi. Elçinin yuxulu sifətini görcək Rəsul söhbətə başladı:

- Neçə gündür, sən də mənim kimi buralarda gecələyirsən. Bir həftə olar ki, ailəmdən təcrid olunmuşam. Belə getsə, kabinetimdə mətbəx və hamam da yaradacağam.

- Mən də ailəmi görə bilmirəm, Rəsul. Ayın iyirmi gününü döyüş bölgələrinə, on gününü isə gizyarlara, yəni əməliyyat işlərinə həsr edirəm.

- O qədər "gizyar" sözündən istifadə etdiniz ki, artıq bütün DTK əməkdaşları bu sözdən həzz alır. Molodes! Siz tərəflərdə yeniliklərə baş vurmasalar, xəstə düşərlər.

- Birincisi, Rəsul, "gizyar" mənim deyil, Elcanın leksikonudur. İkincisi də, yerlipərəstliyə aid diskussiya açma, qoy səhər yeməyimi rahat dadım.

- Mən nə dedim ki, Elçin? Sizləri tərifləmək də olmur, e.

- Sən respublikadakı vəziyyətdən danış. Artıq hər kəs səhər yuxudan ayılan kimi gedir özü üçün partiya, təşkilat, cəmiyyət yaradır.

- Burada nə var ki, Qaraxanov? Aşkarlıq və plüralizm dövrüdü. Qərb ölkələrinin hər birində otuz-qırx partiya birdən fəaliyyət göstərir. Problem də yaranmır.

- Bizdə problem var, Adilov! Dərd orasındadır ki, söhbət açdığın Qərbdə partiya və cəmiyyətlər dövlət və xalqın nəfinə fəaliyyət göstərir. Bizdə isə əksər partiyalar Azərbaycanın əvəzinə İranın, Rusiyanın lap elə Ermənistanın da xeyrinə çalışırlar.

- Yəni, Ermənistana çalışanlar da var, Elçin? Nə bilim, vallah. Müharibə qoyur ki, bizimkilər təşkilatlansın.

- Niyə qoymur ki? Elə qəşəng təşkilatlanıblar! "Yandaşlıq", "Günahlardan təmizlənmə", "Sadval", "İslam partiyası"na nə deyirsən? Təəssüf ki, hərəsi xalqımızı bir tərəfə çəkir.

- Narahat olma, Qaraxanov. Azərbaycanı düzgün istiqamətə yönəldən rəhbərimiz var. Sadaladığın təşkilatların fəaliyyətindən xəbərdardır. Hətta bəzilərini elə özü yaradıb...

Son cümləni deyəndə Rəsul duruxdu. Anladı ki, səhvə yol verib. Elçin də bilirdi ki, "Yandaşlıq" və "Günahlardan təmizlənmə" təşkilatları bilavasitə Prezident Mütəllibovun və onun əlaltılarının səyi nəticəsində yaradılıb. Məqsəd isə Azərbaycanın regionları arasında ən azı anlaşılmazlıq yaratmaqdır. Elçin Rəsulun sözlərinə bir kəlmə ilə cavab verdi:

- Prezidenti zəif və qorxaq olan xalq müharibə və həmlələrdən qurtula bilməz!

Elə bu zaman yeməkxanaya girən əməliyyat növbətçisi əməkdaşları təcili iclas zalına dəvət etdi. Onun səsində olan həyəcan heç də xoş xəbər vəd etmirdi. Qaraxanov səhər yeməyini yarımçıq qoyub iclas zalına daxil oldu. KQB-nin bütün şəxsi heyəti orada rəhbərliyi gözləyirdi. Beş dəqiqədən sonra Vaqif Hüseynov müavinləri ilə birlikdə zala daxil oldu. İclas açıq elan edildi və söz DTK sədrinin müavini Danilenkoya verildi. Polkovnik zalda oturan çekistlərə göz gəzdirərək qəzəblə öz nitqinə başladı:

- Nəhayət, SSRİ məkanında vüsət alan qanunsuzluqlara, hərc-mərcliyə son qoyuldu. Sovet İttifaqının paytaxtında yeni hakimiyyət fəaliyyətə başlayıb, xalq düşməni Qorbaçov isə zindandadır!

Afanasi Dmitriyeviçin pafoslu nitqi iclas iştirakçılarına otuz yeddinci ili xatırlatdı. Fuad sakitcə Elçinə "növbəti alovlu inqilabçı Trotskinin peyda olması münasibətilə səni təbrik edirəm" pıçıldadı. Danilenko dayanmaq bilmirdi. O, çıxışında Azərbaycan çekistləri sırasında da xalq düşmənini axtarmağa başladı:

- Qorbaçovun rəhbərliyi dövründə milliyyətçilik, satqınlıq Azərbaycan Respublika DTK-sının bəzi zabitlərinə də öz təsirini göstərmişdi. Biz bu halların kökünü dibindən qazıyacağıq. Onu da biləsiniz ki, SSRİ-nin yeni hakimiyyətini ilk olaraq Azərbaycan Kommunist partiyasının birinci katibi Ayaz Mütəllibov dəstəkləyib. Bu da o deməkdir ki, bütün respublikalar yeni yaradılmış Dövlət fövqəladə vəziyyət komitəsinin tərəfindədir.

Danilenkonun son cümləsi təqdir və ovasiya əvəzinə əməliyyatçıların narazılığına səbəb oldu. Hamı bir ağız-

dan “yalandır”, “Mütəllibov İrandadır”, “Azərbaycan xalqı müstəqillik istəyir” iddialarını polkovnikin ünvanına yağdırmağa başladılar. Aslanov Elçinə tərəf çönərək ürək sözlərini bildirdi:

- Mütəllibovun “QKÇP”-ni birincilər sırasında dəstəkləməsinə mən də inanıram. Nə olsun ki, İrandadır. Bəyanatını elə oradan verib də...

- Tələsməyək, quzik. Mən də bilirəm ki, birinci katibimiz qorxaqdır. Amma onun bəyanatını rəsmən təsdiqləməlidirlər. Deyəsən, Xəlil Rza demişdi e, “başladı otuz yeddi, daha sərt və daha ciddi!”

- Xahiş edirəm, Elçin, şairimizin sözlərini təhrif etməyəsən. O deyir ki, “davam edir otuz yeddi...”

Dünyada imperiyaların sayı çox olub. Metropoliyalar müstəmləkəyə çevirdiyi ölkələrin xalqlarının qanına öz ideyalarını necə hopdurursa, əsrlər boyu məzlumlar zülmkarların təsiri altında qalır. Hətta iş o yerə gəlib çatır ki, imperiyaların təəssübünü özündən də çox istismar etdiyi xalqlar çəkir. Zəbt edilmiş millətlərin nümayəndələri mitinq, toplantı, iclaslarda “böyük qardaşlarını” göylərə o qədər yüksəldir ki, nəticədə Metropoliya öz “ədalətli mövqeyinə” inanmağa başlayır. İmperiya elə bir qurumdur ki, orada insan haqları barədə söhbət gedə bilməz. O, müstəmləkə xalqı sırasından seçilən liderlərə o qədər firavan həyat bəxş edir ki, həmin şəxslər nəyin bahasına olursa olsun, öz hakimiyyətini qoruyub saxlamağa, xalqını isə manqurtlaşdırmağa məhkum olur.

Bu cür bəla Azərbaycandan da yan keçmədi. Metropoliyanın Kommunist partiyasının rəhbərliyinə təyin

etdiyi insanlar ən azı öz xalqına biganə münasibət bəsləməliydi. Buna görə də Sovet rejimi Qarayevləri, Bağırovları, Vəzirovları, Mütəllibovları doğub yetişdirməli idi. Təsadüfən müstəmləkənin başına millətçilər keçəndə isə mərkəzi hakimiyyət onların dərsini verir, vəzifədən uzaqlaşdırırdı. Necə ki, Heydər Əliyevi .

Afanasi Dmitriyeviç nitqini bitirəndən sonra DTK əməkdaşlarından suallar gözlədi. Danilenko elə düşünürdü ki, onun çıxışı hamını lərzəyə salıb və susdurub. Lakin polkovnikin ağlına belə gəlməzdi ki, Atabəylərin, Səlçuqluların, Nizamilərin törəməsi olan Azərbaycan xalqı sözünü üzə deməyə, etirazını bildirməyə qadirdir. İlk sualı kəşfiyyat şöbəsinin əməkdaşı Daşdəmir verdi:

- Yoldaş polkovnik, səhərdən Azərbaycan xalqının adından bəyanatlar verirsiniz. Guya onlar da rəhbərləri Mütəllibov kimi "QKÇP"-ni dəstəkləyir. Mən bir azərbaycanlı kimi həmin qurumun əleyhinəyəm və onun fəaliyyətinə etirazımı bildirirəm.

Daşdəmir sözünü bitirməmişdir ki, iclas zalını etirazlar bürüdü. Sanki Lenin meydanında mitinqlər gedirdi. Əməliyyatçıların əksəriyyəti satqın rəhbərlərin əlindən, erməni faşistlərinin Azərbaycana qarşı törətdiyi terror əməllərindən, sovet rəhbərliyinin ermənipərəst mövqeyindən zara gəldiyini hayqıraraq iclasın gündəmini heçə endirdi. Nöqtəni isə baş əməliyyat müvəkkili Rəhim Aydınov qoydu:

- Mən, ümumiyyətlə, başa düşə bilmirəm ki, nə üçün Afanasi müəllim bu günə kimi Azərbaycan KQB-sinin

kadrlarının başında durub? Məgər Rusiyada səriştəli çekistlərə ehtiyac yoxdur?

Aydınovun nə demək istədiyini şəxsi heyət o dəqiqə anladı. Toplantının təşkilatçıları vəziyyətin getdikcə gərginləşdiyini anlayaraq iclası yekunlaşdırıb aradan çıxdılar. DTK-nın sadə əməkdaşları onu da sübut etdilər ki, Moskvanın Azərbaycan xüsusi xidmət orqanlarının rəhbərliyinə yeritdiyi insanlar heç də ölümsüz deyilmişlər. Təhlükəsizlik Komitəsində hakimiyyət yavaş-yavaş milli kadrların əlinə keçməyə başladı.

***

Bakıda siyasi vəziyyət yenə gərginləşməyə doğru gedirdi. Bir tərəfdə siyasətdə püxtələşmiş milli hərəkat fəalları, digər tərəfdə isə Kommunist partiyasına başçılıq edən rus- və fars tərəfdarları. Paytaxtın küçələri dayanmadan barıt çəlləyinə dönürdü. Kiçicik qığılcım onu partlada bilərdi. Mütəllibov tərəfdarları tutarlı qərarlar qəbul etməliydilər ki, müvəqqəti də olsa, xalqı sakitləşdirə bilsinlər. Elə bir məqam yarandı da: üç gündən sonra Moskvada baş verən dövlət çevrilişinin səbəbkarları həbs edildi. Qorbaçov hakimiyyəti yenidən bərpa edildi. Eyni zamanda Rusiyada demokrat təfəkkürlü idarəçilər də üzə çıxdılar ki, sülh yolu ilə Qorbaçovun fəaliyyətinə son qoya bilsinlər. Azərbaycan rəhbərliyi "QKÇP"-nin süqutunu görcək yenidən maskasını dəyişdi və müstəqillik aşiqinə çevrildi. Məqsəd isə xalqın istəklərini yerinə yetirmək deyil, əldə etdikləri mülk-maliyyətin qorunub saxlanılması idi.

Belə bir şəraitdə Qaraxanov Quliyevin kabinetində anası üçün çətin tapılan dərmanın xahişini edirdi:

- İlham, təcili mənə bu dərman lazımdır. Anam allergiyaya tutulub.

Quliyev həkimin qələmindən çıxmış kəllə-mayallaq resepti birtəhər təhlil edib istehza ilə Elçinə cavab verdi:

- Xəbərin var da, nəyə görə həkimlərin yazı qabiliyyəti bu qədər aşağı səviyyədədir?

- Təbii ki, yox, ay İlham. Səhiyyə sənin əməliyyat təminatın altındadır. Bizlər oralara burnumuzu soxmarıq.

- Deməli, sənə başa salıram. SSRİ məkanında səhiyyə sistemi o qədər acınacaqlı vəziyyətdədir ki, dərman istehsalı sıfıra enib. Ona görə də həkimlər resepti elə tərtib edirlər ki, heç kim dərmanın adını ayırd edə bilməsin və qıtlığı hiss etməsin. Həm xəstələr, həm də ki, əczaxanalar üçün bu variant yeganə çıxış yoludur.

Elçin İlhamın həmişəki kimi zarafat etdiyini anlayıb öz fikrini söylədi:

- Həkimlər çox düzgün qərar veriblər. Mən məktəb direktorların yerinə olsam, gələcəkdə Tibb institutuna daxil olmaq arzusunda olan şagirdlərin dərsliyindən əlifbanı çıxardaram. Qoy onlar ümumiyyətlə yazının nə olduğunu bilməsinlər.

Quliyev Elçinin sözlərindən məmnun qalıb birtəhər dərmanın adını ayırd etdi:

- Prednizalon! Çətin olsa da anan üçün bu dərmanı tapacağam.

Qaraxanovla söhbət edərək İlham bir neçə aptekə zəng vurdu və nəhayət, dərmanı tapdı. O, Elçinə şad xəbər verib zarafatına davam etdi:

- Yəqin ki, prednizalon sizlərin mənə son sifarişi olacaq...

Elçin təəccüblə İlhama sual verdi:

- Elə demə, qardaş. Son sifariş nə deməkdir?

- Gedirəm, Elçin. Artıq raportumu kadrlar şöbəsinə təqdim etmişəm. Son zamanlar bəd xəbər eşitməkdən zara gəlmişəm. Yeni yaranmış müştərək şirkətə dəvət ediblər. Təhlükəsizlik departamentinin rəisi vəzifəsində çalışacağam. Maaşı bizimkindən beş qat artıqdır. Söz vermişəm kasıblığın daşını atam.

- Hələ yeni işlərimizi yoluna qoyuruq, Quliyev. Bilmirəm eşitdin, ya yox, srağagünü Buzluq, Mənəş və Erkəci erməni işğalından azad etdik. Bəlkə bir az səbr edəsən?

- Yox, Elçin, fikrim qətidir. Təhlükəsizlik orqanlarının sıralarını tərk edirəm.

- Hələ Hüseynovu demirəm...

- Hansı Hüseynovu, Qaraxanov?

- Vaqifi da, sədrimizi! Dünən onu Mütəllibov o söz, aradan götürdü, yəni işdən azad etdi. Dalınca Vladimir Adiloviçlər, Litvinovlar da təqaüdə göndərildilər.

- Bax bu xoş xəbər oldu. Başım çekistlərin xəstələnən balalarına necə qarışıbsa, dünyadan təmiz təcrid olunmuşam. Bəs Vaqifin yerinə kimi gətirdilər?

- Hüseynov İlhüseyn Pirhüseyn oğlunu.

- Ay maşallah, Qaraxanov. O nə addır? Sanki bütün "Hüseynləri" ətrafına toplayıb.

- Məgər onun adını birinci dəfədir eşidirsən?

- Çox eşitmişəm, Elçin. Lakin Hüseyn müəllim qismində. Ağıllı çekist olduğuna şübhəm yoxdur. İnanıram ki, Respublikamızın qayğısına qalacaq.

Bu zaman Quliyevin telefonuna zəng gəldi. Abonentlə bir neçə saniyəlik ünsiyyətdən sonra İlham Elçinlə söhbətinə qayıtdı:

- Dərman sifarişini həll etdim. İki saatdan sonra iyirmi yeddi saylı aptekə dəyib prednizalonuvu götürərsən. Anamıza da şəfalar diləyirəm.

- Təşəkkürlər, İlham!

Elçin Quliyevin otağını tərk edirdi ki, içəriyə Ağəli Həsənov girdi. Salamlaşdıqdan sonra o, həmən İlhama sual verdi:

- Düzdür, qardaş?

Quliyev bir qədər fikrə daldı və söhbətin nədən getdiyini anladı:

- Bəli, Ağəli, düzdür. Raportum kadrlar şöbəsindədir.

Elçin yenidən mövzuya qayıtdı:

- Səhərdən İlhamla həmin məsələni müzakirə edirik, Ağəli. Vəziyyətin çətin vaxtında bizi dərmansız buraxıb gedir...

Elçinin zarafatını təəssüflə dinləyən Həsənov İlhama yenidən sual ünvanladı:

- Bunları bildik. Bəs KQB-dən getməyinin səbəbi nədir?

- Sadəcə yorulmuşam, Ağəli.

İlhamın sözlərində sətiraltı mənanı hiss edərək Qaraxanov söhbətə davam etdi:

- Sənin gedişin sadə gedişə oxşamadı. Nəsə dərdin var. Biz sənin dostlarınıq. Bizimlə də problemlərini bölüşsən, məmnun olarıq.

Quliyev söhbəti uzatmayıb cavab verdi:

- Rüşvət, Elçin. Sizləri təbrik edirəm. Artıq o iyrənc məfhum bizlərin də sırasına sirayət etməyə başlayıb. Başınızı çox ağrıtmayacam. Bir həftə bundan öncə Sənan Kərəmovdan erməni yaraqlıları ilə döyüşdə fərqlənən Kazımovun bizə işə qəbul etməsini istədim.

- Çox gözəl. Sənan müəllim nə dedi?

- Müqabilində hədiyyə istədi, videomaqnitofon. Özü də televizorla birlikdə.

Quliyevin söylədikləri Elçini məyus etdi. Bir qədər düşünəndən sonra o, İlhama ürək sözlərini çatdırdı:

- Sənanın hansı yuvanın quşu olduğunu çoxdan bilirəm. Əliəyrinin biridir. Əgər rüşvət təşkilatımıza "mübarək qədəmlərini" basdısa, deməli, saf əqidəmiz puç oldu. Vətənpərvərliyimiz, dürüstlüyümüz, prinsipiallığımız, mərdliyimiz və daha nələrimiz...

Qaraxanovun sadaladığını yarımçıq kəsərək Ağəli də fikrini bildirdi:

- Bir dayanın e, qardaşlar! Elə danışırsınız ki, sanki dünyanın axırıdır. Ortada pul söhbəti yoxdursa, rüşvət də yoxdur. Hədiyyə nə vaxtdan rüşvət sayılır...

Bu dəfə Elçin Ağəlinin sözünü yarımçıq qoydu:

- Həmişəki kimi, Həsənov, məntiqivə bir quş. Sözündən belə çıxır ki, xeyirxahlığım müqabilində kimsə mənə

beşotaqlı mənzil, yaxud "QAZ-24" hədiyyə versə... rüşvət sayılmayacaq!?

- Ta o qədər yox da, Qaraxanov.

Uzun davam edən mübahisəyə İlham son qoydu:

- Rüşvətin mahiyyətini təhlil etmək bizlərə düşməz, dostlar. Onun erkəyi-dişisi olmur. Rüşvət Vətən xainlərinə xas olan haldır. Özü də bizim orqanda! Sabah iranlılar, birisi gün ingilislər, ermənilər, dalınca da fransızlar adamlarına artıqlaması ilə pul verəcək ki, Kərəmov vasitəsilə işə düzəlsinlər. Bəlkə də bu faciə "jek" və ya zibil idarəsində baş versəydi, mənə o qədər təsir etməzdi. Nəyisə, Həsənov! Təcili işim var. Getməliyəm. Nə vaxtsa məsələyə bir də qayıdarıq.

Əməliyyatçılar Quliyevin otağını kor-peşman tərk etdilər. Elçin birbaşa Elcanın kabinetinə üz tutdu. Orada onu Ali Məktəbin yetirmələri gözləyirdi. Növbəti toplantı Akademiyanı yenicə bitirmiş tələbələrə həsr edilmişdi. Azərbaycanda cərəyan edən siyasi prosesləri onlara elə anlatmaq lazım idi ki, milli mövqelərində möhkəm dursunlar. "Lap yerinə düşdü! Rüşvətin DTK-ya nə kimi ziyan vura biləcəyinin mahiyyətini də cavanlara çatdırmaq lazımdır" düşünən Qaraxanov Elcanın otağına girəndə gözlərinə inanmadı. İsrail Qulamov pəncərənin önündə Mehrabla şirin söhbət edirdi. Elçini görüncə Qulamov tez ayağa qalxdı və onunla görüşdü. Qaraxanov suala keçdi:

- Xeyir ola, Qulamov? Sən nə vaxt Akademiyamızı bitirdin?

- Başa düşdüm səni, Elçin. Sadəcə Aliklə işim var idi. Eşitdim ki, toplantınız var və onu görmək üçün Elcanın kabinetinə gəldim.

- Elə Alik deyib durursan. O, bizim ağsaqqalımızdır. Onun adı var: Ağəli Rəhimov. Özü də yaşda da, rütbədə də səndən böyükdür. Gərək insanda bir balaca mədəniyyət olsun.

Qulamov otaqdakılara üz tutaraq üzrxahlıq etdi. Qaraxanov bir daha onun gəlişinin səbəbi ilə maraqlandı. Qulamov utanaraq cavab verdi:

- Əmimin nəvəsi rayonumuzda tanınmış idmançıdır. İstəyirdim Ağəli müəllimdən xahiş edəm ki, onu xüsusi təyinatlılar dəstəsinə götürsün. Yoldaş Rəhimov Riyad müəllimin müavinidir axı.

- Bəli, İsrail, müavinidir. Bir azdan o da Elcanın kabinetinə gələcək. Amma Ağəli müəllimlə iclasdan sonra söhbət edərsən. Çoxdandır, dostlarından xəbər yoxdur. Onlar haradadır?

- Bilmirəm axı kimi nəzərdə tutursuz, Elçin müəllim.

- Elxanı, Tanrıverəni deyirəm! Onlara salamımı yetirərsən.

- Əleykümə salam! Mütləq, Elçin müəllim. Aşağıda məni gözləyirlər. Bir yerdə nahar edəcəyik. Vaxtınız varsa...

Qaraxanov İsrailin sözünü kəsdi:

- Nuş olsun. Bizim işimiz var. İnşallah, səninlə duz-çörək də kəsərik. İndisə icazə ver, yeni kadrlarımızla söhbət edək.

Akademiyanın yetirmələri əmin idilər ki, Qulamov həmən İnspeksiya şöbəsinə baş vuracaq və rəis Abdulla Müslümova toplantının iştirakçıları barədə geniş məlumat verəcək. Xoşbəxtlikdən Abdulla müəllim xeyirxah insan idi. Çalışırdı ki, heç kimə pisliyi keçməsin. Bir də ki, hamı onun şampan çaxırını sevdiyini gözəl bilirdi. Ona görə də nahar vaxtı onun yanına düşməyə İsrailin heç bir şansı yox idi.

Əməliyyatçılar Akademiyanı yenicə bitirmiş və Azərbaycan DTK-sının müxtəlif şöbələrinə təyinat almış məzunlarla geniş söhbət etdilər. Yeni əməkdaşlar Respublikada cərəyan edən hadisələrdən o qədər də xəbərdar deyildilər. Onların ağlına da gəlmirdi ki, qonşu Ermənistan Azərbaycanla müharibə apara bilərmiş. Elcan ilk sualı cavan leytenant Alxasova verdi:

- Sənin adın nə oldu, Alxasov?

- Cahangir, Elcan müəllim. Sizi və Elçin müəllimi yaxşı tanıyıram. Bu günədək Məktəbimizdə sizlərin azərbaycanlılara göstərdiyiniz qayğılardan danışırlar. Artıq biz doğma Vətəndəyik. Çalışacağıq ki, SSRİ məkanında DTK-mızın nüfuzunu əvvəlki kimi yüksəklərə qaldıraq.

Alxasovun pafoslu çıxışı onun Azərbaycanda cərəyan edən siyasi hadisələrdən uzaq olduğuna dəlalət edirdi. Elcan Cahangirdən 20 yanvar hadisələri zamanı nə ilə məşğul olduğu barədə soruşdu. Alxasov bir qədər fikirləşib gerçəyi anlatdı:

- Həmin ərəfədə azərbaycanlıları tətilə buraxmadılar. Çünki bir neçə xalq hərəkatı fəallarını Bakıda həbs edib

Moskvaya gətirmişdilər. Onları "Lublyankada" saxlayırdılar. Bizləri tərcüməçi qismində istintaqa cəlb etmişdilər.

Söhbətə məzun Ayaz Qədirov da qoşuldu:

- Mən də KQB-nin təcridxanasında tərcüməçi kimi fəaliyyət göstərirdim. Onu deyə bilərəm ki, həbs olunan "hərəkatçıların" tərəfini saxladıq. Onlara qalsaydı, səhvlərə yol verə bilərdilər. Amma bizim ustalıqla etdiyimiz tərcümə bir çoxlarını "dar ağacından" qurtardı.

Qədirovun sözləri toplantı iştirakçılarının ürəyinə yağ kimi yayıldı. Əməliyyatçı Nadir Əliyev də zarafatla sözlərini çatdırdı:

- Gördünüz də Ayazı. Mənim yerlimdi. Halal olsun! Ağdamlıların başını uca etdi...

Mehrab isə Nadirə cavab verdi:

- Ağdamlıların başını, Nadir, ilk növbədə sən uca edirsən. Qarabağdakı qəhrəmanlığını hamımız bilirik. Malıbəyli əhalisinin müdafiəsində fəal iştirakın bizləri çox qürurlandırdı.

Bir saat davam edən iclası Ağəli Rəhimov yekunlaşdırdı. O, Akademiyanı yeni bitirmiş məzunlara uğurlar dilədi. "Əminik ki, Azərbaycanın xüsusi xidmət orqanının nüfuzunu daha da artıracaqsınız" diləyi ilə Ağəli hamını yeməkxanaya səslədi. Bayıra çıxanda o, qapının ağzında İsrail Qulamova rast gəldi. Həmin günü Alikə nahar yeməyi qismət olmadı.

Müzakirələr yeməkxanada da davam etdi. Elcanın kabinetində bir söz söyləməyən Əhmədin dili nahar süfrəsi arxasında açıldı:

- Yuxarıda susmağımın səbəbi Moskva ezamiyyəti idi. Mən xidmətimi orada davam edəcəyəm.

Elçin Əhmədin dediyini anlamadı:

- Başa düşmədim! Azərbaycanın belə bir çətin dövründə aradan çıxırsan? Yəni, SSRİ KGB-sində fəaliyyət göstərəcəksən?

- Yox e, Elçin, məni düzgün başa düşmədin. Əksinə, Respublikamızın mənafelərini Moskvadakı səfirliyimizdə qoruyacağam...

Qaraxanov məyus halda fikrini davam etdi:

- İndiki zamanda Azərbaycanın mənafeləri yalnız Dağlıq Qarabağda qorunur. Erməni yaraqlılarını zərərsizləşdirmək üçün əlimiz burdan buraya çatmır. Moskvada olarkən Vətənə nə xeyrin dəyəcək?

- Ən azı erməni diasporunun bizə qarşı məkrli planlarını ifşa edəcəyəm. Bu işə Akademiyanı bizimlə birgə bitirən və hazırda SSRİ KQB-sində müxtəlif vəzifələrdə çalışan Sazonov, Perşukov, Matveyevləri cəlb edəcəyəm.

- Nə bilim, Əhməd? Sənə yalnız uğurlar diləmək qaldı. Amma inanmağım gəlmir ki, Moskvada otura-otura Azərbaycana xeyrin dəysin. Sənin kimi Rəsulun da gözü daima Moskvadadır. Guya sabiq kurs rəislərinə sübut etmək istəyir ki, nahaq yerə onu Bakıya paqonsuz yola salıblar.

Rəsul həmən Elçinə cavab verdi:

- Bəli, Qaraxanov, düz deyirəm. Hansısa erməni Samvelin üstündə məni Ali Məktəbdən qovdular. Qoy görsünlər ki, mən nəyə qadirəm.

- Ta denən öz mənafelərivi güdürsən da, Adilov.

- Mən hər şeyi düzgün təhlil edirəm, Elçin. Elə Ayaz Niyazoviçi dəstəkləməyimə də irad tuturdun. Deyim, nəyə görə onu tərifləyirdim? Çünki bizi Mütəllibov müstəqil etdi. On səkkiz oktyabrdan yəqin ki, xəbərin oldu. Ali Sovetimiz müstəqilliyimiz haqqında Konstitusiya aktı qəbul etdi. Dekabrda isə məsələ ümumxalq referenduma təqdim ediləcək.

Rəsulun qəfildən Ayaz Niyazoviçin müdafiəsinə qalxması heç də Elçinin ürəyincə olmadı:

- Kağız üzərindəkilərlə reallığı qarışdırmaqdan yana ölürsən də, Adilov. Demək istəyirsən ki, rəhbərimiz elə geniş mübarizə apardı ki, müstəqillik qazandı?

- Əlbəttə, Elçin. Etirazın var?

- Evin tikilsin, on dörd respublikanın hamısına müstəqillik verildi. Ölmüşdü da Rusiya, elə-belə bizləri azadlığa buraxsın. Bir şey ki, Allahın ermənisinə də müstəqillik bağışladı.

- Hə də! Rusiyanın zəifliyindən səmərəli istifadə etdik...

- Bəs mən nə deyirəm? Rusiya gücdən düşməsəydi, azadlığı qulağıvın dibində görərdin. Avqust hadisələrinə nə deyirsən? “QKÇP”-ni dəstəkləyənlərdən birincisi elə Mütəllibov idi...

Əməliyyatçıların mübahisələrinin dərinləşdiyini görən Elşən Tanrıverdiyev sanki  qurbağa gölünə daş atdı:

- Bilmirəm, eşitmisiniz ya yox, mən də Moskvaya gedirəm!

Elşənin sözləri hamının iştahını küsdürdü. Elçin bir qədər sakitləşib Tanrıverdiyevin planını öyrənməyə çalışdı:

- Sən də Əhməd kimi oradan Qarabağa yardım edəcəksən?

- Yox, Elçin. Mən birdəfəlik Moskvaya köçürəm. DTK-nı tərk edərək!

- Sənə nə oldu, Elşən?

- Nə olacaq e? Akademiyanı bitirəndən bəri məni atıblar texniki şöbəyə qızların yanına. Respublikamıza iki köpüklük xeyrim də dəymir. Bir sözlə, raportumu yazmışam. Gedirəm dostlarımız Tofiq və Racının yanına. Şirkət açıblar, tikinti ilə məşğuldurlar. Mənə də yaxşı maaş söz veriblər.

- Nə deməyimi gözləyirsənsə, Elşən, məsləhət özüvündür. Qoy Rəsul da qulaqlarını açıb eşitsin ki, indiki iqtidar mütəxəssislərlə nə cür davranır. Sənə də uğurlar diləyirəm. Hamımız sənin xətrivi çox istəyirik, yerin daima görsənəcək.

Vaxtilə dünyanı lərzəyə gətirən SSRİ dövləti dağılmağa başlamışdı. Vəziyyətdən səmərəli istifadə edən Ermənistan qonşusundan torpaq qoparmağa davam edirdi. Azərbaycan rəhbərliyi isə beş-on nəfər istisna olmaqla, dağılmaqda olan Sovet İttifaqının quyruğunu ötürmək fikrində deyildi. Bakı müstəqillik elan etsə də, dövlət atributlarının tətbiq etməsinə tələsmirdi. Sovet xofumu, əqidəsimi, xəyalımı Azərbaycanın başbilənlərinin qəlbindən, beynindən çıxmırdı ki, çıxmırdı. Respublikanın müstəqillik rəmzləri yalnız Naxçıvanda tətbiq edilirdi.

Muxtar Respublikada Azərbaycanın üçrəngli bayrağının yenidən yüksəlməsi, sərhədlərin şəffaflaşması, 7 noyabr bayramının ləğv edilməsi və ən əsası da qardaş Tür-

kiyə ilə əlaqələrin genişlənməsi sadə vətəndaşların qəlbində müstəqillik istəyini artırırdı. Təbii ki, belə hallar Azərbaycan rəhbərliyini narazı salır və Naxçıvanı onun gözündə üsyankar bölgəyə çevirirdi. Heydər Əliyev başda olmaqla Azərbaycanın Ali sovetinə seçilmiş naxçıvanlı deputatlar parlamentin iclaslarında təzyiq və təhqirlərə məruz qalırdı. Mütəllibov və onun komandasına çatmırdı ki, artıq imperiya caynağından qurtulmuş Azərbaycanı ona məxsus yollarla irəli aparmaq zamanıdır. Millət kökünə qayıtmalı idi. Necə ki, Baltikyanı dövlətlər Skandinaviya ölkələri ilə sıx əlaqələr qururdu, eləcə də Azərbaycan qardaş Türkiyə ilə təmaslarını hərtərəfli inkişaf etdirməli idi. Getdikcə xalqın qəlbində türkçülük ideyası baş qaldırırdı. Həmin ərəfədə Heydər Əliyevin "Bir millət, iki dövlət" müdrik kəlamı sürətlə azərbaycanlıların şüarına çevrilirdi.

Azərbaycan DTK-sında çalışan əməliyyatçıların əksəriyyəti ölkənin müstəqillik yolu uğrunda fəaliyyətini qurmaq əzmində idilər. Faciəvi 20 yanvar hadisələri, erməni separatçıları və terroristlərinin azərbaycanlılara qarşı cinayət əməlləri, Mərkəzin Bakıya yönəlik imperialist və ədalətsiz siyasəti sadə KQB əməkdaşlarını azadlıq yolunda daha da əzmkar olmağa sövq edirdi. Azərbaycan rəhbərliyində düşmən dövlətlərə çalışan fərdlər barədə onlarda məlumat var idi. Amma satqınlara qarşı fəallıq göstərəndə əməliyyatçılar vəzifədən kənarlaşdırılırdılar. Hakimiyyətə və xüsusən də güc strukturlarına Tofiq İsmayılov, Məhəmməd Əsədov, İsmət Qayıbov kimi vətənpərvər övladlar gətirilməli idi. Lakin bu tip insanları da Respublikaya çox görürdülər.

***

Min doqquz yüz doxsan birinci ilin iyirmi noyabr səhəri əməliyyatçıların üzünə çiskinli və dumanlı açıldı. Əvvəlcədən danışıldığı kimi Rzaqulu yolüstü Elçini də götürüb MTN binasına tərəf hərəkət etdi. Əməliyyatçıların kefi kök idi. Artıq Azərbaycanda KQB-DTK deyil, üç həftə idi ki, MTN, yəni Milli Təhlükəsizlik Nazirliyi fəaliyyət göstərirdi. Əməkdaşların yeganə məqsədi adı ilə bərabər MTN-nin mahiyyətini də dəyişməkdən ibarət idi. Yetmiş il ərzində SSRİ KQB-si ilə yanaşı fəaliyyət göstərən Azərbaycanın təhlükəsizlik orqanlarını iki-üç həftə ərzində milliləşdirmək o qədər də asan məsələ deyildi. Eləcədə iqtidar, yaxud müxalifət nümayəndələrinin beynindən kommunist ideyalarını anidən silib atmaq mümkünsüz idi.

Sovet dövrünün törəmələri! Kim desəydi ki, "vəssalam, mən artıq müstəqil və vətənpərvər düşüncəli insanam",- yaxşı halda ona gülərdilər. Çünki kommunist ideyaları, sovet rejimi qorxusu bir ay ərzində heç kimin şüurundan çıxası deyildi. Müstəqillik uğrunda fəaliyyət göstərmək üçün Azərbaycanın xüsusi xidmət orqanlarının nə təcrübəsi, nə də ki konstitusiya aktından ibarət bazası var idi.

Elçin MTN binasına girib ilk növbədə arxivə baş vurdu. Onun hələ Moskvada təhsil alarkən xarici dövlətlərin xüsusi xidmət orqanlarına dair konspektləri orada saxlanılırdı. Bəzi əməkdaşlar kimi Qaraxanov da həmin materiallar əsasında Azərbaycan MTN-nin hüquqi bazası üçün sənədlər tərtib edirdi. Axşama yaxın arxivin rəisi Bayram

müəllim Elçinin çalışdığı otağa gəlib Azərbaycan tarixində baş verən bəd xəbərlərdən birini çatdırdı:

- Elçin, rəisin Osmanov səni axtarır...

- Xeyirdir, Bayram müəllim, əlimdə mühüm işlər var.

- Dağlıq Qarabağ ərazisində vertolyotumuzu vurublar. Deyilənlərə görə Azərbaycanın qaymaqları həlak olub.

Qaraxanov bir kəlmə belə söyləmədən məxfi dəftərləri təhvil verib bölməsinə tərəf üz tutdu. Osmanovun kabinetində bölmənin əməkdaşları kədər içində müzakirələr aparırdı. Seyfəddin Osmanov məyus səslə bəd xəbəri təkrarladı:

- Cənab zabitlər! Tofiq İsmayılov başda olmaqla Azərbaycanımızın dövlət xadimlərini daşıyan vertolyot Xocavənd rayonunun Qarakənd ərazisində vurulub. Hal-hazırda hadisə yerində ekspertlər çalışır. Hələlik sağ qalanlar barədə məlumat daxil olmayıb.

Rəisin məlumatından sonra Məmmədəli Fərəcov başını aşağı salıb sakitcə ağlından keçəni söylədi:

- Meymunu yadınıza salmayın...

Fərəcovun dediklərini anlamayan Ağəli Həsənov ona sual verdi:

- Faciəmizin bu vaxtında meymun nə deməkdir, Məmmədəli?

- Heç olmasa Mirzə Fətəli Axundovu tanıyırsan, Həsənov?

- Mən rus məktəbini bitirmişəm, Fərəcov. Lağ etməyə dəyməz. Puşkin, Lermontovdan sual ver dilini qurudum...

Rəis əməliyyatçıların mübahisəsini eşidib hər ikisinə irad tutdu:

- Biz nədən danışırıq, siz nəyi müzakirə edirsiniz!? Erməni faşistləri dağ kimi insanlarımızı məhv edib, sizsə "kimyaqər Xəlildən" dəm vurursunuz!

Söhbətə əməliyyat müvəkkili Tariyel Cümşüdov da qoşuldu. O, faciəni törədənlər haqqında soruşdu:

- Seyfəddin müəllim, həqiqətənmi bu cinayəti də ermənilər törədib?

- Hadisə yenicə baş verib. Amma  dolayı sübutlar çoxdur. Birincisi, vertolyot ermənilərin sıx yaşadığı rayon üzərində vurulub. İkincisi, gizyarımız Qarakənddə xaricdən gələn çoxlu erməni yaraqlısının məskunlaşdığını bildirib. Üçüncüsü, Ermənistan DTK-sının rəhbərliyi bu yaxınlarda keçirdiyi iclasda Azərbaycanın bəzi vətənpərvər rəhbərlərinin aradan götürülməsini müzakirə edib. Və nəhayət, son iki ildə "saqqallıların" və daşnakların Respublikamızda və onun hüdudlarından kənarda partlatmadıqları avtobus, qatar, avtomobil qalmayıb. Daha nə sübut lazımdır?

- Əlbəttə rəis, sizinlə tam razıyam. Sadəcə onu demək istədim ki, biz azərbaycanlılar qanunlara riayət edən millətik. Ermənilərin səviyyəsinə enməmək üçün hadisə barədə ciddi dəlillərimiz olmalıdır...

Ağəli Həsənov Cümşüdovun sözünü kəsib rəisinin dediklərini bir daha təsdiqlədi:

- Ona görə də Seyfəddin müəllim "dolayı" terminindən istifadə etdi. Amma əminəm ki, sabah ya birisi gün terror aktının arxasında ermənilərin və onların havadarlarının durması aşkara çıxacaq.

Bir neçə dəqiqə davam edən toplantı yekunlaşdı. Osmanov əməliyyatçılara göstərişlərini verdi. Rəislərinin kabinetini tərk edən Həsənov Məmmədəlidən "meymun" məsələsini bir daha aydınlaşdırmaq istədi:

- İndi mənə "meymunu" anlada bilərsənmi?

- Həsənov, "meymunu" anlatmaq üçün gərək sən rus ədəbiyyatı ilə yanaşı bizimkini də oxuyasan. Qısası, vertolyotla əlaqəli terror aktını ermənilər törədib. Bir də ki, daşnaklara uçuş barədə kimsə dəqiq məlumat ötürüb.

- Demək istəyirsən ki, yuxarılarda satqınlar var?

- Qəribə sual verdin, ə, Həsənov! Qıraqdan baxan elə bilər ki, fil qulağında yatmısan. Iyirmi yanvar ərəfəsində Mərkəzin göstərişi ilə ona lazım olan yanlış məlumatları kimlər ötürürdüsə, indi də onlar öz fəaliyyətindədir. Nə qədər ki, yanvar faciəsi ilə əlaqədar cinayət işi açılmayıb, cəzasız qalmış satqınlar bəd əməllərindən əl çəkməyəcəklər. Bu günə kimi arvadı, anası, dayısı erməni olanlar hakimiyyətimizdə yüksək vəzifə sahibləridir!

Həsənov Məmmədəlinin dediklərinə lağla cavab verdi:

- Elə demə, Fərəcov, biz tolerant millətik.

Ağəlinin sözlərindən Məmmədəli çaş-baş qaldı:

- Son cümləni sən işlətdin, Həsənov? Lermontov aşiqi! Əgər sən də dilə gəldinsə, deməli, müstəqilliyimiz əbədi olacaq!

- Bir sözlə, "meymunu" anladım, Fərəcov. Yəni vertolyotun erməni faşistləri tərəfindən partladılmadığını necə düşünək?

- Halaldır sənə, qardaş. Fikirlərinin yanına onu da əlavə et ki, nə üçün terror aktına sayılan dəqiqələr qalanda

vertolyotun sərnişinləri siyahısından filan tanınmış şəxsin adı çıxarılıb? Bildin da, Ağəli, kimi nəzərdə tuturam?

- Başa düşdüm, Məmmədəli. Müəmmalar, suallar çox, gerçəklik, cavablar az. Gedim işlərimin dalınca. Həll ediləsi məsələlər var. Hələlik Fərəcov.

Vertolyot faciəsindən bir həftə sonra dolayı sübutlar əsl dəlillərə çevrilməyə başladı. Hava nəqliyyatının vurulduğu yerdə erməni yaraqlılarına məxsus mərmi və güllə gilizləri tapıldı. Vertolyot vasitəsi ilə çəkilişə gedən jurnalistlərin videokameraları, digər sərnişinlərin isə bahalı əşyaları "saqqallılar" tərəfindən oğurlanmışdı. O da məlum idi ki, həmin ərazidə bir nəfər də olsun, azərbaycanlı kökənli vətəndaş yaşamırdı.

***

Eyni ilin, eyni fəslin eyni günlərində Yerevanda başqa hadisələr cərəyan edir, fərqli ab-hava hiss olunurdu. Azərbaycanlılar nə qədər bu hadisələrdən narahat idilərsə, ermənilər o qədər şövqlə gedişata qoşulmuşdular. Çünki onları kimlərsə inandırmışdı ki, bu hadisələr Böyük Ermənistan xəyalını gerçəkləşdirəcək. Axır ki həmişə "əzilmiş" bu kiçik xalq özünü böyük millətlər kimi, xüsusən qonşuları Azərbaycan kimi əzəmətli görəcək. Millətlər də insanlar kimi aşağılıq kompleksinə malikdirlər və millətləri də insanlar kimi bu qüsur uçuruma sürükləyir. Təəssüflər olsun ki, onlar bu uçuruma özləriylə birgə günahsızları da sürükləyirlər.

General Serjik Stepanyan qürurla kabinetinə tərəf irəliləyirdi. Qapının ağzında onu komandası, yəni polkovnik-

ləri Yesayan, Tarverdiyev və Simonyan gözləyirdi. Onların da kefi kök idi. Azərbaycana qarşı törətdikləri təxribat əməllərinə dair deyiləsi sözləri kifayət qədər idi. Tabesindəki əməkdaşları "görürəm hamınız gülürsünüz" sözləri ilə "salamlayaraq" general otağına daxil oldu və arxasınca zabitlərini dəvət etdi. Stepanyan həmən mühüm məsələlərin müzakirəsinə keçdi:

- İlk növbədə Salatın Əsgərovanı zərərsizləşdirən qəhrəmanlardan söz açmaq istərdim. Uzun danışıqlardan sonra Moskvanı razı sala bildik. Onlar "cəzalarını" Yerevanda çəkəcək.

Generalın verdiyi xəbərdən sonra zabitlərin əhval-ruhiyyəsi bir az da yüksəldi və Yesayan Stepanyana sual verdi:

- Nə əcəb, yoldaş general? Mən heç inanmazdım. Bəs azərbaycanlılar vətən oğullarımızın əvəzinə heç kimi istəmədilər?

- İstədilər, İqor, istədilər. Koçaryanın dəstəsinə əsir düşmüş on-on beş nəfər kəndlisini və səkkiz nəfər "omonçusunu". Bunları mən bir nəfərimizlə də əvəzləyərdim. Bizimkilər maşallah pələngdirlər!

Müzakirələrə Tarverdiyev də qoşuldu:

- Azərbaycan rəhbərliyinə sözüm qalmadı. Halal olsun onlara. Bilə-bilə ki, SSRİ-nin süqutuna sayılı aylar qalıb, yenə də Moskvanın göstərişlərini gözüyumulu icra edirlər. Bəs siz nə edərdiniz, yoldaş Stepanyan?

- Əlbəttə, təhvil verməzdim. Hamısını güllələyərdim!

Aşot təkidlə generalını sorğulayırdı:

- Bizim əsirlərin taleyi necə olardı? Onları da azərbaycanlılar qətlə yetirərdi...

- Etməzdilər, yoldaş Tarverdiyev. Mən onların mərhəmətinə yaxşı bələdəm. Bir də ki, müharibənin qanunu budur. Vətən üçün hər vətəndaşımızın qanı halaldır.

Stepanyanın pafoslu nitqi zabitləri daha da ruhlandırdı. Onların hamısı "generalımıza eşq olsun" qışqıraraq müzakirələrə davam etdilər. Tarverdiyev bir daha fikirlərini bölüşdü:

- Mərkəzə minnətdar olmalıyıq ki...

Simonyan Aşotun sözünü yarımçıq qoydu:

- Hörmətli dostum, Mərkəzə deyil... Azərbaycan rəhbərliyinə minnətdar olmalıyıq. Sovet İttifaqı çöksə də, onlar Moskvanın göstərişlərini ölənə qədər şərəflə yerinə yetirəcək.

Tarverdiyev inadından əl çəkmirdi:

- Mən də elə bunu bilmək istəyirəm də, Karo. Niyə?

- Bilmirəm, Aşot. Bəlkə də Mütəllibov və Qorbaçov arasında "sehrli" bağlar mövcuddur. Ancaq keçən dəfə dediyim sözlərin arxasında dururam: qorxaqlıq. Yadınızdadır? Generalımız məndən hakimiyyətə yeni gəlmiş Mütəllibov barədə soruşdu! Cavabında mən nə dedim? Söylədim ki, qorxaqdır. Unutmayın ki, kəşfiyyat hər şeyə düzgün qiymət verir.

Necə deyərlər, Simonyanın çiçəyi çırtlamışdı. Bəlkə də son iki ayda ilk dəfə səhih məlumat verən Simonyan ermənilərə xas qaydada özünü az qala yer kürəsində kəşfiyyat xidmətinin yaradıcısı kimi qələmə verirdi. Halbuki

Azərbaycanda cərəyan edən proseslər barədə dolğun xəbərləri Karodan ziyadə Yesayan təqdim edirdi. Zabitlər mübahisəni bitirdikdən sonra Stepanyan çıxışına davam etdi:

- İkinci xoş xəbər ondan ibarətdir ki, Dağlıq Qarabağ muxtar vilayəti Köçəryanımızın başçılığı altında müstəqil yaşamağı bacardı.

Aşot Tarverdiyev yenə də öz ampluasında idi:

- Onu bildik e, yoldaş general. Lakin Vilayət müstəqilliyini elan edəndən bəri iki-üç ay keçsə də, bizimkilər hələ də onu tanımayıb. Azərbaycan isə Dağlıq Qarabağ muxtar vilayəti qurumunu, ümumiyyətlə, ləğv edib. Bunun nə ilə bitəcəyini bir Allah bilir.

Stepanyan əsəbiləşərək Tarvediyevin cavabını verdi:

- Sən lap Azərbaycanın vətənpərvər oğlu kimi danışdın, Aşot. Qarabağı tanıyacağıq və bütün dünyaya tanıtdıracağıq! Sizi bu gün toplantıya dəvət etməyimin səbəbi də elə budur.

Polkovniklər bir qədər sakitləşdilər. Yesayan generala sual verdi:

- Yoldaş Stepanyan, Qarabağın müstəqil dövlət kimi tanınması üçün nə etməliyik? Təki siz əmr və göstəriş verin.

General ağıryana şəkildə düşüncələrini bildirdi:

- Köçəryanın başçılıq etdiyi Ali sovet Dağlıq Qarabağı müstəqil dövlət kimi elan edib. Amma bu kafi deyil. Bütün dünya bilir ki, "müstəqil Qarabağ" qondarma bir qurumdur və əzəldən bəri Azərbaycan Respublikasının ərazisidir. Ermənistan Azərbaycanın vilayətini dövlət kimi ta-

nısa belə, ölkələrin heç biri bunu etməyəcək. Ona görə də Yerevan hələ gözləmək mövqeyindədir. Daha doğrusu, gələcəkdə muxtar vilayəti müstəqil qurum kimi tanımaq üçün münasib zəmin yaradır.

Simonyan rəisinin sözlərindən təəccüblənərək ona sual verdi:

- Yoldaş Stepanyan, demək olar ki, ümidimizi qırmaq üzrəsiniz. Bəs biz Azərbaycanın ərazisində qırğınları, partlayışları nə üçün törədirdik? Onun üçün ki, türkləri Dağlıq Qarabağın ərazisindən qovaq və Muxtar vilayəti respublikamıza birləşdirək. İndi nə edirik? Hətta onu müstəqil dövlət kimi tanımaq istəmirik.

- Karo! Elə danışırsan ki, guya Dağlıq Qarabağın taleyi tək səni narahat edir. Təbii ki, respublikamızın rəhbərləri bu sahədə geniş fəaliyyət göstərir. KQB əməkdaşlarının payına isə planetin ən başıbəlalı və məzlum millət olduğumuzu sübut etmək düşür.

- Sizi başa düşmədim, yoldaş general. Necə olur ki, azərbaycanlıların üzərində qələbə çalan, onların torpaqlarını viran qoyan, təxribat aktları nəticəsində türkləri qıran biz başıbəlalı xalqa çevrilirik?

- Bəs təklifin nədir, yoldaş Simonyan? Hər yerdə boğazımızı yırtaq ki, ən zalım millət biz ermənilərik? Bir-iki yerdə də belə fikir söyləsən, ümumiyyətlə, dünyada bizləri terrorçu millət kimi tanıyacaqlar. Sən olan yerdə bizlərə düşmən lazım deyil ki! Təbliğat, ay kişi! Təbliğat və təşviqat Qarabağı bizə təhvil verəcək. Ona görə də bütün ölkələr bilməlidir ki, biz azərbaycanlıları deyil, azərbaycanlılar erməniləri qırıb öldürür. Aydındır sənə, polkovnik?!

- Aydın olmağına aydındır, yoldaş Stepanyan. Lakin mən istərdim ki, dünya xalqları bizi məzlum yox, qəhrəman, igid, mərd xalq kimi tanısın.

- Nə qoyub, nə danışırsan, bədbəxt insan? Tarixin hansı kəsimində bizim qələbələrimiz olub? Heç vaxt. Rusların yardımı ilə günün günorta çağında girib qonşumuzun torpaqlarını zəbt etmişik. Əməllərimizi dünya ictimaiyyətinə baş-ayaq çatdırmasaq, bizi təcavüzkar xalq kimi tanıyarlar. Ona görə də başıbəlalı və məzlum millətə çevrilməliyik ki, özümüzü təmizə çıxara, türklərin başına isə bəla gətirə bilək.

- Yoldaş general, bəlkə...

Simonyanın məntiqsiz suallarından zara gələn Yesayan qətiyyətlə onun səsini kəsdi:

- Heç bir bəlkəsi-filanı yoxdur, Karo. Generalla tam razıyam! Bəli, biz ermənilər başıbəlalı millətik, azərbaycanlıların zülmündən canımızı qurtarmalıyıq. Qarabağdakı fəaliyyətimizi elə pərdələməliyik ki, gəlişmiş dövlətlər gələcəkdə də arxamızda dursunlar. Unutma ki, başıbəlalı milləti bütün xalqlar sevər, bəsləyər, dərdinə şərik çıxar. Bunun üçün əlimizdə hər bir imkan mövcuddur: müxtəlif ölkələrin radio-televiziya vasitələri, qəzet, jurnal və daha nələri təsirimiz altındadır. Onların köməyi ilə bütün dünya xalqlarına azərbaycanlıların zalımlığını, bizlərin məzlumluğunu çatdıracağıq. Artıq söhbətə ehtiyac yoxdur.

Yesayanın alovlu çıxışından məmnun qalan general başqa mövzunun müzakirəsinə keçdi:

- Keçən toplantımızda İqor Yesayan Dağlıq Qarabağ ərazisində hələ də azərbaycanlıların “mülkiyyətində” qal-

mış bir-iki kəndin boşaldılması üçün fədailərimizin bizdən əmr gözlədiyini söyləmişdi, elədirmi, İqor?

- Bəli, yoldaş general! Həmin kəndlərdən biri Xocalıdır. Hətta onun ərazisində hava limanı da yerləşir.

- O vaxt gəlib çatmışdır, yoldaş polkovnik. Kəndi boşaltmaq üçün tədbirlər planı hazırlayın. Azərbaycanlıları oradan elə qovun ki, qətllərinin, işgəncələrinin sədası əsrlər boyu eşidilsin.

- Aydındır, yoldaş Stepanyan. Əmrinizi şərəflə yerinə yetirəcəyik. Artıq Sovet ordusunun Qarabağda yerləşən üç yüz altmış altıncı motoatıcı polkunun rəhbərliyi ilə müzakirələrə başlamışıq.

- Bir sözlə, İqor, sizin üçün rəhbərlikdən hər bir dəstək gələcək. İşinizdə möhkəm olun. Sizə uğurlar arzulayıram.

General Stepanyan toplantını yekunlaşdırmaq istəyirdi ki, yadına gündəmin bir məsələsi də düşdü:

- Az qala vertolyot hadisəsinin müzakirəsi yadımdan çıxacaqdı...

Yesayan rəhbərinin sözünü kəsib fikrini bildirdi:

- Yoldaş general! Yaxşı ki, bu məsələ yadınızdan çıxmışdı. Demək istəyirəm ki, onun müzakirəsinə ehtiyac qalmayıb...

Stepanyan əsəbi tonla:

- Nə vaxtdan, İqor, generalın sözünü kəsmək hüququ qazandın? Min dəfə sizlərə tapşırmışam ki, fikirlərimi bitirmədən mənə avara təkliflər verməyin! Yoxsa vertolyot məsələsində qüsur və uğursuzluğunu gizlətmək istəyirsən!?

- Mən qələt edərəm, sizin sözünüzü kəsərəm, yoldaş Stepanyan. Sadəcə hiss etdim ki, yorulmusunuz və sizə də dincəlmək lazımdır...

- Qəti mənim əvəzimə qərarlar qəbul etməyəsən, polkovnik Yesayan! Aydındır sənə?

- Bəli, yoldaş general. Üzr istəyirəm.

- Özünüzü zabitə yaraşan tərzdə aparın. Dediklərim hamınıza aiddir. Nə isə, keçək vertolyot məsələsinə. Deməli, İqor, sənin əməliyyatçıların üzündən azərbaycanlılar hadisədə barmağımızın olmasından əmindilər. Hətta onların mütəxəssisləri vertolyotu vurduğumuz yerdə əməliyyatımızı ifşa edəcək izlər, dəlillər toplamağa nail olublar. Dilənçiliyiniz və acgözlüyünüz məharətlə keçirdiyimiz əməliyyatın nəticələrini heçə endirəcək. Gör nə günə qalmısınız ki, adamlarınız hadisə yerindən həlak olanların əşyalarını oğurlayıblar: saatlarını, üzüklərini, videokameralarını. Ayıbdır, e! Hətta, vertolyota atdığınız mərmi və güllələrin gilizlərini yığışdırmağa belə səy göstərməmisiniz. Mərkəzdəki dostlarımızın qara qutunu müayinə etməsinə baxmayaraq, irəli sürdüyümüz versiya, yəni vertolyotun pis hava şəraitində qəzaya uğraması azərbaycanlılar tərəfindən heçə endirilib.

Tarverdiyev də mövzuya aid məlumatları bölüşdü:

- Hörmətli general, icazənizlə mən də vertolyotun partladılması barədə bir-iki kəlmə söyləyərdim.

- Buyur, Aşot, söylə.

- Sizinlə tam razıyam, yoldaş Stepanyan. Hadisə üzrə təhqiqat geniş rezonansa səbəb olub. Türklər Moskvadan dəvət etdikləri mütəxəssislər vasitəsilə erməni kəndlərinin əhalisini sorğu-suala tutublar. Kəndçilərimiz də tənbəllik etməyib ərazilərində qeyri-qanuni məskunlaşmış Suriya

və Livan mənşəli ermənilərə dair məlumatları ruslara təqdim ediblər.

- Yəni rus qardaşlarımız bizə qarşı bu qədər azğınlaşıblar?

- Bəli, yoldaş general. Çünki vertolyotda azərbaycanlılardan savayı rusların və qazaxların da nümayəndələri olub. Elə götürək Dağlıq Qarabağın KQB rəisini, təmiz rusdur, Sergey İvanov. O da partlayış zamanı həlak olub.

Stepanyan vertolyotla əlaqədar məlumatlardan məyus olmuşdu. Zabitlərini diqqətlə dinləyəndən sonra o, cəmi bir kəlmə söylədi:

- Allah bizləri qorusun!

Simonyan rəisinin üzünə baxıb qəmli səslə ürəyindən keçənləri bildirdi:

- Heç inanmıram ki, bu əməlimizə görə Allah imdadımıza yetsin.

Serjik Stepanyan dərdli notlarla iclası yekunlaşdırıb zabitlərini evlərinə buraxdı. Özü isə mühafizəçilərin müşayiəti ilə Yerevanın qaranlıq küçələrini piyada dolaşaraq uşaqlıq dostu Markosun mənzilinə üz tutdu. Orada onu yubiley tədbirinə toplaşan digər dost və tanışları gözləyirdi.

***

Təbiət cəmiyyətə heç zaman uyğunlaşmır, hər zaman öz gərdişindədi. Onu nə müharibələr, nə siyasi oyunlar maraqlandırır, nə millətlərin problemləri. Nə olursa, olsun, fəsillər sırayla dəyişir, təqvim təzələnir, Günəş hər qaranlığın üstünə doğur, səhər hər gecədən sonra açılır. Bəlkə elə bu səbəbdən həyat illərdi davam edir, haqq tərə-

zisinin gözü zaman-zaman əyilsə də, ədalət gec-tez qalib gəlir.

... Azərbaycanlıların qeyri-müəyyən bir zamanda yaşamasına baxmayaraq, mövsümlər ötüşür, min doqquz yüz doxsan birinci ilin payızı yerini yavaş-yavaş qışa verirdi.

Paytaxtımız yeni il ərəfəsini yaşayırdı. Sakinlər bazarlara baş vurur, yeni il üçün qida və əyləncə məhsulları axtarırdı. Lakin bu qışda da əhali əvvəlki bayram əhval-ruhiyyəsində deyildi – ermənilər tərəfindən azərbaycanlılara qarşı hər an törədilə biləcək yeni faciələrlə dolu xəbərlər insanları sarsıdırdı. Dünyanın bir çox ölkələrində təmtəraqla keçirilən yeni il şənlikləri Azərbaycana sanki siraət etmirdi – azərbaycanlılar son dörd ildə onu təşviş, problem, həyəcan içində qarşılayırdı. Bir tərəfdən də SSRİ yerinə yaradılan Müstəqil Dövlətlər Birliyi. Sadə vətəndaşlar MDB-dən də müsbət xəbərlər gözləmirdi. Birincilər sırasında həmin quruma daxil olan Azərbaycanın rəhbərliyi bu əməli ilə fəxr etməkdə, yeni ilə qədəmlərini xoş əhval-ruhiyyə ilə basmaqda idi.

Səhər tezdən Elçinlə Fuad bazara gəldilər. Onlar həyata yeni göz açmış balaları üçün süd almalı idilər. Dərddən, bəladan, ölüm-itimdən, erməni faşistlərinin törətdiyi terrordan, qətllərdən, tükürpədici xəbərlərdən təşvişə düşmüş Azərbaycanın gənc analarının körpələrinə verməyə südləri kifayət qədər yetmiri. Buna görə də həftənin altıncı günləri dostlar Səriyyə xalanın onlar üçün saxladığı inək südünü almağa məcbur idilər.

Bazarı gəzərkən əməliyyatçılar siyasi durumu da müzakirə edirdilər. Daha nəyi müzakirə etsinlər ki? SSRİ-dən miras qalan ağır iqtisadiyyatımı? Problemlər barədə söhbətə birinci Elçin başladı:

- Deyirəm, Fuad, çox vacib idi ki, atıla-atıla gedib MDB-yə qoşulaq? Özü də bilə-bilə ki, qanımıza qəltan edən Ermənistan da oradadır! Yağışdan çıxıb yağmura düşdük, qardaş.

- Bəs sən hansı təşkilata girməyi üstün tuturdun, Elçin?

- Mütləq harasa girməliyik, Fuad? Olmaz ki, elə öz müstəqilliyimizə daxil olaq, sərbəst yaşayaq, inkişaf edək...

- Ay-hay! Sərbəst yaşayaq? Dünyanın əjdaha kimi böyük dövlətləri də bunu deyir. Kiminsə ətəyindən tutmağa məcburuq, Elçin. Ermənistan sənə dərs olmur? Arxalarını dayayıblar güclü dövlətlərə. Xəncərlərinin qabağı da kəsir, dalı da.

- Bax Fuad, elə onu istəmirəm. Arxa dayamaq! Nə qədər də iyrənc səslənən ifadə. Əgər elədirsə, olmaz ki, üzümüzü çevirək Türkiyəyə, yəni qardaşımıza.

- Heç də asan məsələ deyil bu, dostum. Böyük dövlətlər imkan verməz ki, əjdahanın başı yenidən bədəni ilə birləşsin. Təsəvvür edirsən? Biz türklərlə birləşsək, sakit okeana çıxış əldə edəcəyik. Səncə, belə halı kimsə həzm edə bilərmi?

- Tamamilə həyata keçiriləsi məsələdir, Fuad. Odur e, Naxçıvan. Heydər Əliyevlə Suleyman Dəmirəl Araz çayı üzərindən yeni körpü saldılar. Adını da "Ümid" qoydular.

Nəyi pisdir? Daha doğrusu, kim nə deyə bildi? Nəzərdə tutduğun bütün böyük dövlətlər səslərini kəsib yerində oturdular.

- Əslinə qalsa, səninlə tam razıyam, Elçin. Lakin müzakirə etdiyimiz məsələnin əmması var.

- Nədən ibarətdir o "əmma"?

- Deyir, sən saydığını say gör, fələk nə sayır! Yəni, bizim fikrimizlə Mütəllibov və onun komandası razılaşarmı? Əlbəttə ki, yox. Onlar artıq öz seçimlərini ediblər: Müstəqil Dövlətlər Birliyi ilə uçuruma irəli!

- Bəli, Fuad! Bədbəxtliyimiz də elə bundadır. Biri hamam xülyasında, digəri isə əbədiyyən güzgünün önündə.

- Yenə cəhənnəm. Bir balaca xəyallara dalıb göylərə qalxdıq. İndi isə "kaşa" vaxtıdır. Balalarımız yəqin ki, acıblar. Daha doğrusu, "mannı kaşa" xəyalındadır...

- "Mannı kaşa", Fuad?

- Yenə başlama ha, Elçin. Bilirəm ki, o sözü bəyənmədin...

- Belədir da, Fuad. "Mannı kaşa" yeyən uşaq gələcəkdə Rusiyanın vətənpərvər övladı olacaq!

- Yaxşı, Elçin. Bəs bu yeməyi nə cür adlandıraq? Horra?

- Horra, yaxud sıyıq! Məgər pis səslənir? Bir onu bilirəm ki, "mannını" həyatı boyu dəyişə bilməyəcəyik. Yaxşı ki, dilimizdə "ana südü" anlayışı var. Əgər ona da "materinski moloko" desəydik, kökümüz tamamilə kəsilərdi. Ümidimizi qırmayaq. İnşallah, gələcəkdə dil alimlərimiz "mannı" sözünə çarə tapa biləcəklər.

- Nəysə, Elçin. Unutma ki, bu gün rəhmətlik Qayıbov, İsmayılov, Əsədov və Azərbaycanın digər fədailərinin qırxıdır. Allah onlara qəni-qəni rəhmət eləsin.

Bazarda işlərini bitirib aldığı qida məhsullarını evə çatdırdıqdan sonra əməliyyatçılar DTK-ya gəldilər. Qaraxanov yenicə kabinetinə daxil olmuşdu ki, telefonuna zəng gəldi:

- Eşidirəm sizi!

Aparatın o biri ucunda Elçinin çoxdan zəngini gözlədiyi dostu idi:

- Ağsaqqal səni qəbul etməyə razılıq verdi. Çalış sabah Naxçıvanda olasan...

Adı DTK-dan MTN-ə dəyişdirilən Azərbaycanın xüsusi xidmət orqanını isə ağır fəaliyyət, keşməkeşli yollar, uğursuzluq və yeni nailiyyətlər gözləyirdi.

# EPİLOQ

## SAKİT ÜFÜQLƏR VƏ YA HƏYAT DAVAM EDİR

İki min iyimi beşinci ilin mart ayının sonlarıydı. Novruz bayramı ab-havası hələ tamamilə çəkilib-getməmişdi. Bu il yaz Bakıya erkən gəlmişdi, havalar aprel ayının sonlarını xatırladırdı. Elçin Qaraxanov öz köhnə dostları, həmkarları ilə "Çuxur" restoranında görüşə gəlmişdi. O, həmişəki amiranə səsiylə soruşdu:

- Hamı yığışdı, Elbir?

Elbir Əmiraslanov da həmişəki mülayim tövrüylə dostunun sualına cavab verdi:

- Siyahıda on beş nəfər idik. Vaqif xəstədir, Nurməmmədov da  həmişəki kimi yubanır. Hələlik on üç nəfərik, Elçin.

Dostlar, yəni Azərbaycan Respublikası təhlükəsizlik orqanlarının veteranları heç olmasa ayda bir dəfə Bakının kənarında yerləşən "Çuxur" restoranında görüşürlər. Necə deyərlər, paytaxtın sakit güşəsində. Səs-küydən, ən əsası da maşınların yaratdığı cansıxıcı tıxaclardan uzaq bir yerdə.

Hər kəs öz görünüşündəki fərqi elə də hiss etməsə də, hər görüşdə bir-birlərinin nə qədər dəyişdiyini təəssüflə qeyd edirdilər. Zaman təkcə onların üz cizgilərini, bədən quruluşlarını deyil, davranışlarını da dəyişmişdi. Dostlar əvvəlki kimi tezcanlı deyildi, zaman onları öz ələyində

ələyib, xəlbirindən keçirmişdi. İnsanı yaşantılar qədər heç bir kitab öyrədə, həyat qədər heç bir müəllim anlada bilməz. Gənclik özünü həyatın mərkəzi hesab edirsə, yaşlılıq özünü sakit və güvənli bir liman sanır.

Odur ki, iki min iyirmi beşinci ilin bu ılıq mart günündə vaxtilə SSRİ-yə aid DTK Akademiyasını bitirən məzunlar həmin restoranda yemək-içməkdən çox cavanlıqlarını, sərgüzəştlərini, doxsanıncı illərin ağır dövrlərini yada salır, onların üzərindən bir daha diqqətlə keçirdilər.

Bu dəfə də yığışmağa səbəb var idi. İyirmi səkkiz Mart Azərbaycan xüsusi orqanları əməkdaşlarının peşə bayramı idi. Dostlar bu münasibətlə toplanmışdılar. Gündəmdə Malikin məsələsi də var idi. O, tələbəlik illərindən bəri hər tədbirə gecikməyi "sevərdi". Məzunlar onu tənqid atəşinə tutmuşdular ki, qarson içəri daxil olub Nurməmmədovu dəhlizdə gördüyünü bildirdi:

- Elçin müəllim, dostunuz yoldadır, daha doğrusu restorana daxil oldu.

Qarson sözlərini bitirməmiş Malik məclisə, necə deyərlər, varid oldu. Hamı bir ağızdan ona "xoş gəldin" dedi. İradlarını bildirmək istəyirdilər ki, Elbir işarə ilə "sakit olmağı" bildirdi. Veteranlar heç kimi tənqid atəşinə tutmadılar. Nə də olsa, cılız bədənli Nurməmmədi incitmək istəmədilər, çünki o, xasiyyətcə küsəyən idi. Elçin komandir səsiylə "hamımız" yığışdıq, keçək əsas məsələyə",- deyib, gözü ilə Elbirə badələrə araq süzmə işarəsini verdi. Masanın üzərində yeməklər hazır idi. Hamı kimi dostlar lülə, tikə kabablarına o qədər üstünlük vermirdilər. Menüdə

yalnız qazan yeməkləri seçilmişdi. Veteranlar qədim Azərbaycan mətbəxi vurğunları idi. Ona görə də kimi küftə, kimi isə Şəki pitisini sifariş etmişdi. Bu günkü görüş üçün Elçin Naxçıvandan dadlı "qavırma" da gətizdirmişdi. Veteranlar, xüsusən də Malik həmin təama üstünlük verirdi. Dostların şıdırğı söhbətlərini qəfildən Elbirin çəngəl ilə araq şüşəsinə vuraraq yaratdığı cingilti dayandırdı. Əmiraslanov ayağa qalxıb ilk tostunu söylədi:

- Dostlar, əvvəla, xoş gəlmişik. İkincisi də, bizim əziz peşə bayramımızdır. Sözü çox uzatmayacam. İlk badələrimizi həmişəki kimi Vətənimizin təhlükəsizliyi uğrunda mübarizə aparan insanların sağlığına qaldıraq. Biz də daxil, hamısına can sağlığı arzulayaq.

Hamı ayağa qalxıb onlar üçün əlamətdar tarix olan günü qeyd etdi. Dostların kefi yerində idi. Bircə Nazim şəkər xəstəliyi üzündən bir balaca özünü yaxşı hiss etmirdi. Veteranlar artıq yaşlaşmışdılar, necə deyərlər altmışı haqlamışdılar. Yaşla bərabər bəzilərində sağlamlıq problemləri də baş qaldırmağa başlamışdı. Nazim Quliyev üçün pəhriz yeməkləri sifariş edilmişdi.

Akademiyanı bitirəli qırx il olmuşdu. Ona görə də dostlar bir-birlərinin nasazlığından xəbərdar idilər. Kimin nə imkanı var idisə, digərinə daima yardım əlini uzadırdı. Söhbətin şirin yerində Zeynalov piti suyuna lavaşı doğrayaraq Moskva hadisəsini hamının yadına saldı. O, ali məktəbi digərlərindən tez bitirmişdi. Dostlar polkovnikdən başına gəldiyi sərgüzəşti bir daha xatırlatmağa dəvət etdilər. Natiq Zeynalov boşqabını bir qədər kənara çəkib

dirsəklərini masaya dayadı və özünəməxsus şəkildə məzəli əhvalatı danışmağa başladı:

- Yadınızdadırmı, yeddi noyabr, yəni Oktyabr inqilabının altmış səkkizinci ildönümü qeyd olunurdu? O zaman bizləri Moskva metrostansiyalarında keşiş çəkmək üçün naryada göndərmişdilər. Fakultəmizin politotdeli Mişin də oradaydı...

Malik Mişinin adını eşitcək Natiqin sözünü kəsdi:

- Mişin! Straxovşik Mişin! Polkovnikimiz. Fakultə rəisi Ledomskini görəndə qorxudan qaçıb ayaqyolunda gizlənirdi. Hələ bir utanmadan adını da politotdel qoymuşdu...

Elbir "Ay Nurməmmədov, heç olmasa burada sakit dur, bizim polkovnikə hörmət qoy, sözünü kəsmə",- deyə Maliki sakitliyə dəvət etdi. Zeynalov hadisəni söyləməyə davam etdi:

- Hə, deməli, Mişin hamımıza konspirasiya qaydalarına ciddi riayət etməyi təkidlə aşılayardı. Mənim növbədə olduğum Mayakovski metrostansiyasına gəldikdə San Sanıçı milis nəfəri saxladı, yoxlamaq üçün.

Malik dözmədən yenə də Natiqin sözünü kəsdi:

- San Sanıç kimdi ə, Zeynalov?

- Sən, ay Nurməmmədov, illər keçdikcə Akademiya rəislərimizin adlarını da deyəsən, unudursan. San Sanıç da, yəni Aleksandr Aleksandroviç. Mişinin adı və soyadı. Xatırladın?

Bu dəfə nadir hallarda müzakirə aparan, lakin tutarlı cavablar verən polkovnik Məmmədov Həsən söhbətə qarışdı:

- Malik, bir daha Natiqin sözünü kəssən, sənə bir çappa arağı zorla içirdəcəm. Aydın oldu?

- Oldu, oldu, cənab polkovnik. Susuram...

Zeynalov hadisənin təfərruatına davam etdi:

- Deməli, milis nəfəri Mişini saxladıqda onun üstünü yoxlamağa başladı və şəxsiyyətini ayırd etmək üçün familiyasını soruşdu. San Sanıç da böyük konspirator idi axı. Guya soyadını milis nəfərinin qarşısında açıqlamaq istəmədi. Nə desə, yaxşıdı?

Elçin gülümsəyərək "o hadisəni xatırlayıram, Mişinin cavabını da bilirəm",- deyə qəşş elədi. Dostların hamısı gülməyə başladılar və Zeynalovdan cavab gözlədilər. Natiq söhbətini yekunlaşdırdı:

- Mişin milis nəfərinin sualına cavab olaraq cəmi bir hərifi dəyişdi və şəstlə "Mitin"dir mənim familiyam dedi. Bu da bizim konspirator.

Veteranlar gülməklərini saxlaya bilmirdilər. Polkovnik Nazim Quliyev isə uca səslə "yadınızdadır, bir dəfə Mişin "ey, ikiniz... üçünüz də yanıma gəlin" demişdi!?",- söyləyib məclisi bir az da şənləndirdi.

Xanlar Babanlı da fürsəti fövtə vermədən başqa məzəli hadisə danışdı:

- Paşa Nevzorovu xatırlayırsınız yəqin ki? Başdan bir az o söz idi axı,- deyə şəhadət barmağını gicgahına dayayıb sözünə davam etdi.- Xatırlayırsınızsa, Moskva dəmir yolu vağzallarının birində növbədə idik, Gənclər festivalı iştirakçılarının təhlükəsizliyini təmin edirdik. Milis nəfərləri ilə birgə diversant sandığımız vətəndaşı saxlamışdıq.

Özünü çox şübhəli aparırdı. Ətrafına düzülmüşdük, milis nəfəri qandalları biləyinə keçirirdi. Diversant sandığımız şəxs yerində sakit dayanmışdı, müqavimət göstərmirdi. Qəflətən hadisəni uzaqdan görən Nevzorov hadisə yerinə yüyürüb heç bir səbəb olmadan həmin vətəndaşa badalaq qurdu və yerə yıxdı. Təkbaşına onu zərərsizləşdirdi. Bizsə aciz halda kənarda durub Nevzorovun dəliqanlı hərəkətlərini izləyirdik, sanki hansısa dəli psixdispanserdən qaçıb insanların üzərinə atılırdı. İndi də gecə yatdığım yerdə bu hadisə yadıma düşdükcə xısın-xısın gülməyə başlayıram. Arvad elə bilir ki, yavaş-yavaş mənim də başıma hava gəlir.

Xanların söylədiyi hadisə məclisi daha da şənləndirdi. Dostlar gülüşür və xatırladıqları məzəli əhvalatlarla bölüşürdülər.

Bir müddət sonra Elçin çəngəli badəyə vuraraq hamını səssizliyə dəvət etdi. Dostlar onun üzündəki ciddiliyi görcək sakitliyə qərq oldular. Sanki növbəti tostun məzmununu duydular. Qaraxanov ayağa qalxdı və sözlərinə davam etdi:

- Gəlin rəhmətə getmiş və həlak olmuş qardaşlarımızı bir daha yad edək. Xüsusən də, birinci Qarabağ müharibəsi şəhidi, milli qəhrəmanımız Nadir Əliyevi. Maşallah, keçməkeşli günlərimiz bol oldu. Bu qısacıq həyatımızda çətin və şərəfli günlərdən keçdik. Deyirlər, tələbə yaxud sapoq, yəni əsgərlik dostları bir-birlərinə daima sadiq qalırlar. Bizlər həm tələbə, həm sapoq dostları olduq. Bir yerdə hərbi Akademiyada təhsil aldıq, cavan çağımızda mü-

haribədən başımız açılmadı. Müstəqil dövlətimizin qurulmasında yaxından iştirak etdik, bütün pislik və yaxşılıqları gördük...

Polkovnik Nurməmmədov yerində rahat otura bilmirdi. Elçin onun hərəkətlərini gözaltı müşahidə etməkdə idi və özü öz sözlərini kəsərək "de gəlsin Malik, yenə qaşınırsan, əlavən var?",- deyə ona söz verdi:

- Heç, Elçin, demək istəyirdim ki, həm iyirminci, həm də iyirmi birinci əsrdə yaşadıq. Davam edə bilərsən...

Hamı qınayıcı nəzərlərlə Malikin üzünə baxdı, polkovnik Elman Tağıyev isə "hənanın yeridir, üçüncü minilliyi unutdun",- söyləyib, "Elçin, qulağımız səndədir", - deyə əliylə Qaraxanova tostunu davam etmək işarəsini verdi. Elçin yarımçıq qalan tostunu bitirdi:

- Bir sözlə, rəhmətə gedən, lakin ruhları daima bizimlə olan qardaşlarımızın yeri cənət olsun.

Veteranların hamısı ayağı qalxdı və badələri bir-birinə vurmadan arağı içdilər. Məclisdə bir müddət kədər, qəm və məyyusluq hökm sürdü. Toplantıya şənliyi Fuad Quliyev qaytardı. Yeni tost demək üçün o, tamadadan icazə istədi. Amma bu dəfə polkovnik Məmmədov zarafatla ona irad tutdu:

- Yenə "brat, bratan, bratkalar" deyib bizləri çaşdırassan, ay Fuad. Yaxşısı budur tostlara fasilə verək, necə deyərlər, antrakt götürək. Siqaret çəkənlər var. Qoy, çıxsınlar koridora və arzularına nail olsunlar.

Bu sözlərdən sonra elə Məmmədovun özü qutudan siqaret çıxarıb cəmi iki nəfərlə birlikdə bayıra çıxdı. Çox

keçmədən veteranlar geriyə qayıtdılar və məclis yenidən davam etdi. Dostlar masa arxasında başlarına gələn macəraları xırdalayırdı. Bir İlqar Ramazanov kənarda qəm-qüssəli oturmuşdu. Vəziyyəti görən Zeynalov uca səslə "uşaqlar, deyəsən, İlqarın gəmisi batıb",- deyə sanki qurbağa gölünə daş atdı. Hamı diqqətini Ramazanova yönəltdi. Nazim Quliyev isə "Batar da! Bilmirsiniz ki, İlqar müəllim dinə üz tutub, namaz qılır? Sizsə, onun yanında badələr doldurursunuz",- söyləyib polkovnik Ramazanovu növbəti tosta dəvət etdi. İlqar ilk sözlərini Nazimə yönəltdi:

- Bir tərəfdən deyirsən, namaz qılıram, digər tərəfdən də tost deməm üçün söz verirsən. Lap məni məşədi İbada çevirdin e, Nazim... Amma zarafat edirəm, dostlar. Bilirsiniz ki, mən elə fanatik dindar deyiləm. Sadəcə imana gəlmişəm. Neyləmək olar, həyatı davam etmək üçün hər kəs bir əqidədən güc almalıdır.

Ramazanovun sözləri məclisi yenə də şənləndirdi və o, çıxışına davam etdi:

- Dediyim kimi, həyat davam edir, fəaliyyətlərimiz aktivdən passivə keçir, hərə özünü bir sahədə tapır. Artıq o qaynar vaxtlarımız geridə qalıb, indi daha sakit məşğuliyyətlərə üstünlük veririrk. Məsələn, mən iman əhli olmuşam, Qaraxanov isə ədəbiyyata baş vurub. Mən oruc tutub namaz qılıram, Elçin də bədii yaradıcılıqla məşğuldur. Qaraxanovun artıq üç kitabı çapdan çıxıb. Düzdür, son vaxtlar kitab oxuyanların nəsli demək olar ki, kəsilmək üzrədir, amma şəxsən mən inanıram ki, dostumuzun yazdıqla-

rı gələcəkdə övladlarımıza mütləq miras qalacaq. Və mən arzu edirəm ki, dostumuzun yazdığı o kitabların birində bizim yaşadıqlarımız da əbədiləşsin. Sonda isə bugünkü bayram münasibətiylə hamınızı təbrik edirəm. Hamımız gileyli təqaüdçülər olaraq bəzi şeylərdən narazı olsaq da, uğrunda döyüşdüyümüz amal qələbə çalıb. O vaxtdan fərqli olaraq müstəqilik, Qarabağ bizimdir, qələbəni öz gözümüzlə görməyi allah bizə nəsib edib. Bu günə şükür, dostlar! Gördüyünüz kimi, əlimdə badə əvəzinə mineral su var. Mən növbəmi Elçinə verirəm. Qoy öz planlarından danışsın, bizə xoş olar. Buyur, Elçin. Tost sənindir...

Qaraxanov kitab yazsa da, danışıq, oratorluq qabiliyyətinə o qədər də malik deyildi. Bununla əlaqədar o, dostlarına bir hadisəni söyləməyə başladı:

- Deməli, mənim veteran qardaşlarım, Sovet dövrü Naxçıvanın kəndlərinin birində kolxoz sədrini yeyintilərə yol verdiyi üçün vəzifəsindən alırlar. Partiya komitəsinin katibi həmin kəndə gəlir və yeni təyinat üçün namizəd axtarır. Elə bu zaman çoban qoyunları örüşdən gətirirmiş. Katib bir tərəfdən çobanın böyük qamətinə, enli kürəyinə, digər tərəfdənsə, qoyunların sağlam vəziyyətdə olduğuna, təmiz yununa baxıb həmin adamı yanına çağırır. Birinci katib çox əsəbi olur və həmən çobana kolxoz sədri vəzifəsini təklif edir. Çoban isə bir katibi, bir ətrafında toplaşan insanları nəzərdən keçirir və gülümsəyərək "yoldaş katib, arxamın yekəliyinə baxmayın e, məndən kolxoz sədri çıxmaz,- deyə cavab verir. İndi də, dostlar, kitab yazmağıma

baxmayın e, məndən orator çıxmaz. Amma çalışacam bir-iki kəlmə söyləyəm...

Elçinin söylədiyi əhvalat hamını güldürdü. Veteranlar əllərində badələr Qaraxanovun gələcək planları barədə fikirlərini maraqla gözləyirdi. Elçin tostuna davam etdi:

- Əvvəlcə onu deyim ki, Ramazanovun arzusu çin çıxıb, yenicə bitirdiyim dördüncü kitabım öz haqqımızdadır. Elə yaxşı oldu. Əlamətdar günümüzə töhvəm olsun. Kitabda yalnız DTK dövrünü əhatə etmişəm – Min doqquz yüz səksən yeddidən min doqquz yüz doxsan birə qədər. Dövlət təhlükəsizlik komitəsi terminini Milli təhlükəsizlik nazirliyi əvəzləyənədək. Orada hamınızın adını dəyişmişəm. Məncə, oxucu kimin kim olduğunu özü ayırd etməlidir...

Qaraxanov tostunu bitirmədən Elbir Əmiraslanov əsərdəki adı ilə maraqlandı. Elçinsə "sənin canlandırdığın qəhrəmanı Elcan Aslanovla əvəz etmişəm, Nurməmmədov Malikin adını isə tərsinə yazmışam" cavabını verdi. "Deməli mən Nurməmməd olmuşam",- deyə Malik Qaraxanovun fikirlərilə məzələndi. "Lap Mişin-Mitin məsələsinə döndü e, Elçin",- söyləyən Nurməmmədov güldü. Əmiraslanovn isə "xahiş edirəm, adımı heç nə ilə əvəzləməyəsən, Elçin" cavabını verdi. Qalan veteranlara da ad dəyişiklikləri maraqlı gəldi və hamısı bir ağızdan kitabdakı qəhrəmanlar üzərindən özlərini tapmağı üstün tutdular.

Məclis davam edirdi. Hərdən restoran müdiri şəxsən özü veteranlara baş çəkir və "qulluğunuzda daima hazı-

ram"- ifadəsini söyləyirdi. Hamı bilirdi ki, o, saxtakarlıq edir və mayor Elçin Cəfərov "nə olar, sən təklifini bildir, məclisin sonunda sənin səmimiliyini yoxlayarıq", - deyib söhbətinə davam etdi.

Hava yavaş-yavaş qaralırdı. Veteranlar çay içdikdən sonra söhbətlərini bitirib ayağa qalxdılar. Hamısının öz problemi var idi. Amma məclis onlara bütün çətinlikləri unutdururdu. Restoranın ümumi zalında Həsən Məmmədov ofisiantdan yeməklərin hesabını tələb etdi. Cavan qız nəsə demək istəyirdi ki, uzaqdan "qonağım olun" səsi gəldi. Restoranın müdiri hər cür özünü səmimi və qonaqpərvər göstərmək istəyirdi:

- Müəllimlər, qonağım olun. Ayıb deyil, sizdən pul götürəm. Siz mənim xüsusi qonağımsız...

Müdirin saxta sözləri bitmədən polkovnik Məmmədov "səndən ziyadə razıyıq",- deyib dostları çıxışa dəvət etdi. Veteranlar aralarında gülüşürdü. Natiq Zeynalov dodaqaltı "indi görün, nələr olacaq" söyləyib hadisənin davamını seyr edirdi. Restoran müdiri uca səslə "iki yüz doxsan manatdı, hesabınız, müəllimlər"-deyə arxadan səsləndi. "Qazan yeməkləri, kabab, şapalaq... hamısı bir yerdə iki yüz doxsan manat edir. Az qala çay yadımdan çıxmışdı".

Elçin Qaraxanov ağzını müdirin qulağına tərəf tutdu və iradını bildirdi:

- Bir dəfə görmüsən ki, biz sənin restoranında müftə çörək yeyək?

- Əstəğfurullah, müəllim. Heç elə şey olar?

- Bəs nə üçün özünü ucuzlaşdırıb qonağım olun, deyirsən?

- Elə-belə dedim da, müəllim. Adət eləmişik bu sözlərə.

- Boğazdan yuxarı vədlər vermə, özünə hörmət qoy.

Nəhayət dostlar restoranı tərk etdi. Uzaqdan qız ofisiantın "amma bu qocalarda yaman məzəli əhvalatlar varmış" sözləri veteranları bir az da güldürdü. Malik əlini əlinə vurub güldü: "qızın bir qulağı bizdə imiş e, dostlar, deyəsən, Mozambik agenti idi". Dostlar bu son replikaya da qəhqəhə çəkdikdən sonra sağollaşıb dağılışdılar.

***

Maşınla yolda gedərkən də Elbir Əmiraslanov və Elçin Qaraxanov şirin söhbətlərini davam edirdilər. Onlar keçmişin sehrli cazibəsinə elə dalmışdılar ki, ordan qətiyyən bu günə keçid edə bilmirdilər. Elbir Sarumyanı yadına saldı:

- Yadında, sənə deyirdim ki, Alik Sarumyan bizə lazım olacaq?

Elçin də həvəslə cavab verdi:

- Əlbəttə, yadımda, yaxşı ki, onu doxsanıncı illərdə təxribatçıların əlindən aldıq. Rusiyanın Krasnodar vilayətində xidmətinə davam edirdi. Orada yaşayan ermənilər barədə mühüm məlumatları bizə ötürürdü.

- Bunları kənara qoy, Elçin. Bizim xeyrimizə onun başqa nailiyyətləri də oldu...

Elbirin son sözlərindən maşının salonuna sakitçilik çökdü. Dostlar sanki yenidən o uzaq doxsanıncı illərə qa-

yıtdılar. Başqa nailiyyətlər ifadəsi Qaraxanovda dərin maraq doğurdu. O, Əmiraslanovun üzünə baxıb "de gəlsin, aşıq" deyə müsahibini həvəsləndirdi. Elbir ciddiləşdi və Alikin sərgüzəştləri barədə söhbətə başladı:

- Birinci Qarabağ müharibəsi bitər-bitməz erməni "saqqallıları" onlara işləyən əsgərimiz vasitəsilə bizim "osobisti" girov götürmüşdülər. Sənin xəbərin yox idi, onda səni rəhbərlik Naxçıvan şöbəsinə "sürgün" etmişdi".

- Demə, Elbir. Elə bir mühüm dövranda bizim Akademiyanı bitirənlərin əksəriyyəti Naxçıvana göndərilmişdi. Daha doğrusu, xidmət və hadisələrdən uzaqlaşdırılmışdı.

Qaraxanov kefinə soğan doğranılmış kimi kədərə qərq oldu. "Necə olur ki, elə bir prestijli Məktəbi bitirən erməni və gürcü müdavimləri yüksək vəzifələrə çəkildilər, biz bədbəxtləri isə pərən-pərən saldılar" fikirləri Elçinin beynini dəlib deşirdi. Elbirin sualı onu sanki yuxudan ayıltdı:

- Sən mənə qulaq asırsan, ya yox?

Qaraxanov diksindi, başındakı fikirləri qovurmuş kimi əlini yellədi və Elbiri dinləməyə hazır olduğunu bildirdi. "Deyəsən çox vurmusan", - deyə Əmiraslanov söhbətinə davam etdi:

- Deməli, girov düşmüş "osobisti" işgəncə və ölümdən qurtarmaq üçün Alik Sarumyandan bir başa Yerevana getməyi xahiş etdim. O da öz növbəsində Akademiyanı bitirən erməni müdavimləri vasitəsi ilə "osobist" barədə gizli məlumatları "Qırmızı xaç" cəmiyyətinə ötürdü. Sonrası isə məlumdur...

- Nə məlumdur, Elbir?

- “Qırmızı xaç” sağ olsun, ciddi fəaliyyətə başladı, yəni bütün aləmə səs-küy saldı və işgəncə ilə öldürülə biləcək zabitimizi daşnaklardan aldı.

- Sağ ol e, Alik...

- Bəs mən nə deyirəm. Yoxsa ki, o vaxtlar bizə irad tuturdular ki, nə üçün doxsanıncı ilin yanvar hadisələri zamanı Sarumyanı təxribatçıların əlindən qurtarıb dəniz limanından Dağıstana yola saldıq? Bax buna görə.

- Bir sözlə, işin getsin deyə, hərdən erməniyə də dayı demək lazımdır. Məncə atalarımızın sözüdür.

Söhbət bitməmiş Elbir Qaraxanovu evinə çatdırdı. Elçin maşından çox böyük həvəslə düşdü, sanki gənclikdəki cəldliyi, enerjisi və pozitivliyi geri qayıtmışdı. Ağlına yeni ideya gəlmişdi, artıq nəşrə hazırladığı kitabına yeni əlavələr etməliydi. Neçə vaxtdı, bitirdiyi kitabına axır ki, ürəyinəyatan bir sonluq tapmışdı. Bu gün. Bəli, bu gün və bu günün reallığı olmalıydı sonluq.

Nə olsun ki, gənclik arxada qalıb, nə olsun o və dostları artıq təqaüddədirlər. Bu günün vəzifəsi həm də tarixi yaşatmaq deyilmi?! Bunun üçün onların yaddaşı tarixin qızıl fondu sayılmazmı?!

Demək ki, Qaraxanovun missiyası hələ bitməyib, ölkəmizin o önəmli dövrünü, özünün və dostlarının danılmaz fəaliyyətini, həyatda olmayanların əziz xatirəsini- bir sözlə yaddaşındakı o şərəfli ömrü yazıb gələcək nəsillərə ötürmək.

Bu missiya Elçinin ürəyindəki illər öncəki alovu yenidən qaladı, ürəyini neçə vaxtdı, həsrətini çəkdiyi o hiss ye-

nidən bürüdü; insanlara, dünyaya lazım olmaq, nə qədər ki, həyat bitməyib, heç kimin vəzifəsi bitmir. Həyat davam edir, hər kəs öz cəbhəsində ölənə qədər vuruşur, nə vaxtsa silahla, nə vaxtsa sözlə, kitabla.

Elçin mənzilin qapısını açarla açıb "Hələ varıq, olacağıq, artacağıq" –sözlərini mahnı kimi zümzümə edə-edə masanın üstündəki bilgisayarına yaxınlaşdı.

## İçindəkilər:

**MÜƏLLİFDƏN** ........ 3

**I FƏSİL**
MOSKVA – sentyabr, 1987-ci İL ........ 5

**II FƏSİL**
NAXÇIVANDA TƏTİL ........ 46

**III FƏSİL**
HADİSƏLƏRİ İZLƏMƏKDƏ DAVAM EDİN ........ 69

**IV FƏSİL**
BAKI VƏ YEREVAN ........ 81

**V FƏSİL**
ƏLVİDA, MOSKVA ........ 101

**VI FƏSİL**
AZADLIQ MEYDANI ........ 122

**VII FƏSİL**
VƏZIYYƏT GƏRGINLƏŞMƏKDƏDIR ........ 161

**VIII FƏSİL**
BƏLANIN EŞİYİNDƏ ........ 197

**IX FƏSİL**
İYİRMİ YANVARA DOĞRU ........ 231

**X FƏSİL**
DÜŞMƏN PUSQUDA ........ 298

**XI FƏSİL**
ARTAŞATDA DOLMA MƏSƏLƏSİ ........ 368

**XII FƏSİL**
DAĞLARDA DÖYÜŞ VƏ YA SAPI ÖZÜMÜZDƏN
OLAN BALTALAR ........................................................................ 413

**XIII FƏSİL**
DTK-DAN MTN-Ə ........................................................................ 483

**EPİLOQ**
SAKİT ÜFÜQLƏR VƏ YA HƏYAT DAVAM EDİR .......................... 531



Yalçın Nəsib oğlu Nəbiyev 1961-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. Uzun müddət Təhlükəsizlik xidmətinin müxtəlif strukturlarında çalışmışdır. 1-ci Qarabağ Müharibəsinin veteranıdır. “Восхождение”, “Çuxurnamə”,“O dünya” və “Bir zamanlar DTK” əsərlərinin müəllifidir.

Kəsərli təhlükəsizlik xidməti olmayan dövləti nə möhtəşəm ordusu, polisi, nə də ki, müxtəlif güc strukturları xilas edə bilər...

"Elm və təhsil" nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**

**Dizayner:** Zahid Məmmədov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 02.06.2025
Şərti çap vərəqi 34,5. Sifariş № 258
Kağız formatı 60x84 1/16. Tiraj 500

---

**Kitab "Elm və təhsil"** nəşriyyat-poliqrafiya müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4